**Soylu Atalı**

# İNSANLIĞIN İNAM YOLU

**«Elm və təhsil»**
**Bakı – 2013**





***Nəşrə hazırlayanlar:***
**Göylü və Nurtəkin Atalılar**

**Soylu Atalı**
**İnsanlığın İnam Yolu. (Araşdırmalar, Haraylar, İzharlar)**
**Bakı, «Elm və təhsil», 2013, 380 səh.**

Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağının Yükümlüsü, ruhaniyyatçı, görkəmli publisist Soylu Atalının bu üçüncü kitabı, onun insan, millət, vətən sevgisini əks etdirən əsərlərindən ibarətdir. Soylu Atalının kəskin mövqeyi, araşdırmaları, harayları Asif Atanın Dünyabaxışını yaymaq baxımından mühüm rol oynamışdır. Bununla Azərbaycan ictimai fikrində Soylu Atalı öz imzasını təsdiq etmişdir. Kitab geniş oxucu kütləsinə təqdim olunur.

$\frac{4702000000}{N098 \quad 2013}$ qrifli nəşr

**© «Elm və təhsil», 2013**

**Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim**
**Asif Ataya – İnam Ataya**
**ali səcdə ilə sözümə başlayıram!**





## ÖN SÖZ YERİNƏ

Ürəyinizdə Günəş olsun, sayğılı oxucular.

"İnsanlığın İnam Yolu" – sizə təqdim elədiyim üçüncü kitabımdır. Bu kitablar mənim ömür yolum, mübarizə yolumdur. Ömrümün, mübarizə ruhumun təməlində Asif Atanın ideyaları dayanır. Milli, insani, bəşəri məzmunla dolan, dolğunlaşan bu ideyalar olmasaydı, nə mən Soylu olardım, nə də kitab yazmağa özümdə cəsarət tapardım. Mən Asif Atanı demək, göstərmək üçün yarandım. Asif Atadan öncəkiləri (ideya yaradıcılarını) deyənləri, göstərənləri sevdim, inadlarına doğmalaşdım, yanlışlarından uzaqlaşdım. Peyğəmbərləri onların davamçıları yaşatdılar, amma həm də uydurdular. Mən Asif Atanı uydurmadım, uydurmayacam. Buna Asif Atanın ehtiyacı yoxdur (doğrusu, heç mənim də ehtiyacım yoxdur). Onun Dünyabaxışı, ideyaları bütövdür, ziddiyyətsizdir, nağılsızdır, xurafatsızdır. Sadəcə onu necə var, elə də vermək gücü tələb olunur. Böyük Təfəkkür, böyük ideya bir insan qəlbində, sevgisində yaşaya, haraylana bilər. Ancaq onunla məhdudlaşa, onda tükənə bilməz. Bu səbəbdən də mən Asif Atanı gücüm çatan qədər deyirəm, bacardığım qədər verirəm. Bu Dünyabaxışı hələ çox Soylular öyrənəcək, deyəcək. Biz ilkinlərik, davamlar çox olacaq. Asif Ata türk milləti üçün təfəkkür meydanıdır. Bəhrələnmək, özünü qurmaq və sabaha doğru yol getmək imkanıdır...

Kitab üç hissədən ("Qovluq"dan) ibarətdir. Birinci hissədə Asif Ata Amalı ilə bağlı məqamlar onun öz Ölçüsüylə izah olunur. Atanın ömrü, işi və ideyaları Evlad diliylə bu və ya başqa şəkildə vurğulanır.

İkinci hissədə ədəbiyyat vasitəsilə Atanın ideyalarına üz tutulur. Ata işinin Qədimliklə doğmalığını tanıtmağa cəhd edilir.

Üçüncü hissədə isə Yurdumuzda və Dünyada olan ictimai, siyasi gedişat Mütləqə İnam meyarı ilə təhlil edilir, dəyərləndirilir. Habelə ideoloji axtarışlar diqqətlərə sunulur.

Hesab edirik ki, bu kitab milli, insani yöndən düşünən insanlara söz deyəcək və yardımçı olacaqdır.

***Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!***
***Atamız var olsun!***

**_Soylu Atalı_**
*10 Köçəri Ayı, 33-il.*
*Atakənd.*
*(fevral, 2012, Bakı)*

**ASİF ATA AMALI**
**yaxud**
**İNSANLIĞIN İNAMI**

*(Yeni Dünyabaxış və onun yaradıcısı haqqında yığcam ruhani bilgi)*

Ürəyinizdə Günəş olsun, sayğılı sabahdaşlarımız!

Düz 32 ildir "Türkün Ruhaniyyat Ocağı", "Asif Atanın Mütləqə İnam Ocağı", "İnsanilik Erası" və b. kimi anlayışlarımızı eşidirsiniz, bu Ocağın Yaradıcısının, Davamçılarının çalışmalarını izləyir, fikir və düşüncələrini əks etdirən ədəbiyyatlarını oxuyursunuz. Cəmiyyətdə Ocağa, onun yaradıcısının şəxsiyyətinə fərqli münasibətlər var. Bu fərqli münasibət göstərənlər içərisində rəğbət bəsləyənlər də var, dananlar da. Hətta niftrət edənlər belə yox deyil. Əlbəttə, münasibətlərin doğruluğu və buradan da irəli gələn rəğbət yönü bizi sevindirir, yanlışlığı narahat edir. Ancaq münasibətin istənilən tərəfi – istər sayğılı münasibət olsun, istər sayğısız, bizi çaşdırmır. Çünki bu Yolu biz dərk eləyərək, inanaraq, sevərək gedirik. Yolun tələbinə uyğun olaraq özümüzü içəridən qururuq, yaradırıq. Həm də Yolu yaradırıq, yəni xalqımıza göstəririk, veririk. Ancaq Yol xalqa kənardan gəlmir, onun mahiyyətindən başlayır. "Biz özümüzü qururuq" məntiqi də əslində xalqın mahiyyətinə qovuşuruq deməkdir. Bu Yolda biz tarixin bəlli sınaqlarından keçməli oluruq. Yəni Yeni Yarananın, Yeniliyin xalqa qəbul etdirilməsinin çətinliklərini yaşayırıq. Xalqın içində gözə görünən və görünməyən direnişlərlə üz-üzə gəlirik. Bu direniş əslində xalqın içində özünə, özümlüyünə zidd olan daşlaşmış Özgəliklərin təsirləridir. Xalqımıza mənəvi-ruhani yaxınlaşmağımızın yolunda Yadlıqlar dayanır. Bu Yadlıqları aradan qaldırmaq çox böyük vaxt tələb eləyir. Bu Böyük Vaxt Böyük Ruhani Səbrin və Böyük Ruhani İnadın vəhdəti ilə yüklənməlidir. Böyük aşırımlar aşmaq, böyük çətinliklər keçmək Dönməz Talelərin işidir. Biz üzümüzü bu yönə tutmuşuq.





İndi sizə Yeni Dünyabaxışın yaradıcısı və ideyaları haqqında bilgi vermək istəyirik. Yuxarıda vurğuladığımız fərqli münasibətlərin mahiyyəti bu bilgini əldə edəndən sonra üzə çıxa bilər. Əslində bu bilgini Asif Ata adına, Onun işinə bələd olan hər kəs az və ya çox mənada əldə edibdir. Ancaq sistemli və yığcam bir təqdimatla təsəvvürləri müəyyənləşdirmək, dəqiqləşdirmək istəyirik. Burada biz ilk tanış olanların içində yarana biləcək suallara qısa və konkret cavablar verməyə çalışacağıq. Odur ki, öncə Asif Ata kimliyi, şəxsiyyəti haqqında bəhs edək: Asif Ata (Əfəndiyev Asif Qasım oğlu) 25 sentyabr 1935-ci ildə keçmiş Qazax mahalının Çaykənd kəndində doğulmuşdur. Hər iki valideyni müəllim, babası və ulu babası isə dindar olub. İlk təhsilini Çaykənddə alıb, orta təhsilini Gəncədə davam etdirib, yuxarı sinifləri isə Ağstafada başa çatdırmışdır. Bir il sonra M.Qorki adına Moskva Ədəbiyyat İnstitutuna daxil olur və 1957-ci ildə oranı fərqlənmə diplomu ilə bitirir. Moskvada təhsil alarkən onun elmi kitabxanalarından ciddi istifadə edərək özünütəhsillə məşğul olmuşdur. Dünyanı qədim dövrdən yaşadığımız dövrə qədər əsaslı şəkildə öyrənmişdir. Fəlsəfəni, ədəbiyyatı, tarixi, musiqini, dini və dinin tarixini, mifologiyanı öyrənib təhlil etmiş və özü üçün mühüm nəticələr çıxarmışdır. Asif Əfəndiyev belə qənaətə gəlmişdir ki, bəşəriyyətin tarixi boyu insana olan münasibət onu dərk etmək üçün yetərli olmamışdır. Eləcə də Azərbaycanın (böyük dəyərlər yaratdığı halda) tarixdə yerinin görünməməsi. Bu dəyərlər də bilərəkdən onun-bunun adına çıxılmışdır. Məsələn, bəşəriyyətin ilk peyğəmbəri Zərdüştün farslara aid edilməsi. Babəkin müsəlmanlaşdırılaraq, kürd kökənli olduğunun ortaya atılması və s. Habelə dünya tarixində Şərq dəyərlərinin inkarı, türk millətinə qarşı qısqanc, yad münasibətlərin sərgilənməsi kimi məsələlər Asif Əfəndiyevin diqqətini özünə cəlb etmişdir.

İnsan probleminə maraq göstərdikcə Asif Əfəndiyev öz üzərində ciddi iş aparmış və yetkin şəxsiyyətini formalaşdırmışdır. O, Moskvada təhsilini başa vurduqdan (1957) sonra bu qərara gəlmişdir ki, nəsə yeni bir şey lazımdır. Mövcud ideyalar, dünyabaxışlar, doktrinalar insanı xilas eləmək iqtidarında deyil. Ancaq bu Yeni olan da birdən-birə başlamır. İstək hələ ideya deyil, Yol deyil. Böyük Amal Yolu başlamaq asan bir şey deyil. Gərək ideya yaransın və doğulsun. Bunun üçün gərək şəxsiyyət yaransın və yenidən doğulsun. Çətin günlər, təhlükəli illər gözləyir qarşıda gənc Asif Əfəndiyevi. Ancaq alovlu ürəyi, qətiyyətli inadı onun düşüncələrini istəklərinə doğru çəkib aparırdı.

Bakıya qayıtdığında ilk fəaliyyətə ədəbi tənqidlə başlamış, qısa müddətdən sonra diqqətləri özünə cəlb etmişdir. Sovet ədəbi tənqidinin ictimai həyata yaramadığını, insana çatmadığını elan etmişdir. Türkiyənin Ankara radiosunda Asif Əfəndiyevin etirazlar dolu fikirləri ilə bağlı şərhlər efirə buraxılmışdır. Beləliklə, o, kommunizm ideolojisi üçün arzuolunmaz şəxs kimi qəbul edilmişdir. Dövlət Təhlükəsizlik Komitəsinin nəzarətinə düşmüş, hər addımı izlənilməyə başlamışdır. Valideynlərini, qohumlarını ona qarşı qaldırmaq üçün müxtəlif vasitələrə əl atılmışdır. İlk çağlarda "Asif Əfəndiyevi öldürmüşlər, meyidi körpünün altından tapılmışdır", yaxud "Onu qətlə yetirmişlər, meyidi morqdadır, tibbi araşdırma aparılır" və b.k. yalan məlumatlarla valideynlərini aldadırdılar. Onlar da həyəcanlar içində rayondan Bakıya gəlirdilər. Məlumatın yalan olduğunu görüncə çaşırdılar. Bu cür vəziyyət bir neçə dəfə təkrar olduqdan sonra valideynləri ona təsir etməyə başlamışlar: "Yığış gəl kəndə, məktəbə düzəldək, dərs de, ailə qur, dilini dinc saxla, başını qoru". Əlbəttə, bütün bunlar hər bir valideynin öz övladıyla bağlı bəlli narahatlıqlarıdır. Hər bir valideyn öz övladının böyük olmasını istəyər, ancaq boyunduruqda, quruluşun qəlibində – vəzifə böyüyü, rütbə böyüyü, karyera böyüyü. "Yuxarılara nökər ol, onlar da səni şöhrətə mindirsinlər. Çaşıb Nəsimi kimi böyük olmayasan, dərini soyarlar; Babək kimi böyük olmayasan, sümük-sümük doğrayarlar. Bu gün Nəsimi kimi böyüklük adama şöhrət gətirmir, pul gətirmir. Belə böyüyə vəzifə vermirlər, onu qəbul eləmirlər. Sabahı isə oturub gözləyə bilmərik, bilinmir sabah nə baş verəcək?!"

Bəli, dahilik başladığı andan onun gerçək fəlakətləri başlayır, tənhalığı başlayır. Heç kim onu anlamır, anlamaq istəmir. Anlayanda isə dahi həyatda olmur, həyatdakılar dahi ilə birlikdə olmur. Asif Əfəndiyev bu çətin taleyi gözünün altına alır. Təbii ki, içi həqiqət eşqi ilə dolan birisini şirin vədlər, heç bir çətinlik Yolundan döndərə bilməz. Ancaq həm də istəklərini gerçəkləşdirmək üçün vasitə lazımdır, üslub lazımdır, vaxt lazımdır. Şər sarmaşıq kimi həyata sarılıb, hər yerdə sabaha gedən yolları bağlayır. Deməli, belə bir məqamda yeganə yol şəri aldatmaqdır. Bir müddət susmaq, Sosializm Realizmindən müdafiə edib alimlik dərəcəsi almaq, partiyaya keçmək, işə düzəlmək. Bununla da vaxt qazanıb auditoriya əldə eləmək. Bütün bunları eləmək həqiqətçi üçün nə qədər çətindir. Ancaq təəssüf ki, başqa yol da yox idi.





Asif Əfəndiyevin ayrı-ayrı iş yerləri olub. Uzun illər Qərb ədəbiyyatından, estetikadan dərs deyib. Onun mühazirələri qeyri-adi bir səviyyədə keçirdi. Onu dinləmək üçün hər yerdən adamlar gəlirdilər. Bu cür maraq artandan sonra işlədiyi Azərbaycan Dövlət Universitetinin nəzdində "Etik və Estetik Tərbiyə Klubu" yaradır. Burada fikirlərini deməyə başlayır. Universitetin o dövrkü rəhbərliyi duyuq düşür. Başa düşürlər ki, Asif Əfəndiyev öz əvvəlki fikirlərindən əl çəkməyib. Çağırıb xəbərdarlıq edirlər: "axı bizim də balalarımız var, niyə imkan vermirsən başımızı saxlayaq? Klubu bağla. Yoxsa işdən atılacaqsan, tutulacaqsan". Onu inadından döndərə bilməyəndə başqa vasitələrə əl atırlar – səs qaldırıcının səsini kəsirlər, işıqları söndürürlər və s. Heyrət içində axışıb gələn insanların əllərində şam, çıraq görüncə çaşırdı universitetin rəhbərliyi. Görüşlər axşam saatlarına qədər davam elədiyinə görə iştirakçılar qabaqcadan özləri ilə şam, çıraq gətirirdilər. Zalda oturmağa yer qalmadığına görə özləri ilə stul gətirənlər də var idi. Bir xalqın içində yüz illərdir susdurulmuş həqiqət danışırdı. Şər buna imkan vermir, zalın təmir olunacağı bəhanəsiylə Klubu bağlatdırır. Asif Əfəndiyevi Dövlət Təhlükəsizlik Komitəsinə çağırırlar. Dindirirlər, mənəvi-psixoloji təsir göstərirlər, işdən çıxarırlar. Eləcə də onunla əlaqə saxlayan bir sıra adamları təqib edirlər, hədələyirlər, qorxudurlar. Əlbəttə, ürəklərdə həqiqətə qarşı həsrətlə yanaşı yüksək idrakilik və cəsarət də gərək idi. Ancaq şər öz zoru ilə bunun yaranmasının qarşısını almışdır.

Klub bağlandıqdan sonra 1979-cu il martın 1-də Asif Əfəndiyev Klubu "Ocaq" elan etməli olur. Onun az sayda qalan tərəfdarları isə Klubun sədrini Ocaq Atası kimi qəbul edirlər. Belə qərara gəlirlər ki, Ocaq ruhani hadisədir, ruhaniyyatın isə sədri olmaz, Atası olar. Beləliklə, Asif Əfəndiyev Asif Ata çağırılır.

Burada bir haşiyə çıxmaq yerinə düşərdi. Bəzən bizə sual verirlər ki, nə üçün o vaxt Dövlət Təhlükəsizlik Komitəsi Asif Əfəndiyevi ortadan götürməyib? – Burada biz özümüz iki səbəb görürük: Birinci, Asif Əfəndiyev qısa müddətdə həm SSRİ miqyasında, həm də xaricdə tanındı. Söz yox ki, burada Ankara radiosunun elanı da rol oynadı. Heç təsadüfi deyil ki, DTK Asif Əfəndiyevi aşağıdakı adlarla damğalamışdı:

Antimarksist, antikommunist, antisosialist, pantürkist, klerikalist, faşist.

O, marksizmi maddiyyatçılıq şəri adlandırırdı. Onun Ruhani Dövlət ideyası var. Deyir ki, Dövlət ruhaniləşməlidir. Sovet şərçiləri isə hesab

edirlər ki, bu ideya faşistlərdən gəlir. (Bu ideyalar haqqında bir az sonra bəhs edəcəyik). İkinci səbəb odur ki, Asif Əfəndiyevin nəsli – Əfəndiyevlər böyük nəsildir. O vaxt yüksək vəzifədə işləyənləri çox idi. O cümlədən qardaşı Rasim Əfəndiyev də dövlət strukturlarında vəzifə daşıyırdı. Asif Əfəndiyev ortadan götürülsəydi, üstü açılacaqdı. Əlbəttə, belə bir cinayətin baş verməsi Sovet İmperiyasının nüfuzuna xələl gətirəcəkdi.

Asif Ata özü deyirdi ki, o damğaların təkcə birinə görə adamı beş dəfə asardılar. Təbiidir, çünki o damğaların yapışdırıldığı şəxs(lər) aşkarlandıqca, yayıldıqca hakim ideologiyaya qarşı daha böyük təhlükəyə çevrilir. Yuxuya verilmiş toplumun ağlını zəncirdən aça bilir. Elə buna görə də Asif Atanı fiziki olaraq məhv edə bilməyən totalitarizmin nökərləri onu mənəvi-psixoloji sarsıtmağı qarşılarına məqsəd qoymuşdular. Asif Ataya qarşı ardıcıl gözdənsalma, yamanlama, böhtanlama əməlləri həyata keçirilmişdir. Özünün dediyi kimi, haqqında “adamyeyən” sözündən başqa hər şeyi dedilər.

## Atalığın başlaması və yeni gərginliklər

Asif Ata Ocağı elan edəndən sonra gizli fəaliyyət göstərir. İlk ardıcılları ilə üz-üzə oturanda sözünü yazılı şəkildə bildirirdi. Həm də istəmirdi ki, onunla əlaqə saxlayanlar təqib olunsunlar. Qoruyurdu onları. Buna baxmayaraq, DTK onun özünə rahatlıq və sərbəstlik vermirdi. Aparmalar, gətirmələr, dindirmələr, usandırıcı gözlətmələr ara vermirdi. Bir tərəfdən də qohumları Asif Atanı təngə gətirirdilər: “Sənə görə bizi sıxışdırırlar, incidirlər, işimizə mane olurlar; “qabağa” gedə bilmirik, “yuxarı” qalxa bilmirik və i.a. Asif Ata onlara deyirdi ki, məni qohumluqdan silin və gedin dolanın.

Bildiririk ki, bu vaxta qədər Asif Atanın heç bir qohumu onun İşi, Yolu ilə nə maraqlanıb, nə yaxın gəlib.

Asif Ata təzə-təzə dərs dediyi cavan vaxtlarında tələbə olmuş bir qızla (Hüseynova Rəisə) evlənib ailə qurmuşdu. Bir oğlu da vardı. Ailəsi ilə birlikdə Yasamaldakı evində yaşayırdı. Dövlət Təhlükəsizlik Komitəsi ailəsinə təzyiq göstərmiş və qadınını ona qarşı çevirmişdir. Qadını Asif Atanın qarşısında şərt qoymuşdur – ya ailə, ya da əqidə. 1982-ci ildə belə bir şərt qarşılığında Asif Ata əqidəni seçmişdir və paltarını götürüb evdən çıxmışdır. Uzun müddət kirayələrdə yaşamış,





çətinliklərlə üz-üzə gəlmişdir. İşsizlik və evsizlik dözülməz şərtlər qoyur Atanın qarşısında. Ancaq sınmır. “Ən çətin günlərim idi, ancaq fərəhli idim. Çünki ömrüm sevdiklərimin ömrünə bənzəyirdi” deyirdi.

Nə olsa da, SSRİ özünün ən ibtidai qanunlarına əməl etmək zorunda idi. Yazıçılar İttifaqının üzvü olduğuna görə Asif Ata Akademiyanın Memarlıq və İncəsənət İnstitutunda elmi işçi kimi işə düzəlmiş və növbəyə durmaqla birotaqlı mənzil əldə edə bilmişdi. Bu ev Nəsimi rayon İcra Aparatına yaxın bir yerdə idi – S.Vurğun küçəsi – 116.

Bu çətin məqamlarda Asif Ata Ocağının qaydalarını, biçimini yaratmış, ideyalarını dərin və əsaslı şəkildə işləyib kitablarını yazmışdır.

Bütün bu çətinliklərin içərisində başqa bir cəhət də vardı. Asif Ata sevmədiyi bəzi işləri etməli olub. Yuxarıda vurğuladığımız kimi, elmi diplom almaq. Əlbəttə, məsələyə bugünün gözüylə baxdıqda, o addımı atmamaq asan görünə bilər. Əgər Asif Ata sırf elmi, fəlsəfi yaradıcılıqla məşğul olsaydı, o, açıq iş görməyə bilərdi. Yaradıcılığını üzə çıxartmayıb “sandıq ədəbiyyatı” yaradardı. Heç kim də onu sıxışdırıb incitməzdi. Ancaq qlobal ictimai dəyişiklik eləmək fikrinə düşəsən və dörd divarın arasına çəkiləsən, – bu mümkün deyil. Öz ideyalarını gerçəkləşdirmək üçün Qurum yaratmalı idi. Qurum isə müəyyən qüvvələrdən təşkil olunur. Ona görə də şərin diqqətini yenidən özünə cəlb eləmək (Asif Atanın) İşinin biryolluq dayanmasına gətirib çıxara bilərdi. Vaxt əldə eləmək üçün müəyyən xətt yürütmək lazım idi. Məhz buna görədir ki, bu kimi məsələlərdə gözləmə üsulunu seçib...

Partiyadan rəsmi şəkildə 1990-cı il, yanvarın 20-də baş verən qanlı olaylardan dərhal sonra imtina elədi. 1991-ci ildə isə elmi diplomlarından yazılı olaraq imtina elədi. Asif Atanın fikrinə görə filosofluq diplomla ölçülmür. Əslində elmi diplomlar əzbərçi mənsəbpərəstləri hakimiyyətin ətrafına bağlamaq üçün bir vasitədir.

## Asif Ata Amalı

Asif Ata Dünyanın dəyərlərini öyrənəndən sonra onun düşüncələrində qəti bir tələb baş qaldırmışdı – İnsanı xilas eləmək. İnsan xilas olmayınca, dünya qaranlıqdan çıxa bilməyəcək. O bu fikrə gəlmişdir ki, özünə qədərki təlimlərin heç biri İnsanla ciddi məşğul olmamışdır. Ona görə də İnsana münasibəti İnam səviyyəsinə qaldırmaq və onun əbədi Harayını çəkmək lazımdır. Asif Ata vurğulayır ki, bütün problemlərin -

törədicisi də insandır, həll eləyəni də. Bu səbəbdən də Adam İnsanlaşmalıdır, cəmiyyət İnsaniləşməlidir, Bəşər İnsanilik ləyaqətinə tapınmalıdır. ***"İnsanlaşın, İnsanlaşdırın. Bəşərin Nicatı İnsanlaşmaqdadır"*** – Onun başı üzərinə qaldırdığı İnam Bayrağının məzmunu bu çağırışdan ibarətdir.

Burada yenidən bir haşiyə çıxaq. Mütləqə İnam Bayrağı cəmiyyətdə belə bir sual doğurur: Bayraqda niyə Asif Atanın şəkli əks olunub? Bu sualın cavabını İdeyanın özündə tapmaq mümkündür. Asif Atanın Dünyabaxışı İnsanilik İnamıdır. Bayraq İnsana İnam Bayrağıdır. İnsan da mücərrəd – transsendental, fövqəltəbii varlıq deyil. Daşıdığı, yaşatdığı Məna yükü ilə bərabər gerçək varlıqdır. İnsana inam yox yerdən yaradılmır. İnsan üzdə görünən deyil, onun mahiyyəti dərindədir. İnsanda İnsanilik imkanı aşkarlandıqca, gerçək münasibətlərin gözəllikləri də üzə çıxır. Bu münasibətlər həyata əsillik gətirir. Ali həyatın ülviyyətini İnsan gerçəkləşdirir. Dünyanı İnsan mənalandırır. Yəni Varlığı dərk eləmək mənalı yaşamağın sirrini açır, dünyaya müqəddəs ahəng gətirir.

Bəşər tarixində xalqların quşlara, ayrı-ayrı heyvanlara pərəstiş elədiklərini bilirik. Biz heyvan şəklinin bayrağa vurulub insanın başı üzərinə qaldırılmasında ləyaqət görmürük. Biz bunun təbiətə sevgidən deyil, insana inamsızlıqdan irəli gəldiyini düşünürük.

Heyvan ali varlıq deyil, İnsan ali varlıqdır. Başqa bir tərəfdən insan təbiəti nə qədər sevsə də, heyvana pərəstiş eləməkdə müqəddəslik yoxdur. Söz yox ki, heyvana qarşı humanist münasibət, insani davranmaq insanın borcudur. Ancaq bu cür münasibət pərəstiş eləməklə eyni məna daşımır.

Bəli, dövrün, cəmiyyətin insanı aşağıladığı bir vaxtda Asif Ata İnsana İnam Bayrağını başı üzərinə qaldırdı. Bayraq Kamil İnsan surətini əks etdirir. Bizim üçün Asif Ata Kamil İnsandır. Həm də o, İnamın yaradıcısı, Peyğəmbəridir.

Elə burada "peyğəmbər" sözünə də aydınlıq gətirmək istəyərdik. Təbii olaraq çoxlarını belə bir sual düşündürür: nə üçün Asif Atanı peyğəmbər adlandırırıq? Hətta belə düşünənlər də var ki, yəqin Asif Atanı ölümündən sonra biz peyğəmbər adlandırmışıq. "Əgər siz Asif Ataya peyğəmbər deməsəniz, cəmiyyət sizi sürətlə qəbul edər" deyənlər də az deyil. Yenilik, məzmunundan asılı olmayaraq, həmişə yarandığı gündən suallar yağışına tutulur. Bəri başdan deməliyik ki, biz Asif Atanı





hansısa şəxsi keyfiyyətlərinə görə peyğəmbər elan etməmişik. O, "İnam" yaratdığı üçün özünə peyğəmbər deyib. Əlbəttə, Allahın elçisi mənasında yox. Topluma Allahın sözünü deyil, öz sözünü çatdırır. Əslində "Ata" sözü "peyğəmbər" sözündən ilkindir və məzmunludur. Söz yox ki, burada "Ata" sözü Ruhani Atalıq mənasında qəbul edilir. Toplum bilməlidir ki, Atalıq peyğəmbərliyin əvəzi kimi ortaya çıxıb. "Həm o var, həm də bu var" kimi yanlış təsəvvür formalaşmasın deyə, Asif Ata "peyğəmbər" sözünü özünə şamil edib. Yəni İnam Dinin əvəzinə gəlib, Atalıq Peyğəmbərliyin. Sözsüz ki, "peyğəmbər" sözü gələcəkdə işlədilməyəcək, "Ata" sözü "peyğəmbər" sözünün əvəzi kimi qalacaq. Elə məsələlər var ki, mərhələ-mərhələ həllini tapır. Bu gün biz "peyğəmbər" sözündən imtina edə bilmərik. Türk xalqına Ruhaniyyat Ocağı veririk. Bunun üçün ərəb Ruhaniyyatını (dinini) qırağa qoymaq lazımdır. Ərəblər onlardan sonra ruhaniyyatın yaranmayacağına, yeni peyğəmbərin olmayacağına möhür vura bilməzlər. Türk üçün "7-ci yüzil ərəb düşüncəsi" Yol ola bilmədi, bundan sonra da ola bilməyəcək. Türkün öz İnamı yaranıb, öz peyğəmbəri – Atası var. Ərəblərin "Allah – Bəndə" ideyası türk Mütləqçiliyindən, İnsançılığından çox aşağıdır.

Asif Ata deyir: "Din İnamla əvəz olunmalıdır; Siyasət Həqiqətlə əvəz olunmalıdır; Maddiyyatçılıq Ruhaniyyatçılıqla əvəz olunmalıdır". Bunlar Asif Atanın qlobal ruhani hədəfləridir. ***"Din İnamla əvəz olunmalıdır,*** – yəni Allaha münasibətdə yalan olmamalıdır; Dünyaya münasibətdə yalan olmamalıdır; İnsana münasibətdə yalan olmamalıdır.

Dində Allah dünyanın mahiyyəti kimi dərk olunmur, Dünyanın bənnası və ağası kimi qəbul olunur. Bununla da Allah Mütləqiliyini itirir, fantastik təsəvvürlərin əks-sədası səviyyəsinə enir. Allah hökmdarlaşır, köməkçilərinin, insanın başı üzərində (çiyinlərində) nəzarətçilərinin olduğu bildirilir. Allah vədlər verir, qorxudur və s.

Mütləq – Dünyanın Əzəli, Əbədi, Kamil, Sonsuz Dünyalıq mahiyyətidir. O, Dünyanı yaratmır, idarə eləmir. Dünya, Dünyadakılar Mütləqdən yaranır. "Yaradır" və "yaranır" fərqli məna daşıyan anlayışlardır.

Eləcə də Həyat, eləcə də İnsan. Həyat Həyatlıqdan yaranır, İnsan İnsanlıqdan. Bu mövzunu növbəti fəsildə inkişaf etdirəcəyik.

Hələlik "Din" və "İnam" sözlərinə aydınlıq gətirək. Bu məsələ də haqlı olaraq çoxlarında sual doğurur. Yəni Din ərəb sözüdür, İnam türk sözü. Bəs biz niyə "Din İnamla əvəz olunmalıdır" deyirik?! Bəli, "Din"

və "İnam" sözlərini o cəhətdən fərqləndiririk ki, cəmiyyətdə inam sözü həmişə ümumişlək söz kimi işlənib, din isə Dünyabaxış kimi. Biz isə Asif Atanın Mütləqə İnam Ocağı olaraq "inam" sözünü məhz Dünyabaxış kimi işlədirik. Hər bir fərdə aid olan ənənəvi bir keyfiyyət kimi "inam" sözü yeni anlayış (termin) deyil. Lakin İnam – Dünyabaxış kimi yenidir. Din İnam ola bilmədi. Çünki Dində yalan var. Yalanla İnam bir araya sığmaz. İnam Mütləq Həqiqət tələb edir. Məsələnin başqa tərəfinə gəldikdə isə "Din" və "İnam" sözlərinin (ərəb və türk mənşəli olmaqla) eyni söz olduğunu bizə xatırlatmağa lüzum yoxdur. Onda belə bir sual da ortaya çıxır: nə üçün bizim toplumumuz eyni sözün türk mənşəlisini deyil, ərəb mənşəlisini işlədir?! Cavabı da vermək olar: Çünki ərəb dünyabaxışını bizə öz gələnəkləri və anlayışları ilə verib. Deməli, "din" sözü ərəb Dünyabaxışını təmsil edir, "inam" sözü türk Dünyabaxışını. Burada "inam" sözü həm də, yuxarıda vurğuladığımız kimi, dinin yalanlarından, siyasətindən, oyunlarından arınmış və ayrılmış bir məzmun kimi ortaya çıxır.

Dedik ki, Asif Atanın Ruhani hədəflərindən ikincisi ***"Siyasət Həqiqətlə əvəz olunmalıdır"*** prinsipindən ibarətdir.

Böyük idarəçiliyin başında duranlardan tutmuş sadə topluma qədər heç kim dünyanın gedişatını, nizamını, ahəngini siyasətsiz təsəvvür etmir, yaşayışın siyasətsiz baş tutacağına inanmır, qəbul etmir. Siyasət Allahın tələbidir, hətta Allahın əvəzidir sanki. Siyasət hər yerdə var deyirlər – hər bir münasibətdə, hər bir davranışda, dostluqda, qohumluqda; birgəyaşayışın təşkil olunmasında, cəmiyyətin formalaşmasında, idarə olunmasında, ailənin qurulmasında, övlada qayğı bəslənilməsində, böyüyə hörmət edilməsində... Ümumən siyasətsiz ictimai həyatın baş tutmasını müşkül sayırlar. Təbii ki, mövcud həyat bu deyilənlərdən ibarətdir. Təəssüf ki, bu gün bundan qıraqda həyatın nizamı da yoxdur. Siyasətin yaratdığı dünya qeyri-insani dünyadır. Siyasət – Adamlıq halı deməkdir. Adamlığın güclü olduğu dünyada yalnız siyasət söz deyə bilir. Nisbi, natam, keçici əhvallar, münasibətlər İnsani Dünya yarada bilməz. Siyasət – insani olmayan münasibətdir. İnsanın olmadığı mühitdir. İnsani olmayan münasibətdə Yalan var, İnsanın olmadığı mühitdə Oyun var.

Dediyimiz bu fikirlərin məntiqini düzgün qiymətləndirmək üçün Adam – İnsan fərqini bilmək zəruridir. Asif Atanın fəlsəfəsində Adamlıq və İnsanlıq fərqli anlayışlardır: "Bəşər övladı dünyaya məxluq kimi göz





açır, adam kimi böyüyür, insan kimi yenidən doğulur". Məxluq üçün vətən, millət, həqiqət anlayışları yaddır. O, yalnız bioloji həyatın tələbləri ilə yaşayır. Adamda məxluq da var, insan da. Adam nisbi keyfiyyətlər daşıyıcısıdır. Ona görə də Adam axıra qədər etibarlı, etimadlı deyil. "Adam vətənini sevər, ancaq vətən üçün ölümə getməz. Həqiqət istəyər, ancaq Həqiqət uğrunda döyüşməz". İnsan özüylə döyüşərək kamillik səviyyəsinə yüksələn ruhani varlıqdır. Bu səbəbdən də kamil insanların yaratdığı dünya (nizam, gedişat) insani dünyadır. İnsaniləşən dünyada, insaniləşən cəmiyyətdə meyar siyasət deyil, həqiqətdir. Dünyada nə qədər ötəri, keçici – nisbi münasibətlər qalsa da, ayrı-ayrı gedişlərdə yalan, oyun qalsa da, insani ahəngə təsir etməz, həqiqət meyar olaraq qalar. Buna görədir ki, Asif Ata insana, insanlığa münasibəti İnam səviyyəsinə yüksəltdi...

Üçüncü Ruhani Hədəf ***"Maddiyyatçılıq Ruhaniyyatçılıqla əvəz olunmalıdır"*** prinsipidir.

Cəmiyyət həmişə maddi problemlərin səbəbini maddiyyatın özündə axtarır. Buna görə də hər bir fərdin yaşamının məzmunu həyat uğrunda, daha doğrusu, dolanışıq uğrunda mübarizədən ibarət olur. Həyat uğrunda mübarizə cəmiyyəti təbəqələrə bölür. Mübarizədə qalib olanlar və mübarizədə məğlub olanlar. Həyata qalib gələnlər əslində toplumun başqa bir qismini həyat qarşısında məğlubiyyətə uğradırlar. Beləliklə, həyat uğrunda mübarizə təbəqələr arasında mübarizəyə çevrilir. Gizli mübarizə aşkar mübarizəyə qədər böyüyür. Hətta qarşıdurma həddinə qədər genişlənir. Maddi üstünlüyü əldə saxlamaq istəyənlər hakimiyyətə can atırlar. Sosial ədalətsizlik, sosial bərabərsizlik deyilən antiinsani münasibətlər ictimai həyatın aparıcı təsirinə çevrilir. Gedişat antiinsani biçim almaqla zor bərqərar olur. Bütün ömrünü maddi dolanışıq tələbinə tabe edən insan Mənəviyyat haqqında düşünmür. Düşüncə güzəran uçurumuna düşür. Münasibətlərdə ayrı-ayrı mənəvi halların görünməsi isə fitrətdə olandır və təsadüfi xarakter daşıyır. Yəni ilkin mənəvilik ardıcıl, bütöv olmayanda, inkişaf eləməyəndə həyatın nizamına təsir göstərə bilmir. İnsan səhərdən axşama işləyir, ancaq halal zəhmətə doğmalaşmır, "halal zəhmət" sözü gözündən düşür. Çünki rəqabət var, başqasının zəhmətini mənimsəmə var, zor var. Çox əmək çəkmək əməyə sevgidən deyil, əlacsızlıqdan baş verir...

Bəli, Ata deyir, "Maddiyyatçılıq Ruhaniyyatçılqıla əvəz olunmalıdır". Qamarlamaq, əlindən almaq, maddi üstünlüyə can atmaq

həyatın təbii halında mövcuddur. İnsan həyatın təbii halından yüksəkdə yaşayanda isə Ruhaniyyat başlayır. Ruhaniyyat təbəqəçiliyi rədd edir. İnsanın insan üzərində maddi üstünlüyünü, ağalığını, qalibiyyətini rədd edir. Ruhaniyyatı – öz üzərində qələbə çalan insanlar yaradır. Ruhaniyyat həyat uğrunda deyil, həyat üzərində qələbəni təmin edir, başqa sözlə, doğruldur. Ruhaniyyat İnsana İnam, Həqiqətin dərk olunması deməkdir. Dünyaya, Həyata, İnsana vicdanlı, təmənnasız münasibət; gerçəkliyin nisbi, ötəri, keçici təsirlərindən yüksəyə qalxmaq deməkdir.

Həyatın təbii halı, təbii gedişatı İnsanı heç vaxt təmin etmir. Ona görə də o bu "təbiiliyi" ötməyə, dəyişməyə can atır. Bu canatma özü Ruhaniyyat tələbidir. İnsan Ruhaniyyatsız yaşaya bilmir, özü olmur.

## Ruhani İntibah (Dirçəliş)

Asif Atanın məqsədi insanı dəyişməkdir, dünyanı dəyişməkdir. Təzə İnsan yaranmalıdır, Təzə Xalq yaranmalıdır, Təzə Bəşər halı yaranmalıdır. Bu İstək siyasətlə həyata keçməz, inqilabla baş tutmaz. Bu İstəyin baş tutması üçün İntibah gərəkdir, daxili Təkamül Yolu keçilməlidir.

Ruhani İntibah altı ideyadan ibarətdir.

Bunlardan sonuncusu – "Ləyaqətli Bəşər" əslində nəticədir. Yerdə qalan beş ideya isə Yoldur.

***I. Mütləqə İnam.*** Bu ideya Asif Ata Dünyabaxışının həm də ümumi adıdır: "Mütləqə İnam Ocağı", "Mütləqə İnam Dünyabaxışı", "Mütləqə İnam Təlimi", "Mütləqə İnam Erası", "Mütləqə İnam Fəlsəfəsi" kimi anlayışlarımız, adlandırmalarımız var.

Mütləqə İnam Allaha, yəni transsendentala, fövqəltəbii qüvvəyə, göylər səltənətinin hökmdarına; adam kimi danışan, düşünən, görən, qəzəblənən, qisas alan, dünyanı yox yerdən bir işarəsiylə yaradan uydurulmuş qüvvəyə inamı rədd edir. Mütləqə İnam Dünyabaxışına görə Dünya oyun-oyuncaq kimi yaradılmayıb, bəzədilməyib, uçurulmağa hazırlanmayıb. Dünya – Özünün Əzəli, Əbədi, Kamil, Sonsuz Dünyalıq mahiyyətindən, Mənasından yaranıb. Dünyalıq Dünyadan kənarda deyil, onun özündədir, öz ahəngində, nizamındadır. Dünyanın bənnası yoxdur, ağası yoxdur, idarəçisi yoxdur. Dünya mənaca əzəlidir, yəni Dünyanın olmayan vaxtı olmayıb. Dünya mənaca





əbədidir, yəni Dünyanın olmayan vaxtı olmayacaq. Axirət, Qiyamət cəfəngiyyatdır. Dünya dəyişir, təzələnir. Dünyalıq dəyişmir, ancaq öz təzahürləri ilə Təzələnir. Yəni dünyadakılar ölür, uçur, dağılır. Ancaq yenisi yaranır – dağ uçur, yenisi yaranır, çay quruyur, yenisi yaranır, bulaq soğulur, yenisi yaranır; təbiət bir yerdə ölür, başqa bir yerdə dirilir. Bütün bunlar Dünyanın özündən baş verir, Xarici İradənin gözağartması ilə oluşmur.

Həyat Özündən – Əzəli, Əbədi, Sonsuz, Kamil Həyatlıq Mənasından yaranıb. Həyat ölür, dəyişir, ancaq Həyatlıq ölmür, dəyişmir. Yalnız öz təzahürləri ilə Təzələnir.

İnsan Özündən – Əzəli, Əbədi, Kamil, Sonsuz İnsanlıq Mənasından yaranıb. İnsanın palçıqdan əmələ gəlməsi, sonra qabırğasından düzələnlə cütləşib artıb-çoxalması cəfəngiyyatdır. Habelə elmi nəzəriyyələrin insan haqqındakı yanlışları qəbuledilməzdir. Meymunun təkamül yolu ilə insanı əmələ gətirməsi cəfəngiyyatdır. ***"İnsan daxilində Mütləq daşıyan, şəraitdən, mühitdən, gerçəklikdən yüksək olan, Mütləqiliyə meyil eləyən və Mütləqləşməyə qadir olan Ruhani varlıqdır" (Asif Ata).***

Asif Atanın İnsanlaşma Təlimi, İnamı İnsan haqqındakı bu tərifə əsaslanır. Asif Atanın ***"Kamil İnsan"*** ideyası insanın canlı növlər arasında ən mükəmməli və şüurlusu olduğuna görə ortaya qoyulmayıb. Asif Atada İnsan başqa növlərlə deyil, Mütləqlə müqayisə edilir. İnsan Gerçəklik və Məna birliyidir. Gerçək insan biolojidir, təbiət xislətlidir. Ancaq dərinə getdikcə onda ali keyfiyyətlər görünür. Müqəddəslik, ülviyyət insanın mahiyyətindədir. İnsan öz gerçək xislətini ötdükcə ruhaniləşir – mənasına – İnsanlığa bərabər olur. İnsanın Özümlüyü – gerçəkliyi deyil, Mütləqiliyidir, İnsanlığıdır. İnsan dünyaya görünüb yox olmağa gəlmir, öz Mənasına çatmağa – İnsanlaşmağa gəlir. İnsan gerçəkliyə bərabər yaşayanda ölümlü olur, ötəri, keçici xassələri ilə bitib qurtarır. Yalnız nəsil artımında iştirak edir. Lakin özümləşən İnsan ölməzliyə qovuşur. Özünün ali, mənəvi keyfiyyətləri ilə Xəlqi məna daşıyır – Nəsimi kimi, Budda kimi, Tolstoy kimi...

Asif Atada İnsanın İnsanlaşması üç mərhələdən keçir: özünü tanıma, özünə yadlaşma, özünə doğmalaşma – özünü təsdiq. Özünü yaratmağın bu yolu ***"özüylədöyüş"*** ideyasıdır. Hər bir fərd etiraf yolu ilə özündəki bütün naqis cəhətləri aşkara çıxarmalı, tanımalıdır. Özünü aldatmamalıdır, özünü, əslində balaca "mən"ini qoruyan instinktlərin təsirini aradan qaldırmalıdır. Etirafdan qorxmamalı, özündəki pislikləri

görüb göstərməkdən utanmamalıdır. Bu hal olduqca çətindir. Adamda özünüqoruma instinkti güclü olur. Fərd ömrünü xalisliklə doldura bilmədiyi üçün, bioloji həyatın təsirlərindən imtina eləyə bilmədiyi üçün naqisliklərini etiraf eləməyi bacarmır. Toplumdan gizlənməyə çalışır. Ancaq ilk növbədə o özünü aldadır, özünü öz mahiyyətindən ayırır. Elə buna görədir ki, bəşər tarixində kamil insanlar barmaq sayda olubdur. Buna baxmayaraq, hər bir fərdin kamillik haqqı və imkanı var. Kamillik seçilmişlər üçün deyil. Etirafı bacaran, ömründəki naqislikləri tanıyan fərd naqis duyğuları ömründən silməyə başlayır. O, özünü tanıdıqca, yəni özünü aldatmadıqca daxili gücü artır və getdikcə böyük imtinalar mərhələsinə başlayır: şöhrətpərəstlikdən imtina, şəhvətpərəstlikdən imtina, hakimiyyətsevərlikdən imtina, nəşəsevərlikdən imtina; xudbinlikdən, xudpəsəndlikdən, xəbislikdən, adilikdən, bəsitlikdən ayrılma. Daxili şəri yenən ictimai şərlə döyüşür. İnsansevərliyi təsdiq olunur, Vətənsevərliyi, Həqiqətsevərliyi, Ədalətsevərliyi, Azadlıqsevərliyi, Bəşərsevərliyi təsdiq olunur. Fərd özündən, yəni balaca "mən"indən ayrıldıqca özümlüyünə, yəni ali "Mən"inə qovuşur. Özüylə döyüşməyən həqiqətin qədrini bilməz, azadlığın qədrini bilməz, xalqlaşa, vətənləşə bilməz. Özüylə döyüşməyib başqasıyla döyüşən, yəni özündəki naqislikləri gizləyib başqasında naqisliklər axtaran şərə xidmət edir. Heç kim heç kimin əvəzinə onun naqis duyğuları ilə döyüşə bilməz. Daxili döyüşü yumruq döyüşü ilə əvəz eləyən cəmiyyət özündən ayrılmış, özünə yadlaşmış cəmiyyətdir. Özü xalisləşməyən cəmiyyətdəki naqisliklərə qarşı söz deyə bilməz, onu aradan qaldıra bilməz. Yalnız Kamil Fərdlərin yaratdığı cəmiyyət Kamil, Ruhani Cəmiyyət olur. Asif Atanın ***"Ruhani Cəmiyyət",*** yaxud ***"Xəlqi Birlik"*** ideyası özünü Kamil Fərdlərlə doğruldur. Asif Ataya qədər demək olar ki, bütün nəzəriyyələr ictimai dəyişikliyi insandan kənarda başlayıblar. Ona görə də dəyişiklik üzdə gedib, inkişaf üzdən əmələ gəlib. Ağalıq-nökərlik aradan qalxmayıb, ictimai təbəqələşmə aradan qalxmayıb, insanın insan üzərindəki zorakılığı, qanlılığı aradan qalxmayıb, ədalətsizlik, bərabərsizlik, vicdansızlıq hökm sürüb. "Dünya belə gəlib, belə də gedəcək" deyə antiinsani gedişata bəraət verilib. Əlbəttə, özünü yaratmayan insan ictimai tərəqqinin baş tutacağına inana bilməz. Ancaq bununla belə, dünyada antiinsani gedişata qarşı direniş həmişə olub. Nəhayət, bu Dirəniş daha kamil səviyyədə Asif Atada özünü göstərib. Asif Ata insandan, yəni, daxili, mənəvi tələblərdən kənarda formalaşan





Quruluşları rədd edir. "Nə Kapitalizm, nə Sosializm, – Ruhani Cəmiyyət yaranmalıdır" deyir. "Kapitalizm fərd ağalığıdır, Sosializm dövlət ağalığı". Hər ikisi insan üzərində zor yaradır. Zor altında olan insan xalq yarada bilməz. ***"Xalq – Azad, Müstəqil fərdlərdən yaranır" (Asif Ata).*** Asif Atanın ***"Ruhani Dövlət"*** ideyası var. Onun fikrincə, Dövlət Ruhaniyyata əsaslanmalıdır və çox az funksiyaları olmalıdır:

1) Fərdi özünüidarə; 2) Mülkiyyət bərabərliyi yaratmaq; 3) Cəmi fərdin zorundan, fərdi cəmin təzyiqindən qorumaq; 4) İmtiyazsız başçı, ağalıq əvəzinə Atalığın bərqərar olması.

Dövlət ruhaniyyata əsaslanmadıqda xalqı sürüləşdirir və idarə edir. Dövlət – onun başında duranların imtiyaz üstünlüyünü qoruyan zor hadisəsinə çevrilir. Xəlqi Birlik yarandıqda isə dövlət bu Birliyə xidmət edir.

Asif Atada Ruhani Dövlət Dini Dövlət anlamına gəlmir. İran İslam Dövləti ən pis zorakılıq hadisəsidir. Orada ruhaniyyat yoxdur, yəni Dövlət Ruhani prinsiplərə əsaslanmır.

Yeri gəlmişkən, Mütləqə İnam Dünyabaxışının "Ruh", "Ruhaniyyat" anlayışlarına da burada qısaca izah verək. Bu vaxta qədər ruh məsələsinə müxtəlif dünyabaxışlar fərqli mənalar veriblər. Məsələn, Qitaupanişadda ruh – kosmik enerjidir. Saçın ucunun neçə milyardda bir hissəsi olan mikrocandır. Semitlərdə ruh mövcudluğun təminatı olan candır. İnsan öləndə ağzından hava ilə birlikdə çıxır və uçub gedir... Asif Ata Təlimində Ruh – İnam, İdrak, Mənəviyyat, İradə Birliyidir. İnsanı İnsan eləyən bu İnsani keyfiyyətlərin Mütləq halıdır. Ruhun ölməzliyini də fantastik əlamətlərlə deyil, bu keyfiyyətlərin nəsildə, xalqda, bəşərdə yaşaması ilə müqayisə eləmək doğrudur.

İnsan öz ruhunu – İnamını, İdrakını, Mənəviyyatını, İradəsini yaratdıqda o, ölməzliyə çatır. İnsan böyük mənada ruhunu yaratmırsa, necə var, elə qalırsa, onda o, ruhun adi əlamətləri ilə xatirat səviyyəsindən uzağa getmir və ruhani imkanlarının çoxunu özüylə qəbrə aparır. Ancaq insan fiziki olaraq da tam itmir. Ayrı-ayrı əlamətləri övladlarında, nəsildə, xalqda davam edir. Ölüm yalnız cismani bütövlüyü parçalayır. İnsan genlə, qanla, təbiətlə yaşama qayıdır – əlamətləriylə. "Ölümlə görüş" izharında Asif Ata yazır ki, "əllərim birinə qismət olacaq, gözlərim digərinə, saçlarım bir başqasına..."

Mütləq İnam – Dünyanın əzəli, əbədi, kamil, sonsuz Mənasına İnamdır. Dünya heç vaxt ölməyəcək. Bu, yaşamağa və insanlaşmağa nikbinlik yönündə təməl yanaşmadır.

Mütləq İdrak – İnsanın Ruhani varlıq olduğunu dərk etmək, İnsanı qorumaq və təsdiq etməkdir.

Mütləq Mənəviyyat – Təmənnasızlıq, Fədakarlıq və Vicdançılıq əsasında yaşamaq – İnsani ləyaqətin təsdiqi.

Mütləq İradə – Zamandan üstün yaşamaq, şəraitə, mühitə əyilməmək, Mütləq Həqiqətə tapınmaq, Mütləq Azadlığa qovuşmaq – bu cür aqibəti ən ali nemət saymaq.

Ruhani İntibahın 4-cü ideyası ***"Müstəqil Vətən"*** ideyasıdır. Bəşər tarixində heç bir peyğəmbərin Vətən ideyası olmayıb. Asif Ata Vətən müstəqilliyini ideya səviyyəsində qoyur və bunun üzərində ardıcıl vurğu edir. Ruhani İntibah Vətəndən kənarda yarana bilməz. "Dünya Vətəndən başlayır" deyir peyğəmbərimiz Asif Ata. Vətənləşə bilməyən Dünyalaşa bilməz. Vətən sadəcə toplumun yaşadığı coğrafi məkan deyil, toplumu xalq səviyyəsinə yüksəldən insani, bəşəri dəyərlərin yarandığı, qorunduğu müqəddəs ünvandır. Vətənçiliyin əsas meyarı müstəqillikdir. Vətən müstəqil deyilsə, xalq da müstəqil deyil. Asif Ata deyir: "Dünyadan asılı olmadığın dərəcədə müstəqilsən". Yəni siyasi birliklərin boyunduruğunda azad və müstəqil xalq olmaq mümkün deyil. Vətənin müstəqil olması üçün dövlətin Müstəqil İqtisadiyyatı, Müstəqil Mədəniyyəti, Müstəqil Diplomatiyası olmalıdır. Bu isə Milli İdeologiya əsasında formalaşa bilər. İdeologiya isə Mütləqə İnamdan qaynaqlanarsa, milliləşə bilər. Asif Atanın İnamı mücərrəd bəşəri deyil, Millilikdən başlayıb Bəşəriliyə doğru inkişaf edən Dünyabaxışdır. Milliliyimizin yaranması və qorunması Yurdumuzun Bütövlüyünü və Müstəqilliyini tələb edir. Yurdumuz bu gün bölünmüş, parçalanmış durumdadır. Onun bir parçasında yaranan Müstəqillik nisbi müstəqillikdir, əslində formal xarakter daşıyır. Ona görə də Asif Ata "Uluyurd Hərəkatı" ideyasını irəli sürür. "Uluyurd Hərəkatı" özündə 5 prinsip daşıyır: 1) Tayfaçılıqla mübarizə; 2) Dinçiliklə mübarizə; 3) Etnik bölücülüklə mübarizə; 4) Özgəçiliklə (Qərbçiliklə, Rusçuluqla...) mübarizə; 5) Azərbaycanın siyasi bərpası – Bütöv Azərbaycan.

Ruhani İntibahın 5-ci ideyası ***"Özümlü Şərq"*** ideyasıdır. Asif Ata dünyanın Şərqə-Qərbə bölünməsinin əleyhinədir. Bu bölgünü Qərb yaradıb və Şərqə ikinci növ bölgə kimi baxır. Asif Ata Özümlü Şərq





deyəndə ona coğrafi mənada yanaşmır, Şərqi dəyərləri əsas götürür. Və hesab edir ki, Şərqi Dəyərlərə arxa çevirməklə dünyanı bütöv dərk eləmək mümkün deyil. Bu mənada Kürəsəlləşmə əslində Dünyalaşma deyil, Qərbləşmədir. Qərbdə isə demək olar ki, mənəvi dəyərlər aşılanıb. Yalnız elmi-texniki inkişafı əsas götürürlər və bu imkandan istifadə edib dünya üzərində ağalıqlarını həyata keçirirlər. "Bir vaxtlar Şərq müəllim idi, indi uşaqcasına Qərbin dalınca sürünür" (Asif Ata). Dünyanın gedişatı elmi-texniki tərəqqi ilə nizamlanmır, daha da pozulur. Bu səbəbdən də Şərqin fitrətində və halında olan mənəviyyatçılıq, insançılıq bərpa olunmalı və dünyanın halına qayıtmalıdır. Asif Ata özünün yaratdığı Mütləqə İnam hadisəsi ilə bu müqəddəs vəzifəni öz üzərinə götürmüşdür.

Ruhani İntibahın sonuncu ideyası ***"Ləyaqətli Bəşər"*** ideyasıdır. Yuxarıda vurğuladığımız kimi, bu ideya həm də nəticədir. Bəşər xalqların müxtəlifliyi – Müxtəliflərin Birliyi deməkdir. Hər bir xalq özünəməxsusluğu ilə Bəşərdir. Xalqların özünəməxsusluqlarına qarşı çıxmaq Bəşərə qarşı çıxmaqdır. Xalqları əsarətə salmaq, özünə yadlaşdırmaq yolverilməzdir. Xalqlararası münasibətlər humanizmə əsaslanmırsa, bəşəriyyətin sabahından danışmaq çətindir. Xalqlar bir-birinə inanmayanda sevgi və sayğı yarana bilməz. Xalqların bir-birinə nifrət eləməsi bəşəriyyətin ölümüdür. Bu nifrəti xalqlar arasında yaradan Siyasi Güclərin ağalıq əməlidir. Elə ona görə də "Siyasət Həqiqətlə əvəz olunmalıdır".

## Mütləqə İnam Ocağının iç Qurallları (qaydaları) və yaşam tərzi

Hər bir Dünyabaxışın olduğu kimi Mütləqə İnam Ocağının da öz qaydaları, yaşam tərzi və anlayışları (terminləri) var. Təbiidir ki, köklü dəyişikliklər eləyən Yeni İnam əski qaydaların saxlanması ilə özünü təsdiq edə bilməz, baxmayaraq ki, cəmiyyət hansısa qaydalara, ənənələrə uyğunlaşıb. İnam xalqının formalaşması üçün əvvəlki vərdişlərdən, üsullardan imtina etməsi qaçılmazdır...

İnamçılar bir-biri ilə görüşəndə "salam" əvəzinə "Ürəyində Ata Günəşi olsun", "xudahafiz" əvəzinə "Atamız Var olsun" deyirlər. "Ata Günəşi" – İnsana inamı, insanlığın meyar kimi qəbul olunmasını, ruhani

varolmanı uğurlayan bir sözdür. “Atamız Var olsun” – yəni İnamımız var olsun, Ocağımız var olsun, Ruhaniyyatımız var olsun anlamı daşıyır.

Ocaq quruculuğu ən çox Tədbirlərdə öz əksini tapır. Tədbirlər 7 mərasimdən, 2 Mərasim-Törəndən və 4 Bayramdan ibarətdir. Mərasimlərdə ancaq Ocaq Evladları iştirak edir. Mərasim-Törənlərdə və Bayramlarda isə Ocaqsevərlər və maraqlananlar da iştirak edirlər. Ocaq Ruhani Ailələrdən təşkil olunur. Hər Ailənin ayda bir dəfə aylıq toplantısı – mərasimi keçirilir. Ocaq vaxtdan asılı olaraq ayda bir dəfə, yaxud iki ayda bir dəfə “Amallaşma-Doğmalaşma günü” keçirir. Amalı öyrənmək və öyrətmək, ruhani fikir bölüşmələri əsasında doğmalaşma. Üsulumuz: xalqın içinə səfərlər eləmək, görüşlər keçirmək – Amalı öyrətmək, Ocağa dəvət eləmək; eləcə də mətbuat vasitəsilə ideyaları yaymaq, ədəbiyyatlar hazırlayıb yaymaq; fərdi ünsiyyətlər qurmaq – ardıcıl İnama çağırmaq. Atamızın dediyi kimi, İnsanlaşmaq və İnsanlaşdırmaq. Məbədlər (İnam Evləri) tikmək, xalqa öz Ruhaniyyatını tanıtmaq və öz Ruhaniyyatıyla yaşamaq öyrətmək.

Ocaq öz ilsırası (tarixi) və Günsırası (təqvimi) əsasında yaşayır. Və bunu ümummilli ənənə halına gətirməyi məqsədi sayır. Habelə milli yazı sistemi (Orxon-Yenisey əlifbası əsasında) ortaya qoyur və müqəddəsatını (arxivini) bu əlifba ilə hazırlayır.

Ocaq öz Ruhaniyyatı əsasında “Ölügötürmə” və Evlənmə (“Beşikbaşı mərasimi”) qaydalarını yaradıb və imkan düşdükcə bunları ictimai həyata tətbiq edir.

Ocaq Asif Atanın İrsini – Müqəddəs Kitablarını (“Qutsal Bitiq”lərini) 13 cilddə hazırlayıb, arxivləşdirib və imkan düşdükcə üzünü artırıb yayır.

Ocaqçı gündə 3 dəfə Ataya Rica deyir və Mütləqlə Təmas sözü söyləyir. Bu Rica və Təmaslarda özüylə – öz mənasıyla üz-üzə durmaq, özünü kökləmək və günə hazırlamaq insanda sabit hal yaradır. İnsanın özünə inamı yetkinləşir, qüsurlara enməmək üçün qətiyyəti artır. Yolda olduğunu anlayır, Yük altında olduğunun məsuliyyətini dərk edir.

Ocaq Atalıq və Evladlıq hadisəsinə əsaslanır. Ata İnamın Atasıdır, Evlad İnamın Evladıdır, Atanın Davamçısıdır, əski dövrlərdəki Apostoldur, İmamdır, Müriddir. Atanın tələbi budur ki, Ata Əməli Evlad Əməlində, Ata fəlsəfəsi Evlad fəlsəfəsində davam eləməlidir. Evlad icraçı deyil, Qurucudur, Yaradıcıdır. Ata deyir – Evlad özündə üç





keyfiyyəti yaratmalıdır: Yazarlıq, Natiqlik, Təşkilatçılıq. Bu, Evladın Ocaq Quruculuğundakı əsas silahıdır.

Ocağa Evlad qəbulu mərasimləşən bir hadisədir. Xalqın içindən ayrı-ayrı insanlar Ocağa üz tutur. Məramını, məqsədini Asif Atanın adına rica şəklində yazır. Atadan “Ruhani Ad” alır və Ocaqlaşmağa başlayır. Mərasimdə Ocaqçılara təqdim olunur və Ocaqçılığını təsdiq edən Ruhani Sənəd – “Evladlıq Nişanəsi” alır. Atanın sağlığında bu əməllər Ata tərəfindən həyata keçirilirdi, onun ölümündən sonra isə Ocaq Yükümlüsü (Soylu Atalı) tərəfindən yerinə yetirilir.

Ata öləndən sonra Ocağın Ruhani Nizamını yaradan və qoruyan, Ocağı ruhani idarə edən Ocaq Yükümlüsü hadisəsi yaranmışdır. Asif Atanın ölümündən bu günə qədər bu məsuliyyəti yazı müəllifi (Soylu Atalı) öz üzərində daşıyır. Yuxarıda vurğuladığımız kimi, Ocaqda Atalıq və Evladlıq hadisəsi var. Ocaq Yükümlüsü Atanın yerinə keçmir, o, elə Evladdır. Sadəcə Ocağın bir Qurum olaraq yaşayıb idarə olunmasını təmin edir. Təbii ki, gənc Ocaqçıların ağlının, qəlbinin böyüməsində rol oynayır. Bununla belə, Ocaqda vəzifə, titul, rütbə yoxdur və olmayacaq. Ocağın Atası, Ruhani Başçısı əbədi olaraq Asif Atadır. Asif Ata Peyğəmbərdir. Peyğəmbər əvəz olunmur, Yolu davam olunur, Ocağı nizamlanır, ruhani idarə olunur.

Ocaq öz Evladlarının yaradıcılığı ilə, təşəbbüsləri, ideyaları ilə daim inkişaf edir. Ancaq Asif Ata tərəfindən təsbit olunmuş İnamın Təməl prinsiplərini dəyişdirmək, ləğv eləmək yolverilməzdir. Əgər yol verilərsə, bu, Ocağın mənən çöküşünə gətirib çıxarar. Atanın Ruhani Hökmlərini dəyişmək Peyğəmbər işini əymək deməkdir. Ata deyir: “2-3 dəfə mərasimə gəlməyən, Ata ilə, Ocaqla əlaqə saxlamayan Ocaqdan çıxarılır. Ocaqdan çıxan, çıxarılan Ocağa qayıtmır; Ata ilə Evlad arasında toz qədər fikir ayrılığı varsa, bu, Evladın bugünləşməsi deməkdir. Bugünləşən Ocaqdan çıxarılır”. Ata Hökmü Ocaq ləyaqətini qoruyan Ruhani Qaladır. Bu Qaladan bircə kərpic belə qoparmaq olmaz. Bu, özünü doğrultmur, doğrultmayacaq!

***Sözün sonunda:*** İstəkli sabahdaşlarımız! Bizim tərəfimizdən sizlərə təqdim olunan bu qısa bilgi ilk təəssürat, təsəvvür üçündür. Asif Atanın Amalını dərindən öyrənmək, bilmək üçün Onun öz İrsinə müraciət eləmək doğrudur. Onun öz İrsi hər kəsə daha doğru yol göstərir, yön verir. Asif Atanı öyrənərkən tələsmək olmaz. Asif Atanın ideyalarını uğurlu, cazibəli, gözəl sayıb, ona gerçəkləşməsi mümkün olmayan

nəzəriyyə kimi baxmaq yanlışdır. Bu Yolun çətinliyinə sözümüz yox, ancaq yetərincə aydın və konkretdir. Öyrənmək və yaşamaq gərəkdir. Bu, İnsanlığın İnamıdır, ondan yan keçmək doğru deyil.

Dinə Allahın dini, dinin kitabına Allahın kitabı deyirlər. Biz isə deyirik, Allahın olan İnsanın deyil. Asif Atanın Amalı isə İnsanlığın İnamı, kitabları İnsanlığın kitablarıdır. Asif Ata Amalına üz tutmaq İnsanlığa üz tutmaqdır.





## TƏMƏL PRİNSİPLƏRDƏ YALAN OLMAMALIDIR

### I. Yazının yazılma səbəbi – giriş sözü

Biz dünyaya yeni İnam Dünyabaxışı təqdim edirik. Deyirik İnam din deyil, dindən fərqlidir və üstündür. "Fərqli" və "üstün" sözlərini isə dini qəbul etməməyimizə və İnamı özümüzünkü saydığımıza görə demirik. Burada fərqliliyin və üstünlüyün xüsusiyyətləri var. Təməl prinsiplərə müraciət etməkdə məqsədimiz də həmin xüsusiyyətləri imkanımız daxilində aydınlaşdırıb şərh eləməkdir.

Bu yazıda biz doğruluğumuza və səmimiyyətimizə güvənirik. Oxucu elə düşünməməlidir ki, biz özümüzə sərf eləyən yönü götürmüşük. Onsuz da həqiqəti tarixdən, tarixi gələcəkdən gizləmək olmur. Doğrunu görmək, doğrunu bilmək, doğrunu demək yeganə meyardır.

Biz Asif Atanın irəli sürdüyü İnsanlaşma ideyasının daşıyıcılarıyıq. Bu ideyanı özümləşdirmək və yaşatmaq üçün dayağımız, tapınağımız, güvəndiyimiz mühit insandır. İnsanın özünə bərabər, yəni mənasına layiq yaşaması yolunda çox ciddi maneələr var. Maneəni insan özü yaradır, böyüdür, qoruyur. İstər din, istər ictimai quruluşlar insanın özünü tanımasına həmişə əngəl olub. Təəssüf ki, insan yalansız keçinməyi qarşısına məqsəd qoymayıb. Sözdə yalana pis deyib, damğalayıb, ancaq münasibətlərində yalandan istifadə eləyib. Yalana bəraət verib, yalansız keçinmək mümkün deyil deyib. ***İctimai nizam yalan üzərində qurulub.*** Yalan – nizamsızlıq deməkdir.

Bütövlük alınmır, ziddiyyət artır. Bu ona görə baş verir ki, insan ikili xassəyə malikdir – həm ruhani, həm də cismani. Bu fakt var, bunu danmaq mümkün deyil. Ona görə də bütün dinlər, ictimai quruluşlar balanslaşdırma xətti tutdular. Ruhanilik və cismanilik paralelləşdi. Əbədilik və Mövcudluq üz-üzə qoyuldu və Mövcudluq üstünlük əldə elədi. Çünki düşünüldü ki, mövcudluq qaçaraqdır, gözləmir. İnsan özünə təlqin elədi ki, ruhanilik gözləyər, cismanilik gözləməz. İctimai quruluşlar cismaniliyə üstünlük verdi. Din də sözdə ruhanilik dedi, ancaq yaşamda cismaniliyin təsirindən çıxa bilmədi. Dinin başında duranlar Quldarlaşdı, Feodallaşdı, Kapitalistləşdi, heç vaxt

ruhaniləşmədi. Cismanilik hər kəsi özünə – öz mövcudluğuna bağlayır. Ona görə də yaşamaq uğrunda mübarizə gedir. Bu mübarizə insanda bütün heyvani duyğuları aşkarlayır və səfərbər edir. İnstinktlər ömrə hakim kəsilir. Maddi nemətləri qamarlamaq, üstünlüyə can atmaq həyat normasına çevrilir. Bu gedişatda zor həlledici amil olur. Buna görə də hər kəs zora can atır – zorlu olmaq, başqasının zorundan qorunmaq və üstünlüyə nail olmaq məqsədə çevrilir. Elm, təhsil, fərdi qabiliyyət, bacarıq, istedad zoru təmin edir, zora yarayır. Elə ona görə də insan millət olmaqdan, bəşər olmaqdan məhrum olur.

***Millət insanların cəmindən deyil, insani keyfiyyətlərdən qurulan hadisədir. Bəşər də xalqların cəmindən deyil, onların insani keyfiyyətlərindən oluşur.*** Bütün bunlar hamısı insanın özümləşməsindən başlayır. Təbii ki, sual ortaya çıxır – əgər insan ikili xassəyə malikdirsə, bəs onun özümləşməsi nə deməkdir?! Yuxarıda vurğuladıq ki, bioloji mövcud olmanın qanunları ruhani qanunlara ziddir. Eyni halda, təbiətdə bioloji qanunların qarşısını almaq mümkün deyil. Ancaq insan əşya deyil, heyvan deyil. Onun mahiyyəti, yəni insaniliyi xassələrindən, xislətindən, təbiətindən üstündür. Deməli, insanın özümləşməsi – xislətinə deyil, mahiyyətinə bərabər yaşaması deməkdir. Deməli, ictimai həyatda ruhani qanunları bərqərar eləmək mümkündür. Təbəqələşmə – ağalıq-nökərlik, özünəyadlaşma, xalqa, bəşərə yadlaşma ruhani qanunların yoxluğuna görədir. İnsanın özüylə yetərlənməmək, özündəki mənaya çatmaq tələbi var. Bu tələb həm də imkandır. Əgər ictimai həyatda Mütləq Xeyir, Mütləq Ədalət, Mütləq Həqiqət qələbə çalmayıbsa, "bundan sonra da heç vaxt qələbə çalmayacaq" anlamına gəlmir. Bu istək insanın içində daim baş qaldırıb, qaldırır. Ona görə Asif Ata deyir ki, Adam İnsan olmalıdır. Mütləq Xeyir, Mütləq Ədalət, Mütləq Həqiqət – Adamdakı İnsanilik imkanıdır. Adam İnsan olanda bu imkan aşkarlanır. Əslində bəşər də bu imkandan başlayır. Ən böyük mübarizə Adamın İnsan olmasıdır. Çünki bütün fəlakətlər Adamlıqdan törəyir. Adamlıq səviyyəsində mübarizə inqilablar həyata keçirir. İnqilab yolu ilə Adam İnsan ola bilməz. İnqilab adlı zorakılığı "tarixin mamaçası" sayanlar bəşəriyyətə mütləq ədalət baxımından bircə addım xeyir vermədilər. Hər şey bəşəriyyətin əleyhinə yönəldi. Asif Ata deyir: "Bəşər Kapitalizm-Sosializm dairəsindən, Din-Ateizm dairəsindən, Totalitarizm-Demokratiya dairəsindən çıxmalıdır". Kapitalizm kəskinləşdikcə Sosializmə, Din qaranlığı kükrədikcə Ateizmə,





Demokratiya hərcayiliyi, özbaşınalığı dərinləşdikcə Totalitarizmə ehtiyac yaradır. Bunların heç birində mənfəətçilik, təmənnaçılıq, xudbinlik, kölәlik, zor, oyunçuluq, yalan vədlər, öz mənafeyini, ailəsini, tayfasını xalqa qarşı qoymaq aradan qalxmır, yeni biçimdə təkrar olunur.

Yuxarıda vurğuladıq ki, ictimai nizam pozulanda bütün dövrlərdə balanslaşdırma prinsipinə əsaslanıblar. Ancaq heç vaxt balanslaşdırma özünü doğrultmayıb. Məsələn, Sosializm insanı bütünlüklə əməyə bağlayaraq firavanlıq vəd edirdi. Hər kəsin maddi sərvətlərdən əməyinə görə mənimsəməsi ilə ictimai bərabərliyin yaranması ictimai nizamı axıra çatdıra bilmədi. Bioloji tarazlığın işə salınması milli-mənəvi ahəngin pozulmasını pərdələyə bilmədi. İmperiya quruculuğunu sosial problemlərin həlli ilə balanslaşdırmağa çalışanlar mənəvi problemlərin yaranmasına göz yumdular. Daha böyük nizamsızlığın biçimlənməsini təmin etdilər.

Bəs demokratik quruluş necə balanslaşdırır?! Bəri başdan pulçuluq uğrunda mübarizəni körükləyir və hər kəsin bu mübarizəyə qoşulmaq azadlığını elan edir. Bu gedişatda fərdi təmin etməyən addımlara görə onun azad şəkildə etiraz etməyə, söz deməyə haqqının olduğu sunulur. Hər kəs bunun üçün təşkilat yarada və öz haqqı uğrunda mübarizə apara bilər. Deməli, hər kəsi rəqabətə bağlamaqla ictimai ədalətin təmin olunması yönündə görüntü yaradılır. Axı rəqabət dünyasında insan insanı sevə bilməz, insan insana inana bilməz. İnamdan və sevgidən məhrum olmuş insan başqalarına qarşı ədalətli olmaq haqqında necə düşünə bilər?!

Nəhayət, dinlərin balanslaşdırma cəhdləri də ictimai nizamın yaranmasında ciddi rol oynaya bilmədi. Dinlər öz baxışlarını quruluşların tərbiyə elədiyi insanlar üzərində qurdu. İnsanı mücərrəd, əlçatmaz, xəyali müqəddəsliyə bağlamağa çalışdı. Heç nə alınmadı. Əslində isə din insanı xilas eləyə bilərdi. Çünki onun yaranma tələbində ruhun üstünlüyünü təsdiq eləmək imkanı var. Ancaq bu imkan aşkarlanmadı. Niyə din xilaskarlıq hadisəsinə çevrilmədi, yanlış hardadır, nədədir?! Bu suala cavab aramaq üçün dinin təməl prinsiplərini izah etməyə çalışacağıq. Bunun üçün öncə inancın ibtidai biçimlərindən bu günə qədər gəlib çıxan cəhətlərə diqqət yetirmək gərəkdir. Eyni zamanda fikri əsaslandırmaq üçün faktlar üzərində müqayisələr aparmaq da zəruridir. Bizim yurdumuzda hegemon təsirə malik olan din İslam dini olduğuna görə fikirlərimizi əsasən onun təməl prinsipləri üzərində

şərh etməyə üstünlük veririk. Ümumiyyətlə götürəndə səmavi sayılan dinlərin təməl prinsiplərində əsaslı bir fərq yoxdur.

Bir var müsəlmanlığın, yaxud xristianlığın şərtləri, bir də var dinin təməl prinsipləri. Bu yazıda şərtlər fərqini açmağa gərək yoxdur. Biz dinin 5 təməl prinsiplərini müəyyənləşdiririk: 1) Yeri-göyü yaradan Allah ideyası; 2) Axirət dünyasının (o dünyanın) varlığı və Allahın müqəddəs məkanı kimi təqdim olunması; 3) Qəzavü-qədər (Qismətçilik) – şərin və xeyirin Allahdan gəldiyini qəbul etdirmək; 4) Ümmətçilik – bütün bəşər övladının Məhəmmədin ümməti olduğunu vurğulamaq; 5) Allahın dərk olunmazlığı (elmi dildə aqnotsizm) və buradan ortaya çıxan ruhani məhdudiyyət – Qurandan sonra ruhani kitabın yazılmayacağı, Məhəmməddən sonra peyğəmbərin olmayacağı ideyası.

Ayrı-ayrı yazılarda bu məsələyə münasibət bildirmişik, bu yazıda isə ümumiləşdirmək məqsədi güdülür.

## II. İnsanı qorxutmaq yox, İnandırmaq gərəkdir

Ümumiyyətlə, "Yaradan" ideyası çox qədimdən gəlir – təbiətin sirlərinin açılmadığı bir dövrdən. Ancaq sonralar dini axtarışlarda yeniliklər ortaya çıxsa da, bir çox məsələlərdə peyğəmbərlər ibtidai baxışlardan qopa bilmədilər. Hətta elmin inkişafı ilə maarifçiliyin geniş yayıldığı zamanlarda belə, ibtidai baxışlara qarşı əsaslı söz deyən olmadı. Doğrudur, belə məsələlərə münasibətdə elmin mövqeyi yardımçıdır, bunu yalnız fəlsəfi-ruhani biliklə aydınlaşdırmaq mümkündür. Bunun üçün isə peyğəmbərlər həm də filosof olmalı idilər. Peyğəmbərlər filosof olmadıqları üçün məntiqi uydurmaq zorunda qalıblar. Dini təlimlərdə alleqoriyalar üstünlük təşkil edir, həqiqətçilikdən daha çox mifoloji yönlər qabarır. Mifologiya həqiqətin dərk olunmasında yardımçı ola bilər, ancaq gerçək olmayan, gerçəkliyə uyğun olmayan atributlarla, fantaziyalarla canlı yaşamı nizamlamaq mümkün deyil. Mifologiya o vaxt önəmlidir ki, insanın duyğularını həqiqət axtarışlarına yönəldir, onu fantaziyalara bağlamır. ***Duyğular fantaziyalarda ilişib qalanda xurafat başlayır.*** Dinin yanlışlarından biri də odur ki, xurafat obrazlaşdırılır. Xurafatın obrazlaşdırılmış ən böyük yönü Allah ideyası ilə bağlıdır. ***Din Allahı xurafatlaşdırır***. Kainatı bir baxışla oluşdurmaq yalandır. İdeya, fikir, düşüncə yalançı özülə dayananda hər şey təhrif olunur. ***Dində yalan təmələ qoyulur.*** **Ona görə**





***də kainat oyun-oyuncaq, fani elan edilir.*** Allahın əl, ağız, göz qabiliyyətinin olması onun əzəli və əbədi adlanmasına ziddir. (Yəni Allah görür, danışır, eləyir). Oyun-oyuncağın mahiyyəti olmur. Allahın "yaradıcılığı" mahiyyətsiz yaradıcılıqdır. Yəni Allah oyuncaq "yaradıb". Əgər bütün kainat oyuncaqdırsa, onda Mütləqi necə dərk eləmək olar?! Elə ona görə də dində Allahın dərk olunmasına yasaq qoyulur. Çünki oyuncaq yaradıcısını dərk eləmək onun Mütləq olmadığını üzə çıxarır. Dində Allaha inam əslində nisbiyə inamdır. ***Allah nisbi hadisələrin Mənası kimi deyil, Bənnası kimi çıxış edir.*** Əvvəl heç nə olmayıb, mütləq yoxluq olub, Allah da yoxluqdan varlıq yaradıb, özü də yoxluqda mövcud olub, yoxluqda dayanıb. Bu ideya idrakın heç bir məntiqinə, mərhələsinə uyğun gəlmir. Əslində dinin bütün xurafatı bu Yalandan başlayır. Ayrı-ayrı məqamlara baxaq. Peyğəmbərlər Allahın şərafətli qulları sayılırlar. Bu fikir əslində Quldarlıq dövrünün tələblərindən doğur. Məntiqlə əgər peyğəmbər quldursa, deməli, Allah quldardır.

Yeri gəlmişkən, islamı demokratik din adlandırırlar. İslamın yarandığı dövr Quldarlıq dövrü idi, Feodalizm formalaşmamışdı. Onun demokratiyası da Quldarlıq demokratiyası idi. Kapitalizm demokratiyasında İslamın demokratikliyi nədir, necədir, bizə bəlli deyil. Başqa bir məqam "Allahın öz peyğəmbərini sınaması" ideyasıdır. Bir tərəfdən "Allah hər şeyi biləndir, görəndir, başqa bir tərəfdən sınamaq. Sınamaq – tanımazlıqdan, bilməzlikdən irəli gələn münasibətdir. Hər iki halda Allah adamabənzər mövcudluğa enir, bununla da Mütləqilikdən məhrum edilir.

Merac məsələsini də bu faktlara əlavə eləmək olar. Məhəmməd Allahdan vəhy dinləmək məqsədilə Göylər aləminə uçub. Maraqlıdır ki, bu məsələyə məcaz kimi deyil, həqiqət kimi yanaşırlar. Quranda iddia olunur ki, Allahdan bütün vəhyləri Məhəmmədə Cəbrayıl adlı mələk daşıyır. Belə çıxır ki, Allah hansısa vəhyləri Cəbrayıla etibar eləmir, birbaşa Məhəmmədin özünə demək üçün merac təşkil edilir. Halbuki Quranda Allahın diliylə deyilir: "Allah sizə şah damarınızdan yaxındır". Allahın bu dərəcədə insana yaxın olduğu təqdirdə Göylər Aləminə uçuş, yaxud Cəbrayılın yer üzünə çoxsaylı enişləri nə üçün imiş?! Hesab edirik ki, bütün bu məsələlərdə bir aktyorluq var. Söz oynatmalarla insanları çaşdırmaq və süni cazibə yaratmaq bizə görə səmimiyyətdən çox uzaqdır.

Mələk ideyasının bu dərəcədə qabardılması da səmimiyyətsizlikdən doğur. Bəllidir ki, Quranda Allahın mələklərinə inam müsəlmanlığın şərtlərindən biri kimi irəli sürülür. Mələklər saf, təmiz ruhlar deməkdir ki, bu da animizm dövrünün qalıqlarıdır. Min illərdir ən ibtidai baxışların bu günə daşınması əslində bəşər övladının ruhunu kor qoymaqdır. Deməli, təmiz, saf ruhlar yalnız Allahın dərgahında ola bilər, yer üzündə insan həyatında ruhani saflıq ola bilməz. Bununla da din dünyaya işıq deyil, qaranlıq gətirmiş olur. Qəribə cəhət odur ki, Allah öz mələklərinə ərəb adları qoyub – Cəbrayıl, Mikayıl, Əzrayıl, İsrafil, Rizvan, Malik və b. Bu da yunanların politeizminin məntiqinə uyğun gəlir – Allahın nəzarətçi köməkçilərinin olması və bir millətin fərdi xüsusiyyətləri ilə məhdudlaşdırılması. Zevs, Hefest, Poseydon, Apollon, Afrodita – hamısı da yunan adları.

Əgər dünya fani elan olunursa, təbii ki, fani olmayan dünyanı uydurmaq qaçılmaz idi. Axirət dünyasının kuralları, yaşam sistemi planetimizin həyat sisteminin fantastik biçimidir. Yer padşahlığı göyləşdirilib və ilahi adlar seçilib. Təqdim olunan Axirət dünyasının tələblərini azadlığın və əsarətin məntiqi ifadəsi kimi nəzərdən keçirmək mümkün deyil. Çünki cənnət və cəhənnəm məcazi mənada deyil, həqiqi mənada sunulan anlayışlardır. Bu anlayışlarda insani məzmun və məna çalarları yoxdur. Əvvəldən axıra qədər süni effekt var. Effekt cazibəli görünsə də, heç bir gerçək əsasa malik deyil. Cənnət və cəhənnəm məsələsi dinin insana münasibətini çox qabarıq şəkildə əks etdirir. Bir tərəfdə insanlara kef, eyş-işrət vəd olunur, o biri tərəfdə vəhşi işgəncələrin pəncəsi ilə hədələnir. Bəs bu vədlər, hədələr nəyin qarşılığındadır?! Heç də insani keyfiyyətlərin aşkara çıxarılması və böyüdülməsi nəzərdə tutulmur. Kef, eyş-işrət xatirinə ədalətli, vicdanlı olmaq özündə hansı məntiqi daşıyır, anlamaq olmur. İnsan öz mahiyyətinə uyğun yaşamalıdır, ona niyə mükafat vəd olunmalıdır?! Məgər Ana öz övladına fədakarlıq edirsə, ona mükafat vermək lazımdır?! Mükafata şirnikən adam o deməkdir ki, öz mahiyyətini dərk eləmir. Dərk eləməyəndə isə onu icra eləmək mümkün deyil. Aktyora pul və mükafat verib rol tapşırmaq olar. ***İnsanlığı yaşamaq isə insana rol kimi tapşırıla bilməz. İnsani yaşamaq tərtib olunmur, təşkil olunmur. İnsanilik daxili nizamdır, haldır, onu aşkarlamaq, ona yetmək olur.***





Yaxud cəhənnəm vasitəsilə insanı İnsanlığa yönəltmək özünü doğrulda bilməz. İnsani əməllər daxili azadlıq üzərində həyata keçirilir. Qorxan, qorxudulan insan daxilən özünü tanımayan, azad olmayan insandır. Qorxa-qorxa ləyaqətli olmaq olmur. **Ləyaqət – qorxudan açılanda başlayır**.

Bu deyilənlərə dayanıb əlavə eləmək olar ki, Axirət Dünyası insani keyfiyyətləri aşkarlamır, əksinə, insanlığa qarşıdır. Müsəlmanlığın əsas şərtlərindən biri Axirət Dünyasının həqiqi dünya olmasına inanmaqdır. Ancaq dünyanı fani elan eləməklə Axirət Dünyasının əbədiliyi dinin özü tərəfindən şübhə altına alınır. Belə ki, "bir gün Qiyamət qopacaq, dünya və dünyadakılar məhv olacaq". Əgər dünya da öləcəksə, heç nə əbədi deyilsə, deməli, cənnət, cəhənnəm də əbədi deyildir. Cənnət və cəhənnəm möminləşən və möminləşməyən adamlar üçün düşünülmüş mükafat və cəza ünvanıdır. Dünya və dünyadakılar olmayandan sonra bu ünvanların qalması təbii olaraq anlamını itirir. Bu və bunun kimi məsələlərdən aydın görünür ki, din öz məntiqsizliyinin girovuna çevrilib. Dünya fanidirsə, deməli, müsəlmanlıq da boş və fanidir, müsəlmanlığın şərtlərindən biri olan cənnət və cəhənnəmə olan inam da.

Axirət Dünyası Allaha inamı xilas eləmək üçün düşünülüb. Məhz dində təqdim olunan Allaha inamı başqa cür doğrultmaq olmur. Gözəllikləri dərk edib Allahlıq məzmununa yetmək əvəzinə, şirnikdirmə və qorxu üsulu ilə Allaha münasibət formalaşdırmaq İnsani hal yarada bilməz.

Diqqət yetirin, həm Qiyamət qopacaq, həm də Mehdi zühur edəcək. Əgər Allah qiyamət qoparacaqsa, onda Mehdinin zühuru nəyi həll edir, Allahın əmrini ləğv eləməyəcək ki. Bu kimi təzadlı fikirlər sağlam yaşanmayan təzadlı əhvallardan doğur. Burada biz cəmiyyəti əvvəl çaşdırmaq, sonra da onun ağlı ilə əylənmək səviyyəsini müşahidə edirik.

İnsana münasibətin kəskin dəyişməsini və antiinsani biçim almasını Qəzavü-qədər (Qismətçilik) ideyasında da izləmək mümkündür. İnsan taleyinin qabaqcadan müəyyən olunması – alın yazısı (elmi dildə buna fatalizm deyirlər) əslində hər cür eybəcərliklərin, hər cür fəlakətlərin bəraətidir. Həm insanın taleyi kodlaşdırılıb, proqramlaşdırılıb, həm də ondan möminlik tələb eləmək bir araya sığmır. Əvvəl insanı düşünmək-dən, dəyişilməkdən məhrum edir, sonra onu kamilləşdirməkdən bəhs edir. Kamilliyin də mənası Allaha qul olmaqdır. Başqa sözlə, dində ka-millik bərabərdir köləliyə. Kölənin ibadətindən müqəddəslik işığı

yandırmaq olmaz. Dinçi düşünmür, sual vermir, axtarmır. İçində gizlənir. Naşı yaşayır, avam qalır. İçində gizlənir, yəni qüsurlardan azad olmur, möminlik görüntüsü yaradır. Yaşayanda naqis yaşayır, danışanda xalis danışan görünür. Əslində onun "xalis" danışığında həqiqət olmur, xurafat olur. Xurafatını həqiqət kimi sırıyanın xudbinliyi aşkarlanır, öz yalançı üstünlüyünü nümayiş etdirir.

Dində insan özünü dərk eləmir. Öz sirrinə vaqif olmayan insan özünü kainatın kölgəsi, fövqəlqüvvənin köləsi kimi görür. Fövqəlqüvvədən qorxu insanın necə var, elə qalmasına səbəb olur. Cəzadan qorxan fəlakəti dərk eləməz, ömrünü dəyişməz – "alın yazısı"na qarşı çıxmaz. Məhz buna görə də Məhəmməd dinini inqilabi yolla həyata keçirdi. İntibah yolu ilə olsaydı, yüzillər çəkərdi. Təbiiki, yalan və xurafat üzərində intibah baş verməz. İntibah daxildən dəyişməkdir, inqilab üzdən. Baxmayaraq ki, Məhəmməd dəyişiklik yaratdı, hələ istənilən ictimai dəyişiklik İntibah deyil. Hətta onun baş verməsi qalmaqalsız şəraitdə baş tutsa belə. Dinin yayılıb genişlənməsi isə döyüşlərlə, qalmaqallarla həyata keçirdi. Bu da yeniliyin çətinliklə qəbul olunmasından deyil, yeniliyin zorakı üsullarla qəbul etdirilməsindən doğan qalmaqallar idi. Fikir verin, Quranda deyilir ki, "sizinlə döyüşənlərlə siz də döyüşün". Halbuki, dini qəbul etməyənlər müsəlmanlarla deyil, müsəlmanlar onlarla döyüşürdülər. Təbi ki, humanizmin təmsilçisi kimi çıxış edən din başçısı "bizi qəbul etməyənləri qırın" əmri ilə döyüşə başlamazdı. Deyərdi ki, "sizinlə döyüşənlərlə siz də döyüşün". Belədə işğalçılıq pərdələnmiş olur. Yuxarıda dediyim kimi, dinin (yeniliyin) qəbul olunması onillər, hətta yüzillər tələb edir. İnsanları inandırmaq və onların həyat tərzini dəyişmək sıradan bir olay deyil. Ona görə dini qəbul etdirərkən atılan zorakı addımların günahını qarşı tərəfin boynuna yazmaq qaçılmaz idi. Həm döymək, həm də günahlandırmaq antiinsani taktikadır, bu əməli müqəddəslik əməli adlandırmaq kökündən səhvdir. Tarixdə bu cür faktlar xeyli dərəcədədir. Onlardan biri Bədr savaşıdır. Əbu-Sufyanı talançılıqda suçlayıb, onun karvanını talamaq məhz din başçısının öz iştirakı ilə həyata keçirilmişdir. Onun ölümündən sonra da müsəlmanlığı qəbul etməyənlərə divan tutmaq və talançılıq əməlləri davam etmişdir. Babəkə qarşı başlayan, onu qanına qəltan eləyib Azərbaycanı talayan yürüş; habelə Mərkəzi Asiyada Küteybənin başçılığı altında dini qəbul etdirmək üçün türklərə qarşı qətliamın həyata keçirilməsi və b.k. Bu





olaylar Mədinədə başlayan inqilabi proseslərin başqa xalqlara, toplumlara qarşı məntiqi davamı olan antibəşəri əməllər idi. İntibah başqa səviyyədir – insani münasibətlərin ictimai nizama çevrilməsidir. İnsana qarşı zorakı davranmaq, heyvani münasibət bəsləmək insanlaşdırma səviyyəsi yetirə bilməz, necə ki, yetirə bilmədi. İnsanı döyəsən, aşağılayasan, sonra da onda özünə qarşı sevgi yaradacağını düşünəsən, buna heç bir ad qoymaq mümkün deyil. Allah deyir, məni sevməsəniz sizi qır qazanlarında qaynadacam. Müsəlman da deyir, yaxşı, səni sevirəm, təki mənə mərhəmət göstər, qır qazanında qaynatma. Bunlardan aydın olur ki, toplumu özünə tabe eləmək, etirazları aradan qaldıraraq dinin yaşamasını təmin etmək üçün "Alın yazısı" ideyası qəti bir inadla qorunub. Burada məqsəd insan deyil, dindir. Dinin məqsədə çevrildiyi mühitdə insanlığın qələbəsi təmin olunmaz. Çünki dinin hədəfi insanlaşdırmaq deyil, bəndələşdirməkdir.

İslamda **ümmətçilik** ideyası millətin, millətçiliyin təməl prinsiplərinə zərbə vurdu. Bizə görə bəşər tarixində milləti ləğv etməyə çalışan üç ideologiya olub – **Ümmətçilik, Kommunizm və Qlobalizm.** Ancaq qəribədir ki, bu ideologiyaları yaradanların milləti ləğv olunmur, sadəcə başqa millətlərin etnik kimliyinin, özünəməxsusluğunun üstündən xətt çəkməklə hakim millət olmaq məqsədi güdülür. Məsələn, kommunizm quruluşunun arxasında duran rusların dili, mədəniyyəti, siyasəti inkişaf edir, başqa xalqlar isə təqlidçi duruma salınırlar. Yaxud qlobalçılığın arxasında duran ingilislərin hegemonluğu güclənir, başqa xalqlar isə ingilisləşmə taleyinə alışdırılır. İslamın ümmətçiliyində də beləcə, ərəbləşdirmə prosesi gedir. **Əslində ruhaniyyat millətlərin özəlliklərini qoruyaraq özümlü bəşər halı yaratmalıdır**. Burada isə xalqların təqlidçilik – yamsılama xətti tutmasıyla bəşəri ahəng pozulur. Xalqların etnik müxtəlifliyini aradan qaldırıb eyniyyət yaratmaq antiruhaniyyatdır.

**Millətçilik – millətsizləşdirmə xurafatıyla döyüş deməkdir**. Bu mənada Millətçilik həm də ruhaniyyatdır – millətin ruhunu, milli keyfiyyətlərini qorumaqdır. Din millətçiliyi küfr sayır, ərəbləşdirməni açıq şəkildə ortaya qoyur. **"(Ey Məkkə əhli) Biz onu ərəbcə bir Quran olaraq nazil etdik ki, bəlkə (mənasını) anlayasınız" (26-cı əş-şüara surəsi, 195-ci ayə)**. Bəs bizim, türk olaraq günahımız nədir, onu anlamaya-anlamaya zorla qəbul etdirdilər. Məscidlərdə, yas ünvanlarında ərəb dilini bilməyən toplumu psixoloji təlqinlə yığırlar

vaizlərin çənəsinin altına. İslam elə bir Allah qorxusu yaradıb ki, ona qarşı tənqidi mövqe ortaya gəlmir. Yaxud ortaya çıxan adam qaragüruhun nadanlığından çəkinir. İslam İdrakın üzünə bağlı dindir. Təbliğat da bu qorxunu möhkəmlətmək yönündə qurulur. Ruhani bilik, İdrakçılıq yaranmır. Ona görə də İnsan həyatda ayıqlığını itirir. Din dərin məsələləri düşünməyə yasaq qoydu. Bununla da bəşəriyyətin icma dövründən gələn ruhani kortəbiiliyini qoruyub saxladı. İnsan suallara cavab verə bilməyəndə qorxmağa başlayır. Ruhlar aləmi insanda ölüdən, qəbirdən qorxu yaratdı. Hər şeydə ruh axtarmaq (daşda, kəsəkdə…) – hər şeydən qorxmaq demək oldu. Allahın mələklər ordusu ruhlar aləminin yeni biçimdə təkrar olunmasıdır (animizmin qalığıdır). Animizmdə ruhlar idarə etdiyi halda, dində mələklər idarə edir. Kəbə – Allah Evi, Qaradaş, şeytana daşatma və s. bütpərəstliyin qalıqlarıdır. İslamda Buddizmə qarşı kəskin mövqe sərgilənir, Budda peyğəmbər sayılmır. Buddizmi bütpərəstlikdə suçlayaraq gözdən salırlar, özləri də şeytana daşatma ayini icra edirlər.

Məhəmməd Qüreyşilərin qəbilə Allahı olan Əl-İllahı bütün müsəlmanların (əvvəl bütün qəbilələrin) Allahı elan etdiyi üçün həmin Allaha xas cəhətlərdən yaxa qurtara bilmədi. Ruh anlayışına münasibət, axirət, oruc, qurban kəsmək və b.k. adətlər ibtidai etiqadların qalıqlarıdır.

İslam dini rəhbərliyi baxımından da Tayfa dini təsirindən uzaqlaşa bilməmiş və varislik əsasında xilafətin ötürülməsini təmin etmişdir. Məhəmməd ərəb icmasının (dövlətinin) inzibati (dünyəvi) başçısı idi. Dedik ki, dində dərin idrakçılıq işləmir. Əslində "Quran"dan sonra ruhani kitabın, Məhəmməddən sonra peyğəmbərin olmayacağını iddia eləmək də idraksızlığın əlamətidir. Bu iddia bəşəriyyətin ruhani axtarışlarına yasaq qoymaqla yanaşı, həm də təhlükəli tendensiyanın əsasını qoyur. Min ildən artıqdır islamın olmasına baxmayaraq, həyatda heç bir insani tərəqqi baş vermir. Əksinə, insani gerilik gündən-günə qabarır. Bu isə dinə tapınan toplumda bir fikir formalaşdırır – "yəqin Qiyamət günü yaxınlaşır, dünya məhv olacaq". Bu fikir ara-sıra mətbuatda da səsləndirilir. Bununla da insanın həyata ümidi qırılır. Din pozucu davranışlara bir növ təkan vermiş olur. "Onsuz da dünya dağılacaq, hamı – yaxşı da, pis də qırılacaq. Nə vətən, nə gələcək, nə insanlıq…"





## III. Daxilində xurafat bəsləyib həqiqətə inanmaq olmaz

Din belə əhvalları mühitə çevirir. Allahın dərk olunmazlığı ideyası bu mühitin xurafatçılığını böyüdür və normaya salır. "Quran"dan sonra ruhani kitabın, Məhəmməddən sonra peyğəmbərin olmayacağını irəli sürmək də xurafatçılıq mühitinə bağlıdır. Məhəmməd Allahı dərk eləməyə icazə vermir və dediklərini, elədiklərini Allahın adından həyata keçirir. Təbiidir ki, Məhəmmədin təqdimatı ilə Allahı dərk eləmək mümkün deyil. Çünki Allahla bağlı təqdim olunan keyfiyyətlər adamı qeyri-müəyyənliklər dolaşığına salır. Allah həm fövqəltəbii qüvvə kimi sunulur, həm də danışan, görən, düşünən, qəzəblənən adam keyfiyyətlərinin daşıyıcısı kimi. Onun sifətləri həm metafizik, həm də antropomorfik xüsusiyyətlərə aid edilir. Allah nisbiləşir, ötəri, keçici xassələrə malik olur. Məhəmməd onu bütpərəstliyin yaratdığı psixoloji təsəvvürlərə uyğunlaşdırır. Allahı fövqəltəbii (təbiətüstü, dünyaüstü) qüvvə kimi təsəvvür eləmək mümkün deyil. Əlbəttə, təsəvvür olunmayan qüvvə, hadisə idrak üçün məntiqini, mahiyyətini itirir. İdrakın məntiq tapıb daxil ola bilmədiyi nə varsa fantastikadır. Adamabənzər xassələrlə də Allahı dərk eləmək müşküldür, çünki həmin xassələrlə canlı insanın anatomiyasına gəlib çıxmaq olar. Bu xasələrlə fövqəltəbii xassələri birləşdirəndə isə mənasız bir Allah obrazı alınır. (Bunun Hürufilərin "İnsan Allahdır" ideyasına dəxli yoxdur). Bir sözlə, əgər anlayış, hadisə dərk olunmursa, deməli, mənası yoxdur. Əgər mənası varsa, o, mütləq dərk olunandır. **Yalan dərk olunmur, həqiqət dərk olunur**. İnsan din vasitəsilə Yalanı özünə sırıyır və imkanlarını məhdudlaşdırır. Bu mənada "Quran"dan sonra ruhani kitabın yazılamaycağı da bir növ təlqindir. Bu təlqinetmələr ən primitiv üsullar və dəlillərlə həyata keçirilir. Diqqət yetirin, deyilir ki, "İslamdan sonra ona qarşı yeni din yaranmadı. Çünki bu din güclüdür, Allah yenisinə ehtiyac görmür". Məgər Buddizmə qarşı, xristianlığa qarşı yeni din yarandı?! Əvvəlkinə qarşı yaranır o deməkdir ki, yeni yaranan əvəz kimi gəlir, əvvəlki ləğv olunur. İslam yarandı, xristianlıq ləğv olmadı ki. Nəinki ləğv oldu, bu gün xristianlığa tapınanların sayı islama tapınanlardan çoxdur. Hələ üstəlik **xristianlıq yoxsulların sevgisi ilə yayıldı, islam isə amansız qılınc döyüşləri ilə.** Həm də bu döyüşlər işğalçılıqla nəticələnirdi. Bununla bağlı tarixi faktlar bəs qədərdir. Hətta "Quran"da məlum "Qənimət" surəsi də qarət olunmuş sərvətlərin

bölgüsü ilə bağlıdır. İnam və hərb, müharibə, işğal, zorakılıq – əcayib təzaddır. İnam böyük mənada nizamı dəyişir, siyasət isə gedişatı. Ancaq inam, yəni din nizamı deyil, gedişatı dəyişdi. Əslində siyasətin gördüyü işi gördü. Məhəmməd siyasi gedişatın hakimi oldu. "Qənimət" surəsində onun sosial-hüquqi məsələlərdə özünə yararlı variantları əsas götürməsi aşkar görünür. **Özünə imtiyazlar əldə edərək ədalət prinsipləri müəyyənləşdirmək özünü axıra qədər doğrulda bilməz.** Peyğəmbər tərəfindən nisbi ədalətin təsbit olunması onun saflığını şübhə altına alır.

"Quran"dan sonra kitabın olmayacağı fikrini möhkəmlətmək üçün onun (Quranın) Allah kəlamı olduğu surələrdə tez-tez vurğulanır. Təbii ki, "Quran"ı Allahın kəlamı saydırmaqla ona adi kitablardan fərqli münasibət aşıladı Məhəmməd. Öz kitabı kimi təqdim eləsəydi, ona dərin münasibət olmayacaqdı. Kitabını bütə çevirdi. Kitaba münasibətin müqəddəslik səviyyəsinə qalxmasının əleyhinə deyilik. Bunun üçün kitab məzmunu etibarilə əvvəldən axıra qədər müqəddəslik çağırmalıdır. Kitabın Allah kəlamı olduğunu deməklə insanları qorxutmaq, hədələmək müqəddəsliyə zidd əməllərdir. Kitabın o cür təqdimatı təəssüf ki, zaman-zaman onu dua, cadu qaynağına çevirdi.

Quran Allahın kəlamıdır deməklə Allahlıq məzmununa ciddi zərərlər yetirilir. Birincisi, Allahın kəlamının olması nə deməkdir?! Tutalım ki, bu belədir. Bəs Allah bu qədərmi yaddaşsızdır ki, bir yerdə dediyi kəlamı başqa bir yerdə təkzib edir, niyə bu qədər ziddiyyətli "vəhy"lər göndərir?! Əgər bu dəyişiklikləri şəraitə uyğun edirsə, deməli, "Allahın kəlamı" nisbidir.

Əslində isə Məhəmməd dövrünün ictimai-siyasi durumunu vaxtından əvvəl dəyərləndirə bilmədiyi üçün bir-birini təkzib edən ayələr söyləmişdir. Allahın adından danışmaq taktika idi.

"Quran"dan göründüyü kimi, ilkin dövrdə Məhəmməd ərəbləri aldadıcı ideyalarla (Tövhid, alın yazısı, Axirət dünyası, Qiyamət günü) tabeçiliyə çağırır. İkinci dövrdə ayələr əsasən müharibələrdən bəhs edir. Daha doğrusu, ayələrdə Məhəmmədin müharibə ilə bağlı buyruqları əks olunur.

Bütçülük cəhalətindən səmavi cəhalətə çağırılan ərəblər köhnə vərdişlərindən çıxmaq istəmədikləri üçün Məhəmməd onlara qarşı müharibə cəbhəsi açmışdır. Eyni halda Allahın adından öz buyruqlarını ayələşdirmişdir.





Müsəlmanlığın əsas şərtlərindən biri "Allah tərəfindən göndərilən səmavi kitablara (Tövrat, İncil, Quran)" inanmaqdır. İnanmaq əslində qəbul etməkdir. Bəllidir ki, Tövratın əsas ideyalarından biri Qisasçılıqdır – "Bir gözünü çıxartdı, ikisini çıxart, bir dişini sındırdı, ikisini sındır". Qılınc götürən, müharibə aparan Peyğəmbərin bu ideyanı qəbul etməsi adi hal idi. Hətta Məhəmmədin əmisi Əbu-Ləhəb dini qəbul etmədiyi üçün söyüşə və lənətə məhkum edilmişdi. Məncə, bunlar yəhudi-semit baxışında oturuşmuş psixoloji tələbdir.

Hesab edirik ki, islamı ərəbin milli ideologiyası saymaq doğrudur – ən çox yalanlarla yüklənmiş milli ideoloji. İslam – bəşərləşdirmə yolu deyil, ərəbləşdirmə yoludur. Kitabı ilahi vəhy (göydən gələn) adlandırmaqla onun yazıldığı tarixi şəraiti dərk eləmək olmaz, ərəbləşdirməni ört-basdır eləmək olar. "Quran" ərəb iqlimi, qaydaları, səhraları fonunda yazılıb. Ona görə də başqa etnosların onu olduğu kimi qəbul etməsi bir çox özəlliklərin ləğvinə səbəb olmuşdur və mənəvi aşılanmaya gətirib çıxarmışdır.

## IV. Xurafatdan xurafata yox, xurafatdan Həqiqətə

İslam dinində cəhalət görən, xurafat görən, yadlıq görən bir sıra insanlarımız ya ateist olurlar, ya Tanrıçı, ya da Totemçi. Ancaq bununla onlar heç nəyə nail olmurlar, bizə görə heç nəyə nail olmayacaqlar da. Ateizm, ümumiyyətlə, antibəşəri baxışdır. Ateizmdə "Mütləq" anlayışı, ruhaniyyat, müqəddəslik rədd edilir. Ateist, yaxud materialist filosoflar dinin yaranmasını iqtisadi çətinliklərlə bağlayırlar. Guya iqtisadi problemlər aradan qalxanda din də aradan gedəcək. Bu yanaşma doğru deyil. İqtisadi gəlişmə insani ehtiyacları ödəyə, əvəz edə bilmir. Ateizm boşluqdur – insanı boşluğa salır. Tanrıçılıq – türk baxışıdır, uca baxışdır. Ancaq Panteizm elementləri ilə yüklü olsa da, türk onu müəyyən bir sistem kimi qoruyub bu günə gətirməyib. Sistem kimi mövcud olmayan bir baxış toplumun həyat tərzini, onun mədəni əsaslarını təmin edə bilmir. Təəssüf ki, Tanrıçılıqla ərəbin Allahçılığını eyniləşdirib birincini ikinciyə qurban vermişik. Bu gün də Tanrıçılıqla Allahçılığın eyni olması yönündə təbliğat gedir. Məqsəd türkün özünəməxsusluğunu dərk eləməsinin qarşısını almaqdır. Bu başqa bir mövzudur və biz bu məsələyə başqa-başqa yazılarda toxunmuşuq. Sadəcə ayrı-ayrı insanlarımızın seçimləri ilə bağlı mövqeni aydınlaşdırmağa çalışırıq.

Vurğuladıq ki, insanlarımızın müəyyən bir millətçi kəsimi Totemçiliyə – Bozqurdçuluğa meyil edirlər. Ancaq bu da öz-özlüyündə tərəqqiyə heç nə vermir. Milli dirçəliş üçün Qədimliyimizin atributlarını yaddaşlarda bərpa eləmək olar, həyatımızda isə bərpa eləməyin heç bir anlamı yoxdur. Bozqurdçuluqdan yalnız bir şeyi öyrənmək olar – yalqızlığın, tənhalığın doğurduğu güclülüyü və cəsarəti. Başqa səviyyədə isə ruhani inkişafın qabağını kəsmək olar. Totemçiliklə milli yön (qiblə), ruhaniyyat öz ifadəsini tapmır. Səmavi dinlərdən sonra ***Yeni Bəşər halı*** gərəkdir. Bu isə Milli-Mənəvi Dirçəliş əsasında yarana bilər. Milli keyfiyyətləri hər bir inkişaf mərhələlərində qabağa vermək gərəkdir. Ancaq köhnə, ibtidai ənənələrə milli keyfiyyət adı qoymağa ehtiyac yoxdur. Başqa sözlə, milli keyfiyyətləri köhnəltməyə qoymamaq, köhnə ənənələri yeniləməyə gərək yox. (Qədimlik isə köhnəlik deyil. Köhnəlik – həyatımızı sabaha bağlaya bilməyən ibtidai ənənələrdir).

Dini qəbul etməməyin səbəbi çox vaxt "məndən deyil" prinsipinə söykənir. Bu isə dinin xeyrinədir. Çünki din özünə bəşəri dəyər deyir. Bəşəri dəyər isə hər kəsdəndir. Əslində bəşəri sayılan dində millilik var olmursa, aydınlaşdırıb dışlamaq gərəkdir. Kortəbii dışlamaq mümkün deyil. Din hansı təməl prinsiplər üzərində yaşayır, bu təməl prinsiplərə tapınıb onu qorumaq insana nə verir, onu inkişafa doğru aparırmı? Yoxsa cəhalətdəmi saxlayır?!

Bizim yuxarıdakı izahlarımızdan görünür ki, din əsasən vərdiş əsasında oturuşub, öyrənmək və dərk eləmək əsasında yox. Dinə ayıq baxmağa çalışanlar həmişə təqib olunub, hətta edam olunub. Din sözdə müqəddəslikdən danışıb, əməldə müqəddəsliyi öldürənlər ordusu yaradıb. Min illərdir dinin keşiyində dayananlar əli dəyənəkli ayıqların, – toplumu ayıltmaq istəyənlərin üstünə cumur. Onlar dəyənəyi yerə qoymurlar, çünki idrak qarşısında dərhal çaşırlar. Bugünkü İran dövləti əli dəyənəkli qaragüruh hazırlamaqla məşğuldur. İnsanları küt və avam saxlayaraq onlardan qatillər, terrorçular yetişdirirlər.

Bu gün biz, Azərbaycan olaraq, yad etiqadlılıqdan və çoxetiqadlılıqdan dağınıq duruma düşmüşük. Bəşəriyyət elmi-texniki inkişaf mərhələləri keçir, biz də bu mərhələləri keçirik. Ancaq dağınıq durumdan çıxa bilmirik. Çünki ruhun nizamsızlığını elm aradan qaldıra bilmir.

Türk üçün Məhəmmədin "Allah təkdir, Məhəmməd onun Rəsuludur" düsturu isə, dediyimiz kimi, xilas açarı ola bilmədi. Əminliklə





bildiririk ki, Azərbaycanı bu dağınıq durumdan, bütövlükdə türkü, heç kimə gurultulu görünməsin, bəşəriyyəti ruhani nizamsızlıqdan Asif Atanın "Mütləqə İnam"ı çıxara bilər. Mütləqə İnam əsasında yeni ictimai-iqtisadi formasiya yarana bilər – ***İnsanilik sivilizasiyası*!**

Asif Atanın ideyaları bizim bu qənaətlərimizi möhkəmləndirir. Bütöv milli, eyni halda bütöv bəşəri ideya yarandı. Bu ideyalarda idrak yeni bir mərhələyə keçir və əvvəldən axıra qədər həqiqət axtarışında olur. Təbiidir ki, Asif Ataya qədər hər dövrün idrak səviyyəsi olub. Dinlər uzun illər yaşasa da, dini idrak qısa zamanda tükəndi. Çünki məhdud idi. Elm inkişaf elədikcə dini ideyaların əsasları sarsıldı və ruhani tərəqqi dayandı. Dini ideyalarda elmə zidd cəhətləri elm alt-üst elədi. Asif Atanın ideyaları elmə zidd olmadığına görə, elmin istənilən dövrdə sağlam inkişafı bu ideyalara ziyan verə bilməz. Əksinə, bu ideyalar elmin özü üçün də təməl baza rolunu oynaya bilər. Çünki insanlaşmadan yüksək tərəqqi yoxdur.

## V. Mütləqə İnam yalansızdır

Asif Atanın Dünyabaxışına bağlı təməl prinsipləri yığcam şərh etsək, elmlə fəlsəfənin vəhdətini və bu vəhdətin ruhaniyyata yaradığını göstərmək mümkündür. Bu prinsipləri aşağıdakı kimi ifadə edə bilərik:

1) Dünya yaradılmayıb və idarə olunmur. Dünyanın nizamı, ahəngi özündədir, gedişatı özündəndir.

2) İnsanlaşmadan kənarda heç bir tərəqqi bəşəriyyəti özümlüyünə qovuşdurmur.

3) Millətçilik Bəşəriliyə aparan yoldur və o, ruhani hadisədir.

4) Şərqiliyin İnama bağlı gələcəyi bəşəriyyətin xilas yoludur.

5) "Yalnız Mütləq olan həqiqidir, nisbi həqiqət yalandır".

Bu prinsiplərlə Asif Atanın 5 (+1) təməl ideyalarına müraciət olunsa, yaxşı olar. Xatırlatma üçün Ruhani İntibahın ideyalarının adlarını burada çəkmək istəyirik – Mütləqə İnam, Kamil İnsan, Ruhani Cəmiyyət, Müstəqil Vətən, Özümlü Şərq, Ləyaqətli Bəşər.

Biz vurğuladıq ki, dünya yaradılmayıb və idarə olunmur. Nizamı, ahəngi özündədir, gedişatı özündəndir. Bu Baxış Allaha, yəni transsendentala, fövqəltəbii qüvvəyə, göylər səltənətinin hökmdarına – dünyanı yox yerdən yaradan fantastik qüvvəyə inamı rədd edir. Əzəlilik,

əbədilik dünyaya, insana bağlanır. Daha doğrusu, Məna dünyanın, insanın özündə aşkarlanır.

İndiyə qədər heç bir fəlsəfədə məsələ bu səviyyədə qoyulmayıb. Belə inam da olmayıb. Fövqəldünya ideyası nəzəri olaraq qalır, gerçəkləşmir, heç nəyi dəyişdirmir və mənəvi-ruhani inkişaf üçün zəmin ola bilmir.

Həqiqətin dünyanın özündə dərk olunması gələcəyə ayıq baxmağa imkan verir və nikbinlik yaradır. Asif Atada Həqiqətin, Mənanın dərkolunmazlığı kimi bəsit, arxaik bir düşüncə tərzinə son qoyulur. Asif Ataya görə bəşər idrakının imkanları sonsuzdur, ona yasaq və məhdudiyyət qoymaq olmaz.

Bəli, Asif Ata sübut edir ki, İnsanlaşmadan kənarda heç bir tərəqqi bəşəriyyəti özümlüyünə qovuşdurmur. ***Bir var inkişaf, bir də var xilas.*** İnsanı xilas etmədən inkişafdan danışmaq ciddi anlam daşımır. İnsanın xilası millətin xilası deməkdir. İnsanın xilası onun özünü xilaskara çevirir. Sağlam düşüncəyə, məntiqə, təfəkkürə malik olan insan milli şüurun inkişafı zəminində ideya yaradıcısına, daşıyıcısına çevrilir. İdeyasız xilaskarlıq yaranmaz. İnsanı bioloji hadisə səviyyəsində saxlayan gedişat ideya vasitəsilə dəyişdirilə bilir. Təbii ki, insanı mahiyyətinə çatdıran tələbi özündə daşıyan ideyadan söhbət gedir. İnsanın əqidəsi də bu ideyadan yaranır. Bizə görə əqidəli insan çox azdır. Siyasi əqidə, dini əqidə, ideoloji əqidə anlayışlarını doğru saymırıq. Əgər doğru saymaq gərəkirsə, belə çıxar ki, bütün bəşəriyyət əqidəlidir. ***Bizə görə əqidə – insanın özünə bənzəməsi üçün seçilən aqibətdir, yaxud bəşəriyyəti özünə oxşatmaq tələbindən doğan aqibətdir***. Bu mənada siyasəti əqidə saymaq yox, əqidəsizlik saymaq doğru olar. Siyasətdə insan heç vaxt özünə bənzəmir, özündən ayrılır – tülküləşir, canavarlaşır, məkrə, xəyanətə enir, aldatmaqla, yalanlar "sistemi" yaratmaqla məşğul olur. Din də insanı aldadır, alçaldır, mənən heçə çevirir. Bu baxımdan insanı heçə çevirən hər hansı bir baxışa tapınmaq əqidə deyil. Əqidədə insan özünü aldatmaz.

İnsanı həqiqətsizliklə xilas eləmək baş tutmaz. Xilas Mütləqə tapınmaqdır. Mütləqə tapınmaq insanlaşmaq deməkdir. Öz mahiyyətinə uyğun yaşamayan insan azad insan olmur. Azadlığı tanımadan millətləşmək mümkün deyil. Millətləşmək də Bəşərilik yoludur. ***Bəşərilik – Millətlərin insani yaradıcılıq baxımından vəhdətinin ahəngidir.*** Bu mənada millətçiliyi damğalayan ideologiyalar, siyasi doktrinalar rədd





olunmalıdır. Milli inkişafı əngəlləmək dünyaya ağalıq eləmək iddiasının təsdiq olunması üçündür. Ona görə milli mədəniyyətləri məişət səviyyəsinə sıxışdırırlar. Dünyanın nizamında, sivilizasiyanın gəlişməsində isə "vahid mədəniyyət" qəbul etdirilir. Hər bir millətin adət-ənənəsi, məişəti, geyimi onun özəl xüsusiyyətlərini ifadə edir. Bu xüsusiyyətlər dəyişikliyə uğradılanda onun mədəni atributları muzeyləşir. Yəni gerçək yaşamını itirir. Belə olan halda millətin mədəni varlığı dərk olunmur. Bu səbəbdən də biz deyirik ki, ***Millətçilik – milləti yox olmaqdan xilas eləyən ideyadır***. Bəşər mahiyyətli ideya özündə zərərli təsirlər daşıya bilməz. Daşıyarsa, deməli, ideya təhrif olunur.

Mütləqə İnam Dünyabaxışından bəlli olduğu kimi, Asif Ata İntibahının ideyalarından biri "Özümlü Şərq" adlanır. O hesab edir ki, Şərqdə yaşamın nizamı və bu yöndə axtarışlar əsasən mənəviliyə, Ruhaniliyə bağlı olub. Maddiyyatçılıq – Qərb təfəkkürünün dünyanın üzərinə yürüşüdür. Qərb dünyanı maddiyyatçılıq tələsinə salıb. Maddiyyatçılığın genişlənməsi (total inkişafı) Şərqi dəyərləri dünya üçün gərəksizləşdirdi. Təbiidir ki, maddiyyatçılıq Adamın xislətində var. Bu cəhətdən maddiyyatçılıq Şərqdə hökmdarların əməlində, həyatında olduğu halda, Qərb onu sistemləşdirdi, ictimai həyatın normasına çevirdi. Bir vaxtlar maddiyyatçılığı həyat tərzinə çevirənlərin əməlləri ədalətsizliklə müqayisə edilirdi. İndi ona təbii baxılır. Ona görə də dünyanın insanilik nizamı tamam pozulub. Asif Ata Özümlü Şərq deyəndə mənəviliyə qayıtmağı, ruhani qanunların bərpa olunmasını nəzərdə tutur. Ancaq burada dini tələbləri deyil, İnamın qəbul olunması fikrini yürüdür.

Adamda özünü başqalarıyla müqayisə eləmək tendensiyası mövcuddur. Bu xüsusiyyətin inkişafı fərdin fərdlə döyüşünə gətirib çıxartdı. Maddiyyatçılıq bu döyüşü daha da qızışdırır. Başqalarından üstün olmaq (xudbinlik) həyat uğrunda mübarizəyə təkan verir. Təəssüf ki, bu xarakterik cəhəti böyük məsələlərdə aradan qaldırmaq üçün din heç nə eləmədi. Adamı insanlaşdırmaqla maddiyyatçılıqdan açmaq olar. Bu, İnamın işidir. İnam deyir, adam özünü başqalarıyla deyil, Mütləqlə müqayisə eləməlidir. Həqiqətçiliyə yetmək üçün Mütləqçilik yolu getmək gərəkdir. Mütləq olmayan həqiqətdə yalan var. Adamın heyvandan ayrılmasının, İnsana qovuşmasının ölçüsü Mütləqilikdir.

İstəkli oxucu, biz bu mövzumuzu iki hissədən ibarət təqdim eləsək də, ən çox dinin təməl prinsiplərini şərh eləməyə yer ayırdıq. Çünki bu

günün özündə belə dini baxışın manevrləri yalanı həyatımızda oturuşdurur. Ona görə də imkanımız yetdiyi qədər yalan əsarətinə qarşı etiraz edir və mövqe sərgiləyirik. Sözümüz, düşüncəmiz, yaradıcılığımız İnamın gəlişməsinə xidmət edir. Hər addımda Asif Atanın təməl ideyalarını təqdim edirik. Bu ideyaların daha geniş izahını tərəfimizdən "Asif Ata Amalı, yaxud İnsanlığın İnamı" əsərində təqdim etmişik. Ancaq bu, ilk və son deyil. Bu yazıda əsas məqsəd məhz dinin təməl prinsiplərinə yönəlik mövqe sərgiləməkdir. Oxucuda yarana biləcək "bəs nə etməli?" sualına cavab üçün qısa şəkildə İnamdan (Mütləqə İnam Dünyabaxışından) fikirləri tezislər şəklində bu yazıya əlavə elədik.





## İNAMIN BİLİNMƏ MƏRHƏLƏLƏRİ

### I. İnamın yaranma zərurəti

Ərəblərin məlum işğalçılığı – İslam bayrağı altında qətllər, qarətlər, Babəkin amansız edamı; Azərbaycanın ikiyə bölünməsi, zaman-zaman Rus, İran Azərbaycanı kimi qoltuqlanması; azadlığın, müstəqilliyin tədricən xalqın əsas kütləsinin şüurundan silinməsi və müstəmləkə aqibətinə öyrəşdirilməsi; tarixin ayrı-ayrı dönəmlərində (istər siyasi, istər mədəni-ideoloji yöndə) irəli duran ziyalıların, yaradıcı insanların qısa zamanda geri oturdulması, xalqın düşüncələrə, maariflənməyə yönəldilməsinin qarşısının alınması, – bu sıradan bolşeviklərin müstəqilliyimizə divan tutması, vətənimizin müəyyən hissəsini Ermənistanlaşdırması; milli şüurun məhv edilməsinin 37-ci il zirvəsi; kütlənin ağlında irəli duranlarımızın xain, dönük, satqın kimi epitetlərlə ləkələndirilməsi; ulusumuzun adının pozularaq mücərrəd millət (azərbaycanlı) anlayışının ona təlqin olunması (təsadüfi deyil ki, demokratiya oyunları başlayanda ayrı-ayrı yurdsevərlərin, ziyalıların türk adımızı gündəliyə gətirməsi xalqın içində istehza ilə, ikrah hissi ilə qarşılanırdı. Bu münasibət bu gün də davam edir); Sovet-rus imperiyasının Azərbaycan insanlarının ağlında Türkiyəyə qarşı düşmənçilik toxumu səpməsi, türk adına qarşı az qala nifrət hissi formalaşdırması hələ də yaddaşlardan tam silinib getməyib.

Və nəhayət, Qərb demokratiyasının "Qarabağ, 20 yanvar, Xocalı" vəhşətləri yaratması və s. ***İnamın*** zəruriliyini aşkarladı, belə bir ulusal hadisənin başlamasını labüd şəkildə üzə çıxartdı.

Bizim xalqımızı yüzillərdir əzirlər, özgələşdirirlər. Başqa dillərin, mədəniyyətlərin, gələnəklərin təsiri ilə dilimizi, mədəniyyətimizi, gələnəklərimizi əritməyə çalışırlar. Bu xalqı əzdikcə ürəyi yumşalır, duyğuları kövrəkləşir, yağı zülmünə, həqarətinə, təhqirinə dözür. Bu gün içdəki və dışdakı siyasət ulusumuza "dözümlü xalq" statusu icad eləyib. Bu ad əhalinin içində özü haqqında lətifələrin yaranmasına səbəb olub. "Dözümlü xalq" artıq lağlağı kimi dilə gətirilir. Xalq getdikcə təhqir olunmağını adi qarşılayır, simasını itirir, özünə inamı aradan gedir. Kişiliyin ölməsinə, qadınlığın itməsinə, qeyrətə istehza olunmasına qarşı onda utanc duyğusu baş qaldırmır. Bunun qarşısını heç bir çaba almır,

ala bilmir. Ziyalı sayılan, elmli olan adamlar addımı dala qoyur, vəziyyətlə barışır, şərəfsizliyə vərdiş edir. Ulusal yaradıcılığa girişmək istəyən tapılmır, hamı köhnəliyin tələbinə boyun əyir, mədəni quruculuq kənardan gözlənilir, xalqda əsarətə pərəstiş formalaşır. Üzərimizdə assimilyasiya əməlləri həyata keçirildikcə, ruhumuz özgələşdirildikcə, xalq kimi yaşamağın mümkünlüyünə inam aradan getdikcə fəlakətlər çoxalır. Xalq fərdlərinin gözündən düşür. Əlbəttə, belə bir vəziyyətdə xalqın var olmasına doğru əmələ başlamaq – başlayana misilsiz çətinliklər vəd edir. Bu çətinliyin ağırlığına dözmək və axıra qədər getmək üçün təkcə şəxsi keyfiyyətlər, – hünər, iradə yetərsizdir. Çünki özgələşdirmə əməlləri içərimizə yaxşı işlənilmiş nəzəri, ideoloji proqramlarla yeriyir. Bizi bir xalq olaraq özgələşdirən amillərdən biri dindir. Dinə qarşı isə nə dövlət dirəniş göstərir, nə ziyalı, nə alim. Bu halda xalqın özəllikləri haqqında düşünmək səmərə verməz, işə çevrilməz. Xalqın özünü tanıması baş vermirsə, avamlıqdan, gerilikdən ayılmaz, ayrılmaz.

Xalqı özgələşdirən ikinci amil siyasi ideologiyadır. Bu sahədə də bizimkilər yaradıcılıqla məşğul olmurlar. Siyasi ideyalar da hazır şəkildə qıraqdan gətirilir. Bunun da milli dövlətçilik xassələrinə uyarlığı yox. Siyasi mühitdə irəli çıxanlar xalqa öz sözünü deyil, əsasən özgə sözünü deyirlər. Xalq özününkülərin diliylə özgələri eşitməli olur. Bunun da kökündə yenə dini baxış dayanır. Çünki din xalqı avam, kütlə səviyyəsində saxladığı üçün siyasi özgəlik onu idarə edə bilir. Nə qədər ki, xalq kütlə səviyyəsində qalır, o, vədlərin dalınca gedir, düşüncənin dalınca getmir.

Milli ideya ortaya qoya bilməyənlər hakimiyyəti söyməklə xalqa təsəlli verirlər. Özlərinin yolsuzluqlarını da hakimiyyətin suçunu qabartmaqla pərdələyirlər. Hakimiyyətin yaratdığı sosial problemləri sadalamaqla içəridəki hər cür yabanı təsirlərə bəraət hazırlanır əslində. Hakimiyyəti antimilli ideyalara qapı açmaqda, bu ideyaların xalqın içində maneəsiz yayılmasına şərait yaratmaqda suçlamırlar. Çünki özləri də bu ideyaların daşıyıcılarıdırlar.

Hakimiyyəti söyməklə xalqı "sevindirənlər" heç nəyə nail ola bilmədilər. Söyüşlərlə xalqı ruhlandırırlar ki, hakimiyyətdən nəsə qoparsınlar. Xalqda söyüş "ruhu" yaradırlar. Söyüşdən "ilhamlanan" kütlə zəlilliyin son həddinə çatır. Yeganə düşməni kimi hakimiyyəti bilir. Düşdüyü vəziyyətin köklü səbəblərini dərk eləmir.





Xalqın özgələşməsinə şərait yaradan əsas sahələrdən biri də elm və təhsil yönündəki fəaliyyətdir. Dünyanın hər yerində elmə münasibət sırf siyasi münasibətdir. Siyasi münasibət daha çox alver münasibətidir. Ona görə də elm inkişaf elədikcə həyat gerçək gözəlliklərini daha çox itirməkdədir. Elm daha çox xudbinliyə, xudpəsəndliyə yarayır. Xudbinlik sevgi duyğusunu bütünlüklə əvəz edir. Heyvan yalnız öz balasına isti münasibət bəslədiyi kimi, xudbinləşən, xudpəsəndləşən elmli də əsasən öz ailəsinə isti münasibət bəsləyir. Lakin bu münasibət maddi gərəklikdən başqa bir şey olmur. Elmlə alver edən hər kəs maddi üstünlüyə can atır və bu meyil bütünlüklə ailənin psixologiyasına hakim kəsilir. Ailə ruhani dəyərini itirir, xalqın mənəvi varlığından təcrid olur. Xudbinliyin, xudpəsəndliyin yaratdığı fərdi müstəqillik ulusal vəhdətin pozulmasına səbəb olur. Xalqın mənəvi-ruhani təməlini təşkil etməli olan ailə rəqabət hadisəsinə çevrilir. Hər kəs övladına təhsil verir ki, ümumi rəqabətdən geridə qalmasın, maddi əskiklikdən yaxa qurtarsın. Təhsil cəmiyyətin xudbinləşməsinə xidmət göstərir. Təhsildə rüşvət bu prosesi daha da sürətləndirir və ictimai bəlaya çevrilir. Mənəviyyatsızlığın hökm sürdüyü cəmiyyətdə təhsil xalqın qurulmasına deyil, uçulmasına xidmət göstərir. Təhsilin məqsədi insan deyil, maddiyyatçılıqdır. Bu səbəbdən də təhsildəki irəliləyişlər ictimai geriliyi aradan qaldıra bilmir. ***Xalq ixtisaslaşır, amma insanlaşmır***. Çeşid-çeşid ixtisaslar yaranır, ziyalılıq yaranmır. Fizikanı öyrənən mənəviyyatı öyrənmir. Fizikanı öyrədirlər, mənəviyyatı öyrətmirlər. Əslində elmləşən cəmiyyət sürüləşir, xalqlaşmır. Mənəviyyatsızlıq eynilik yaradır. Həyatın elmə ehtiyacı var, elm isə həyatın başına oyun açır. Təhsil alana vətəni etibar eləmək mümkün deyil, xalqı tapşırmaq risk demək olur. Təhsil alan din avamlığından qırağa çıxmır, siyasətin kölgəsindən ayrılmır. Təhsil vasitəsilə fərd idarə olunur. Dövlət zor vasitəsi, siyasət aləti olaraq qalır. Dövlət fərdə təhsil verib xalqdan ayırır, onu xalqçılığın əleyhinə işlədir. Beləliklə, gerçəklikdə ədalətin baş tutacağına xalqda inam aradan gedir.

Xalqın həyatında yaranan iqtisadi enişlər bu deyilənlərə ciddi bir əlavədir. İqtisadi siyasət deyilən hadisə – iqtisadiyyatın mənimsənilməsi, xalqdan alınması anlamı daşıyır. Xalq iqtisadi problemlərdən ayılmır. Xalq acından ölür, ölkədə isə abadlıq işləri görülür. Şagird-müəllim münasibətləri alver münasibətləri səviyyəsinə enib, ölkədə yüksək estetik görüntülərə malik məktəblər tikilir. Görülən hər bir iş xalqın rifa-

hından qıraqda baş verir. Yüksək təchizatlı xəstəxanalar qurulur, bunlardan əhalinin çox az bir hissəsi istifadə edə bilir. Saxta müayinələr, saxta müalicələr, saxta münasibətlər xəstələrdə ruh düşkünlüyünə, inamsızlığa, bədbinliyə səbəb olur.

Əslində daxili siyasət əsasən iqtisadiyyatı ələ keçirmək üçündür. Siyasət insanların haqqını mənimsəyir, onlara hüquq adlı imtiyaz uydurub vəd edir. Hüquq – əslində rəqabətdə iştirak eləmək imtiyazıdır. Bu mənada əhalinin içərisində yalnız iqtisadiyyatı mənimsəyənlərin hüququ olur, yaxud ödənilir. Yerdə qalanlar üçün hüquq əhəmiyyətsiz bir anlayışdır. Əhalinin yoxsul hissəsi heç vaxt hüququnun təminatına girişə bilməz. Buna onun imkanı yoxdur, bunu heç nəzərə alan da yoxdur. Beləliklə, əhali siyasi qanunbazlıqlarla oynadılır, aldadılır və idarə olunur.

Plüralizm – anarxiya xoru deməkdir. Bəşəriyyətə yaxşı məlumdur ki, hər kəsin fərdi keyfiyyətləri olur – estetik zövqü, duyumu, sevgisi, nifrəti, bacarığı, istedadı və s. Fərdlərin bu keyfiyyətləri yaşatması üçün mənəvi dirçəliş başlamalı və xəlqi mühitə çevrilməlidir. Burada hər hansı bir "izm"ə ehtiyac yoxdur. Plüralizm – fərdi keyfiyyətlərin qorunmasına deyil, pozulmasına xidmət edir. Plüralizm – fikri, düşüncəsi, rəyi olmayanların danışması hüququdur. Əslində anarxiyanın yaranması üçün düşünülmüş siyasi fəndgirlikdir. Vahid mövqeni, birxətliliyi, ümummilli birliyi dağıtmaq siyasətidir. Çoxpartiyalılıq, çoxqrupluluq, çoxqütblük parçalanmağa, bölünmüşlüyə gətirib çıxarır. Yadlığın, yabanılığın milliliyi kölgədə qoyması ilə sonuclanır. Xalq olmazın dərəcədə özündən ayrılır. Yuxarıda vurğuladığımız kimi, fərdlərinin gözündən düşür. Lakin nə yaxşı ki, fərd öz gözündən düşmür. Onun içində həqiqətə meyil, ədalət istəyi, mübarizə əzmi tamam silinib getmir. Ən çətin məqamda fərddə olan bu keyfiyyət yenidən baş qaldırır, fərdi xalqın aqibətini dəyişməyə sövq edir. Bizim zamanımızda Asif Ata – İnam Ata xalqın içindən irəli çıxmış və belə bir çətin mübarizə işinə girişmişdir. Fərdlərin həmin keyfiyyətlərinə inanmış və onlardan xalq yaratmaq haqqında düşünmüşdür. Əvvəldə qeyd elədiyimiz kimi, ayrı-ayrı vaxtlarda başqa irəli çıxanlarımız da olub. Lakin təkcə fərdi keyfiyyətlərlə və yadlıqla özümlüyün sintezindən ortaya qoyulan ideyalarla belə bir ağır yükü çəkib aparmaq, əlbəttə, çox çətindir, hətta mümkünsüzdür. Ona görə də Asif Ata Ruhani Dirçəliş yolu tutdu. İrəli sürdüyü milli-bəşəri ideyalarıyla fərdi keyfiyyətlərinin birliyindən İnam





Ocağı qaladı. Yalnız Yeni Dünyabaxış, Yeni İnam xalqın içindəki total özgəçiliyə qarşı dirəniş göstərə bilər və onu yurdundan qovub çıxarar.

## II. Xalq biganəlikdən çıxıb düşünə bilirsə, özünütəsdiq imkanları aşkarlanır

İnam ilk işini yaradıcısının özündə başlayır. Və təbii ki, İnam bir gündə yaranmır, illərin axtarışıyla cilalanır, inkişaf edir və oturuşur. Bu gedişatın əsas hərəkətverici səbəbi maneələri ötə bilmək, onun təsirində ilişib qalmamaq və azalmamaqdır. Bu baxımdan İnamın qurulması, inkişafı həm də fərdi keyfiyyətlərin inkişafını tələb edir. Ümumən nəinki inkişafını, yeni fərdi keyfiyyətlərin aşkarlanmasını, yaranmasını zəruri edir. Lakin İnamın elan olunması, yaradıcısının İnam tələbi yönündə daxilən artması özünün gerçəkləşmə imkanları ilə müqayisədə qat-qat güclü olan təpkilərlə qarşılaşır. Bu təpkilər iki cür maneə kimi ortaya çıxır: biri yaranan ideyanın tutumuna, təsirinə qarşı, o biri bənzərsiz fərdi keyfiyyətlərin görünməsinə, təsdiqinə qarşı. Fərdi keyfiyyətlərin təsdiqi də əslində xidmət elədiyi ideyanın yayılması, genişlənməsi ilə bağlıdır. Yəni fərdi keyfiyyətlər yaradıcılığın məzmununa doğmalaşmaqla bilinir.

Dediyimiz kimi, ideyanın tutumuna, təsir imkanlarına qarşı duran maneə ideoloji maneədir. İkinci maneə – şəxslərin fərdi keyfiyyətlərin ucalığına, bənzərsizliyinə qarşı qısqanclığı, paxıllığı, gözügötürməzliyi, rəqabəti. Bu maneələr xarakterik olaraq bir nöqtədə birləşsələr də, görünən, görünməyən olmaları ilə hardasa ayrılırlar. İdeoloji maneə xalqın həyatında oturuşduğuna, ağlında, düşüncəsində daşlaşdığına görə daha uzunömürlü olur və bu, əslində görünən maneədir. Görünməyən maneə də işi yubadır, yayılmanın sürətinə ziyan verə bilir. Məsələn, Asif Atanın haqqında ilk dəfə eşidən adam ictimai mühitdə tanınmışların yanında söz salarkən həmin tanınmışın inkaredici bir jesti, "əşi" deməsi maraqlanan şəxs üçün mövzunu haradasa qapaya bilir. Çağdaş "Azərbaycan Yazıçılar Birliyi"nin üzdə olan bir sıra simaları, həmçinin Milli Elmlər Akademiyasında, təhsil müəssisələrində ayrı-ayrı şəxslərin Asif Ataya qarşı illərlə davam edən paxıllıqları, qısqanclıqları onun Dünyabaxışının, nüfuzunun xalqda yayılmasına ziyan verə bilir.

Asif Ata şərlə döyüşür, onlar da Asif Atayla. Doğrudur, şərin ayrıca ünvanı olmur, elə buna görə də onun ayrıca məzmunu da olmur. Şər adamların əməllərində, münasibətlərində üzə çıxır, – naqis duyğuların

gerçəkləşməsi kimi. Və Asif Ata şəxslərdəki balacalığa, naqisliyə qarşı, necə deyərlər, döyüş cəbhəsi açmayıb. Başqasının naqislikləri ilə səsləşən, uzlaşan əhvalları ömründən silib, atıb. "Ziyalı" qeybəti səviyyəsinə enməyib, böyük şərlə – xalqın həyat tərzini dəyişən ideoloji şərlə döyüşə girişib, böyük əməllər, böyük hünərlər ortaya qoyub. Elə buna görə də ruhani sevdası baş tutub. Asif Ata anlayırdı ki, haqqında dolaşan şayiələr, böhtanlar, öyrədilmiş adamlar tərəfindən telefon zəngləri – hədələmələr, işdən qovulma, Dövlət Təhlükəsizlik orqanları tərəfindən incidilmə, bu orqanın casusları tərəfindən izlənilmə, onu eşidənlərin qorxudularaq ondan uzaqlaşdırılması, ailəyə, qohumlara, nəslinə təzyiqlər göstərməklə onun imkanlarının məhdudlaşdırılması, çapdan məhrum edilməsi, bir tikə çörəyə, yaşamaq, yatmaq üçün dar bir ünvana belə möhtac edilməsi, bütövlükdə cəmiyyətdən təcrid edilərək təklənməsi və s. onun ideyasının gücünə, "təhlükəsinə" görədir. Belə bir çətin durumda özündə güc tapması, yaratdıqlarına yiyə durması Asif Atanın ömrünü zənginləşdirdi, kamillik səviyyəsinə yüksəltdi. Heç nəyə baxmadan xalqın içinə çıxdı, özünə həmfikirlər, məsləkdaşlar axtardı. Cəlb elədiyi adamların böyüməsi, fəaliyyət göstərməsi üçün Ruhani Qurum yaratdı. Açıq şəkildə yeni İnam yaratdığını, özünün də bu İnamın Peyğəmbəri, Atası olduğunu elan elədi. Özünün mübarizəsində yeni mərhələ başladı. Artıq xalqın görüşünə Peyğəmbər kimi gedirdi. Bu isə cəmiyyətdə çaşqınlıq yaratmaya bilməzdi. Çünki peyğəmbərlik haqqında təsəvvür başqa cürdür. Ənənəvi peyğəmbərliklə İnam peyğəmbərliyini ayıran sərhədlər hələ dərk olunmur. Təbiidir ki, Dünyabaxış irəli sürən insan özünün kimliyi haqqında təsəvvürü, ortaya qoyduğu İdeyaya görə yaradır. Bu baxımdan peyğəmbər sözü dinə aiddir. O, elçi deməkdir, Allah tərəfindən verilən statusdur. Şübhəsiz, bu kontekstdən yanaşanda Asif Atanın peyğəmbərliyi deyilənlərə uyğun gəlmir, bu qəlibə aid olmur. Ona görə də Asif Atanın peyğəmbərliyi Ruhani Atalıq məzmunu daşıyır və o, İnamın Atası anlamını əsas götürür. Bununla belə, Asif Ata peyğəmbər sözündən imtina edə bilməzdi. Çünki İnamı dinin əvəzi kimi yaradıb və cəmiyyəti dindən imtinaya çağırmaq üçün keçid mərhələsi kimi Peyğəmbər sözünün işlədilməsi qaçılmazdır. Cəmiyyətdə "həm əski peyğəmbər var, həm də ruhani Ata var" düşüncəsi olmamalıdır. "Elə peyğəmbər yenidir, Ata özü odur" təsiri düşüncələrə oturuşmalıdır. Bizim əqidəmizə görə Atalıq peyğəmbərliyin yeni səviyyəsidir. Əslində ənənəvi peyğəmbərlikdən





yüksəkdir. Dində peyğəmbərin öz sözü yoxdur, o, Allahın sözünü söyləyir. Onun öz iradəsi, hökmü yoxdur. O, cəmiyyətə yalnız xəbər verir, cəmiyyətin Allahı özünə böyük, müqəddəs seçməsi üçün təbliğat aparır. Ata cəmiyyətə öz sözünü deyir, insani, bəşəri yöndə gördüyü işləri öz iradəsiylə, öz idrakının gücüylə həyata keçirir. Atalığın məqsədi müqəddəsliyi göylərdə axtarmaq deyil, onu həyata gətirməkdir, həyatı dəyişmək, dünyada insanlığı bərqərar eləmək üçün ruhani mübarizə aparmaqdır. İnsanı göylərə tapşıran dini rədd edir, özünə tapşıran Amal yaradır.

Dində Peyğəmbər siyasət işlədir, – insanı aldadır, qorxudur, şirnikdirir. Məqsədinə çatmaq üçün qılınc da götürür və insanın üstünə qılıncla gedir, zor işlədir, qan tökür. Süni şəkildə insanı Allaha boyun əydirir. Sevgi insanın qəlbinə hakim kəsilmir, qorxu hakim kəsilir. İnsanın ən böyük "müqəddəs işi" Allaha yalvarışdan ibarət olur.

Lakin İnam insanı aldatmır. Onu qorxulu, qəzəbli, öləndən sonra insanı dirildib ona işgəncələr verən, həqarət yağdıran mücərrəd bir varlıqla deyil, özünün insani mahiyyətiylə üz-üzə qoyur. İnsan öz mahiyyətinin ucalığını anlayır, həqiqətin varlığını bilir, onu dərk edir, onun varlığına sevinir, ona doğru yol başlayır. Həqiqətə qovuşur, həqiqətlə bir olur. Dünyaya niyə gəldiyini anlayır və müqəddəs əməllərə can atır. Müqəddəsliyi, ölməzliyi özündə tapır. Cənnət həvəsi, cəhənnəm qorxusu ilə yaşamır. Əbədiliyi həyatda tapır. Nəyi var həyatın gözəlləşməsinə verir. İnsandan böyük məbud tanımır.

Din insanlaşmaq harayı çəkmir, bəndələşmək harayı çəkir. Dinin harayında cazibə var idi, bu cazibə müqəddəsliyi sevmək, onu qorumaq çağırışından irəli gəlirdi. Fəqət cazibə müqəddəslik yaratmadı, zaman-zaman gücünü itirdi. Çünki sevilməli müqəddəslik təhrif olundu. Uyduruldu. İnsan yaranmadı.

İstənilən haray İnam ola bilməz. İnam – Dünyaya bütöv yanaşmaq və idraklı yanaşmaq tələb edir. İnamda Dünyanın, Həyatın, İnsanın nəliyi, necəliyi köklü, əsaslı qoyulur və bunu dərk eləməyə yön verilir. Dünyanı, Həyatı, İnsanı mahiyyətinə bənzətmək üçün, dəyişmək üçün mübarizə aparılır, yol yaranır və gedilir. Fəlsəfə bunu edə bilmir, elm, sənət bunu edə bilmir. İnam – Dünyanın, Həyatın, İnsanın nəliyinə, necəliyinə münasibəti ona görə yaradır ki, mahiyyət bilinsin, dərk olunsun və nikbinlik üçün əsas olsun. Başqa sözlə, İnsanlaşmanın doğruluğuna, gərəkliyinə, baş tutacağına şübhə yeri qalmasın.

Cəmiyyətin mövcud durumu onun özündən ayrılmasının təzahürüdür. Bunu elə-belə anlatmaq, əsaslandırmaq çətin olur, yaxud bunu anlamaq səmərə vermir. Lakin dünyayla bağlı nikbinlik yarananda həqiqət ömürə gəlir və mənəvi, ictimai problemin həllinə imkan yaradır. Bu isə İnamın Dünyaya bütöv yanaşmasının sayəsində gerçəkləşir.

Biz dedik ki, Din İnsanı müqəddəsliyə inandıra bilmədi. Çünki müqəddəsliyi gerçəklikdə insana göstərə bilmədi. İnsan müqəddəsliyi idealda təsəvvür elədi, onu xəyaldan ayırıb həyata gətirə bilmədi. Dinin Dünyaya, Həyata, İnsana münasibəti müqəddəs deyil. Dinə müraciət edib Dünyada Dünyadan artığa, Həyatda Həyatdan yüksəyə, İnsanda İnsandan aliyə çatmaq mümkün deyil. Çünki dində Dünyadan artıq olan – transsendentaldır, dünyadan ayrıdır, dünyaya dəxli yoxdur. Fövqəldünya olan bir varlıq dünyanı adi bir şeyi yaradan kimi yaradıb, onu idarə edir. Burada idrak çıxılmazlığa düşür, ziddiyyətlərdə ilişib qalır. Bu səbəbdən də həqiqətə qovuşa bilmir. Həqiqətsiz idrak müqəddəsliyi tanıya bilmir və ondan əl çəkir. Bu səbəbdən də həyat qaranlıqdan çıxa bilmir.

Din təlqinçidir. Onun idealı (Allahı) izah olunmazdır, dərk olunmazdır. Bu yöndə çabalara icazə verilmir, idrak hədələnir. Əgər Allahla bağlı hər hansı mühakimə ortaya qoyularsa, bu, küfr sayılır və kafirlik damğası ilə damğalanır.

Mütləq isə dərk olunandır, izah olunandır. İnamın üstünlüyü, gözəlliyi də elə bundadır. İnam İdraka yasaq qoymur, əksinə ondan tələb edir, işıq salır, yön verir. İdrak İnamın təsdiqi kimi meydana çıxır. İnam İdealı insandan gizləmir, onu İdrak vasitəsilə insana verir. İnsanın sağlam münasibəti üzə çıxır, o qorxudulmur, müqəddəsləşir.

Dinin (İslamın) peyğəmbəri hökmdar iradəsinə qalxır. Azərbaycana da onun hökmdar iradəsiylə gəldilər. Dinin məntiqini, məqsədini izah eləyən, xalqın içində illərlə mənəvi-ruhani iş aparan olmadı. Güc yolu ilə, qılıncla verdilər. Din xalqa sevdirilmədi, onun iradəsi zorlandı. Xəyanətlər, hiylələr, qanlı hadisələrlə sonuclandı. İnsanı öldürdülər, meyidinin üstündən adladılar, məqsədlərinə çatdılar.

İnamın Atası özünü dərk etməyən insanı böyütmək məqsədi daşıyır. Onu basıb əzmir, onun üstündən adlayıb o üzə getmir, İnsanda dayanır. Çünki məqsədi İnsandır.

Cəmiyyət heç vaxt yeni hadisəni qarşılamağa hazır olmur. Bunun yaxşı tərəfi də var, pis tərəfi də. Yaxşı tərəfi odur ki, hər bir yeniliyə, onu





öyrənmədən meydan verəndə bu yenilik cəmiyyətin düşüncə yönünü, dünyabaxış sistemini poza bilir. Bu səbəbdən də dirəniş göstərmək – özünəməxsusluğun qorunması üçün ciddi rol oynayır. Pis tərəfi odur ki, cəmiyyət fərqinə varmadan, kortəbii şəkildə dirəniş göstərir. Bizim cəmiyyətimizdə ikinci tərəf özünü doğruldur. Belə olan halda cəmiyyət öz içinə, öz yaradıcılığına inanmır. Və dirənişi öz içində yaranana qarşı yönəlir. Kənardan gələn isə onun həyatına asanlıqla daxil olur. Lakin əgər cəmiyyət özünün həyatına içəridən məzmun axtararsa, dirənişi kənardan gələn təsirlərə qarşı yönələ bilər. Kənardan gələn təsirlər iki cür məzmun daşıyır: Biri siyasi məqsədlərlə əsarət gətirir, o biri ümumbəşəri məzmun daşıyan bir hadisə kimi mədəniyyətə doğmalaşır. İndi gərək toplumun özündə xəlqi-bəşəri dəyəri olsun ki, qıraqdan gələn boşluğa gəlməsin, onun dalınca siyasi məqsədlər gəlib burada hegemon olmasın. Doğrudan da doğmalaşa bilsin. Buna mədəniyyətlərin qarşılıqlı təsiri deyirlər. Asif Ata Hərəkatının məqsədi də odur ki, onun xalqı qıraqdan gələn təsirlərin asılılığına düşməsin, öz içinin məzmunu ilə qurulsun. Lakin bu məqsədi cəmiyyətə çatdırmaq çox illər tələb edir. Cəmiyyət başlanğıcda onun xeyrinə yönələn hadisəyə biganə yanaşır, onu gücsüz, təsadüfi bir hadisə sayır. Hesab edir ki, bu işi başlayan öz nüfuzu, öz şöhrəti üçün çalışır. Cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, əksəriyyət bu cür düşünür, – elmlisi, elmsizi də, oxumuşu, oxumamışı da. Çünki İnamla məşğul olmayan, daha doğrusu, onu öyrənməyən, bilməyən hər kəs İnamı digər ictimai hadisələrlə, fəaliyyətlərlə qarışdırır, eyniləşdirir. Axı İnamı bilmək, öyrənmək həm də çox çətindir. Bununla belə, İnamın məramı ardıcıl təqdim olunduqca və əməli səviyyədə göründükcə cəmiyyətdə çaşqınlıq müsbət yöndə formalaşır. Onun ağlında xeyirxahlıqla, xilaskarlıqla ona qarşı olan fikirlər üz-üzə dayanır. Çoxluğumu eşitmək, azlığımı?! Kəmiyyət hansıdır, keyfiyyət hansı?! Müqəddəslik nədir, antimüqəddəslik nə?! Bu kimi suallar cəmiyyətdə ayrıları, təkcələri düşündürməyə başlayır. Bu düşüncələr getdikcə ictimai miqyas alır, genişlənir və İnamın təsirlərinə qərq olur.

## III. Ağıllar böyüyüb ürəklər duruldıqca, inamın gərəkliyi dərk olunacaq

Cəmiyyətdə dağıdıcı, pozucu meyillər artdıqca həqiqətə ehtiyac da böyüyür. Sözün doğru mənasında cəmiyyət xilas olmaq üçün həqiqət axtarır, İnam axtarır. Ümidsizliyin yaratdığı təşviş, ədalətsizliyin doğurduğu mənəvi iztirablar, sosial məşəqqətlər cəmiyyətin İnam işığına meyillənməsini sürətləndirir. Necə deyərlər, Şər Xeyirə xeyir verir. Hər bir hadisəyə, gedişata İnamın münasibəti müqayisə edilir, araşdırılır, öyrənilir. İnsanların həyatında yad baxışlarla doğma baxışlar mübarizə aparır. Artıq cəmiyyətdə anlamağa başlayırlar ki, kimlərsə Asif Atanı özünün peyğəmbəri saymaya bilər, amma onun peyğəmbərliyini, Ocağının varlığını, fəaliyyətini dana bilməz, danmaq iqtidarında olmaz. Asif Atanın baxışı, onun Ocağının hər şeyə münasibəti xəlqi meyar kimi getdikcə oturuşmaqdadır. Ocaq ardıcıl öyrədir ki, İnamçılıq həqiqətinə yetmədən xeyiri şərdən, yalanı doğrudan, ədaləti ədalətsizlikdən fərqləndirmək çətin olacaq. Əsilliyə çatmaq üçün Ruhani İdrak gərəkdir. Yalnız Ruhani İdrak dərk edir ki: Bu gün nur, işıq sözündən yapışanlar onu xurafat səviyyəsində qəbul edirlər. Bizim Azərbaycanımızın ruhani mahiyyətinə aid elədiyimiz işıqçılıq anlayışının əvəzi kimi, analoqu kimi sırımağa çalışırlar. Əslində Azərbaycanın ruhani işıqçılığı Zərdüştçülükdən başlayan mənəvi təmizlənmə, içdən aydınlaşma, özünü dərk eləmə olduğu halda, bugünün nur axtarıcılarında göylərdə oturan adamabənzər varlığın gizli əməlləri kimi qəbul olunur. Bizdə işıq İnsanın aqibətindən yaranır, onlarda nur göylərdən insana şərt daxilində pay kimi göndərilir. Əgər göylərin adamabənzər qüvvəsini müdafiə eləsən, bu pay sənə verilər. Bu münasibət ardıcıl şəkildə türkçülüyə, milli varolmaya qarşıdır. Bu cür təsirlər ulusumuzun ideoloji, eləcə də ideya bütövlüyünün olmamasından, boşluğun yaranmasından irəli gəlir.

Ünlü türkçülərimiz Z.Göyalp, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə Atatürkün ideoloji formalaşmasında ciddi təsirə malik olsalar da, Ərbakanın yaranmasında da rol oynamış oldular. Belə ki, türkçülüyü süni şəkildə İslamçılıq və Qərbçiliklə birləşdirmələri Ərbakanlar üçün sonrakı dönəmdə şərait yaratdı. Türkçülük ciddi hadisə ola bilmədi. “Yeni doktrina yaranmadı, yamsılamaq yarandı” (Asif Ata). Qısa müddətdə qalxınma göründü, amma xalqın içində əsaslı inkişaf başlamadı. Bugünkü həyatımız nəticədir. Türk fəlakətlərdən çıxa bilmir.





Bu, Türkiyədə də belədir, Azərbaycanda da. “Türkiyə Atatürkdən sonra heç kimi verməzdi” (Asif Ata). Azərbaycanın da güclə boynuna qoyurlar ki, o, H.Əliyevi verib. Bəs H.Əliyev Azərbaycanda nə yaratdı?! Çəkinmədən cavab verirlər ki, o, “əsrin kontraktları”nı imzaladı. Guya bu kontraktı heç kəs imzalaya və Azərbaycanı sata bilməzdi. Biz isə deyirik ki, H.Əliyev Azərbaycanda yüzlərlə bölücü təşkilatlar yaratdı. Başladığı kontraktlardan gələn milyardlarla vəsaiti özünün və tayfasının büdcəsinə topladı. Azərbaycanın hər yerində özünə çoxsaylı heykəllər ucaltdı (əsasını özü qoydu). İndi vəzifəyə xidmət eləyən icra başçıları öz işlərinə H.Əliyevə bağ salmaqdan və heykəl qoymaqdan başlayır.

Bugünkü Türkiyənin Azərbaycanla yaxınlaşması zahiridir, siyasidir, təməlsizdir. İslam Babəki amansız edam eləməklə, Nəsimini soymaqla, Nəimini parça-parça eləməklə türk ruhuna, yenilməzliyinə qılınc çaldı. Azərbaycan ruhu balacalaşdırıldı. Balacalaşan xalqın vətəni də parçalandı. Dövrümüzdəki Xocalı fəlakətinə qədər yeridi. Türkiyə isə hakimiyyətinə Ərdoğanı gətirdi – ağlı və arvadı çadraya bükülmüş Ərdoğanı. İndi o, Atatürk prinsiplərinə də arxa çevirir. Belə bir hökumətə malik olan Türkiyə Azərbaycanla necə birlik quracaq? Bu gün Azərbaycan və Türkiyə hökumətləri tərəfindən səsləndirilən ortaq türk dili, ortaq dərslik uzun dövrdür bizim arzuladığımız və mətbuatda ardıcıl vurğuladığımız bir ideyadır. Buna baxmayaraq, Türkiyə hökumətinin bu ideyaya yönəlik müsbət münasibətindən adam sonacan sevinə bilmir. Çünki bu ortaqlığın dalınca Ərdoğanın “mavi” çadraları gələcək. Və İranın qara çadraları ilə Azərbaycanda rəqabətə girəcək. İslam ruhlu hakimiyyətin türk birliyi yarada bilməsini təsəvvür eləmək çətindir. Qədimdə də bu məntiq özünü göstərib. Zahirdə genişlənən (imperiyalaşan) türk daxildən kiçildi, əridi. Osmanlı imperiyasının qüdrətindən ağız dolusu danışanlar orada türk ruhunun qüdrətini göstərə bilməzlər. Başqa sözlə, möhtəşəm səltənət yaradanlar türk inamı, türk birliyi yarada bilmədilər. Eləcə də Ş.İ.Xətainin Səfəvi imperiyasından heç nə qalmadı, çünki içi özgələşmişdi. İndi bizim millətimizə Şah İsmayıl milləti demək çətindir. Əlbəttə, Şah İsmayılın yaratdığı dövlətçilik ənənəsi cahanşümul hadisə idi. Amma bu hadisənin arxasında Şah İsmayılın qolu dayanırdı. Türk ruhu, türk dünyabaxış sistemi dayanmırdı. Qolu türk idi, gözünün baxarı, mənəviyyatının yönü (qibləsi) türk deyildi (şiəçilik özgəçiliyi). Bu gün də Azərbaycan dövlətini yadlaşma əsasında qorumağa çalışırlar. Bu cəhdlərdən də heç

nə qalmayacaq. Gözümüzün qabağında Azərbaycançılıq – etniklərlə oyun oynamaq səviyyəsinə endirildi. “Hamı azərbaycanlıdır” deyimində dəhşətli bir ruhsuzluq var. Bu deyimdə Azərbaycan coğrafiya səviyyəsindən başqa heç nə ifadə eləmir. Hakimiyyəti qorumaq siyasətidir bu. Bunu uzaqgörənlik, müdriklik kimi dəyərləndirənlər anlamadılar ki, bu gedişlə Azərbaycanda türk ruhu bilinmir, qurulmur və qəbul olunmur. Azərbaycançılıq – yəni mücərrəd hamıçılıq.

Əslində Azərbaycançılıq – türk ruhunun ifadəsidir. Azərbaycan türk ruhunun ünvanıdır. Bu mənada Azərbaycançılıq–Türkçülük birliyi yaranmalıydı. Amma türkçülük Azərbaycançılıqdan ayrıldı və qanundan çıxarıldı. Azərbaycançılıq da oldu hamının birgə yaşayış ünvanının yalançı ideoloji anlayışı. Bu anlayış, dediyimiz kimi, özündə heç bir ciddi ideya daşımır.

Yaxşı şeylərdən icazə veriləndə danışırlar – siyasətin xeyrinə. Siyasətin əlinə harda imkan düşür ən uca ideyaları öz adına çıxır. Amma heç nəyə doğruçu əməl eləmir. Uca idealların arxasında durmaq asan deyil. Gərək o idealın ruhuna uyğun yaşayasan ki, özünü yiyə kimi görə biləsən. “Biz bir millət, iki dövlətik” deyilişini az qala kəşf kimi, heç kimin ağlına gəlməyən bir ideya kimi dəyərləndirənlər unudurlar ki, Azərbaycanda türk adını rəsmi şəkildə bu deyimin müəllifi ləğv elədi. Elan olunmuş müstəqilliyimiz dönəmində türkçülüyün məzmununa doğru bircə dənə rəsmi səviyyədə prinsipial addımın şahidi deyilik. Torpağı müqəddəsləşdirən, yurd səviyyəsinə qaldıran dəyərlər dövlət idarəçiliyində özünü göstərmir.

Torpağın Yurd səviyyəsi – bizim üçün Ocağın xalqlaşması deməkdir. Ocağın xalqlaşması Yurdun qorunması səviyyəsi yetirir. Xalqı xalq eləyən dəyəri yaşatmaq üçün Vətən qorunur. Bu mənada Ocağın müttəfiqi yoxdur. Heç rəqibi də yoxdur. Partiyalar, təşkilatlar Ocağın dünyabaxışını qəbul edəndə belə müttəfiq deyillər. Yəni onları Ocaqla müttəfiq edəcək elə bir ortaqlıq yoxdur. “İkisi, üçü … Əl-ələ verib işləyər” anlamı ilə Ocağa yaxınlaşmaq mümkün deyil, doğru da deyil. Ocaq ideyalarından bəhrələnib iş görmək olar, Ocaqla birgə yox. Ocaq ruhaniyyat hadisəsidir. Ruhaniyyat hadisəsi isə təşkilatlar kimi iki olmur, çox sayda olmur. Təşkilatların içində kimlərdəsə səmimi olaraq hakimiyyətə gəlib xalqa xidmət eləmək istəyi ola bilər. Lakin bununla belə, o kəslər Ruhaniyyatla eyni işi görmürlər. Ruhaniyyat xalq yaradır – onun gələnəklərini, azadlığını, aqibətini yaradır. Başqa hadisələr belə





əsaslı məqsəd daşımır. O hadisələrin belə bir məqsəd daşımaq imkanı olmur. Başqa hadisələr təməl deyil, özül deyil, üzdür, üzdəkidir. Bu səbəbdən də başqa hadisələr Ocağın rəqibi də deyil. Heç din də Ocağın rəqibi deyil. Rəqabətdə sıra var, təbəqə var, birincilik, ikincilik var, aşağı, yuxarı var. Ocaq dini İnamla əvəz etmək məqsədi daşıyır. Onunla birinci, ikinci olmaq yarışına girmir. Ocaq ardıcıl vurğulayır ki, din getməlidir, o insana gərək deyil, bu vaxta qədər də gərək olmayıb. Ümumən Din və İnam yalanla doğru kimidirlər. Bunlardan birinin varlığı o birinin yoxluğu deməkdir.

Məsələnin bu cür qoyuluşu Asif Atanın güzəştsizliyinin, prinsipiallığının tələbindən irəli gəlir. Və bu tələb İnamın əsillik səviyyəsində qəbul olunması üçün zəmin hazırlayır.

Ocaqdan kənarda bütün hadisələr, fəaliyyətlər, təşkilatlar insana tale qəlibi düzəldirlər. Başqa sözlə, İnsanın taleyini ideologiyaya tapşırırlar. İdeologiya ən yaxşı halda insana xidmətçilik öyrədir. Ocaqda İnsanın taleyi Ruha tapşırılır. Ruh insana yaşamaq öyrədir. İnsan mübarizə tələbinə tabe etdirilmir, özündə mübarizə tələbini yetirir. İdeologiyanın tələbi məcburi qarşılanır. Ruhun tələbi ali sayılır.

Dünya kədərlidir, əzablıdır, müxtəliflikdir, ziddiyyətlidir, təzadlıdır. Bu səbəbdən də İnsan dünyaya münasibətdə çaşa bilir. İnsanın dünyaya münasibətdə çaşmaması üçün o öz adi halından yüksəyə qalxmalıdır. Ruhani qüdrətlə dünyanın hər cür xassələrini, məqamını, gedişatını özü üçün aydınlaşdıra, müəyyənləşdirə bilir. Adi səviyyəsində isə dünyanın kədərində, əzabında, müxtəlifliyində, təzadlarında dolaşır, haldan-hala düşür. Sabitliyini, səbatlığını itirir, – yoxluqla varlıq arasında mövcud olur və son anda yoxluğa dönür. İnsan təbiətin ünsürü kimi görünüb yox olur. Təbii ki, istənilən səviyyədə, istənilən halda insanın təbiətdən fərqliliyi var. Fəqət bu fərqlilik bütövlükdən çox aşağı olduğu üçün insanın gerçək həyatı sona çatandan sonra az müddət qalır, sonra bu fərq də silinib gedir. Belə bir fərq insan haqqında ən yaxşı halda xatirat yaradır, gerçək həyatda mövcud olduğunu nişan verir, yaxınlarının yaddaşında saxlayır və getdikcə unudulur. Lakin İnsan ruhani qüdrətini təsdiq edəndə nəinki təbiətdən fərqliliyini elə-belə göstərir, xalqın mənəvi həyatında yaşadığı, yaratdığı ali ömrün təsiriylə varlıq olmağa çalışır, yoxluqdan çıxır.

Ocağın İdrakda, düşüncədə yaratdığı və fərd-fərd gerçək həyatda təsdiq elədiyi həqiqətçilik bütövlükdə xəlqi rəğbət yaradır və yaşam meyarına çevrilməyə başlayır.

### IV. Xalq Yeni İnamla Ruhani dirçəlişə qərq ola bilər

Yurdumuza Ata gəlişi nə ilə başladı? – Biz bu aşamaları (mərhələləri) belə bir suala biçimcə qısa, məzmunca dolğun cavab verməliyik. İlk vaxtlar Asif Atanın ağlında, düşüncələrində başlayan axtarışlar onu labüd şəkildə İnam yaradıcılığına gətirib çıxartdı. Əlbəttə, bu məsələdə ulusumuzun zəngin tarixi dəyərlərə malik olması onun yaradıcılığına təkan verdi. Bununla belə, İnsan taleyinin acınacaqlı durumu, həlli təkcə tarixi dəyərlərin əsasında başa gəlməyən çoxsaylı suallar qarşısına çəkib gətirdi Asif Atanı. Axı xalqın dəyərləri o qədər nizamsız, araşdırılmamış, sistemləşdirilməmiş bir görkəmdədir ki, Asif Ata bu dəyərlərin özünü xilas eləmək və xalqın mədəni, mənəvi həyatına qaytarmaq haqqında düşünməli oldu. Çünki bu dəyərlər nəinki xalqın həyat tərzində, heç ədəbiyyatlarda da sistemləşdirilmiş şəkildə mövcud deyil, həqiqi məzmundan ayrılmış, təhrif edilmiş haldadır. Və Asif Ata öz idraki imkanları və fəhmi ilə ulusumuzun dəyərlərini ciddi öyrənmiş, onları milli fikir, düşüncə hadisəsi kimi bir sistem halına gətirmişdir. Bu sistemə "Azərbaycanımız – Azərbaycanlığımız" adı vermiş, onu xalqın içində yaymağa, öyrətməyə girişmişdir. O, bütövlükdə hər bir xalqın dəyərlərinə bu cür sevgi ilə və həqiqi münasibətlə yanaşır.

Əlbəttə, yalnız "Azərbaycanımız – Azərbaycanlığımız" dəyər sistemi ilə Asif Ata xalqa öz keçmişini öyrədə bilərdi. Bu isə hələ gələcək üçün bütöv bir zəmin deyil. Bunun üçün "Azərbaycanımız – Azərbaycanlığımız" dəyər sisteminin cövhəri olan Mütləqə İnam baxışını labüd şəkildə xalqa verməli idi. Bunu biz əvvəldə İnamın yaranma zərurəti kimi vurğulamışıq.

Asif Ata "Azərbaycanımız – Azərbaycanlığımız" dəyər sistemində Zərdüştçülüyün Türk İnamı olduğunu ardıcıl vurğulayır, yüksək idraki imkanlar əsasında sübuta yetirir. Dədə Qorqudluq hadisəsinin İnsan böyüklüyünün, ağsaqqallığının həyat meyarı olduğunu vurğulayır. Babəkçilikdə döyüşkənliyin, yenilməzliyin dünyabaxışa bərabər olduğunu izhar edir. İnsanlığın zirvəsini fəth edən hürufiləri dünyada əvəzsiz bir hadisə kimi vəsf edir. Füzuli aşiqliyində bənzərsiz möcüzələr





kəşf edir və bunu din hadisəsi kimi elan edir. Muğamın insan həyatındakı ecazkar rolunu əbədiyyət carı kimi dəyərləndirir. Sazın İnsanı Tanrıya qovuşdurmaq qüdrətindən, gərəkliyindən bəhs edir.

Belə bir daxili zənginliyə malik olan xalq hansısa dönəmdə öz keyfiyyətlərini aşkarlamaqdan əl çəkə bilməz, tarixi aqibətini inkar edib öz imkansızlığına inanmaz. Bu səbəbdən də yurdumuza Ata gəlişi təsadüfi deyil. Mahiyyətcə Ruhaniyyat xalqı ələbaxan yaşaya bilməz, o,Yurduna kənardan böyük çağırmaz. Yadlığı bayram edən xalq yetim xalqdır. Mütləqə İnam – xalqımız üçün bəşər olmaq imkanıdır. Xalq yetimlikdən çıxmayanda bəşər olmur. Mütləqə İnam başqa xalqlar üçün də bəşər olmaq imkanıdır. Yəni İnam hər bir xalqı özünə tapşırmaqla ulusal gələnəklərin ləğv olunmasının qarşısını alır, bir xalqın mənliyinin başqa xalq tərəfindən idarə olunması aradan qalxır. Beləliklə, Yurdumuza Ata gəlişi ilə İnam təkcə milli zəmində deyil, ümumbəşər anlamında tapınağa çevrilir.

İnsan Din-İnam təzadını dərk edir, – Xurafatın təlqinindən Həqiqətin aydınlığına üz tutur. İnam sübut edir ki, İnsanın üzü və qəlbi ağarmayınca, dünyanın içi işıqlanmaz. Xurafat – dini siyasət üçün qoruyan qaranlıqdır. Bu qaranlıqda dinlərin siyasət üçün döyüşləri mövcuddur. İnsanlıq birdir, Allah birdir, amma din bir deyil. Ümumbəşər anlamında inamlar ola bilməz, İnam ola bilər. Dinlər isə fərqli İnamlar sərhədi yaradır. Bu isə əslində siyasi münasibətlərin ayrıldığı sərhədin özünə aiddir. Bu səbəbdən də din İnamla əvəz olunur. İnam idrakı cəhalətdən ayırır və qoruyur. Bu halda siyasi ideologiyaların həqiqətçilikdən aşağı olduğu bilinir. Daha doğrusu, siyasətin həqiqətə zidd olduğu dərk olunur.

Demokratiya – liberalizm – Qloballaşma antiinsanilik hadisəsi kimi dərk olunur və rədd olunur. İnam Şərqi keyfiyyətlərin özülünə çevrilir, xalq bunu dünyalaşdırmaq amacı ilə yaşayır.

İnam ümumtürk birliyi yaradır, bu Birliyi dünyaya qarşı qoymur, dünyanın xilasına yönəldir. İnamın tələbi ilə imperiyaçılıq, cahangirlik axtarışlarına son qoyulur.

Xalq qəti imtinaya çağırılır, çatır.

***Ey çağdaş yurddaşlarım!***

Sizin içinizdən bir ər çıxıb, Yurdunuzda müqəddəslik Ocağı qalayıb. Boynunuzu bükük, azadlığınızı kölgəli eləyən şər felinə qarşı ruhani döyüş cəbhəsi yaradıb. Məhrumiyyətlərə alışıb, təqibləri ötüb,

təhqirlərə dözüb. Sizin mənliyinizin qorunmasını, aqibətinizin qurulmasını, Sabahınızın yaşanmasını Amal bayrağına çevirib başının üzərinə qaldırıb. İndi bu bayraq bizim, – sizlərdən biri olan yurddaşlarınızın başının, ömrünün üzərində dalğalanır.

Sabahınıza ayıq baxın, onu bugünümüzə gətirmək üçün ayağa durun. Ayaqlar altından çıxmaq vaxtıdır.

Öz içinizə qiblə deməkdən qorxmayın.

Öz Yurdunuza "Kəbə" deməkdən qorxmayın.

Asif Atanın Peyğəmbərliyini qəbul eləməkdən qorxmayın.

Mütləqə İnama "dinim" deməkdən qorxmayın. "Qorxunuzu qorxudun. Qorxunuzdan daşının!" (Asif Ata).

Azərbaycana televiziya ekranlarından eşq elan eləyənlər! Miskin, zavallı duruma salınmış yurdunuza istehza etməyin. Onu qurun. Qurulan möhtəşəm olur. Möhtəşəmi sevin. Zavallını öyməkdə həqiqət, sevməkdə İnam yoxdur. Aldatmayın xalqınızı: – gözü yaşlılarınızı, ürəyi sınıqlarınızı, ümidi dağılmışlarınızı, çörəyə möhtac qalanlarınızı…

Milyonlarınızın (varidatınızın) altına şüarlar yazmayın. Şüarlarla milyonlarınıza dayaq qurmayın. Pulunuzun dayaqlarını Yurdunuzun dayaqları kimi qələmə verməyin. Vicdanı söyməyin. İnsanların qəlbində Allahı öldürməyin. Ərəbistandan Yurdumuza Allah daşımayın. Yurdunuzda Allah yaradın. Yurddaşlarınızın ümidini ölümə dikməyin, həyat eşqinə yönəldin, Yurd sevgisinə calayın.

Peyğəmbərimiz Asif Ata Mütləqə İnamı yaradıcılıq üçün yaradıb – Yaşamaq, İnsanlaşmaq, Xalq olmaq üçün…





## MÜTLƏQƏ İNAM RUHANİYYATI

Ürəyinizdə Günəş olsun, istəkli sabahdaşlarımız!

Bundan sonra Ulusumuzun sabahı ürəklərimizə düşən İnam Ata Günəşinin İşığıyla aydınlaşacaqdır. Yurdumuza İnamın gəlişi sizi bu ümidlə müjdələməkdədir. Gəlin Sabahımıza üz tutaq – Ata Yolumuzu, Müqəddəs Kitabımızı tanıyaq, onu evimizin və qəlbimizin ən ali neməti kimi alaq və qoruyaq. Gəlin, Atamızı dinləyək, onun yaratdığı müqəddəsata tapınaq. Doğrulaq və yeni bəşər mədəniyyətinin cövhəri olaq. Sizdən çətin zəhmətlərə qatlaşmaq umuruq. Ancaq bu, Musanın öz qövmündən umduğu qədər aşırı çətinlik deyil.

Yadınızdadırmı, Tövrat, Musanın hökmü onun qövmünü necə xilas elədi?! İnam Ata sizə daha ali bir Kitab verir. Ona görə Onun hökm vermək haqqını tanıyın. O, sizə "azad və müqəddəs xalq olun" tələbi ilə səslənir. Bu vaxta qədər heç kim sizə bu tələblə yanaşmayıb. Sizin öz içinizdən irəli durmayan və sizi anlamayan bunu edə bilməz. İndi sizi anlayan Kimsə və sizin içinizdən çıxmış bir Ulu bu tələblə irəli durur. O, sizin çiyninizə aldadan və aşağı basan yük qoymur. Yükü öncə öz çiyninə götürür, sizdən isə Onu eşitməyinizi istəyir.

Əziz soydaşlarımız! Bu yazıya tərifləyən, təqdim eləyən bir yazı kimi baxmayın. Ulusal və bəşəri olan müqəddəs bir İrsin barmaq sayda qoruyucularının doğma ərki kimi yanaşın. Əslində bu yazının sonunda deyəcəyimiz fikirləri önündə deməklə diqqətinizin yolunu da lap başlanğıcdan bəlirləmək istədik.

İndi sizə təqdim elədiyimiz Müqəddəs İrsin cövhəri haqqında yığcam bilgi verək. Bunun üçün öncə Asif Atanın Ömründən bir neçə yarpaq söz açmalıyıq. Asif Atanın yaşadığı ömrü şərti olaraq iki dövrə bölməklə sonradan deyəcəyimiz fikirlərə müəyyən yön verə bilərik.

Birinci dövr əsasən Onun axtarışları ilə bağlı olub. Asif Atanın ilk axtarışları Rusiyanın Moskva şəhərində – tələbəlik illərində başlayıb. Yurduna bağlı qayğıları, düşüncələri Onu dünyanın bütün mənəvi irsini öyrənməyə sövq edib. Öyrənib ki, Yurdumuzu tanısın

və öyrəndikləri sırasında onun yerini müəyyən eləsin. Ancaq öyrəndikləri arasında öz Yurduna, Ulusuna dair heç nə tapmayıb. Bir millətin adının indiyə qədərki bəşər mədəniyyətində olmaması bu millətə nə vəd edir?! Adsız, dəyərsiz, təsirsiz hara qədər getmək mümkündür?! Öz içindən yönəldilməyən, başqasının buyuruğu ilə yaşayan bir toplumun sabahına inanmaq olarmı?! Kölgələrdə sürünən, öz mənliyini qurmayan, siması bilinməyən bir toplum "millət" adlana bilərmi?! Nədir bunun səbəbi, bu millətin var olmasına nədir mane olan?!

Bu cür suallar Asif Atanı Azərbaycanın qədimliyini öyrənməyə yönləndirdi. Araşdırdı, fəhm etdi, öyrəndi və öyrəndiklərini ciddi mənalandırıb "Azərbaycanımız – Azərbaycanlığımız" silsiləsində birləşdirdi. Asif Atanın bu dəyər sistemi haqqında biz çox yerdə yazmışıq, ayrıca kitabça halında hazırlayıb yaymışıq da. Odur ki, burada o dəyərlərin yalnız adlarını göstərməklə yetərlənəcəyik: "Zərdüştlüyümüz – İşıqçılığımız"; "Dədə Qorqudluğumuz – Ağsaqqallığımız"; "Babəkliyimiz – Xürrəmdinliyimiz"; "Hürufiliyimiz – Ənəlhəqliyimiz"; "Füzuliliyimiz – Aşiqliyimiz"; "Muğamlığımız – Loğmanlığımız"; "Sazçılığımız – Tanrıçılığımız". Asif Ata bu fikirdəydi ki, belə zəngin dəyərləri olan xalqı balaca saymağa heç kimin haqqı yoxdur. Ona görə də bu dəyərlərin məzmununu xalqa qaytarmağın yollarını düşündü. Bu axtarışlar onu Azərbaycan uğrunda böyük Ruhani Mücadiləyə çəkib aparır. Tələbəlik illərini başa vurub ədəbiyyat mühitinə daxil olandan sonra onun ciddi mübarizəsi başlamışdı. Ədəbiyyat tənqidçiliyindən yararlanaraq, böyük məqsədlərinə doğru yol açmağa çalışırdı. "Qatar poeziyası, təyyarə poeziyası" yaratmağın eybəcərliyini ifşa elədikcə "intellektualların", "novatorların", atom əsri təbliğ edənlərin antixəlqi mahiyyətini açıb göstərir, məişət problemlərini ədəbiyyatın başlıca qayəsinə çevirməklə milli-insani problemlərin üzərinə pərdə çəkənləri qınayırdı. Onun bu əməllərinə cavab olaraq, ilk müqavimətlər göründü. Rəsmi qəzet və jurnallarda əleyhinə yazılar, məqalələr çıxmağa başladı. Bu addımlar böyük təqibin ilk xəbərdarlıqları idi. Artıq Əfəndiyevi Atalığa doğru aparan Yolun zəhmi ağarırdı. Hünərlər dənizinə baş vurmusansa, üzməlisən, sən də öz hədəfinə doğru. Asif Atanın içindən ucalan bu səs, bu çağırış fərəhli bir ümid bəsləyib yetirirdi. Belə bir fərəhli ümidlə O, Azərbaycan





Dövlət Universitetinin böyük Toplantılar odasında ("Akt zalı"nda) "Etik və Estetik Tərbiyə Klubu" yaratdı. Bu kluba axışan insanlara Azərbaycanlaşan mənalar, məzmunlar bəxş edirdi. Böyük maraq, intizar, narahatlıq içində axışıb gələn insanlar yavaş-yavaş Onun ideyalarının, böyük məqsədlərinin ilk rüşeymlərini öyrənməyə başladılar. Bu insanlar artıq necə yaşamağın, necə duymağın, necə vətənləşməyin tələbləri ilə görüşürdülər.

İnsanlar burada özlərini tapmağa başlayanda şər duyuq düşdü, qeyzləndi, mane olmağın yollarını aradı və tapdı: Rəsmi konfransın keçirilməsini, mikrofonun işləmədiyini, zalın təmir ediləcəyini bəhanə gətirdi. Klub Respublika "Bilik" cəmiyyətinə köçürüldü, adı "Ocaq" qoyuldu. "Klubun sədri Ocağın Atası ilə əvəz olunmalıdır" ideyası da burada yarandı. Ocaq Məramı aydınlaşmağa başladı, Ocağı yaşatmağa and içildi. Artıq burada böyük ideyalar, böyük fikirlər dilə gətirildi: İnsanlaşmaq, özünü daxildən dəyişmək, Müqəddəsliyə tapınmaq, Dünyanın Dünyadan böyük mənasına pənah gətirmək... Ruhani İntibaha başlamağın zəruriliyi ağıllara yeridilir, düşüncələri fəth edirdi. "İnsanlaşma olmadan Müstəqil Vətən, Azad Xalq yaratmaq mümkün deyil" fikri güclü cazibə yaradırdı.

Söz yox ki, imperiya (SSRİ) içində belə bir hərəkatın başlaması, yaşaması müşkül bir iş idi. "Bilik" cəmiyyəti rəhbərliyinin ürəyinə dolan qorxu, çaşqınlıq, şübhələr qapını Ocağın üzünə burada da bağlatdı. "Xatanı" özlərindən vaxtında uzaqlaşdırmağın yolu bu idi. Ocaq isə yanmalıydı. Ata rayonlara, şəhərlərə səfərlər edir, təhsil müəssisələrində olur, tələbələrlə, müəllimlərlə, elm adamları ilə, fəhlələrlə görüşlər keçirirdi. Hər yerdə sevgi ilə, sevinclə qarşılanırdı. Yataqxanalarda, kitabxanalarda keçirdiyi görüşlərin sorağı sürətlə yayılırdı. Nəhayət, xəbərdarlıq başladı, rəsmi tələblər Asif Atanın özünə çatdırıldı: "Ocağı söndür, görüşə getmə – işdən qovularsan, hörmətdən salınarsan". O vaxtkı Evladlara da xəbərdarlıqlar edilirdi: "Bu adamdan əl çəkin, o, marksizm əleyhinə, kommunizm əleyhinə iş aparır, millətçiliyi yayır, pantürkizmə xidmət edir və s."

Hətta Asif Atanı partiyadan, işdən çıxarmaq, elmi adını, müəllimlik dərəcəsini əlindən almaq qərarı verilir. Aparırlar, gətirirlər, dindirirlər, mənəvi-psixoloji təsir göstərirlər. Basqı tükənmir, azalmır. Ailəsi dağılır. O bu basqılar altında tamam tək qalır və gizli fəaliyyətə keçir. Bundan sonra Ata Ömrünün (şərti

bölgümüzə görə) ikinci mərhələsi başlayır. Fiziki yaşamağın özü belə sual altında qaldığı bir halda hərəkat yaratmaq?! Yatmağa yeri yox, yeməyə çörəyi. Hansı güc insanı ayaqda saxlamalıdır ki, belə çətin aşırımları aşa bilə?!

Bu dövrdən Asif Atanın işi iki yöndə gedirdi: ***həm hərəkatın təlimini, fəlsəfəsini yazmaq, həm də bu işi həyata keçirən insanlar yetişdirmək.*** Bu ömrü yaşamaq sıradan birisinin işi deyildi, bu artıq Peyğəmbərlik idi, ancaq ənənəvi Peyğəmbərlikdən fərqli bir səviyyədə. Məzmunca ənənəvi Peyğəmbərliyə uyğun, – yəni İnam yaratmaq, İnamına tən yaşamaq və onu həyata keçirmək üçün əziyyətlərə qatlaşmaq. Fərq isə məramında, meyarında, biçimində idi. Hal fərqi, anlayışlar fərqi, ideyalar fərqi “peyğəmbər” sözünə sığmadığı üçün Ruhani İntibahçılıq hərəkatı ***Ruhani Atalıq*** məzmununda ifadə olundu. (“Ata sözü Peyğəmbər sözündən üstündür” deyirdi Asif Ata). Atalıq məzmununda vüqarlı olmaqla, səbirli olmaqla yanaşı, həm də hökmlü olmaq tələbi yaşayır. Təvazökar olmaqla gedişatı dəyişmək mümkün deyil. Asif Atanın yaratdığı İnam İnsana və insandakı bu ali keyfiyyətlərə bağlıdır. Ancaq hanı elə bir mühit ki, insandakı ali keyfiyyətləri sevgi ilə qarşılasın?! Bütün dövrlərdə olduğu kimi, Asif Atanın çağdaşları da onun fikirlərini, çağırışlarını süngü ilə qarşıladılar. Əski Peyğəmbərlərə ən çox avamlar təpki göstərirdilər, Asif Ataya isə ən çox elmli, bilikli, savadlı çağdaşları ağız büzdülər: – “XX əsr hara, peyğəmbərlik hara, – sən ən yaxşı halda ədəbiyyat tənqidçisi ola bilərsən. Heç filosof da ola bilməzsən, çünki sənin fəlsəfi əsərlərində bir dənə də olsun, başqa fəlsəfələrdən sitat yoxdur, onların şərhi yoxdur”.

Asif Ata Peyğəmbərliyi elmə, biliyə, idraka əsaslanırdı. Əski Peyğəmbərlərdə isə fanatizm, fantaziyalara əsaslanan sehr, möcüzə üstünlük təşkil edirdi.

Asif Atanın fəlsəfəsi İnam Fəlsəfəsidir. O, ənənəvi fəlsəfələrə bənzəmir. Burada geniş şəkildə şərhçilik yoxdur. Eyni zamanda O, öz fikirlərini gücləndirmək və sübuta yetirmək üçün ənənəvi fəlsəfələrdən, baxışlardan nümunə götürmür. Bu, həm də İnsan fəlsəfəsidir. Bu fəlsəfə Asif Atanın Mütləqə İnam Sivilizasiyası carçılığına yön verməklə, gələcəyi ümumbəşər səviyyəsində





gözəlliyə, Müqəddəsliyə, İnsana – İnsanlığa bağlayan düşüncə sistemidir.

Asif Atanın başlıca məqsədi dini İnamla əvəz eləməkdir. O, dinin alleqorik və mifik baxışlarla insanı yönəltmək üçün aldadıcı manevrlərini rədd edir. Bu manevrlərin insanlığa zərbə vuraraq siyasətin inkişafına yaradığını vurğulayır. Asif Ata hesab edir ki, insanı transsendental, fövqəltəbii qüvvələrin xidmətçisinə çevirməklə bəşəriyyəti ağ günə çıxartmaq olmaz. İnam işi insana daxili ali güc, qüvvət verməlidir. Yalnız bu halda o, mənəvi Kamilliyə yüksələ bilər. İnsanı Qorxuya inandırmaqla itaətdə saxlamaq – Vicdana, Ədalətə yol açmır. Dində insan nə eləyirsə, “Göylər Səltənəti”nin xoşuna gəlmək və orada özünə yer eləmək üçün eləyir. Təmənnalı ibadət, təmənnalı xidmət insanı ölümlü, keçici “uğurlara” şirnikdirir. İnam deyir: Ölməzliyə – təmənnasızlıq, fədakarlıq, özündənkeçmə səviyyəsində qovuşmaq mümkündür. İnsan Mütləqi Göylərdə deyil, içində tapmalıdır. İçindəki Mütləq onu həqiqətə yönəldər, vicdanlı və ədalətli edər. Ədalətin təməli göylərdə deyil, insanın içindədir. Dində insan bəndəliyə, qul psixologiyasına alışdırılır. İnamda isə insan həqiqi qiymətini tapır. Mütləqə İnam baxışına görə, “İnsan – daxilində Mütləq daşıyan, gerçəklikdən, şəraitdən, mühitdən, zamandan üstün olan, Mütləqiliyə meyil edən və Mütləqləşməyə qadir olan ruhani varlıqdır”. Bununla da həyat nizamının, gözəlliyinin, müqəddəsliyinin “o dünya”dan asılılığı rədd olunur və İnsan özünə tapşırılır.

İkinci, dində Dünya yoxdan yaranır, özü də dünyadan kənardakı “İradənin” təsiri ilə. Sonra isə heçdən yaranan dünya heç (fani) sayılır. Dünyada yaşamaq formal hesab olunur – ömür ikinci və “əsas dünyaya” – “o dünyaya” keçid mərhələsi kimi təqdim olunur. İnsan dünyanı sevmir (fanini sevməzlər), sevgisini o biri dünyaya yönəldir. O biri dünyanın qayğısı ilə yaşamağa tərbiyə olunan insan heçliyə çevrilir. Dünyanın gözəlliyi də, ahəngi də, məzmunu da maddiləşdirilir, axirət qarşısında törəmə bir vasitə kimi dəyərləndirilir Dünya.

İnamda Dünya Özündən – Əzəli, Əbədi, Kamil, Sonsuz Dünyalıq Mənasından yaranır. Əzəli olan fanilәşə bilməz, Əbədi olan dayana bilməz, Sonsuz olan tükənə bilməz, Kamil olan idarə oluna bilməz. Əzəlinin ötəri olan təzahürü var, Əbədinin keçici olan

təzahürü var, Sonsuzun sonlu olan təzahürü var, Kamilin qeyri-kamil olan təzahürü var. Bunlar Dünyadakı hadisələrdir. Dünya öz hadisələriylə daim təzələnir, ancaq Dünya Dünya olaraq qalır. Məna yox olmur, – yox olmayacaq.

Dində Vətən və millət yoxdur. Əgər dünya fanidirsə, insan o dünyaya hazırlaşırsa, bu dünyada özünə vətən yaratmağa, dəyər yaratmağa həsr olunmağa nə hacət?! Hər kəs peyğəmbərin ümmətidir və onlar peyğəmbərin çağırışı ilə axirətə – babalarının gəldiyi yerə qayıtmalıdırlar. Onsuz da qiyamət qopanda dünya dağılacaq.

İnamda Vətən – milləti bəşər səviyyəsinə qaldıran əbədi, ölməz dəyərlərin yaşadığı ünvandır. Əbədi, ölməz dəyərlərin yaşadığı müqəddəs ünvan fani ola bilməz. Nisbi, keçici, ötəri müqəddəslik olmur. Vətən və millət bir-birinə bağlı ölməz məsələlərdir. Millətsiz bəşər yoxdur. Asif Ataya görə xalq, millət bir şeydir. "Xalq Ruhunda həmişə əbədi keyfiyyətlər saxlanılır.

... Xalq cəmiyyət qanunlarına əməl eləyir, ancaq öz qanunları əsasında yaşayır. Bu səbəbdən də qəsbkarların yaratdıqları eybəcər mühitdə belə, xalq xalq olaraq qalırdı. Çünki xalq insanların sadəcə cəmi deyil, Birliyidir. Bu Birlik Mənəviyyatın dərinliyində mövcud olur, bu dərinliyə isə cəmiyyət müdaxilə edə bilmir" ("Yol. Ata Sözü" kitabından).

Buradan da Asif Atanın millətçilik məsələsi öz izahını tapmış olur. Çoxları düşünürlər ki, Asif Atada millətçilik var, Peyğəmbərlik isə ümumbəşər hadisəsidir. Ancaq unutmaq olmaz ki, Peyğəmbər xalqda yaranır. Peyğəmbərlik insani problemləri ilk öncə öz xalqında – yaşadığı mühitdə aşkarlayır. Ümumbəşəri problemlər isə xalqlarda mövcud olan insani problemlərin ümumiləşməsi və genişlənməsidir. Peyğəmbər konkret bir xalqın nümayəndəsidir. Öz xalqına yaramayan bəşərə də yaramaz. Öz xalqını sevdiyi üçün bəşəri də sevir. Xalqda ali, gözəl, müqəddəs nə varsa, o, elə bəşərilik deməkdir. İnsanilik – millilikdə aşkarlanan və bəşəriliyə doğru inkişaf edən azadlıq və humanizm yaradır.

Vətənləşmədən dünyalaşmaq mənasızlıq və xülyəvilikdir. "Bütün dünya mənim vətənimdir" deyənlər Vətəni dərk eləmirlər. Vətənin özünü dünyaya çevirməyən dünyanı tanımaz və sevməz. Vətənsizlər ülviyyəti görmürlər. Öz millətini doğrultmaq bəşəriyyəti doğrultmaqdır, öz milləti vasitəsilə bəşəriliyə xidmət etməkdir.





Hökmdarlar öz millətindən bəşəriyyətə ağa düzəldirlər, başqa sözlə, öz millətləri vasitəsilə dünyaya ağalıq edirlər. ***Milləti bəşəriyyətə qarşı qoyanda imperiya yaranır.***

***Peyğəmbərlik millətin insani keyfiyyətlərini aşkarladığı üçün bəşəridir.***

Asif Ata İnamının adı İnsanilikdir, yəni əslində bəşərilikdir. Azərbaycan İnamın həm mərkəzidir, həm də bir bölgəsidir. İnsana səcdə üzərində qurulan Mütləqə İnam dünyabaxışının carı "İnsanlaşın – İnsanlaşdırın! Bəşərin nicatı İnsanlaşmaqdadır" məzmunundan ibarətdir.

Asif Atanın İnam İşinin yönü, yuxarıda vurğuladığımız kimi, Ruhani İntibahı həyata keçirən insanlar yetişdirməkdən ibarət idi. Mütləqə İnam Dünyabaxışının yaşaması və yayılması üçün Ruhani Qurum yaranmalı və hərtərəfli biçimini tapmalı idi. Bu qurum "Ocaq" adı daşıyırdı. Asif Ata Ocağın qaydalarını, iş prinsiplərini, üslubunu başa gətirməklə əslində yeni sivilizasiya tarixini başlamış oldu. Burada insanlararası münasibətlər Ruhani quruculuğun ana xətti idi. İndiyə qədərki ruhaniyyat tarixinin qorxu və təlqin ənənəsi İnam Ruhaniyyatında inanmaq və dərk eləmək səviyyəsi ilə əvəz olunurdu. Bunun özəyində isə, ilk növbədə, Atanın Özünü yaratması dayanırdı. Onun Ömrü Evladları üçün həm də ruhani bir örnək idi. O, Evladlarını müqəddəs tabeçiliyə (səcdəyə) çağırırdı, bunsuz İnamın baş tutmasının mümkünsüzlüyünü anladırdı. Bununla belə, heç kimə "bəli, baş üstə" halı aşılamırdı, qüsurlu Ataya tabe olun demirdi. Qüsurlu Ata olmur, Ata qüsursuzluq deməkdir. Özünü kamilləşdirməyən, Mütləqə tən yaşamayan şəxs peyğəmbər ola bilməz. Asif Atanın Ömrü əzablarla yoğrulmuş, sarsıntılar odunda təmizlənmiş, müqəddəs fikirlər, düşüncələr selinə qarışmış, ali mənəviyyatla qurulmuş bir Ömürdür. Bu səbəbdən də səcdəyə layiqdir.

Ümumən Ocaqda özünəməxsus münasibət qanunları qüvvədədir. Bunlar Asif Atanın Ruhani Hökmlərindən və yaratdığı Özüylədöyüş xəttindən qaynaqlanır. Özüylədöyüş "Yenidəndoğulma" ideyasının gerçəkləşmə üsuludur. Özüylədöyüş vasitəsilə cəmiyyətçilik aradan qaldırılır, əhvallarda, münasibətlərdə ülviyyət bərqərar olur. Bununla da ideal tələbi ilə Ruhani mühit formalaşır. İnamın tələbi özünü dərkdir. Özünü dərk prosesi həqiqətin yaşamasını və gerçəkləşməsini

şərtləndirir. Bu yöndən Asif Ata hər bir Evladı ilə xüsusi məşğul olub. Aylarla, illərlə səbr edib, dözüm göstərib – onların ağlına işıq salıb, ürəyinə qüvvət verib. “Vətən necədir, dünya nə haldadır, insan kimdir” kimi suallara cavab tapmağı hər bir Evladının ömründə yaradıcı tələbə çevirib. Onlara öyrədib ki, insani yaşamaq mübarizədir, xalqı yaratmaq özündənkeçmə əməlidir. Yalnız Mütləq olan İnsanidir. İnsani olmayan Xəlqi deyil. Xəlqi olmayan əməl, əhval, münasibət xalqı yarada bilməz.

Bura qədər Asif Atanın İnam, Atalıq, Ruhani Qurum, Mübarizə məsələlərindən qısaca bəhs elədik. İndi isə bir neçə kəlmə **Müqəddəs İrs** haqqında söz deyək. Mütləqə İnam dünyabaxışının ideya və prinsipləri burada hərtərəfli ifadə olunmuşdur. Bu İrsə, əsasən Asif Atanın Müqəddəs Kitab və Kəlamları daxildir. Bu vaxta qədər Asif Atanın 10-a qədər kitabı Ocaq Evladları tərəfindən müxtəlif tirajlarla çap olunmuşdur.

Ocaq ilsırasının 29-ilindən Asif Atanın Müqəddəs İrsi üzərində yeni mərhələdə iş başlanmışdır və 30-ilin sonuna doğru bu iş yekunlaşmışdır. Ocağın Evladları tərəfindən həyata keçirilən bu iş ondan ibarətdir ki, Ata İrsi təsnifatlaşdırılmış, sistemləşdirilmiş və 10 cilddə tərtib olunmuşdur. Bu cildlər əski və əsil türkcədə “Qutsal Bitiqlər” adlanır. Nəşrin ümumi adı “Qutsal Onluq”, yaxud qısaca “Onluq” adlanır. Aşağıda onun cədvəl biçimini dərc edirik:

Qutsal Bitiqlərin cədvəl biçimi

| **Bitiq (cild) Sırası** | **Bitiyin (cildin) adı** | **İçindəki əsərlər** |
|---|---|---|
| **I** | **Mütləqə İnam** | Mütləqə İnam |
| **II** | **Mütləqləşmək – Var olmaq** | Mütləqləşmək – Var olmaq |
| **III** | **Anlam İnsaniliyi** | Təzadlar; Rəmzlər; Mənalar |





| | | |
|---|---|---|
| **IV** | **Görmək İnsaniliyi** | Mütləqilik; Olan və Olmayan; Varlıq – Yoxluq; Ruhani Xətt; Münasibətlər; Hallar |
| **V** | **Fəlsəfənin Təməli** | İnam Fəlsəfəsi; Təməl |
| **VI** | **Qutsal Quruculuq** | Yol. Ata Sözü; Sədaqət; Ruhani Hökmlər; Ruhani Sənədlər; Müqəddəs Kəlamlar |
| **VII** | **Yetməli Olduğunuz** | Adamlıq – İnsanlıq; Adamdan – İnsana; İnsana Yaramaq; Özümlük – Özgəlik; Dünənçilik – Sabahçılıq; İnsanilikdən Yaranan; Müqəddəslik; İnsanilik İmkanı; Həqiqət İnsaniliyi; İnsanilik |
| **VIII** | **Özüllər Özülü** | Ruhaniyyat; Əxlaq; Mahiyyət |
| **IX** | **İçdən Yaranma** | Özündən Yüksək; Dünyadan Üstün; Dünyaçılıq – İnsançılıq; Gerçəkliyi Ötmək; Kamilləşmə Əməli; Daxildən Gerçəkləşmək; Bütövlük Həqiqəti |
| **X** | **Hüquqdan Haqqa** | Haqq; Ölçü; Siyasətdən Üstün; Haqq – Haqsızlıq; İqtisadiyyat İnsansızlığı – İqtisadiyyat İnsaniliyi; Həqiqət Azadlığı – Cəfəngiyyat Əsarəti |
| **1** | **Ruhani Sənədlər** | |
| **2** | **Yollaşan Aqibət** | Atalıq Xilqəti; Ömrüm – Günüm; Bədiiyyat; Muğam Fəlsəfəsi |
| **3** | **Həqiqətlər** | (Ata Söyləmləri və ya Gerçəklik – Ata sınağında) |

Bitiqlər (Cildlər) içlərindəki kitabların Mütləqə İnam sistemində ifadə elədikləri məna yaxınlığına görə təsnifatlaşdırılıb. Bundan başqa, 3 Yan Bitiq (əlavə cild) hazırlanıb (bunlar Onluğun əlavəsi sayılır).

Birinci Yan (əlavə) Bitiqdə Asif Atanın Ocaq quruculuğuna aid olan Ruhani Sənədlər – Evladlara Atanın buyuruqları, onları Ruhani Səfərlərə, əməllərə yönəltmələri, Ailə Gününə Xeyir-duaları, Evladların Atadan Ruhani ad almaları və b.k. öz əksini tapmışdır.

İkinci Yan Bitiyə Asif Atanın Ömür Yolunu, sənətə baxışını əks etdirən Əsərləri daxildir.

Üçüncü Yan Bitiqdə isə Asif Atanın fəlsəfə ilə, ədəbiyyatla, dinlə, ictimai-siyasi hadisələrlə bağlı çoxsaylı deyimləri ifadə olunmuşdur.

Bundan sonra Ocaq Müqəddəsatı həm ayrı-ayrı Müqəddəs Kitab və Kəlamlar biçimində (Asif Atanın sağlığında olduğu kimi) qorunub saxlanacaq, həm də "Onluq" şəklində artırılıb yayılacaqdır. Asif Atanın Müqəddəs Kitablarında (Bitiqlərdə sıralama baxımından) quruluş dəyişikliyi aparılsa da, mənasına, məzmununa, üslubuna, cümlə və fikir quruluşuna toxunulmayıb və bundan sonra da, Mütləqə İnam Ocağı olaraq, toxunulmasını yolverilməz hesab edirik. Kitab və Kəlamları uyğun sıralamaqla "Onluq" şəklinə salmaqda məqsəd Ocaq Ruhaniyyatının toplu halında əldə olunmasını və öyrənilməsini sadələşdirməkdir.

Atanın elə Kitabları var ki, cəmi bir neçə yarpaqdan ibarətdir. Bunları ayrıca nəşr elətdirmək çətindir və nəşrlər arasında fasilələrin olması pərakəndəlik yaradır. Bir kitabı əldə edən o birini əldə edə bilmir. Beləliklə, İnamı sistemli şəkildə öyrənməkdə çətinlik yaranır. Ancaq işin əsas məqsədi təkcə bu çətinliyi aradan qaldırmaq deyil. Burada həm də böyük türk xalqına ruhaniyyat Ocağı yaratmaq, onu bəşəriyyətin gələcəyində Kitablı, Sözlü, Peyğəmbərli bir xalq olaraq görmək məqsədi güdülür. Asif Ata buyurur: "İstədim ki, türk xalqı heç kimdən fəlsəfə dilənməsin". Bəli, türk xalqı özünə böyük mədəniyyət yaratmalıdır ki, başqa mədəniyyətlər onun yönünü türklükdən qırağa döndərməsin.

Asif Atanın kitablarının müxtəlif adlarda və cildlərdə olmasına baxmayaraq, onları ümumi bir ad altında – "Mütləqə İnam Ruhaniyyatı" kimi qəbul eləmək gərəkdir.

İnam Kitabla gəlir. Bu Kitab Göylərin diktəsi və tələbi ilə yazılmayıb. O, İnsan qəlbinin, idrakının Anlama qovuşması ilə meydana çıxan müqəddəs fikirlər sistemidir.

İnam Bəşər Ruhunun ölməzliyinə bağlıdır.





İnamın məqsədi İnsanilikdir.

İnamı Dinə bərabər tutmaq olmaz. Din etnik keyfiyyətlərin içinə girdi və onları içəridən dəyişikliyə uğratdı. Qəbul edildiyi xalqlarda insani, bəşəri imkanların üzə çıxmasına yardımçı olmadı. Din özü məqsədə çevrildi. Bu səbəbdən də ideologiyalaşdı – ulusallığın (milliliyin) zərərinə. Başqa sözlə, din konseptual ideologiya kimi çıxış elədi. İdeologiya mənafelərin nəzəri təminatçısıdır. Ona görə də din siyasətin əlavəsi kimi formalaşdı.

Mütləqə İnam ümumbəşər səviyyəli dünyabaxış olmaqla özülündə türklük keyfiyyətləri daşıyır. İnam başqa xalqların öz ruhaniyyatlarını yaratması üçün stimul verir. İnam hesab edir ki, hər bir xalq özünəməxsus ruhani keyfiyyətlərini aşkarlamalı, Özümlüyünü – bənzərsizliyini qorumaqla ümumbəşəri birliyə nail olmalıdır. ***İnam türklüyü başqa xalqların etnik keyfiyyətlərinin içinə daşıyıb, onların simasını dəyişmək istəyində bulunmur.*** İstənilən bir xalqın özünəməxsusluğu pozuntuya uğrayırsa, bəşərin siması zədələnir. Siyasət – xalqların özünəməxsusluğunun dəyişdirilməsindən yaranır. Hər bir xalqın mahiyyəti onun bəşəri məzmunudur. Buraya müdaxilə edib dəyişiklik yaratmaq – siyasətin özgələşdirmə əməlidir. Xalqların xarakterində üstünlük və ya əskiklik başqa şeydir. Üstünlük Özümlüyə doğmalaşmaqdır, əskiklik özümlüyə yadlaşmaq. Bir xalqın xarakter özünəməxsusluğu mahiyyət özünəməxsusluğuna bərabər deyilsə, o, ruhaniyyat vasitəsilə bu bərabərliyə yetməlidir. Ruhaniyyat xalq ruhunu qorumaq üçündür. Ruhaniyyatsız xalqın gələcəyi yoxdur. Xalqları çağdaş Avropa tərəqqisi ilə gələcəyə aparmaq mümkün deyil. Avropa tərəqqisi xalqları simasızlaşdırır. Ümumən Avropaçılıq dünyanı çöküşə gətirib çıxartdı. Səbəbi Şərq xalqlarının geriliyində axtarırlar. İnsani tənəzzülü texniki tərəqqi və iqtisadi yürüşlərlə ört-basdır eləməyə çalışırlar. İnam deyir – Xilas Peyğəmbərlik hadisəsindədir. Avropanın zərərli iqtisadi-texniki sistemini uçurub bəşəriyyəti İnam Yoluna döndərmək lazımdır. Kapitalizm demokratiyası bütün eybəcərlikləri ilə özünü göstərdi. Nicat İnsanlaşmaqdadır, İnamdadır. İnamçılıq uzun yoldur, ancaq Azadlığın yeganə yoludur.

İstəkli sabahdaşlarımız! Asif Atanın (İnam Atamızın) Müqəddəs Onluğunu sizə təqdim edirik. Burada həyatın dərin fəlsəfi mahiyyəti açılır və insan taleyinin azadlığa qovuşma imkanları əks olunur. İnsanın qarşısında həyatın mənası bütün gözəlliyi ilə aşkarlandıqca, Ölməzliyə

inam yaranır. Bu inam İnsanı özünə qaytarır. İnsanın bütün cəhətləri İnam vasitəsilə dərk olunur. Özünüdərkdə cəmiyyətin yaşatdığı ədalətsizlik, gerilik, köhnəlik bilinir və onun aradan qaldırılması zərurət kimi düşüncələrə təsir göstərir. İnsan qəlbində ali həqiqətə ehtiraslı pərəstiş yaranır, həm də adiliyə, süniliyə qarşı güclü bir etiraz baş qaldırır. İnsanlarda özünə, Ulusuna, Yurduna qarşı inamsızlıq aradan gedir. Biz sizin qarşınızda öz ömrümüzdə, düşüncələrimizdə yetdiklərimizdən çıxış edirik. Bu vaxtacan hər bir işimizə (bir millət olaraq) "başa gəlməyən iş" kimi baxa-baxa xəlqi quruculuqdan məhrum olmuşuq. Biz özgələrin gücünə, bizi öyrətmələrinə, bizi yenmələrinə inanmışıq. Öz gücümüzə, öz yaratdıqlarımıza inanmaq, inamsızlığa son qoymaq vaxtıdır. Yurdumuza İnam gəlib! İndi biz Mütləqə İnam Ruhaniyyatı ilə dünyanı öyrətmək imkanı əldə etmişik.

İnamımız, Ocağımız, Fəlsəfəmiz, Kitabımız, Peyğəmbərimiz – bizi Azadlığa qovuşduran və Gələcəyə aparan Müqəddəs Sərvətimizdir.





## EVLADLIQ ATALIĞIN DAVAMIDIR

32 ildir Yol gəlirik. Bu fikir, eşidən hər bir kəsin içində belə bir sual doğura bilər: – Bu Yol nə deməkdir, hardan başlayıb və hara gedir? Əlbəttə, bu suallara biz zaman-zaman cavab vermişik. Bu gün də bizim gördüyümüz işlər və yaşadığımız ömür bu suallara cavab verməkdədir.

Ruhani fəaliyyətlə məşğul olan hər bir adamda öz gördüyü işlərdən həmişə bir məmnunluq hissi yaranır. Çünki istənilən ləyaqətli xidmət insanın özündən yüksək məna daşıdığını və onun başqalarına gərək olduğunu sübut edir. İnsan öz varlığının və xidmətinin mənasını dərk elədikcə öz gözündə böyüyür və yeni axtarışlar dünyasına çıxır. O buradan başlayır yaşamağa. O, öz ömrünü adilikdən, keçicilikdən ayırır, aqibətinin yönünü insani təməl üzərinə gətirir. Asif Ata bu təməli dörd mühüm keyfiyyətin üzərində izah edir: – İnam, İdrak, Mənəviyyat, İradə. İnsan ömrünün bütövlüyünün yaranması bu keyfiyyətlərin vəhdətinin dərk olunması əsasında baş tutur. Asif Ata Xalqının içindən Ocağına çağırdığı insanları bu həqiqətlə üz-üzə gətirir. O, insanın bu həqiqətdən kənarda ruhani mübarizə aparacağını düşünmür.

İlk baxışda Ocağa Evlad gəlişi başqalarına süni və qəribə görünə bilər. Üzdən baxanda bu qayda adamın vüqarına qarşı təsəvvür yaradır. Sanki adam öz mənliyindən keçir və Asif Atanın mənliyinə qulluq göstərməli olur. Diqqət yetirək: Ocağa qəbul olunan Evlad Atanın hüzurunda and içir: "Atam, Mütləqim, qarşında and içirəm: – Mütləqə İnam uğrunda, Kamil İnsan uğrunda, Ruhani Cəmiyyət (Xəlqi Birlik) uğrunda, Müstəqil Vətən uğrunda, Özümlü Şərq uğrunda, Ləyaqətli Bəşər uğrunda ömrümün sonuna qədər Ruhani mübarizə aparacağam. Ömrüm sənindir, Ata, onu götür, istədiyin kimi sərf elə. Andıma xilaf çıxsam, özümü ölmüş bilərəm". Bu vaxta qədər Asif Ata qarşısında bu andı 180-dən çox adam içibdir. Bu adamlardan çoxu partiyaya üzvlük ərizəsi yazmaqla Asif Ata qarşısında and içməyi öz təsəvvüründə eyniləşdiribdir. Çünki sıradan olmaqla, sırada qalmaqla Yük altına girməyin fərqli məna daşıdığını dərk eləməyib. Partiya başçısına olan münasibətlə Asif Ataya qarşı umulan münasibətin tamam fərqli tələblər üzərində qurulduğu da bir çox adamlarda müəyyən çaşqınlıqlar

yaradıbdır. Asif Ataya münasibətin onun mənəmliyinə əsaslandığını da düşünənlər az olmayıbdır. Çünki Asif Ata özünə qarşı elə münasibətlər istəyib ki, bu münasibət zahirən özünə vurğun, şöhrətpərəst adamın arzusu kimi görünə bilərdi adi gözlərə. Məsələn, "Atanın əlini öpmək lazımdır, Ata ilə 3-cü şəxs kimi danışmaq lazımdır, Ataya "Mütləqim", "Müqəddəsim" deyə müraciət olunmalıdır". Əlbəttə, istənilən adam belə tələbləri öz qüruru ilə müqayisə edəndə nəinki Ataya doğru gələr, əksinə, Atanın əleyhinə kəskin fikirlər yürüdər. Ancaq bu tələbləri Asif Atanın ortaya qoyduğu ideyalarla müqayisə edəndə tamam başqa münasibət ortaya çıxır. Bu ideyalara xidmət eləmək üçün mütləq sənin tapındığın idealın olmalıdır və onu eşitməlisən. Müasir dünya demokratiya dünyasıdır, plüralizm cəmiyyətidir. "Vətəndaş cəmiyyəti" deyilən bir ideya ortaya qoyulub. Bütün vətəndaşlar qanun qarşısında bərabərdir və qanun bütün vətəndaşlara eyni hüququ tanıyır. Zahirən baxanda çox humanist və ədalətli səslənir. Hətta qanunu ağızdolusu müdafiə edənlər "qanun alidir, sadəcə ona əməl eləmirlər" deyirlər. Elə məsələnin mahiyyəti də buradadır. Bəli, qanunu nəzəriyyəçilər yazırlar və qanun tarix boyu nəzəriyyədən ibarət olub. Nəzəri qanunlar kütlənin ideoloji nizamı kimi formalaşıb. Belə qanunlar dövlət ideologiyasının (bəlkə də hakimiyyət ideologiyasının) nəzarət, özünüqoruma mexanizmi kimi həmişə inzibati xarakter daşıyıb. Və qanunlar heç vaxt insani münasibətlər yaratmayıb, zorakı hüquqi münasibətlər formalaşdırıb. Bununla da idarə edənlə idarə olunan arasında daim münaqişə halı mövcud olub. Nəticədə Vətənə, millətə, dövlətə olan münasibətlər keyfiyyətcə aşağı səviyyəyə düşüb. İnsanlar qanun qarşısında məsuliyyət deyil, qorxu hiss ediblər, – idarəetmənin başında duranlardan qorxu. Bir növ insanlarda ehtiram əvəzinə yalmanma, yaltaqlanma, yarınma kimi xarakterlər formalaşıb. Qorxu duyğusu insanı kütləyə çevirib və inzibati idarəetmənin qarşısında həmişə əyib. Beləliklə, dövlət insana xidmət eləmək əvəzinə insanı heyvan səviyyəsinə endirib.

İnsani qanunlardan kənarda dövlət öz mənasına bərabər olmur. İnsan təhlükəli dərəcədə aldadılır və qorxudulur. İnsanın daxili azadlığı o qədər boğulur ki, o, öz itirilmiş qürurunu bərpa eləməyi sıravi insanlara, yaxud dəyərlərə yöndəmsiz münasibətdə aşkara çıxarır. Belədə isə qürur daxili mənliyi təsdiq eləmək əvəzinə xudbinliyi təsdiq eləmiş olur. Asif Ata onun Ocağına üz tutanlardan özünə elə münasibət umur ki, insan bu münasibətlə içində onu balaca saxlayan xudbinliyi ötsün, ali mənliyini





üzə çıxartsın. Yəni O, əslində insanın insana həqiqi münasibətini onun özünə qaytarır. Heç bir inzibati imkanı, imtiyazı olmayan insanda ali keyfiyyətləri tanımaq və onun yüksək dəyərlərə xidmətini dərk eləmək – insanların yönünü öz içinə tutur. Heç bir inzibati asılılıq yaratmayan insana ülvi münasibət bəsləmək – ruhani tərbiyədir. İnsanın içində bu tərbiyə başlamasa, onun ömründə ruhani dəyişiklik getməz, insan kimi özünü dərk edib daxili azadlığa qovuşa bilməz. İnzibatçılığa səcdə qılmaq azadlığın ölümüdür, qorxunun təntənəsidir. Özünü ruhani təsdiq etmiş, kamil şəxsiyyətə səcdə qılmaq – daxili mənliyi qurmaqdır. Müqəddəsliyi tanımaq, böyüklüyü dərk eləməkdir. Böyümək üçün böyüklüyü tanımalısan. Beləliklə, Ataya münasibətin müqəddəsləşməsi Ruhani İntibaha başlamaqdır, bəşəri dəyərlərə xidmət eləmək üçün gözü açılmadır, idraki böyümədir, mənəvi ucalıqdır. Ata-Evlad münasibəti əsil insani münasibət kimi ortaya çıxır. Balaca ürəyin səcdəsi olmur, ona görə xidməti də olmur. İçəridən qurulmayan Ruhaniyyat dünyasının sakini olmur. Ruhaniyyat dünyasının sakini olmaq üç mühüm keyfiyyət üzərində baş tutur: – Fədakarlıq, Təmənnasızlıq, Vicdançılıq. Bu keyfiyyətlər Evladı güclü şəxsiyyətə çevirir, onun Ata ilə ruhani vəhdətini yaradır. Belə bir doğmalıq gerçəkliyin yadlığına qarşı durur, insani münasibət formalaşdırır.

Bu deyilənlər heç də asan başa gəlmir. Ona görə də Ocaqçılığın baş tutması çox nadir hadisədir.

"Ömrüm sənindir, Ata, götür onu, istədiyin kimi sərf elə". İndiyə qədər heç bir qurum rəhbərinə belə müraciət olunmayıb. Burada özündən keçmə tələb olunur. Yuxarıda adları çəkilən ideyaların mahiyyətinə varmadan bu tələbin mənasını izah eləmək çətindir. Bu məsələlərin izahı ilə əslində 32 illik yolun nə olduğu da açılır, Evladlıq hadisəsi də tanınır.

Asif Atanın sözünün, mənəviyyatının, alovlu ehtirasının, dərin biliyinin, geniş özünüifadə qabiliyyətinin çox böyük cazibəsi vardı. Adam bu cazibəylə görüşəndə maqnit kimi çəkilirdi Ataya tərəf. Bu cazibə nə idi – Asif Atanın dünyaya sığmayan vəcdli, ehtizazlı fikirçiliyi, insanın ilahi xislətini açıb göstərən İnam harayları, insanı özünə qaytaran, Mütləqə qovuşduran ideya bənzərsizliyi, İdealla insanı vəhdətdə götürən idraki coşqunluğu. Asif Atanın bu halı ilə görüşən adam əslində öz mahiyyəti ilə görüşürdü – bu, ali bir ünsiyyət olurdu. İlahi bir an – ürəyi riqqətə gətirən, onu gerçəkliyin fövqünə qaldıran

müqəddəs təmas. Əlbəttə, bu ilahi bir anın təsirinə düşüb onda qalmaq – oradan böyümək başlanğıcı götürmək çox çətindir. Hər şey bu bir anda həll olunur. Yeni mərhələ başlayır. Yeni yola başlamaq lazım gəlir. Ömrü yenidən başlamaq, yönünü dəyişmək – İlkinliyə qovuşmaq, yəni mənəviliyə, ruhaniliyə, idrakiliyə yetmək. Ömürdə biolojiliyin təsirini azaltmaq, insaniliyin təsirini artırmaq. Özüylə döyüşmək – özü üzərində Ruhani qələbəyə nail olmaq. Evladlıq hadisəsi də elə buradan başlayır. Çox böyük tələbdir. Bu tələbin qarşısında dayanmaq tək-tək adamların işidir. Ona görə də Evladlıq hadisəsi kütləvi hadisə deyil. Ruhani Evladlıqla cismani evladlığın heç bir bənzəyişi və üzvi birliyi yoxdur. Valideyn övladı olmaqla İnamın Evladı olmaq, obrazlı desək, planetar bir fərqə malikdir. Evladlıq hadisəsini tarixdən bizə bəlli olan apostol, imam, mürid hadisələri ilə müqayisə eləmək olar. Hətta daşıdığı ideya-məzmununa görə bir addım qabaqda da götürmək doğrudur. Nə apostolda, nə imamda şüurlu olaraq Amalla ünsiyyətdə olmaq baş tutmadı. Allah nəzəriyyə kimi deyildi, onunla iç-içə yaşamağın anlamı açılmadı. Dünya dərk olunmadı. Dərk olunmayan dünya əyildi. Asif Ata öz İnamını ona tapınanlara nəzəriyyə kimi vermədi, yaşamağın mənası və nizamı kimi verdi. İnam insana Dünyalığı tanımaq ucalığında yaşamaq imkanı verir. Dünyalıq – İnsanın başı üzərində Allahın olmaması deməkdir. Evlad bu həqiqətə yetdikcə Ata ilə birliyə nail olur. Ata ilə bir olmaq – onun sirlərini açmaqdır. Yəni Həyatlığı dərk eləmək, İnsanlığın dərin qatlarını bilmək və yaşamaqdır. Məsələyə bu cəhətdən yanaşanda Ocağın 32 il yol gələ bilməsinin, yaşamasının səbəbi üzə çıxır. Hər bir Evladın öz ömründə yaratdığı, aşkarladığı uca keyfiyyətlər birləşir – ruhani mühit yaradır. Ocaq da bir ruhani qurum kimi bu mühitdən ibarət olur. Ali ideyalara xidmət Evladları birləşdirir. Onların hansı yükün altında yaşadığı ilk növbədə özləri tərəfindən düzgün dəyərləndirilir. Dəyər verdikləri əməl, hünər onların daxili gücünə çevrilir.

Asif Ata bizə qayda yaratdı, ənənə yaratdı, örnək qoydu, ölçü verdi. Onun ruhani nizamından qırağa çıxmadıq. Daim bir yerdə olduq, bir olduq. Necə deyərlər, ayrıca şəxsi həyatımız olmadı. Yaşamımızın nizamını Amalla birləşdirdik. Dünya dinə qayıtdı, biz İnamın gücünə tapındıq, dünya dediyini demədik. Dünya demokratiya havası çaldı, hüquqi cəmiyyət yaratdı, biz içimizdəki insani haqqımızı tanıdıq, onu özümüz üçün milli mübarizənin xəttinə çevirdik, gerçəkliyin içinə





yüyürmədik, cəmiyyətlə qaynayıb-qarışmadıq. Bənzərsiz hal üstə dayandıq. Əgər dünyaya qatılsaydıq, heç olardıq, gerçəkliyin içinə yüyürsəydik əriyərdik, qarışardıq cəmiyyətçiliyə və itərdik. Biz danışanda Asif Atanın ideyalarından danışıb, yaşayanda cəmiyyətçilik səviyyəsində yaşamadıq. Kim bu cür yaşadısa Ocaqdan uzaqlaşdı, ideyalara yadlaşdı və dəyər verdiklərinin hamısını itirdi. Yoxsa bir qom adam görünməzdik, illər boyu çəkdiyimiz haraylarla bilinməzdik. Cəmiyyətə qarışmaq (inteqrasiya eləmək) milli-insani ruhu itirməkdir. Ruhani Aqibət yaratmaq nə qədər çətindirsə, onu qorumaq da bir o qədər çətindir. Dünya ən pis şeylərə qayıtdıqca Ocaq öz halının sabitliyini, birxətliyini qoruyub saxladı. Bu səbəbdəndir ki, yurdumuzda İnamın varlığı geniş bilindi və yayıla bildi. Dünya indikindən də betər olmağa gedir, ancaq Ocaq İnsani ləyaqətini qorumaqda israrlıdır. Artıq Ocaq meyarı ilə düşünənlər, hadisələrə bu meyarla baxanlar, milli şüuru bu meyar üstə inkişaf etdirməyi doğru sayanlar artıb. Bu isə Ocağın təkcə ideya bənzərsizliyinə görə deyil, həm də bu ideyanın arxasında duran az sayda insanların dönməzliyinə, ruhani sədaqətinə, hünərlərinə görə formalaşır.

Mütləqə İnam Ocağının Evladları üçün iki mühit var. Bir var öz mühitimiz, yəni Ocaq. Bu mühitdə biz yaşayırıq – Ocağın tələbləri əsasında qururuq. Bir də var mübarizə mühiti. Cəmiyyətçilik mühitində mübarizə aparırıq. Ocaq ideallarının yayılması, tanınması və qəbul olunması – bizim yaşamağımızın məzmunudur. Cəmiyyətdə yaşamaq üçün mühit axtaranda adam dərhal boşluğa düşür. Cəmiyyət mühitinə qarışıb cəmiyyəti dəyişmək mümkün deyil. Cəmiyyət mühitinə qarışmamaq üçün özüylədöyüş idealımız var. İçəridən təmizlənmək, böyümək, artmaq yeni mühit yaradır. Daxilən qurulan insan heç yerə sığmır, ancaq Ocağa sığır. Ocaq çox zəngin mühitdir. Burada hər kəs bütün ali keyfiyyətləriylə, hər bir sahədə yaradıcılığıyla aşkara çıxır. Cəmiyyət insanı o qədər xırdalayır ki, nizamsızlıq dünyanı bürüyür. Obrazlı desək, bu nizamsızlıqdan heç Allah da baş çıxarmır. İnamın olmadığı yerdə din və ateizm bir-birini üstələyir, yaşamaq uğrunda mübarizə aparır. Demokratiya və totalitarizm də beləcə. Ayrı-ayrı qüvvələr, qruplar da onun kimi. Hər kəs varlığını qorumaq üçün başqasını yox etməyə çalışır. Bunun üçün təbiətdə heyvanat aləmində gedən təbii prosesləri ölçü götürürlər. Birinin özünü bu cür var etməyə çalışması idbar işləri ortaya çıxarır. Və bu işlər insanın varlığını

danmağa qədər genişlənir. Həyat rəqabət meydanına çevrilir. İnam isə rəqabət aparmır, şəri Yer üzündən silməyə çağırır. Ona görədir ki, biz İnamı bu millətə vermək uğrunda əzaba qatlaşırıq. Bizim üçün türk olmaq – Mütləqə İnamçı olmaq deməkdir. İslamçı olmaq – Türk olmaq demək deyil. Çünki İslamçı olmaqda türk ruhu iştirak eləmir. Türk ruhunun qarışmadığı, iştirak eləmədiyi yad bir dünyabaxış milli müəyyənliyimizi hansı əsaslarla sübut edə bilər?! Milli şüur, milli ruh özgələşirsə, bioloji varlığın hansı millətə xas olması nəyi həll edir ki?! Bizim milli həqiqətimizi bu nöqtədən axtarmaq lazımdır. Asif Ata Ocağının Evladları Ocaqçılıq həqiqətini Xəlqi dəyərə çevirmək üçün buradan başlayıblar. Cəmiyyət bütün dəyərləri gerçəkliyin xaosunda itirib. Onun üçün gerçəkliyin dəyişilməsi mümkün görünmür. Çünki cəmiyyət hər şeyə yaşadığı həyatda düşdüyü oyunlardan baxır. Ancaq insanda bir Allahlıq qüdrəti də var. Bu çox nadir məsələdir. Allahlıq möcüzədir, o, təklərdə olur. Təklər Dünyanın mənasına yetəndə onun gerçəkliyi ilə barışmır, gedişləri dəyişmək, yeni ahəng yaratmaq haqqında düşünür. Bunun üçün bir ömürdə neçə ömür yaşamalı olur Təklər. Başqa sözlə, Təklər müstəsna həyat yaşamalı olur. Bu həyatda imtinalar var, qurbanlar var – canlı şəhid kimi yaşamaq var. Ancaq ali səadətlə dolmaqdır, Mütləqlə ünsiyyətdə yaşamaqdır – bu şəhidlik. Əzabın mənasıyla yetkinləşmək fərəhidir bu. İçəridən özünü qurmaq, özünü tanımaq, bir bütöv kimi dərk eləmək – bəxtiyar yaşamaq. İnsan Məna istəyir. O, ortaya ideya qoyur, yol qoyur və deyir bu yol insanı özümlüyünə aparır. Bütün dünyanın gerçək əyrisinə, əyintisinə məhəl qoymadan bu yolda haray çəkir. Peyğəmbərimizin harayı bu məzmundan başlayıb. Ona görə də ölməzdir. Bu Yol İntibah yoludur. Bu çətin işdir. Ancaq yüz illəri İnsanilik İşığına qərq eləyən işdir. Ruhani İntibahda insan ömrü uğura çevrilir.

Müqəddəs Haraylar işıqdır, işıqlandırır. Uğurlu ömürlər əl çəkmir işıqlandırmaqdan, usanmır harayından. Bu harayda yalan yoxdur, təlqin yoxdur. İnamın israrı var. İnamın israrı ürəkləri, düşüncələri böyüdür. Təlqin isə ürəkləri ofsunlayır. Burada dinlə inamın fərqini də dərk eləmək mümkündür. Din təlqindən başqa çıxış yolu tapa bilmədi. İnamda qandırmaq, qaldırmaq yolu var. İnam İnsanı həqiqətlə üz-üzə gətirir, düşündürür, gözünü mənaya açır. Təlqində isə düşüncə qapanır – “gözünü yum, qəbul elə” tələbi təsdiq olur. Həqiqəti insan öz ağlı və düşüncəsiylə qəbul eləməyəndə, ona həqiqəti deyəndə belə itirir.





Həqiqətin sorağını eşitmək azdır, o gərək ömrə daxil olsun. Bu vaxta qədər hər şey insana sırınıb. Allah da ona sırınıb. Ona görə də insan Allahsız yaşayıb. Heç nə anlamayıb, heç nəyi dərk eləməyib. Bulaq nə qədər duru olsa da, dərin deyilsə, içmək olmur. Dayazlıqdan qum, torpaq qarışıq su içə bilərsən. Ona görə gərək əlini salıb bulağı qarışdırasan, dərinləşdirəsən və duruldasan. İnsan gərək öz içini bulaq kimi qarışdırıb dərinləşdirməyi bacarsın. Onda onun içi həqiqət təşnələrinə sərinlik gətirər. Özüylədöyüş insanın içinin saf bulaq kimi qaynamasını təmin edir. O dərəcədə insan özünü yaratmaqla məşğul olmalıdır. Onda o, həqiqətlə doğmalaşa bilər, həqiqəti dərk edər. Əsillik üstə yaşayar və insanlığa gərək olar. Bundan sonra başlayır həyatda qlobal dəyişikliklər. Bundan sonra yarana bilər yeni insani sivilizasiya. İnsan özüylə məşğul olmadıqca dünyaya inanmayacaq. Pulçuluğa inanacaq, insanlığa inanmayacaq. 6 milyardın içərisində bu sayda müqayisəyə gəlməz az sayda qüvvənin pulçu mühiti yaratmasına inanasan, ancaq müqayisədə az say təşkil edən qüdrətli insanların İnsanilik mühiti yaratmasına inanmayasan – burada artıq normal inamdan, normal idrakdan danışmaq mümkün deyil. İnsan öz mahiyyətindən doğulub – İnsanilik mahiyyətindən. O niyə öz mahiyyəti üstə yaşamamalı, öz mahiyyətini təsdiq etməməlidir?! Niyə insan dünyaya insanilikdən gəlib heyvaniliyi təsdiq etməlidir?! İnsanın özündən ayrılıb heyvaniliyə enməsi qaçılmaz bir tələb-zad deyil. Sadəcə o öz qarşısında məqsəd qoymur ki, varlığın ülviyyətini doğrultsun. Özü olmaq istədiyi andan başlayır insanın mənayla ünsiyyəti. Özü olmaq istəyən mənanın səsini eşidir, şəraitin səsini eşitmir. Həqiqətlə görüşməkdən, öz üzərində yüksəlməkdən böyük mübarizə yoxdur. Öz üzərində yüksələn başqalaşma ehtiyacı ilə dolur, özündən kənara çıxır və başqalaşma mərhələsi yaradır. Başqalaşma, yəni xalqlaşma...

“Evladlıq bu zirvədən görünməlidir” deyir Asif Ata.

## MƏRASİMİMİZ – MÜTLƏQLƏ GÖRÜŞ ÇAĞIMIZ

*("Ata Günü"ndə izhar)*

Bir ömrü bütünlüklə əqidəyə həsr eləmək dahilikdir. Peyğəmbərlik dahiliyin hansısa mərhələsindən sonra başlayır və dahiliyi yeni mərhələyə qaldırır. Peyğəmbər başqalarının ömründə də dahilik mərhələsi yaradır. Başqaları peyğəmbər yolunun qəhrəmanı, fədakar aşiqi kimi dahiləşir. Peyğəmbər mühiti – aşiqlik dünyasıdır. Peyğəmbər harayının eşidiləcəyi, dərk olunacağı ilk müqəddəs məbəd aşiqlərin heyrətindən qurulur. Doğmalıq və Fərəh aşiqlərin Peyğəmbər sözünə vurğunluğunda əsilləşir. Uca münasibətlər yaranır. Və bu uca münasibətlər milli-bəşəri dəyərə çevrilir. Yeni Ruhani ahəng yaranır. Bununla da Yeni Era başlayır. Yeni Era İnsani Dəyər ölçüsünün sanbalı ilə dərk olunur. Bu Dərkdə Bəşər aqibətinin gələcəyinə İnam yaranır...

Böyük İnsanları təkcə düşüncələrinin nəzəri öyrənilməsinə görə deyil, həm də talelərindəki gərgin yaşantılara görə tanıyır, dərk edirlər. Böyüklük mücadilədə təsdiq olunur. Qəhrəmani aqibət yaşamayanın böyüklüyü nisbi olur. ***Qəhrəmanlıq fikir və ömür birliyində quruculuğa çevrilən aqibətdir***. Quruculuq mücadilə tələb edir. Mücadilə çətin aqibətdir. Bu aqibəti yaşayan təqib olunur, söyülür, gözdən salınır, böhtanlara uğrayır. Bütün bunlar şərlə üz-üzə durmağın əlamətləridir. Yəni bu o deməkdir ki, belə aqibətin sahibi şərlə döyüşüb. Şərlə döyüşən qabağa çıxır. Qabaqda duran bütün zərbələrə sinə gərir. Zərbələrə dözməyi öyrənmək ciddi sınaqdır. Bu sınaqları ötəndən sonra başlayır – Böyük Yol!

Böyük şəxsiyyət həmişə, ölümündən sonra da zamanın amansız sınaqlarına çəkilir. Zamanın şər xisləti tarixin dolanbaclarından keçib gələn böyük şəxsiyyətləri öldürə bilməyəndə onları özünə uyğunlaşdırmağa çalışıb. Şəxsiyyəti sevənlər isə onu qoruyur və zamanın xislətini yenir. Məsələn, Nəsimini, Babəki mollalaşdırmaq cəhdləri Şərin yaşamaq istəyidir. Şər cəmiyyətdə ikitirəlik yaratmaqda yaşayır. Əbalılar bəri başdan ağlı işləyənlərə qarşı fəndlər işlədir, düşüncə sahiblərinin toplumun içərisinə daxil olmasının yollarını bağlamağa çalışırlar. Çünki əsil düşüncə sahibləri cəfəngiyyatın topluma





bağlanan tellərini qırmağa qadir olurlar. Biz bu həqiqəti Atanın ömründə dərk elədik. Atanın ömrü bəşəriyyətin sanballı keçmişindəki böyük dəyərlərlə müqayisə olunan ömürdür. Atanı insanlığın sıravi keyfiyyətlərinin pilləsində göstərmək həqiqəti doğrultmur. Yəni qeyrətli, vətənsevər, vicdanlı, səmimi və s. keyfiyyətlərlə Ata ömrünün həqiqi boyunu görmək çətindir. Bu keyfiyyətlər Ata üçün sıradan olan bir səviyyədir. Atanı bu keyfiyyətlərlə müqayisə eləmək – onu mənasız tərifləmək demək olardı. Tərif Atanın həqiqi kimliyini tanıda bilməz. Atanı durduğu yüksək pillədə təqdim eləmək isə çox çətindir. Bunun üçün yüksək pillələrə qalxmaq lazımdır. Adi səviyyələri ötmək və Ata ilə Ruhani ünsiyyətə yetmək lazımdır. Əslində Ocağımızın Mərasimləri bizim Ata ilə Ruhani ünsiyyət məqamımızdır. Bu məqam bizi dünyanın gedişatından, cəmiyyətdən təcrid edir, qoruyur və Mütləqlə görüşdürür. Bu mənada ***Mərasim – Mütləqlə görüş məqamıdır***. Özüylə bir olmaq Ataya qovuşmaqdır. Atanın İnam Dünyasına varlığı ilə daxil olan İnsan bu məqamlarda kamil hala dolur, içdən böyüyür. Kamillik – Ataya layiq olmaqdır. Cəmiyyətdən yüksəyə qalxmadan Atanın İnam Dünyasına daxil olmaq mümkün deyil. Ömür ruhani yüksəkliklərdə qərar tapmalıdır.

Atanı davam eləmək ruhani səadətdir.

## XALQLAŞMA SƏFƏRLƏRİMİZ

Ürəyinizdə Günəş olsun, istəkli yurddaşlarımız!

Biz, Mütləqə İnam Ocağı olaraq, mətbuat vasitəsilə sizi tez-tez öz xəlqi əməllərimizlə, Yurdumuzun bölgələrinə səfərlərimizlə müjdələyirik. Bunu biz nə sizlərin siyasi yardımı ilə (seçkilər vasitəsilə) imtiyazlı həyat tərzinə çatmağımız üçün, nə də şöhrətimizi tanımağınız üçün eləyirik. (Bunu eləmədiyimizi artıq siz bilirsiniz). Biz sizi Yurdumuzda İnamın yarana və yayıla biləcəyinə inandırmaq istəyirik. Yurdumuzda oturuşan əcnəbi təsirlərin, qıraq baxışların toxunulmaz olduğu yalanını sizin ağlınızda puç eləmək istəyirik. Qıraq təsirlərin hökmranlığına inanmaq və tapınmaq əvəzinə, öz içimizdə baş qaldıran milli-insani təpərlərə, hünərlərə, ləyaqətlərə inanmağınız və tapınmağınız üçün çalışırıq. ***Qeyrət ölü bir dəyər deyil, o, insanın canında yaşayan və hər an baş qaldıra bilən ümid yaradıcısıdır.*** Sizi onun yoxluğuna inandıranlara sayğı bəsləməyin.

Biz İnam vasitəsilə Azərbaycanı insanlarımızın ağlında dəyərə çevirmək və onların sevgisini bu dəyərə yönəltmək istəyirik. Yurdun, Ulusun qədrini bilmək və onun varlığını təsdiq eləmək böyük ləyaqət tələb eləyir. Biz, bir millət olaraq, bu ləyaqətdən imtina eləmək əvəzinə, Yurdumuzu, Ulusumuzu gözümüzdən salmağa çalışan gedişlərdən, baxışlardan imtina eləməli deyilikmi?! Bizim öz içimizdə uçurulmağımız hara qədər seyr edilməlidir, harda dayanmalıyıq, harda ayılmalıyıq?! Mütləqə İnam Ocağı sizi belə bir düşüncə ilə üz-üzə gətirir. Görün ürəyinizin qapılarını kimin üzünə açır, kimin üzünə bağlayırsınız? Öz içinizə üz tutmaqdan xoflanmayın. Xof xəyanət yetirir – özünə, özümlüyünə qəsd xəyanəti. Qıraq əllər ulusumuzu seçim qarşısında qoyur – Qeyrət və Xəyanət seçimi. Xof Qeyrətdən imtina etdirir, xəyanəti seçdirir. Mütləqə İnam Ocağı xof qaranlıqlarını yarmaq üçün qalanıb. İndi bu oda qızınmaq və qaranlıqdan çıxmaq vaxtıdır. Bizim Yurdumuz odsöndürənlər deyil, odqoruyanlar Yurdudur. Yurdumuzu odsöndürənlər "icarəyə" götürürlər və qaranlığa qərq edirlər.

Mütləqə İnam Ocağı Yurdumuza yiyəlik eləmək və özümlü xalq yaratmaq üçün müqəddəs dəyərdir. Yurdunu, ulusunu düşünənlər, siz





özünüz bunun fərqinə varmalısınız, biz bunu sizə sübut eləmək zorunda qalmamalıyıq. Görün aramızda siz – biz fərqini nə yaradır? Biz xalqımızın ruhundan, milli-bəşəri mahiyyətindən yaranan bir dəyəri inhisara almamışıq, bu bizim şəxsimiz üçün deyil, xalq təkcə biz deyilik, gələcək təkcə bizim üçün deyil. Bizim ruhani əməklərimiz də bizim üçün deyil. Bizim əməyimiz böyük, fəqət özündən ayrılmış bir millətin gələcəyi üçun özüldür.

Gəlin baxaq, bizim ruhani əməklərimizin mənası, qayəsi nədir?! Biz Asif Atanın İrsini on cilddə (on Qutsal Bitiq və üç Yan Bitiq) və üç əlavə cilddə təsnifatlaşdırıb tərtiblədik və xalqa təqdim elədik. Bu cildlərdə Dünyanın ali mənası, İnsana münasibət, Vətən, Millət, bəşər məsələləri yetkin bir səviyyədə qoyulur və həllini tapır. Bu Kitablar insani həyat sistemi olmaqla, yad mədəniyyətlərin aşındırıcı təsirlərinə direniş göstərməklə özünü yaratmaq imkanı verir. Ulusumuzu kitabsızlıq və dəyərsizlik fəlakətindən çıxarmaq üçün tarixi bir fürsət yarandığı qənaətindəyik. Başqa kitablar bizi qurmadı və dəyərimizə çevrilmədi. Əksinə böldü, parçaladı, dağıtdı.

Biz Mərasimlər, Bayramlar, Amallaşma günləri, Ailə günləri kimi toplantılar keçiririk. İnsani, milli qayğılarla düşünürük, yaşayırıq. Bu qayğılarla yaşamaq ənənəsi yaradırıq. Saf, sadiq, dönməz, fədakar, umacaqsız (təmənnasız), özüylədöyüşən Evladlar yaradırıq. Xalqımızda ruhani Evladlıq ənənəsi formalaşır. Başqa xalqların həyat tərzindən bəşəriliyi öyrənmək öz xalqımızın ənənələrindən öyrənməklə əvəzlənir və yeniləşir. Böyüklüyü, müqəddəsliyi, dəyər yaratmaq qüdrətini başqalarının tarixindən öyrənmək meylinə son qoyuruq. Özünün böyük yaradıcılıq – özündən yaratmaq ənənəsinin əsasını qoyuruq. Yurdumuzda bunun mənası, məzmunu yaranır, izhar edilir. İnsanı aldatmaq, onun ümidini yalanlara bağlamaq ifşa edilir. Siyasi məqsədləri, məkrli niyyətləri həyata keçirən hər cür məscid, sinaqoq, kilsə, pirlər rədd edilir.

Biz Yurdumuzun bölgələrinə səfərlər edirik, Azərbaycanın Ruhani obrazını (Mütləqə İnam Ocağı tərəfindən yaradılan), eləcə də onun Ruhani Azadlıq yollarını özündə əks etdirən ideyalar veririk...

İnam Yurdumuza yayılır – durmadan, tələsmədən. Gedişlərdən yorulmuruq, çağırmaqdan usanmırıq...

## ÜÇ OĞLUMA MƏKTUB

Ürəyinizdə Ata Günəşi olsun!

Xalqda üç oğlu olan adam özünü xoşbəxt sayır. Çünki davamı var, ondan başlayan nəsli yaranır. Mən də təkcə bir evin atası olsaydım, o cəhətdən özümü xoşbəxt sayardım. Ancaq mənim oğullar sarıdan xoşbəxtliyim başqa şeyə dayanır. Mənim ömrümü yaradan, zənginləşdirən və mənimsəyən Amalım var, Sabaha gedən Yolum var. Oğullarım Amalıma sahib çıxanda məni yaşadar, Yolumla getdiyində mənə xoşbəxtlik gətirər. Bu, olduqca çətin bir işdir. Həyatda oğullar atanın yolunu gedə bilir, Amalda isə demək olar ki, yox.

Bu yöndən tarixdə ürəkaçan fakta rast gəlinmir. Mən bilmirəm siz özünüzü xoşbəxt sayırsınızmı, yaxud sayacaqsınızmı? Bu gün sizlərdən ikiniz – Türkel və Ulunur mənim Yolumda görünürsünüz. Buna görə sizin özünüzü xoşbəxt saymağınız, məncə, tezdir. Çünki siz hələ həyatla Amalın böyük mənada fərqini dərk eləməmisiniz. Siz həyatın çətinliyini hiss eləmisiniz, Amalın çətinliyini isə yaşamamısınız. Amalın çətinliyi sizin həyatınıza mənim vasitəmlə gəlib. Bu da özünü onda göstərib ki, sizin həyati tələblərinizi axıra qədər ödəyə bilməmişəm. Amalımız buna "icazə" verməyib. Mən ömrümü bütünlüklə Amalımıza həsr etmişəm. Odur ki, cismani ailəmin həyatı və məişəti daim axsayıb. Buna görə ola bilər ki, siz içinizdə məndən narazısınız. Mən sizi anlayıram. Yaşınızın istər uşaqlıq, istər gənclik çağlarında məndən gərəkən atalıq qayğısını az gördünüz. Nə etməli, bir adamın iki ömrü olsaydı, birini Amala həsr edərdi, birini də həyata. Ancaq bir ömrü bütöv şəkildə nə həyata vermək olur, nə də Amala. Ailə və Amal ikisi bir ömrə sığmır. Amallaşsanız bu həqiqəti dərk edəcəksiniz. Amallı olmasanız, axıra qədər içinizdə məndən narazı qalacaqsınız.

Siz çox saf böyümüsünüz. Doğruçu və tərbiyəlisiniz. Ancaq saflıq və tərbiyə azdır. Həqiqət dalınca getmək istəyən adam gərək ruhani qüdrətə yetsin. Ruhani qüdrətə yetməsəniz, məni anlaya və qəbul edə bilməyəcəksiniz.

Həqiqətin dalınca gedən adamdan hamı narazı qalır, sabahdan başqa. Məndən atam da narazı idi, anam da. Onlara diqqət ayırıb, qulluq göstərəndə razı qalırdılar, Amalımın dalınca gedəndə isə narazı. Məndən





qohumlar da narazıdırlar, – birinin toyuna nəmər salmadığıma, o birinin yasına "maddi başsağlığı" vermədiyimə görə, bir başqasının körpəsinə hədiyyə almadığım üçün… Məndən cəmiyyət də narazıdır, dininə qarşı getdiyimə görə. Ailəm də narazıdır, maddi gəlirimin azlığı və evimin nizamsızlığına, sahmansızlığına görə. Amalımızdan başqa heç kimi razı sala bilməmişəm. Çox qəribədir, həyatın gedişatı heç kəsi qane eləmir. Ancaq heç kəs də bu nataraz gedişata qarşı duran adamı qəbul etmir. Hər kəs yaxşı şeyin asanlıqla onun həyatına gəlməsini arzulayır. Yaxud da dəyişikliklərin onu zəhmətə salmadan baş verməsini istəyir. Əlbəttə, belə bir şey mümkün deyil. Həqiqət uğrunda mübarizə getməsə, heç bir dəyişiklik baş verməz. Həqiqət uğrunda mübarizə aparanları isə həqiqətsizlik yaradanlar gözümçıxdıya salırlar. Həqiqət uğrunda mübarizəyə qalxan nə qədər ki birdir, beşdir, qarşısını almaq şər üçün asandır, elə ki mübarizə dalğaya çevrilir, qarşısını almaq mümkünsüzləşir. Mübarizənin də dalğaya çevrilməsi üçün gərək bir nəfər, beş nəfər axıra qədər dayana bilsin.

Həyat çox bulanlıqdır. Ya gözünü yumub bu bulanlıqda üzməlisən, həqiqət istəməməlisən, ədalət axtarmamalısan, ya da duru həyat yaratmaq üçün çətinliklərə qoşulmalısan. Təfəkkürü, düşüncəsi olan adamlar həmişə gedişata etiraz ediblər. Ancaq bu etirazların dalınca ümid və sonuc gəlməyib. Həyat sərt və amansız olduğundan ona etirazlarla təsir eləmək mümkün olmur. Bu gün bizim qarşımıza etirazlardan daha çətin bir tələb çıxıb – Qlobal Dəyişikliklər eləmək. Bu, İmkandır. Bu İmkanı Asif Ata yaradıb. Asif Atanın Yolu prinsipial, əsaslı yeriş istəyir. Hürufilərdən Asif Ataya qədər olan bir aşamada (mərhələdə) etirazlar ədiblik səviyyəsində olub. Mən siyasi etirazları bu məsələyə qatmıram. Çünki siyasi etirazlar ictimai pozuntuların səbəbinə qarşı yönəlmir, törədicilərə qarşı yönəlir. Biz böyük dəyişikliklər üçün ruhani mübarizəni nəzərdə tuturuq. İdeoloji mübarizənin də əleyhinə deyilik. Ancaq ideoloji mübarizə bizim işimiz deyil, sadəcə biz ona yardımçı ola bilərik.

Bütün bu məsələni düzgün təhlil eləmək üçün işin gedişini, məntiqini dərk eləmək lazımdır.

Ruhani mübarizə çox çətin bir prosesdir. Mübarizəyə girişdinsə, gərək taleyinə çevirəsən, əks halda adam məhv ola bilər. Hər kəs mübarizəyə, fəaliyyətə yeni qoşulanda həvəsli olur. Ona elə gəlir ki, qısa zamanda bütün arzular gerçəkliyə çevriləcək. Adam mübarizə yolunu

ayağı ilə yeridikcə, həvəsi tükənir və usanır. Usanmaq – ümidi itirmək deməkdir. Ümidini itirən adam həyatın sərt sınaqlarında bədbəxtliyə uğrayır. Biz Asif Atanın Amal Yolunda belələrinə çox rast gəldik. Ancaq mübarizə ürəyin gücünə dayananda şəxsiyyət yaranır və o, sabaha gərək olan bir ömür yaşayır… Mənim güclü xarakterim var, fitrətimə bağlıdır, atamdan, babamdan gəlir. Ancaq fitrətə necə var, eləcə bel bağlamaq olmaz. Güclü idrakilik, mənəvilik yaranmasa, fitrəti necə var, elə qorumaq mümkün deyil. Zamanın gedişi, mühit fitrətin başına min oyun aça bilir. Mən Ocaqda fitrətimi böyütdüm. Mübarizə onu möhkəmlətdi. Daxili inkişaf yolu keçdim. Özüylə döyüşüm məktəbimə çevrildi. Ətrafda zəiflər, zəlillər məni həzm edə bilmədilər. Birləşdilər mənə qarşı. Yolumu kəsmək, inkar eləmək, məhv eləmək istədilər, alınmadı. Zəiflərin birliyi də zəif olur. Həqiqətsiz birlik fədakar, mübariz, cəsarətli bir ürəyi inkar eləyə bilməz. ***Özünə inam özgələrin şübhəsindən qüdrətlidir. Min şübhəli ürəyin inkarı bir İnamlı ürəyin qarşısında acizdir.*** Acizlərlə yoldaş olmaq, yol getmək mümkün deyil. Qüdrətlilər isə tək-tək olur. Təklərin birliyini yaratmaq üçün gərək Tək olmaqdan qorxmayasan. Gərək ətrafın səni anlamamasından özün üçün fəlakət yaratmayasan. Adamlar nəinki mübarizə adamını, heç bir-birini də anlamırlar, anlaya bilmirlər. Bütün ömrünü işıq eləyib cəmiyyətin gözünün qabağına tutsan da, biri desə ki, bu işıqda qaranlıq var, hamısı başlayacaqlar şübhələnməyə. Cəmiyyətin inamına, etibarına bel bağlamaq olmaz. Özlərinin maddi həyatı ilə məşğul olanlar insanı tanıya bilmirlər. İnsanlıqla məşğul olmayanın insanı tanıması mümkün deyil. İnsanlıqla məşğul olmaq əslində özüylə məşğul olmaq deməkdir. Başqa sözlə, özüylə döyüşmək deməkdir. Özünü tanımaq, özünü döymək və özünü təsdiq etmək. Bütün mübarizələr buradan başlayır. Maddiyyatla məşğul olanın özünü öyrənməyə vaxtı qalmır. Ona görə də hər kəs bir-biri haqqında ağa qara, qaraya da ağ deyə bilir. İnsanın insana heyrəti olmasa, xalq yarana bilməz. Heyrət ali münasibətdir. Orada inam var, sevgi var, doğmalıq var. İnsanı tanıyırsan, ondakı gözəllikləri kəşf edirsən, varlığa, həyata münasibətin dəyişir. İnsan özündəki gözəllikləri aşkara çıxardıb ifadə eləyəndə qəlbin riqqətə gəlir, sevinirsən, inanırsan və heyrət yaranır. Heyrət böyüdür, böyüklük yaradır. Heyrət eləyən də böyüyür, heyrət olunan da. Heyrət eləyən inandığı, sevdiyi, ümidləndiyi üçün böyüyür. Heyrət olunan inanıldığı, tapınıldığı, sevildiyi üçün məsuliyyətə yüksəlir, artır, dolur, davam eləyir. Həm də sevir, həm də





güvənir, inanır. İstənilən halda ali keyfiyyət münasibətləri artırır, böyüdür, xəlqiləşdirir. Asif Ata yüksək mənəvi-idraki hal yaratdığı üçün bizi heyrətləndirirdi. Heyrətləndirə-heyrətləndirə Yola, Amala bağlayırdı. Təbii ki, bizim heyrətimizdən Asif Atanın özü də böyüyürdü. İlhamı böyüyürdü, sevinci böyüyürdü, ümidi böyüyürdü. Heç bir münasibət birtərəfli olmur. Böyüdülən də böyüdür. Böyütmə məktəbdir. Məktəbi olmayanın davamı olmur. Yəni milli səviyyəyə qalxmır. Ocağımız milliləşmə məktəbidir. Heç bir dünyabaxışda millət məsələsi Asif Atada qoyulduğu kimi qoyulmayıb. Millətə münaisbətin adi səviyyəsi onu qane etməyib. Millətə, Vətənə münasibətin təbii səviyyəsində instinktlərin rolu daha çoxdur. Hər bir kəs onunla eyni dildə danışan, eyni məkanda yaşayan toplumla müəyyən bir həyati bağlılıqda yaşayır. Adam öz doğulduğu məkana, duyğularının alışdığı, gözünün öyrəşdiyi yerə sevgi ilə yanaşır. Ancaq bu çox azdır. Vətənə, Millətə münasibət Dəyərə münasibət səviyyəsinə qalxanda hər şey kökündən dəyişilir. Vətən və millət – bir-birinə bağlı anlayışlardır. Başda millət gəlir. Millət – Vətənin dəyəridir. Millət daim qurulan, artan, inkişaf eləyən, yenilənən hadisədir. Millət köhnəlsə, ölər. Millət dəyər yaratmalıdır. Yeni fərdləri ilə yeni keyfiyyətlər ortaya qoymalıdır. Yeni keyfiyyətlərin aşkarlanması isə İnsanlaşma prosesinin gerçəkləşməsidir. İnsanlaşma milləti bəşər səviyyəsinə qaldırır. Bəşər səviyyəsində yaşayan millətin başqa millətlərə insani təsiri yaranır. Bəşər – millətlərin insani keyfiyyətlərinin yaratdığı vəhdətdir. Bəşər millətlərin insani gücüdür və bağlılığıdır. Bəşərilik – millətlərin ali dəyərlərinin bir-birində yaşamasını ifadə eləyən mənasıdır. Millət bəşərin bir hissəsidir, özü də dediyimiz kimi, əhəmiyyətli bir hissəsidir. Millətə münasibət – bəşərin önəmli bir hissəsinə olan münasibətdir. Biz millətçiyik. Bizim millətçiliyimizə bu səviyyədən yanaşmaq doğrudur. Bu səviyyə dərk olunmadığı üçün millətçilik düzgün qiymətləndirilmir. O, öz mənasından ayrılır və bölücülüyə bərabər bir hadisə kimi təqdim olunur. Millətçilik böyük mənaya bağlıdır. Milləti böyüklüyə bağlamaqdır. Milləti Bəşər səviyyəsində görmək istəyidir. Millətçilik Yolunda addımlamaq hər adamın işi deyil. Bu vaxta qədər öz balaca məqsədləri üçün millətçilik adından istifadə eləyənlər çox olub. Millətçilik böyük məqsəddir, kimlərinsə siyasətdə uğur qazanmaları üçün vasitə deyil. Öz taleyindən qorxanın millətçiliyinə inanmıram. Millətçiliyi aqibətə çevirmək gərəkdir. Belə olmasa, nisbi, ötəri münasibətlə pozuntuların

qarşısını almaq mümkün olmur. Münasibət nisbi olanda milli olmayan ideolojiliklər yaranan boşluğa hakim olur. Hakim gücün tabeliyində milli düşüncə aradan çıxır. Məsələn, sovet ideolojisi yurdumuzda özgələşdirmə qəlibi yaratdı. Şairlər, yazıçılar standartlaşdırıldı. Xalqın içində ziyalılıq keyfiyyəti aşkarlanmadı, ədiblik gücünü itirdi. Ədəbi mühit diqqəti millətə yaramayan istedadlılarına yönəltməklə sadəcə çinovnikləşmə aqibəti yaşadı. Elə hal yaratmışdılar ki, guya ictimai problemlər aradan getmiş, hər şey həllini tapmış və başqa qayğı qalmamışdır. Halbuki fəal mübarizə mərhələsinin başlaması gərək idi. Çünki milli şüur sıradan çıxarılmışdı. Standart gənclik formalaşır, ürəksiz və zəkasız ziyalı təbəqəsi oluşdurulurdu. Ancaq Sovetlər dağılan kimi onun qəlibində yetişmiş adamlar, konkret "Yazıçılar Birliyi"nin çinovnikləri özlərini topluma milli ruhun təmsilçiləri kimi sırımağa başladılar. Guya onların yaradıcılığı Quruluşla mübarizədən ibarət imiş. Onlar Quruluşla mübarizə aparırmışlar, Quruluş da onlara titullar verir, firavan həyat tərzi yaradırdı. Yalanbaşların "ziyalılığından" ziyankarlıq yağıb millətin üstünə. Bunu ört-basdır eləməklə özünə təsəlli vermək olmaz. Başqa qüvvələrin yaratdığı dəyişikliklərlə dəyişilənlər ziyalı ola bilməzlər. Dəyişiklik yaradanlar ziyalı olurlar. Bu həqiqəti dərk eləməyənin insani-milli gələcəyi yoxdur.

Asif Ata ictimai dəyişikliyin zəruriliyindən danışanda Quruluşun elitar ziyalı təbəqəsi ona qarşı çıxır, adını ləkələyib nüfuzdan salmağa çalışırdı. Ancaq Asif Ata öz ömrünü yaşadı, öz ləyaqətini yaratdı. Onun ixtiyarı öz əlində idi. O kəsi ləkələmək, nüfuzdan salmaq, sarsıtmaq, sındırmaq, sıradan çıxartmaq mümkündür ki, onun ixtiyarı öz əlində olmur, cəmiyyətin əlində olur. Asif Ata yaşaya-yaşaya ixtiyarını cəmiyyətin əlindən tamam almışdı. O, Zamanı ötmək deyəndə də bunu nəzərdə tuturdu. Əslində zamanı ötə bilən adam çox az saydadır. Hətta bütün bəşər tarixində bu say çox azdır. Biz də öz ömrümüzü zamandan fərqli qurmasaq, bəşəriyyətə xeyir verə bilməyəcəyik. Ocaq həm ideyadır, həm də bu ideyanı gerçəkləşdirən hadisədir. İdeyanın gerçəkləşməsi isə ömürlərə, talelərə bağlıdır. Ocaq Atanın ömründən qalandı. Ona görə məktəbə çevrilə bildi. Ocaq insana üstün yaşamaq, yüksək yaşamaq öyrədir. Mən Atanın məktəbini yaxşı öyrənmişəm. Ancaq Ruhani qüdrətim mütləq deyil. Bir az tələskənliyim var, yetə bilmədiyim zirvələr var. Bununla belə, Yola, Amala, Ataya etibarım, etiqadım, sədaqətim bütövdür. Mənim yıxılmaq, sıradan çıxmaq, geriyə





qayıtmaq ehtimalım koordinat oxunun mənfi tərəfindədir. Taleyim Ocağın əlindədir. Ocaqla nəfəs alıram. Başqa düşüncəm, başqa meylim yoxdur. Məni ancaq cismani olaraq sıradan çıxarmaq olar. Ləkələməklə, böhtanlamaqla, hansısa bir sözümün başına kəndir salıb şişirdərək təbliğ eləməklə, şantaj-montaj yolu ilə dayandırmaq mümkün deyil. Mənim içim ilahi sevgilərə bağlıdır. Soylu Atalı olaraq, ruhani mübarizə meydanına çıxandan şərçilərin, rəqabətçilərin, qısqancların, inkarçıların səviyyəsinə enmədim. Bədürəklərin, kinlə nəfəs alanların haytasına, hikkəsinə məhəl qoymadım. Öz sözümü deməkdə, öz yolumu yeriməkdə davam elədim. Cəmiyyətçilik səviyyəsində dayanıb özünü ideala bağlı sayanların dəbdəbəli yarışçılıqlarına uymadım. Balaca gölməçələri dalğalandırıb özünü mübariz göstərən, qalib elan eləyən Yalanbaşların bağırtılarından diksinmədim. İnsanlara münasibətimdə küsmək var, ummaq var, ancaq acıq yoxdur, nifrət yoxdur, kin yoxdur. Kinli ürəkdə böyük yaradıcılıq yetişmir.

Mən özümlə məşğul olmuşam, özümü tanıyıram. Özümə qarşı tələbkaram, güzəştsizəm. Özümə inanıram, ancaq heç vaxt özümü uydurmuram. Mənim ömrüm, fəaliyyətim ədaləti, vicdanı sizə tanıda bilər. Atanın ömrünü sizə göstərər. Atanın ömründə sizin həyatda, cəmiyyətdə bəyənmədiyiniz gedişatın inkarı, dəyişilməsi var. Bunları ciddi dərk eləsəniz, ömrünüzü Amala bağlayacaqsınız. Atanı qəbul etməyənlərin, məni də sıradan çıxarmaq istəyənlərin cəhdi sizi çaşdırmamalıdır. Ocaq məndən sonra davam eləməlidir. Atadan sonra Ocağı mən davam elədim. Davam qırılmamalıdır. Uzun illər Ocağın işi çox çətin olacaq. Onu yaşada bilmək çox böyük güc tələb eləyir. Mühitimiz sayca çox azdır. Ona görə də indiki durumunuzdan çox yüksəyə qalxmalısınız. Məişətə, maddi həyata çox meyil salmayın. O sizin gücünüzü udacaq. Güzəran adamı olanın Amalı yaşatmaq iqtidarı, Amalın adından danışmaq ixtiyarı olmur. Həqiqətsiz yaşaya bilsəniz, məni itirəcəksiniz. Mən sizi çətin, riskli aqibətə dəvət edirəm. Bu vaxta qədər heç bir ata bunu eləməyib. Hamı övladının başını sığallayıb, rahat, adi, bioloji həyata bağlayıb. Həyatda gün görmək istəyən bədbəxtdir. Onun əbədilikdən xəbəri olmur. Həyat adama vüsal vəd edir, ancaq bu vüsalın mənası həyatı yarıtmaqdan ibarət olur. Nağıllarımızda Yolçunun qarşısına üç yol çıxır: gedər-gələr; gedər-qalar; gedər-gəlməz. Qəhrəmanlar həmişə gedər-gəlməz yolu seçirlər. Qəhrəmanlıq

çətinlikdən yaranır, Asanlığın Qəhrəmanlığı olmur. Amalın qurulması da onun Yükünün altına girəndən qəhrəmanlıq tələb edir.

Mənə münasibətinizdə instinktlərinizi ötün. Mənə yalnız cismani ata gözüylə baxsanız, daim diqqət və qayğı umacaqsınız. Mən sizə həyati mənada axıra qədər diqqət və qayğı yetirə bilməyəcəm. Mənim diqqətim, qayğım nisbi olacaq. Cismani atalığın tələblərini mütləq ödəyə bilmirəm. Fiziki ömrüm, vaxtım buna çatmır. Sizin məndən deyil, mənim sizdən daha çox şey ummağıma haqq verin. Mənim sevgim və ümidim sizə bağlıdır. Asif Atanın oğlu ondan cismani atalıq qayğısını bütöv şəkildə ala bilmədiyinə görə qıraqda durdu, Ataya yaxın gəlmədi. Əqidə adamlarının övladı həmişə əqidə adamı olmur. Bu da nadir bir məsələdir. Heç Asif Ata özü də oğlunu "azara" salmaq istəməyib. Görünür onda belə bir potensiyanı görməyib. Əgər Asif Atadan övladına böyük keyfiyyətlərindən keçmiş olsaydı, Ata öləndə oğlu gəlib onun evini əlimizdən alıb satmazdı. Biz Asif Atanın işini qabağa aparmaq üçün evindən ruhani ünvan kimi istifadə edərdik. Ancaq biz, Atanın ruhani Evladları, öz ünvanımızı Atanın ruhani ünvanına çevirdik. Bizim Ataya münasibətimizdəki fədakarlıq və təmənnasızlıq cismani övlad əqidəsizliyinin üzərində qələbə çaldı.

Asif Atanın cismani oğlu mollalara və onların həşirçilərinə qoşulub qəbrin açılmasına və Atanın nəşinin çıxarılmasına şərait yaratdı. Cəmiyyətlə birləşib bizi təklədi. Atanın ömrü boyu uğrunda mübarizə apardığı ideallara qarşı çıxdı. Əgər siz Amala sahib çıxmasanız, belə bir aqibət məni də gözləyir. Bu yaxınlarda yazıçı Rafiq Tağını qətlə yetirdilər. Onun yas mərasimini müşahidə elədikcə həyəcandan gözlərim əsir, yaşla dolurdu. Bu adam yazılarında dinin cəfəngiyyatına, mollanın artistliyinə qarşı çıxırdı. Ancaq mollalar onun meyidinin üstündə elə bir səhnə açdılar ki, qışqırmağım gəlirdi. Molla səsini qaldırır, kədərdən vahimələnib baş-gözünə döyən ölü yiyələrindən sakitlik tələb edirdi. Mərsiyə oyunbazlığı ilə özünün onları ağladacağını vəd edirdi. Axı kədəri idarə eləmək nə deməkdir?! Molla çox avamdır, kədəri dərk eləmir. Hər şeyə özünün xalqın yas ənənəsi üzərindəki "ixtiyarı"ndan baxır. Açığı mən əsəbi gərginlik keçirməkdən daha çox heyrət elədim. Bəs Rafiq bəy öz evində, qohumlarında iş aparıb onları anlatmayıbmı?! Axı sən özündən başlamadığın münasibəti topluma necə qəbul etdirə bilərsən?! Biz Rafiq bəyin evində Yas Törəni keçirmək təklif elədik. Ancaq yaxınları müsəlman toplumun tənəsindən ehtiyat etdikləri üçün





istəmədilər. Əslində onların öz aralarında da müsəlmançılıq bəsitliyinə yad olan adam yoxdur. Görünür Rafiq bəy özünün münasibətinin, açıq fikirliliyinin qorunmasına heç kimi hazırlamayıb. Bu, mənim üçün çox düşündürücü bir məsələ oldu. Elə bir tale seçmişəm ki, bu cür narahatlıqla tez və ya gec üzləşə bilərəm. Mənim mübarizəm daha əsaslı, daha sanballı mübarizədir. Hələ Mütləqə İnam yayılmaq mərhələsindədir. Topluma aktiv təsirimiz başlayandan sonra mənə qarşı sui-qəsd ola bilər. Əslində bu gün də bu taleni yaşamaqdan sığortalanmamışam. Elə bir anormal, anarxiyaya bürünmüş dövrdə yaşayırıq ki, adamı sözünə, əqidəsinə görə asarlar da, kəsərlər də. Təbii ki, biz bunun xofu altında yaşamırıq, heç yaşaya da bilmərik. Ancaq düşündüklərimi sizə demək və sizdən diqqət ummaq haqqım var. Siz də heç vaxt haqqınızı dilə gətirməkdən və onu müdafiə eləməkdən qorxmayın.

Burada mən Ocaq məsələləri ilə bağlı üzümü ən çox sizə – Türkelə və Ulunura tuturam. Konkret olaraq siz Ocaqçısınız. Ocağın işini görürsünüz, tədbirlərdə böyüyürsünüz, bərkiyirsiniz. Ruhtay isə Ocağın gedişatını, tələblərini bilmir. Sadəcə qıraqdan müşahidə eləyir. Uşaqlıqda ciddi xəstəlik keçirib, sətəlcəm o vaxt onu öldürə bilərdi. Mən o vaxt bütün gücümü onun dirilməsinə qoydum. Xoşbəxtlikdən xilas eləyə bildik. Ancaq zehni imkanları sarsıldı. O, əsasən həyata bağlıdır. Ruhtay Ocaqçı ola bilməsə də, gözəl ailəçi ola bilər. Ocaq yolunda sizin kimi ola bilməməsinə görə onu qınamayın. Elə edin ki, Ocağa yad olmasın. Xalqın içində sizə dayaq olsun. Bu çox önəmlidir. Ocaqçı olmasa da çətin anlarda Ocağın mövqeyində dura bilər. Ona münasibət düzgün qurulmasa, cəmiyyət kimi ola bilər. İnanmıram ki, sizə münasibətdə cəmiyyətin mövqeyində dayansın. Ancaq mövqesiz də olmamalıdır. Ananız da mənim ruhani aqibətimdən məmnun deyil. Ancaq yağı da deyil. Hər nə olsa belə, ona da münasibətinizi düzgün qurun. Bir ana kimi sevin. O sizə həyati baxımdan yaxşı ana olub. Sizin üstünüzdə ana kimi haqqı var. Amma Ocağa münasibətdə nə vaxtsa cəmiyyətin mövqeyində dayanarsa, mövqeyini qəbul etməyin. Ana kimi sizin qarşınızda haqqı danılmazdır. Əqidənizə qarşı çıxmaq isə analığa aid deyil. Belə olanda o haqqını itirir. Ümumiyyətlə, kim nə düşünür-düşünsün, siz həqiqəti düşünün. Həqiqət yoxdursa, bəsit həyat nəyə gərək?! Həqiqəti deyəndə mübahisə etməyin. Həqiqətə inanan mübahisə etmir, onu yaşadır. Hamı həqiqətsiz yaşayanda üç adam, beş adam

özündə güc tapıb həqiqətlə yaşayırsa, həyatda gözəlliklərin aşkarlanmasına imkan yaranır. Əqidə – bu imkanları aşkarlamaq vədoğrultmaqdır. Həqiqəti müdafiə eləməkdən çəkinmək olmaz. Həqiqətsizlik mühiti elə bir həşirdir ki, çaşmamaq üçün qüdrətli olmalısan. Əks halda, özünü çoxluq təşkil edən həqiqətsizlərin qarşısında sanki suçlu görürsən, gözükölgəli sayırsan. Həqiqəti müdafiə eləmək suç kimi qiymətləndirilir. Belə hallarda zəiflik eləyən şəxs dönüb hamının biri olmağa qərar verər… Tək olmaqdan qorxmayın. Təkliyinizi yaradan səbəbi ciddi dərk edin, sevin onu. Onda özünüzə inamınız, güvənciniz artacaq. Ali səbəb ciddi məsələdir. O, bizdən ömür istəyir. Ona görə ömrü zənginləşdirmək gərəkdir. Ömür zənginləşməsə, böyük Tələblərin qarşısında tükənə bilər. Ömrün zənginləşməsi isə həyat qayğılarına diqqəti azaldır. Bu da təbiidir. Kim nə ilə məşğul olursa, onu zənginləşdirir. Həm həyat zəngin olsun, həm də ömür – belə paralellik heç vaxt olmayıb. Amalla məşğul olanda həyata vaxt qalmır. Buna görə də maddi yoxsulluqdan utanmayın. Halal yaşamaqdan üstün fəzilət tanımıram.

Xalqın içinə çıxmağa hazır olun. Həyat getdikcə dözülməz həddə çatacaq. Kapitalizm Azərbaycanda təzə başlayıb. Həqiqəti xalqa çatdırmaq yolunda bu sizi dayandırmasın. Hamının başı başını saxlamağa qarışanda həqiqət yaddan çıxır. Belə vaxtda Amalın harayını çəkən eşqli ürəklər lazımdır. Elmin inkişafı həyata xeyir verməliydi, ancaq onu daha da öldürür. Çünki elm pulçuların əlindədir. Pulçunun əlində olan heç nə İnsanlığa xidmət eləməz. Yalançı inkişafları tanımaq və onları uçurmaq gərəkdir. Düşüncə buna köklənməlidir.

Bilgisayar texnologiyasının inkişafı zahiri cazibə yaradır. Hamı təbliğata, göstərgəçiliyə meyil edir, quruculuğa yox. Həyatda üstünlük kimi yayılan şeylər əslində əksiklikdir. İnsanlaşmadan böyük üstünlük yoxdur. Sizə İnsanlaşma həqiqətini dərk elətdirən Təlim var. Bax, bu özü çox böyük üstünlükdür. Bu üstünlüyə çatmaq və onu qorumaq üçün daim mütaliə edin. Ciddi ədəbiyyatları oxumağa özünüzdə həvəs yaradın. Mütaliəsiz heç bir fikrin, düşüncənin yerişi mümkün deyil. Musiqiyə doğmalaşın. Musiqidə adam içində təmizlənir. Muğam və saz çox böyük hadisələrdir. Onların mahiyyətini dərk eləmək əslində xalqın ruhunu tanımaqdır. Böyük hadisələr xalqın ruhundan gəlir. Ona görə musiqini dinləməyə həmişə vaxt tapın. Heç nəyi cəmiyyətdən öyrənməyin, Ocaqdan öyrənin. Ocaq xalqın ruhundan yaranıb. Bütün





məsələlərdə Ocağın ölçüsünə dayanmaq münasibəti yetkin səviyyəyə qaldırar.

Elmli, bilikli adamlarla rastlaşanda çaşmayın. Onların ruhaniyyatdan başları çıxmır. Ona görə ruhaniyyatla məşğul olanı geriçi sayırlar. Əslində isə ruhaniyyatdan başqa insana gərək olan irəliçilik yoxdur. Ruhaniyyatın əmələ gətirdiyi mühit insandakı bütün fəzilətləri üzə çıxardır. Bu vaxta qədər bəşər nisbi ruhaniyyatla yaşayıb. Nisbi ruhaniyyata yalan qarışıb. Getdikcə yalan qalıb, ruhaniyyat yoxa çıxıb. Bütün nisbi hadisələr, nisbi münasibətlər belədir. Üstünlüklə əksiklik iç-içə var olmur. Üstün olan nisbidirsə, yox olmağa doğrudur, əksiklik isə bütövləşməyə. Bir vedrə saf suya bir stəkan çirkli su töksən, vedrədəki su bütövlükdə çirklilikdən ibarət olacaq. Ona görə saflıq bütöv olmalıdır. Xeyir bütöv olmalıdır, fəzilət bütöv olmalıdır. Ona görə Asif Ata deyir ki, yalnız Mütləq olan Həqiqidir. Mütləqə İnam – Bütövə, Tama, Kamilə, Aliyə inamdır. Asif Ata yarımçıq inamı qəbul etmir. Din yarıminamdır, qəbul etmədi. Yarıminam insanı aldadır. İnam mütləq olanda insanı böyüdür və ondan bütün gözəlliklərə yiyə yaradır. Ruhaniyyat əsasında yaşamaq ənənəsi yaranır. Ruhaniyyat əsasında hər şey əsilləşir. Din nisbi ruhaniyyatdır. Ona görə insana inanmır. Dində insan öz mahiyyətinə yönəlmir, mükafat və cəza əsasında həyatı tənzimləmək nəzərdə tutulur. Din insana deyir ki, "özünü yaxşı aparmasan, cəhənnəmdə sənə qan-irin içirdəcəklər. Qurtum-qurtum içəcəksən, ancaq uda bilməyəcəksən. Boğulacaqsan, ancaq ölməyəcəksən. Çünki sənin üçün Allah əbədi işgəncə qərarı verib. Qır qazanında qaynayacaqsan, ancaq ölməyəcəksən. Çünki işgəncə başa çatmamalıdır. Sən Allahın qarğışına, lənətinə tuş gəlmisən". Burada həm Allah əksilir, həm insan aşağılanır. İnsanla öcəşən Allah necə müqəddəs ola bilər?! O, özündə bu qədər kin daşıyırsa, necə sevgiyə layiq ola bilər?! Hələ biz demirik ki, adamdan tələb olunan "özünü yaxşı aparmalısan" nə deməkdir?! Allaha lələmlisən, yalvarmalısan, onun "qabağında" hər gün əyilib-qalxmalısan ki, qəzəbindən xilas olasan. Dinin insana bu münasibəti həyatımızda gerçək münasibətlərdə də özünü göstərir. Lap elə özümüzdən olmuşların mənə münasibətini götürək. İllərdir, hər gün içlərini kinlə, nifrətlə doldururlar. Eybəcərliklərin hamısını mənə qarşı ünvanlayıb vurğu edirlər. Ürəklərində kindən boş yer qalmayıb. Sonra da gedib ayrı-ayrı adamlara özlərini fəzilət sahibi kimi sırımağa çalışırlar. Ürəyini kinlə yükləyənin

insana verəcəyi nə ola bilər?! Bu cür münasibət ruhaniyyatdan gələ bilməz. İnsana bu cür yanaşma, elə dinin "qan-irin", hədə, kin münasibətlərindən qaynaqlanır. Belə adamlar üzdə dini qəbul etməsələr də, onların alt şüurlarında din oturub. Özüylə ciddi məşğul olmayan, belə münasibətləri şüurunun altından silə bilmir. Nəyin üzərində çox vurğu edərsənsə, ürəyin ona köklənər. İnsan yaxşı şeyin üzərində vurğu eləyəndə ürəyi sevgi ilə dolar, pis şeyin üzərində vurğu edərsə, ondan əməli olaraq xeyir gözləmək doğru deyil. Adamın içində xeyirə inam və sevgi bütöv olmayanda pis şeylərin üzərində vurğu edir. Elə bilir ki, şərlə döyüşür. Fərdi şərə bərabər götürmək xeyiri tanımamaqdır. Fərdlə öcəşmək şəri yaşatmaqdır. Dində Ruhaniyyat nisbi olduğuna görə həyat bu cür münasibətlərlə dolub. Belə münasibətləri ötmək üçün özüylə döyüşmək gərəkdir. Özüylə döyüşmədən ruhun imkanlarını üzə çıxarmaq mümkün olmur.

Atanın ideyalarını yaxşı öyrənmək lazımdır. Əgər siz bunu eləyə bilsəniz, çox yol gedəcəksiniz. Sizi rəqibləşməyə, cırmaqlaşmağa sürükləyən əhvallara bac verməyin. Belə əhvallar adamın ürəyinin gücünü azaldır və ciddi mübarizədən yayındırır. Hürüşlərə məhəl qoysan, karvan yeriməz. Ata öləndən bəri mənə qarşı hürüşlər səngiməyib. Atanın yükünün altına girdiyim üçün mükafatım hürüşlər oldu. Mübarizə yolunda belə bir taleni yaşamaq qaçılmazdır…

Ata öləndən sonra Ocaq mühitində ciddi bir nizamsızlıq yarandı. Bu nizamsızlıq özünü Ata irsinin dağınıq olmasında daha aydın göstərdi. Hər şey dağınıq, hərədə bir şey. İllər ərzində dişimlə-dırnağımla "irsi" bir yerə toplaya bildim. Üzünü köçürüb nüsxələr artırdım. Əsas nüsxəni qorumaq üçün "Dövlət Ədəbiyyat, İncəsənət fondu"na verdim. Bu günə qədər də Ata irsindən böyük ruhani xəzinə yaratdım. Onu dağılmaqdan qoruyun. Həyatınızda ondan böyük sərvətiniz olmayacaq. Mənim yaradıcılığım Atanın ruhani işinə yaxşı xidmət edir. Onu da qoruyun. Həm də öyrənin. Mütaliə eləməkdən usanmayın. Ən ağır həyat şəraitində yaşasanız belə, mütaliəsiz qalmayın. Ruhani təcrübə qazanın və onun əsasında aqibətinizi qurun. Təcrübədə dayanmayın, ondan yüksəyə qalxın ki, özünüzü təsdiq edə biləsiniz.

Əzabdan qorxub qaçmayın. Sizə böyük olmaq, şəxsiyyət olmaq diləyirəm. Ataya, onun xalqına layiq böyüyün. Adınızı əbədiliyə yazın.





# İNSANA DOĞRU

## I. Fərd və Kütlə

İnsan haqqında təsəvvürlər, bilgilər, axtarışlar çox mürəkkəbdir və müxtəlifdir. İnsanın mənşəyi, psixologiyası, sosial həyatı, ictimai mövqeyi haqqında çoxsaylı mülahizələr ortaya qoyulmuş, əksər hallarda insanın fərd olaraq dərk olunması arxa plana keçmişdir. Biz insanın mənşəyi haqqında gərgin axtarışları təbii sayırıq. Bu, idrak məsələsidir. İdrak cavab tapmamış axtarışları dayandırmır. İnsan hardan başlayır, insan varlığının dərk olunması mümkündürmü və s. bu kimi suallar həmişə aktual olub. Dünyəvi sayılan dinlər (əsasən semit dinləri) insanın qıraq qüvvə tərəfindən yaradılması üzərində dayanır. Başqa baxışlar bununla bağlı əsaslı bilgiyə malik olmadıqları üçün dinlərin fantastik qənaətlərini təkzib etmirlər. Təkamül nəzəriyyəçilərinin "insan heyvandan əmələ gəlibdir" qənaətləri isə, ümumiyyətlə, qeyri-ciddidir.

Asif Atanın yaratdığı İnama görə, insan mənaca əzəlidir. İnsan özündə İnsanilik adlı məna daşıyır. Bu məna yaradılmır, sonradan yaranmır. Ümumiyyətlə, Mənanın yaradılması, yaxud sonradan yox yerdən peyda olması doğru deyil. Gerçəklik hardansa başlayır, hansısa zaman kəsiyində mövcud olur və dayanır, fəqət yox olmur. Məna da gerçəkliyin içindədir, ondan qıraqda deyil. Mənanın əzəliliyi isə əsas verir deyək ki, insan haradansa başlamır, o əzəlidir. Məna ilə gerçəkliyi bir-birindən təcrid eləmək olmaz. Əlbəttə, Məna və gerçəklik keyfiyyətcə fərqlidir, lakin biri digərindən qıraqda deyil. Şübhə yoxdur ki, "Yaradıcı Allah" ideyası Məna ilə gerçəkliyi təcrid eləyən fikirlər əsasında formalaşıb. Dünyanın qıraqdan yaradılması və idarə olunması onun mexaniki bir şeyə çevrilərək bəsitləşməsi və təbiiliyini itirməsi demək olardı. Bizə görə, bu cür baxışların elmi və idraki əsası yoxdur. O ki qaldı mənanın təzahür prosesi, yəni maddi təzahür etməsi və həm də məna olaraq qalması necə baş verir, – şəxsən mən bir fərd olaraq bununla bağlı nəsə demək iqtidarında deyiləm. Bəlkə də bunun sözlə ifadəsi mümkün deyil. Bu yazıda biz insanın ruhani varlıq olması ideyası

üzərində dayanmaq istəyirik. Lakin müraciət elədiyimiz bu ideya bizə tarixdən gəlmir, Mütləqə İnam sisteminin tərkib hissəsidir. Dində, cəmiyyətdə, fəlsəfədə, quruluşlarda insana olan münasibət bizi qane etmir. Bizim baxışımıza görə, ictimai, siyasi, milli problemlərin əsasında insana doğru qiymət verilməməsi dayanır. İnsan üzərində sonu görünməyən basqılar təkcə həyati problemlərlə məhdudlaşmır, bizim hər an müşahidə elədiyimiz daha amansız fəlakətlərlə sonuclanır. Fərd azadlığını itirəndə ədalətsizlik mühiti yaranır. Belə bir mühitdə zor həlledici olur. Fərd cəmiyyətdə zor vasitəsilə idarə olunur. Əlbəttə, çıxış yolunu fərdin "tərki-cəmiyyət" həyat tərzi yaşamasında axtarmaq doğru deyil. Fərdlərin birgə yaşamaq zərurəti mövcuddur. Bu zərurətdən qaçmaq mümkün deyil. Elə ona görə də ayrı-ayrı dövrlərdə fikir, düşüncə adamları fərdlərin toplum halında yaşamasını təmin etmək məqsədilə vahid bir meyar axtarmışlar. Bu axtarışlar fəlsəfi düşüncələr, dini baxışlar qismində mövcud olmuş və həyatın gedişinə təsir göstərə bilmişlər. Lakin arzu olunan həyat qurulmamış, İdeal mücərrəd olaraq qalmışdır. Çünki işin çox az hissəsi insandan asılı götürülmüş, daha çox hissəsi isə insandan qıraqda dəyərləndirilmişdir. Yaranan qanunlar, dövlət quruluşları həyatı idarə etmək məqsədi daşımışdır. İnsanın ağlı, düşüncəsi, əməyi, imkanları idarə olunmuş və mənimsənilmişdir. Bunun sayəsində insan fərdi qüdrətini itirmiş, alətə, vasitəyə çevrilmişdir. Həqiqətə xidmət etmək düşüncələri tərk etmiş, həyat uğrunda heyvani mübarizə bərqərar olmuşdur. Azadlıqdan məhrum olmuş, müstəqilliyini itirmiş insanların birgə yaşamaq məcburiyyəti kütləvi məzmun almış, insan kütləyə çevrilmişdir. İnsanın taleyində mürəkkəblik yaradan amillər maraq doğurur. İnsanla bağlı, onun həyatını yönəldən məsələlərlə bağlı nəyisə asan qəbul etmək və ya asan rədd etmək ciddiyyətdən deyil. Nəyinsə pis olduğunu dilə gətirib inkar etmək, yaxud nəyinsə yaxşı olduğunu təbliğ etmək ilk baxışdan publisistik cazibə yarada bilər, amma addıma çevrilib yeriş yarada bilməz. Habelə problemlər üzərində dəqiq müşahidələr aparıb fikir bildirmək də işin çox az hissəsidir. Yol, yön, meyar olmayanda fəlakətlər üzərində aparılan müşahidələr yaxşı olmayan nəticələr verir, – inam sarsılır, zəlalət həyatı daha da əyir. Bu müşahidələr çıxış yolları aramağı da təkanlaşdıra bilər. Bu isə axtarışın xüsusiyyətlərindən asılıdır. Əvvəla, fəlakətlər üzərində müşahidələr aparan kəsin axtarışlarında dönməz inam olması gərəkdir və onun çıxış nöqtəsi aramaq istəyi axtarışının məzmununda yer tutmalıdır.





"Elə belə də olmalıdır" qənaəti yaradıb həyatı uğursuzluğa bərabər götürmək yolverilməzdir. Çünki inkişaf həyatın məzmununda var və insan bədbəxtlik üçün doğulmayıb. Biz iradəçilik (volyuntarizm) üzərində "belə eləmək gərəkdir" qərarı vermək fikrindən də uzağıq. İstəyirik məsələyə yanaşma biliyə və məsuliyyətə əsaslansın.

## Din və Azadlıq

İnsanın həyatında ən çox rol oynayan amillərdən biri kimi dinlərin məzmununa nəzər yetirməyi bəzi məsələləri aydınlaşdırmaq baxımından gərəkli hesab edirik. Hər bir din müəyyən yeniliklərlə gəlsə də, əsasən ibtidai baxışlar üzərində qurulub. Təbiidir ki, ibtidai baxışlarda dayanıb qalmaq tərəqqiyə yol aça bilməz. Bəs necə olur ki, ibtidai baxışlar yaşaya bilir, inkişaf təbii axara çevrilə bilmir? Bəlkə insanın imkanı mövcud olan gedişatı ötməyə qadir deyil? Bəlkə xeyirin şər tərəfindən üstələnməsi qarşısıalınmazdır?! Dinin həyata münasibətində bu sualların cavabını tapmaq doğrudan da çətindir. Əlbəttə, biz dini yanaşmanın səhv olduğunu bildirməklə öz işimizi bitmiş hesab eləmirik. Bu məsələni ciddi öyrənib özümüz üçün aydınlaşdırmağa çalışırıq. Biz sadəcə inkarçı mövqe daşımırıq, inam yaradırıq. Məqsədimiz də odur ki, həqiqətsizliyin inama qarışmasına imkan verməyək. Bunun üçün bir çox gerçəklikləri bilmək gərəkdir. Və bunun çətinliklərini anlamağa çalışırıq. Bəşəriyyətin axtarışları nə qədər mürəkkəbdir! Gah bu, gah da başqa məbud tanımaq, ona tapınmaq nədən doğur?! Tarixdə bəşəriyyətin vahid bir idealı olmayıb. Allahı isə bəşəriyyətin vahid idealı kimi qəbul eləmək çətindir. Çünki Allahı ideal kimi dərk eləmək olduqca problemlidir. Allaha qarşı mövcud münasibətlər də onun ideal kimi qəbul olunmasını rədd edir. Allaha olan münasibətlər çox ziddiyyətlidir. Allah – gerçəkliyə gərək olmayan mücərrəd bir uzaqlıqdır. Belə olan halda ideal mənasızlaşır və həyatdakı yanlışlara, əyintilərə yol açır. Ümumiyyətlə, bəşəriyyətin bu gün də ayrı-ayrı dinlərə tapınması – onun vahid ideala malik olmadığının göstəricisidir. Burada biz ideal deyəndə hər kəs üçün böyük həqiqət, "Mənə birdir" anlamını nəzərdə tuturuq. Hər xalqın ideal şəxsiyyətinin, dəyərinin olmasını, yaxud olmalı olduğunu danmırıq. Beləliklə, dinin yaratdığı ideal insana gərək olmur, hətta insana qarşı olur. Bu səbəbdən də dünyəvi sayılan dinlər əski təsəvvürlərdən köklü şəkildə fərqlənmirlər. Totemizm, animizm kimi baxışlar dünyəvi sayılan

dinlərin məzmununda bir çox cəhətləriylə indi də yaşamaqdadır. Hətta bəzən ədəbiyyat səhifələrində əski təsəvvürlərlə (məsələn, şamançılıqla) öyünmələrə də rast gəlmək olur. Bizim keçmişdə əski təsəvvürlərlə yaşayan insanlara heç bir xor baxışımız yoxdur. Sadəcə aşağı idrak səviyyəsinin, yaxud idraksızlıq səviyyəsinin yaratdığı primitiv təsəvvürləri istər ədəbiyyatda, istər dini qaydalarda bu günə daşımağı zərərli sayırıq. O ki qaldı dinlərin dünyəvi adlanmasına, deməliyik ki, istənilən təhrif yalnız zərərli təsirə malik olur. Dinlər dünyaya yayılsalar da, dünyalaşa bilməyiblər. Başqa sözlə, bəşəri məzmuna malik deyillər. Qılınc zoruyla yeridilən din elə zora tapındığı andaca bəşəriliyini itirir. Hələ biz onun məzmununun axıra qədər doğru olub-olmadığını demirik. Çünki başlanğıc sonrakı gedişlərdə həlledici təsirə malik olur. Hər şeyi, çətinə dirənəndə, zor vasitəsilə həll etmək ənənəsi yaranır. Zor azadlığa qarşıdır. Ümumiyyətlə, zoru təkcə silah-sursatla eyniləşdirmək doğru deyil. Hər hansı məsələ azadlıqdan qıraqda həllini tapırsa, bunun adı elə zordur. Zorun məkr, biclik, qəbahət, xəyanət biçimləri var. Məkr, biclik, xəyanət, qəbahət işləməyəndə silah işləyir. Bu deyilənlər isə bəşəriliyə qarşı yönəlmiş addımlardır. Bu qədər zərərlərə baxmayaraq, heç bir din başqa xalqların həyat tərzinə bütün atributları ilə daxil ola bilmir. Çünki bir xalqın tarixi-psixoloji durumunu əks etdirən bir dünyabaxış başqa bir xalqı bu baxışı yaradan xalqla mütləq eyniləşdirə bilməz, başqa xalqın, yaxud xalqların özünəməxsusluğunu tamamilə ləğv edə bilməz (Genetik assimilyasiya belə mütləq olmur, o ki qala ruhun ləğvi). Ya müəyyən mənada assimilyasiya edər, ya da həqiqətə tapınmaq gücündən, bəşəri məzmun daşımaq iqtidarından asılı olaraq, həmin dünyabaxış – özünün yaradıcısı olan xalqla başqa xalqları doğmalaşdıra bilər. Hərçəndi din heç bir vaxt belə məsuliyyətli yükün öhdəsindən gələ bilməyib. Və xalqlar sözün həqiqi mənasında bir-birinə qarşı əsil doğmalıq səviyyəsi yarada bilməyiblər. Bu da onu göstərir ki, din bəşəri məzmun daşımaq səviyyəsindən aşağıdır. Bəs biz nəyə əsaslanıb bu qənaətə gəlirik?! Dövrümüzdə bir çox alimlər də keçmişdəki dini baxışları, mədəniyyətləri tədqiq edir, onlarda bir çox bəsitliklər, yanlışlar ortaya çıxarırlar. Bütün bunlar ümumi idraki inkişafın sayəsində baş verir. İdraki inkişafa, əlbəttə, mane olmaq mümkün deyil. Məlum olur ki, dini meyarlar və ona söykənən baxışlar idraki inkişafın növbəti mərhələsinə qədər yaşaya bilir, bu və ya başqa təsirə malik ola bilir. Bu da onu göstərir ki, indiyə qədər meydana gətirilən baxışlar nisbidir, Adamlıq səviyyəsində yaranır





və əsasən Adamlıq səviyyəsində cəmiyyətin nizamlanması üçün meydana gətirilir. Bəs necə olur ki, əski baxışlar bugünə gəlib çıxır? – Biz dedik ki, həmin baxışlar idraki inkişafın növbəti mərhələsinə qədər yaşaya bilirlər. İdraki inkişafın növbəti mərhələsi o deməkdir ki, artıq əskinin yaşamı üçün müqavimət var və bu müqavimət böyüdükcə əskilik tədricən təsirini itirməyə başlayır. Başqa baxışlara nisbətən Dini baxış bu prosesdə gec təsirsizləşir. Bu da ona görədir ki, insanlar yüzillərlə içlərinə hakim kəsilmiş təsəvvürlərdən asanlıqla əl çəkə bilmirlər, yarana biləcək boşluq intuitiv olaraq cəmiyyəti dəhşətə gətirir. Odur ki, o özünün həqiqət kimi anladığı və qəbul elədiyi baxışın əsasən yanlış olduğunu qəbul eləmək istəmir və onun müdafiəsinə qalxır. Fəqət bu qoruma kor-koranəlik səviyyəsində olanda xeyir təsdiq olunmur. Deməli, mahiyyətcə yaxşı olan keyfiyyət (qoruma əməli) yaxşı olmayan bir şeyə xidmət göstərir. Öz məbudunu qorumaq müqəddəslikdir. Məbudda yalan olanda isə müqəddəslik idraksızlıq səviyyəsinə enir və ülvi təsirini itirir. İndi necə düşünək, bəşəriyyət səhvmi edib din yaradıb? Bəlkə dinin yaranması da qaçılmaz olub?! Biz sadəcə ittiham eləmirik ki, niyə din yaranıb, biz deyirik niyə İnam yaranmamalıdır?! İdrak nisbilikdən çıxa bilməyəndə nə qurursa, Adamlığın yeni səviyyəsi üçün qurur. Əlbəttə, idrak insani prinsiplərdən tamamilə qıraqda da durmur, fəqət indiyə qədər Mütləq İnsanilik tələbi əsasında da durmayıb. Adamlığın yeni səviyyəsi də Adamlıqdır. Ona görə də ictimai inkişaf tam bərqərar ola bilmir. Deməli, elə meyar tapılmalıdır ki, o heç vaxt dəyişməsin. Gərək inkişaf Dəyişməzliyin əsasında baş versin. Belə olan halda yaranan hər bir yeni dəyər özündən sonrakı dəyərə stimul verəcək və özü də özünün ümdə cəhətləriylə yeni dəyərə qovuşub inkişaf mərhələlərində yaşayıb gərək olacaqdır. Hər bir əsil dəyərdə bütün zamanlara gərək olan keyfiyyətlər yaşayır. Meyar isə o vaxt dəyişməz ki, o Əzəli, Əbədi, Kamil və Sonsuz mahiyyətli olsun. Meyar kimi biz, İnsanilik imkanını qəbul edirik. Və hesab edirik ki, İnsanilik imkanına inam insanlarda daxili tələbat olaraq əbədiyaşardır. Bu isə ictimai tərəqqi üçün hərəkətverici bir qüdrətdir. Din İnamın yanılmasından yaranıb. İnamın yanılması azadlığın itirilməsi ilə sonuclanır. Əslində siyasət də inamın yanılmasından başlayan prosesdir. Ləyaqətə inam azalanda bicliyə üstünlük verilir. Hamı bir-birini aldatmaqla, əyməklə yaşayır. Yaşamağın anlamı ləyaqətsizlik səviyyəsində bilinir. Cəmiyyət təbiətin sərvətləri hesabına insani yaşamağı qura bilmir. Həyat bioloji məzmunla

eyniləşdirilir. Xeyirin təsdiqi yönündə tərəqqi başa gəlmir. Cəmiyyət təbəqəyə bölünür: – yaşamağı bacaranlar və yaşamağı bacarmayanlar. Buna sinifli cəmiyyət deyirlər. İnsanların sinfə aid edilməsi yaşamaq uğrunda mübarizənin təzahürüdür. Yaşamaq uğrunda mübarizə aparan insanın azadlığa qovuşması müşkül məsələdir. Cəmiyyət azadlıq haqqında düşünməyi çoxdan unudub. İndiki dövrdə mübarizə adıyla fəaliyyət göstərən qüvvələr də əslində azadlıq uğrunda deyil, məişət uğrunda mübarizə aparırlar. Azadlığa mane olan hədəf tanınmır və dərk olunmur. Azadlıqla məişət eyni məzmuna aid olunur. Dövlətin idarə olunması insani ləyaqətə əsaslanmır, sinfi xarakterə əsaslanır. Bir sinfin başqa sinif üzərində hökmranlığı, təsiri uğrunda demokratik dartışmalar gedir. Əyilən sinif əyən sinfin yeri uğrunda təşkilatlanır, düşmənçilik təbliğatı aparır. Ulus uğrunda, yurd uğrunda mübarizə getmir. Məişət uğrunda mübarizə yurda qarşı, ulusa qarşı olan kənar qüvvələrlə əlbir olmaq zərurəti yaradır. Bu gediş insanı fərdi əsarət mühitindən ictimai əsarət mühitinə sürüyür. Din, onun qolları, təşkilatları siyasət tərəfindən bu məsələdə istifadə olunur. İnsanın azadlığının qurucusu olan İnam duyğusu idraksızlıq səviyyəsində olduğu və yalana, mifoloji əsaslara bağlı olduğu üçün şərin xeyir libasına bürünməsini dərk edə bilmir. Avamlıq mühitində şəri tanımaq və onunla mübarizə aparmaq mümkün deyil. İctimai zəlalət yaradan, avamlıq qoruyucusu olan din azadlığın qapısını insanın üzünə bağlayır.

## Din və Mədəniyyət

Mədəniyyət – xalqın (yaxud xalqların) adətində, ənənələrində, məişətində, geyimində, yazısında, incəsənətində, musiqisində, ədəbiyyatında, bir sözlə, həyatın bütün sahələrində onun yönünü, simasını formalaşdıran və aqibət birliyinə xidmət edən dəyərdir. Bu dəyərin əsasında milli xüsusiyyətlər, əxlaqi keyfiyyətlər, bəşəri humanizm dayanır və yaxud dayanmalıdır.

Mədəniyyətlərin döyüşü deyirlər. Hətta bəzi Batı fikir adamları mədəniyyəti buxov kimi qiymətləndirir, onu gerilik sayır və onun ləğv olunmasının zəruriliyindən danışırlar. Bəli, mədəniyyəti insani mahiyyətdən təcrid edib ayrıca bir gerçəklik kimi baxanda bəlkə də o bir çox xüsusiyyətləri ilə zərərli görünə bilər. Belə olan halda mədəniyyətlərin döyüşündən danışmaq olar. Lakin mədəniyyətin





başında ağalıq siyasəti dayanırsa, mədəniyyətin məzmununa antibəşəri, antiinsani elementlər daxil edilirsə, belə halda mədəniyyətlərin deyil, siyasətlərin döyüşündən danışmaq doğru olar. Mədəniyyətlər bir-birinə yalnız doğma olmalıdır. Əgər bir-biriylə döyüşürsə, deməli, onlar mədəniyyət deyil, mədəniyyətsizlikdir. Mədəniyyətlərin bir-birinə təsiri qarşısıalınmazdır, fəqət döyüşü olmamalıdır. Əgər varsa, yuxarıda dediyimiz kimi, döyüşün səbəbini başqa keyfiyyətlərdə, daha doğrusu, siyasi münasibətlərdə axtarmaq gərəkdir. Məsələn, bir sıra Avropa dövlətlərinin davranış tərzi, geyim mədəniyyəti insani prinsiplərə tamamilə arxa çevirir. Bunun da arxasında pulçuluq dayanır. Pulçuluğa elmin imkanlarını da qoşurlar, siyasi əllaməçilikləri də. Pulçuluğun inkişafı üçün bu tip əməllər başqa ölkələrlə əlaqələr qurmaqla genişləndirilir. Xarici və daxili pulçuların əlbirliyi, işbirliyi nəticəsində bir ölkədə yerli mədəniyyət təhrif olunur. Burada başqa təsirlərin, siyasi hegemonluğun artması ilə asılılıq yaranır. Bu da olur mədəniyyətlərin döyüşü. Əlbəttə, biz məsələnin olduqca sadə bir anlamına toxunduq. Mədəniyyətlərin döyüşü anlamını daha mürəkkəb proseslər müşayiət edir. Belə ki, burada vəziyyət daxili və xarici pulçuların sadəcə pul qazanmaq istəkləriylə məhdudlaşmır, hegemon dövlətlərin ağalıq əməlləri bu cür sadə görünən əlaqələrin üzərində möhtəşəm asılılıqlar qurur, dövlətlərin mərkəzə və əyalətə bölünməsi prosesiylə başa çatır. Deməli, bir ölkənin mədəniyyəti bədxah siyasi niyyətlərin təsiriylə insani məzmununu itirir və məkrli münasibətlərin vasitəsinə çevrilməklə özünü başqa mədəniyyətlərə qarşı qoyur. Məlumdur ki, mədəniyyətlərin formalaşmasında dinlərin təsiri daha çox rol oynayıb. İctimai həyatda həlledici təsirə malik olan yas və toy ənənələri əsasən dini qaydalar əsasında həyata keçirilib, bu gün də yas ənənəsi bütünlüklə, toy ənənəsi isə qismən dini qaydalarla gerçəkləşir. Nəzərə alsaq ki, hər xalqın dini yoxdur, yəni özü din yaratmayıb, deməli, həyatını başqa mədəniyyətin təsiri ilə qurur. Təbiidir ki, hər xalq din yaratmaq gücündə deyil. Və nəzərə alsaq ki, mədəniyyətin başında da siyasət dayanır, deməli, başqasının mədəniyyətini əhatəli şəkildə qəbul edən xalq onun siyasi asılılığına uğrayır. Böyük mədəniyyəti qəbul eləmək də məğlubiyyətdir (asılılıq yarandığına görə), qəbul eləməmək də (ictimai anarxiya yarandığına görə). Bəs onda xalqlar nə etməlidir?! Bu mürəkkəb suala sadə cavab vermək mümkün deyil. Nə qədər ki, dinlə siyasət ictimai həyatda əlaqəli şəkildə yaşayır və nə qədər ki, din siyasətin aləti

qismində çıxış edir, problemdən çıxış nöqtəsi tapmaq mümkün deyil. Burada biz Asif Atanın (İnam Atanın) "dini İnamla, siyasəti ruhaniyyatla əvəz eləmək" prinsiplərinin zəruriliyi ilə üzləşirik. Bəs din İnamla, siyasət ruhaniyyatla əvəz olunanda nə baş verir?! Əvvəla, din İnamla əvəz olunanda fantastik və xülyəvi ideallar öz yerini ruhani ideallara verir. Ruhaniyyat mifik obrazlardan xilas olur. İdealın gerçəkliyə təsiri, Ruhaniyyatın mənəvi həyatımızda müqəddəs təsiri reallığa çevrilir. Dünyaya, həyata, insana baxış elmi və idraki əsaslara söykənir. Dünyabaxışın əsasında vahid, bəşəri bir xətt dayanır. Xalqların həqiqətləri onlarla yerə bölünmür. Vahid bir xətt əsasında hər xalqın öz milli siması formalaşır. Bir xalqın xüsusiyyətləri başqası tərəfindən məcburi şəkildə qəbul olunmur, başqa sözlə, özünəməxsusluq qorunur. Xalqın özünə, öz imkanlarını aşkarlamasına inamı onun mənəviyyatını, mənliyini assimilyasiyadan qoruyur. Məsələn, ərəb dilində danışan bir Allahın varlığına inam türk xalqını da ərəbvari düşünməyə, yaşamağa zorladığı halda, Asif Atanın (İnam Atanın) yaratdığı "Dünyanın Əzəli, Əbədi, Kamil, Sonsuz Dünyalıq mənasına inam" heç bir xalqı türk əsarətinə sürümür. Bu İnamın varlığı hər bir xalqın özümlü dəyər yaratmasına stimul verir. Belə olan halda, İnam yaratmayan xalq da başqa təsirlərdə assimilyasiya təhlükəsindən xilas olur. Çünki İnam hər xalqı özünə tapşırır. İnsani prinsiplərə zidd olmayan adət-ənənələr özümlü olduğu dərəcədə bəşəri vəhdətin gözəlliyini ifadə edir.

Siyasət ruhaniyyatla əvəz olunanda insanilik qurban verilmir. Hər bir xalqın dövləti müstəqilliyi və müstəqil yurddaşlığı təsdiq olunur. Əsil mübarizə bu yönə xidmət eləməkdir. Siyasətin mənasızlığına inanmadan – azad və müstəqil olmaq mümkün deyil. Siyasəti məqsədə çevirirlər. Əslində isə siyasət siyasətsizliyə qədərki mərhələdə ötəri bir vasitə olmalıdır. Yuxarıda vurğuladıq ki, bizim inamımıza görə siyasət ruhaniyyatla əvəz olunmalıdır. Hərçəndi biz həm də "Uluyurd Hərəkatı"nın yaranmasında israrlıyıq. Belə isə, bizim baxışlarımız ziddiyyətli çıxmırmı? Burada biz özümüzə bəraət axtarmadan fikrimizi əsaslandırmağa çalışırıq. Biz fikirləri quraşdıra bilmərik. Bu, özünü inkar etmək olar. Əgər fikrin heç bir gerçək əsası yoxdursa, onu demək özünü aldatmaqdan başqa bir şey deyil. Bizim "Ruhani Birlik" idealımız var. Bunun gerçəkləşməsi müqəddəs əməllərlə yaşayan insanların ardıcıl Ruhani mübarizəsi nəticəsində mümkündür. Uluyurd Hərəkatı isə bugünümüzün uçurulmasına qarşı ictimai-siyasi dirənişdir. Nə qədər ki,





ruhani səs ləng eşidilir, bu hərəkat bu gün üçün qaçılmazdır. Adamlığın İnsanlıqla əvəz olunması, başqa sözlə, Adamlıq mühitinin İnsani mühitlə əvəz olunması uzun, fəqət ardıcıl əməllər, ömürlər tələb edən prosesdir. Amma Hərəkat özü də Ruhaniyyata söykənməli və onun ali məqsədlərinə xidmət göstərməlidir. Biz yenidən qayıdırıq dinin mədəniyyətə təsiri mövzusuna. Bu mövzunu biz əsasən öz ulusumuzun həyatında apardığımız müşahidələrlə ifadə etməyə çalışacağıq. Dinlə mədəniyyətin əlaqələrindəki ziddiyyətləri izah eləmək üçün, türk olaraq, bizim ulusumuzun aqibəti daha böyük əhəmiyyət kəsb edə bilər. Çünki böyük dəyərlər yaratmayan xalqlara daha böyük mədəniyyət yaradan xalqların təsiri müəyyən məqsədlərlə kimlər tərəfindənsə bəraətləndirilə bilər ki, bununla da mədəniyyətlə zor arasında bərabərlik işarəsinin qoyulmasına haqq qazandırılmış olar. Bizim ulusumuz isə böyük dəyərlər yaratdığı halda, hətta dünyanın ən ulu Peyğəmbəri olan Zərdüştü verdiyi halda, başqa dünyabaxışın, mədəniyyətin təsirinə düşməsi taleyimizdə çox acınacaqlı vəziyyət yaradıbdır. Millət olaraq öz adımızdan, yazı mədəniyyətimizdən məhrum olmuşuq. Yurdumuz da, insanlarımız da xırda-xırda hissələrə bölünüb, qoltuqlara, əsarətlərə düşmüşük. İslamın Azərbaycana gəlişi ruhani boşluq əsasında yox, zor əsasında baş verib. Bir xalqın dini ənənələrinə, mədəniyyətinə başqa dinlərin, mədəniyyətlərin təsiri daxil olanda mürəkkəb həyat tərzi yaranır. Bu mürəkkəbliyi aydınlaşdırmaq da, bundan xilas olmaq da xeyli çətinləşir. Məsələn, türklərə İslam dininin yad olduğunu izah edəndə, ayrı-ayrı şəxslər elə cəhətlər göstərirlər ki, bu cəhətlərdə milliliyin olması şəksizdir. Halbuki o cəhətlərin İslama heç bir aidiyyatı yoxdur, sadəcə İslama qarışdırılıb. Xalqın içində İslamı qoruyub saxlayan cəhətlərdən biri də məhz özümlü cəhətlərin süni şəkildə dinə qarışdırılmasıdır. Bu özümlü cəhətlər ulus üçün ciddi iş görə bilmir, çünki meyarın yerində İslam dayanır. Yaxşı nə addım atırsan at, o, İslamın adına yazılacaq, ona xidmət edəcək. Bu cür dolaşdırmalarda, qarışdırmalarda yaxşı keyfiyyətlər zərərli gedişlərə təslim edilir. Məsələn, Tanrıçılıq tamamilə başqa bir məzmun daşıdığı halda, bu gün o, İslam Allahçılığı ilə (Allahçılığın xeyrinə) qarışdırılır. Bu isə ölkənin, ulusun özüylə bağlı müəyyənliyə gəlib çıxması yolunda maneəyə çevrilir. Eləcə də Novruz bayramını İslama aid eləmək cəhdləri var. Dədə Qorqud boylarına, başqa İslamaqədərki dəyərlərimizə, folklorumuza İslam atributları daxil edib, İslam dəyəri kimi təqdim

eləmələr bizim milli müəyyənliyimizə qarşı atılan addımlardır. Dədə Qorqudun tarixi xristian erasından da qədim olduğu halda, onu 7-ci yüzilə aid eləmək açıq qəsd əməlidir. Tarixdən bəllidir ki, İslam Azərbaycanda əsasən 9-cu yüzildə, Babəkin amansız edamından sonra oturuşub. Belə çıxır ki, İslam Ərəbistanda təzəcə başlayan kimi, Azərbaycanda bizim Dədəmiz müsəlman oldu, 9-cu yüzildə Babək təzədən öz Dədəsinə qarşı, yəni onun əqidəsinə qarşı döyüşə başladı. Bizdə alim, ziyalı qorxaqlığı, məsuliyyətsizliyi xalqın tarixini təhrif eləmək ənənəsi yaradır və sabahımızı həmin yanlışlar üzərində qururlar. Bu təhriflərin nəticəsidir ki, türk qonaqsevərliyinin belə, İslam təsiri ilə yarandığı iddia olunur. Qonaqsevərliyin əsasında milli dünyabaxışın yetirdiyi humanizm dayanır. Dünyabaxış millətdə xarakter yaradır. Yad dünyabaxışa tapınan xalqın mətinliyi, humanizmi axıra qədər özünə inandıra bilməz. Yad sözü özündə bir yanlışlıq da daşıyır, – ən azı başqası üçün. Eləcə də şəxsin xüsusiyyətləri axıra qədər sabit, dayanıqlı, inandırıcı ola bilməz. O elə şeylərə tapınır, elə səviyyələrə inanır ki, bunun nəticəsində xislətində qorxaqlıq da qalır, dönüklük də. Sənə dost olar, fədakarlıq edər, ona inanarsan. Sonucda yad dünyabaxışın onun ömründə yaratdığı yarımçıqlıqdan sənə xəyanət edər. Buna görədir ki, Asif Ata öz İnamını İnsan üzərində qurub, Mütləqə İnam insanı hər cür nisbi münasibətlərin üzərinə qaldırır, İnsanlığı həyatın Ali meyarı kimi təsdiq edir. Türk sözünün altında yeni dünyabaxış, yeni dəyər yaranmasa, bu söz təməldən ayrıla və ləğv oluna bilər. Çağdaş Azərbaycançılıq çağırışları, yad baxışların, mədəniyyətlərin dalınca qaçmaq buna gətirib çıxara bilər. Türk adını qorumaq üçün bu ad altında yaranan dəyərlərə yiyə durmaq gərəkdir. Bu adı özümlü mədəniyyətin, özümlü dəyərin üzərinə yazmaqla yaşatmaq mümkündür. Bunun üçün xalq imtina ləyaqətini bacarmalıdır. Bizə görə türklər İslamdan imtina etməlidirlər. Nəinki türklər, ərəblər də ondan imtina etməyi bacarmalıdırlar. Bir xalqın yaratdığını özündən çox başqaları mənimsəyirsə, nə yaradan, nə də mənimsəyən inkişafa nail ola bilmir. Birincisi, mənimsəyən (bəhrələnən yox), yəni türklər yaradandan, yəni ərəblərdən mədəniyyətcə heç də aşağı səviyyədə deyil, əksinə tarixdən göründüyü kimi, üstündür. İkincisi, yaradılan, yaxud mənimsənilən geridir, gerilikdir. Gerilik isə xalqlara yalnız dartışmalar verir. Zərdüştü, Babəki, Dədə Qorqudu, Nəimisi, bu gün Asif Atası olan bir xalqın 7-ci yüzil bədəvi psixologiyasının geriliyinə pərçimlənib qalması, doğrudan





da, ağrılı məsələdir. Təəssüf ki, Azərbaycanı asılılığa, köləliyə alışdırmaq cəhdləri müəyyən mənada alınıb, baş tutub. Ərəbçilikdən, rusçuluqdan, nəhayət, avropaçılıqdan qopa bilməmək onun göstəricisidir.

Biz dedik ki, dini dünyabaxış bütün atributları ilə hamının olanda bir ulusda birlik yaratmaq gücünü itirir. (Hələ biz onun doğru, yaxud yanlış olduğunu demirik). Əgər Yəhudi dini milli din səviyyəsindən çıxıb transmilli dinə çevrilsəydi, yəhudi xalqının aqibəti necə olardı?! Zənnimizcə, yəhudilər dağılardılar və tamamilə assimilyasiyaya uğrayardılar. Xristianlığın meydana gəlməsi və dünyaya yayılması da bir mənada yəhudilərin xilası kimi qəbul edilə bilər. Belə ki, Yəhudi dini Avropa dövlətləri tərəfindən mənimsənilsəydi (bəhrələnilsəydi yox), ənənələrin qarışması ilə balaca bir yəhudi toplumu öz milli müəyyənliyini itirə bilərdi. Balaca xalq olan yəhudi böyük işlər görməklə (əlbəttə, zaman baxımından) ləğv olunmaqdan xilas oldu. Türk isə böyük olduğu və böyük imkanları olduğu halda, öz imkanlarından aşağı səviyyədə dayanan İslamı başı üzərinə qaldırmaqla özünü inkar xətti tutdu. İslam türkün birliyinin deyil, pərakəndəliyinin təminatçısı qismində çıxış edir. Heç təsadüfi deyil ki, bu gün farslar İslamın təsiri ilə Azərbaycanı bölünmüş vəziyyətdə saxlayır. Əgər biz İslamı birlik rəmzi kimi qəbul edib birləşməyə can atsaq, onda gərək müstəqilliyimizdən imtina edib İranın əyaləti olmaq statusunu üzərimizə götürək. Bəs Mütləqə İnam necə, – milli olmalıdır, yoxsa dünya çaplı?! Bizə görə bu dünyabaxış bütün atributları ilə yox, bəşəri məzmunu ilə hamınınkı ola bilər, xalqların milli xüsusiyyətləri, adətləri türkünkü ilə əvəz olunmamaq şərtiylə. Çünki "Əzəli, Əbədi, Sonsuz, Kamil Dünyalıq" bir xalqın milli keyfiyyəti deyil, bəşəridir.

## Din və Gerçəklik

Bütün problemlər insana qarşıdır, hər cür uğurlar insana bağlıdır.

Bizim aydınlaşdırmağa çalışdığımız bu məsələlər də insan üçündür. İndi nə dərəcədə məsələyə dərindən yanaşmağı bacarırıq – bu, bizim gücümüzün imkanıdır. Dinin insan həyatına təsiri ardıcıl olduğu üçün daim bizim diqqətimizi məşğul edir. Biz ən çox dinin insan taleyinə mənfi təsirlərindən söz açırıq. Bəs onun müsbət təsirləri yoxdurmu?! – Əlbəttə, sualın cavabı məsələyə hansı meyarla yanaşmaqdan asılıdır. Şübhəsiz ki, zaman baxımından yanaşanda dinin müsbət təsirlərini də

vurğulamaq mümkündür. Məsələn, İslamın meydana gəlməsiylə ərəblərdə bütpərəstliyin yaratdığı özbaşınalıq, pərakəndəlik müəyyən mənada aradan qalxdı. Bununla bərabər, bir çox mənfur köhnəliklər, o cümlədən ilk övladı qız olanların onu diri-diri basdırması kimi vəhşi bir ənənə aradan qalxdı və s. (biz bunlara bu və ya başqa şəkildə "İnamçı Harayı" kitabımızda – "İlahi Xəta" və "İlahi nağıllar karvanı"nda toxunmuşuq). Lakin həqiqət baxımından yanaşanda hansısa köklü dəyişikliklərdən danışmaq mümkün deyil. Ona görə də dini təsəvvürlərin qalması inkişafın qabağını kəsir. Çünki dinin həyata yanaşma üsulu fantastik və mifik səciyyə daşıdığına görə gerçəkliklə təzad təşkil edir. Dinin ehkamlarına məcburi inam var. Din – avamlığın nizamı üçün fəaliyyət göstərən ideolojilikdir, avamlıqdan xilas eləmək üçün yox. Bu, inamın yalanlaşması deməkdir. Yalana inandırmaq məcburiyyəti zorun və bununla da ədalətsizliyin yaşamasını təkanlaşdırır. Dini qorumaq avamlığı qorumaqdır. İnam adamın avamlıqdan xilas olması üçündür. Bu səbəbdən də inamı yalanla yükləmək olmaz. İnamda yalan olanda həyat nizamını itirir. Buna görə də çıxış yolunu diktatura yaradıb zor vasitəsilə nizamlamağa nail olmaqda görürlər.

Diqqət yetirin, İblis Allahı öz iradəsinə tabe etdirib Adəm və Həvvanı cənnətdən qovdurur. Adəm və Həvva özlərinin sonrakı nəsilləri ilə birlikdə İblisin verdiyi qərarla əbədi günahkarlıq statusu qazanırlar. İndiki insanları da Adəm və Həvvanın günahlarına görə suçlayırlar. Əgər biz bu mifik münasibəti bir anlıq həqiqət kimi qəbul eləsək, onda gərək bunun ziddiyyətli məzmununun doğurduğu suala cavab axtaraq. Allahın bacarmadığı İblislə yazıq Adəm və Həvva necə bacarmalı idi?! Yazıq "bəndə" ağlını söndürüb cinə, şeytana inanmalıdır ki, inamı olsun, müsəlman sayılsın. Yer, göy saysız-hesabsız mələklərlə doludur – hamısı da mütləq saf. Özləri də yerin, göyün nizamı ilə məşğuldurlar. Amma yer, göy çirkabla doludur. Din yeri, göyü İnsanın əlindən alır, mələklərə verir. Yer, göy insansızlaşır. Din əsasən təskinlikdən ibarət olub, xilaskarlıqdan yox. Din heç bir dövrdə insanları ədalətsizliyə qarşı birləşdirə bilməyib. İslam hökmranlıq etdiyi heç bir dövrdə böyük mənada sağlam düşüncəyə yönəlik insani əməllər aparıcısı olmayıb. Zorakılıq öndə gedib. Böyük şəxsiyyətlərə münasibətdə bu özünü açıq göstərib. İnsanı mütilik boyunduruğuna salandan sonra ona rəhmli yanaşıblar. Qüdrətli insanlara qarşı amansız, zəlillərə qarşı rəhmli olmaq





heç də insanilik meyarı ilə yaşamaq deyil. Azad insanı sevməmək küfrdür. Dinin yalanlarını qəbul etməyən insanlara kafirlik damğası vurub ya məhv ediblər, ya da hər vasitə ilə gözdən salmağa çalışıblar. Biz dedik ki, bu cür problemlər Adamlığın yaratdığı mürəkkəb psixologiyadan doğur. Cəmiyyəti Adamlıq psixologiyasına uyğun nizamlayan qaydalar yaratmaq haqqında düşünüblər. Başqa sözlə, İnsanilik – cəmiyyətin dəyişməsi üçün Meyar kimi yox, tərbiyəvi vasitə kimi təbliğ olunub. Bəzi din araşdırıcıları xristianlığı – qulların, məzlumların dini hesab ediblər. Bu fikirlə axıra qədər razılaşmaq olmur. O səbəbdən ki, Quldarlığa qarşı döyüşkənlik çağırışı əvəzinə "bir üzünə vuranda o birini də çevir" çağırışı xilaskarlıq yaratmır, məzlumluğun qalmasına şərait yaradır. Canavarlığa qarşı güzəşt yolverilməzdir. Bir üzünə vurulanda o birini tutursan, ona da vurur və üstəlik səni hələ bir ayağının altında tapdalayırsa, sənin yenidən üzünə vurdurmağınla mütilik, məzlumluq aradan qalxa bilməz. Hind xalqı ruhaniyyat yaradan xalqdır. Biz Buddanın ideyalarındakı gözəllikləri alqışlayırıq. Fəqət Buddanın ideyalarında döyüşkənlik ruhu yoxdur. Bəlkə buna görədir ki, Hind xalqının xarakterində hardasa bir köləlik formalaşıb. Bəs görəsən Asif Atanın Mütləqə İnamı türk xalqına mütilik gətirə bilərmi? Necə etməli ki, ruhaniyyatçılıq birtərəfli qəbul olunub döyüşkənliyi ləğv eləməsin, yaxud necə eləmək olar ki, bu döyüşkənlik zora, müstəbidliyə çevrilməsin? Belə olan təqdirdə yenə də siyasət ruhaniyyatı vasitəyə çevirəcək. Ruhaniyyat vasitəyə çevriləndə Azadlıq dayağını itirir, nisbi Azadlıq bərqərar olur ki, bununla da azadlıq və əsarət müəyyən bir dairədə biri o birinin əvəzi kimi mövcud olur. Şübhəsiz buna görədir ki, Asif Ata ideyalarının məzmununda döyüşkənlik tələbi xüsusi bir xətt kimi keçir. Əslində adamın özüylə döyüşü, özünü yaratması – döyüşkənlik ruhuna köklənməsi deməkdir. Din insanın özünü yaratmasına qarşıdır. Din insan yaratmır, insanın üzərində nəzarət yaradır. Bu səbəbdəndir ki, din ictimai əmin-amanlıq yarada bilmir. Həm din var, həm də inqilablar baş verir. İnqilab isə istehsal dəyişikliyi yaradır, insani dəyişiklik yaratmır. İndiyə qədər sosial inqilablarla quruluş dəyişilib. Yəni bir sosial quruluş başqa bir sosial quruluşla əvəz olunub. Din Ruhani quruluş yaratsaydı, inqilablara ehtiyac qalmazdı. Din isə Ruhani quruluş yarada bilməz, – çünki məzmunu ən çox yalanlardan ibarətdir. İsanın çarmıxa çəkilməsini belə əsaslandırırlar ki, Adəmin cənnətdən qovulmasına görə bütün bəşəriyyət, yəni onun

törəməsi günahkardır. İsa (Allahın oğlu, yaxud özü) qurban getməklə hamıya günahdan azad olmaq imkanı yaradır. Hər bir dünyaya gələn insanın bir borcu qalır ki, İsanın təliminə etiqad göstərsin. Yeni doğulanları xaç suyuna salmaq bu məntiqdən irəli gəlir. İsanın çarmıxını xaç rəmzi götürürlər və yeni doğulanları rəmzi olan xaçın suyu ilə (babasının günahından) yuyub azad edirlər. Bu ideyada çox təhlükəli kobudluqlar var – insanın mahiyyyətində günahın olması, onun xaç suyu ilə azad olması arxayınçılığı, insanı əzəlilikdən məhrum eləmək. Bəlkə də xristian erasının başlanğıcında bu nağıllar ictimai həyata müəyyən təsirlər göstərə bilib. Fəqət biz məsələyə yalnız həqiqət ölçüsüylə yanaşdığımıza görə insanı aldatmaqla nisbi xeyir əldə etməyi çıxış yolu saymırıq. İnsan bütün dövrlərdə aldadılır. Bunun bəraəti yoxdur. O dövrdə o cür aldadılıb, bu dövrdə də bir başqa cür aldadılır. Yüzillər sonrakılardan da biz yeni yalanlar uydurub bəraət uma bilmərik. “O dövrdə idrak o səviyyədəydi, bu dövr başqadır” kimi fikirlər, dediyimiz kimi, yalnız bəraətdir. Bəşər yeni dünyabaxışa üz tutmalıdır, köhnəliyə bəraət verib yaşatmalı deyil. Unutmaq olmaz ki, o dövrün mütəfəkkirləri, alimləri bu dövrün idraki səviyyəsindən heç də aşağı deyildi. Bəşəriyyətin qədimliyində çox dərin biliklər mövcud olub, o bu günə qədər də yaşamaqdadır. Bu səbəbdən də dövrü bəhanə edib yalanlara haqq qazandırmaq olmaz.

## Mədəniyyət və Azadlıq

Hər bir xalq özünün yaratdığı mədəniyyətlə varlığını qoruyur. İnsan sürülüyə mədəniyyətlə son qoyub. İnsan həyatda nə etməli olduğunu mədəniyyətlə müəyyən edir. Başqa sözlə, mədəniyyət ulusal yaşam təcrübəsi yaradır. İnsanlar birgə istehsal yaradır, ölüsünü dəfn edir, dirisinə münasibət yaradır, bir dildə danışır, bir tarixə malik olur. Bütün bunlar müəyyən qaydalarla, nizamla həyata keçirilir. Fəqət cəmiyyətin həyatı yalnız bu nizamla getmir, daha mürəkkəb təsirlərlə əhatə olunur. Belə ki, Adam İnsanlaşa bilməyəndə mədəniyyət Adamlaşır. Bu halda mədəniyyətmi təsir edir, yoxsa mədəniyyətəmi təsir olur – bizə görə məsələnin bu cür qoyuluşu həlledici olmamalıdır. Hansı təsir əsasdır – mədəniyyətin təsiri, yoxsa mədəniyyətə təsir, – məsələni belə qoymaq daha doğru olar. Çünki mədəniyyətin də təsiri var, mədəniyyətə də təsir var. Məsələnin əsas mahiyyəti ondadır ki, mədəniyyət formalaşanda





hansı meyarlarla formalaşır?! Başqa sözlə, mədəniyyət hansı ideyalardan tərkib götürür? Təəssüf ki, cəmiyyətin həyat tərzində sualın bu cür qoyuluşu da çox vaxt cavabsız qala bilir. Çünki mədəniyyətdə kortəbii ünsürlər də mövcud olur, şüurlu başlanğıc da. Hər bir adət-ənənəni müəyyən qaydalar sistem halına gətirir. Bu qaydalar – idealın düşüncələrə təsiri nəticəsində gerçəkləşəndə, əlbəttə, mədəniyyət insani səviyyəyə yüksəlir. Hansısa yasaqlarla müşayiət olunanda mədəniyyət kortəbii nizam yaradır və azadlığa meyli məhdudlaşdırır. Bu səbəbdən də mədəniyyətdə meyar əsas məsələdir. Mədəniyyəti yalnız ahəngini itirmiş həyat axarında araşdırmaq onun təhrif olunmasına gətirib çıxarır. Mədəniyyəti hissə kimi götürüb öyrənmək, hissəni bütöv kimi dərk eləmək cəhdi – həyatı olduğu kimi qəbul eləmək, ondakı ali keyfiyyətləri görməmək deməkdir. Meyar müəyyən olmayınca mədəniyyətin həyatda təsirinin müsbət, yaxud mənfi olduğunu göstərə bilən kifayət qədər dəlillər ortaya qoymaq olar. Əks dəlillərin isə hər ikisi eyni dərəcədə həqiqi ola bilməz. Əks dəlillərdən hər hansı birini əsas götürən personalın mülahizələri istər-istəməz subyektiv xarakter daşıyacaq. Subyektiv baxışın qəbul olunması isə sübut və dəlillərin obyektiv olmasından asılıdır. Deməli, subyektiv baxış kamil meyara əsaslanmadan obyektiv ola bilmir. Bizim subyekt və obyekt anlayışlarının üzərində gəzişmələrimizin səbəbi ondadır ki, mədəniyyət anlayışı ilə bağlı aydın baxış ortaya qoya bilək. Əvvəldə vurğuladıq ki, dövrümüzdə bəzi fikir adamları mədəniyyətin zərərli hadisə olduğunu sübutlamağa çalışırlar. Bu baxışların əsası ayrı-ayrı Avropa fikir adamları tərəfindən qoyulub. Mədəniyyətin – azadlığı məhdudlaşdıran hadisə kimi şərh olunması bizdə insanla təbiətin fərqinin dərk olunmaması təsəvvürü yaradır. İnsan təbiətə bərabər deyil. İnsanı təbiətdən fərqləndirən keyfiyyətləri dərk etməmək – ona inanmamaqdan irəli gəlir. İnsanla təbiətin eyniliyi qəbul olunan olsaydı, onların vəhdətindən danışmaq yersiz olardı. Çünki vəhdət yalnız fərqli olanlar arasında mövcud olur. Mədəniyyətin “lüzumsuzluğunu” sübut etmək üçün insanın heyvandan ibarət olduğunu elmiləşdirmək bəşəriyyətə heç bir uğur vəd eləmir. Cəmiyyətə onun mövcud vəziyyətindən qiymət vermək hünərsizlikdir. İnkişaf mövcud vəziyyəti ötməyə cəhdlər əsasında baş verir. İnsanı öz mahiyyətindən ayırmaqla azadlığın təsdiq olunmasını düşünmək əbəsdir. Onun mahiyyəti ruhani varlıq olması anlamındadır. Təbiəti insanın mahiyyəti saymaq ciddi yanlışlıqdır.

Təbiət insanın gerçəkliyindədir, mahiyyətində yox. Biz hesab edirik ki, məsələnin düyün nöqtələrini insana münasibətin sağlamlaşması ilə açmaq olar. Mədəniyyəti Adamdan başlamaq olmaz, onu İnsandan başlamaq gərəkdir. Mədəniyyəti cəmiyyətdən yox, xalqdan başlamaq gərəkdir. Mədəniyyət cəmiyyətin həyatına gətirilməməlidir, o, xalqın ali keyfiyyətlərindən başlamalıdır. Dövrümüzdə mədəniyyəti ən çox siyasət formalaşdırır. Siyasət quruluşun tələblərinə xidmət göstərir. Quruluş isə pulçuluq mühitindən ibarətdir. Pulçuluq özü antiazadlıqdır, onun formalaşdırdığı mədəniyyət azadlığa yol aça bilməz. Azad xalqın isə ali keyfiyyətlərindən başlayan mədəniyyətinin azadlığa mane olmasından söhbət getməməlidir. Asif Atanın Mütləqə İnam sistemində bəşər övladı üç mərhələdən ibarət götürülür: – Məxluq, Adam, İnsan. Məxluqluq – heyvanilikdən ibarət olan, Adamlıq – yarımheyvan, yarıminsan, İnsanlıq isə Kamil xilqət səviyyəsi deməkdir. Biz öz yanaşmalarımızda bu fərqləndirmələrə istinad edirik. Beləliklə, Adamlıqdan başlayan mədəniyyətin İnsan azadlığına, İnsanlıqdan başlayan mədəniyyətin isə Adam azadlığına qarşı olduğunu söyləmək mümkün olardı. Fəqət Azadlıq bölünmür, o yalnız bir məzmun daşıyır. Buna Asif Ata baxışında Mütləq Azadlıq deyirik. Nisbi Azadlığı əsarət hesab edirik. Adam azadlığı heyvani sərbəstlikdən başqa bir şey deyil. Bütün məsələlərdə bizim meyarımız İnsanilikdir. Çağdaş dünyanın qəbul elədiyi azadlıq “demokratiya azadlığı”ndan ibarətdir. Əlbəttə, bu azadlıq – mərkəzçilik iddiasında olan inkişaf etmiş Batı dövlətlərinin təlqinindən ayrı məna daşımır. Dərindən diqqət yetirəndə məlum olur ki, demokratiyanın yaratdığı azadlıq ən pis adamlıq səviyyəsidir. Özbaşınalıq, hərcayilik yaradan demokratiya xalq arasında insanların birliyinə qarşı yönəlib. Hər kəsin axıra qədər nə olduğu anlaşılmayan hüququnu bəhanə eləməklə yerə-göyə sığmayan rəqabətçilik yaratmaq, hər kəsin süni şəkildə özünü ağıllı sayması – insanlarda həmrəyliyin, əməkdaşlığın və nəhayət, xəlqi yöndə vəhdətin məhv olmasına gətirib çıxarır. Bu səviyyəni azadlıq saymaq ona görədir ki, istənilən bir ölkəni siyasi mənada mənimsəmək və idarə etmək mümkün olsun. Bəzi Batı fikir adamlarının mədəniyyətə qarşı mübarizələri ona görə ayaq açıb yeriyə bilir ki, imperialist güclər bu baxışları siyasi ideologiyaların nəzəri əsası kimi qəbul edirlər. Təsadüfi deyil ki, dinlərin və mədəniyyətin ziyankarlığı fikrini irəli sürənlər bunu əsasən Doğunun timsalında yürüdürlər. Məlumdur ki, dinlərin hamısı Doğuda yaranıb. Deməli, ya insanlıq inkişaf eləməlidir,





belə olan halda Batının ağalıq iddiası puç olur (odur ki, bu haqda heç düşünmür də), ya da bu vəziyyətdə üstünlüyü əldən verməmək üçün Doğunun din yaratmaq üstünlüyünü ləkələmək lazımdır. Batı də elə bu yöndə mübarizə aparmağa girişibdir. Bu səbəbdən də Batı fikir adamlarının ən kamil şərhləri belə obyektivliyi tamamilə əks etdirə bilmir. Biz də dinlərin həyata gətirdiyi cəhaləti rədd edirik. Lakin bizim imtinamız heç kimin inkarçılığına doğma deyil. Biz dini İnamla əvəz eləmək uğrunda mübarizə aparırıq. Bu mübarizənin başında İnamın peyğəmbəri Asif Atanın ləyaqəti dayanır. Bizim məqsədimiz Ruhaniyyat mərkəzi yaratmaqdır. Hər cür ağalıq mərkəzini rədd edirik. Azadlığı Ruhaniyyatçılıqda görürük.

## Din – Dövlət

Tarixdən bizə dinlə dövlət arasında ziddiyyətlərin olduğu məlumdur. Bu gün də dini dövlətdən uzaq saxlayırlar. Doğrudur, hakimiyyətə gəlmək üçün dindən sui-istifadə halları tarixdə kifayət qədər baş veribdir. Dinin başında duranlar hakimiyyəti ələ keçirmək üçün kütlənin avamlığından istifadə ediblər. Hakimiyyəti Allahın səltənəti kimi təbliğ edərək onu ələ keçirməkdə kütləni həşirə salmaq böyük rol oynayıbdır. Dini dövlət qurublar və insan üzərində olmazın özbaşınalıqlar həyata keçiriblər. Ayrı-ayrı vaxtlarda zülmə, istibdada dözməyənlərin etirazlarını Allaha qarşı çıxmaq kimi qiymətləndirərək edamlar təşkil olunub, ədalətsizlik bəraətləndirilmişdir. Bu azmış kimi, insanları dinsizlikdə, Allahsızlıqda suçlayaraq onların şərəfini ləkələmiş və nəsillikcə cəmiyyət içərisində gözükölgəli etmişlər. Sonradan başqa qüvvələr dini dövlət quruluşuna qarşı dünyəvi dövlət ideyasını qoymuşlar. Etiraf etmək olar ki, dünyəvi dövlət dini dövlətə nisbətən daha sivil formadır. Fəqət məlumdur ki, hər iki halda dövlət insana qarşı amansızlığı, özbaşınalığı azaltsa da, tamamilə aradan qaldırmamış, təbəqəçilik, ağalıq-nökərlik münasibətləri qüvvədə saxlanılmışdır. Çünki dövlət quruluşca dəyişmişdir, məzmunca isə insana qarşı olaraq qalmışdır. Dinin dövlət başına gəlmək istəyi bu gün də davam edir. Lakin dövləti dindən qoruyan qanunlar qəbul eləməklə onu kənarlaşdıra bilirlər. Həm də dinin başında duranların pullulaşması ilə dinin avamlara təsir gücü xeyli azalmış olur, başqa sözlə, dindar pulçuluğun qanunları ilə varlanır. Bu isə açıq şəkildə görünür. İndi din siyasətin əlində

avamlara təsir eləmək üçün yardımçı bir vasitədir. Cəmiyyət dini həyatın bütün atributları ilə uçub-dağıldığını görür və onu qura biləcək ideyanın və qüvvənin olmadığını anlayır. Əlbəttə, din hakimiyyətə gəlir, dövlət ruhaniləşmir. Ona görə də din bu gün siyasətin oyuncağı kimi çıxış edir. Hakimiyyəti dinə vermək istəməmək isə cəmiyyəti cəhalətdən, xurafatdan qorumaq əlaməti kimi dəyərləndirilə bilməz. Çünki dünyəvi dövlətin məqsədi heç də insan deyil, insanilik deyil. Pulçu başına çalma, əyninə çuxa geymək, üzəvarı özünü nəyə isə vadar eləmək – xaç çəkmək, yaxud salavat çevirmək yoruculuğuna təhkim olunmaq istəmir. Əslində dövlət qoruyucu funksiya daşımalıdır. Dünyəvi dövlət də zahirən özünü qoruyucu kimi göstərir. Lakin aydınlaşmır ki, dövlət nəyi və kimi qoruyur, nədən və kimdən qoruyur?! Dövlət xalq yaratmır ki, onu da qorusun. Dövlət xalqı kütlə səviyyəsində saxlayır və xalqın zəhmətini, imkanlarını bir təbəqənin firavanlığına həsr edir. Dərindən yanaşanda məlum olur ki, dövlət həmin təbəqənin rahatlığını qoruyur. Xarici təzyiqlərdən də həmin təbəqənin varidatı, hakimiyyəti qorunur. Yumşaq desək, bu təbəqəyə tabe olan və xidmət göstərən xalq həmin təbəqənin əmlakının, varidatının qorunması üçün qorunur, – mülkiyyəti kimi qorunur. Üzdə isə vətənpərvərlik, xalqsevərlik təbliğ olunur. Beləliklə, məlum olur ki, çağdaş dövlət quruluşu antixəlqi mahiyyətlidir.

Biz hansı mövzuya müraciət eləsək də, Asif Atanın ruhani dövlət ideyasının zəruriliyinə gəlib çıxırıq. Dövlət xalq yaratmalıdır, yəni dövlət ruhaniləşməlidir (dinləşməli deyil, dinlə ruhaniyyat ayrı məzmun daşıyır). Torpaq o vaxt vətəndir ki, orada yaşayan insan ulusal dəyərlər yaradır və xalqın həyatı bu dəyərlər əsasında aliləşir. Bir misal göstərək: bu gün Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş və keçməmiş mindən çox dini, missioner təşkilatlar fəaliyyət göstərir. Hər biri ədalətin adından danışır, humanizmdən danışır. Adamları özlərinə cəlb eləmək üçün onların yoxsulluğundan istifadə edərək pul verirlər və bundan da yaxşı maddi təminat vəd edirlər. Sonra məlum olur ki, bu təşkilatlar əhalini daxildən kiçik qruplara bölürlər. İstənilən vaxt daxildə qarşıdurma yaratmaq üçün zəmin hazırlayırlar. Öncə ruhaniyyat adından danışırlar, dini rituallar öyrədirlər, sonra isə hansı dövləti təmsil edirlərsə, o dövlətin xilaskarlığını təlqin edirlər: “Bizim arxamızda filan dövlət durur, yardım edir və s.” Bir ölkənin içində qruplara bölünmüş xalq ayrı-ayrı dövlətlərin mənafeyi uğrunda bir-biriylə mübarizə aparır. Çünki öz mənafeyi yoxdur, mövqeyi bəlli deyil. Çünki öz yurdunda qorumalı





olduğu dəyər yoxdur, nəyin ətrafında birləşmək, xalq olmaq, vətən olmaq meyarı yoxdur. Özümlük uğrunda mübarizə aparmaq amacı özgəçiliyə meyil vasitəsilə sarsıdılır. Yoxsulluq girdabına salınan əhali qıraq qüvvələri öz məişətinin Allahı kimi qəbul edir. Beləcə, kosmopolitizm ruhsuzluğu xalqın içinə müqavimətsiz yeriyir və vətənsizlik yaradır. Eləcə də beynəlmiləlçilik oyunları, millətçiliyi arxaik bir hadisə kimi gözdən salır. Vətən uğrunda döyüşmək əslində Ulusal dəyərlər uğrunda döyüşməkdir. Nə qədər ki, Ulusal dəyərlərin yiyələri yaranmır, Vətən uğrunda döyüş baş tutmayacaq. Ayrı-ayrı vaxtlarda döyüşə məcbur etmələr vətən qura bilməz.

Biz fikirlərimizi Azərbaycan üzərində izah etsək də, bu prinsiplər əslində hər bir zəif, yaxud zəifləşdirilmiş xalq üçün doğrudur. Deməli, dövlətin ruhaniləşməsi əslində xalqın qurulması və Vətənin qorunması anlamı daşıyır. Xalqın qurulması isə insan azadlığı, müstəqilliyi ilə bağlı olan hadisədir. Bir daha vurğulayaq ki, İnsan Azadlığı “demokratik azadlıq” anlayışı ilə eyni deyil. Demokratiya insanın daxildən böyüyərək Fərdləşməsinə, İnsanlaşmasına əsaslanmır, – insanı özbaşınalığa yönəltməklə onu sürüləşdirir.

Dövlətin ruhaniləşməsi – onu pulçudan, dinçidən alıb, insana tapşırmaqdır (oxu: Asif Ata – “İdeal” əsəri). Nə qədər ki, dövlət ruhani-insani qanunlarla deyil, siyasi-dini qanunlarla idarə olunacaq, insanla dövlət arasında doğmalıq olmayacaq, ziddiyyət aradan qalxmayacaq. Ruhsuzluğa xidmət edən dövlət ictimai inkişafı ləngitməkdə davam edəcək.

## İnamçılıq Tələbi

Biz cəmiyyətdə hər cür çatışmazlığı görüb-göstərməyə çalışırıq və dilə gətiririk. Fəqət cəmiyyəti öz çatışmazlığı ilə baş-başa qoymaq istəyində deyilik. Cəmiyyətə Mütləqə İnam baxışı əsasında yeni yön vermək, onu daxildən dəyişmək əməlinə başlamışıq. Əlbəttə, bu deyim cəmiyyətin özü üçün quru, mücərrəd görünə bilər və bu istəyə düşənlər gerçəkliyi yaxşı bilməyən, ümumi psixologiyaya bələd olmayan, siyasi həyatdan başı çıxmayan həvəskarlar adlandırıla bilər. Biz də cəmiyyətin özünü dərk eləməyən, Mənanı bilməyən, İnama yad, İnsana yad, xurafata bel bağlayan, siyasi fatalizmə pənah aparan bir səviyyədə yaşadığını görürük və deyirik. Cəmiyyətin halı – onu qurmağa qarşıdır.

Buna baxmayaraq, biz cəmiyyətlə qarşılıqlı ittihamlara yol verib onun səviyyəsində qalmağı doğru saymırıq. İnsan adlı, xalq adlı idealımızı yetirərək, taleyimizi ona xidmət göstərmək yönündə qurmaqdayıq. Asif Ata Mütləqə İnam Ocağını yaradanda zahirən onun üçün heç bir zərurət, heç bir ehtiyac yox idi. Din ictimai həyatda elə bir təsirə malik deyildi. Belə olan halda dinçiliklə mübarizə, İnam yaratmaq nə üçün idi?! Elə buna görədir ki, kommunist rejiminin Asif Ataya vurduğu damğalardan biri Klerikalist damğası idi. Onlar elə bilirdilər ki, Asif Ata yeni din yaradır. Əslində o, yeni İnam yaradır. O, yaxşı bilirdi ki, din zahirən yoxdur, əslində isə o, ləğv olunmayıb. Dini yalnız İnam aradan qaldıra bilər. Heç bir partiya proqramıyla, ideologiyasıyla insanların daxilində inam ehtiyacını əvəz eləmək mümkün deyil. Əsil inam olmadığı üçün də insanın daxilində dinə (İnamın təhrif olunmuş səviyyəsinə) meyil qalır. Asif Ata mənaçıydı və bunları olduğu kimi dərk edirdi. Başqa tərəfdən, Asif Ata həm də ateizmlə döyüşürdü. Ateizm Mütləqsizlik, Mənasızlıq, İnsansızlıq deməkdir. Asif Atanın yaşadığı dövrün səviyyəsi İnam yaranışına hazır deyildi, elə indi də hazır deyil. Onda bir cür inamsızlıq hökm sürürdü, indi başqa cür. Onda Azərbaycan əxlaqca, mədəniyyətcə, məişətcə milli özümlüyündən ayrılıb ruslaşmaya doğru gedirdi, indi azərbaycanlılar avropalılardan “mədəni” davranmaq öyrənirlər. Bu “mədəniləşənlər”in içində Vətənə sevgi yoxa çıxır. Özümlü insan ölür, “inqubator insan”ı yaranır. Belə bir şəraitdə isə inamdan danışmaq, əlbəttə, onların tərəfindən gerilik, köhnəlik kimi qarşılanır. Görəsən biz İnamçılar bu cəmiyyətdə kimin xoşuna gələ bilərik? Cəmiyyət dinçi-ərəbçidir. Gündə göbələk kimi məscidlər artır. Bu məscidlərdə insanlara Azərbaycan ruhu, türk ruhu öyrədilmir, ərəbçilik öyrədilir, ərəbin böyüklərinə pərəstiş öyrədilir, ərəb torpaqlarına ziyarətli münasibət halı yaradılır. Bu əməlləri həyata keçirən yerli özgəçilər pul alırlar, dolanırlar, qazanırlar. İndi hər bir məscidin baş mollası pulçudur. Bunların ətrafına yığışanlar İnamçıları kafir adlandırırlar. İnamçılıq-İnsançılıq-Türkçülük baxışı onlar üçün rəqibdir. Onlar bizə ərəb tərbiyəsi öyrətməyi müqəddəs bir əməl sayırlar. Guya ərəb “tərbiyəsi” olmasaydı, türk əxlaqsız olardı, əliəyri, oğru, zina olardı. Əksinə, ərəb “tərbiyəsi” gələndən türkdə bu deyilən xüsusiyyətlər artıb. Tarix boyu cəmiyyətdə molla – əyrilik, oğruluq, zinalıq simvolu kimi müşahidə edilməyibmi?! Sonra cəmiyyətdə Qərbçilik, Avropaçılıq tərbiyəsizliyi, əxlaqsızlığı hökm sürür. İnamçılar ardıcıl olaraq Qərbçilik, Avropaçılıq





hədyanlığına qarşıdır. Belə olan halda İnamçılar bu təsirdə olanların xoşlarına gələ bilərmi?! Deməli, İnam üçün cəmiyyətin indiki halında heç bir münbit şərait yoxdur. Bu səbəbdən də xalqın yaranması ayrı-ayrı fərdlərin, təkcələrin işidir. Onların ləyaqətlərinin bütövlüyü gərəkdir. Xalq – İnsanilik hadisəsidir. Ayrı-ayrı fərdlərin insanilik səviyyəsinə yüksəlməsi xalqın hal-hal qurulması deməkdir. Döyüşkənlik, mübarizlik, özündənkeçmə, hünər, qeyrət, vicdan – xalqın özümləşməsi, qurulması üçün gərək olan keyfiyyətlərdir. İnam bu keyfiyyətləri insanda aşkarlayır və xəlqi quruculuğa yönəldir!

## DİN – İNAM

### I

Əlinə götürdüyün kitab sənə nə deyir?! Məsələn, "Quran". "Quran"ı açan kimi deyir, bəndələş, onda Allah sənə mərhəmət göstərəcək, dünya yaxşı olacaq. Ancaq sən bəndələşdikcə, dünya ləğv olunur. Durub gözəl dünyanı transsendentalda axtarırsan, ayrı yerdə. Ona da çatmırsan. Ancaq "Mütləqə İnam"ı əlinə alırsan, o saat gözlərinin içinə baxıb deyir "İnsanlaş!" Sənin insanlaşmaqdan başqa çıxış yolun yoxdur. Sən insanlaşsan, dünya dünyalaşacaq, həyat həyatlaşacaq, təbiət təbiətləşəcək. Hər şey özünə bənzəyəcək. Çəməndə çiçəklər gözəl olduğu kimi, dünyadakılar gözəl əlvanlığa çevriləcək.

Ona görə əlinə kitab alanda onun tələblərinə qarşı diqqətli ol. Onu əlin götürüb sinənə sıxmasın, idrakın götürüb ürəyinə təqdim eləsin. Asif Atanın bütün kitablarını ürəyə təqdim eləmək mümkündür. O kitablar ürəyi aldatmayacaq, böyüdəcək, inam verəcək, sevgi öyrədəcək. Asif Atanın kitabları öz millətinin (bütövlükdə insanlığın) ürəyinə xof və qisas doldurmur, azadlıq və səadət fərəhi doldurur. Biz Asif Atanın harayıyla böyümüşük. Biz azadlıq və səadət harayçılarıyıq. Böyük Yolumuzda başqa millətlər üçün əngəllər yaratmamışıq, yön vermişik. Hər kəsin özünə, özümlüyünə doğru getməsi üçün sevgi və inam mayakları yandırmışıq. Ürəyimizi gələcəyin yollarında ruhani kompas edəcəklər. Buna mütləq əminliyimiz var.

*xxx*

Asif Atanın məqsədi ayrı-ayrı adamları insanlaşdırıb başqalarına nümunə göstərməkdən ibarət deyil. Əgər belə məqsədlə dünyabaxış yaratmaq mümkün olsaydı, onda dünyabaxış adi bir şey olardı və buna əmək verməyə dəyməzdi.





Ayrı-ayrı adamlar insanlaşa bilirlər və ölüb gedəndən sonra ya onlardan tarix qalır, ya da ülvi xatirələr. Dünyabaxışın məqsədi odur ki, insanlıq dünyalaşsın, dünya insani mühitə çevrilsin. Bu səbəbdən də Asif Ata istəyir ki, Allahla insan arasındakı Yerlə Göy qədər məsafəni aradan qaldırsın. İnsan Allah məzmununu (əslində insanilik həqiqətini) öz içində aşkarlasın və bunu özünün həyat nizamına çevirsin. Hətta bütövlükdə həyatın nizamına çevirsin. Din insanı insanilik həqiqətindən məhrum edir. Dində insan Allahı göylərdə qoruyur, göylərdə sevir, göylərdə inanır. Deyir, sən idealsan, əlçatmazsan, sən hər şeysən, ancaq mən Yerdə heç nəyəm, mən gücsüz, günahkar bəndəyəm. Səni tanıyıram, sevirəm, qəbul eləyirəm ki, məndən mərhəmətini əsirgəməyəsən. Sən qadirsən, mən qadirsizəm. Mən sənin mərhəmətindən, səxavətindən asılıyam. Bu münasibət dilənçi ilə imkanlı arasındakı münasibətə bənzəyir. Dində insan nəinki özünü aşağılayır, Allahlıq məzmununu da adiləşdirir, aşağılayır. Bax, bu təzad, bu məsafə dünyanı əbədiyyət üfüqləri kimi deyil, əyilmiş, kiçilmiş insan məkanı kimi tanıdır və elə bu cür qalmasını da təmin edir.

Asif Atanın Dünyabaxışı bu məsafəni aradan qaldırır, mücərrəd göylər səltənətinin sahibini rədd edir, insanı Əzəli, Əbədi, Kamil, Sonsuz Məna ilə üz-üzə gətirir və insan ömrünün Məna ilə dolmasını – özümləşməsini təmin edir. Əslində dünyanın əsilləşməsini qurur. Dünya-İnsan münasibətinə yeni ahəng gətirir. Buna görə də deyir ki, din aradan getməlidir. Nə qədər ki, din qalır, İnsanla Allah təzadı dünyanı mənasızlaşdırır və fani saxlayır. Deməli, İnsana münasibət kökündən dəyişməlidir, ona ali inam yaranmalı, onun dünyayla birliyinin dərk olunması Dünyabaxışa çevrilməlidir. Ömürlər, düşüncələr bu dünyabaxışla qurulmalıdır. İnsan Dinin yaratdığı Allah-İnsan təzadında boğulmamalıdır. Allahın böyüklüyü (bu böyüklük nədən ibarətdir?), insanın isə balacalığı, bəndəliyi, əslində heçliyi prinsipə çevrilib. Mütləqə İnam İnsanı ali, ruhani xilqət sayır, onun dünyanı dəyişmək, gözəlləşdirmək imkanına inanır və bu inama üz tutmağa çağırır. Bu inamın üzərində haray çəkir.

Yeni doğulanları din deyil, İnam tərbiyə eləməlidir. Ata-ana övladına dini deyil, İnamı verməlidir. İnsanın gen yaddaşı dinin əliylə deyil, İnamın əliylə yoğrulmalıdır. Mühit – İnsanın dəyişib İnam xislətli olmasıyla dəyişməlidir. Dinin əsas prinsipi Allah-İnsan münasibətində bütün üstünlükləri Allaha verərək insanı kiçiltməkdən ibarətdir. Din insanın kiçikliyini qoruyur. Ona görə Asif Ata deyir, din getməlidir. Asif Atanın Mütləqə İnam üzərində çəkdiyi Peyğəmbər harayı – Yeni İnsanilik Erasının gəlişidir!

## II

Politeizmdən monoteizmə keçid bəşəriyyətə nə verdi? Əvvəl Allah "beş" idi, indi birdir – bu, nəyi dəyişdirir? Əgər Allahlıq məzmunu dəyişmirsə, təkallahlıq nə üçündür? Məsələn, Zevslə Məhəmmədin Allahı arasında xüsusi fərq yoxdur. Poseydon, Hefest, Apollon… Zevsə tabe idilər, Cəbrayıl, Əzrayıl, Mikayıl, Rizvan… Məhəmmədin allahına. Poseydonlar ikinci dərəcəli allah idilər, mikayıllar isə mələk. Zevs yunanca danışır, yunanca düşünürdü, Məhəmmədin allahı ərəbcə. Zevsin ətrafının adı yunancadır, Mələklərin hamısının adı ərəbcə…

***xxx***

Mifik təfəkkürlə dini təfəkkürün fərqi bəşəriyyəti neçə addım qabağa apardı? Bu qabağa aparma bəşərin idraki özünütəsdiqinə hansı töhfəni verdi? Cənnət həvəsiylə namaz qılmaq ibtidai dinlərin xurafatından heç nə ilə fərqlənmir.

***xxx***

Din insanların etiqad göstərmələrini onların qarşısında məcburi vəzifə kimi qoyur. Ona görə də qorxu, şirnikdirmə vasitələrindən istifadə edir. Çünki vəzifə zorakı qaydada icra etdirilir. Vəzifə elə bir asılılıqdır ki, insan onu könüllü daşımır. İnsanın könlünə daxil olmayan etiqad yaşanmır, zorən sürüdülən vəzifəyə çevrilir.





***xxx***

Din insanın sevgisini qazanmayıb, onun həyatına zorla soxulub. Ona görə də insanın üzərində Allah xofu yaradıb. Allah xofu insanın ideala olan sevgisini əvəz edib. Mütləqə İnam insanın ideala olan sevgisini özünə qaytarmaq üçün yaranıb. Bu məqsədin gerçəkləşməsi üçün Allahı insanın başının üstündən düşürmək, onun ali məzmununu insanın içində yaşatmaq gərək.

***xxx***

Hər bir sadə insanın daxili dərinliklərində bir etiqad nöqtəsi var. Bu nöqtədə insan hansısa bir dünyagörüşə (dinə) bağlıdır. Məsələn, müsəlman həmin nöqtədə İslama bağlıdır. Ona görə müsəlmana İslamla bağlı tənqidi fikir söylədikdə, dinlədiyi fikirlərin onu həmin nöqtədən qoparacağını düşünür və hər vasitə ilə müdafiə eləməyə çalışır. Ömründə ciddi məşğul olmadığı, bilmədiyi bir sahəni öz arzularına uyğunlaşdıraraq müdafiə edir. Bu ona görə baş verir ki, insanlarda yalnız etiqad ehkamlaşmayıb, xarakter də ehkamlaşıb. Xarakterini də dəyişmək istəmir. Ciddi ağıl işlətmək, xeyiri, şəri tanımaq yönündən zəhmət çəkmək istəmir. Kütlülüyə alışıb, alışdırılıb. İctimai tərəqqi əslində insanların kütlülüyə (avamlığa) qarşı etirazından başlaya bilər.

***xxx***

Həyatı psixoloji, etik, mənəvi cəhətdən kütlə nizamlayır. Elmli, intellektual adamlar kütlə "nizamı"na toxunmurlar. Ona görə də elmin imkanları kapitalizm "quruculuğu"na həsr olunur. İntellektual zümrə kütlə etiqadına qoşulur, onun həyat tərzinin bəsitliyi ilə barışır, heç nəyi dəyişmək istəmir. Kütlənin "nizamı" ilə formalaşan həyat sistemi onun (kütlənin) özünün siyasi idarə olunmasını asanlaşdırır. İdarə edənlə idarə olunan arasında ictimai, sosial fərqlər böyüyərək ziddiyyətlərə gəlib çıxır. Bu isə çox vaxt inqilabla sonuclanır. Ancaq inqilab da həyatın kütlə tərəfindən "nizamı"nı aradan qaldırmır, sadəcə ona yeni görüntülər gətirir. Bu, şüurun xurafata bağlı olmasından irəli gəlir. Ümumiyyətlə, şüurun xurafata bağlı olması siyasi anarxiyaya hər zaman təkan verir.

***xxx***

İnsan ali məqsədlər üçün doğulur. Ancaq o, bu ali məqsədləri həyata keçirmək üçün yenidən yaranmalıdır (özünü dəyişməlidir). Təbii vəziyyətində insandan ali dəyərlər daşıyıcısı olmaq istənilsə, o bunu bacarmaz. Təbiət ali dəyər daşıyıcısı yaratmır, özünü (təbiəti) ifadə hadisəsi (biologiya) yaradır. Ali məqsəd insanın mənasından gəlir və həyatın təbiət axarını dəyişir. Dəyişməsəydi, həyat təbiətə bərabər olardı və ölərdi.

***xxx***

Mütləqə İnam güclü zəhmət tələb edir. Ocağa gəlmək fərdi məsuliyyətli və zəhmətkeş böyüdür – özünüyaratma məsuliyyəti, özünə yetmə zəhməti.

Prinsip belədir: Ocağa gəlirəm və başlayıram imtinaya, fədakarlığa, anlamağa, bilməyə, çağırmağa – şəxsiyyət kimi qurulmağa!





## DİN İNAMSIZLIĞI

Qiyamət Günü – Allaha inamsızlıqdır. Din dünyanın düzələcəyinə, insanın kamilləşəcəyinə, hətta özünün iddia elədiyi kimi, Allahın peyğəmbərlərə göndərdiyi kitablarla insanı düzəldə biləcəyinə şübhə edir. Əgər Qiyamət mütləq qopacaqsa, deməli, insan düzəlməyəcək. İnsan düzəlsəydi, Qiyamət qoparılmazdı. Deməli, bəri başdan insanın düzəlməyəcəyi bəllidir ki, Qiyamətin qopması ilə bağlı hökm verilib.

***xxx***

İnsan cənnətə çağırılır. Yəni doğub-törəmə dayanmalıdır. Cənnət qüsursuzluq məkanı sayılır. Orada doğub-törəmə olarsa, deməli, nöqsanlar da olacaq. Çünki insan kamil doğulmur. O, böyüdükcə təmizlənməlidir. Cənnətdə isə hazır təmizlər var, təmizlənmə prosesi yoxdur. Doğub-törəmə dayanacaqsa, planetimizin işi başa çatır. Çünki dinin iddiasına görə planetimiz qüsurluların bura göndərilməsi üçün düşünülmüşdür. "Günaha batmış" Adəm və Həvvanın doğub-törəməsi Qiyamətlə başa çatırsa, cənnətdə də doğub-törəmə mövcud deyilsə, deməli, planetimiz ləğv olunmalıdır. Əks halda, onun funksiyası nə olacaq?! Bəllidir ki, bir planet başqa planetlərlə qarşılıqlı tarazlığa girib. Əgər biri ləğv olursa, o birilər də ləğv olunur. Əslində burada Qalaktikanın ləğvi ortalığa gəlir. Bəs görəsən "o biri dünya" hansı planetdədir?! Bəs "o biri dünya" ləğv olunmaqdan necə qurtara biləcək?! Bu planet hansı planetlərlə tarazlığa qoşulub?! Elmə qarşı ziddiyyətlər… Bəşəriyyət bu gün də bu xülya ilə yaşayır. Burada elm məsxərəyə qoyulur. Buna dözən adamlar isə alim adı daşıyırlar. Kütlə haytasından qorxanlar C.Bruno kimi olmaq istəmirlər.

***xxx***

“O biri dünya”nı uydurmaq, yaxud arzulamaq, görəsən, yaşadığımız dünyada məna-məzmun tapmamağın nəticəsidir, yoxsa gözəl dünya istəməyin təzahürüdür?!

Əslində gözəl dünya arzulamaqla olmur, onu yaratmaq gərəkdir. Dinin “o biri dünya”sı gözəl dünya yaratmaq tərbiyəsini nəzərdə tutmur. Din insanın gözəl dünya yaratmasını nəzərdə tuta bilməz. Dinin məntiqinə görə insan nə karədir ki, gözəl dünya yarada. Din üçün gözəl dünya Allahın yaratdığı “o biri dünya”dır. Yəni ağlın işləmədiyi, kəsmədiyi, götürə və anlaya bilmədiyi fantastik, xülyəvi dünya. Allah insana yaşadığı dünyanı gözəlləşdirmək əmri vermir, Allaha “gözəl” nökər olmaq əmri verir. Çünki Allah insana “keçid mərhələsi” kimi, “sınaq meydanı” kimi yaratdığı bu dünyanı düzəltmək, yenidən işləmək, gözəlləşdirmək imkanı və ixtiyarı verməyib. “Allahın işinə qarışmaq olmaz!”

Əslində isə gözəl dünya yaratmaq Allahın deyil, İnsanın işidir. Yəni yaradılmayan, Əzəli, Əbədi olan dünyanı insan gözəlləşdirməlidir. İnsan dünyanı yaratmır, onun gözəlliyini yaradır – özünü yaratmaqla, dünyaya insani münasibət bəsləməklə!





## HƏQİQƏTLƏR

### I

Biz insandan kənarda inam mənbəyi tapıb insanların sevgisini ona yönəltmirik. İnamı insanın özünə bağlamaqla onun özünü yaratmasına və öz mahiyyətinə uyğun yaşamasına çalışır, bununla da həyata yeni hal, yeni ahəng gətirməsinə yol açırıq. Bu yolda insan əbədi, ölməz dəyərlərə üz tutaraq gerçəklikdə müqəddəsliyin yaşamasını təmin edir.

***xxx***

Asif Atanın “Qutsal Bitiqlər”i insanı fövqəltəbii, transsendental qüvvələrə itaət göstərməyə deyil, Mütləqi özündə axtarmağa, tapmağa, sevməyə və yaşatmağa çağırır.

İnsan Mütləqə itaət eləmir, Onunla vəhdətə yetir və yaşayır. Başqa sözlə, var olur.

Qutsal Bitiqlər İnamın Bitiqləridir, dinlərin kitablarından alidir, yüksəkdir. Dində insan Allaha itaət göstərə-göstərə qeyri-müəyyən aqibətə düçar olur, əslində boşluğa düşür. Özünü tapmayan insan özgəlik boşluğunda yaşayır.

***xxx***

Əski peyğəmbərlərin verdikləri mistik ideyalar gerçəkliyi pozuntulardan, qarışıqlıqlardan xilas eləyə bilmədi. Başqa sözlə, idealın xeyrinə dəyişiklik yaranmadı. Toplum ona təqdim olunan ideyaları öz həyat gedişinə uyğunlaşdırdı. Çünki toplumun çağırıldığı yön, ideal ötəri, keçici keyfiyyətlərdən ibarət idi. Toplumun yaşatdığı naqis cəhətlər ona təqdim olunan idealda da öz əksini tapırdı. Bu ideal Allah adlandırılmışdı. Allah – panteizmin, dualizmin, antropomorfizmin ayrı-ayrı elementləri ilə rənglənmiş bir təxəyyül subyektidir.

Bunları deməkdə məqsəd diqqəti Asif Ata Peyğəmbərliyinin yeni məzmununa cəlb eləməkdir. Asif Ata mücərrəd göylərin elçisi deyil, O, Dünyalığı, İnsanlığı Allahdan yüksəkdə görür. Özü də yaratdığı İdealla iç-içə, vəhdətdə yaşayır.

***xxx***

Asif Ata Ruhani Qurumun biçimini düşünüb: ilk öncə Ruhani Evladlarını öz aralarındakı münasibətləri qurmağa çağırır – "Atalılar münasibəti". Eləcə də Ata ilə Evlad arasında münasibəti dəqiqləşdirir – "Günah fəlakəti" kəlamı ("Sədaqət" kitabında). Evladın Ataya ruhani tabeliyi böyük ləyaqət kimi dəyərləndirilir. Bunun üçün Ata öz ömrünü Mütləqə layiq şəkildə yaradır. "Qüsurlu Ataya tabe olun" demir. Qüsurlu Ata olmur, Atalıq – qüsursuzluq deməkdir. "Atayla Görüş mütləqiliyi"ndə ("Sədaqət" kitabında) bu məsələ aydınlaşır.

**II**

Ürək ali arzularla dolmayanda İdrak gözəl şeylər düşünə bilmir.

***xxx***

Hər kəsin içində mənadan gələn bir reaksiya var – pisi yaxşı kimi sırısalar da, qəbul edə bilmir.

***xxx***

"İnsan daxilində Mütləq gəzdirir" – buna inanmayanda poeziya xurafata bənzəyir.

***xxx***

Poetik gözəllik ürəyin hökmü ilə yaranır, ürəyin sirlər diyarı olduğunu izhar edir.

***xxx***

Şeir həyatda məna tapmayanda təbiətə üz tutur, təbiətdən ilhamlanır.

Sevmək istəyir, sevgili axtarır, cəmiyyətdə tapmayanda təbiətə üz tutur.

Ədalət istəyəndə Allahı axtarır. Allah isə Yer üzünü tərk edib. Buna görə də ürəklər yaratmaq gərəkdir – dostluğa layiq olsun, vicdan səltənətinə bənzəsin. Könüllər tellənsin, nəğməyə çevrilsin ümidlər.





***xxx***

Adam sənət vasitəsilə həyatda gözəllik yarada bilmir, özü üçün şöhrət yaradır. Millətdə var olmaq əvəzinə şöhrətdə var olmaq. Milləti fərdin şöhrəti yaşada bilməz, ancaq gözəllik yaradanı millət yaşadır.

***xxx***

Ziyalılıq – maarifçilik mühiti yaratmalıdır. Yəni fərd yaranmalıdır və insani mühit yaratmalıdır.

***xxx***

Özüylədoluluq – insanla ünsiyyətə ehtiyac yaradır. İnsan özüylə dolmalıdır, həyata fayda kimi baxmamalıdır. İnsanın içi ruhani istehkama çevrilməlidir. Onda xalq var olacaq.

***xxx***

İnsan arzularını səhnələşdirir.

Peyğəmbər hər şeyi öz yerinə qoymalıdır ki, həyat səhnələşməsin.

Sənət yardımçıdır, peyğəmbər harayı qurucu.

Peyğəmbər olmasa, sənət "ədəbiyyat yaşasın, insan özü bilər" deyəcək.

Peyğəmbərlik divardır, sənət suvaq.

Yazıçı, şair evin içindəkilərə (divarın arasında olanlara) çıraq tutmalıdır. İnsanı inandırmalıdır ki, peyğəmbərin dediyi sənin xilasındır. Söhbət dini xurafatı sırımaqdan deyil, həqiqəti çatdırmaqdan gedir.

## İNSAN YÖNÜ

İnstinktlər mənəviyyat və idrak üzərində hakim olanda, adamların xudbinlik, qısqanclıq, dünyagirlik və b.k. duyğuları güclü olur.

İnstinktlər insanı təbii varlığa çevirir, yəni cismaniliyə bağlayır. Onların rolunu minimuma endirmədən ömürdə ruhani xisləti təsdiq eləmək olmur. İnstinktləri mütləq heçə çevirmək mümkün deyil, çünki bioloji mövcudluq bunun əleyhinədir. Ancaq onların hakim təsirə malik olmasını ləğv eləmək mümkündür.

Özüylədöyüş – əslində instinktlərin hakim təsirindən azad olmaqdır.

***xxx***

Cəmiyyət məsləhət aldığı mənbələrin mənşəyinə görə təbəqələrə bölünür. Məsələn, hökmdar məsləhəti hakimiyyətin mənafelərindən alır; tacir məsləhəti mənfəətindən alır; dindar məsləhəti xurafatdan alır... Bu təbəqələr arasındakı uyğunsuzluq (disharmoniya), yadlıq, münasibətlərdə oyunlara səbəb olur, ümumi əhvalda daim xaos və anarxiya yaradır. Ona görə mühitin ruhani sağlamlığını bərpa eləmək, daha doğrusu, yaratmaq – qlobal dəyişikliklər tələb eləyir.

***xxx***

İki adamı özündə yaşadan (yəni ikiüzlü adam) bicliyin, fəndgirliyin mükəmməl bilicisi olur. (Xarakterindəki) Adamın biri ilə görüntü yaradır (gizlənir), o birisi ilə əməlini ortaya qoyur, niyyətlərini həyata keçirir.

***xxx***

Adamlar günahsız insanı sevmirlər. Çünki günahsızlıq uzaqlıqdır. Adam üçün əlçatmaz olan günahsızlıq bilinmir, dərk olunmur. Günahsızın Adamla ortaqlığı yoxdur, heç nə onları bir-birinə bağlamır.

***xxx***

Tacir hakimiyyətə gəlir, dəllal hakimiyyətə gəlir, zorlu hakimiyyətə gəlir. Bununla da hakimiyyətdə idarəçilik əvəzinə fırıldaqçılıqla başqatmalar formalaşır. Hakimiyyətdə ikiüzlülər, qorxaqlar, zalımlar oturuşduqca cəmiyyət böyük anarxiya dalğalarında boğulmağa başlayır.





Demokratiyanın ağzı köpükləndikcə böyük həşirlər qoparır. Bu həşirlər xalqların milli nizamını büsbütün alt-üst edir.

***xxx***

İstedad, bacarıq, güclülük yaxşı şey olduğu halda, bəzən Adamda pis cəhətlərin yaşamasına yardımçı olur. Məsələn, xudbinlik duyğusunun, xudpəsəndliyin, varidatsevərliyin, şöhrətsevərliyin... inkişafına səbəb ola bilir. Yaxşı şey pis şey doğurur (bu, özünə yiyəsizliyin təzahürüdür). Yaxşı keyfiyyətlər – istedad, bacarıq, güclülük Adamı başqalarına yaxşı göstərir. Halbuki Adamın yaşamı pis cəhətlərin tabeliyində olur. Və onun yaşamı ilə cəmiyyətdə də pozuntular əmələ gəlir. Pis cəhətlər yaxşı keyfiyyətlərin arxasında Adamın yaşamına pozucu bir əhvalla hökm edir. Sonra bunun məntiqi izahı yaranır, fəlsəfəsi yaranır. Deməli, bioloji təsirin Adam üzərində çox güclü təsirə malik olduğu üzə çıxır. Bunu bir nizam, doğru bir ahəng hesab eləyən nəzəriyyələr mövcuddur. İnsanı "təbii nizamın" tabeliyinə çağırırlar. Ancaq zaman – yaşamın gedişatı göstərir ki, insan "təbii nizamın" içində var olmur, əksinə, heyvana qarışır və həyat gözəl münasibətlər üçün cəhənnəmə dönür.

Bəs nə etməli?! – Biz deyirik ki, ruhaniyyat yaranmalıdır. Ancaq Ruhaniyyat elə-belə yaranmır. Pozulmuş gedişatın içində ruhaniyyat tələb eləmək, gələcəyi adi ağıla bəlli olmayan, sonu bilinməyən, dərk olunmayan bir prosesdir. Minbir əzab-əziyyətlə, yaranması yaradanlara faciəvi tale vəd eləyən bu prosesə kim ömür verər ki?! Verənlər tapılmalıdır! (Məhrumiyyətlər bahasına olsa belə).

"Təbii nizam"da insan heyvanda itir, var olmur. Ruhaniyyat isə onu yenidən yaradır və yaşamın məzmunsuz qısa gedişi üzərinə qaldıraraq ölməzliyə çatdırır.

Ali yaşayan ölməzliyə daxil olur, – bunu fəlsəfə məndən daha gözəl söyləyə bilir.

## GERÇƏKLİKDƏN ÜSTÜN

Tale şəraitlə, cəmiyyətlə birləşib cilovunu əlimizdən dartır. Dartınır, əlimizdən çıxmağa çalışır. Biz də taleyin cilovunu əlimizdə tutub onu da yenirik, cəmiyyəti də, şəraiti də. Bu, Ruhani aqibət deməkdir. Biz Söz əhliyik. Sözümüzün kəsəri aqibətimizin yiyəsi olmağımız deməkdir. Sənin sənə tabe olan taleyin varsa, sözünün kəsəri var. Tale sənə tabe deyilsə, sözünün kəsəri yoxdur.

Cəmiyyətdə söz var, sözün kəsəri yoxdur. Cəmiyyətdə tale yoxdur, talesizlik var. Cəmiyyətdə aqibəti zahiri söz yaradır, bizdə ali sözü aqibət yaradır. Ona görə cəmiyyətdə aqibət adi yaşama bərabərdir. Bizdə aqibət həyatın mənasına bərabərdir. Ömürdən gəlməyən söz siyasətdən gəlir. Siyasətdən gələn söz həm də dindən gəlir. Yəni din də sözü siyasətləşdirir. Ömürdən gəlməyən Söz inam yaratmır, din yaradır, siyasət yaradır. Ömürdən, yəni ömrün mənasından. Ömrün mənası da insanilikdir. İnsanilikdən gəlməyən söz Amal yaratmaz. Sözün ülviyyətini onun hardan deyilməsi müəyyən edir. Başqa sözlə, Sözün təməlində ömrün mənası duranda onun meyarı Mütləq olur. Onda söz ömrün doğması olur. Başqa mənada söz ömrün istehzası olur. Siyasətdən gələn söz ən çox ömrün istehzası olur – ömrün özünə istehzası. Ömür dinə tapınanda aldanır – Yalanla özünə istehza edir. Ömrün özünə istehzası həyatın iflasıdır. Bu səbəbdən də həyatın müqəddəsləşməsi, ülviləşməsi ömrün özümləşməsindən başlayır. Nəzəriyyələr Özünüdərkdən danışırlar. Deyirik, ən böyük özünüdərk ömrü dindən, siyasətdən ayırmaqdır. Çünki dində və siyasətdə yalan var. Yalan əsasında özünüdərk uydurmadır.

Kommunizmin "özünüdərk"i ömürdən imtina deməkdir. Çünki ömrün yönü insaniliyə, mənaya doğru deyil, istehsalata, yalançı güzəran səadətinə doğrudur. Bu səbəbdən də "özünüdərk" sözü hələ indiyə qədər ictimai gedişatda öz mənasında deyilməyib. "Özünüdərk" sözü aldatmaq üçün işlənib. Dinə görə özünüdərk bəndələşməkdir. Bəndələşməmək küfrdür. Çünki bəndələşməkdən qıraqda dinə çoxsaylı suallar verilir. Bunu isə cavablandırmaq dinin yalanlarını üzə çıxarmaqdır. Əgər insan özünü dərk edirsə, o nəyə səcdə elədiyinin fərqinə varır. Səcdə – qana-





qana münasibət deməkdir. Dində isə Dünyanın, Allahın dərkolunmazlığı insanın qarşısına sipər kimi çəkilir.

Siyasətdə hər iki sözdən biri məkr və xəyanət törədir. Hər iki əməldən biri böhtan və rəzalətdir. İnsan özünü dərk eləsə, siyasəti rədd edər. Bu səbəbdən də siyasəti qorumaq üçün özünüdərk məsələsində siyasət işlədirlər. Ruhaniyyatda özünüdərk Mənaya qovuşmaqdır, yəni İnsanlaşmaqdır.

İnsan özünü dərk elədikcə, həyatın gözəlləşməsinə, dünyanın ülviləşməsinə çalışır. Əgər özünüdərk yoxdursa, onda kamillik adına deyilən sözlər riyadan başqa bir şey deyil. İnsan mahiyyətcə müqəddəsdir. Onun öz mahiyyətinə çatması yolunda maneələri tanımaq və imtina etmək gərəkdir. Ədalətli cəmiyyətin yaranması bunu tələb edir.

## FƏALİYYƏT MÜQƏDDƏSLİYİ

Ayrı-ayrı uğurlu təsirlərdən qıraqda, ictimai-siyasi proseslərin qalxması, enməsi baş verir. Bu proseslər də yeni qalxıb-enən fəaliyyətlərə stimul verir. Bu fəaliyyətlərin nəticəsində ictimai-siyasi proseslər davam edir. Nəticədə həyat gah qarışır, gah bu və ya başqa yöndə inkişaf edir. Lakin həyat böyük mənada dəyişmir. Mövcud proseslər və bu proseslərin yönəltdiyi fəaliyyətlər həyatı dəyişə bilməz. Həyatı dəyişmək üçün – həyatın təbii halına çevrilmiş ənənəvi proseslər kökündən dəyişilməlidir. Bu isə Ruhçuluq əməlinin meydana çıxması ilə başa gəlir. Ruhani fəaliyyət mövcud proseslərdən asılı olmadan yaranır. Yəni İnsan öz mahiyyətinə can atmalıdır. Bu halda fəaliyyət bütöv şəkildə tərəqqiyə xidmət edir. Ruhani fəaliyyəti fərd özü yaradır. Ruhani fəaliyyət heç bir fəaliyyətlə bağlı olmur, tam müstəqil olur. Ruhani fəaliyyət ictimai-siyasi proseslərdən yalnız nədəsə, hardasa istifadə edə bilər, amma ona qoşula bilməz. Ruhani fəaliyyət bütün fəaliyyətlərin fövqündə durur. Bütün növ fəaliyyətlər sonlu nəticə verir. Çünki ictimai-siyasi proseslərin tələb etdiyi fəaliyyət müəyyən bir nəticəni əldə edənə və yaxud məğlub olub dayanana qədərdir. Ruhani fəaliyyət isə fərdin, fərdlərin həyat tərzidir, ömrün qayəsidir. Hansısa taktiki bir məqsəd deyil. Ruhani fəaliyyətin hər anı özü nəticədir. Ruhani fəaliyyətdə ayrıca konkret nəticələr də meydana çıxır, lakin bu, məqsəd, qayə deyil. Ruhani fəaliyyətin istəyi odur ki, insan öz mənasına bərabər yaşasın. İnsan da ki beş günlük məsələ deyil, əbədi məsələdir. Deməli, bütün dövrlərdə insanın öz mənasına bərabər yaşaması üçün ruhani fəaliyyət ayaqdadır – tükənmir, qırılmır. Ruhani fəaliyyət ayrı-ayrı fəaliyyətlərə kömək edir, onları doğru yönəldir, qiymətləndirir. Belə ki, millətin sosial, mədəni problemləri ilə məşğul olan konkret bir fəaliyyət varsa və baxmayaraq ki, bu fəaliyyət ictimai-siyasi xətdə baş verir, Ruhaniyyat bunun insani mənasını önə çəkir və dəyərləndirir. Bu fəaliyyətlərin mayasında Ruhaniyyat olmasa, heç bir müsbət dirçəliş baş verə bilməz. Hər bir fəaliyyətə Ruhaniyyat, İnsanilik sirayət edəndə onun müsbət irəliləyişi baş verir. Əks təqdirdə fəaliyyət boşuna olur. Deyək ki, "Milli-mədəni problemlərin həlli". Bu





fəaliyyətin şüarçılıqdan ibarət olmaması üçün gərək Ruhaniyyatçılığa söykənsin, ondan bəhrələnsin.

Bizim Ocağımızın Ruhani fəaliyyəti var. Bəzən biz bu fəaliyyətimizdə təbii olaraq konkretləşirik. Məsələn, hər hansı milli məsələlərin qabardılmasında, bölgə məsələlərinin mühakiməsində, ictimai-sosial məsələlərin təhlilində və s. Lakin bununla belə, bizim ruhani fəaliyyətimizin qloballığı, başqa sözlə, bəşəriliyi öz əhəmiyyətini azaltmır, ən azı ifadə edir. Ocaq ümumbəşəri məsələdir. Onun fəaliyyəti də ümumbəşəri problemlərin həllinə köklənib. Bu tələbi Ocaq öz gerçəkliyində daim təsdiq eləməyə çalışır. Yük çox böyükdür. Bu yükü üzərinə tam götürməyə, bu tələbə layiq olmağa canatmalar da artır, inkişaf edir.

Millətin problemlərinin həlli bəşəri mənada təsdiq olunmayanda, o həll ötəri olur. Görüntü yaradan həll yox, təsdiq olunan həll gərəkdir!

# II QOVLUQ





## FƏLAKƏT DÜYÜNÜ

(L.N.Tolstoy – "Anna Karenina" əsəri üstə)

Tolstoyu oxumaq – həyatı yaşamaq kimi bir şeydir. Tolstoyun həqiqi oxucusu həyatını mütləq duymağa başlayır. Onun "Anna Karenina" əsəri bəşəri həyatın yığcam, məzmunca dolğun obrazının nümunəsidir. Burada həyat hadisələri o qədər zəngin çalarlarla ifadə olunmuşdur ki, oxuduqca adamda həyat eşqi oyanır. Bizim məqsədimiz Tolstoyun bu əsərinə ədəbi tənqid ölçüsüylə yanaşmaq deyil. Çünki Tolstoy bu ölçüdən yüksəkdə dayanır. Əslində Tolstoyun bir sıra əsərləri ədəbiyyat məsələsindən çox, ruhaniyyat məsələsidir. Tolstoyun axtarışları, kəşfləri də ruhani məzmundadır. Elə buna görə də o, bizim üçün sadəcə ədib, yazıçı deyil, mömin bir ruhaniyyatçıdır. Bu səbəbdən də biz yazıda onun ruhaniyyatçılığını araşdırıb öyrənmək istəyirik. Əsər boyu biz Tolstoyu insanlığın soraqçısı, hətta müjdəçisi kimi müşahidə edirik. Bu əsər Tolstoyun axtarışlar və tapıntılar yoludur. Eşqli oxucu da Tolstoyla birlikdə bu yola düşür və özünün həyatında ali səmimiyyətin təsiri ilə təmasda olur. Bu əsərin yönəltdiyi səviyyələrə yetmək üçün adi maraq pilləsində dayanmaq və sıravi oxucu həvəsi ilə yanaşmaq yetərsizdir. Ruhaniyyatı da duymaq üçün aşiq olmaq gərəkdir. Özünü ötmədən varlığın gözəlliyini dərk etmək olmur. Tolstoy oxucu ilə üz-üzə dayanıb varlığın gerçəkliklə əlaqəsinin həqiqi səviyyəsini izah etməyə çalışır. Səsinin hansı dərinliklərdən gəldiyini öz oxucusuna bəyan edir.

İnsanlar gerçək həyatda rastlaşdıqları hadisələrə elə bir ölçüylə yanaşırlar ki, hadisə mənasını itirir. Tolstoy, hadisələrə cəmiyyətin şablon ölçüləri əsasında yanaşmağın əleyhinə çıxır. Ona görə də çox vaxt hamı üçün doğru olan Tolstoy üçün doğru olmur. Habelə, hamı üçün münasib bilinməyən, Tolstoy tərəfindən doğru qəbul olunur. Biz də Tolstoyu sadəcə təhlil eləmək istəmirik, bu dediklərimizin əsasını araşdırıb öyrənməyə çalışırıq. Tolstoyun ən yaxşı təhlili öz əsərinin siqlətidir. Yuxarıda dediyimiz kimi, biz də bu siqlətin ruhani xislətini göstərmək istəyirik. Tolstoy bizə daha çox doğmadır. Onun əsərləri

özünüyaratma qüdrətinin təzahürü kimi meydana gəlir. Bir var təfəkkürün yaratdığı fəlsəfə, bir də var ömrün qurulmasından və həyata çevrilməsindən yaranan, başqa sözlə, həyatın içindən gələn fəlsəfə.

Tolstoyçuluq – ali həyatı ifadə edən ruhani baxış və fəlsəfi sistemdir!

Bu əsərdə bütün hadisələr bir-biriylə üzvi şəkildə bağlı təzahür edir. Hər bir hadisə insanın həyatda mürəkkəb durumunu, özünün özünə fəlakətlər bəsləməsini, cəmiyyətin onun taleyində mənfi rol oynamasını, habelə ictimai qaydaların, dini yasaqların insanı qəlibə salmasını, onu əksərən yanlış yönəltməsini pərdə-pərdə açıb izah edir. Hadisələr, harada cərəyan etməsindən asılı olmayaraq, insanın həyatla əlaqəsinin nə dərəcədə doğru, yaxud yanlış qurulduğunu bütün təfərrüatı ilə dərk etməyə imkan verir.

Əsərin başlanğıcındaca Tolstoy çox böyük ustalıqla axtarışlarının mərkəzində dayanan obrazlarını bir-biriylə qarşılaşdırıb sanki həyat məbədini qurmağa başlayır. Hər bir obrazın varlığında Tolstoy elə xüsusiyyətlər tapır ki, bunların bir-birinə təsirində və əlaqəsində insan aqibətinin bütövlüyü dərk olunur. Həm də biz bu obrazların hansı yöndə yetkin, hansı xətlərdə qeyri-kamil davranışlarını müşahidə etməklə, sözlərini dinləməklə insanın iç dünyasıyla tanış oluruq, səhvləri doğuran və müqəddəs münasibətlərə nəfəs verən duyğular haqqında təsəvvürlərimiz formalaşır. İnsanın gah adamlıq səviyyəsində dayanması, gah insanlıq pilləsinə qalxması gözlərimiz qarşısında əyanilәşir. İnsanın ziddiyyətli yaşamasının həyata mürəkkəblik gətirdiyi üzə çıxır – onun özündən aşağı yaşayanda fəlakətlərə, özündən yüksək yaşayanda səadətə yol açması ağlımıza yaxşı çatır. Biolojilik və ruhanilik arasında ziddiyyətlərin əsası bizi düşündürür – bunu öz ömrümüzdə ötməyin yolları haqqında düşünürük. İnsanın gah bəsit, sonlu görünməsi, gah da sonsuz imkanlara, tükənməz eşqə, ehtiraslara malik olması bizi, həyatla əlaqələrimizi öyrənməyə çağırır. İndi əsərdəki obrazların şəxsi keyfiyyətlərinə diqqət yetirək:

Stepan Arkadiçin hərcayi meyilləri ailəni uçurum qarşısına çəkib gətirir. Dollinin inamı elə sarsılır ki, heç nə ilə ona təsəlli vermək mümkün olmur. Stepan Arkadiçin yalvarışları da heç bir sonuc vermir. Çünki bilə-bilə edilmiş xəyanətə mərhəmət göstərmək heç cür mümkün olmur. Anna Kareninanın gəlişi isə vəziyyəti dəyişir. Dolli özünün ümidini Anna Kareninada tapır. Əslində o bu ümidin nədən ibarət





olduğunu dərk eləmir. Sadəcə təsəlli tapır. Balalarından və ərindən ayrı öz həyatının hansı məzmun daşıdığını kəsdirə bilmir. Ona görə də taleyinə boyun əyir. Dollinin balalarına qarşı fədakarlığı və məhəbbəti ər tərəfindən layiqincə qiymətləndirilmir. Bununla da ailənin xoşbəxtliyi zədələnir. Bir ucdan dünyaya balalar gətirən kişi atalıq məsuliyyətini qoruya bilmir. Annanın gəlişiylə ailə dağılmaqdan qurtulsa da, xoşbəxtliyini bərpa edə bilmir. Münasibətlər yalnız zahiri əlaqələr səviyyəsində bərpa olunur, içəridə isə yadlıq sərhədi yaranır ki, bununla da uşaqların taleyinə həyat nisgili daxil olur. Ata-ana-övlad vəhdətinin natamlığı xoşbəxtliyin yarımçıqlanması demək olur. Dolli daim özünü aldadır, çünki Stepan Arkadiçin xəyanəti aradan qalxmır. Ailə ailəyə bənzəmir, yalnız Dollinin balalarına bağlılığı ilə qorunub saxlanır. Necə acınacaqlı fəlakətdir! Ömrün bütün səadətini qurban vermək – analığın təsdiqidir, qəhrəmani fədakarlıq səviyyəsinin yaşanmasıdır, lakin ailəçiliyin təsdiqi deyil. İnsanın gərgin yaşaması mürəkkəb psixolojilik yaradır ki, bu da qəribə təsirə malik olur. Şübhələrinə inam rəngi verməklə bədbəxtliyə qapı açması Dollinin həm fəlakətidir, həm də dəyişkən həyat üzərində qələbəsidir. Stepan Arkadiç özünün nəşəli dünyasının qapısını Dolli iztirablarının üzünə bağlayır. Ona görə də ailənin səadətini öz cismani nəşəsinə qurban verməsi haqqında düşünə bilmir. Yalnız cinsi tələbatın dalınca gedən adam sevgi ilə yaşaya bilməz. Bu cür bivecliyin həyata gəlişi – həyatın özündən ayrılmasına səbəb olur.

Stepan Arkadiç qəbahətindən peşman ola bilsəydi, imtinaya yetərdi və bununla da Dollinin əzabına son vermək və ailə səadətini bərpa eləmək mümkün olardı. "O isə yalnız etdiyini arvadından yaxşı gizlədə bilmədiyi üçün peşman idi". Eybəcərliyi şənləndirmək – əzazil bir gedişatın sonucudur!

Bütün bu deyilənlərə baxmayaraq, Stepan Arkadiç iblis də deyildi. O, arvadını təhqir eləmək haqqında düşünmür, sadəcə özüylə bacarmır. O, Dollinin əzabını öz nəşələrindən duyduğu könül şadlığı ilə qarşılamır, əksinə, vahimələnir. Burada münasibətlərin gərginliyindən doğan ziddiyyət diqqət çəkəndir. Deməli, Stepan Arkadiç istəyir ki, həm Dolli sakitləşsin, üzülməsin, həm də öz qıraq istəkləri qüvvədə qalsın. Onun Levinlə üz-üzə oturub cəmiyyətin inkişafındakı süstlük haqqında mühakimələr yürütməsi də çox maraqlıdır. Bütün bu müşahidələr bizim öz içimizdə adamlığı tanımağa və insanı yaratmağa stimul verir.

Ümumiyyətlə, Tolstoyun hər bir obrazında sevilməli cəhətlər olur. O, mənfi, müsbət obrazlar yaratmaqla məşğul olmur. Bütövlükdə insan xislətinin mürəkkəbliyini aydınlaşdırmağa çalışır. Axıra qədər mənfi və axıra qədər müsbət obrazlar yaradıb onları qarşılaşdırmaqla nə həyatı dərk eləmək olar, nə də insanı tanımaq olar.

Həyatda mütləq şər yoxdur, xeyirin yarımçıqlığı var. İnsan axıra qədər Xeyirin mövqeyində dayana bilmir, axıra qədər heyvaniliyin qələbəsinə də yol açmır. Deməli, insani yaşamağı qorumaq üçün insanilik uğrunda mübarizə aparmaq gərəkdir. Bu mübarizə ictimai həyatda başlamır, fərdi ömürdə başlayır və ictimai həyatda davam eləyir.

İnsanın mahiyyətində elə duyğular mövcuddur ki, bu duyğuları dərk etməyincə, həyatda gözəlliyi və səadəti nişan vermək müşkülə çevrilir. Bədbəxtlik də insanın mahiyyətini dərk etməməkdən yaranır. İnsan özünü öyrənmədən taleyini qurmağa başlayır. Başqa sözlə, onun taleyinin formalaşmasına cəmiyyət, şərait elə qarışır ki, taleyin sükanı insanın öz əlindən çıxır. O, özünə yiyəlik eləyə bilmir, həyat uğrunda mübarizəyə başlayır. Belə olan halda isə xeyir haqqında, ədalət haqqında düşünə bilmir. Həyat uğrunda mübarizə ədalət uğrunda, xeyir uğrunda mübarizə deyil. Xeyirin, ədalətin unudulduğu cəmiyyətdə hər şey baş-ayaq olur. Fəlakətləri doğuran səbəbləri mücərrəd zəmanədə və ictimai gedişatın başında duran ayrı-ayrı fərdlərdə axtarırlar, insanın əməllərindəki əyintilərdə axtarmırlar.

Tolstoyun axtarışları insanı fərdi olaraq öyrənməyə yönəlir. İnsanın ictimai əlaqələrinə də cəmiyyətdən və ictimai qaydalardan deyil, onun fərdi keyfiyyətlərindən baxılmalıdır. İctimai gedişat hər şey olanda fərd heç şey olur. Bununla da həyatın insani məzmunu qaralanır. Bəşəri nizamsızlığın insan faciəsi ilə bağlılığı dərk olunmadıqca normal cəmiyyət qurulmur. Fərdin fəlakəti ailənin fəlakətinə, ailənin fəlakəti isə xalqın fəlakətinə və nəhayət, bəşərin fəlakətinə təkan verir.

Ailə ikiyə aid olduğu halda, ona daha çox insan müdaxilə edir. Ailəni hərə öz istədiyi kimi qurmağa çalışır. Burada valideynlər öz övladlarının qurduqları ailəyə müdaxilə baxımından daha çox rol oynayırlar. Onlar övladın ağlına inanmadığı üçün öz istəklərini təlqin edirlər. Ailələr ən çox həyat uğrunda mübarizə məntiqiylə qurulur. Həyatdan kam almaq, varidat yoxsulluğuna tuş gəlməmək, ictimai mövqeyi olmaq və s. haqqında düşüncələr insanın kim olduğunu





unutmaq qəbahəti yaradır. Tərbiyə oyunlarına görə övlad valideynin istəklərinə təslim olur, özünün sonrakı taleyini düşünə bilmir.

İnsanı dərk eləməməyin, onu nəzərə almamağın ictimai qaydaya çevrilməsi Annanın aqibətində bütün çılpaqlığı ilə üzə çıxır.

Anna yüksək mövqeli dövlət məmuru ilə ailə qurub, həyat şəraiti də yetərincə təmin olunub. Lakin o, Vronskini görən kimi zəngin həyat şəraiti də, sakit ailə səadəti də içindən duman kimi çəkilib gedir. Onun içinə başqa bir işıq düşür. Və o, bu işığın təsirilə özündə qorxunc bir boşluq görür. Nədir bu boşluq, bu boşluğu nə ilə doldurmaq?! Bir anın içərisində dəhşətli suallar qarşısında qalır. İndi hansı addımı atmalı, daxilində qalanan atəşə necə dözməli, bu hərarətli vüsalı nə ilə əvəz etməli?!

Anna ilahi sirr dəryasına düşür və boğulmağa başlayır:

*"O bütün Moskva xatirələrini xəyalından keçirirdi. Hamısı yaxşı və xoş xatirələrdi. Balonu xatırladı, Vronskini, onun vurğun gözlərini, müti simasını xatırladı, onunla olan münasibətlərinin hamısını xatırladı, xəcalət çəkiləsi heç bir şey görmədi. Lakin bununla bərabər xatirələrinin bu yerində duyduğu xəcalət hissi daha da artdı, elə bil ki, daxilindən gələn bir səs məhz burada, Vronskini xatırladığı zaman ona deyirdi: «İstidir, çox istidir, şiddətli hərarət var». «Axı nə olub ki? – deyə o qətiyyətlə öz-özünə müraciət etdi və qalxıb təzədən kresloda oturdu. – Bütün bunlar nə deməkdir. Məgər mən cəsarətlə bu məsələyə baxmaqdan qorxurammı? Axı nə olub ki? Məgər bu gənc zabitlə – bu uşaqla mənim aramda hər bir tanışla olan münasibətdən qeyri, ayrı bir münasibət varmı və ola bilərmi?» O, həqarətlə gülümsəyərək yenə də kitabı əlinə aldı, lakin bu dəfə nə oxuduğunu əsla başa düşmədi. O, kağız kəsən bıçağı şüşəyə çəkdi, sonra bıçağı yastısına tutub hamar və soyuq tiyəni yanaqlarına basdı və birdən-birə səbəbsiz olaraq qəlbini qaplayan bir sevinc hissindən az qaldı ki, şaqqıldayıb gülsün. O hiss edirdi ki, əsəbləri tel kimi getdikcə daha artıq dartılıb nəyə isə dolanır, hiss edirdi ki, gözləri getdikcə daha geniş açılır, əllərinin və ayaqlarının barmaqları əsəbi bir halda ürpərir, nə isə bir təzyiq sinəsində nəfəsini daraldır və bu titrək yarım qaranlıqdakı bütün surətlər və səslər qeyri-adi bir kəskinliklə ona təsir edirdi. Aramsız olaraq bir şübhə içində qalmaqla, vaqonun irəliyə hərəkət etdiyini, yoxsa geri getdiyini və yaxud bir yerdə dayanıb durduğunu təyin edə bilmirdi. Yanındakı Annuşka idimi, yoxsa yad bir adamdı – bilmirdi. «Orada, dəstəkdən sallanan nə*

*idi, onun xəz paltosu idi, yoxsa tüklü bir heyvandı? Bəs mən özüm burada nə edirəm? Bu mənəm, yoxsa bir başqasıdır?» Belə bir bihuşluğa qərq olmaq ona dəhşətli gəlirdi. Lakin nə isə onu bu bihuşluq aləminə sürükləyirdi və o istəsə özünü bu bihuşluğa təslim edər, istəsə bu haldan çəkinərdi. O özünə gəlmək üçün ayağa qalxdı... Anna hara isə uçduğunu hiss etdi. Lakin bütün bunlar ona dəhşətli gəlmir, bəlkə də şən görünürdü...*

*Anna qapını açdı. Çovğun və külək içəri hücum çəkərək qapı ağzında onunla əlbəyaxa oldular. Bu Annaya xoş gəldi. O, qapını açıb çölə çıxdı. Külək sanki onu gözləyirmiş kimi nəşə ilə nərə çəkdi və onu çalıb aparmaq istədi, lakin o, əli ilə soyuq dirəkdən tutub paltarını özünə sıxaraq platformaya endi və vaqonun arxasına keçdi. Anna qarlı, şaxtalı havanı nəşə ilə sinə dolusu tənəffüs edir, vaqon yanında dayanaraq platformaya və işıqlanmış stansiyaya göz gəzdirirdi... Anna doyunca nəfəs almaq üçün bir daha təmiz havanı ciyərlərinə çəkdi və dirəkdən tutub vaqona girmək üçün əlini muftadan çıxarmışdı ki, hərbi paltolu daha bir adam onun yanında dayanaraq fənərin titrək ziyasının qabağını kəsdi. Anna başını qaldırıb baxdı və dərhal Vronskinin üzünü tanıdı. Vronski əlini furajkasına apararaq Annaya təzim etdi və ona bir şey lazım olub-olmadığını soruşaraq Annaya xidmət etməsi üçün icazə istədi. Anna uzun-uzadıya, heç bir cavab verməyərək Vronskidən gözünü ayırmadı və onun kölgədə dayandığına baxmayaraq üzünü və gözlərini görür və yaxud ona elə gəlirdi ki, görməkdədir. Vronskinin üzündə yenə də dünən Annaya o dərəcə təsir göstərən eyni ehtiramlı bir məftunluq ifadəsi vardı. Bu son günlər və hələ indicə Anna öz-özünə təkrar edib dururdu ki, Vronski onun nəzərində həmişə, hər yerdə təsadüf edilən yüzlərlə gənclərdən biridir və o heç vaxt Vronskini heç fikrinə belə gətirməyəcəkdi; lakin indi ona təsadüf etdiyi ilk dəqiqədə Annanın qəlbi sevincli bir iftixar hissilə doldu. Annaya onun nə üçün burada olduğunu soruşmaq lazım deyildi. Anna onun öz ağzından eşitmiş kimi yəqin olaraq bilirdi ki, Vronski onu görmək, onun yanında olmaq üçün buradadır"...*("Anna Karenina" əsərindən).

Əsərin leytmotivi əslində buradan başlayır, Annanın aqibətinin yeni mərhələsi – səadətli və faciəli mərhələlərinin başlanmasıyla.

Annanın içində neçə insanların taleyinə yeni məzmun verəcək bir gedişatın təməli tökülür. Bundan heç kimin, nə onun əri Aleksey Aleksandroviçin, nə günahsız körpəsi Seryojanın, nə Vronski sevdasıyla





yaşayan knyaginyanın (Kitinin anası) xəbəri yoxdur. Bir fərdin içindəki sarsıntılar neçə-neçə fərdlərin faciəsinin başlanması demək olur. Bu faciə zaman-zaman bütöv bir cəmiyyətin halına yoluxur. Peterburq və Moskva uzun müddət bu faciənin təsirləri ilə nəfəs almalı olur. Annanın faciəsi qapalı olmadığı üçün həyata təsiri baxımından bir növ seçilmiş faciə olur. Zərurətə çevrilmiş belə bir faciə özünün dərk olunması üçün möhtəşəm zəka və ali hissiyyat birliyi tələb edir. Faciə adi davranışlardan gəlmir. Annanın ömründə Sevginin yaratdığı sarsıntılar, duyğunun ağlı üstələməsi, ağlın məhvərindən çıxması – hissiyyat zəlzələsi, ailəyə sığmayan ehtiraslar, ailəyə yağan fəlakət yağışı – ər qəlbinin fəryadı, arvad qəlbinin fəryadı, körpə qəlbinin fəryadı, vurulan ürəyin (Vronski) fəryadı. Bütün bunları dərk eləmədən Anna xəyanətinin və haqqının miqyası bilinməz, qarışdırılar. Aleksey Aleksandroviç, Seryoja, Vronski və Anna zərərçəkənlərdir. Üzdə bu faciəni yaradan Anna və Vronski sayılır. Lakin faciə qatları üzdə deyil, dərinə getdikcə əsil səbəblər üzə çıxır. Bu səbəbləri tədricən aydınlaşdırmağa çalışacağıq. Faciənin nəticəsini hamı görə bilər, səbəbləri isə çox vaxt hamı üzdə görür. Bununla da faciə dərk olunmur. Bəli, bu insanlar bir-birinə fəlakət gətirdikləri üçün yad idilər. Amma həm də, fəlakətləri ilə birləşdikləri dərəcədə doğma idilər, yəni eyni bir fəlakət onları birləşdirirdi. Mürəkkəb qəribəlik, sirli, cazibəli fəlakət. Sakit ürəyin duya bilmədiyi, adi ağlın qana bilmədiyi fəlakət sehri!

Fəlakətdən fəlakətə yeriyən, getdikcə fəlakətə doğmalaşan, fəlakətlə bir olan insan qəlbinin möcüzəsi! Ürəyi riqqətli saxlayan ehtiras, məhəbbət odunda elə yanmaq ki, bədbəxt görünən taleyi səadət bilmək, heyrətin böyüyüb etiqada çevrilməsi.

Anna bu halətinə ya müqavimət göstərməli və bütün bu ali hisslərini söndürməli və ailəyə qurban verməli idi, ya da ailənin səadətini bu halətinə qurban verməliydi. Anna birincini bacarmadı, ikincini seçdi. Həsrətin dağ yüksəkliyi var, bu yüksəkliyə qalxanda ruhun təlaşı başlayır, həyəcanın tövşütmək təsiri böyüyür, qovuşma intizarı ürəyin hərarətindən od qalayır, təlaşın əzəmətindən sarsılır ömür. Heyrətin öldürmək səviyyəsi ürəyi üzdükcə üzür. Həsrətə bərabər olan, ölümə çevrilən vüsal adamın boğazına çökür, içəridən boğur. Boğulmaq istəmir, xilas olmaq istəyir Anna. Və xəyanət edir.

Aleksey Aleksandroviçin həyatında ailə rəmzi məna daşıyırdı. Bütünlüklə dövlətdə təmsil elədiyi rəsmi işlər ömrünə və vaxtına hakim

kəsilmişdi. Annanın Vronskiyə qarşı təzahür edən qəfil duyğuları Anna ilə Aleksey Aleksandroviç arasında keçilməz uçurumun olduğunu aşkarladı. Xarakter təzadı, ehtiras fərqi, həyata baxış fərqi mövcud olduğu halda, tamamilə təsadüfən ailə qurmaları özlüyündə fəlakət deməkdir. Hətta övladlarının olması belə, onları bir-birinə bağlaya bilməyibmiş.

Aleksey Aleksandroviç də ailə məsələsində yanılmışdı. Heç bir sevgi əzabı çəkmədən yalnız arvadlı, ailəli olmaq xatirinə ailə qurmağın meydana çıxaracağı məşəqqətləri heç zaman düşünməmiş, rüsvayçılığın ağır zərbələrinə tuş gələcəyini ağlına gətirməmişdi.

*"Qısqanclığın qəbahətli bir hiss olması və etimad etmək lazım gəldiyi haqqındakı əqidəsi indi sarsılıb dağılmamışdısa da, o nə isə qeyri-məntiqi və yöndəmsiz bir vəziyyət qarşısında qaldığını hiss edir və nə edəcəyini bilmirdi. Aleksey Aleksandroviç həyatla üz-üzə dayanmışdı, arvadının ondan savayı bir başqasını sevə biləcəyi imkanı ilə üz-üzə gəlmişdi və bu ona olduqca yöndəmsiz və anlaşılmaz bir şey kimi görünürdü; çünki bu, həyatın özü idi ki, gəlib onun qarşısında dayanmışdı... Hər dəfə o, həyatın özü ilə üz-üzə gəldikdə yaxasını həyatdan gen çəkmişdi. İndi o, uçurum üzərindəki bir körpüdən sakitcəsinə keçən, sonra isə birdən haman körpünün söküldüyünü və orada bir girdab olduğunu görən bir adamın duyduğuna bənzər bir hiss duymaqda idi. Bu girdab həyatdan ibarət idi, o körpü isə Aleksey Aleksandroviçin yaşadığı süni həyat idi".*("Anna Karenina" əsərindən).

Bəli, fəlakətin bir ucu da gedib Aleksey Aleksandroviçin quruluğuna dirənir. İnsana səadət verə bilməmək və bütünlükdə dövlətə həsr olunmaq özü də bir fəlakətdir. Aleksey Aleksandroviç bir dəfə də olsun könül dünyasının sakini olmayıb, ürək sevdasının gözəlliyi haqqında düşünməyib. Ona görə özü də bilmədən varlığında bir bədbəxtlik yuvası qurub. O, namussuz adam deyildi. Lakin başqalarında özünə qarşı rüsvayedici nəzarət hiss edəndə namusunun zədələndiyini hiss edir. Aleksey Aleksandroviçdə soyuq halın olması indiyə qədər hadisələrə başqa rəng verirdisə, indi onda aşkarlanan duyğular təkcə hadisələrə deyil, bütövlükdə həyata yeni münasibət formalaşdırır.

Əcəba, bu zəngin duyğuların aşkarlanması, həyata yeni ahəng gətirməsi üçün mütləq fəlakətlər yaranıb düyünəmi düşməliydi? Bir-birindən xəbərsiz bu insanların ürəklərində nə qədər böyük sarsıntılar baş verir. Bəs bu sarsıntılardan çıxmaq üçün onların gücünü əyən nə idi,





nə çatışmırdı? İlahi düyündür, bunu həyatda açmaq qeyri-mümkündür. Elə buradaca fəlakətin miqyası bütün təsirlərilə üzə çıxır. Annanın qərarı sarsılandan bəri bir ailənin rahatlığı qeybə çəkilir və bu ailə cəmiyyətdən fərqli, – fəlakət qaydalarıyla yaşayır. Bu ailənin əhvalını yalnız fəlakət idarə edir. Aleksey Aleksandroviç əvvəl ictimai nüfuzu haqqında daha çox düşünürdü. Uçurum genişləndikcə o, xristianlığın ali tələblərini icra etməyə başlayır. Vəziyyətin təlqin elədiyi ağrıları yaşadıqca özünü vəziyyətin əsarətinə salır. Başqa sözlə, bu ağrılardan qıraqda qalması mümkün olmur. Tərəddüdlərin doğuluşu ilə yazılan fəlakət himnini dinləmək və kədəri ulu nemət kimi qəbul eləmək – kədərə qarşı etiqada çevrilir. Fəlakətin yaratdığı möcüzələr necə də dərin və ilahi təsirə malik imiş. Çünki bu fəlakətlər əsil insani dəyərlərin varlığını göstərə bilir. Rus cəmiyyətində dil tapa bilməməyin yeganə çıxış yolu duel olduğu halda, Tolstoy Aleksey Aleksandroviçin timsalında bu çıxış yolunu rədd edir və yeni keyfiyyət açıb göstərir. Duel İsanın sevmək çağırışına qarşıdır. Tolstoy, insanların, etiqadı yalnız nəzəri qəbul etmələrini səmimiyyətsizlik hesab edir. Baxmayaraq ki, Aleksey Aleksandroviç dueldən həm də qorxur, onun dueli deyil, ictimai rüsvayçılığı, həyatını məşəqqət girdabına salmağı qəbul etməsi insanlarda daha ciddi düşüncələrin meydana çıxmasına rəvac verir. Aleksey Aleksandroviç bilmirdi ki, öləcək, yoxsa öldürəcək. Lakin öldürsəydi belə, vəziyyəti islah eləmək mümkün deyildi. Vronskini öldürmək Annanın duyğularını öldürmək demək deyil. Məsələ burasındadır ki, Annanın iç haləti bir fərdin istəyilə, şıltaqlığı ilə yaranan məsələ deyil, bəşəri məna daşıyan məsələdir. Hətta Annanın ölümü ilə də bu haləti həyatdan silmək mümkün deyil, yalnız onların öz həyatından ləğv eləmək mümkündür. Hərçəndi ölüm də yaranmış faciənin izini yumaq gücündə deyil. Vronskini öldürmək qisasdırmı, kimdən, nədən qisasdır, bu qisas nəyi həll edər və Aleksey Aleksandroviçə verəcəyi təsəllinin mahiyyəti nədən ibarət olar? Vronskini öldürmək həm də Anna xəyanətinə bəraət verərdi. Qorxutmaq, xoflandırmaq xəyanətin qarşısını kəsmək gücündə olsaydı, onda həyatın yeganə mənası qorxudan ibarət olardı və heç bir ülvi duyğular haqqında düşünməyə ehtiyac qalmazdı.

Tolstoyun bu obrazı fəlakətlə görüşəndə fəlakətin zəhmindən sarsılıb saxta addımlara getmir. Özünü aldatmadan vəziyyəti düzgün anlamağa çalışır. Deməli, insan fəlakətin əsarətinə düşüb daha amansız səhvlərə yol açmaqla məhv də ola bilər, dərin düşüncələrlə ləyaqətə

qovuşub ədaləti tanıya da bilər. Tolstoy öz qəhrəmanını yüksək idrak işlətməyə sövq edir. Yalançı, mənasız görüntülərin həyatda əsasa çevrilməməsi üçün idrakilik yaradır.

Ən böyük saxtakarlıq – asan yol seçməkdir. Həyati əhəmiyyət daşıyan məsələləri asan həll etməyin yolverilməz olduğunu Tolstoy böyük ləyaqətlə öyrədir. Xəyanətin görüntülərini aradan qaldırmaqla arxayınlaşmaq yox, səbəblərini dərk etməklə həqiqətə yetmək və bunu düşünə-düşünə ömrün prinsipinə çevirmək. Adamı öldürmək yox, naqis duyğuları öldürmək əsas olmalıdır. Adamı öldürmək çıxış yolu olsaydı, bəşəriyyəti bir ucdan qırmaq lazım gələrdi. Çünki xəyanət Adamlıq səviyyəsidir, o, istənilən qeyri-kamil şəxsin əməllərində təzahür edə bilər. Nə qədər ki, cəmiyyət heyvani gedişat əsasında yaşayır, xəyanət həyata asanlıqla daxil olacaq. Xəyanətin cəmiyyətdə bəraəti olduğu üçün, adam xəyanətə meyil etməkdən qorxmur. Ancaq fərd ictimai gedişlərə deyil, vicdana söykənərsə, xəyanət taleyə hökm eləməz.

Bütün bunları biz dərindən öyrənib bilsək də, Anna xəyanətinə fərqli yanaşmaq məcburiyyətindəyik. Anna məsələsini bu kontekstdə araşdırsaq, həqiqətdən uzaq düşərik. Əcəba, xəyanətin də mi növləri varmış? Elə məsələnin mürəkkəbliyi də buradadır. Biz istəsək də, istəməsək də, əsərin hansı mərhələsinə qədəm qoyuruqsa, orada mütləq Annanın vəziyyətiylə üzvi şəkildə bağlı olan cəhətlərə diqqət yetirməli oluruq. Bu məsələni yalnız bir cəhətiylə aydınlaşdırıb üstündən keçmək olmur. Ona görə yox ki, əsər özü axıra qədər Annanın vəziyyətiylə bağlıdır, çünki insanın iç dünyasında baş verən dəyişikliklərin, ziddiyyət doğuran gərgin anların mahiyyətini düzgün dərk etməliyik ki, insanı tanıya bilək. Biz dedik ki, fəlakət təkcə ümidsizlik yaratmır, həm də insanın daxilində intibaha stimul verir. Əgər biz Tolstoyun nə istədiklərini düzgün müəyyənləşdirə bilsək, həyatı öz içimizdəki axtarışlar əsasında daha mükəmməl dərk etməyə yönələ bilərik…

Anna xəyanəti sevgi və vicdanın gərgin mübarizəsi sonucunda meydana çıxmışdır. Annanın indiki vəziyyətində sevgiylə vicdanın bir araya gəlməsi müşkülə çevrilir. Məhəbbət Annanı Vronskiyə yönəldir, Vicdan isə günahsız Seryojanın, qurulmuş ailənin haqqını dərk etməyə çağırır. Annanın sevgiyə qarşı itaət göstərməsi – onun səmimi iqtidarsızlıq səviyyəsini təsdiq edir. Aleksey Aleksandroviçin ər ləyaqətinə qarşı biganəliyi isə vicdanın üzünə ağ olması kimi təzahür edir. Onun ağlını cuşa gətirən mürəkkəb proseslər – emosiyalar,





ehtiraslar, həyəcanlar, sarsıntılar, məftunluq, qərarsızlıq vicdana qarşı gedirdi. İki kişinin arvadı olmaq – hər cür insani hisslərin məhvini tələb edir. Bu isə heyvaniliyin mütləq səviyyəsidir ki, bunu da Annaya aid eləməyə həqiqət yol vermir. Anna özünü seçim qarşısında qoyur və Vronskini seçir. Hərçəndi bu seçim bitkin bir nəticəyə çevrilmir, çünki ailənin insani haqqı zədə götürür. Həm də dini qaydalar və ictimai nəzarət bu imkanı xeyli dərəcədə məhdudlaşdırmış olur. Annanın sevgisi çox mənada uğursuzluğa düçar olur. Bu uğursuz məhəbbətin doğurduğu fəlakətlər yetişincə səadət və bədbəxtlik daim bir-birini təqib etmişdir. Ayrı-ayrı xoşbəxt anlara bütün həyatı qurban vermək olduqca düşündürücü məsələdir.

Anna qeyri-müəyyən bir taleyin təsirlərində Vronskiyə can atdıqca başqa bir xətdə büdrəmələr seylabına ürcah olurdu. O, qeyri-şüuri olaraq başqasının haqqının ayaqlanmasından xoflanır. Baxmayaraq ki, Anna Aleksey Aleksandroviçi öz həyatına müdaxilə etməkdə haqsız sayırdı, bununla belə, onun əzilmiş hissləri Annaya əzab verirdi. Sevgi – başqasının haqqını tanımağa qadir olan bir duyğu olduğu halda, Annanın qəlbində sevginin bu cür hökm eləyə bilmək təsiri yaranmır. Anna Aleksey Aleksandroviçdə nəcib duyğuların varlığına inanmaq istəmir, çünki xəyanəti unutmağa çalışır. Aleksey Aleksandroviçin müdrikliyi, ali təmkini Annanın qərarını xəncər kimi doğrayır. Çünki bu müdriklik və təmkin Anna üçün heç bir nəticə vəd eləmirdi.

Sevgi yoxdursa, hər hansı humanizmə və mərhəmətə görə adamların bir yerdə yaşaması iztirablıdır. Çünki ürəyin sevgiyə daha böyük ehtiyacı var. Nə Aleksey Aleksandroviç Annaya ehtiraslı məhəbbət verə bilib, nə də Anna ona qarşı Ali məhəbbətlə yaşayıb. Elə buna görə də həyat çox amansız sınaqlara çəkir Aleksey Aleksandroviçi. Onun taleyində belə bir dönüş yaranandan sonra, Annaya qarşı nə qədər böyük humanistlik eləməsinə və müdrik təmkin göstərməsinə baxmayaraq, heç kim bu alicənablığı qiymətləndirmir, əksinə, onun ləyaqətinə istehza edirlər. Ona görə yox ki, adamlar Annanın mövqeyini haqlı sayırlar, sadəcə Aleksey Aleksandroviçin bu təmkinini əfəllik hesab edirlər. İnsanı, onun ali duyğularını qorumaq üçün cəmiyyəti islah eləmək lazımdır. Yəni İnsanlıq uğrunda mübarizə – İnsani yaşamağın təminatıdır.

Aleksey Aleksandroviç nə qədər ictimai qınaqlara uğrasa da, özünün alicənablığından xoşbəxtlik hissləri keçirir: *"O, birdən-birə hiss*

*etdi ki, onun iztirablarının mənbəyi olan hadisə indi onun mənəvi sevincinin mənbəyi olmuşdur və qınadığı, məzəmmət etdiyi, nifrət bəslədiyi zaman həlledilməz kimi nəzərə gələn bir şey, o indi əfv edərkən və sevərkən sadə və aydın görünür."* ("Anna Karenina" əsərindən).

Ən dəhşətli görünən kədərdə fərəh imkanı var! Bunu İsa özünün sevgi anlamının əsasında görmüşdür. Tolstoy da bunu ciddi dərk etmişdir. Asif Ata isə bu həqiqətin memarı kimi çıxış etmişdir. Dahilərin nə qədər gözəl, doğru təyinatları var. Bunu, yaşayan yaxşı qanar!

Əsərdə Annanın Aleksey Aleksandroviçə özünün halətini bildirməsi ilə ər namusunun ayaqlanması, heysiyyətinin viran olması oxucuda ya ciddi maraq oyadar, ya da yenilməz bir nifrət hissinin baş qaldırmasına səbəb olar. Lakin Tolstoy öz oxucusunun hisslərini oynatmamaq üçün Aleksey Aleksandroviçdə düşündürən bir sima kəşf edib yaratmışdır. Məsələ elə qoyulur ki, nifrətlə ağlın gözünü örtmək mümkün olmasın, həqiqi vəziyyət araşdırılıb dərk olunsun. Tolstoy insan duyğularının hər cür vəziyyətini bilir və hər cür ruhi vəziyyəti insani yöndə qiymətləndirmək imkanı yaradır. Elə buna görə də onu yazıçı kimi deyil, mömin ruhaniyyatçı kimi daha yaxşı anlamaq olar.

Anna Vronski ilə əlaqəsini ərinə deyəndə o, ərindən elə bir sarsıdıcı, bəlkə də təhqiredici münasibət gözləyirdi ki, ondan ayrılmaq üçün özünə bəraət verə bilsin. Lakin bunun qarşılığında ərinin içində gərilsə də, üzdə özünü soyuqqanlı aparması və arvadını heç nə olmayıbmış kimi evə ötürməsi Annanın iztirablarını daha da artırmışdır. Anna vicdan əzabının təsirindən xilas olmaqla Vronskiyə qovuşmağı asanlaşdırmaq istəyirdi. Hərçəndi onun başqa bir yaralı yeri də vardı, o, istəyirdi ki, oğlunu da özü ilə aparsın. İndi Annanın qarşısında duran ən böyük maneə ictimai qınaq və dini yasaq deyildi, ərinin ağlasığmayan təmkini və alicənablığı idi. Ananın daxilindəki təlaşın sonsuzluğu ərinin bu xüsusiyyətlərinə qarşı nifrət atəşi qalayırdı. Özünün bu vəziyyətinə qarşı ərinin qəddar və amansız olmasını daha çox arzulayırdı və bəlkə buna görə ərinə daha çox hörmət edərdi. Nəhayət, Annanın ər evində başqa bir kişidən övlad dünyaya gətirməsi münasibətləri yeni mərhələyə gətirib çıxarır. Anna ciddi xəstələnir. Uşağın dünyaya əzablı gəlişi Annaya ölüm vəd edir. Ölüm qaşla göz arasına qonanda Annanın qəlbində yeni duyğular baş qaldırır. İndi o, Moskvada olan ərini çağırıb günahını bağışlamasını diləyir. Bu ana qədər Vronskiyə vurulmaq səadəti günahın təsirini





Annaya unutdura bilirdi. Lakin indi ölüm təhlükəsi Annanın gözlərinin qabağında səadətin yerinə günahı çəkib gətirirdi.

Annanın daxilindəki ziddiyyətlər pərdə-pərdə açıldıqca Aleksey Aleksandroviç ona daha çox mərhəmət göstərirdi, hətta Vronskini də bağışlamışdı. Çox qəribədir, bu qədər münasibətlər Aleksey Aleksandroviçi üzdüyü qədər, ona həm də xoşbəxtlik gətirmişdir, – o, ən ali duyğularının səsini eşitmək və buna yönəlik addım atmaq üçün imkan qazanmışdır. Onun ali duyğuları həyatda gözəllik ifadə elədiyi üçün səadət tapmışdır.

Anna da azadlığa çıxandan və səhhəti yaxşılaşandan sonra daha şən və xoşbəxt görünür. *"Mən pis iş gördüyüm üçün xoşbəxt olmaq istəmirəm, talaq istəmirəm, qoy rüsvay olub oğul ayrılığı üzündən iztirab çəkim"...* ("Anna Karenina" əsərindən).

Anna iztirablardan xoşbəxtlik tapmışdı, ona görə də iztirabdan xilas olmaq istəmirdi. Pis addımın nə qəribə səadəti və iztirabı var?! Səadət və iztirab birləşmir, bu mümkün deyil. Amma bir-birini əvəz edir. Biri o birindən müəyyən anlarda üstün olur. Səadət və iztirab bir ömürdə mütləqləşmir. Ona görə də bu yarımçıqlığın yetirdiyi fəlakət daha amansız olur. Həyat Annadan qisasmı alır?! Həyatla zarafat etmək gərək deyil, həyatı qurmaq gərəkdir. Adam başlanğıcda ayrı-ayrı duyğulara aldanıb yaşamının nizamını itirir və bu nizamı bərpa eləmək mümkün olmur. Özəllikcə də Ailə məsələsində.

Tolstoyun yaratdığı obrazlar xarakterik cəhətdən nə qədər mürəkkəb olsalar da, əcayiblik yaratmırlar. Əksinə, insandakı xüsusiyyətlərin zənginliyini öyrənməyə imkan yaradırlar. Hadisələrin bir-biriylə əlaqəsi obrazların özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir. Bu səbəbdən də hadisələri düzgün təhlil eləmək üçün obrazlarda dəyişən cəhətlərə ciddi diqqət yetirmək lazım gəlir. Hadisədən hadisəyə keçdikcə obrazlarda yeni keyfiyyətlərin üzə çıxması hadisələrin dinamizmini daha da inkişaf etdirir. Bununla da fərdin cəmiyyətlə əlaqələrindəki həlledici motivlərin, fərdin şəxsi həyatında rol oynadığı təsirlərin də əsaslarını lazımi səviyyədə dərk etmək mümkün olur. Bu mənada Aleksey Vronskinin fərdi keyfiyyətləri də bir çox ciddi məqamların mahiyyətini göstərməkdə mühüm rol oynayır. Bu obrazla ilk tanışlıqda Adama elə gəlir ki, sadəcə bir intelligent olan zadəgan zümrəsinin nümayəndəsi ilə tanış olursan – adi həyatın normaları ilə düşünən və yaşayan, yüzlərdən biri olan gənc bir rus balası. O, özünün

bir sıra fərqli cəhətləri və mehriban əlaqəsi ilə Kitidə, varlı nəsildən olması və indi də cəmiyyətdə özünəməxsus nüfuzlu mövqe tutması ilə Knyaginyada (Kitinin anası) özünə qarşı sevgi oyada bilmişdir. Lakin Kiti ilə ailə qurmaq qəti olaraq ağlına gəlməmiş, sadəcə ömrünün əyləncəyə ehtiyac xəttində onunla bir aşna kimi münasibət qurmaq niyyətində bulunmuşdur. Lakin özünün qəribə davranışları ilə Şerbatskilər ailəsinə ümid vəd etmiş, belə bir yalançı ümidə görə davranışlarında məsuliyyət hissinə yer verməmişdir. Onu da demək lazımdır ki, Tolstoy bu obrazı hadisələrin daxilinə gətirərkən, onda hadisələrə müsbət təsir göstərmək imkanı olan xüsusiyyətlərdən də nişanələr göstərmiş və bu fərdi diqqətdə saxlamağın zəruriliyinə eyham etmişdir. Sonralar onu Anna ilə qarşılaşdırmış və ailə məsələsini o qədər də dərk etməyən adamda bir an içərisində gözlənilməz hisslərin üzə çıxmasını diqqətə çatdırmışdır. Vronskidə qarşısıalınmaz ehtirasların – heç kimi və heç nəyi nəzərə almadan kükrəməsi hadisələrin məzmunca inkişaf etməsini göstərir. Heç bir hadisə adi ovqat yaratmır, insanı içəridən tarıma çəkir. Vronski gözəlliyə vurulmuşdu, səadətə vurulmamışdı. O, səadətini gözəlliyə vurulmaqda tapmışdı…

Çox vaxt insanın duyğuları bir xətdə təmin olunanda başqa şey haqqında düşünmür. Sonra həyatının başqa tələbləri meydana çıxanda ondan da imtina edə bilmir. Bu hal Vronskinin həyatında da çox ciddi təsirə malikdir. Onu Annaya bağlayan istək anbaan genişlənən gərginliklərin təsirindən zədə götürür və fəlakət ərşə qalxır. Hadisələrin bu mərhələsinə keçməzdən öncə Vronskinin iç dünyasında məsumluq da ifadə edən anlara varaq. Anna ölüm yatağında ikən körpənin sağmı, ölümü doğulacağının qeyri-müəyyənliyi və bunun yaratdığı təsir Vronskinin səbrini tükətmişdir. Üstəlik, Annanın Aleksey Aleksandroviçin mərhəməti və ölümün təqibləri qarşısında sarsılaraq Vronskiyə bir xəyal kimi baxması, Vronski üçün həyatın məzmununu puç etmişdi. Aleksey Aleksandroviçin onunla söhbəti və onu bağışlaması Vronskinin ağlını çaşdırmışdı. O, indi hansı vəziyyətdə olduğunu kəsdirə bilmirdi: *"Aleksey Aleksandroviç ayağa qalxdı və onun səsi hıçqırıqlar içərisində boğuldu. Vronski də ayağa qalxdı və başı aşağı, yalnız altdan-altdan ona baxdı. O, Aleksey Aleksandroviçin hisslərini başa düşmürdü. Lakin o, hiss edirdi ki, bu nə isə yüksək və hətta onun dünyagörüşü çərçivəsinə sığmayan bir şeydir"* ("Anna Karenina" əsərindən).





Aleksey Aleksandroviç özünün ziddiyyətli xarakterindən necə yüksəyə qalxır! Nə qədər coşqun, islahedilməz qalibiyyət! Bu vəziyyəti qanmağa nə qədər yüksək zəka lazımdır, bu halı yaratmağa nə qədər ecazkar, qüdrətli duyğular gərəkdir! Tolstoy bunları insanda necə kəşf edib, o, nə qədər füsunkar ürəyə, dərrakəyə malikdir?!

Vronskidə ən ali duyğu sevgi idi. Bu vəziyyətdə o, ali mərhəmət və xeyirxahlıq duyğularını da anlamağa başlayır. Aleksey Aleksandroviç ona Annadan əl çəkməsini təklif edəndə mənliyi parça-parça olur. Annanın ölümü onları ayırsaydı, bu dərdi bəlkə də nisbətən rahat çəkmək olardı. Amma Annanın ölümlə mübarizə apardığı bir vaxtda ayrılmaq onun təsəvvürünə sığmırdı. Yenə əsərə müraciət edək: *"Bu nədir? Yoxsa mən dəli oluram? – deyə o, öz-özünə söyləndi. – Ola bilər. Axı elə bu cür dəli olurlar, elə bu cür vurub özünü öldürürlər, – deyə o, öz-özünə cavab verdi və gözlərini açaraq heyrətlə başının yanında üzəri naxışlı yastığı gördü; bu yastığı onun qardaşı arvadı Varya tikib işləmişdi. O, əli ilə yastığın naxışlarına toxunaraq Varyanı və onu axırıncı dəfə nə vaxt gördüyünü xatırlamağa çalışdı. Lakin kənar bir şey haqqında düşünmək olduqca əzablı idi… Onun fikri sürətlə Annaya bəslədiyi məhəbbətdən kənarda qalan həyatını süzərək keçdi.*

*"Şöhrətpərəstlik? Serpuxovskoy? Yüksək cəmiyyət? Saray?" Onun fikri bunlardan heç birinin üzərində dayana bilmədi. Bütün bunlar hamısı yalnız əvvəllər müəyyən mənaya malik idi, lakin indi bu mənalardan əsər belə qalmamışdı… "Bax, adam belə dəli olur, – deyə o, təkrar etdi, – və belə vurub özünü öldürür ki… sonra xəcalət çəkməsin» deyə o, ağır-ağır əlavə etdi. O, qapıya yaxınlaşıb qapını örtdü; sonra baxışı donub qalmış və dişlərini bir-birinə sıxmış bir halda masaya yaxınlaşdı, tapançanı əlinə aldı, onu gözdən keçirdi. O, başını aşağı salıb iki dəqiqə gərgin düşüncələr içərisində əlində tapança hərəkətsiz dayandı və düşündü. "Əlbəttə" deyə o, sanki düşüncəsinin məntiqi, ardıcıl və aydın inkişafı onu şübhəedilməz bir nəticəyə gətirib çıxarmış kimi öz-özünə səsləndi. Həqiqətdə isə onda bir qənaət hasil edən bu «əlbəttə» sözü, yalnız bu bir saat müddətində içərisindən azı on dəfələrlə keçən eyni xatirələr və xəyallar dairəsinin təkrarının bir nəticəsi idi. Bu – əbədi olaraq itirilmiş səadətinin eyni xatirələri idi, qarşıdakı həyatının tam mənasızlığına aid eyni təsəvvür idi və öz xəcalətinin eyni düşüncəsi idi. Bu onun təsəvvür və hissləri silsiləsindəki eyni ardıcıllıq idi.*

*Üçüncü dəfə olaraq onun fikri yenə də xatirə və düşüncələrinin eyni sehrli dairəsinə doğru yönələrkən o, öz-özünə "əlbəttə" deyə təkrar etdi və tapançanı sinəsinin sol tərəfinə tuş tutub, sanki əlini yumub yumruğunu sıxırmış kimi, tətiyi çəkdi"* ("Anna Karenina" əsərindən).

Tolstoy hadisəni sadəcə təsvir eləmir, onun daxili məzmununu izhar edir. Nəticə qeyri-adi səviyyədə adamın ağlına tam çatır. İnsanın daxilində yetişən bir qərarı ən incə qatları ilə bərabər təqdim edir.

Müdrik şübhələr insanın mənliyinə bütünlüklə sarılanda o, özünü aldada bilmir, aldatmaq istədikcə sarsılır. Onu yalnız özünün həqiqi vəziyyəti düşündürür. Həyatın ən ləziz vədi belə, onu sarsıldan duyğuları sakitləşdirə bilmir. Canlı həyatdan imtina da beləcə başa gəlir. Onun varlığı ilə yoxluğu arasındakı fərqi nədir müəyyən edən, o, bu suala içində cavab tapa bilməyəndə onun üçün varlıqla yoxluq arasındakı fərq aradan qalxır. Vronski ilə Annanın münasibətlərində həsrətin gözlənilməz sarsıntıları onlara, özlərinin həqiqi vəziyyətlərini dərk etməyə mane olurdu. Evdən, rus cəmiyyətindən baş götürüb getmək – xaricdə yaşamaq əvvəl çıxış yolu kimi görünsə də, tezliklə onlara öz vəziyyətlərinin mürəkkəbliyini göstərən tərəddüdlər əhvallarına təsir etməyə başladı. Cismani ehtirasların yolunda maneələr qalxandan sonra unudulmuş ruhi vəziyyətin ağrıları baş qaldırır. Onlar vətənə qayıdırlar, özlərinə qarşı cəmiyyətin yad münasibətindən kəndə sığınırlar. Uzun müddət adicə həyatla məşğul olurlar. Lakin hər an hiss edirlər ki, onların həyatında özlərinin dərk eləyə bilmədiyi qeyri-müəyyən daxili təbəddülatlar mövcuddur. Vronskinin, daxildə təməli tökülmüş və qarşısıalınmaz fəlakətlə mübarizəyə girmək cəhdləri onun təbiətindəki mərdlikdən irəli gəlirdi. Fəqət Vronskinin gözəlliyə məftun olan hissləri həyatda mövqe tutmaq istəklərinin qarşısında geri çəkilməyə başlayır və təkcə mərdliyə söykənməklə doğrula bilmir. Vronski ictimai həyata can atdıqca, Annanın daxilinə şübhələr seli axmağa başlayır. Əlbəttə, Vronski səhərdən axşama Annanın dizinin dibində oturmalı deyildi. Anna özü də bilirdi ki, bu mümkün deyil. Sadəcə Annanın beyninə duman çökdürən özünün addımları – xəyanəti qarşısında intuitiv olaraq heç bir bəraət tapa bilməməsi idi. O, Vronskinin varlığı ilə təmasda olmağı yeganə təsəllisi hesab edirdi. Lakin bu təsəlli qapısı da çox vaxt onun üzünə bağlanırdı. Artıq Anna atdığı addımın fəlakətinin miqyasını duymağa başlamışdı. O, Vronskinin məhəbbətindən özünə təsəlli istehkamları qurmaq istəyiylə aldandığından xoflanır. Bu xof Vronskidə





ikrah hissi kimi təzahür etməyə başlayır. Vronski ictimai həyatın gedişatına təslim olduqca hər ikisinin məhəbbətə etibarı azalır. Anna mənliyini tanımadığı üçün Vronski ilə aralarında yaranan gərgin münasibətləri özünün mənliyinə atılan zərbələr sayır və bu zərbələrdən yayına bilmir, heysiyyəti təhqir olunur. Belə vəziyyətdə adam öz heysiyyətini qorumaq üçün mənliyinin gözəlləşməsi haqqında düşünə bilmir, özünü qəzəbin ixtiyarına buraxır. Tale şübhələrin pəncəsində elə sarsılır ki, onu xilas etməyin yolları bağlanır. Adam öz gözündən düşəndə həyata nifrət edir, intihar bundan sonra gəlir. İnamın məhv olduğu vəziyyətdə varlıqla yoxluq arasındakı məsafə aradan qalxır.

Anna bilirdi ki, onun atdığı addımların ona haqq vermək səviyyəsi yoxdur. Ona görə də o, haqlı görünməyə çalışmır, xoşbəxt olmaq arzulayır. Xoşbəxtliklə onun taleyi arasındakı körpü isə çoxdan uçub dağılıb. Bu, Annanın ağlına çatdıqca onun üçün hər şey mənasını itirməyə başlayır. Vronski ilə münasibətlərində yaranan gərginlikdə kimin çox haqlı, kimin az haqlı olduğunu düşünmək eybəcərliyin bəraətindən başqa heç nə vəd eləmir. Vəziyyətin islah olunması isə müşkülə çevrilir. Annanı, ağlını itirmək dərəcəsinə gətirən də bu idi. Anna indi daha çox yaşamaq haqqında düşünürdü. Fəqət onun vəziyyəti onun yaşamasını arzu eləmirdi. Anna nəinki səadətini itirmişdi, o bu haqda düşünə bilmirdi. Varlığın müəyyənedici şərtləri Annanın ömründə günbəgün, bircə-bircə pozulurdu. İndi bu vəziyyətdən çıxmaq üçün ona güc, səadət ümidi verməyə heç kim, heç nə – nə Allah, nə din, nə Aleksey Aleksandroviç, nə öz balası, nə Vronski qadir idi. Hər şeydən qüdrətli olan inam duyğusu əzazil şübhələrə təslim olmuşdu. Anna üçün Vronskinin daxilində də müəyyənlik sarsılmışdı. Anna inamı itirib məhəbbət umurdu. Bu, onun son ümidi idi. Bu ümidi Vronski ona verə bilmirdi, verə də bilməzdi. İnam olmayan yerdə məhəbbət bərqərar ola bilməz.

Məhəbbətin, cismani ehtirasların xudbinləşməsimi, yoxsa Annanın düşdüyü çıxılmazlıqmı Vronskidən «hər şey heç nə, Anna hər şey» qənaəti tələb edirdi. Bunun müqabilində isə Vronskinin Annaya xaslığı bütövləşmirdi və bu tələbin qırılması münasibətlərin inamdan məhrum olmasını sürətləndirirdi. Məhəbbət coşqunluğunda müəyyən mərhələyə qədər yaxınlaşma baş verir, ancaq vəhdətə çevrilmirsə, uzaqlaşma labüd şəkildə meydana çıxır.

Anna hisslərinin əsiri idi. O, elə hisslərin təsirində olub ki, özünü bütöv görmək çətinləşib. Anna üçün müşahidə elədiyi həyatla içərisindəki həyatın nə qədər ziddiyyətli olduğu aydınlaşdıqca onda varlığa qarşı ikrah hissi böyüyür.

Bayaqdan Anna dəlicəsinə yaşamaq istədiyi həyatı qanmaq istəyirdi. Həyatla dil tapa bilməmək onu o qədər çaşdırmışdır ki, nə eləməli olduğunu kəsdirə bilmirdi. Çünki o, həyatı özünün arzuladığı kimi yaşamaq istəyirdi. İndi bunun mümkünsüz olduğunu gördükdə hər şey onun üçün aydınlaşmağa başlamışdı. Artıq o, həyata həyatın təsirindən baxmırdı. Anlayanda ki, bu həyatda o, itirdiklərini itirib, daha itirəcəyi heç nə qalmamışdır, içi aydınlaşır, sərbəst mühakimələr edə bilir. Bayaqdan onu çulğayan iztirab, həyəcan ondan idi ki, Vronskiyə olan son ümidi can verirdi. Son itkilərinin fəryadı onun varlığını təlatümə gətirmişdi. Ürəyin sonuncu qapısı açılmış, könlündən keçənə qovuşmaq üçün sonuncu cəhd iflasa uğramışdı. Adamın həyatda itiriləsi bir şeyi qalmayanda ölüm ona daha yaxın və doğma olur. Anna Vronskiyə qovuşmaq səadətini düşünəndə anlamamışdı ki, onun məşəqqətli həlakəti başlayır.

Bütün dünya, həyatdakılar Annanın gözündən düşmüşdü, çünki Anna özü öz gözündən düşmüşdü. Dünya insanın özündən başlayır, öz gözündən düşürsə, dünya onun üçün mənasını itirir.

Bura qədər Anna öz şübhələriylə Vronskini bezdirdiyi üçün onun gözündən düşməməyə çalışırdı. Lakin çalışdıqca onda ikrah hissi yaradırdı, çünki Anna öz gözündən düşmüşdü. Öz gözündən düşən başqasının gözündə ucala bilməz.

Ruhun toxunulmazlığına inanmayanda cismani yaşamağın fərəhi tükənir. Annanın ruhu məhv olduğu üçün indi onun yeganə arzusu ölümlə görüş olur…

Vronskinin anası Annanın ölümünü dərin bir kədərlə xatırlayır. Lakin bu kədər Annanın ölümü ilə deyil, öz oğlunun bədbəxtliyi ilə bağlı olduğu üçün ictimai biganəliyin təzahürü kimi görünür. O, Annada dinsizlik və pozğunluq görür. Çünki bu faciənin ictimai əsasını dərk eləmir. İnsanın həlakəti bəşəri faciəni bütünlüklə açıb göstərəndə o, din səviyyəsinə qalxır. Din də bəşərin faciəsini göstərmək və aradan qaldırmaq üçün yaranır. Hərçəndi din əsasən insandan kənarda dayanır. Burada isə insanın daxili iztirabları həyatı elə çuğlayır ki, həyatın iç qatları pərdə-pərdə açılıb görünməyə başlayır. Vronskinin anası bircə





nəfərin bədbəxtliyinə acıyır – öz oğlunun. Oğluyla bir-birinə təbii olaraq ana-bala kimi bağlı olduqları üçün oğlunun iztirabları ona sirayət edir. Və o, təkcə cinsi əlaqələri görür. İnsanlığın, Anna-Vronski əlaqələrində həm səadətə, həm də faciəyə bağlı olduğunu duya bilmir, bu səbəbdən də bu əlaqədə yalnız pozğunluq görür. Ölümün gözəlliyini də duymur. Bu adi ölüm deyildi. Təsadüfi, təbii fəlakət deyildi. ***Həyat özünü doğrulda bilməyəndə ölüm daha gözəl görünür.*** Və buna görə də həyat ali səviyyədə, arzu olunan kimi səadətə bərabər qurula bilmirsə, öz yerini ölümə təhvil verir. Bu isə bəşəri məzmunda düşüncələrə işıq tutur. Tolstoy Həyat və ölüm qarşılaşmasını nə qədər cazibədar təsvir edir! Burada əslində həyat təsdiq olunur. Ali məhəbbət, ülvi səadət zədə götürəndə insan bununla razılaşmır, nisbini qəbul eləmir. Nisbidə eyni zamanda ölüm atributları var, o bunu qəbul etmir. Həyat bütöv və gözəl olmalıdır. Bu tələb həyatın həqiqi urvatını göstərir. Təkcə ana olmaq azdı. Ana balasının əzabını görür, bəşəriyyətin faciəsini isə görmür. Bəşərin faciəsini görməyəndə balanın bədbəxtliyini də dərk eləmir.

Vronskinin anası adi qadındır. Adilər isə yalnız bu cür düşünə bilər. Elə buna görə də onun günahı aradan qalxır və təkcə öz övladının əzablarına şərik olmaqla yetərlənməsi anlaşılır…

Vronski Annanın ölümündən sonra anlayır ki, onun üçün həyat Anna deməkdir. O da artıq başa çatıbdır. Bundan sonra həyatda qalmaq yalnız iztirab demək olur. Ölüm bu kimi duyğuları yenidən canlandıra bilir – əlbəttə özünün hüznlü təsirilə. Hansı qüvvə Annanı əvəz edə bilərdi ki, yaşamaq üçün Vronskiyə ümid və fərəh versin?! Tolstoy sübut edir ki, həyatda ali nə varsa, insanla bağlıdır, insan üçündür.

Din də, allah da, cəmiyyət də, məişət də, təbiət də insan üçündür…

Tolstoy Annanın ölümündən sonra əsəri dayandırmır, başqa bir obrazın – Levinin diliylə həyatı araşdırır. Annanın bu aqibətinin bütövlükdə varlıqla bağlı olduğunu israr edir. Sanki əsər yenidən başlayır. Bu səviyyə Tolstoy xislətinin və istedadının gözəlliyindən soraq verir. O, oxucunu düşündürür və onun diqqətini kitaba, kitablara deyil, həyatın daxilinə yönəldir. Oxucunu kitabçılıq marağında məhdudlaşmağa qoymur, onu gözəl həyat sevgisinə çağırır. Var olmaq üçün həyatı dərk etməyin zəruriliyini sübut edir. Gözün görə bilmədiyini, ruhun isə bildiyini bütün aydınlığı ilə izah edir. Var ol, Tolstoy!

Əsərin Levinlə davam edən hadisələri son dərəcə ibrətlidir. İnsanın daxilində gedən gərgin axtarışlar həyatın hər cür mürəkkəb vəziyyətini çox böyük uğurlarla aydınlaşdırır və münasibətlərə xeyirin ülviliyini qatır. İnsanın özüylə görüşü "həyat nədir", "cəmiyyət necədir" suallarına tutarlı cavablar verir. İnsan bioloji həyatın yeknəsəqliyində cılızlaşıb qalmır, öz mənliyinin tələbləri qarşısında məsuliyyətini dərk edir və həyatın təsirsiz bir ünsürünə çevrilməkdən özünü xilas edə bilir. Azadlığın müqəddəs yolu da elə buradan keçir. Azadlığa çıxmaq üçün gərgin, sarsıdıcı düşüncələrdən asılılığı qəbul etmək gərəkir. Beyni tüfeyli meyillərdən, ürəyi hərcayi nəşələrdən qorumadan səadətə qovuşmaq insana nəsib olmur.

İnsana ən ləziz həyat neməti, ən möhtəşəm məişət rahatlığı əbədiyyət yolunu göstərə bilmir. Adama elə gəlir ki, varidat bolluğunda onun düşünmək imkanı daha geniş olur. Əslində isə insan gerçək rahatlıq və vaxt çoxluğu ilə deyil, həqiqəti tanımaq, aramaq narahatçılığı ilə yaşamağın gözəlliyini dərk edir.

Levinin firavan həyat tərzi ömrünün heç bir mərhələsində onun daxili həyəcanlarını, sarsıntılarını əvəz edə bilmir. Daxili nizamın əsasında həqiqət yoluna düşmək bacarığı durur. Levinin tərəddüdləri, sarsıntılardan doğan fikir dəyişkənliyi ona həqiqətə qovuşmaq səadəti bağışlayır. Levinlə ilk tanışlıqdan, yəni əsərin lap əvvəlindən biz onun gərgin axtarışlarda olduğunu müşahidə edirik. Levinə elə gəlir ki, onun əsas qayğıları yalnız ailə qurmaq məsələsiylə bağlıdır. Əgər nəzərə alsaq ki, Levinin ailə qurmaq yaşı da ötüb keçir, onda onun narahatçılığının məhz bundan ibarət olması zahirən heç bir şübhə doğurmaz. Lakin taleyinin mürəkkəbliyi ilə Levinin özünü nəhəng sınaqlar qarşısına çəkdiyini izləməli oluruq.

O, Kitini sevir. Onun sevgisi təmiz, müqəddəs bir sevgidir. O, öz sevgisinə qarşı hansı münasibətin olacağını bilmir. Ona görə də həyəcanlı, əzablı anlar onu təqib edir. Çünki o özünün varlığının mənasını bu anda məhz bu məhəbbətin uğurla vüsala çevrilməsində görür. Levin ilk dəfə Kitiyə məhəbbətin həyəcanlı çağırışıyla baxanda, onun üçün bütün axtarışlarının, həyatın hər cür gözəlliyinin məzmunu bu baxışda cəmləşmişdi. O, özünün bütün suallarının cavablarını da bu əlaqədə tapacağına ümid bəsləyirdi. Və nəhayət, onun bütün həyat axtarışlarının mərkəzində Kitiyə yönələn izdivacının durduğunu düşündüyü bir vəziyyətdə rədd cavabı alması dünyanı gözündə qana





çalxalayır. Bu vəziyyətdə onun üçün həyatın mənasının nədən ibarət olduğunu, yaxud olacağını təsəvvürünə gətirə bilmir. O dərəcədə gərgin yaşayır ki, nə üçün ölmədiyini, niyə yaşamalı olduğunu kəsdirə bilmir. Bioloji həyatın yeknəsəqliyi onu iyrəndirir. Ali münasibətlərin olmadığı, insanın özünü tanımadığı, dərk eləmədiyi bir həyatda yaşamağın əhəmiyyətini görə bilmir. Bundan sonra onun ağlını həyat haqqında deyil, ölüm haqqında düşüncələr qaplayır. Uzun müddət o bu ağır hisslərin təsiri altında yaşayır. Həyatda nəyə inansın, nəyi sevsin, necə sevsin – bu sualların cavabı tapılmayanda insan həyatda yaşamağın gərəklimi, gərəksizmi olduğunu ayırd edə bilmir. Levin etiqadsız yaşaya bilmir. Fəqət o, özünü qanmadığı, hamının kor-koranə yapışdığı etiqada tapşıra bilmir. Onu həqiqi etiqad, mütləq səmimiyyət düşündürür. O, dindəki zahiriliyi görür və onu bütünlüklə yalan və gərəksiz sayır.

Levin həyatın əsasında inamı oyuna çevirən ibadətçiliyin deyil, insana həqiqi insani münasibətin durmalı olduğunu düşünmək və buna görə də xidmət göstərməkdən fərəhlənmək istəyirdi. O, öz dediyi kimi zehni məqsədlər üçün deyil, həyat üçün gərəkli addımlar atmağı doğru sayırdı. Lakin bu həyat nədir axı? Levin burada ilişirdi.

Kiti – saf, məsum bir qız olmaqla yanaşı, hələ həyatda öz müstəqilliyini yaratmayan və dərk etməyən bir qızdır. O, öz duyğularının körpə sevincləri ilə yaşadığı üçün həyatına daxil olan gözlənilməz uğursuzluqlar onun inamına sarsıdıcı zərbələr vurur və uzun müddət məşəqqətli bir ömür sürməli olur. Tolstoy özünün bu gənc obrazını müxtəlif mürəkkəb şəraitlərə çəkib aparmaqla onda yeni daxili keyfiyyətlər üzə çıxarır. İnsanı çətinliklərlə görüşdürüb mətinləşdirir və ləyaqətli həyat qurmağa sövq edir. Burada ailə məsələsinin son dərəcə ciddi olduğunu da hər an diqqətə çatdırır. Deməli, insan sevir və bu sevgisi əsasında ailə qurmayanda sarsılır, həyat onun üçün az qala mənasını itirir. Lakin bir müddət dözümlə yaşayandan sonra bəlli olur ki, bundan sonra da yaşamaq mümkündür, həyat davam edir. Amma bu davam edən həyat insanın itirdiyi səadəti ona qaytara bilmir. Kiti Vronskini sevirdi. Lakin demək olmazdı ki, bu sevgi Kitinin daxili mənliyinin hökmdarı idi, o, Vronskiyə sadəcə məsum duyğularının və anasının gözüylə baxmışdı.

Sonralar Levinin yeni izdivacı Kiti üçün, ümumən Şerbatskilər ailəsi üçün səadətin üzündən pərdəni götürür və çətin anları arxada qoyur. Kitinin qəlbindən ötən günlərin ağrıları götürülür. Bəlkə də Kiti

öz xoşbəxtliyini indi tapır. O, daha sevimli və cazibədar görünür. Adam öz xoşbəxtliyi ilə bir olanda bütün insanlara, hadisələrə sevginin gözüylə baxır. Adam xoşbəxt olanda duyğuları saf və sağlam olur.

Levinin də bu izdivacdan sonra qəlbi sevgi işığına elə qərq olur ki, ölüm haqqında, yox olmanın vahimələri haqqındakı çırpınmalar onun daxilini tərk edir. Kitidə başqa qızlardan fərqli nə var idi ki, Levinə bu cür estetik bir həyat bağışlayırdı?! Adam ilahi bir sevgi ilə vurulduğu adamı çox vaxt dərindən tanımır. Niyə sevdiyini də çox vaxt bilmir. Məhəbbətdə bir bilməzlik də var. O içəridən gəlir və adamın bütün varlığını qaplayır. Məhəbbətin ilahiliyi elə bundadır. Bundan sonra Məhəbbət dərk olunsa da, öz ilahi qüdrətini azaltmır, – inamı təsdiq edir. Bu inam Levinə varlığın dərki istiqamətində yeni qapılar açmağa imkan verir. Məqamın bu dərəcədə həlledici qüdrətə malik olması bədii təxəyyülün və ya şairanə etirafın təzahürü deyil, həyatı duymağın və sonrakı taleni müəyyən etmənin əsrarəngiz gəlişi və ecazkar təsir eləmək imkanıdır! Levin düşüncələri ilə gerçək həyat arasındakı uyğunsuzluğu mühakimə edir. Hər dəfə ömrünü təbii həyatın tələbləri ilə təmin etməyini də özünün suallarının həqiqi cavabı olduğunu zənn edir. Lakin hər dəfə o, yeni suallar qarşısında qalır. Sakit vəziyyətdə onun zehni imkanları dini, onun elan elədiyi ilahi qüvvənin gerçək həyata təsirini qəbul etmədiyi halda, Kitinin doğum ərəfəsində qeyri-ixtiyari olaraq İlahi qüvvədən imdad diləməsi və Kitinin xilasını da məhz Allahdan rica etməsi onun axtarışlarının çox ziddiyyətli durumda olmasını sübut edir.

Həyat haqqında düşüncələr, daxili axtarışlar və gerçəkliyin öz qanunları, gedişatı, bütün bu ziddiyyətli görünən dünya, Təbiət Levinin öz daxilində bir müəyyənliyə gəlib çıxmasına mane olurdu. Artıq Levində vəziyyətin özü özünü izah eləməyə başlamışdı – daxilin ali kəşfləri bunu deməyə əsas verirdi.

İnsan yaxşı yaşayıb pis düşünürsə, həyatı mövcud edən şərtlər icra olunur, amma həyat ifadə olunmur, başqa sözlə, mənasına layiq olmur. Həyatı qanmayanda o, mənasına deyil, mənasızlığa uyğun olur. Həyat dərk olunanda insan gözəlliyi seçir, eybəcərliyi seçmir. Müqəddəslik də bu səviyyədə yaşayır. İnsan intuitiv olaraq yaxşı iş görəndə müqəddəslik görünüb yox olur, yaşamır. Görünüb yox olmaq – yaşamağın əlaməti deyil, həyatla ölümün (olmaqla olmamağın), varlıqla yoxluğun əvəzlənməsinin əlamətidir.





Levin ata da olur, firavan həyatı davam edir, lakin onun məna axtarışları başa çatmır. Onun üçün həm həyat var, dünya var, məişət var, təsərrüfat var, həm də bu həyatda, bu dünyada onun öz həyatı, öz dünyası var. O, cismani həyata zəruri olaraq nə qədər tez-tez baş vurmağa məcbur olsa da, dərhal öz sevimli dünyasına qayıdır, özüylə təması bərpa edir.

Levin ona təklif olunan etiqada doğmalaşa bilmirdi. Özünün tapmaqda olduğu və dərk etməyə çalışdığı həqiqət isə onun üçün təkrarolunmaz, əlçatmaz bir etiqada çevrilməkdə idi. Etiqad daxilin aydınlığında yaşaya bilər və buradan dünya başlaya bilər. Etiqad kortəbii təsirə malik olanda dünya nəinki gözəlləşmir, əksinə, gözəlliyindən məhrum olur.

İnamsız kimi tanınan Levin əslində əsil din axtaran fərddir. Elə bir din ki, o, insanı aldatmadan onu həyatın bütün sirlərinə doğmalaşdırsın və etiqadda hər cür saxtakarlığı aradan qaldıraraq insanla dünyanın həqiqi əlaqəsini dərk etməyə yardımçı olsun.

Kiti inamsız tanınan Levinə çox inanırdı. Çünki o, Levinin daxilində gedən axtarışları dərk etməsə də, bu axtarışların təzahürlərini müşahidə edib görürdü. Levin hamı kimi yalandan və qorxudan kortəbii olaraq inana bilmirdi. O, həqiqəti bilmək istəyirdi. Hamı həqiqəti kilsədə axtarırdı, Levin isə öz daxilində. Hamı yaxşı əməlləri kilsədən gözləyirdi, Levin isə özü həyata keçirməyə can atırdı. Allah – kilsənin uydurması kimi hamıdan kənarda idi, Levinin isə öz içində idi. Hamı Allahdan həyata yaxşılıq göndərməsini rica edəndə Levin bu çağırışın insana yaraşmayan yalan olduğunu düşünürdü. Kiti hamının Allahdan umduğunu, – dərk etməsə də, Levində öz gözləri ilə görürdü. O, dərk etməsə də, səadətlə təmasda idi. Levin də bütün bu gedişlərin mahiyyətini axtarırdı. Levin öz axtarışlarının həyatda cücərtilərini görmək üçün fikirlər dənizinin coşqunluğuna atılırdı. Daxildəki tapıntını həyata keçirmək çox çətindir. Bu çətinliyi – ruh və bədən təzadı yaradır. Bu səbəbdən də gərək özün ruhuna bənzəyəsən ki, bu cür ali istəkləri həyata keçirmək mümkün olsun.

Naqisliklərdən təmizlənmək, ruhaniyyata bənzəmək çətin mərhələdir. Təmizlənməyin necəliyi min illərdir bəşəriyyəti düşündürür. Ömrə ruhun təsiri o vaxt mümkün olur ki, ruhun nəliyi bilinsin. Yüzillərdir bəşəriyyət başqa şeyləri ruh adlandırıb ömrə gətirir, bu isə

istəniləni doğrultmur. Yalnız ayrı-ayrı böyüklər həqiqətlə görüşə biliblər. Lakin bu həqiqəti bəşəriyyətə verməyin üsullarını tapa bilməyiblər.

Mənəviyyatdan asılı olmayanların yaratdığı dünya mənəvi keyfiyyətlərə qol-qanad verə bilməz…

Bu dünya Tolstoyun istədiyi dünya deyil. Onun üçün dünyanı (onun halını, şəraitini) başqaları yaradıblar, özü də çox pis yaradıblar. Pis dünyada özünü xoşbəxt hiss eləmək mümkün deyil. Ona görə də o, öz dünyasını yaratmaq haqqında gərgin düşünüb, gərgin yaşayıb. Elə bir dünya ki, sevgiyə, müqəddəsliyə istehza yoxdur. Elə bir dünya ki, inamı oyuna çevirmək mümkün deyil.

Asif Atanın (İnam Atanın) Ocağı olaraq, biz də belə bir dünya yaradırıq və insanları bu ülvi dünyaya səsləyirik. Gələcəklər onlar, yeknəsəq, cansıxıcı dünyadan bizim ülvi dünyamıza.

Bu dünyanı biz ciddi yaradırıq, uydurmuruq. Böyük sözlərdən pərdə tutmuruq üzümüzə. Bizdən kənardakı dünyanın bizə göstərdiyi oyuncaq «səadət»dən imtina edirik. Bizi şirnikdirmək istədiyi yalançı nemətlərə həvəslənmirik. Qurban vermirik öz dünyamızın dəyərini, fərəhini dəbdəbəli çağırışlara, aldadışlara. Yalanın üzünə gülmürük, həqarətin üzünə qapı açmırıq. Dünyamıza biclik nəfəsini yaxın qoymuruq, məkr sədasını yaxın qoymuruq, əyri baxışları rədd edirik. Müqəddəsliyi qoruyuruq. Qoy dünyamızdan müqəddəslik odu götürsünlər. Özümüzün ruhani dünyamızda Tolstoylara yiyə oluruq ki, uluların axtarışlarının sirli, sehrli gözəlliyi yaşama gəlsin…





## HƏYAT ÜFÜQLƏRİ

### (L.N.Tolstoyun "Hərb və Sülh" əsəri üstə düşüncələr)

Sənət ciddi məsələdir. Bu ciddi məsələ ilə ciddi insanlar məşğul ola bilər. Sənət yaratmaq – həyatı dərk edən, onun iç anlamını, insan varlığının aşkara çıxan-çıxmayan incəliklərini görən, bilən və göstərməyi bacaran şəxsiyyətin işidir. İctimai həyatda insana yanlışlardan çıxmağa yardım etmək sənətin xüsusiyyətlərindən biridir. Həyat dolaşır, dolaşdırılır, talelərə yeriyir qarışıqlığı ilə. Bir insan taleyində nizamın pozulması bəzən onlarla insanın taleyinə təsir göstərir. Çünki insan toplumsal həyat sürməyə məhkumdur. Bu məhkumiyyət onun varlığının mahiyyətindən doğur. Kainat cisimləri müstəqil fəaliyyət göstərə bilmədiyi kimi, insan da toplumdan fiziki təcrid olub yaşamını müstəqil sürdürə bilmir. Ona görə də insanlar bir-birini anlamağa borcludur. Bir-birini anlamaq – yaşamın qədrini bilmək deməkdir. Böyük şəxsiyyətlərin çabaları da yaşamı insanın gözündə qiymətləndirməyə xidmət edir.

Hər kəsin başı yaşamında yaranan qarışıqlığa qarışanda, şəxsiyyətin işi pozulmaqda olan insani münasibətlərin bərpasına yönəlir. Bu məsələdə şəxsiyyətin zəhmətinin ortaya gətirdiyi uğur onun yaradıcılıq fəaliyyətinin ölçüsündən və ideya siqlətindən asılı olur. Əlbəttə, bir var köklü dəyişikliklər, bir də var ictimai həyatda etik davranışların, insani münasibətlərin bərpasına qulluq göstərmək. Birinci məsələ inanc işidir, ikinci məsələ isə elmin, sənətin işidir. Burada biz ikinci məsələnin yönündən söhbət açacağıq. Çünki Tolstoyun yaradıcılığı sənət faktıdır. Doğrudur, biz dönə-dönə vurğu eləmişik ki, Tolstoy sənətdən üstün hadisədir. Onun axtarışlarının yönü din siqlətindədir. Bununla belə, biz Tolstoyu bütöv bir hadisə kimi din, yəni inanc zəmini üzərində təqdim edə bilmirik. Çünki onun belə bir sistemi mövcud deyildir. Ancaq toxunduğu məsələlərin müəyyənlik xətləri bir ucuyla inanc məsələsinə dayanır. Ona görə də biz əsərlərinə üz tutanda Tolstoyu ən gözəl xəyal estetikasının örnəyi kimi deyil, varlığın sirrinə vaqif olub gözəllikləri həyata qaytaran yaradıcı kimi təhlil edirik...

Sənətin gözəlliyi ondadır ki, davranışların, ünsiyyətlərin təbiiliyi, sadəliyi, dinamikliyi, canlılığı füsunkar bir cazibə yaradır. Bu cazibə,

əsərdəki mənfi xarakterlərin təzahürlərini müşahidə eləyəndə belə, ürəyimizi yorulmağa qoymur. Əks halda, əsərin təsiri öz gücünü itirər və üzücü bir ovqatın basqısı altında düşüncələrdən məhrum ola bilərik. Tolstoy öz obrazlarının xarakterlərini həyatın məzmunundakı dərinliklərdə təqdim edir. Ona görə də diqqətimizi qüsurlu xarakterlərin müstəvisinə daşıyanda belə, sevinirik. Çünki anlayırıq, görürük, tanıyırıq, bilirik. Çünki məktəb keçirik, öyrənirik. Bu məktəb bizə nə etməli olduğumuzu izah edir, doğru yaşamağın çətinliklərini, fəzilətlərini açıb göstərir.

Tolstoy yaradıcılığı bədii ədəbiyyatdırmı, yoxsa həyatın özüdürmü?! Bəlkə tərəddüd doğuran bu sual, cavabın özü üçün ən doğru bir zəmindir. Yaşamaq üçün zəmin nədir – inanmaq! Bəs inamın bərkiməsi üçün zəmin nədir – düşünmək! Tolstoy yaradıcılığı da bizi düşüncələr, axtarışlar yoluna salır. Bu isə elə həyatın özü deməkdir. Tolstoy hansı sahədən danışırsa, özü haqqında həmin sahənin mükəmməl bilicisi təsəvvürü yaradır. Təhlil edə bilmədiyi sahəni əsərə gətirmir. İnsanın həyatına bağlı olan məsələlərdən səthi danışıb yan keçmir, onu bütün dolğunluğu ilə izah etməyə çalışır. Məsələn, əsərdə hərbçilərin həyat tərzindən, davranışlarından, həyata baxışlarından elə sərbəst danışır ki, elə bil çoxillik hərbi təcrübəsi var. Qısa müddətə hərbdə olmaq bu təfsilatı vermək üçün yetərli deyil. Doğrudur, həyat prinsipləri ümumidir, hərbçinin evdə, cəmiyyətdə davranışı cəmiyyətin başqa zümrələrinin davranışlarından xüsusi fərqlənmir. Ancaq hər halda, onların psixoloji durumları zahirən çox diqqət çəkməyən xırda incəliklərdə özəl fərqləri ilə üzə çıxır.

Əsərdə çoxsaylı obrazların xarakteri o qədər dəqiqliklə işlənmişdir ki, münasibətlərin ümumi ahəngi pozulmur. Müxtəlif və mürəkkəb xarakterlərin hər birini sabit ahənglə qoruyub saxlamaq üçün istedad azdır. Burada yazıçıdan zəngin şəxsiyyətlilik tələb olunur. Bu zənginlik təkcə dövrün sosial-ictimai xarakterini qavramaqla yetərlənmir, bütövlükdə bəşər həyatının inkişaf aşamalarını (mərhələlərini) doğru təhlil eləmək və dəyərləndirmək səviyyəsi ortaya çıxarır.

Tolstoyun bu əsəri ilə bağlı müəyyən bir söz demək üçün onu üç cəhətdən dəyərləndirib ümumiləşdirmək olar: birinci cəhət – həyatın təbii gedişatı və insanlararası münasibətlərin, əlaqələrin bu gedişata zamaniçi və zamandışı təsiridir. İkinci cəhət – xarici səbəblərin bu əlaqələri pozmağa yönəlməsinə baxmayaraq, əlaqələrin daha da





möhkəmlənməsi və üçüncü cəhət – keçmişlə indinin, keçmişlə gələcəyin əlaqələrində insan varlığını dərk eləmək!

İndi əsərin öz köməyilə bu cəhətlər üzrə bəzi məqamlara, daha doğrusu, obrazların xarakterlərindəki özünəxaslığa, dəyişikliyə və inkişafa diqqət yetirək. Bu keyfiyyətlərlə biz təkcə dövrün mədəni-mənəvi, ictimai-sosial anlamına deyil, insanlığın dövrdən yüksək olan ümumbəşər tələblərinə yetirik. Hərçəndi Tolstoyun əsəri ağa-qul mühitində yazılıb. Onun obrazlarındakı bütün uğurlu keyfiyyətlər imtiyazsız kəndlilərin (bütövlükdə təbəqənin) mənliyindən qıraqda təsvir olunur. Buradan belə çxır ki, Qulun romantik düşünməyə, insan kimi yaşamağa vaxtı və imkanı yoxdur. Gerçək sıxıntıları, basqıları nəzərə alsaq, bu, belədir. Ancaq bu, onun alnına yazılmayıb. Hesab edirik ki, yüksək mənəvi əhvallar maddiyyat üzərində deyil, ürəyin gözəlliyində yaşayır. Əsərdə bəzi çalarlar bunun əksini göstərsə də, insanı təbəqəçilik qəlibində dərk eləmək mümkün deyil. Məsələn, biz varlı təbəqənin nümayəndəsi olan Rostovu qabaqcıl düşünən, həyatın mənasını anlayan biri kimi izləyirik. Məsələn, Denisovun pulunu Telyanin oğurladıqda, Rastov onu açıq şəkildə ifşa edir. Halbuki hamı Rostovu üzr istəməyə çağırırdı. Çünki hamı orduda zabitin nüfuzunun düşməməsini hesablayırdı, Rostov isə vicdanını həqiqətdən yan ötürə bilmirdi. Onun içində həqiqətə yönəlik sağlam əhval var idi. Ona görə də açıq davranırdı. Özü də bilirdi ki, açıq davrananın suçu olmadıqda belə, bütün suçlar ona qarşı yönəldilir. Onun isə yeganə "suçu" diplomat kimi davranmamasında idi.

Bir yerdə biz, yoxsullaşan Rostovun bütün varlığının qarışdığını müşahidə edirik. Sonradan varlanmaq onun keyfiyyətlərini yenidən dirçəldir. Bu da o deməkdirmi ki, yoxsulun məhəbbətli olması, qabaqcıl düşünməsi mümkün deyil?! Təzadlı görünsə də, bu durum, Tolstoyun insani keyfiyyətləri təbəqədə axtarması anlamına gəlmir. Sadəcə, Tolstoy canlı həyatın özündə dəyişikliyin baş verə biləcəyinə inam yaradır və yüksək təbəqənin qəlbində böyük ideallara sevgi bəsləməklə cəmiyyətin dəyişməsinə xidmət edir. Hər şeyin baş-ayaq olduğu ağa-qul mühitində insanın mənliyini düzəltmək üçün onun təbəqəçilikdən yüksək olduğunu diqqət mərkəzinə gətirir. Ayrı-ayrı obrazlarda dövrə sığmayan keyfiyyətlərin aşkarlanması, onların həyat eşqiylə çağlayan düşüncələri bu dediyimizə canlı bir örnəkdir. Əsərə müraciət edək:

*"Düşmən atəşə ara verdi və iki düşmən qoşununu bir-birindən ayıran o ciddi, müdhiş, görülməz və bilinməz hüdud daha aydın hiss edilməyə başladı.*

*Diriləri ölülərdən ayıran bir xətti andıran bu hüduddan bir addım o yanda min bir əzab və ölüm başlayırdı. Orada, o çölün, o ağacın, o günəşdə parlayan damın arxasında nə vardır? Kim vardır? Kimsə bilmir, amma bilmək istəyir. Bu hüdudu keçmək qorxuludur, amma adam onu keçmək istəyir. Hər kəs bilir ki, tez-gec bu hüdudu keçəcək və orada nə olduğunu öyrənəcək, bu, öləndən sonra nə olacağı bilmək qədər zəruri idi."*

*("Hərb və Sülh", I cild, səh. 195).*

Necə parlaq bir təsvir. Burada insanın daxilən sirli, əsrarlı olması təbii bir ahənglə, harmonik olaraq izahını tapır. İnsanda hər şeyi bilmək meyli həyatın bütün mərhələlərində özünü göstərir. Fəlakətin içinə girmək, ölümün sirrini öyrənmək insanda nəşə gətirici bir ovqat yaradır. Ən çətin və gərgin anlarda qorxunu ötmək, fəlakətdən o tərəfdə səadətin olduğuna ümid bəsləmək, qaranlıqlardan o üzdə işığa qovuşmağın mümkünlüyünü düşünmək insanın ölməz, əbədi bir keyfiyyətini – inamını təsdiq edir. Tolstoy insana xas olan bu daxili qüdrəti öz obrazlarının xarakterində aydın bir şəklə salır və onu sadə bir dildə təqdim edir.

*"Oooo!.. Allah xatirinə, buraxın, – deyə yaralı bağırdı, onu qaldırıb xərəyə qoydular.*

*Nikolay Rostov üzünü o tərəfə çevirib, bir şey axtarırmış kimi, uzaqlara, Dunayın suyuna, göyə və günəşə baxdı. Göy nə qədər qəşəng görünürdü, o nə qədər mavi, sakit və dərindir! Qüruba doğru enməkdə olan günəş nə qədər parlaq və gözəl idi! Dunayın suyu nə qədər xoş və zərif bir halda parıldayırdı! Uzaqda, Dunayın o üzündə mavilәşən dağlar, monastr, əsrarəngiz dərələr, təpələrinə qədər dumanlara dalan şam meşələri daha gözəl idi... Oralar sakit və xoşbəxt idi..." Bircə orada olsaydım, heç bir şey, heç bir şey arzu etməzdim, heç bir şey arzu etməzdim – deyə Rostov düşündü. Təkcə məndə və bu günəşdə o qədər səadət var ki, amma burada... inilti, iztirab, qorxu, bir də bu anlaşılmazlıq, bu tələsiklik... Bax, yenə də çığırırlar, yenə hamı geriyə qaçır, mən də onların dalınca qaçıram. Bax, odur, odur, ölüm, başımın*





*üstündə ölüm, ətrafımda ölüm... Bir anda hər şey itə bilər, mən bir daha bu günəşi, bu suları, bu dərəni görməyəcəm..."*

*(I cild, səh.202).*

Arzular, təbiətin gözəlliklərini şövqlə seyr edən duyğular və bu gözəlliklərə qarşı törədilən qanlı əməllər bir-birindən fəlakətli bir sərhədlə ayrılır. İnsan idrakının məhdudluğu fəlakət deməkdir. Ona görə də məchul boşluqlarda azıb çaşan insan idrakı əzəli və sonsuz gözəlliklərin yaşama gəlməsinə əngəllər yaradır. Yerə-göyə sığmayan qorxu cəngəlliklərində təbiət sevgisi, bəşər sevgisi qəhr olunur. Qorxu cəngəlliklərinin içində tüyünən insan ilahi hikmətləri dərk eləmir, öz növündən olanlara qənim kəsilir. Bəşər tarixi vəhşətlərlə doludur. İnsan gözəlliklərə qıymaq, məhv eləmək ehtirasından usanmır. Sülhə, əmin-amanlığa silah tuşlamaqdan geri durmur. Yaşıl ormanları tüstüyə, mavi göyləri qara dumana bürümək – cəhalətin hökmüylə titrəyən ürəklərin yazdığı tarixdir. Bu tarix bütün dövrlərdə sanki yenidən canlanır. Hər bir nəsil özündən öncəki tarixin fəlakətlərini təkcə kitablardan oxumur, öz yaşadığı dövrdə əməli olaraq müşahidə edir.

Ətrafa yağan mərmi partlayışlarıyla göylərin aydınlığının tüstülərə bələndiyi bir zamanda Rostovun gözlərindən qəlbinə əsrarəngiz təbiət gözəllikləri axıb dolur. Bu gözəlliklərin arxasında ölməz bir gələcəyin varlığı bütün qüvvəsi ilə onu həyat eşqinə bağlayır. Dünyanı qana qərq edən müharibənin dağıntılarının eni və uzunu nə qədər geniş olsa da, Rostovun qəlbini bir anda vahimələrə qərq etsə də, bir insan duyğularının yaratdığı kamil dünyanın əsrarını sevgilərimizdən qopara bilmir. Elə bədii ədəbiyyatın əsil siması da bu cür duyğuların və bu duyğuların yaratdığı dünyanın ülviliyini bizə anlatmasında özünü göstərir. ***Əsil bədii ədəbiyyat insan duyğularının, arzularının, ideala meylinin obrazlardakı təcəssümüdür.***

Gerçəklikdə insan duyğularının, arzularının yaşaması üçün normal zəmin yoxdur. Həyat təzadlarla doludur. Ona görə insan əlini-qolunu sallayıb rahat yaşaya bilmir. O, mübarizə aparır. Bəs bu mübarizə təzadları aradan qaldıra bilirmi? Bu suala cavab tapmaq üçün mübarizənin haradan başlamasını bilmək çox önəmlidir. Mübarizəni kiminlə aparmaq, nə üçün aparmaq – insanın özünə bəllidirmi? Mübarizə nə uğrundadır – həyatda hansısa bir mövqeyə sahib olmaq uğrundamı, yoxsa həyatda gözəllikləri, ülvilikləri bərqərar etmək uğrundamı?

Birinci məsələ ilə bağlı aparılan mübarizə qanlı savaşlara, kütləvi qırğınlara gətirib çıxarır. Hamı müharibə istəyirmi, kimdir müharibə istəyən? Həyat üzərində, insanlıq üzərində üstün bir mövqe tutmaq istəyənlər həmişə zora əl atır və insanları kütləvi şəkildə özünə tabe edir. Başqa sözlə, öz mənafeyi uğrunda onların qanlı savaşlara qatılmasını təmin edir. Ümumiyyətlə, müharibə siyasi mənfəət deməkdir. Bu mənfəət ya kiminsə şöhrətinin, başqalarına ağalıq eləmək ehtirasının dövrəsində fəlakət atəşinə çevrilərək əmin-amanlığı yandırıb-yaxır, ya daxili siyasət uğursuzluqlarından diqqəti yayındırmaq üçün boş və mənasız bir bəhanə ilə ortaya çıxır. Guya qıraqdan ölkəni təhdid edən qüvvələrə qarşı müharibə cəbhəsi açılır. Yaxud da bu müharibə yüksək sayılan təbəqənin varlanmaq istəklərinin gizli şəkildə qarışdırıcılığı ilə həyata keçirilir. İstənilən halda, müharibə ilə heç bir uğur əldə olunmur. Tərəflərin udub-uduzması şərti xarakter daşıyır. Müharibəni ortaya gətirən istəklər insanın daxili aləmində yaşayan bəşəri hisslərə nə verə bilər ki? Müharibə aparmaq arzuları ilə bəşəri sevgi bir insan daxilindəki təzad deyil, ictimai münasibətlərdəki təzaddır. Bəzən isə, insanın iç dünyasındakı əhvalla, onun ictimai aləmdə daşıdığı mövqe, səlahiyyət özlüyündə təzad təşkil edir. İnsan öz içinin tələbləri ilə düşünsə də, ictimai qaydaların diktəsi ilə yaşamlı olur. Bu da fərdin öz ömründə toqquşan bir məsələdir. Məsələn, Knyaz Andreyin fərdi düşüncələri orduda daşıdığı səlahiyyətlərə sığmır. Məcburi daşıdığı vəzifə ilə fərdi azadlığının doğurduğu əhvallar təzad təşkil edir. Əslində bir insan ömründə yaşanan təzadlı əhvallar bütövlükdə ictimai qaydaların nizamına mənfi təsir göstərir. Çünki ictimai qaydalar ayrı-ayrı fərdlərin münasibətlərinə və davranışlarına bağlıdır.

Normal vəziyyətdə insan bu məsələlərin fərqinə varmaya bilər. Ancaq üzləşdiyi ən ağır bir durumda o, öz istəklərinin əksinə hərəkət etdiyini dərk edir. Və özünün də içində olduğu proseslərin doğru olmadığını, hətta insanlığa qarşı olduğunu anlamağa başlayır. Budur, Knyaz Andrey yaralanır. İndi o, bütün varlığı ilə həyatın gözəllikləri ilə ünsiyyətə çəkilir. *"Nə qədər də sakit, rahat və əzəmətlə axırlar, bunlar heç mənə oxşamırlar, mən qaçırdım. Biz qaçırdıq, bağırırdıq və döyüşürdük. Fransızla topçu qəzəbli və qorxmuş bir halda bir-birinin əlindən topsiləni qoparmağa çalışırdılar, buludlar isə elə deyillər. Bu yüksək, sonsuz səmada buludlar yavaş-yavaş axır. Necə olub ki, mən bu vaxta qədər bu yüksək səmanı görməmişəm. Nəhayət, bu yüksək səmanı*





*gördüyüm üçün nə qədər xoşbəxtəm. Bəli! Bu sonsuz səmadan başqa hər şey boş, hər şey yalandır. Bundan başqa heç bir şey yoxdur! Heç bir şey. Lakin səma özü də yoxdur. Sükutdan və istirahətdən başqa heç bir şey yoxdur".*

*(I cild, səh.359).*

Səma o vaxt var ki, insan qəlbindən doğan bəxtiyar duyğular səmanın aydınlığına bağlanır. Təəssüf ki, insan niyə yaşadığını dərk eləmir. Başqalarına əzab verir, sıxıntı gətirir və ən son anda özü bu məchul münasibətlərinin fəlakətləri ilə üz-üzə qalır. İnsan həyatdan qazandıqlarını əldən buraxmamaq üçün həyatın özünü itirənə qədər gedir. Həyatla öz istəkləri arasında sonsuz bir sərhəd gördükdə isə anlayır ki, həyatdakıların heç biri onunku deyilmiş. Həyatdan istədiklərini həyat qarşılıqsız vermir. Həyatın istədiyi qarşılıq isə insana fəlakətdən, faciədən başqa bir şey saxlamır...

Savaş, qırğın – qiyamətin cəhənnəmi... İnsanları qurban vermək nə üçün? Məgər vətən insanların ölməsi, öldürülməsi üzərindəmi qutsaldır? Məgər vətənin, dəyərlərin yaşaması mütləq savaşdanmı keçməlidir? Qırğınsız gözəllik sevilməzmi, müqəddəslik dərk olunmazmı?! Bəşəriyyət niyə bu qədər heyvana enir? Bu heyvanlığın başında niyə dövlətlər durur? Bəlkə ona görədir ki, dövlətlərin başında heyvanlıq durur? Əgər dövlətlər heyvanlığı sürdürürsə, bəs özgürlük, azadlıq nə deməkdir? Bəs onda ədalət, vicdan harda özünü göstərəcək? Bəs onda ədalətin, vicdanın tələblərinin həyata keçirilməsi niyə dövlətə tapşırılır? Bəs niyə dövlətin yazdığı qanunlar ümid yeri olur? Axı bu qanunları kim həyata keçirəcək?

Bu sualları düşündükcə, Asif Atanın "Ruhani Dövlət" ideyasının nə qədər yüksək əxlaq, dərin məna daşıdığı aydın bir şəkildə görünür.

Ümumiyyətlə, qanlı savaş meyli hardan başlayır? Bu savaşın başa gətirilməsi ilə onun nəticəsi arasında heç cür əlaqə qurmaq olmur. Savaşın başlanğıcında ehtiraslı niyyətlər, güc nümayişi özünü göstərir, sonda isə ölçüyə gəlməyən, sözlə ifadəsi mümkün olmayan faciələr, insan əzabının son həddi. Adi bir şəraitdə insana əzab verilsə, görən, bilən hər kəs etiraz edər. Ancaq döyüş şəraitində insanın işgəncəli ölümlə üzləşməsinə təbii baxırlar. Buna qaçılmaz səbəb olduğunu düşünürlər. Üzdən baxanda adi görünən bu paradoksallıq dərk olunmur. Ancaq dərk olunsaydı, bu dərketməni bütün bəşər həyatının dönüş

mərhələsi kimi qiymətləndirmək olardı. İnsanlaşmaq, ruhani cəmiyyətin formalaşması, ruhani dövlətin qurulması, bəşər varlığının ləyaqət üstə bərqərar olması ideyalarının altında həyatın bütöv bir əyintisinin mahiyyətini dərk eləmək dayanır.

Adama belə bir paradoksal gedişatın aradan qaldırılması mümkünsüz görünür. Halbuki ortaya çıxan qanlı əməllər hardasa bir yerdən başlayır. Bir yerdən başlayanın bir yerdə sona çatması mümkün olmazmı? Qanlılıq bəşər nəslinin insanlaşmaması ucbatından ayaq açırsa, insani cəmiyyətin qurulmağa başlaması ilə müəyyən bir gedişatda dayandırıla bilməzmi? İnsan niyə xislətindəki heyvana daha çox inanmalı, mahiyyətindəki insana isə yox?! Biz burada yenə "Mütləqə İnam" ideyasının zəruriliyi ilə üzləşirik. Mütləqə İnam insandakı nisbi əməllərə, bir az da sərt desək, heyvana pərəstişi aradan qaldırmaq üçündür. İnsan nəyə pərəstiş edirsə, həyatda o qalib olur. Asif Ata insana pərəstişi, səcdəni önə çəkir. Bu çağdan sonra onu eşitməklə İnsanın (İnsanlığın) qalib olmasını təsdiq eləmək mümkündür.

Deyirlər, heyvanın da Allahı var. Asif Ata deyir, heyvanın Allahı yoxdur. Çünki Allah (Məna) tanındığı, sevildiyi, ifadə olunduğu dərəcədə var. Heyvan Allahı tanımır, sevmir və ifadə eləmir. Heyvanın sadəcə bir həyat ünsürü kimi, təzahür kimi Allaha (Mənaya) dəxli var. Tanınmayan, sevilməyən, ifadə olunmayan yoxdur deməkdir. Yəni bir var imkan, bir də var gerçəklik. Allahın gerçəkliyə təsiri insanın öz mahiyyətinə bərabər yaşaması və ülvi münasibətlər qurması deməkdir. Bu, heyvanda yoxdur. Heyvan kortəbii şəkildə mövcudluğunu sürdürür. Kainatın daxili qüdrəti imkandır. Bu imkan kainatın bütün ünsürlərində ifadəyə gəlməlidir.

Heyvanda ifadə, dediyimiz kimi, mövcud olması ilə məhdudlaşır. Ancaq insanda mövcudluqdan yüksəyə qalxmaq hər zaman mümkündür. Bununla belə, insan da öz mövcudluğuna bərabər yaşayırsa, deməli, Allah onun ömründə də ifadə olunmur. İnsanda Allah imkan kimi İnsanlıq deməkdir. İnsanlıq da ifadə olunmursa, necə demək olar ki, insanın Allahı var. Yəni, tutaq ki, bir fərddə rəssamlıq imkanı var. Əgər o imkan aşkarlanıb gerçəklikdə özünü büruzə vermirsə, necə demək olar ki, o fərd rəssamdır. Yəni Allah yalnız imkan kimi qalanda dünyada heç nə dəyişmir. Ancaq onu gerçək əməllərdə ifadə edəndə dünya füsunkar bir fərəh qaynağına çevrilir. Nə qədər ki, Allah gerçəklikdə ifadə olunmur, onda gerçəklik Allahsızlıqdan ibarət olur, yəni İblislik hökm





sürür. Əslində İblislik Allahın yoxluğudur. Allahı ömründə, yaxud ictimai həyatda var edərsən, İblislik yox olar. Allahı da var etməyin anlamı İnsanlaşmaqdır.

Bu dediklərimizi əsərdəki bir örnəklə də izah etmək olar.

*"...Mən Doloxova güllə atdım, çünki özümü təhqir olunmuş hiss etdim. XVI Lüdoviki cani hesab etdikləri üçün edam etdilər, bir il sonra da onu edam edənlərin özünü yenə müəyyən bir səbəbə görə edam etdilər. Nə yaxşıdır? Nə pisdir? Nəyi sevmək, nəyə nifrət etmək lazımdır? Yaşamağın mənası nədir? Hansı qüvvə bizi idarə edir? Pyer bu sualları özünə verir və heç birinə cavab tapa bilmirdi. Ancaq bircə cavab vardı, o da məntiqsiz və bu suallara dəxli olmayan bir cavabdı. O cavab bu idi: "Ölərsən, hər şey qurtarıb gedər. Ölərsən, hər şeyi bilərsən, yaxud daha sual verməzsən". Lakin ölmək özü dəhşət idi".*

*(II cild, səh. 70).*

Bu suallar insanı əbədi narahat edən suallardır – yaşadığımız həyat nədir? Yaxud heyvanat aləmindən bizim fərqimiz varmı?! İnsan öz həyatını niyə mənalı yaşamır? Yaxud mənalı yaşamaq üçün o, nə etməlidir? Bu suallar hər kəsi düşündürməli suallardır.

Tolstoy obrazının diliylə yuxarıda vurğuladığı sualları "Etiraflarım" əsərində öz diliylə verir. Hətta o bu suallara bütöv bir cavab tapmadıqca, həyat gözündən düşür. Bu sualların doğurduğu iztirablara intihar etməklə son verməyi qərarlaşdırır. Ancaq bacarmır. Çünki bu, çıxış yolu deyildi. Ona çıxış yolu lazım idi. O, çıxış yolunu peyğəmbərlərin dediklərində tapdı.

Burada qoyulan suallar və axtarışlar bizim üçün heç də təkrarçılıq təsiri bağışlamır. Əksinə, həyatın mənasını düşünmək üçün axtarışlarımıza yön verir və içimizdəki həyat eşqini ideala bağlı bütün tərəfləri ilə qüvvətləndirir.

Tolstoyun axtarışları ayrı-ayrı obrazlarında müəyyən cəhətləriylə birləşir və bütövləşir. O, həyat məsələlərini izah eləmək üçün bir obrazının xarakterini çoxcəhətliliklə yükləmir. Bu da təbiidir, çünki həyatın gedişi, nizamı, yaxud nizamsızlığı bir fərddə deyil, bütövlükdə cəmiyyətin inkişaf qanunauyğunluqlarında öz izahını tapır. Ona görə də hər bir obrazın özünəxaslığını öyrənməklə əlaqələrin ümumi nizama təsirini dərk eləməyə çalışacağıq. Bu əlaqəni biz, ən çox iki obrazın xarakterində

öyrənirik. Haqqında söhbət gedən xarakterləri Pyer Bezuxovla, Nataşa təmsil edir.

Bir məsələ də var ki, dediyimiz bu iki xarakter başlanğıcda bir-birindən tamamilə ayrılıqda və uzaqda görünür. Ancaq hadisələrin gedişi zaman-zaman bu iki xarakteri bir-birinə doğru çəkib aparır... Əsərin başlanğıcında Pyerin taleyini izlədikcə, adama elə gəlir ki, bu adam bədbəxtliklə bir yerdə dünyaya gəlib. O, ailəyə mənsub olmayan, nikahdan qıraqda doğulmuş və o dövr üçün heç bir ictimai hüququ olmayan şəxs kimi səhnəyə çıxır. İlk çağlar xarakteri də taleyi kimi dağınıq olan, heç kim tərəfindən diqqətə alınmayan bu fərdin timsalında, biz sonralar müdrik niyyətlərin şahidi olacağıq. Nataşanın timsalında isə gəncliyin çılğın, ehtiraslı, şövqlü həyat eşqini izləyəcəyik. Yəni Nataşanın daim həyat üfüqlərində qanad çalmağa can atan hissləri ilə Pyerin həyatın dərin qatlarına meyil edən müdrikliyinin vəhdətində yazıçının estetik ideallarına doğmalaşacağıq. Bu iki obrazda üzə çıxan keyfiyyətlərin birliyi əslində bütöv bir cəmiyyətin həyat nizamının açarıdır.

Pyerin taleyindəki mürəkkəbliklər əsərin daxili dramatizmindəki xətlərdən birini təşkil edir. Atası Qraf Bezuxov ömrünün sonunda bütün mülkünün vərəsəlik hüququnu Pyerə tapşırır. Bundan sonra Pyer onu əhatə edən mühiti tanıya-tanıya yeni həyata doğru irəliləyir.

*"Bu cəmiyyət üzvlərini bir-birinə bağlayan əhəmiyyətsiz dərəcədə xırda, süni mənafe içərisinə gözəl və sağlam gənc kişi ilə qadının bir-birinə meyli də gəlib düşmüşdü. Bu insani hiss hər şeyi əzir, bütün bu süni laqqırtılar üzərində qanad çalırdı. Zarafatlar nəşəsiz, yeniliklər maraqsız, həyəcanlar da yəqin ki, saxta idi. Nəinki onlar, hətta stol ətrafında fırlanan lakeylər də, sanki bunu hiss edir və xidmət intizamını unudaraq, gözəl Elenin gülümsəyən üzünə və Pyerin qırmızı, şişman, məsud və rahatsız üzünə baxırdılar. Sanki şamların alovları da ancaq bu iki xoşbəxt üzə işıq salırdı".*

*(I cild, səh.276).*

Pyerin düşdüyü mühit onun durumunun acınacaqlı səviyyəsini bütün çılpaqlığı ilə gözümüzün qarşısında canlandırır. Qraf Bezuxov ölənə qədər Pyer öz ömrünü yaşayırdı və bu ömür heç kim üçün maraqlı deyildi. Onun varlığı ilə yoxluğu arasında sərhəd başqaları üçün bilinmirdi. Qraf Bezuxov öləndən sonra isə Pyer öz ömrünü yaşamadı.





Artıq onun ömrü əhatə olunduğu mühitin tələbləri ilə tərtib olunurdu. Çünki ona böyük miras qalmışdı. Qanun Pyerə miras hüququ tanıdığı üçün, o, hər kəsin diqqətini məşğul edirdi. Pyer, əhatə olunduğu mühitin insanları üçün, insani qiymət ifadə etmirdi, əmtəə qiyməti daşıyırdı...

Əslində Tolstoyun bu əsəri heç bir çalarıyla köhnəlmir, sanki bu günün ictimai keyfiyyətlərini açıb göstərir. Yəni o dövrlə bu dövrün arasında heç bir prinsipial bəşəri dəyişiklik baş verməyib. Nə qədər ki, insanlaşma qanunları işləməyəcək, əsər bu günün aktual problemlərinin parlaq ifadəsi olaraq qalacaq. Millətlərin sağlam bəşəri dəyərlər daşıyıcısına çevrilməsindən sonra bu mövzu arxivləşəcək, yaxud tarixi fakta çevriləcək.

Burada yurdumuz Azərbaycanla bağlı bir haşiyə çıxmaq yerinə düşərdi. Azərbaycanın indiki durumunu biz fərdin timsalında izah etməli olsaq, Pyerin obrazını seçmək məqsədəuyğun görünər. Tarixdən və təbiətdən miras qalmış Azərbaycan nemətlərinə siyasi güclərin münasibəti o dövrün kübar cəmiyyətinin fərdə münasibəti kimidir. Knyaz Vasili (Qraf Bezuxovun kürəkəni) Pyerin əldə etdiyi mirasa ortaq olmaq üçün hər cür oyundan çıxır, hətta qızını da ona sırıyır. Pyerin bir insan kimi mənliyi onlara söz demir.

Azərbaycanın milli-insani, tarixi dəyərləri də heç kimin ləyaqətinə işıq salmır. Hamı onun coğrafi mövqeyinə, təbii sərvətlərinə və "qara qızıl"ına umsunur. Bunun üçün də, Azərbaycanı, ona hazırlanmış süni bir aqibət yaşamağa vadar edirlər. Azərbaycan coğrafi durumundan və sərvətlərindən imtina edə bilməz, bu mümkünsüzdür. Ancaq milli-mənəvi gücə sahib olmaqla, özünü idarə olunduğu bu gülünc durumundan xilas edə bilər...

Biz dedik ki, Pyerin əhatəsində olanların ona münasibəti hüquqi varis kimi tanınmasından sonra bütün mürəkkəbliyi ilə özünü göstərməyə başlayır. Hətta onun ailə həyatına başlaması da mürəkkəb taleyin xətlərindən birini təşkil edir. Pyerə insan kimi deyil, miras sahibi olduğu üçün, sunulan bir qadın onu ilk çağlardaca insan əzabının sıxıntılarına soxur. Normal ailə səadəti yaşamaq əvəzinə, xəyanətin sarsıntıları Pyerin düşüncələrinə hakim kəsilir. İndi o, mənliyinə, kişilik heysiyyatına vurulan zərbələrin ağrıları ilə yaşamalı olur. Adətən belə hallarda insana təsəlliverici bir fikir, ideya, yaxud ümidverici əhvalda olan bir şəxs ilk addımdaca təsir göstərə bilir. Pyer də qatarda yol gedərkən "mason düşüncə daşıyıcıları"nın ustadlarından biri ilə

qarşılaşır və qısa söhbətlərdən sonra özünü, gələcəyini belə bir məsləkdə görür. Bu gedişlər, əlbəttə, Pyerin içində gedən axtarışların aşamalarıdır. İnsan bütöv, dəyişməz, dolğun bir meyara bağlanmaq üçün qıraqdan yetkin təkan olmasa, illərlə axtarışda olur.

*"İndi onu (Pyeri – S.A.) nə Peterburqa gec və ya tez gedib çatması, nə də bu stansiyada rahatlanmaq üçün yer olub-olmaması maraqlandırırdı, hətta bu stansiyada bir neçə saatmı, ya ömürlükmü qalacaqdı, – indi onu məşğul edən fikirlərin yanında bunun heç bir əhəmiyyəti yox idi".*

*(II cild, səh.69).*

İnsanlığın ən böyük problemlərindən biri sosial durumundan, ictimai mövqeyindən, vəzifəsindən, səlahiyyətindən asılı olmayaraq, bütün insanlarda mənəvi ağrılar eyni təsirə malikdir. Xəyanətin, sədaqətsizliyin təhqirindən böyük işgəncə olmur. İnsan ruhunun sarsıldığı məqam hər şeyi qara göstərir, həyat mənasını itirir, ölümlə diriliyin arasındakı sərhəd aradan qalxır. Allaha inamdan yaranan gözəlliklər belə, dünyanı tərk edib təsirini itirir.

Pyerlə Eleni bir-birinə bağlayan duyğular çox üzdə idi. Bu duyğuları, öndə də vurğuladığımız kimi, Qraf Bezuxovdan qalan miras və ona tamah salan Knyaz Vasiliy idarə edirdi. Pyerlə Elen sədaqət, məhəbbət hisslərini tanımadan, aşkarlamadan bir-birinə bağlanmışdılar. Ömürlərin vəhdətinə yol açmayan və dərk olunmayan bu bağlılıq indi ən böyük əzaba çevrilmiş və insan ləyaqətinin təhqiri ilə sonuclanmışdır. Hətta duel kimi amansız, dəhşətli, ölümsaçan bir münasibət təhqirə uğrayan ürəyə təsəlli verə bilməmişdir. Çünki dueldə nəticəyə atəş açılmışdır, səbəbə yox. Çünki səbəbə atəş açmaq heç mümkün də deyil. Səbəb atəş açılan canda deyil, yuyulması atəş açandan asılı olmayan bulanmış bir könüldədir – Elenin öz zahiri gözəlliyinə küsənən könlündə. Atəş könülləri durultmaz, yalnız qisas istəyini başa çatdırar...

Bəşər tarixinin görkəmli fikir adamları, devrimçi düşünərlər ictimai problemlərin əsas səbəbini sosial ədalətsizliklərdə axtarıblar. Halbuki bütün fəlakətlərin özülündə mənəvi problemlərin həllolunmazlığı dayanıb. Dini siyasətə çevirənlər dərk etməyiblər ki, inanc məsələsi kütlənin fərdi mistik istəklərinin ifadəsi deyil, bütövlükdə həyatın həqiqi nizamını saxlayan bəşəri bir qüvvədir. Bu qüvvəni qorumaqla ailədə, insani münasibətlərdə, sosial həyatın yönəldilməsində olan əyintiləri





aradan qaldırmaq mümkün olar. Dövlətin insana gətirdiyi xoşbəxtlik də həmin qüvvəyə xidmət eləməkdən keçir.

Pyerin içindəki təbəddülatlar ictimai həyatın müəyyən gərginliklərini izah etməyimiz üçün önəmli rol oynadığından əsərdəki çalarların məntiqinə diqqət yerirək: *"...Bu qadın (Pyerin oxuduğu romandakı obraz – S.A.) öz məşuquna qarşı nə üçün mübarizə edirdi, o ki onu sevirdi? – deyə Pyer düşündü. – Allah öz iradəsi xilafına ona heç bir şeyi bəxş etməmişdir. Mənim keçmiş arvadım mübarizə etməzdi və bəlkə də, o, haqlı idi..."*

*(II cild, səh. 70).*

Pyer hələ öz içində doğru bir ölçü tapmadığı üçün nəyin doğru, nəyin yanlış olduğunu kəsdirə bilmir. O, öz vicdanı qarşısında doğru olduğuna inanmaq istəyir. Eyni halda, bütün bu düşüncələrin, bu "bəlkə"lərin içində üzüntülərdən xilas olmaq və yaşamaq qətiyyəti gizlənirdi. Əslində bu əzab Pyerin öz aldanışlarından doğan bir təsir idi. O, adi duyğularla həyat məktəbinə daxil olmuşdu. Burada onun dərin düşünə bilməməsindən və biliksizliyindən yaranan sərt sınaqlar iç dünyasının dərinliklərinə nüfuz etmiş və köklü duyğularını zədələmişdir. Böyük anlamda isə Pyerin itirdiyi bir şey yox idi. Çünki o, heç nə tapmamışdı. Başqa sözlə, Elen onun tapıntısı deyildi. Onu təhqir edən məsələ də məhz itirdiyi bir şey deyildi. Sadəcə olaraq o, anlamışdı ki, Elen onun mənliyinə hakim deyilmiş, yəni ortada köklü sevgi münasibətləri olmayıb. Knyaz Vasilinin quramaları nəticəsində Elen Pyerin mənliyini əyləncəyə çevirmişdir.

Bununla belə, Pyerin mənəvi dünyasındakı ağrılar, narahatlıqlar, çaşqınlıqlar Elenin bu dünyaya (Pyerin həyatına) gəlməsiylə başlamamışdır. Səbəbi bütünlüklə bir fərdin xarakterində axtarmaq həqiqi vəziyyəti ifadə eləyə bilməz. Pyerin qərarsızlıqlarının başlıca səbəbi öz içində idi. Yenə əsərə müraciət edək: *"Bəşər övladının nöqsanlı cəhətlərini islah etməyi düşünən və bunun mümkün olduğuna inanan, eyni zamanda öz-özünü də təkmilləşdirməni yüksək dərəcədə qaldırmaq istəyən yenə o (Pyer – S.A.) deyildimi?"*

*(II cild, səh. 308).*

*"Bəzən o, öz-özünə təsəlli verərək deyirdi: "Bu həyat ki, mən keçirirəm, bu müvəqqəti bir şeydir, həmişə belə olmayacaq". Lakin*

*sonra başqa bir fikir onu dəhşətə salırdı. "Elə müvəqqəti bir şey deyə bir çoxları sənin kimi bu kluba ağzı dişli və başı saçlı girmişlər, oradan da dişsiz, saçsız çıxmışlar".*

*(II cild, səh. 309).*

Pyer keçirdiyi həyat tərzindən razı olmasa da, islah olunmaq asan başa gəlmir. Onun öz arzuları xilafına yaşamasında tüfeylilik görməsi təbii idi. Ümumiyyətlə, insanlar gördükləri, eşitdikləri (gözəl həyat haqqında) hikmətlərin təsiri ilə bəzən həmin hikmətlərə xidmət eləmək qərarını verirlər. Ancaq həyat şərtləri ilə əqidə şərtləri arasında qalanda birinciyə təslim olur və sıradan həyatlarını yaşamaqda davam edirlər. Eyni zamanda əqidə cazibəsindən də ayrılmaq istəmirlər. Belə olanda onlar özlərinə təsəlli vermək üçün bəsit yaşantılarını ötəri bir mərhələ kimi qiymətləndirirlər. Əslində isə o cür zəiflik və təslimçilik mərhələ deyil, tərzdir. Əgər bu tərzi dəyişməyə cəhd olmasa, ömür bəsit bir axarla sonuna doğru sürüləcəkdir.

Pyeri həyat da çaşdırır, insanların münasibətləri də. Hətta onun inandığı və böyük dəyişikliklər yaradacağına ümid bəslədiyi mason cəmiyyəti də, əməli davranışlarda toplumun saxta davranışlarından heç nəyi ilə fərqlənmir. "Mənim mason qardaşlarım öz qanlarına and içərək yaxın adamları üçün hər şeylərini qurban etməyə hazır olduqlarını söyləyirlər, lakin kasıblar üçün pul yığılanda bircə manat da vermirlər". Bəli, sözdə hər şeyi söyləmək asandır. Hətta adamlar sözdə dilə gətirdikləri fədakarlığı o qədər asan deyirlər ki, sanki onu əməli olaraq yaşamışlar. Əslində özünü tanımayan və dəyişməyən adamların əməlləri sözdən o yana keçmir, sözdə dayanıb qırılmaqla sözü də adiləşdirib dəyərdən salırlar.

Ümumiyyətlə, həyatda yaşananlarla deyilənlər arasında müəyyən bağlılıqlar olsa da, bunlar bir-birindən xeyli uzaqdırlar. Çünki yaşanan nə qədər görünsə də, özündə bir sirr daşıyır. Bu sirrin yaratdığı doluluq adi ifadənin bəsitliyinə uyğun gəlmir. Yaşanan – sirrdir, Deyilən (danışılan) sirrin sadə, hətta adi biçimdə faş olması. Ona görə yaşamın gözəlliyini bədii ədəbiyyatda təsvir etmək böyük sənətkarlıq və istedad tələb edir. Müdrik o kəsdir ki, dediklərini yaşama (həyata), onun məzmununa maksimum dərəcədə yaxınlaşdıra bilir.

Pyerin xoşlamadığı həyat tərzindən uzaqlaşmaq istəyi nədən təkan götürürdü? Adam nə qədər ki, fəlakəti başqalarının həyatında müşahidə





edir, o, ən yaxşı halda acıyır və təəssüf hissi keçirir. Ancaq ağrıları öz mənliyində daşıyanda fəlakətin nə demək olduğunu anlamağa başlayır.

Pyerə mənəvi əzab verən, mənliyini parçalayan arvad xəyanəti, Elenin ölümü ilə başa çatmışdı. O, mənəvi təhqirdən xilas olmuşdu. Mənliyini təhqirdən açmış bir sevinc anı yaşayırdı. Bu sevincdən zahirən elə görünür ki, Pyer insan ölümünə bu dərəcədə sadə bir əhvalla şadlanır. Halbuki o, mənliyini təhqir edən bir prosesin başa çatmasına sevinirdi.

Elen Pyerin həyatına daxil oldu və çıxdı. Ancaq onun taleyinin gələcəyi bu qısa dəyişikliklə başa çatmalıdırmı? Onun həyatında nə aydınlaşıb və nə həll olunmuşdur?

Bundan sonra Pyerin taleyində dəyişiklikləri yönəldən bir-birinə zidd olan iki hadisə olmuşdur. Bunlardan biri Nataşanın varlığıdır, o biri isə müharibənin sel kimi gətirdiyi fəlakətlərdir. O, müharibədə döyüşməsə də, yurdunun fəlakətini, soydaşlarının acılarını uzun zaman öz varlığında sadəcə hiss etməmiş, hətta bütün çətinlikləri ilə yaşamışdır. Bundan sonra o, həyatı daha dərindən düşünməyə başlamışdır. Eyni halda, Nataşanı düşünməyə başlayandan gələcəyə ümidi artmış və insani əlaqələrin mənasız olmadığını dərk etmişdir. Nataşa onun içində sağlam duyğular oyadır. Özünə də münasibəti aydınlaşır, topluma da. Pyer Nataşanın timsalında bütün cəmiyyəti sevirdi. Nataşaya olan sevgisindən qəlbinə dolan səadət elə bir qüvvətli işığa çevrilirdi ki, o, bu işıqda bütün insanların ancaq yaxşı cəhətlərini görürdü. Heç kimdə yaşam üçün yararsız bir kobudluq müşahidə eləmirdi, yaxud özü bunu görmək istəmirdi.

Tolstoyun insanda aşkarladığı bu hal bizim üçün də həm dəyərlidir, həm də düşündürücüdür. Əcəba, biz, Asif Atanı sevənlər, onun Yolunu gedənlər, sevgimizin işığı ilə insanlardakı dəyərli cəhətləri görüb pis cəhətləri görməməkdən məmnun qala bilirikmi? Yoxsa o cəhətlər mərhəmətli olmağa çağırılan xristianların özünəməxsusluğudurmu? Bəs hər addımda gözümüzə soxulan məkr, xəyanət, dağıdıcılıq, vəhşət necə qiymətləndirilməlidir? Biz eybəcərliyi özü üçün normaya çevirib yaşamın bütün qaydalarını pozanlara qarşı xristiansayaq mərhəmətli olmalıyıqmı, yaxud xristian bu mərhəməti doğru sayırmı? Asif Atanın təliminə görə bu məsələyə daha köklü yanaşılır. Bir var fərdin davranışlarında üzə çıxan adi nöqsanlar, əlbəttə, bu nöqsanları qabardıb üstünə yerimək doğru deyil. El arasında buna "mərdi qova-qova namərd

etmək olar" deyirlər. Nöqsana qarşı deyingənlik onu aradan qaldırmır, daha da böyüdür. Bir də var fərdin ictimai nizamı pozmağa yönələn şər əməlləri. Bu şər əməllərə qarşı mərhəmətli olmaq isə şəri bəraətləndirə bilər. Belə halda, fərdə qarşı sevgi bəsləməklə şəri döymək mümkün olmur. Ona görə də şəri nifrətlə damğalamaq gərəkir. Dediyimiz kimi, şərin təsir miqyası o qədər böyük olur ki, sevgi bəsləmək üçün fərddə dəyərli bir keyfiyyət tapmaq mümkünsüzləşir. Odur ki, onun şərə qulluq göstərən əməllərini nifrətin zəhmiylə sarsıtmaq gərəkdir. Təbii ki, əsərdə Pyerin sevgisini məsələnin bu dərinliyinə bağlamağa ehtiyac yoxdur. Nataşaya sevgidən oyanan əhval, İnsanlığın ictimai gedişatda yaratdığı nizamın bir atributu kimi önəmlidir. Çünki insanda həqiqi sevginin yaranması ömürdə ciddi dəyişikliyə gətirib çıxara bilir. Ancaq bu sevgi ötəri olmamalıdır. Yəni əks cinslər arasında yaranan sevgi böyüyüb həqiqət sevgisi ilə birləşməsə, ömürdə yetkinləşmə də bütövləşməz. İnsan həyatda bəzən hansısa əhvallardan, münasibətlərdən sevinə bilir. Gedib-gələn sevinc anları adi haldır. Adam içkidən keflənir, içkinin təsiri gedəndə isə kefliliyi də gedir. Yəni qıraqdan gələn keflilik, sevinc halı ötəri olur. Ancaq içdən həqiqətə bağlananda ömrün fərəhi davamlı və tükənməz olur. Necə ki, bulaq suyu özündən qaynadığı üçün tükənməzdir.

Biz dedik ki, Pyerin axtarışları onun ömrünə təsir edən iki hadisəylə daha çox aydınlaşmışdır. Bunlardan birinin Nataşa, o birisinin isə müharibə fəlakəti olduğunu demişdik. Pyer ictimai həyatı dərk eləmədiyi və bu həyatda öz yerini də müəyyən eləmədiyi bir zamanda müharibə birbaşa yaşadığı evin içinə gəlib girmişdir. Müharibə nə deməkdir? – İnsanların kortəbii düşüncələrə malik olması, özgə evinə soxularaq qarət eləməsi, aparılması mümkün olmayanların yandırılıb sıradan çıxarılması, başqalarının namusuna təcavüz olunması, əsirlərin üzərində ağalıq ehtiraslarının həyata keçirilməsi, onların ən adi sərbəst bir davranışına görə qətlə yetirilməsi və b.k. Bütün bunlar Pyerin gözləri qarşısında baş verdiyindən həyatın nə demək olduğu onun üçün bir anda anlamını itirmişdir. Əsərə müraciət edək:

*"(Pyer – S.A.) Özü başa düşməsə də, onun qəlbində dünyanın düzgün quruluşuna, bəşəriyyətə, öz qəlbinə və Allaha olan inam məhv olmuşdu...*





*O hiss edirdi ki, bir də yenidən həyata inanmaq onun ixtiyarında deyildir".*

*(IV cild, səh. 48).*

Pyer əsirlikdə tanış olduğu Karatayevin aydın mülahizələrində, şən əhvallarında, sanki azadlıqda yaşayırmış kimi, davranışlarında yeni bir məna və yaşamaq gücü tapmışdı. Doğrudur, burada təsir qıraqdan gəlir, ancaq inamın barmaqları onun içindəki sarı simə toxunmuşdu. Onun içində Mənanın sonsuzluğu ilə ünsiyyət üçün pəncərə açılmışdı. Ümidlərini puç edən sıxıntıların əbədi olmadığını anlamağa başlamışdır.

*"...yanında uzanan Platonun müntəzəm xorultusuna qulaq asdı və hiss etdi ki, bir az əvvəl dağılmış dünya indi qəlbində yeni bir gözəlliklə, yeni və sarsılmaz əsaslar üzərində canlanmağa başlayır..."*

*Bu adamlar (əsirlikdə olanlar – S.A.) sonralar Pyerin təsəvvüründə dumanlı bir şəkildə qalmışdı, Platon Karatayev isə Pyerin qəlbində ən qüvvətli və əziz bir xatirə kimi, bütün rus xasiyyətini təmsil edən mərhəmətli, mülayim və kamil bir varlıq kimi həmişəlik olaraq yaşadı".*

*(IV cild, səh. 52).*

Pyer Karatayevin dilindən sadə bir insan qəlbinin gerçəkliyin durumunu ifadə edən həqiqətləri dinləmişdi:

*"Məhkəmə olan yerdə ədalətsizlik olar..."*

*"Dilənçi torbasından və bir də həbsxanadan heç vaxt boyun qaçırma..."* Bu durumun mahiyyətini Karatayev özü dərk eləmişdirmi, yoxsa gedişata boyun əyməyə adətmi etmişdir? Bunu söyləmək çətindir. Ancaq bir həqiqət var ki, gedişatın ədalətsizliyi insanın içində gələcəyə olan inamı axıra qədər məhv edə bilmir. Dağların dumanında azan adam bir yerdə dayanıb ümidini itirmir. O, müəyyən bir səmt axtarır və gedir. Dumanlardan o tərəfdə nə olduğunu görməsə də, öz durduğu yeri və özünü bütün aydınlığı ilə görür. Dumanın içiylə haraya yerini dəyişsə də, özünü və durduğu yeri aydın görəcəkdir. Ola bilər ki, duman adamı yanlış yerə aparıb çıxartsın. Ancaq gedib çıxdığı yerdən mütləq özünün getməli olduğu yer üçün müəyyənlik öyrənəcəkdir. Yəni ən pis məqamda belə, çıxış nöqtəsi tapmaq olur. İnsanın özünü aydın görməsi ümidin yaşaması deməkdir. Pyer üçün Karatayev özünü görməsi və ümidlənməsi üçün bir işıq qaynağı idi. Bu işığın sayəsində o, öz içində sağlam mühakimələrə başlamışdı:

*"Pyer göyə, göyün dərinliklərində sayrışan ulduzlara baxdı. "Bunların hamısı mənimdir, bunların hamısı məndədir, bunların hamısı mən özüməm!" – deyə düşündü. "Bunların hamısını da onlar tutub, taxta ilə hasarlanmış anbara salmışdılar!"*

*(IV cild, səh.109).*

Kainatın ən böyük sirri insandır. Möcüzəsi də insandır. Dünya insandan qıraqda mənasını itirir. Ona görə insan özü elə dünyadır. Ancaq bu dünyaya münasibət heç vaxt tam sağalmır, şikəst durumda qalır.

Napoleon dünyaya meydan oxumaq üçün silaha pərəstiş edir. Ancaq dünyanı fəth etmək qədər də uğursuz fəaliyyət yoxdur. Ölkələri viran qoymaqla aşkarlanan qüvvə mənəviyyatsız bir təsir kimi ölümə bərabərdir. Napoleon əsir bir dustaq kimi anbara saldırdığı Pyerin qəlbinin dərinliklərinə hakim ola bilmədiyini dərk etsəydi, xülyəvi niyyətlərlə yaşamazdı. Hökmranlıq ehtirası düşüncəyə hakim olduğu andan fərdin özünün fiziki və mənəvi ölümü üçün zəmin hazırlayır. Ağalığın çılğın və güclü hökmü ilə nəşələnən bir ürək bəşəriliyin məntiqinə bağlı aydın bir mühakimə yürütməz!

Pyer Napoleonun əsiri idi, ancaq onun dünyasının sakini deyildi. Napoleonlar həyat işığını söndürməyə çalışdıqca Pyerlərin qəlbində həyat eşqi çiçəklənirdi. Bu isə Xeyirin şərdən daha qüvvətli olmasının əlamətidir.

*"O (Pyer – S.A.) bilmişdi ki, xoşbəxtlik insanın özündədir, təbii, insani ehtiyacları təmin etməkdədir və bütün fəlakətlər kasıblıqdan yox, israfçılıqdan əmələ gəlir. Lakin bu axırıncı üç həftəlik səfər zamanı o, yeni və təsəlliverici bir həqiqət də öyrənmişdi. O öyrənmişdi ki, dünyada heç bir qorxulu şey yoxdur...*

*O öyrənmişdi ki, bir zaman, güman etdiyi kimi, öz xoşu ilə öz arvadına evləndikdə heç də indikindən, yəni gecələr tövləyə salındığı günlərdə olduğundan çox azad deyildi".*

*(IV cild, səh.155).*

*"Həyat hər şeydir. Həyat Allah özüdür. Hər şey bir-birinə qarışır və hərəkət edir, bu hərəkət özü Allahdır. Nə qədər ki, həyat var, Allahı dərk eləmək məmnuniyyəti də vardır. Həyatı sevmək – Allahı sevmək deməkdir. Bu həyatı öz əzabları, öz günahsız əzabları ilə sevmək ən çətin və ən xoşbəxt bir sevgidir".*

*(IV cild, səh. 160).*





Müharibə həyatı məhv eləməklə əslində Allaha qarşı yönəlib. Hər bir talançılıqda, dağıntılarda, insan əzabında Allahı qəhr etmək var. Allahı qəhr edənlər də kilsələrdə ibadət edirlər, Allahı sevənlər də. Ona görə də Kilsələrdə Allah var olmur. Allah insan qəlbinin gözəlliklərində var ola bilər. Allahı qəlbin sevgisindən məhrum edəndə müharibələr, qırğınlar, yaramazlıqlar həyatın üstünə şığıyır. Tolstoy da Pyerin diliylə bu həqiqəti anlatmağa çalışır:

*"Onun (Pyerin – S.A.) indi məqsədi ola bilməzdi, çünki indi o inanırdı, qayda-qanuna və ya sözə, yaxud fikrə yox, canlı və hər yerdə hiss olunan Allaha inanırdı. Əvvəllər o, Allahı qarşısına qoyduğu məqsədlərdə axtarırdı...*

*O, əsirlikdə dərk etdi ki, Karatayevdəki Allah daha böyük, sonsuz və əlçatmazdır, nəinki masonların qəbul etdiyi kainatın Memarında".*

*(IV cild, səh.206).*

Ölkənin padşahı xalqın içindən ayrılır və xalqdan yüksəkdə durur. Başqa sözlə, özünü xalqdan yüksəkdə saxlayır. Ona görə də ictimai həyatda mütləq ədalət bərqərar olmur. Çünki padşahın əsas məqsədi mütləq ədaləti bərqərar eləmək deyil, özünü xalqdan üstün saxlamaqdır. Dinlər də Allahı padşah xislətində dərk edirlər: kainatı və insanı idarə edən, eyni halda kainatdan və insandan uzaqlarda yerləşən bir güc qaynağı. Ona görə də dindar Allahı axtarmaq üçün çox uzaqlara baxır, dönüb qəlbinə, yaxud yanındakı insan xilqətinə baxmır. Bəlkə də bu amillər insanın daxili azadlığı məsələsi ilə bağlıdır. Bir çox fikir adamları deyirlər ki, mütləq azadlıq yoxdur. Amma Asif Ata deyir ki, Mütləq Azadlıq var. Ümmiyyətlə, Azadlıq nədir? Bu suala doğru cavab tapmadan azadlığın nisbi, ya mütləq olması haqqında qərar vermək çətin olar. Bizə görə, azadlığı nisbi sayanlar, başqa sözlə, mütləq azadlıq yoxdur deyənlər azadlığı xarici aləmin insana, insanın xarici aləmə təsiri ilə ölçürlər. Bizə görə, xarici aləmə münasibətdə insanın nəyi haqq edib, nəyi haqq etməməsi onun azadlığının miqyasını bildirmir. Onun azadlığı daxilindəki heyvani duyğuların təsirindən xilas olması ilə ölçülür. Başqa sözlə, insan öz içində kamil duyğuların, ruhani idrakın tələbiylə addım atarsa, bu, onun həqiqi azadlığını ifadə eləmiş olar. Naqis duyğuların və bəsit ağılın tələbi ilə atılan addımlar nisbi azadlıq yaradır. Deməli, Azadlığı nisbi sayanlar insanı necə var, elə qəbul edənlərdir. Asif Ata isə

Kamil İnsan səviyyəsinə əsaslanır. **Kamil İnsanın qeyri-kamil azadlığı ola bilməz.**

Burada Azadlıq və zərurət anlayışlarının mənasını aydınlaşdırsaq, onların birliyini, yaxud ayrılığını həyat və ruhaniyyat birliyi, yaxud ayrılığı kimi izah edə bilərik. Bizə görə azadlıq ruhanidir, zərurət həyati. Spinoza azadlığı dərk olunmuş zərurət kimi qiymətləndirir. Dialektik materialistlər isə obyektiv zərurəti birinci, insanın iradəsinin, şüurunun, azadlığının törəmə olduğunu, yəni ikinci olduğunu sübut etməyə çalışırlar. Asif Ata isə Azadlığı rədd edilmiş zərurət sayır. Bu nə deməkdir? Əgər zərurət həyatdan gəlirsə, başqa sözlə, həyatın mövcudluğunu saxlayan qanunauyğunluqları ifadə edirsə, onun rədd olunması nə deməkdir? Asif Atanın öz təliminə görə də Mütləq olan, yəni Məna təzahürlərlə, hadisələrlə gerçəkləşir və həyat mövcud olur. Bəs Azadlıq bunu rədd edirmi? Rədd etmir. Azadlıq Ruhaniyyatın tələbidir. Ruhaniyyat isə biolojiliyi rədd etmir, biolojiliyin ruha hakim olmasını və mütləq təsirə çevrilməsini rədd edir. Azadlığı itirən insan heyvandır. Nə qədər ki, insan sırf bioloji yaşayır, onu Azad saymaq olmaz. Azadlıq – insanın ruhani imkanlarını aşkarladığı andan başlanır. Getdikcə, yəni aşkarlandıqca, azadlıq böyüyür, inkişaf edir və mütləqləşir. İnsan ruhani yaşayır və bioloji mövcudluğuna tam sahib olur. Həyatın üstünə tamahıyla, maddiyyatsevərliyi ilə, hakimiyyətçilik ehtirasıyla yerimir, vicdanıyla, ədalətiylə, əxlaqıyla, mərhəmətiylə yeriyir. Yəni Azadlıq – kor və şüursuz bir canlının nizamsız hərəkəti deyil.

Fəlsəfədə obyektiv zərurət və subyektiv zərurət anlayışları işlədilir. Sadə dildə desək, həyatdan gələn zərurət və şəraitdən gələn zərurət. Azadlığın zərurəti rədd etməsini həyatdan gələn zərurətə münasibətdə izah elədik. Şəraitdən gələn zərurətə münasibət də fərqli deyil. Tutaq ki, insan dənizin ortasına düşüb. Onu buradan xilas edəcək heç nə görünmür. Deməli, onun ölməsi zərurətə çevrilib. Ancaq insan əlini-qolunu sallayıb ölümə təslim olmur, başqa sözlə, yaşamını təhdid edən zərurəti rədd edir. Yaxud götürək Məcnunun halını. Leyli ölür, torpağa gömülür. Ancaq Məcnun çöllərdən yığışmır, fəryad qoparır, Leylini haraylayır. Məntiqlə o, Leylinin ölümü ilə barışmalıydı. Ancaq məhəbbətin dönməz əzabı Məcnunun varlığına hakim kəsilmişdi. Onun bütün varlığı məhəbbətdən ibarət idi. Məhəbbətin qarşısında heç bir zərurət əngəli mövcud deyil. Bu, onun ilahi Azadlığının göstəricisidir...





Tolstoy bütöv bir cəmiyyətin dövrə, quruluşa bağlı xarakteri içində ayrı-ayrı fərdlərin timsalında insanlığın hər şeydən yüksəkdə olduğunu bir xətt üzrə vurğu edir. Ayrı-ayrı fərdlərdəki üstün keyfiyyətlər yaşamağın heç də mənasız olmadığını göstərməklə, həyatın daha gözəl biçim ala bilməsinin mümkünlüyünü isbatlayır. Ən mürəkkəb zamanda belə, ən pozğun cəmiyyətdə belə, insanlığa qarşı ümid aşkarlayan və yaşamağın anlamını anladan fərdlər ortaya çıxır.

Yuxarıda vurğu elədik ki, əsərdə çoxyönlü hadisələrin, çoxsaylı mürəkkəb xarakterli obrazların olmasına baxmayaraq, dövrün ictimai əlaqələrini, həyatın inkişaf dinamikasını Pyerlə Nataşanın keyfiyyətlərində öyrənib ümumiləşdirə bilirik. Bir tərəfdə Nataşanın eşqli, ehtiraslı, şövqlü duyğuları, insan varlığını dolğun göstərən ruhi zənginliyi, o biri tərəfdə Pyerin sarsılan, yorulan, sonra yenidən həvəslə dolan əhvalları, narahatlıqları, müdrik axtarışları dayanır. Bu iki obrazın daşıdığı keyfiyyətlər ictimai həyatın inkişafını tənzimləyən qüvvənin simvoludur. Sonda gəlib bir nöqtədə birləşir və bu iki fərd üçün həyat müəyyən bir nizamda, axarda davam edir. Əslində yazıçının əsərdəki hədəfi də buna bağlı görünür. Yəni tərəqqini təyin edən keyfiyyətləri oxucuya tanıtmaq. Başlanğıcda gənc Nataşanın davranışları ətrafdakılara bir uşaq şıltağı təsiri bağışlayır. Ancaq getdikcə onun içində qaynayan əhvallar münasibətlərə daxil olmağa başlayır. Heç kimə bənzəməyən sadəlik, şuxluq, məsudluq olduğu hər bir mühitdə lirik ovqatlar yaradır. *"Həyatın müxtəlif təsirlərinə qarşı dərin bir ehtiras göstərən, aldığı təəssüratları mənimsəyən bu gənc qızın qəlbində nələr olurdu? Bunlar hamısı onun qəlbində necə yerləşə bilirdi?"*

*(II cild, səh.280).*

Yolboyu (ovdan qayıdanda, gecə saatlarında) Nikolay Rostov adi müşahidə olunan həyat əlamətlərini düşünürdü. Nataşa isə insan ağlının dayanıb qərar tapa bilməyəcəyi ucsuz-bucaqsız sehrli aləmlər haqqında düşünürdü. O, cəmiyyətin adi həyat normaları ilə yaşadığı məkana gedib çatmağı arzulamırdı. Onun xəyalından sehrli yollar keçirdi. Onun qəlbi də, qəlbini bürüyən bütün hisslər də özünə belə, izah olunması çətin olan sirrlər dünyası idi. O, hər yerə, hər bir ünsiyyətə bu sirrlər dünyasından baxırdı. Onun üçün adi heç nə yox idi. Həyat, təbiət, yer, göy, insanların varlığı onun hisslərinə möcüzə kimi daxil olur və onun iç dünyasını sevinc işıqlarına qərq edirdi. Ancaq çağlayan sevinc işıqları belə, onun

içinin sirlərini bütünlüklə aydınlaşdırıb izah edə bilmirdi. Çünki onun könlündə tükənməz bir sevgi qaynayırdı. Nə idi Nataşanın sonsuzluğa doğru uzanan insani dünyasını yaradan? Ziyafətlər, ballar, rəqslər, kübar cəmiyyətinin qaynar həyatı, yoxsa yoxsulluq tanımayan həyat tərzimi? Yox, bunların heç biri deyildi. Nataşanın azalmayan, yüksəkliklərdən enməyən coşqun duyğuları onu bizə, gerçəkliyin övladı deyil, mənanın övladı kimi tanıdır. Əslində Peyğəmbərlərin kəlamlarındakı möcüzələr Nataşaların fərəhli əhvallarını ifadə edən hikmətlər olmalı idi. İnsan qəlbinin ilahi sevdası peyğəmbərlərin çağlayan vəhyi, çağıran harayları olmalı idi. Onlar Allahın gözəlliklərini insan qəlbinin qüvvətli hisslərində deyil, mücərrəd göylərdə axtarmalı deyildilər...

Nataşa heç yerə sığmırdı, – nə musiqiyə, nə rəqsə, nə kübar cəmiyyətinin məclislərinə, nə nökər-naibli evə, nə adamlarla ünsiyyətə. Sığmazlıq onun gedə biləcəyi yeganə ünvan idi. O, heç vaxt xəyallar, xatirələr aləmindən qayıtmırdı. Onun bütün hissləri durmadan yol gedir, ancaq hara gedir, bunu onun özü də bilmirdi. Onun içində Məcnun tövrü vardı, vurğun idi. Ancaq kimə vurulmuşdu? Knyaz Andreyəmi? Yox, o, yalnız səbəbi özünə bəlli olmayan vurğunluğunun əlamətlərini Andreydə tapırdı, yaxud tapmağa çalışırdı. Bundan əvvəl o, Borisi də sevirdi. Ancaq Borisin də dəlisi deyildi. Onun vurğunluğunun sirri açılmamışdı...

Özü də bilmir ki, bu tale onu hara çəkib aparır?! Elə bilir ki, həyatını Andreyə bağlasa, rəvan bir həyat yaşayacaq. Ancaq evlilik onun coşqun hisslərini sakitləşdirəcəkmi? Yaxud doğrudanmı coşqun hissləri sakit yaşamq gərəkdir? Coşqunluğundan ayrılan ömür quru və gərəksiz olmazmı?

Elen də qaynar xarakterə malikdir. Ancaq onun qaynarlığı əyləncələrdə tam ifadə olunur, bu isə onu təmin edirdi. Başqa sözlə, Elen özünü alışdığı cəmiyyətin qələbəlik mühitində təmin edə bilirdi. Elenin varlığı heç nəyi ifadə etmirdi. Çünki onun varlığı fiziki gözəlliyindən ibarət idi. Ona ayrılan diqqətlər və bəslənilən hörmətlər də fiziki gözəlliyinin cazibəsinə görə idi. Elenlə Nataşa arasındakı fərq həyatla ruhaniyyat arasındakı fərqə bənzəyir.

Həyatın yeknəsəqliyi Nataşanı sıxırdı. Sözlə deyə bilməsəydi də anlayırdı ki, heç kim onun duyduğunu duymur, heç kimin qəlbi dünyanın mənasından riqqətə gəlmir.

*“(Nataşa – S.A.) masa arxasında oturdu, danışanların və yenicə gəlib oturan Nikolayın söhbətinə qulaq asmağa başladı: “İlahi, ilahi, yenə*





*həmin adamlar, yenə həmin söhbətlər, yenə atam fincanı əlində əvvəlki kimi tutmuş, yenə də o cür əvvəlki kimi çayı üfürür!” Nataşanın qəlbində evdəkilərin hamısına qarşı onların yenə əvvəlki adam olduqları üçün nifrət doğur və bunu da özü dəhşətlə hiss edirdi”.*

*(II cild, səh.287).*

Onun qəlbu möcüzələr axtarışındadır, ətrafındakılar isə onun axtarışlarının ən sadə tələblərinə belə uyğun deyildi. Həyat yeknəsəqdir. Hər şey təkrar olunur, insan dəyişmir. İnsanların varlığı, duyğuları bəsit bir ardıcıllıqla qarıyır, köhnəlir. Hər kəs bir rəngdə, bir əhvalda görünür. Bütün bu adi məişət qayğılarının əhatəsində Nataşanın varlığı zədə götürür, hissləri sanki təhqir olunur. Onu əhatə edən adamlar öz həyatlarını yaşayırdılar. Buna görə onlar suçlu deyildilər. Həm də onlar Nataşanın halındakı coşqun tələblərin hara yön aldığını bilmirdilər. Nataşa da darılmaqda, darıxmaqda haqsız deyildi. İndi onun qarşısıalınmaz ehtiraslarını yalnız sevgi ünsiyyətləri təmin edə bilərdi. O, öz qəlbinin ilahi döyüntülərində Knyaz Andreyin xoşbəxtlik bağışlayan təbəssümlərini hiss edir, dodaqlarının arasından süzülən sevgi pıçıltılarını dinləyirdi. Sevgidə insan qəlbi o qədər qüdrətli olur ki, adam belə insanın nə vaxtsa öləcəyinə də inana bilmir.

**xxx**

Dövr insanı qiymətləndirə bilmir. Əksinə, özünün sərtliyi və amansızlığı ilə insanın bütün nəcib duyğularını, gələcəyə ümidini tapdaqlara qərq edir. Bununla belə, insanın öz içində təzələnməsi, yeni duyğuların yaranması, ümidin yenidən dirçəlməsi qarşısıalınmazdır. Knyaz Andrey yenilmiş bir taleni yaşadığı halda, qəflətən içində yenilənmə başlayır. Nə yaşadığı elitar həyat, nə hərbdə tutduğu mövqe, nə də dünyanın gedişatı onu təmin etməmişdi. Üstəlik doğuş zamanı arvadının ölməsi, körpəsinin yetim qalması həyatı onun gözündən salmışdı. Knyaz Andrey ona görə vardı ki, yaşamamağın ixtiyarı onun əlində deyildi.

Baş çəkmək üçün qonşu malikanələrə gedərkən yolunun üstündə rastlaşdığı hər şey ona cansız və mənasız görünürdü. Meşədə gördüyü qocaman palıd ağacı da onun kimi tükənmiş, miskinliyin əlaməti olaraq boz rəngə çalırdı. Ancaq qayıdanda sanki ümid dolu bir həyata dönürdü!

*“...Bəli, bu həmin palıddır, deyərək düşündü və onun könlü bizdən yaz şənliyi və yeniləşmə hissləri ilə doldu. Həyatının bütün gözəl diqqətləri xəyalında canlandı. Əngin göylü Austerlits də, arvadının töhmətedici ölü üzü də, Pyerlə söhbət etmələri də, gecənin gözəlliyi ilə həyəcana gələn qız (Nataşa – S.A.) da, o aylı, gözəl gecə də birdən onun yadına düşdü”.*

*(II cild, səh.165)*

Günəşin şəfəqləri altında parıldayan palıd pöhrələri də, Nataşanın ayın ziyasına vurulub gecənin sehrinə qarışması da Knyaz Andreyin yenilmiş hisslərini cana gətirmiş və ruhunu sağaltmağa başlamışdır. Nataşanın timsalında Dünyanın, yaşamağın fərəhli olmasını anlamışdır.

Gəzmək, görmək, eşitmək nə qədər böyük təsirə malikdir. Düşünmək isə daha böyük təsirdir. Birinci halda duyğular oyanır, ikinci halda idrak dərinləşir.

Tolstoy heç bir fəlakətin içində insanı ümidsizləşməyə qoymur: gah təbiətin özündən, gah fərəhli Nataşadan, gah müdrik nəsihətlərdən insanı xilas edən səbəbləri aydın bir şəkildə diqqətə sunur. Ümumiyyətlə, Tolstoy insanı cəmiyyət prinsipləri ilə, sxematik normalarla deyil, onu öz daxili, mənəvi keyfiyyətləri ilə tanıdır. Biz sovet ədəbiyyatında insanı şəraitin yetirdiyi, sosial inkişafın tərbiyə elədiyi hadisə kimi öyrənirik. Tolstoyda isə insan şəraitə öz daxili qüsurları ilə qatılır, yaxud şəraitin dəyişməsinə öz fəzilətləri ilə təkan verir. Baxın, Tolstoy obrazının diliylə deyir: *“Həyat Allahın özüdür, əngin səmada sayrışan ulduzlar mən özüməm. Məni anbara salmaqla əslində ulduzları həbs edirlər”.* Yəni mən, insan dünyanın sehrini, sirrini içimdə daşıyıram.

Biz dedik ki, Tolstoy ciddi məktəbdir. Ancaq insanlar, çoxluq etibarilə, ömürlərində görmədikləri bir imarəti qıraqdan seyr etməklə içi haqqında təsəvvür uydurduqları kimi, Tolstoyu oxuyanlar da onunla bağlı üzdəki təsəvvürlərə sahib olurlar. Əslində bütün dühalara münasibət belədir.

İnsanların, tarixin şəxsiyyətə yanaşmasında dövrə, zamana bağlı mülahizələr yürütmək bütün çağlarda özünü göstərmişdir. Şəxsiyyətə çağdaşının münasibəti ilə sonrakı çağın insanının münasibəti arasında həm kəskin fərqlər olur, həm də bəzi çalarlar tamamilə təkrarlanır. Çağdaşı şəxsiyyətin yerişini, duruşunu, qidalanmasını, geyimini də onun tutduğu mövqeyinə, ortaya qoyduğu ideya-fikrə əlavə edərək, haqqında





təsəvvür yaratmağa çalışır. Sonrakı dövrün qabaqcıl düşünən insanı isə şəxsiyyətin ideyasına, düşüncəsinə, vətənə, bəşəriyyətə göstərdiyi xidmətə diqqət yetirir. Ancaq kütləvilik prinsipinə uyğun düşünənlər şəxsiyyəti öz arzularına uyğunlaşdırmağa çalışırlar. Belə halda onlar şəxsiyyətin ən əhəmiyyətsiz bir sözünə, hərəkətinə aşırı diqqət ayırmaqla təhriflərə yol verirlər. Məsələn, Füzulinin bütün yaradıcılığının əsas qayəsi bir yanda qalır, müsəlmanlar onun harda dəfn olunmasıyla bağlı bir arzusunu diqqətə sunurlar. Bu arzunu Füzulinin bütöv təfəkkür faktı kimi qabartmağa çalışırlar. Hələ o da tam sübut olunmayıb ki, Füzuli basdırılmasıyla bağlı belə bir sonərkdə (vəsiyyətdə) bulunub, ya bulunmayıb. Eləcə də Tolstoyun İslam dininin hansısa üstün cəhətiylə bağlı söylədiyi fikri Tolstoy şəxsiyyətini formalaşdıran bir arqument kimi qəbul etdirmək istəyirlər. Bununla bağlı gərəksiz təbliğat aparırlar. Bu misalı Atatürkə də aid etmək olar, uzaq tariximizdəki Babəkə və Nəsimiyə də.

Şəxsiyyətlərə bəslənilən sevgili münasibətlərdən sui-istifadə eləməklə, onları dinin keşikçisi kimi qələmə vermək həyatda, cəmiyyətdə xüsusi bir dəyişiklik etməz. Şəxsiyyətlərin adlarını hallandıraraq, dinin qabaqcıl bir etkiyə malik olmasını isbatlamağa ehtiyac yoxdur. Dinin insana, həyata münasibətini doğrultmaq gərəkdir. Ancaq nə yazıqlar ki, bu mümkünsüzdür. Çünki belə bir istəyə cəhd etmək peyğəmbərlərin təməl prinsiplərinə dəyişiklik etmək anlamına gəlir...

Din insanın içi ilə məşğul olmur, ibadəti ilə məşğul olur. İbadət isə göydəkinə münasibəti tərtibləyir. Bu əsərdə Tolstoy obrazının diliylə deyir: *“Monastrların və kilsələrin çoxluğu həmişə xalqın geridə qalmasına bir işarədir”.* Bizdə isə, parçalanmış Azərbaycanın bir hissəsində, məscidlərin sayı evi olan kişilərin sayından çoxdur. İnsanların mənliyini öldürənlər onlara ibadət evləri tikirlər. Talanan, ayaqlanan, təhqir olunan, muzdlu yaşayan insanların məscidlərin çoxluğu ilə əldə edəcəkləri təsəllinin mənası nə demək olur görəsən?! Məscidlərə toplaşan insanları sürüyə çevirirlər. Onları milli kimliyinin sıradan çıxarılması, etnik özünəməxsusluğunun zədə götürməsi qayğılandırmır, namazıyla, orucuyla, məscidiylə fəxr edir. Ancaq bu fəxarətdən vətəninə, millətinə bircə dəfə ağ gün qismət olmur. Allah – insanı sevməkdə, milləti var etməkdə, Vətənə sahib çıxmaqdadır. Fındığın qabığına, donuzun dərisinə, atın yalmanına adını yazmaqla varlığını sübutlamağa çalışmaqda deyil. Öz varlığını sübut etmək üçün dəridən-qabıqdan çıxan Allah yoxdur,

insanın sevgisində, idrakında, mənəviyyatında yaşamasıyla həyata ülviyyət, dünyaya gözəllik gətirən Allah var. Həyat pozulub, dünya əyilib, deməli, Allah yoxdur. Çünki İnsan yoxdur! Məscidləşmə, kilsələşmə Allahlaşma deyil, İnsanlaşma Allahlaşmadır! Tolstoyun ucalığı da ondadır ki, o, Allahı Nataşaların ilahi ehtiraslarında, Pyerlərin müdrik axtarışlarında, Karatayevlərin həyat eşqində axtarır...

Bizə israrla deyirlər ki, Asif Ataya səcdə qılmayın, duyğusal olmayın, əqliyyətçi olun. Ərəb qılıncının kəsdiyi başlardan sıçrayan qan damlaları tariximizin elə ən uzaq nöqtələrinə düşüb ki, gözlərdəki milli işığı, beyinlərdəki milli düşüncəni yuya bilmişdir. Əks duruma qayıtmaq üçün yenəmi kötək lazımdır?! Səcdə bizə Allahın insanla, həyatla, dünyayla iç-içə olduğunu dərk etdirir, ruhumuzu bu ali həqiqətə böyüdür. Biz insanlaşmaqla millət oluruq, millət olmaqla bəşər oluruq. Bunun üçün Asif Ata bizə cəhalət dünyasının içindən çıxmaq qüdrəti, idraki yetkinlik səviyyəsi gətirir.

Küçələrimizdəki qızlar reklamlardakı, internetdəki qızlara oxşayırlar. İnternet şəbəkələrindən o tərəfdə varlığı bilinməyən kişilər də beləcə. Hamı küçələşir, internetləşir, heç kim millətləşmir. Asif Ata millət olmağımızın yolunda alovlanan məşəldir. Küçələşməyə, sürüləşməyə səcdə qılmırıq, insanlaşma-millətləşmə üfüqlərində günəş kimi doğan şəxsiyyətimizə səcdə qılırıq...

**xxx**

- Dedilər, zaman niyə bu qədər korlanıb?

- Dedim, kişilər "arvadlarını" Allahdan çox sevirlər, ona görə. Yəni ailənin mənafeyini, evinin içini, məişətini millətdən, bəşərdən, mənəviyyatdan üstün tuturlar, ona görə də dünya əyilib...

- Dedilər, sənin həyatını, ailənlə bağlı gələcəyi dəqiqliyi ilə sənə söyləyən falçı olsa gedərsənmi?

- Dedim, mən həyat üçün yaşamıram, ideallarım üçün yaşayıram. Mənə ideallarımın dediyindən daha doğru, daha ülvi kim söz deyə bilər ki, məndə maraq oyatsın. Mənim üçün kainatın sirri açılmağa başlayıb. Bundan ali sirri kim mənə söyləyə bilər ki, heyrətimi marağa dəyişə bilim. Falçı zəlillər üçündür, xoşbəxtlər üçün deyil.

Heç nə mənə axtarışlarım və yaşadıqlarım qədər xoşbəxtlik fərəhi gətirə bilməz...





Həyatı tükdən asılı olan adam Allaha dua edər. Çünki onun həyatından böyük həqiqəti yoxdur. Hətta Allahın özü də onun üçün həyatdan aşağıda durur. Allah üçün həyatın üstünə getməz, yəni heç nəyindən keçməz. Ancaq həyatı üçün Allahdan diləkləri olar. Həyatın adiliklərinə yenilənlər Allahı öz məqsədlərində axtarırlar, ona görə də insanlaşa bilmirlər. Biz bu münasibəti Tolstoyun ayrı-ayrı obrazlarında da müşahidə edirik. Bununla da biz, obrazların timsalında cəmiyyətin ümumi halı haqqında təsəvvür əldə edirik. Yəni həyatın adi tələbləri ilə yaşayanlar və bu tələblərdən üstün olmağa can atanlar.

...Nataşa hər bir adamın, özəllikcə cavan kişilərin sevgisinə, sevincinə işıq kimi düşür. Ancaq bu işıqda onun özü üçün nə aydınlaşır, bəlli deyil. Axı onun hisslərinin boyu burada dayanmır. Onun hisslərində daha nələrin izahını axtarmaq lazımdır?! Bu axtarış hansı suallara cavab verə bilər?! Onun dünyası hardan başlayır və bu dünyaya nələr aiddir?! Onun dünyası ilə cəmiyyətin qanunauyğunluqları arasında qəribə bir təzad yaranıb. O, cəmiyyət qanunauyğunluqlarına uysa, öz dünyasına xəyanət etməzmi? Onun içində hər hansı bir kişiyə qarşı sevgi işığı çox da parlaq yanmır. Bununla belə, onun ailə həyatı qurmasıyla axtarışlarına son veriləcək, yoxsa davam edəcək? O, hələ ki, narahat dünyasının sakitliyini hansısa bir kişi ilə romantik sevişmələrinin gerçək ailə münasibətlərinə çatmasında axtarır. Ancaq belə adamların cismani vüsala yetməsi böyük həsrətinə son verə bilməməlidir. Bu tip xarakterlərin həsrəti əbədi olur. Çünki onların vurğunluğu əbədi ideyalar aləminə bağlı olur...

Nataşa gah Borisi sevir, gah Knyaz Andreyi, sonra Anatolini. Duruma üzdən baxanda o, yüngül əxlaqlı, sədaqətsiz, sürüşkən biri kimi görünər. Yəni adamın könül sultanı bir olar, bir neçə yox. Əvvəla, Nataşa onların heç biri ilə ailə qurub, sonra da boşanmır. Sadəcə ailə qurmağa cəhdlər edir, amma alınmır. Bu alınmazlıq Nataşanın könül dünyasının yoxsulluğundan irəli gəlmir, əksinə, bəlkə də onun könül dünyasına hakim olacaq mənəvi ehtiras hələ yetişməyib.

Nataşa əvvəl Borisi, sonra Knyaz Andreyi sevməsində ötəri bir həyəcan yaşamışdı, sonra isə tamam sakit və şən bir əhvalda olurdu. Halbuki sevgi – yuxusuz gecələr, qərarsız günlər deməkdir. O, Knyaz Andreylə adaxlanır və onu bir il gözləmək şərti qarşısında qalır. Bu o deməkdir ki, Andrey sadəcə normal bir qadınla ailə həyatını bərpa eləmək istəyir. Nataşa isə onun düşündüyü normallığa sığmırdı. Axı sevgi

münasibətləri ictimai qaydalara tabe olmur. Ona görə də Nataşanın bir ara Andrey üçün darıxması, onun gəlişini həssaslıq və gərginliklə gözləməsi daxili dünyasında başqa bir narahatlığın başlaya biləcəyindən soraq verirdi. Tez-tez kübar cəmiyyətinin məclislərində olmasıyla günlərin bir günü qəlbini həqiqi bir məhəbbətin tabeliyinə verməsi baş verə bilərdi. Şüuraltı olaraq bunun baş verməsinin mümkünlüyündən və vicdan əzabına uğramaqdan qorxurdu.

Gəncliyin daxili dünyasında hər zaman iki hiss bir-biri ilə toqquşa bilir – vicdan və məhəbbətin romantikası. Məhəbbət onu başqa səmtə çəkib aparır, ailə, ev, valideyn isə onun qarşısına ayrı tələblər çıxarır. Bunları birləşdirmək çətin olur. Bu çətinlikdə ən çox vicdan qurban verilir. Məhəbbətin romantik təsirləri çox güclü, onu nəzarətdə saxlaya biləcək iradənin gücü isə zəif olur. İş orasındadır ki, məhəbbət romantikası həmişə ürəyin əbədi gücü kimi qalmır. Həsrət ortadan qalxandan sonra adiləşmələr başlayır və gerçək, canlı həyat məhəbbətli ürəkləri təbii bir şəkildə özünə tabe eləməyə başlayır. Ev-məişət qayğıları, övlad böyütmək bir sıra çətinliklər çıxarır qarşıya. Romantik münasibətlər gəncliyin şıltaqlığı kimi qavranılır və yalnız xoş xatirələr təsirinə çevrilir.

Əslində isə insan dünyası sirdir. Onun daxili aləminin sehrli ahəngi pozulmaya bilər və məhəbbət ocağının hərarəti həsrət ehtiyacını qoruyub saxlayar. Bunun üçün insan gərək öz sevgisinə, münasibətlərinə həyat faktı kimi yanaşmasın, İdeala meylin gerçək təzahürü kimi baxsın.

...Budur, Nataşanın qəlbində məhəbbət hissi yenidən coşur. Anatolinin vurğun baxışları onun qəlbini həyəcanlara bürüyür. Həyəcan, əsəbilik. Vicdan onun içində Andreyi müdafiə edir. Ancaq coşqun məhəbbətin baş alıb getməsinə Andreyin varlığının mane olması nə dərəcədə haqlıdır?!

Əsəbilik həm də ona görə baş verir ki, Nataşa bundan sonra özünü nələrə və kimlərə qarşı qoyacağının çətinliyini anbaan ömrünə dəvət edir və indiyə qədər yaşadığı şən və rahat həyatını azman bir fəlakətə təslim etməyə hazırlaşır...

Nataşa Anatolini niyə sevmişdi, bilmirdi. Sevgi icazəli və ağıllı bir surətdə gəlmir ki! İnsan həssas və qüvvətli duyğulara bir anın içində əsir düşə bilir. Onu bu əsarətdən qurtarmaq da mümkünsüz olur. İnsanda vurğunluq heç nəyə məhəl qoymur, ağıla qulaq asmır. Hətta aldadılanda belə, həmin duyğulara görə vurğun ürəyi suçlamaq doğru məna daşımır. O duyğuları dərk etmək mövcud qaydaların sınırları içində mümkün olmur.





O duyğular o qədər güclüdür ki, insanı rüsvayçılığa, hətta məhv olmağa qədər çəkib aparır. Bu rüsvayçılıq aşiq rüsvayçılığıdır, istənilən cəmiyyət fərdinin rüsvayçılığı deyil...

Knyaz Andreyin suçu varmı? O, Nataşaya sevgi elan edib uzaq diyarlarda dolaşmalı idimi? Nataşanın ömrünün elə bir yaşında ki, bütün duyğuları aşıb-daşır və onları heç bir həyat məntiqiylə cilovlamaq mümkün olmur. Gənc bir qızın eşqi, məhəbbət romantikası, sevib-sevilmək ehtiyacı hansı gücün qarşısında qalmalıdır ki, özünə aydın olmayan gözləmək tələbini qəbul edə bilsin?! İndi Andreyə qarşı Nataşanın yalnız mərhəmət hissi onun aşıb-daşan ehtiraslarını sakitləşdirməli idi. Ancaq gənclik ehtiraslarının yanında mərhəmət hissinin tab gətirəcəyinə inanmaq elə də sadə bir məsələ deyil.

Bəs necə olsun? Andrey suçlu deyil, çünki dövrün qanunlarına görə atası ilə razılaşdığı bir il gözləmə vədini poza bilməzdi. Bu ona ağır başa gələrdi. Gərək bütün imtiyazlarından əl çəkib hər cür tənələri də qarşısına alaydı. Başqa bir tərəfdən o, xəstəliyini müalicə etdirməliydi.

Bəs Nataşa necə, suçludurmu? O, özünün gənclik eşqini, ömrünün şövqlü, hisslərinin gözəl çağlarını qurban verməlidirmi? Nəyə qurban versin, Andreyin atası qoca Knyaz Nikolay Andreyiçin kobud, yovuşmaz xislətinə, yekəxanalığınamı? Hələ bəlli deyil, izdivac baş tutacaq, ya tutmayacaq? Knyaz Andrey Nataşanı alovlu bir məhəbbətlə sevir, ya sevmir? Sevən kəs bir il təcriddə necə rahat yaşaya bilir?! Knyaz Andreyin məktubları bir dəfə də olsa, Nataşanın təravətli hisslərinə uyğun yazılmayıb. Üstəlik, Andreyin atası, bacısı onu və ailəsini hər addımda təhqir edir. Knyaz Andrey özü də dul bir kişidir və körpə uşağı var. Bütün bunlar Nataşanın əvvəlki, yəni Knyaz Andreyə qarşı olan hisslərinin köhnəlməsinə başlanğıc verir. Bu əngəllər qarşısında gənc bir qızın daxili aləmində yeniliyin baş qaldırması təbii idi. Bu yeniliyi, dediyimiz kimi, ona qarşı münasibətin aydınlaşmasında uzun bir fasilənin olması doğururdu. O bu fasilədən gec və ya tez usanmalı idi. Gəncliyin hissləri yetkin, səbrli, müdrik olmur ki! Ona doğru yön vermək, yardımçı olmaq, onu hər an aza bilməkdən qorumaq gərəkdir. Ancaq bu qorumaq əməli – yasaqlarla, mərhəmətçiliklə, vicdanı tez-tez yada salmalarla başa gəlməz. Sevgi özünə qarşılıq istəyir, alovlu ehtiras özünə qarşı hər an hiss olunan, yaşanan sədaqət istəyir. Sevginin təmiz və sağlam olması görünməli, bilinməli və ifadə olunmalıdır. Həsrət bilinməli, dərk olunmalıdır. Həsrət

güclü hissdir, sirdir, ecazkar təsirə malikdir, ancaq məchul və mücərrəd deyil...

**xxx**

Tolstoyun insan dünyasının incəliklərini izah eləmək üçün qabartdığı xarakterlərdən biri də Knyaz qızı Maryadır. Onun taleyi oxucuda ayrıca maraq doğurur. Marya cəmiyyətin diqqətində aktiv xarakter sayılmır. Bunun da başlıca olaraq iki nədəni var. Biri odur ki, o, dindar bir qız olduğuna görə kübar məclislərinə həmişə qatılmır. İkincisi isə onun üzdən çirkin olmasıdır. Buna baxmayaraq, onunla ailə qurmağa cəhd eləyənlər olur. Dövrün əsas səciyyəvi xüsusiyyətlərindən biri vərəsəlik hüququnun tanınması olduğu üçün, heç kim özünün gələcəyini aşağı sayılan təbəqəyə bağlamaq istəmir və varlı qızlarla ailə qurmağa meyil edir.

Ancaq Knyaz qızı Maryanın ailə qurmaq baxımından bəxti gətirmir. Çünki atası Nikolay Andreyiç qızını ərə verməkdən dəhşətli qısqanclıq hissi keçirir. Onun ölümündən sonra Maryanın ailə həyatı baş tutur, ancaq bunu o qədər də təqdir eləmək olmur. Çünki Sonya ilə sevişən və onunla ailə qurmağı vədələşən Nikolay Rostovun (maddi durumunun çətinliyindən çıxmaq üçün) qərarının dəyişdirilməsi, bizə insanlığa uyğun olmayan addım kimi görünür. Ümumiyyətlə, insanın ləyaqətini nəzərə almayan cəmiyyətdə normal münasibətlərin olacağına ümid bəsləmək mümkün deyil. Qraf Bezuxovun və Knyaz Andreyiçin maddi mirasına göz dikən Knyaz Vasili qızını Bezuxovun varisinə calayır, oğluna isə Andreyiçin qızını almaq istəyir. Knyaz Vasilinin onlarla bağlaşmaq cəhdlərində əcayib macəraçılıqlar yaşanır. Qızı öz gözəlliyi ilə Pyerin başına dərd olur. Yuxarıda biz bunun təfsilatını izah etmişik. Hər zaman özünün zahiri qəşəngliyi ilə diqqət çəkən oğlu da, ilk baxışdan Knyaz qızı Maryaya deyil, onun gözəl fransız rəfiqəsinə meyil edir. Belə isə, Knyaz qızı Marya üzdən çirkin olsa da, onu bu cür səbatsız bir adam üçün bəzəmək nəyi ifadə edir?! Ümumiyyətlə, çirkin bir qızı zahiri geyim və zinətlə gözəl göstərmək cəhdi məhəbbət hissinin üzərində qurulan məzhəkə oyunu idi. İnsan qəlbinin təbii bir sevgi ilə döyünməsinə zor göstərmək bütün ali dəyərləri təhqir eləməkdir. Yüksək mənsəb və mirasları ələ keçirmək xatirinə sağlam duyğulardan əl çəkmək ailə müqəddəsliyini ləkələməkdən başqa bir şey deyil. Yüksək mənsəb sahibləri əldə etdikləri məişət nemətlərini özlərindən sonra da qoruyub saxlamaq üçün övladlarının həyatını komediyaya çevirirlər. Çünki öz varlıqlarının məzmununu əldə saxladıqları mənsəbdə və məişət





üstünlüklərində qavrayırlar. Mənəvi xoşbəxtliyin üzərində maddi xoşbəxtlik istehkamları qurmaq – fiziki firavanlığın könül abadlığından daha üstün bir dəyər olduğunu sübut etməyə çalışmaqdır.

Gəncliyi daxili dünyasından ayırdıqca onun ürəyi çopurlaşır və hər cür həyat nəşəsinin yalançı parıltıları ilə maskalanmış olur. Həyatı dərk eləmək və dünyaya ülvi münasibət bəsləmək üçün mənsəb kölgəsində daldalanan gəncliyin sevgisi yalan olur, çünki ürəyi sağlam gücə malik olmur...

Knyaz qızı Marya onu knyaz oğlunun görüşü üçün bəzəyənlərə könüllü tabe olsa da, özündə bir dəyişikliyin olacağına daxilən inanmırdı. Çünki heç bir süni bəzək köntöy cizgiləri dəyişməyə qadir deyil. Ona görə də hər bir bəzək eksperimenti onun varlığını təhqir edir və ümidlərini puç edirdi. O, mühiti tərəfindən ona hazırlanmış rolu ifa edə bilmirdi. Çünki onun rolu fiziki taleyi tərəfindən seçilib möhürlənmişdir (təbiətən çirkin doğulmuşdur). İndi o, ümidini, xristian ehkamlarının öyrətdiyi kimi, gözəgörünməz xəyali qüvvəyə bağlamaqla vəziyyətdən üzüağ çıxmağa çalışırdı. Ümumən, insan öz qəlbini gözəlliklərlə işıqlandırıb, fəzilətlərlə doldurmağa çalışmalıykən, üzünün çopurlarını zinətlərlə gizlədib diqqətləri oxşamağa zorlanır. Gözəl könül qətiyyətli sevgi bəsləyər və üzün ifadələrində məsum bir vəfadarlıq doğmalığı yaratmaqla qarşı tərəfin könlünü fəth edər. Romantik nəğmələr könüllərdə oxunar, münasibətləri məhəbbətli xəyallarla zənginləşdirər. Belə olanda könüllər üzün cizgiləri ilə deyil, sevdaları ilə birləşər və hər cür tənələrə, iztirablara son qoyar.

Knyaz qızı Maryanın üz cizgiləri gözəl olmasa da, könlündə gözəlliklər vardı, sadəcə qarşı tərəfdə bu gözəlliyi dərk edib sevə biləcək könül yox idi. Bəs belə bir dərk edən könül sonralar Marya ilə ailə quran Nikolay Rostovda vardımı? Yuxarıda dedik ki, Rostov əvvəlcə Sonyanı sevib. Doğrudur, Sonya Rostova yazdığı məktubla ona sərbəstlik vermişdi. Yəni Rostovun başqası ilə ailə qurmaq istəyinin qarşısına keçməyəcəyini vəd edirdi. Ancaq Sonya buna Rostovun anası tərəfindən məcbur edimişdir. Sonya, onu himayəsində saxlamış bir qadının sözünü çevirə bilməmişdir. Buna baxmayaraq, Rostov özü də Sonyadan uzaqlaşmaq üçün səbəb axtarırdı. Sonya fədakar idi, özünü qurban verməyi bacarırdı. Rostovun anasını eşitməsi də Sonyanın növbəti qurbanı idi. Bununla belə, Sonya Rostovla aralarındakı əhdə, sevgiyə çox inanmışdı. O, inanmırdı ki, Rostov ondan asanlıqla imtina edə bilər. Ancaq elədi. O cür həyəcanlı anlar, tarıma çəkilən könül simlərinin sevgi

nəğmələri çalması, sevinclərin şaxtalı bir qış gecəsində unudulmaz xatirələrə çevrilməsi sevən bir ürəyi necə tərk edə bilər? Sevginin ürəyi sakit bir tərzdə tərk etməsi bir yana, başqası ilə ailə qurub dünyaya övladlar gətirmək və Sonya ilə bir mühitdə yaşamaq necə baş tutur? Bütün bunları vicdan necə sakit bir şəkildə həll edə bilib? Çox qəribə və mürəkkəb münasibətlərdir. Adətən erkən gənclik çağlarında əks cinslərin bir-birindən xoşu gəlir, bunun adına həvəskar sevgi də demək olar. Belə münasibətlərə qonşu gənclər, yaxud məktəbli gənclər arasında daha çox təsadüf edilir. Bu gənclər hisslərini çox vaxt bir-birinə və başqalarına bildirmirlər. Bu hisslər zaman-zaman dərinləşirsə, ikini bir eləyən münasibətə yüksəlir, dərinləşmirsə, şirin bir xatirə kimi arxada qalır. Ancaq Nikolay Rostovla Sonyanın hissləri qonşu gənclərə xas olan hisslər deyildi axı. Biz Nataşanın sevgi münasibətlərinin də bir fərddə dayanmadığını vurğulamışdıq. Ancaq onun nə Borisə olan sevgisində, nə də Andreyə olan sevgisində ilahi təsirlər yox idi. Qarşı tərəflərin sevgilərində də həsrət iztirabları görmədik. Nataşanın Anatoliyə qarşı olan hisslərində isə iztirab olsa da, aldadıldığını bilən kimi hər şey orda da başa çatmışdı..

Maraqlıdır, gənc bir qızın (Nataşanın) ömründə bu qədər gərginliklər, ağrılar, sarsıntılar nədən baş verir? Pyerlə ailə qurduqdan sonra onun həyatındakı təbəddülatlar aradan qalxırmı? Yəni gəncliyin hissləri cilovsuz at kimi hər yana çapdığı üçünmü həyatı sanki nizamsız olur? Yaxud ailə həyatı nizamdırmı? Nəyin nizamıdır? Ailə nə qədər yaxşı hadisə olsa da, bir çox hallarda şəxsin əl-qolunu bağlayır. Biz bunu, ailə qurandan sonra Nataşanın ömründə də izləyirik. Ümumiyyətlə, ev gözəl şeydir, ancaq o, qadını elə kökə salır ki, xarici aləmin, deyək ki, təbiətin, bəşəriyyətin təsiri onun həyatında heçə enir. Ona görə də daim mövzusu adi məsələlər olur. Təbiətdə yaşayır, təbiəti görmür; cəmiyyətdə yaşayır, bəşərin mahiyyətini dərk eləmir. Qeybət də, dedi-qodu da burdan yaranır. İndiki cəmiyyətdə də biz bunun lap son həddini görürük. İnsanları məişət "zəhmətkeşliyi" bütünlüklə bu duruma salıb. Kişidə, ya qadında, fərq etməz, romantik xəyallar yox, müqəddəs duyğular yox, insanda sirr görmək, göylərdə əsrar görmək yox. Doğrudur, biz Nataşanın evə bağlanmasını görürük, ancaq onun içində narahat duyğular yenə qalır. Bu da Pyerin işi ilə bağlı uzun müddətə Peterburqa getməsi zamanı özünü göstərirdi. Bütövlükdə isə analıq əvvəlki çılğın, qaynar duyğuları əvəz etmişdir. Bu yaxşıdırmı, pisdirmi? İzah etmək xeyli çətindir. Çünki





qadının qəhrəmanlığı analıqda məhdudlaşır. Bəlkə də bu qaçılmazdır. Ancaq qadında analığa sığmayan ilahi imkanlar da aşkarlana bilər axı! Bu halda o, bəlkə də ana olmaq istəməz. Bunu da qəbul etmək gərəkdir. Doğrudur, bu hal nadir olur. Amma qadının dahi insan olmaq imkanı yox deyil. Axı kişidə də dahilik imkanı nadirdir. Ona görə dahiliyi yalnız kişinin imkanı, yaxud haqqı saymaq olmaz. Dahilikdə qadın analıq haqqını qurban verirsə, kişi də atalıq haqqını qurban verə bilir. Evə sığmayanlar evi qurban verməli olurlar...

Şəxsən mənim üçün ciddi maraq doğurur: görəsən Tolstoy Nataşanı niyə dahi qadına deyil, sadiq anaya çatdırdı. Bunun mümkünlüyünə inanmadımı? Yəni əsərin sonluğu xülyəvimi görünərdi? Axı Nataşanın dahi olmaq imkanı vardı. Bəs o ilahi çırpıntılar necə oldu? Demək olmaz ki, analığa çevrildi. Çünki o ilahi çırpıntıları olmayan qadınlar da gözəl ana ola bilirlər. Oxucu deyə bilər ki, bəşəriyyətdə insanın məqsədi gözəl ailələr yaratmaqdır. Olsun. Axı insan üçün ailədən başqa da ruh dünyası var və bu dünya ailəyə sığmır. İkinci bir tərəfdən, axı dövr, zaman, cəmiyyət gözəl ailə olmaq üçün əlverişli səviyyə deyil, o dəyişilməli, insana uyğun qurulmalıdır. Bəs bunu kim edəcək?!.

Hər halda, bu, bizim yazıçı təfəkküründə fərqli yanaşmanı görmək arzumuzdur.

Bütövlükdə, əvvəldə də vurğuladığımız kimi, Tolstoy dühası bəşəriyyətin nəsr zirvəsini fəth etmişdir. Bu əsərdə Tolstoy bütün bəşəriyyətin taleyinə bədbəxtlik gətirən müharibənin fəlakətlərini bir müstəvidə göstərir, bir insan taleyinin enişlərini, yoxuşlarını isə bir müstəvidə. Bir insan aqibətinin doğurduğu ağrılar, acılar daha cazibədar, daha təsirlidir, nəinki bütöv bir cəmiyyətin. Çünki bütün böyük, həcmli problemlər insanın problemindən doğur. Yaradıcılıq da beləcə, insanın iç dünyasının zənginliyindən, zənginləşməsindən başlayır. İnsan təbiətin yaratdığı gözəlliklərlə yetərlənsəydi, mənəvi qüdrəti aşkarlanmazdı. İnsan gözəlliklər yaratmağa meyillidir. Sənətdə, ictimai həyatda, poeziyada yaranan, ifadə olunan gözəllik öz başlanğıcını gerçək olaraq, təbiətdən götürsə də, onun cilalanması, aşkarlanıb inkişaf etməsi daxili gücə bağlıdır. Mənanı ifadə edən anlayışlar, onun dərk olunması – daxili gücə bağlıdır. Gerçəklikdə mövcud olanlar insanı qane eləmirsə, yenisini yaratmağa meyillidir. O başqa məsələ ki, yaratmaq sadə bir bacarıq deyil, doğuluşdur. Yaratmaq üçün bilmək və dərk eləmək gərəkdir. Bilmək

dərkin birinci mərhələsidir. Hər bilinən dərk olunmur. Dərk eləmək isə yaşamaq deməkdir.

Yaratmaq – həm də, milli varolmanın zəminidir. Millət fərdin əbədiliyidir. Fərd ölür, millət ölmür. Fərdi var edən ölməzlik – millətdə daim aşkarlanır və yaşayır. Yaratmaq – fərdin inam gücüdür. İnamın gücü bütün gerçəkliklərin ziddiyyət doğuran əhvallarını sarsıda bilir. Təbii ki, inam da asan yaranmır. Hər şey adamın içində şübhə və tərəddüd doğurmağa meyillidir. İdraki yetkinliyə çatmayan adam biliksizliyin doğurduğu şübhə və tərəddüd içində hər cür səhvlər etməyə yaxın olur. Adam yaşamın tələblərindən yüksəyə qalxmasa, özünü heç vaxt azad və xoşbəxt hiss edə bilməz. Azad olmayan üçün millətin varlığı da yaradıcılıq təsirlərini itirə bilir. Ona görə dönməz inam səviyyəsini yetirmək tükənməz hikmətlərin açarı olur.

Əsəri oxuduqca o dövrün cəmiyyətində insanların mənəvi aləmlərinin qarışdığının, dolaşdığının şahidi oluruq. Üstəlik, dediyimiz kimi, müharibə amansızlığı normal həyatı elə qarışdırmışdı ki, cəmiyyətin içində nəyi necə yoluna qoymaq heç bir məntiqlə həllini tapmırdı. Amma ayrı-ayrı obrazların xarakteriylə Toltsoy həyatın daxili dinamikasında gələcəyə elə ümid aşkarlayır ki, bizim dövrümüzdə də həmin ümidlə düşünməyə təkan götürmək olur. Vətəni əzən, milli ruhu sarsıdan bəlaları düzgün dərk eləmədən, nifrətin hara və kimə qarşı yönəlməsi bəlli olmaz. Bu məsələlər yazıçı tərəfindən böyük həssaslıqla işlənmişdir. Nifrətsiz adam öz toplumuna şəri tanıda bilməz, tanıtmaq istəməz. Müharibə şərdir, şəri yaşadan nifrətlə damğalanmalıdır. Tolstoyun təsvirlərində adam Rusiyanın mövqeyində durur və onu haqqı ayaqlanmış, normal həyatına qəsd edilmiş bir ölkə kimi təsəvvür edir. Yazıçıdakı bu ləyaqət milli ruhun ifadəsi kimi özünü göstərir. Bu xidmət tarixin göstərdiyi xidmətdən daha böyükdür. Tarix siyasətin yaratdığı mühiti araşdırır, siyasətin uyğunlaşdırdığı münasibətləri tədqiq edir. Nəzərə alsaq ki, siyasətin doğurduğu münasibətlər doğru deyil və insanlığın tələblərindən irəli gəlmir, deməliyik ki, tarix yalan üzərində mühakimələr yürüdür. Ayrı-ayrı fərdlərin qəlbində hansı uğurlar, yaxud hansı fəlakətlər ərsəyə gəlir? İnsan azadlıq haqqını necə itirir, yaxud necə qazanmalıdır? Bu kimi suallara tarix heç vaxt müsbət cavab verməyib. Tarix xalqların istəyiylə şəxsiyyətlərin fəaliyyəti arasındakı əksliyi, yaxud uyğunluğu açıb göstərmək iqtidarında da deyil. Hadisələri saymaq və bir-birinə bağlamaqla həqiqəti fəth etmək mümkün deyil. Tarix rus cəmiyyətində





fransız dilinin hakim olmasını yüksək mədəniyyətin bir subyekti kimi araşdırır. Əslində bu mədəniyyət subyekti bütöv rus cəmiyyətinə deyil, yuxarı təbəqədə hakim olmuşdu. Bu isə aşağılarla yuxarıların arasındakı mədəniyyət kimi dərk olunurdu. Amma durum təkcə aşağıların təhqir olunması anlamı daşımır, bütövlükdə rus cəmiyyətinin aşağılanmasını ifadə edirdi. Tolstoy bu məsələyə öz obrazlarının diliylə açıq etirazlar edir. Başqa bir xalqın dilinin hökmran olduğu ölkənin nə vaxtsa mədəni, mənəvi inkişaf edəcəyini düşünmək mümkün deyil. Biz, Azərbaycan olaraq, əsrin dörddə biri qədər bir zamanı belə, sabit bir millilik üzərində davamlı yaşamamışıq. Dilimizin gah ərəb-fars, gah rus, gah ingilis dilləri tərəfindən sıxışdırılması milli mədəniyyətimizin və mənəviyyatımızın dirçəlməsinə bəri başdan əngəl olur. Hətta biz Tolstoyu nə qədər sevsək də, əsərlərini onun dilində deyil, öz dilimizdə oxuyub bəhrələnməyi doğru sayırıq. Tolstoy öz ədəbi zənginliyi ilə bizim dilimizi işğal etməyə gəlmir, gəlməməlidir. Dəyər, mədəniyyət o vaxt ali və bəşəridir ki, o, özündə işğal təsiri daşımır. Tolstoy məhz xalqları bir-birinə doğmalaşdıran dəyərdir. Ona görə də bəşəridir, Əbədidir!

*30 Ata Ayı – 15 Xəzan Ayı, 35-il.*
*(sentyabr-oktyabr, 2013.)*

## İNAMSIZLIQ ŞƏRİ

*(H.Cavidin "İblis" əsəri üstə)*

Dünyanın İnsanilik ahənginin pozulması bəşər dühalarını həmişə ağrıdıb, sarsıdıb, düşündürüb. Məkrin, xəyanətin, cinayətin insani münasibətləri kölgədə qoyması əzab verib, ağrıdıb müdrik ürəkləri. Dünyaya yayılan, gözəllikləri viran qoyan şər niyyətləri, bəd əməlləri tanımaq və tanıtmaq üçün klassiklər qüdrətli idrak nümunələri ortaya qoyurlar. Şərin sonsuzlaşmaq istəyini məhdudlaşdırmaq üçün dahi ürəklərdə qaynar ehtirasların baş qaldırması, idraki kamillik ənənəsinin yaranması insanlığın qədim və gələcək Tələblərinə söykənir. Bu səbəbdən də dahilər yaşadığı dövrə sığmır, bütün zamanların fövqünə qalxırlar. Zamanla döyüşmək üçün zamanın içindən çıxmaq gərəkdir. Zamandan qüdrətli olmaq və ümumbəşər mahiyyətini özündə – ömründə, əməlində, yaradıcılığında əks etdirmək gərəkdir. Bizə görə H.Cavid də zaman qəlibinə sığmayan, öldürülən, fəqət ölməyən; İblisliyi döyən, uçurumu ötən, Yer qaranlığına idrak işığı salan mütəfəkkirdir, ziyalıdır, klassikdir. H.Cavid ictimai həyat qaranlığında İblisliyin geniş təsirə malik olmasını insanlararası münasibətlərdə kifayət qədər aydın görmüş və göstərə bilmişdir. Əsəri oxuduqca qarşımıza iki problem çıxır: – Həm dinin yaratdığı sətiraltı gizlinlər, həm də H.Cavidin özünün obrazlarla anlatmaq istədikləri. Hər iki problem açıq şəkildə həllini tələb edir.

İblis, – bəşər övladı onun tabeliyində aləmi qatır bir-birinə, hər yeri odlara yaxır. Adam öz mahiyyətini – insanlığını ifadə etmir, İblisin mahiyyətini, – İblisliyi ifadə edir. Adam İblisin tələbiylə öz mahiyyətini öldürür, mahiyyətsizləşir, İblisin qara rənginə dönür. İblis isə işıq libasına bürünür, od saçır. Ancaq bu od, bu işıq aləmi qaranlığa qərq eləyir, – həqiqət görünmür, bilinmir, dərk olunmur. İşığın mahiyyəti də təhrif olunur. Əgər o işıqdırsa, necə qaranlıq saça bilər?! Niyə məhz od rəngində, işıq libasında İblis?! Niyə qaranlıq yayan, şər yetirən bir "yaratıq" oddan törəmiş kimi obrazlaşdırılıb dində?! Axı od çirk götürmür, qaranlıq yaymır.





İblis

*Atəşsiz, inan, nur olamaz sabitü qaim.*
*Atəş, günəş atəş, bəşəriyyət bütün atəş,*
*Hər bir hikmət, məbdəi-xilqət bütün atəş...*
*Zərdüştü düşün, fəlsəfəsi, fikri, dəhası*
*Həp atəşə tapdırmaq idi zümreyi-nası.*
*Yalnız bunu dərk etdi o əllameyi-məşhur,*
*Yalnız o böyük baş şu böyük kəşflə məğrur...*

Bu ziddiyyətin kökündə Zərdüştçülüyə – Hürmüzdçülüyə böhtan dayanır. Əhrimənin məqsədi Hürmüzd odunu söndürməkdir. Dinin İblis ideyasında Əhrimən müdafiə olunur, bəraətləndirilir. Hürmüzd Odçuluğuna – İşıqçılığına İblisçilik damğası vurulur. Bu münasibət dünyanı qaranlığa qərq eləmək, Əhriməni qalib elan etməkdir. Əhrimənin qalib olduğu dünyanı fani saymaq o biri dünyanın bəraətləndirilməsi üçündür. Axı Hürmüzd bu Dünya üçün döyüşür. Dünyanı onun mahiyyətindəki gözəllikləri göstərmək üçün işıqlandırır. Od'a, onun İşığına ali münasibət bəsləyən bir xalqın ali mənliyinə (Dünyabaxışına) şər atmaq dinin əsas hədəflərindən biri kimi görünür. Dədələrimiz Od'un işığına tapındığı halda, Od'u İblis mahiyyətli bir şey kimi təqdim eləməkdə məkr var, bəşəri humanizmə qarşı xəyanət var...

*Ya rəbb, bu nə dəhşət, nə fəlakət,*
*Ya rəbb, bu nə vəhşət, nə zəlalət?!*
*Yok kimsədə insafü mürüvvət.*

İnsaf, mürüvvət işıqdır – Od'dan gəlir. Dində insaf, mürüvvət Od ilə üz-üzə dayanır – atəş lisanında iblislə. İşıqla insaf – mahiyyətlə gerçəklik kimidir. Mahiyyətlə gerçəklik bir-birinə qarşı qoyulur. İnsafsızlıqdan, mürüvvətsizlikdən od, atəş törədiyi vurğulanır. Qanlar, qadalar Od'la eyniləşdirilir. Od işıq mahiyyətini itirir, fəlakət rəmzi kimi tanınır. Babalarımıza günah yaxılır – qan-qada pərəstişkarları kimi tanıtdırılır. Sən demə, Od müharibə atəşi imiş, işıq deyilmiş.

*Toplar veriyor aləmə dəhşət,*
*Dəhşət!.. Qopuyor sanki qiyamət,*

*Yağmur kibi göydən yağır atəş!..*
*Atəş!.. Qaralar, dalğalar atəş!..*

Hürmüzd Od'u qiyaməti yaxınlaşdıran hadisə imiş, sən demə. Hürmüzd Od qaladığı üçün Dünya Allahın qəzəbinə tuş olubmuş. Hürmüzdün Od'u olmasaymış, İblis də törəməzmiş, insanlar da qan-qadaya səbəb olmazlarmış, sən demə Hürmüzd Od'undan İblis törəyibmiş. O da insanları fəlakətlərə bais edibmiş. Sən demə, Od'dan yaranan İblis insanları təhrik eləyir ki, dünyada onun (İblisin) mahiyyətinə uyğun əməllər törətsinlər, dünyanı İblis rənginə – Od'a çevirsinlər...

*Yarəb, azacıq lütfü inayət!*
*Qəhr olmaqda artıq bəşəriyyət.*
*Başdan-başa həp yer yüzü vəhşət,*
*İblis ilə həmrəngi-siyasət.*

*xxx*

*Bilməm şu cinayət, şu xəyanət, şu fəlakət*
*Bitməzmi, ilahi! Bu qədər səbrə nə hacət?*

İblisin hökm elədiyi dünyada möminlik yaranmadı, mütilik yarandı. Vüqar bilinmədi, köləlik artdı. Mütilik vəhşətə qarşı səbr deməkdir. Möminlik – təmizlənməkdir, vüqarlı taledir. Vüqarlının səbri vəhşətə qarşı döyüşkənlik yetirər. Vüqarlı Tale mütiliyin yaratdığı səbrə qarşı çılğın bir qəzəblə dolar, yıxmaq istəyər mütiliyi. Qəzəb odu İblis odunu söndürər, fəlakətə son qoyar...

Arif

*Yerlərdə süründüm, yetişir, göylərə qaldır,*
*Dindir qucağında.*
*Qaldır bəni, bir seyr edəyim xoşmu, gözəlmi*
*Cənnətdə mələklər?*
*Qaldır bəni, ta görməyim insandakı zülmü,*
*Bak, yer yüzü inlər.*





*Yarəb, bu cinayət, bu xəyanət, bu səfalət*
*Bulmazmı nihayət?*
*İnsanları xəlq etmədə var bəlkə də hikmət,*
*İblisə nə hacət?!*

Azadlığını itirmişdir bəşəriyyət. Allah bəşəriyyətə imkan verdi ki, İblisə müti olsun. Daha doğrusu, İblisə haqq verdi bəşəriyyəti mütiləşdirsin. Anlamaq olmur ki, bəşəriyyət Allahınmı bəndəsidir, İblisinmi?! Allah da bəndələşdirir (mütiləşdirir) bəşəriyyəti, İblis də. Allahla İblis paralelləşir dində.

*...İblis, o böyük qüdrət, o atəşli müəmma*
*Bu gün səni də kəndinə eylər kölə... amma*
*Heyhat, olamaz dərdinə bir kimsədən imdad,*
*İmdadə qoşar, qoşsa fəqət ah ilə fəryad.*

İblisin istəyi aydındır və o, öz istəklərini bəşəriyyətin içərisində həyata keçirir. Ancaq Allahın istəyi nədirsə, o bilinmir. Çünki bəşəriyyət İblisin tələblərində yaşayan görünür. Həm də Allahın bu dünya üçün tələbləri yoxdur, O Dünya tələbləri var. Allah İblis dünyasına – İblisin təsir etdiyi dünyaya qarışmır. O, bütün insanları öldürüb seçmək istəyir. "Yaxşılar"ından öz dünyasında – O Dünyada mələklər düzəltmək istəyir. Ancaq bu mələklər vasitəsilə nə eləmək istədiyi bəlli deyil. Məqsədi axıra qədər aydınlaşmır. Ancaq İblisin məqsədi aydındır – Dünyanı qana qərq eləmək...

*...Yüz, bin deyil İblisə uyan... həp bəşəriyyət*
*Etmiş bu gün ev yıkmağa, qan içməyə adət...*

İblisin Dünyanı qana qərq eləməsi Allahın vecinə deyil. Çünki İblisin qana döndərdiyi bu dünya Allah üçün fani dünyadır. Onsuz da "ləğv olunacaq, məhv olunacaq". İblis dünyanı qətrə-qətrə vəhşətlərə uğradır, Allah Qiyamət Günü biryolluq vəhşət qoparacaq, dünyanı siləcək, dəhşətlər törədəcək, çığırtılar, bağırtılar qulaqları dağıdacaq. (Qır qazanları qaynayacaq). Dağlar uçacaq, dəryalar bulanacaq, təlatümə gələcək, ürəklər yarılacaq... Yəni Allah İblisdən daha betər əməllər törədəcək...

Allaha bundan da böyük böhtan ola bilməz ki, din Allaha bu böhtanı vurdu. Allah Mütləqilikdən məhrum oldu. Hökmdarlaşdırıldı, kinlə dolduruldu içi...

*Bən şimdi bir atəş, fəqət əvvəlcə mələkdim,*
*Həp xaliqə təsbih idi, təhlil idi virdim.*
*İlk öncə mələklər bəni təqdis ediyordu,*
*Adəm kibi bir sayğısız axır ləkə vurdu.*
*Alçalmadı, yüksəldi fəqət şöhrətü-şanım,*
*Allah ilə bir zikr edilir namü-nişanım.*

Allah siqlətində görünür İblis. Əhrimənləşir İblis. Ancaq Allah Hürmüzdləşmir. Yəni Əhrimənlə – İblislə döyüşmür. Əksinə, ona meydan verir. Allah Adəmə qəzəblənir, ancaq İblisə qəzəblənmir. Ona görə də İblisə yaşamaq və dağıtmaq imkanı tanıyır. İblis Allahla "müqavilə" bağlayır...

*Artıq yetişir, anladım, izahə nə hacət?*
*Qarşımdakı İblis imiş, eyvah, nə dəhşət!*
*Həp qəhr oluyorkən şu cihan xain əlinlə,*
*Bilməm nəyə gəldin, nəyə gəldin, bana söylə!*

İblis hər yerdə var. Arifin qarşısındakı İblis ictimai şərdir. Bir də var, İblis adamın içində. İçəridə olan İblislə qarşıdakı İblis... Asif Atada daxili şər və ictimai şər anlayışları var. Asif Ataya görə fərd öz daxilindəki şərlə döyüşür, döyüşməlidir. Bundan sonra o, qüdrətli olur və ictimai şərlə döyüşür. Daxili Azadlıq ictimai Azadlığı yetirir...

*Bakdım, əziyor ruhunu həp qeydi-əsarət,*
*Gəldim edəyim ta səni hürriyyətə dəvət.*
*Bakdım, səni məhv etmədə bin dürlü xəyalət,*
*Gəldim verəyim qəlbinə bir nuri-həqiqət.*

İblisin hürriyyəti qan-qada mühitidir. Vəhşətə, fəlakətə çağırır adamı. Fəlakətə susayan adamların nəcib duyğuları məhv olur. Nanəciblər mühitində sağlam ürək, sağlam düşüncə olmur. İblis mühiti qan-qada törətmək istəyənlərin, fəziləti qəhr edənlərin meyil elədiyi





uçurumdur. İblisin verdiyi nuri-həqiqət qaranlıq boşluğudur, uçurum cazibəsidir.

*Zülmət deyilim, iştə bənim hər sözüm atəş...*
*Atəş, özüm atəş, yüzüm atəş, gözüm atəş.*

İblisin atəşin üzü, atəşdən ibarət bilinən gözünün baxdığı yön qaranlıq boşluğudur. Hər sözü qaranlıq xofu, qaranlıq əks-sədasıdır. İnsani mahiyyətə qarşı yaşayan cəmiyyətin xəyalı qaranlıq boşluğuna düşür, əməli qaranlıq boşluğu yaradır – İblisliyə yarayan...

İblis əməli Göylə Yerin, qaranlıqla işığın fərqini itirmək məqsədi daşıyır. Xof kimi ürəklərə dolmaq – saflığa ləkə vurmaq, idrak işığını qaranlıq boşluğu ilə əvəz etmək mənasızlığıdır İblisçilik – şərçilik. Məkr, xəyanət, vəhşət, rəzalət birləşir – İblisliyi atəşin göstərir, onun libasına çevrilir. Vahiməli qaranlıq cazibəsi yaradır.

*Bəndən imdad umuyor cümlə cihan,*
*Biri zalım, biri məzlum insan.*

**Zalımlıq İblislikdir, məzlumluq İblislik imkanı.** Məzlum fürsət arar, ələ düşəndə zalımlıq edər, möminlik etməz. Çünki məzlumluq xarakteri döyür, ruhu əzir. Məzlum olmaq ruhsuzlaşmaq deməkdir. Zalımlıq və məzlumluq – İblisliyin yaşadığı mühitə yarayan keyfiyyətlərdir.

*Bir şeyin yoksa da, könlün var ya,*
*Bana ver könlünü...*

İblis könüllərə tamah salır, könüllərdə yuva qurur, könülləri qana qərq edir. Könülsüzləşdirir insanı. Könlü İblisliyə açılanın içini qan-qada bürüyür. Qanlı əməllər törəyir könülsüzlükdən.

İblislik – ürəksizlikdir, yəni vicdansızlıq, mürüvvətsizlik, ədalətsizlik, həqiqətsizlik. İnsan könlünü İblisə tabe edəndə qaranlıq boşluğuna düşür.

*Sən həm əl öpər, həm də qaçarsan, bu nə halət?*
*İlk öncə məhəbbət, fəqət ən sonra ədavət...*

İblis mühiti idraksızlıq mühitidir. Xeyirlə şərin yeri qarışıq düşür bu mühitdə. Bu mühitə uyan hər kəs sərsəri olur, ağı qaradan seçə bilmir. Vicdansızlıq edir, sonra vicdan istəyir, diləyir. Ədalətsizlik edir, sonra ədalət istəyir, diləyir.

Könlünü İblisə təslim edənin vicdanı olmaz, əxlaqı olmaz, həqiqəti olmaz.

İblislik – insanın mənliyi üzərində nikbin qəhqəhələr.

İblislik – insanlığa istehza qəbahəti. İblisin qəhqəhələri – Adamın içini ziddiyyətlərlə dolduran fəlakət.

*Səni pək aldatıyor hissiyyat,*
*Öylə yekrəng olaraq keçsə həyat,*
*Bıkar insan, yaşamaqdan yorulur,*
*Yaşayış bəlkə də mənasız olur.*

Cəmiyyətdə İblisliyə bəraət var. İblislik – həyatın mənalı tərəfi kimi sunulur. Guya İblislik olmasa, həyat yeknəsəq olarmış. İblislik – həyatın qarantı kimi mənalandırılır. Bu səbəbdən də bəd niyyətlər həyatı bürüyür, qaranlıq törəyir – cazibəli görünən. İblislik – vicdanla vicdansızlığın, əxlaqla əxlaqsızlığın, ədalətlə ədalətsizliyin vəhdəti kimi təzahür edir idraksızlıq mühitində. Qatillik, canilik, xəyanət həyatı ikiləşdirir. İki həyat olur bir həyatın içində. İblisliyə bəraət verən cəmiyyət adamı qəbahət selində çimizdirir, xəyanət pilləsinə qaldırır. Adam bu pillələrlə uçurumun ağuşuna düşür – fəlakətləşir ömrü.

*Atdım insanlığı, oldum canavar.*
*İntiqam istərim, ancaq bu kadar!..*

İblis mühitində insanlığa yer yoxdur. İnsanlıq qəhr olunur Adamın içində, Canavar baş qaldırır. Əvvəl öz mənliyini parçalayır, sonra da kin püskürür aləmə. Canavarlığa qarşı Canavarlıq böyüyür. Canavarlıq intiqam biçimində başqasının içinə daxil olur. Ölmür, öldürülmür, yaşayır, parçalayır – yeni içlərə daxil olmaq üçün, yeni intiqam kininə çevrilmək üçün...





İblisli dünya Allahsız dünyadır. Allah İblisliyə – hiyləyə, qəbahətə, rəzalətə yaxın düşə bilmir, uzaq göylərə çəkilir təsəvvürlərdə. Yerlə Göy yadlaşır bir-birinə.

*Əvət, əzsən də, əzilsən də, əvət,*
*Yenə adildir o müdhiş qüvvət!*

Təsəllidirmi bu?

“Qüvvət” adil sayılır, ancaq bunun həyata dəxli olmur. Çünki Qüvvət özünə bərabər dərk olunmur, uydurulur. Həyatda ədalət baş tutmur, bərqərar olmur adil münasibət. Çünki adil sayılan Qüvvət ürəkləri İblisin ixtiyarına buraxıb. Yalnız o, ürəklərə qəzəblənə bilir, hədələyə bilir. Bununla da “Qüdrət” Mütləqiliyini itirir, hakimə çevrilir – özü tərəfindən canavara çevrilənləri məhkum edən hakimə, özünün məzlum etdiklərinə təskinlik verən hakimə...

*Hər kəs bəni dinlər, fəqət eylər yenə nifrət,*
*Hər kəs bana aciz qul ikən, bəslər ədavət.*

İblis hökmündə riya var. Məşum bir qorxaqlıq, rəzil bir məğrurluq, ölümə bənzəyən qələbəlik; istisiz bir ataş – könülsüzlüyü dağlayan. Vüqarlı ürəklərdə isə yeri olmayan, idrakda qəhr olunan, yoxluğa gömülən yalan fırtınası.

İblis hökmü Yerdə süni göy yaradır – uçulan, dağılan, günəşsiz, ulduzsuz; əfsunlaşmış – müqəddəsliyə yad olan, yoxluğa çevrilən.

İblis hökmü Yer Tanrıçılığı uydurur – insanların qəlbinə vahimə doldurur, ümidsizlik yayır. Göy ülviyyətinə qovuşmağın yolunda durur, qaranlığa döndərir yolları.

İdrak İşığından məhrum olan düşüncələrdə İblis xofu həşəmətli görünür, əbədi bilinir – heç olduğu halda.

İblis göy ülviyyətindən məhrum elədiyi ağıllara yer ölçüsüylə hünərli görünür. Yer ölçüsündə idraksızlıq hökm sürür. İblis idraksızlıq mühitində güc nümayiş etdirir.

İblislik şübhə toxumu səpir ürəklərə, qırıb tökür məsum duyğuları. Göy hikmətinə inamı ləğv eləməyə çalışır. Namərdlik yayır, fitnə törədir münasibətlərdə.

İblislik gözlərə kül üfürür, yalanı həqiqət kimi sunur. Möminlik libasına bürünür. Abırlı davranır, əxlaqlı bilinir. Ancaq niyyətində qan çalxalanır, kin qaynayır. Köksündə ilan gəzdirir, saflığa zəhər qusdurur.

İblislik hiylə bolluğu, məkr tufanı, daim fitnə qaynağı – usanmaz, yorulmaz. Çünki bu, İblisin həyat tərzidir, xislətidir, mahiyyətidir – fəxr edir Adamların könlünə hökm etməsiylə, öyünür fitnəsiylə, yağılığı, qansızlığıyla.

İblisin qüvvətinə inananlar müqəddəsliyə yetə bilməzlər. Ülviyyət qapısını döymək üçün İblis çağırışını rədd etmək gərəkdir.

Sarsıdır İblis, öldürə bilmir. Çünki ürəklərdə müqəddəsliyə ehtiyac yaşayır. Ehtiyacın ödənməsini ləngidir, gecikdirir, ancaq məhv edə bilmir. Çünki müqəddəslik mahiyyət dərinliyinə bağlıdır. İblislik üzdə olur, xislətdə olur. İblisliyin mahiyyət təməli olmur. Müqəddəsliyə vurulan iblisliyə tapınmaz. Müqəddəslərin tapındığı işıq mahiyyətdən gəlir – göy mahiyyətindən, göy sonsuzluğundan. Atəş rənginə bürünmüş iblis qaranlığına küsənmir müqəddəs ürəklər.

İnsanilik Yolu Sabahlıdır. İblislik bugünün halında var. İblislik Adamda mövcud olur, İnsanda ölür. İnsanlaşma İblisliyi öldürməklə təsdiq olunur. İnsanlığın özüylədöyüş tələbi Adamı İnsana yüksəldir, İblisliyin qaranlığını söndürür.

Mütləqə İnam Yolumuz İnsanı Göy ülviyyətinə qovuşdurur, ölməzliyə çatdırır...





## İNAM ƏSASINDA YAŞAMAQ ÖZÜNÜ YARATMAQ DEMƏKDİR

*(L.N.Tolstoyun "Etiraflarım" əsəri üstə)*

**90**-cı illərin əvvəllərində "Respublika Bilik Cəmiyyəti"ndə Asif Atanın silsilə görüşləri keçirilirdi. Bu görüşlərə Asif Ata "Fikir Evi" adı qoymuşdu. Burada O, Azərbaycanın 7 Ruhani Fərəhi və 6 Böyük Kədəri kimi sistem halında yaratdığı baxışlarını izhar edirdi. Eyni zamanda özünün Dünyabaxışını əhatə edən ideyaların hər birinə bir görüş həsr edirdi. Hər bir görüş üç hissədən ibarət olurdu: birinci hissədə özünün planlaşdırdığı mövzuda danışırdı; ikinci hissədə ölkədə və dünyada baş verən prosesləri təhlil edir, siyasi gedişata münasibətini bildirirdi; üçüncü hissədə isə iştirakçıların çoxsaylı suallarını cavablandırırdı. Görüşlərin birində iştirakçılardan biri belə bir sual ilə müraciət etmişdi: "Asif Ata, bizə hansı kitabları oxumağı məsləhət görərdiniz?" Asif Ata bir neçə kitab adı çəkdi və bildirdi ki, evdə siyahı yazıb gələn toplantıda sizə təqdim edəcəm". Elə də elədi. "25 söz" adı altında 25 kitabın siyahısını təqdim elədi. İndi o siyahı çox ünvanlarda var. Hətta Atanın ölümündən sonra da siyahının üzünü artırıb maraqlananlara, oxumaq istəyənlərə yaymışıq. Bir sözlə, o siyahıda Asif Ata L.N.Tolstoyun "İzhar"ını da oxumağı məsləhət görürdü. Bu "İzhar"da Tolstoyun "Mənim inamım nədir?", "Etiraflarım" kimi əsərləri əks olunubdur. Əlbəttə, biz özümüz də Atanın məsləhət bildiyi kitabları oxumağa meyilli olmuşuq. İllər keçəndən sonra mən yenidən o siyahıdakı kitablara üz tutdum və Tolstoyun "Etiraflarım" əsərini oxudum.

Tolstoyun axtarışları, qayğıları bizə çox doğmadır. Biz də Tolstoy dərinliyində olmasa da, bənzəri hallar yaşamışıq. Gerçəklik və Anlam məsələsi təkcə böyük mütəfəkkirlərin sorunu deyil. Yaşamın səbəbini düşünən hər kəs Tolstoyun qoyduğu suallarla üz-üzə qalır. Kim bu sorunu öz içində həll eləyə bilir, yaxud eləyə bilmir, – bu, məsələnin ayrı bir cəhətidir. Hər halda "Səbəbi" arayan kəs mütləq bir sonuc əldə etməyə çalışır. ***Çünki Səbəb – həyatı niyə yaşamağın izahıdır.*** İnsan həyatın onun gözündən düşməməsi üçün Səbəb arayır. Əlbəttə, ağlının,

düşüncəsinin imkanlarını aşkara çıxaran insandan söhbət gedir. Heyvandan az fərqlənən, yaxud fərqi hiss olunmayan insan üçün Səbəbi bilməyə ehtiyac yoxdur. Onun üçün yaşamın Səbəbi həzzi istəklərin ödənməsidir. İnsan bu istəklərdən kənarda özünü görə bilmirsə, onun üçün Səbəb heç bir məna daşımır.

Tolstoyun axtarışları təhlükəlidir, həm də gərəklidir. Ona görə təhlükəlidir ki, idrak bu axtarışlarda sonuc bulmasa, hər şey gözdən düşür, insan özünü cansız əşya yerində görür. Nikbinlik üçün heç bir əsas tapmır. Şübhə inamı üstələyir, naşı bir ovqat yaradır.

Axtarış böyük bir başlanğıcdır. O da doğrudur ki, şübhə olmadan bu Başlanğıc başlamır. Düşüncə varsa, şübhə qaçılmazdır. Bununla belə, şübhə Yola çevrilə bilməz. Şübhə Yolu tapana qədərdir. Şübhə – idrak üçün açılan qapıdır. İdrakın bütün mərhələlərdə hərəkəti isə inama bağlıdır. Əgər şübhə öz yerini inama vermirsə, yaşamaq mümkün deyil. İnsanın düşüncələrində çıxılmazlıq doğuran şübhəyə Asif Ata Naşı Şübhə, inamın sınırlarına dayanan şübhəyə isə Müdrik Şübhə deyir. Tolstoyun axtarışları Müdrik Şübhəyə qalxmadığı dərəcədə təhlükəli idi (Şübhələr onu intihara sürükləyirdi). Yaşamı inama bağlaya bildiyi qədər gərəklidir. Biz başlanğıcda Tolstoyun axtarışlarının təhlükəli olduğunu müşahidə edirik. O, qarşısına qoyduğu suallara cavab tapa bilmir. Axtarışlarının onun üçün yaratdığı problemləri həll edə bilmir.

Onu çıxılmazlığa çəkib aparan suallar zahirən çox bəsit görünür, ancaq hər kəs özü bu suallara cavab vermək istəsə, əlinin havadan asılı qaldığını görər. Məsələn: mən kiməm, həyat niyə var? Bu gün elədiyim və sabah eləyəcəyim şeylərin sonucu nə olacaq? Yaşamımın sonunda nə ilə qarşılaşacağam? Yaxud başqa bir biçimdə, niyə yaşayıram? Həyatımın ölümlə belə yox olmayacaq bir anlamı varmı? Bu suallar əslində ölümsüzlük axtarışından irəli gələn suallardır. Ancaq bu axtarış, mifologiya qəhrəmanlarının axtardığı dirilik suyu, yaxud səhralarda axtarılan tənha çiçək deyil. Başqa sözlə, fiziki olaraq əbədiyyətə qovuşmaq arzusunun həyəcanları deyil. Bu, varolmanın mənəvi-ruhani köklərini dərk eləmək istəyinin doğurduğu axtarışlardır. Varlığın təkanı ömrün özündə, həyatın anlamındadır. Tolstoy da elə bu anlamı axtarır, dərk eləməyə çalışır. Yaşamağa səbəb varmı, nədir o səbəb? Karyera qurmaqmı, cəmiyyətdə yüksək mövqe tutmaqmı? – Axı bunlar sabah olmayacaq, fərdin fiziki sonuna çatması ilə bu deyilənlər də sona çatacaq.





Tolstoy həyatın anlamını dərk eləmək üçün elmə üz tutur. Ancaq elm də onun axtarışlarına işıq sala bilmir. Elm sona çatanın mövcudolma və yoxolma qanunauyğunluqlarını izah edir. Yəni, mövcudiyyətin və sonaçatmanın məntiqini deyə bilir. Əzəliliyin və əbədiliyin sirrinə daxil ola bilmir.

*“Elmlər yaşamın problemini bilməzlikdən gəlirlər və belə deyirlər: “Sən kimsən və nə üçün yaşayırsan?” sualının bizdə cavabı yoxdur. Biz bu suallarla maraqlanmırıq; ancaq işığı, kimyəvi birləşmələri, cisimlərin formalarının qanunlarını, kəmiyyətlə kütlə arasındakı bağlılığı, insan zəkasının qanunlarını öyrənmək istəsən, bizdə bunların açıq şəkildə və qəti olaraq cavablarını tapa bilərsən”.* (Tolstoy, “Etiraflarım”).

Bir neçə il öncə müxalif fəallardan birinin qərargahında (Semaşko adına xəstəxananın yaxınlığında) ictimai, siyasi yöndən müzakirələr gedirdi. Burada fərqli mövqelərin adamları iştirak edirdi. Ünvanın sahibi üzünü mənə tutub sual verdi. Hiss elədim ki, o, mənim danışmağımı, söhbətə qatılmağımı istədi. Məndən öncə Yusif adında ixtisasca fizik olan bir alim danışırdı. O susdu, mən danışmağa başladım. Sanki onun üçün yeni mövzu açıldı və sözümü kəsərək yenidən başladı danışmağa. Ancaq burada onun söhbətləri tamam gərəksiz idi. Biz milli məsələlərdən və insani məsələlərdən danışdığımız halda, o, elmi məsələləri təhlil edirdi.

– Dedim: biz ruhaniyyatdan danışmaq istəyirik.
– Dedi: elm hər şeyin başıdır.
– Dedim: siz bilirsiniz ruh, ruhaniyyat nədir?
– Dedi: ruh sahədir.

Əlbəttə, fizik ona aid olmayan məsələlərdən söhbət gedəndə başqa cür də cavab verə bilməzdi. Onun üçün hər şey sahədir, kütlədir, ölçülür, çəkilir. Mən ona dedim ki, elm öz işiylə məşğul olanda çox gərəklidir, öz işi ilə məşğul olmayanda isə zərərlidir...

Bəli, Tolstoy elmdən həyatın anlamını öyrənmək istədi. Elm isə anlamla deyil, gerçəkliklə məşğul olduğunu bəyan elədi.

Tolstoy həyata öncə sırf ağılla yanaşdığı üçün tam mənada çaşır. Ağlı ona həyatın anlamının olmadığını, bir heç olduğunu sübut edir. O, özü üçün məna tapa bilməyəndə intihar yolu seçir. Ancaq nədənsə intihar etməyi bacarmır. Bəs içindəki tərəddüdlər, təbəddülatlar nədən qaynaqlanır? Özü intiharı bacarmayan başqalarına həyatın gərəksiz

olduğunu necə anlada bilər?! O, insanların nə üçün yaşadıqlarına təəccüb edirdi. Həm də özünün yaşamdan imtina edə bilməməsinə çaşırdı. Bu təzadlı hal Tolstoyun düşüncələrini daim gərginləşdirirdi. Ağlının məntiqləri onda gah ikrah hissini gücləndirir, gah da həyəcanlı maraqlarına səbəb olurdu. Məsələn, suallar onu gərginləşdirəndə Allaha münasibət də onun üçün heç bir önəm daşımırdı. "Mənimlə əylənən bu cür birisi – istər var olsun, istər olmasın, mənim üçün heç bir fərqi yoxdur" deyirdi. Ancaq ağlın çaşdırıcı məntiqindən açılanda "nə istədiyimi özüm də bilmirəm. Həyatdan qorxur, ondan qaçıram. Bütün bunlara baxmayaraq, həyata bir ümid bəsləyirəm" deyirdi.

Ümumiyyətlə, adamda inamla şübhə üz-üzə duranda ondan (adamdan) çox güclü olmaq tələb olunur. Çünki inamın sevinci ilə şübhənin sarsıntıları yan-yana duranda ürəyin başına min oyun açır. Ümidlə şübhənin üzücü ağrıları bir-birini əvəz edəndə ürək istidən soyuğa, soyuqdan istiyə düşən şüşə kimi çilik-çilik olur. Ürəyin yaşatmağa sanki gücü tükənir.

Ağıl və onun məntiqi Tolstoyu tamam əlacsızlıq içinə atırdı. Ancaq insan yalnız ağıl və onun məntiqindən ibarət olsaydı, Tolstoy intiharı qəbul edərdi və başqa heç nə axtarmazdı. İnsanda elə dərin duyğular var ki, bu duyğular ən çətin məqamda insana başqa səmt göstərir. Ona görə Tolstoy İnanc məsələsinə üz tutur.

Ümumiyyətlə, ağıl, elm, həyat, inanc – bunlar ayrı-ayrılıqda bir-birini az təsdiq edirlər, daha çox inkar xassəsinə malikdirlər. Məsələn, ağıl deyir, həyat heyvani xassələrə malikdir, biologiyadır, növlərin mövcud olmaq üçün bir-birini sıxışdırıb məhv elədiyi anlamsız bir mühitdir, əslində bir bəladır. Elm deyir, hər şey nisbidir, sonludur, tükənəndir. İnam deyir, həyatın anlamı əbədidir, həyatı əbədiliklə müqayisə edəndə onun ali mənası dərk olunur. Mənanın dərki həyata ülvilik gətirir.

Ağıl, elm, həyat, inanc – bunların hər birinin öz ölçülərində dedikləri həqiqətdir. Varlıq isə bunların birliyində bütövdür. Ancaq bir ömürdə bunların birliyini yaratmaq nadir keyfiyyətdir. Səbəb də bunların birliyində dərk olunur. Ağıl inamı təsdiq edəndə həyatın gərəkliyi bilinir. Bundan sonra həyatın anlamının dərki başlayır. Tolstoy da öz axtarışlarına bu nöqtədən başlayaraq yeni yön vermişdi: "Ancaq nə zaman ki, həyatın gərəkliyini hiss etdim, elə onda da həyatın anlamını araşdırmağa başladım" deyirdi. Həyatın Anlamını bilmədən onu





yaşamağın boş bir şey olduğunu bildirmək doğru məntiqdir. ***İnsan niyə yaşadığının fərqində deyilsə, ondan fəzilət gözləmək doğru deyil.***

Çox maraqlıdır, – ağılla məsələyə yanaşanda yaşam mənasız görünür. Mənasızlıq isə insanı intihar əhvalına sürüyür. Burada İnanc, doğrudan da, yeganə çıxış yoludur. Ancaq İnanc da kortəbii halətdə qəbul olunarsa, özünü aldatma baş alıb gedər. Əlbəttə, dünyanın 6 gündə yaranması, mələklərin nəvazişinə, qayğısına ehtiyac duyulması, Allahın həbsxanasına düşməyin qorxusu insanın həyatında xülyəvi təsirlər göstərir. Bununla insanı heç bir Anlama aparıb çıxartmaq mümkün deyil. Tolstoy hər iki yolun doğrulmadığı bir ortalığa düşür. Elə buna görə idi ki, öz suallarının cavabını ağlın məntiqiylə tapmağa çalışırdı. Bunun üçün Buddanın, Sokratın, Şopenhauerin fikirləri ilə öz məntiqi dəlillərini daha da dərinləşdirirdi. Məsələn: Buddanın "Fəlakətin, gücdən düşmənin, qocalığın və ölümün qaçılmazlığının bilinməsiylə yaşanmaz. İnsan özünü həyatdan və yaşamın bütün imkanlarından qurtarmaq məcburiyyətindədir"; Sokratın "Maddi həyat bir dərd və yalandır. Bu üzdən də maddi yaşamın yox edilməsi bir xoşbəxtlikdir və biz bunu diləməliyik"; Şopenhauerin "Həyat – olması gərəkən bir şeydir, ancaq bir dərddir. Heçliyə gediş həyatdakı yeganə xoşbəxtlikdir" kimi fikirlərini əsas götürüb deyirdi ki, "ölüm yaşamaqdan daha yaxşı bir şeydir. Ona görə də bu həyatdan qurtarmaq gərəkdir". Ancaq bu fikirlərin heç biri heç kimi inandırmayıb. Bu gün də inandırmır. Çünki hər kəs yaşamaq istəyir. Deməli, insana yaşamın boş bir şey olduğunu təlqin eləmək yox, yaşamın doğru yolunu təqdim eləmək lazımdır. ***Biz burada Asif Atanın Dünyabaxışının məntiqinə gəlib dayanırıq.*** Əvvəla, onu demək lazımdır ki, bu yazıda məqsəd Tolstoyun araşdırmalarını araşdırmaq deyil, nə də təqdim eləmək deyil. Çünki ən yaxşı təqdimat onun öz əsəridir. Tolstoy bəşər tarixində nadir şəxsiyyətlərdəndir. Tolstoyun bütün axtarışları mənəvi məktəbdir. ***Onun özünə şübhələri həyata şübhələri fonunda daha dərin idi.*** Özünü tanımaq, həyatı dərk eləmək üçün ən dərin qatlara qədər enir, insan duyğularının sağlam yönlərini, eləcə də varlığın məntiqini bütün təfsilatlarıyla üzə çıxarmaq üçün ciddi mülahizələr sərgiləyir. Tolstoy öz axtarışlarında peyğəmbərliyə qədər gəlib çıxır. Onun ədəbi axtarışları, bədii əsərləri də peyğəmbər işinin məzmununa xidmət yönündədir. Təsadüfi deyil ki, Asif Ata Tolstoyçuluğu peyğəmbər müavinliyi kimi dəyərləndiribdir.

Əlbəttə, Tolstoyçuluğa yanaşmamız ehkami xarakter daşımır. Tolstoyun İnanc məsələsinə dönüşü onun dərkində həyatın xilası kimi öz əksini tapır. İnanc Tolstoya Səbəbi – Tanrını nişan verir və bu Səbəbə istinad edib yaşamağın gərək olduğunu anladır. O başqa məsələ ki, Səbəb Tolstoyun özünün tapdığı deyil, ona təqdim olunandır. Əgər Səbəbi Tolstoy özü müəyyən eləmiş olsaydı, peyğəmbər olardı. Ancaq deyil. Bununla belə, o, İnancın önəmini və həyata ahəng gətirdiyini dərk edir və öz araşdırmaları ilə buna həqiqi sonuc verir.

***Bura qədər olan münasibətlər, axtarışlar İnancın gərək olub-olmadığını təyin edir. Ancaq İnancın mahiyyət etibarilə həqiqət olub-olmadığı öz izahını tapmır.*** Tolstoy gərgin axtarışlardan sonra əqli düşüncələrinin şübhələrindən qurtarmaq üçün babalarının tanıdığı, tapındığı Baxışları qorumağın gərəkliyini vurğulayır. Bununla da o, babalarına qovuşmaqla xilas olduğunu qəbul edir.

Biz isə hesab edirik ki, babalara qovuşmaq bəzən onların mövqelərini, belə deyək ki, yanlışlarını inkar eləməkdən keçə bilir. Onların dəyərli ənənələrinə sayğı duymaq, kortəbii yaşamları üzərində isə dəyişikliklər eləmək gərəkdir. Babaları necə var, elə qəbul eləməkdə onlara qovuşma yoxdur, itirmək var. Yəni həqiqəti tapmaq yoxdur. Onlara qovuşmaq – onlara həqiqətin meyarı ilə yanaşmaqdır. Babalarımızın iradəsi zorlanıb, itaətə, mütiliyə sürükləniblər. Biz babaların sındırılmasına deyil, qeyrətinə söykənməliyik. Həqiqət – onların yanlışlarını ötmək tələb edir. Yuxarıda dediyimiz kimi, babaların xatirini əsas götürüb dünyanın 6 gündə yaranmasını, özü də yox yerdən, bir baxışla, qəbul eləmək heç də babalara sayğı demək deyil.

Əlbəttə, biz dinin məntiqi, məzmunu ilə gedişatı arasındakı fərqə, hətta ziddiyyətə əsaslanıb fikir formalaşdırmağın əleyhinəyik. Dinin, ümumiyyətlə, istənilən Dünyabaxışın irəli sürdüyü ideya, fikir gerçəklikdə düzgün yaşadılmaya bilər. Çünki insanlar əksərən ömürlərini ideyaya uyğunlaşdırmırlar, ideyanı öz qabiliyyətlərinə, istəklərinə, hətta zəifliklərinə uyğunlaşdırırlar. Ona görə də ideyanı özündən öyrənmək, onu gerçək olaraq yaşadanların əməllərindən öyrənməkdən doğrudur və önəmlidir. Bu səbəbdəndir ki, biz Dünyabaxışı onu yaşadanların, daha doğrusu, icra edənlərin əməllərinə görə qiymətləndirmirik, onun öz mənasındakı, məzmunundakı ziddiyyətləri üzə çıxarırıq və yalanlarını rədd edirik. Bu səbəbdən də "biz burada Asif Atanın Dünyabaxışının məntiqinə gəlib dayanırıq" fikrini





təsadüfi vurğulamırıq. Asif Atada İnam uydurulmur. Bu İnamda gerçək həyatın bəsitliyinin, Anlamdan ayrılmasının üzünə pərdə çəkməklə bizə təsəlli sunulmur. ***İnam – yaşamaq vasitəsi deyil, varolmağın meyarıdır.*** Əgər insan ədalət istəyirsə, mahiyyətinə yüksəlməlidir – Özü olmalıdır. Heyvan kimi yaşayıb ədalət ummaq necə özünü doğrulda bilər? Heyvanlığın öz qanunauyğunluğu var. Nisbi insanlaşmaq da özünü doğrultmur. Nisbi insan nisbi ədalət verə bilər. Ancaq həyatda heç kim nisbi ədalətlə barışmır. Deməli, insan mütləq ədalət umursa, bunu mütləq insanlaşma nəticəsində əldə etmək mümkündür. Deməli, insan öz arzularında, istəklərində daim ***Olmalıya*** can atır. Buradan həyatın mahiyyətcə bir heç olduğu deyil, Anlamlı olduğu dərk olunmağa başlayır. Bu hal isə çox dərin bir nikbinlik yaradır. Deməli, insan əlacsızlıqdan İnama üz tutmur. İnsanın yaşaması və ömrünü İnama bağlaması varlığın təsdiqi üçündür. Burada Səbəb bilinir və dərk olunur. Asif Atada nikbinliyin məzmunu bu deyilənlərdən dərin və əhatəlidir. O deyir: "Dünyanın, Həyatın, İnsanın mənası, mahiyyəti Mütləqdir. Yəni Əzəlidir, Əbədidir, Sonsuzdur, Kamildir. Ona görə də dünya ölümsüzdür. Dinin uydurduğu "Qiyamət günü" cəfəngiyyatdır".

Mütləqə İnam insan üçün elə bir ölçü yaradır ki, yaşamaq ona ruhani fərəh gətirir. İnsanlaşma ömrə daxil olduqca, insan olmağın həqiqəti dərk olunur.

Din yalançı inamdır. O, insan yaratmır, bəndə yaradır. Din elə bildi insan bəndələşsə, pis iş görməz. Ancaq daxilində köləlik, mütilik daşıyan insan təbəqələşmənin əsasını qoyur. Təbəqələşmə – tamahkarlığın, xudbinliyin təzahürüdür. Təbəqələşən özündən yuxarıdakına əyilir, özündən aşağıdakını isə əyir.

Tolstoy dində xurafatı görürdü. O, xristianlığın kilsə tərəfindən oyuna çevrilməsini qəbul eləmirdi. Ancaq "6 gündə yaranan dünya, qiyamət günü" kilsə tərəfindən ortaya atılmayıb, xristianlığın mahiyyətindədir. (Bununla belə o, dindən İnsanilik umurdu). Tolstoyun üz tutduğu xristianlıqda xurafat var. Xurafat İnsaniliyə qarşıdır. Xurafat özümləşdirmir, özümlükdən ayırır. Bu səbəbdən də biz Tolstoyun Xristianlığa üz tutmasını anlayırıq, ancaq qəbul etmirik. Anlayırıq, o mənada ki, İnamsız həyat sürmək mümkün deyil. Qəbul etmirik o mənada ki, yalanla, xurafatla yüklənmiş bir İnanc həyata işıq sala bilməz, başqa sözlə, yaşamaq üçün nikbinlik qaynağı ola bilməz...

## NARAHAT TALEYİN ÜMİD AXTARIŞI

(Ernest Heminqueyin "Qoca və Dəniz" əsəri üstə düşüncələr)

Bəşəriyyət yaradıcı olduğu halda, yaradıcılığı fövqəltəbii qüvvələrin işi hesab elədi. Bəşər övladı kainatın ahəngini seyr elədikcə ağlının məhdud olduğunu düşündü və düşündükcə bu ona əzab verdi. Sarsıldı, çaşdı, qorxdu – özünü küçümsədi. Ağıl gerçəkliyə bağlı olur, gerçəklik isə gözün görmə uzantılarına qədərdir. Kainatın ahəngindəki sonsuzluğa ağıl işləyə bilmir. Ona görə də sonsuzluq Allahın məkanı kimi düşünüldü. Allah insandan sonsuzluq qədər uzaqlarda bilindi. Sonsuzluqla sonlu arasında uçurum yarandı. İnsan ömrünü, düşüncələrini sonsuzluqdan təcrid elədikcə münasibətləri bu uçuruma düşdü. Uçurum taleyi yaşadı. Uçurum dərindir və cazibəlidir. Uçurum dərinliyinin öz qanunauyğunluqları var. Burada hər şey baş-ayaq durur. Baş-ayaq yaşayan cəmiyyət qeyri-kamil cəmiyyətdir. Qeyri-kamil cəmiyyətin yaratdığı mühit də, həyat tərzi də qeyri-kamildir. Cəmiyyətin qeyri-kamillik üzərində yaratdığı uçurumları Allah da ötə bilmir. Bu uçurumlar Allahın qeyri-kamil mühitə "təsir imkanlarını" da aradan qaldırır.

Burada biz Allah deyəndə İnsanın Ali Mənindəki qüdrəti nəzərdə tuturuq. Yəni, insan öz Ali Mənindəki qüdrətdən təcrid olanda sonsuzluq səltənətə çevrilir və Allah onun sahibi olan anlamı daşıyır. Allahın yaradıcılığı anlayışı insanın ruhani imkanlarının qüdrəti kimi dərk olunmur, Dünyanı oyuncağa çevirən azman sənətkar kimi mənalandırılır. Əslində İlahi yaradıcılıq – insanda ruhani imkan, Dünyadakı Dünyalıq imkanı deməkdir. İnsanla Ali Qüdrətin vəhdəti, Dünya ilə Dünyalığın vəhdəti dərk olunarsa, insan arzuları sonsuzluqla özü arasındakı uçurumlarda məhv olmaz. Başqa sözlə, insanla məna arasındakı uzaqlıq aradan qalxar.

Bəlkə də, verdiyimiz bu qısa və çətin giriş üz tutduğumuz mövzuya bağlı görünməyə bilər. Əslində isə yaradıcı dühaların bütün axtarışları düşüncələrimizi bədii obrazlar vasitəsilə vurğuladığımız mənalı həyatın çalarlarına yönəldir. Ernest Heminqueyin "Qoca və Dəniz" əsəri də bu qəbildən olan yaradıcılıq örnəyidir. Biz yaradıcı imkanların dərin





qatlarından üzə çıxan belə dühaları müəllif adlandırmaqdan özümüzü saxlayırıq. Müəllif – özünün fərdi estetik imkanları ilə uğraşan yazara demək olar. Ulu keçmişin möhkəm özülləri üzərində dayanaraq böyük gələcəyə istiqamət götürən şəxsiyyətlər insan duyğularının təkamül yoluyla bəşəri dərinlikdə yaşamasına yardımçı olurlar. Onlarda istedad əzabgətirici xassəyə malik olur. Çünki bəşəri axtarışlar ağrılı yaşantılar deməkdir. İstedad ağrı gətirir və ağrı ilə ömrü birləşdirir. Ağrı ilə yaşayan ömür böyük olur. O, daim gerçəklikdən yüksəkdə durur.

Onu demək lazımdır ki, əsər bir obrazın timsalında həyatın iç qatlarını açdığı dərəcədə dərin və fəlsəfidir. Bədii cəhətdən mükəmməl, estetik-ideal baxımdan ibrətlidir. Bir şəxsin qayğıları, düşüncələri, maraqları, narahatlığı, təbiətdəki canlı mövcudluqları özünün yaşamaq vasitəsinə çevirməkdən dolayı xəcaləti – ovqatının təbii şəkildə, anlaşıqlı ifadələrlə aşkarlanması bütöv bir cəmiyyətin həyat tərzini, dövrün ictimai-sosial ahəngini xeyli dərəcədə əhatə edə bilib. Elə istedadın qüdrəti də bundadır, sənətin gözəlliyi də.

Əsərə müraciət eləməklə müəyyən qədər dediklərimizin izahını verməyə çalışaq.

"Balıq insanın hər cür kələyindən, hiyləsindən, qurduğu tələdən uzaqda, okeanın dərin yerində yaşamaq istəyirdi. Mən isə onu üzə çıxartdım. İnsan nəfəsi dəyməyən bir yerdə indi biz bir-birimizə bağlanmışıq, bir-birimizdən ayrılmazıq. Aramızdakı yaxınlıq günortadan başlayıb. İndi mənə də, ona da heç kim kömək edə bilməz" ("Qoca və Dəniz" əsərindən).

Uçuruma çevrilən qeyri-kamil həyatın qarşımıza çıxan məntiqidir. İnsan, öz növündən olanların yaratdıqları ədalətsizlik ucbatından ağlasığmayan hiylələr düşünür. Həyat uğrunda mübarizəni öz növünə qarşı apara bilməyəndə təbiətin başqa canlılarına qarşı aparır. İnsan həyatı düzgün qura bilmir. Ona görə də öz ağlını daha nələr üzərində sınaqdan keçirməyə zorlayır. İnsandakı dərrakə hər şeyi ram etmək, yaxud mənimsəmək üçün olmamalı idi. Hər şey süni yolla mənimsəniləndə təbii qanunauyğunluqlar pozulur axı. Təbii qanunauyğunluqlara münasibət Qocanın gözəlliklərə qıymaq istəməməsində bütün çalarları ilə özünü büruzə verir. Balıq insan hiyləsinin çatmadığı bir dərinlikdə yaşamaq istəyir. Bu, təbii gözəlliyin, təbii qanunauyğunluğun təsirinə bir işarədir. Ancaq insan hiylələrinin dərinliklərə belə işləməsi vəziyyəti dəyişir. "Mən onu üzə çıxartdım",

yəni gözəlliyə qıydım. Müəyyən bir dərinliyə hiylə boşluğu doldu. Bu mənzərəni dilə gətirmək Qocanın daxili iniltisi və gileyi kimi ifadə olunur. Çünki Qoca bütün gücünü öldürmək üçün səfərbər edibdir. Bu, onun zərif düşüncələrinə zidd olduğu halda, maraq və tamah onu uzaq məsafələrə sürüyüb aparır. Burada, o öz həyatını itirə bilər. Risk nə üçündür?! "İndi mənə də, ona da heç kim kömək edə bilməz". Qoca əzab verir və əzab çəkir. Əzab verməsi yalnız fizikidirsə, əzab çəkməsi həm də mənəvidir. Həm vücudunda sağlam yer qalmır – hər yerini kəsir, ağrıdır; həm də nəhəng bir canlını üzə çıxarıb işgəncə verdiyi üçün – dünyanın mənasına zidd addım atdığı üçün xəcalət çəkir. Sonra gözündən düşməməsi üçün özünə təsəlli verir. Yaşamaq üçün atdığı addıma məcbur olmasını əsaslandırmağa çalışır. *"Dünyada elə hər şey günahdır. Günah olmayan nə var ki?! Bir də bundan qoy o adamlar narahat olsunlar ki, günah-savab işindən pul çıxardırlar"* (həmin əsərdən).

İnsan nəfəsindən çox-çox uzaqlarda, ölümün bircə addımlığında onun ruhu narahat duyğularını sözə çevirib ən azı öz qulağına eşitdirir. Bəli, ölümlə yanaşı oturub bu ünyetməz dəryaların ləpələri üzərində özünün əməllərini mühakimə edir. Əgər təbiətin sərt üzü görünərək dəryanı təlatümə gətirərsə, Qocanın taleyi əbədi sularda qərq olar. Bununla da, solğun çıraqların şölələri altında mürgü vuran qəsəbəsi üçün bir neçə yoxsul xatirələr saxlamış olar. Əslində həyatın görünməyən əsrarı da Qocanın bu mühakimə və mülahizələrindədir. Özüylə filosofsayağı ünsiyyət qurması onu göstərir ki, biz bu uzaq səyahəti təkcə Qocanın yaşamaq haqqına bağlamalı deyilik. Təsvirə sığmayan davranışlar və mühakimələr hadisələrin məzmununa dinamiklik və dolğunluq gətirir. Doğrudur, burada yoxsulluq və təbiilik, ülviyyət və yaşamaq əlacsızlığı üz-üzə dayanır. Yaşamaq, mövcud olmaq istəyi insanı əlacsızlaşdırır. O, ali səviyyələrə qalxmaq istəyir, ancaq yaşamaq, yəni cismani həyat onun ayağından tutub dala çəkir. İnsan öz həyati istəklərinin dalınca qoşduqda ülviyyətdən uzaq düşür. Əlacsızlıq ucbatından ali duyğularından keçməli olur. Bunu biz balıqçının öz dilindən də eşidirik: *"Balıqçı olmağım bir yandan öldürmək üçündürsə, o biri yandan çörək ağacımdır"*. (həmin əsərdən).

Burada əlacsızlıq özünü aydın göstərir. Cismani həyat insana baha başa gəlir. Hətta bəzən insani ləyaqət hesabına qurulur. Ancaq yaralı balığın Qocanı qayıqla birgə ardınca çəkib aparması onu başqa cəhətdən





qayğılandırır. Burada Qoca öz işinin uzanmasından daha çox, balığın yaşamaq istəyinə qarşı çıxmasından xəcalət çəkir. "Görəsən nə elədiyini bilirmi, yoxsa o da mənim kimi bəxtinin izinə düşüb hara gəldi gedir?" sonra özünü qınayaraq "həddən artıq uzağa getməklə sən öz bəxtini təhqir eləmisən" deyir. Əlbəttə, burada biz Qocanın həyatı ilə yersiz risk eləməsindən yana rahatsız olduğunu da düşünə bilərik. Ancaq burada o da var ki, insan bəxtinin maddi nemətlər tamahında olmadığı bilinir. Nə yazıqlar ki, insan özünü dərk eləməyə az meyilli olur. Belə olduqda isə cəmiyyətin qeyri-kamil mühiti onun idrakını məhdudlaşdırır və mənliyini tapdalayır. Bütün bu narahatlıqların, ağrılı düşüncələrin qaynağı da əslində insanla cəmiyyət arasındakı yadlığın sərtliyindədir. Qocanın hər addımda etiraz dolu ifadələrində bunu görmək mümkündür…

*"Yaxşı ki, biz adamlar ulduz ovuna çıxmırıq. Sevinirəm ki, ulduzları öldürməyə can atmırıq"* (həmin əsərdən).

Qoca gecəni uzaq dəryaların ağuşunda qarşılayarkən tənhalığın vahiməsini sayrışan ulduzların həmdəmliyi ilə ötür. Uzaq sonsuzluqda sirli, sehrli ulduzlar ümid işığı kimi həyatı Qocaya doğmalaşdırırdı. O, belə bir ümidsiz məkanda təslimçilik əhvalına qapılmır, hətta bədəninin ağrıları da onun ümidinə qoşulur. "Əgər ağrı varsa, deməli, həyat var" deyir. Yorğunluq və əzab içində bütün vücudunun keyiməsindən ölümü, dirimi olduğunu kəsdirə bilməyən Qoca canının ağrımasından və uzaq ulduzların varlığından təsəlli tapır.

İnsan dərrakəsinin hiylələrə sərf olunaraq hər şeyi öldürmək, məhv etmək üçün köklənməsinə Qoca tənhalığın sarsıntıları içərisində dikələrək etiraz edir. Bu etirazını öz təsəllisi və sevinci ilə ifadə edərək "nə yaxşı ki, ulduzları öldürməyə can atmırıq" deyir.

Bir obrazın simasında əsərin bu dərəcədə zəngin dinamizmi bizi heyrətə gətirir. Həm də onun dənizdə tənha döyüşləri olduqca dramatik səhnələrlə doludur. Təsvirə gəlməyən davranışların dramatik qatları əslində istedadın universal imkanlarını göstərir. Dərin istedad həyatın dərin qatlarını açır.

Əsərdə hər addımbaşı yeni qapılar açıb, məntiqi mülahizələrin izinə düşərək düşünmək imkanları tapmaq olur. *"Ancaq düşündüyünü dilə gətirməyə qorxurdu; ona elə gəlirdi, arzu dilə düşəndə baş tutmur… İndi düşünüləsi bir şey varsa, o da mənim nə üçün doğulmağımdır"* (həmin əsərdən).

Burada Tolstoyvari həyat fəlsəfəsinin içinə daxil olmaq və onun Anlamını tapmaq istəyi yarana, yazıçı balıqçının diliylə öz axtarışlarının sirrini açıb tökə bilərdi. Ancaq o, fəlsəfi axtarışlar dalınca qoşmur, öz əsərinin bədii çalarlarla başa gəlməsini təqib edir və oxucunun diqqətini yayındırmaq istəmir. Öz sualına "Balıq tutmaq üçün" cavabını verməklə, əsərin başlandığı məntiqin bədii qanunauyğunluqlarına sadiq qalır…

Qocanın uzaq dəryaların ənginliklərinə səyahət etməsi, onu Dünyanın ali mənasının yanına aparıb çıxarmışdır. Bu səyahət onun bütün ömrünün mənalı bir sintezi kimi tamamlanmışdır. O, düşünə bilmiş, anlaya bilmiş, sevə bilmişdir. Nəhayət, insanların bir-birinin qədrini bilməməsinin ağrılı bir gedişat olduğunu özünə deyə bilmişdir.

*"O, insanla bir yerdə olmağın, deyib-danışmağın əsil mənasını, dəyərini indi-indi bilirdi"* (həmin əsərdən).

İnsan cəmiyyətdə çaşır, özü öz gərəkliyinin axıra qədər fərqinə varmır. Ancaq ən adi ünsiyyətlərdən belə təcrid olanda başqasına olan ehtiyac bütün dolğunluğu ilə öz təsirini göstərir. Onun mənalı bir varlıq odluğu, həyat nizamının təməlində durduğu qabarır.

Əsərdə Qoca səyahətdən zahirən məğlub qayıdır. Dəniz yırtıcıları onun böyük zəhmətlə əldə elədiyi neməti qamarlayıb alırlar. Ancaq Qalibiyyət Qocanın düşüncələrində, insana olan ehtiyaclarının qarşısıalınmaz bir həsrətə çevrilməsində – həyat üzərində yüksəlməsində idi. İnsan mənanı öz içində tapa bilməyəndə təbiət onun köməyinə gəlir.

Biz əsərdə yalnız canlı həyatda olanların təsvirlərini seyr etmirik. Həm də Qocanın özü ilə söhbətlərində Olmalının məntiqi axarına düşürük. Burada biz insan olmağın səadətini hiss edir, dünyaya gəlişin gözəlliyini sevincimizin göz yaşlarında bir anlığa da olsa yaşayırıq…

Bədii əsərin klassik sənət nümunəsinə çevrilməsi şəxsiyyətin insani-bəşəri məzmun əsasında yaşamasının göstəricisidir. Bizim üçün E.Heminquey insani-bəşəri pillədə duran sənətkarlardandır.





## YURDÇULUĞA QAYIDIŞ

*(Ayaz Şıxalıoğlunun "Yenə axşam düşür" kitabı üstə bəzi düşüncələr)*

Yurdu öyə-öyə itirirlər onu. Ayaqlar altına atırlar. Sonra şəninə təriflər yağdırırlar. Mükafata qurban verirlər, şöhrətə, təltifə qurban verirlər Yurdçuluq ləyaqətini. Özlərini Yurd nisgilli, el dərdlisi kimi göstərirlər, manşırlanırlar. Dərddən yazan şair, fəlakəti qələmə alan yazıçı kimi tanıdırlar özlərini millətə. Millət onlara inanmağa başlayan kimi satılırlar rəsmiyyətə. Şöhrət qazanırlar, orden taxırlar döşlərinə. "Yas"dan çıxırlar, dəbdəbə sevincinə bürünürlər, firavan həyat, rahat məişət pəncərəsindən baxırlar millətə. Ona təsəlli verirlər, sevincləri ilə muştuluqlayırlar milləti, mən sənin böyüyün oldum, səni daim sevəcəm, öyəcəm, gözlərimə düşən firavanlıq işığında baxacam sənin halına, ürəyimə nəşə dolduran əyləncələrimlə alqışlayacam sənin varlığını, sevimli millət, əziz vətən deyə haray qoparır dodağı yağlı, başı sığallı "şairlər", "yazıçılar".

Onların vətən sözlərində möhtəşəm xəyanətlər haylanır xalqın ləyaqətinə qarşı. Həqarətlər başa çıxır onların kənizsayaq işvələri üstə. Əllərdə bəslənilən, təyinatlı, təminatlı ziyalı təbəqəsi formalaşır. Öz baxımsızlıqlarından, yoxsulluqlarından xəlqi dərd uydurmuşdular. Dərddən şikayətlənirdilər, gileylənirdilər, zavallı, miskin duruma düşürdülər. Xalq onları özününkü sayırdı, onlara mərhəmət göstərirdi, öz dərdinin daşıyıcıları kimi baxırdı zəlillərə. Rəsmiyyət xalqın özününkü saydıqlarını özününküləşdirir. Dərdi tərsinə yazdırır. Zülmə sevgi yazdırır, əzilənlərin könlü alınır. Sizin içinizdən çıxanlara qayğı göstərilir, əlləri mənsəbə çatdırılır, dahiləşdirilir, heykəlləşdirilir deyilir millətə. Millətin haqqı ziyalı təbəqəsinin rəyasətə xidmətinə qurban verilir. Haqqı talayanlarla haqqı oğurlayanların birliyi yaranır. Onun həqiqəti təhrif olunur, tarixi əyri yazılır, mənliyi əsarətə salınır.

Bu kontekstdən yanaşanda Ayaz Şıxalıoğlunun dərdi şəxsilikdən üstün, xəlqiliyə doğma görünür.

*Kəsdilər qollarını, Babək,*
*Qorxaqlar qaldı.*
*Qınamıram onları,*
*Qorxaqların qolu yoxdur.*
*Üstündən adladıq, Babək*
*Min ildi ki, yol gəlirik.*
*(Qorxaqların yolu yoxdur!)*
*Min ildi ki,*
*üzü Qibləyə ölürük,*
*qolların Qibləmiz olmadı!*

(Ayaz Şıxalıoğlu: "Yenə axşam düşür", səh. 5)

Müəllif xalqın yolsuzluğu boyda Dərdlə danışır. Xalqın özgələşdirilməsindən, Yönsüzlüyündən yaranan fəlakətli nəticəni acı-acı dilə gətirir. Rəyasətdən uzaq, mənsəbdən uzaq – insanlığa doğma. Qəlbi xəlqilik səadəti ilə dolmaq istəyir. Dərdə düçar olur – dərd üstə köklənir duyğuları. Dərddən kənarda özünü müstəqil saymır.

Xalq idraksızlıq girdabına salınanda dərd onu üzür. İdraksızlıq mühitində dərddən güc almaq xalqa nəsib olmur. Elə buna görə də xalqın dərdini ayrı-ayrı fərdlər öz ürəyinə yükləyir. Ürək yollaşır və xalqın həqiqətinə üz tutur.

*Düşünmək,*
*Xəyala dalmaq.*
*Xəyala daldıqca düşünmək.*
*Bir anda ötüb keçməli ulduzları,*
*Sonsuzluğun sonuna yetməli.*
*Baş vurmalı ehramlara,*
*Qaranlıqlardan sirləri öyrənməli.*
*Bir xurma ağacının altında*
*nəfəsini dərməli:*
*Bura Bağdaddımı?*
*Doğmadımı, yaddımı?*
*Burda doğradılarmı ruhumu?*
*Qolsuz, oğulsuz Yurdum,*
*Ruhsuz, qanadsız Yurdum!*





*Bayrağında yaşılı –*
*xəyanətin yaşıdı!*
*"Yaşıl" üstdə axıtdılar qanımı.*
*Ruhum sərgərdan…*
*Nə vaxtacan,*
*nə vaxtacan?!*

(həmin kitab, səh. 7)

Burada əsil vətənpərvərlik, ziyalılıq təməlləşir şəxsin duyğularında. Şair xalqının ruhuna qarşı tarixi qəsdin hesabını sorur dönməz bir mərdliklə. Tarixi ədalətsizlik, antiinsani gedişlər onun heysiyyatını tarıma çəkir. Yeriyir fəlakətin üstünə, fəlakəti hiddətiylə damğalamaq istəyir, – bir də naşılıq olmasın deyə.

*Bu gecə*
*Sahildə dayanıb dənizə baxdım.*
*Hər tərəf qaranlıq,*
*hər tərəf qara su.*
*Tökülmüşdü dənizə*
*gecənin qarası.*
*Dalğalar qoşun-qoşun*
*çıxırdı sahilə.*
*Dəniz xilafətin ordusu.*
*Bu gecə*
*yaxın düşə bilməz mənə*
*ölüm qorxusu.*
*Titrədir könlümü*
*Xilafəti dağıtmaq arzusu.*
*Dönüb baxdım…*
*Ev-ev, küçə-küçə*
*işıq içindəydi şəhər.*
*Sanki əllərində məşəl,*
*Dayanmışdı xürrəmilər!*

(həmin kitab, səh. 6)

Duyğuların poetik axarı nikbinlik çağırır. Ruhun döyüşkənliyi, döyüşün əzəməti təqdim olunur. Öz dəyərlərinə söykənmək, özümlüyü ilə fəxr etmək ləyaqətləşir. Qeyrət hünərlə qoşa görünür. Bu gündən

Qədimliyə yol başlamaq, dəyərlərin yurduna köçmək, yurd yiyəsi olmaq, dəyər yiyəsi olmaq həsrəti işıqlanır mürgülü gecənin qara üzündə. Obrazlar işıq seli kimi axır nəzərlərimizə, – şeiriyyətin səsində.

Dərdlə işıqlanır duyğular, saflaşır və yurdçuluğa çağırılır.

*Məni öldürdülər…*
*Qoymadılar yaşamağa.*
*Ürəyimdə gəzdirdiyim insanlar,*
*Ürəyimi yedilər.*

*Əlim ürəyimə çatmadı,*
*Əlim ürəyimin üstündə – öldürdülər.*
*Mən nə istəyirdim ki, sizdən?*
*Yalnız sizi sevmək…*
*Sevməyə də qoymadınız…*

(həmin kitab, səh. 40)

İnsana sevgidən ərk yaranır. Yurd müqəddəsliyi də insana sevgi əsasında göyləşir.

İnsandan bir böyük olduğuna görə gileylənirlər, çünki böyüklüyə doğmalaşa bilməyənin qəlbi dar olur. Belə adamlarda balaca duyğular mənliyin hökm verəni kimi çıxış edir. Bir də insan sevgimizdən uzaqlaşanda, özünə yadlaşanda giley yaranır. Təbiətə, vətənə münasibət bu ali keyfiyyətin təzahürü kimi gerçəkləşir. **Vətən – insanlığın xəlqi dəyərə çevrildiyi məkandır.** Bu səbəbdən də insana arxa çevirib nə vətən yaratmaq olar, nə də onu sevmək. Müəllif vətənini sevdiyi üçün insanın özündən ayrılmasına acıyır, ancaq acıqlanmır, kövrək duyğular ilə qəlbinin qapılarını onların üzünə açır. İnsana ürəyində yer ayırır, çünki ürəyi Vətəninə bağlıdır. Vətən sevgisinin təməlində İnsan durur.

Yurdumuzun İnsanlaşma, Xalqlaşma yolu var – İnam Yolu!

Bu yolu gedənlər də var, bu yola doğma olanlar da. Getmək özü uğurdur!

Doğmalara uğurlar diləyirik.





## DUYĞULARIN SARVANI

Yolun başlanğıcına qədər də yol var. Yol istəyən Yolun başlanğıcına qədər yolayrıcına gəlib çatır. Yaradıcılıq da bundan sonra başlayır. Yaradıcı ömür daim yol üstə olur. Axtarışlar yolu, yaradıcılıqlar yolu insandan sonsuz, tükənməz eşq istəyir. Eşq olmasa ömür qurulmur. Dolanmaq üçün yaşayanların yolu həyat yoludur – təbii, fiziki taleyin ixtiyarında olmaqdır. Özünü tapmaq üçün yaşayanların yolu həyatdan üstün olmaqdır. Yolayrıcı dediyimiz də bu iki yönün fərqidir. Buna görədir ki, Yolun başlanğıcına qədər Yolayrıcı var. İnsan öz taleyini yolayrıcında müəyyən edir. Təbii həyatla yetərlənməyənlər Böyük Yolun Başlanğıcına gəlib çıxırlar. Böyük Yolda sonsuz əzablar yaşanır – dərd də sonsuz olur, dərddən işıqlanmaq da; kədər də sonsuz olur, fərəh də. Dünyaya gəlməyin mənası Böyük Yolda dərk olunur; özünütəsdiq Böyük Yoldadır. Böyük Yolda özünü aldatmaq olmur. Böyük Yol əsillik ölçüsü yaradır. Böyük Yolda qeyri-əsil mücadilə, qeyri-əsil yaradıcılıq yerimir. Ona görə əsillər – Böyük Yola üz tutanlar az olur. Azların qurulması çox vacibdir.

Saflığında doğma olan İbrahim İlyaslı təbii və səmimi duyğuları ilə Yol üstədir. Bu gedişdə onun qayğılı, axtarışlı ifadələri el dilindədir, ona görə də safdır. Çünki ürəyi təmizdir. Ürəyinin təmizliyi sevgi pıçıltıları kimi poetikləşir. Ağrıyanda da saflığını qoruyur, qəzəblənəndə də. Yaşadığı dövrün ziddiyyətlərlə dolu ahəngsizliyi duyğularının təmizliyinə xələl gətirə bilməyib. Bir çox şeirlərində ürəyi öz saflığının ardıcıllığı ilə danışır.

*Nə gözəl toxunub fələyin toru? –*
*Adam özü qaçır ağzına doğru.*
*İçində quldurdu, çölündə oğru,*
*İçini, çölünü xışla da getsin.*

Şərin, yamanlığın sistemli şəkildə qurulması, eybəcərliyin cəmiyyətin həyat tərzinə çevrilməsi, mühitə hakim kəsilməsi hər addımda insana fəlakətli aqibət vəd edir. Ona görə də "içini-çölünü

şumla da getsin”. Həyat kökündən dəyişməlidir, insana yaramır həyatın gedişatı…

Sadə el diliylə fəlakətə barmaq tuşlayır İ.İlyaslı. Sonra şər felinə əyilən cəmiyyətdən aralanıb təbiətə üz tutur, saflığına həmdəm axtarır:

*Görəm nədir qaranlıqda*
*Meşələrin vahiməsi.*
*Gözümə adam dəyməyə,*
*Qulağıma adam səsi.*
*Könlümü sözə kökləyə*
*Dağ çayının şırıltısı.*
*Bir misramı səksəndirə*
*Kəkliklərin pırıltısı.*

Meşələrin qaranlığı cəmiyyətin qaranlığından mənalıdır. İnsanın özünə yadlaşmasından cəmiyyət mühiti vahiməyə çevrilib. Mühitin antiinsani vahiməsi sərt, amansız, öldürücü olduğuna görə könül təbiətə meyil edir. Vəhşi təbiətin vahiməsi daha cazibəli görünür cəmiyyət xofundan. İnsan cəmiyyət qaranlığının boşluğuna düşəndə cəmiyyət onu yeyir, mənəvi heçə çevirir. Ona görə insan cəmiyyətdən qaçır, təbiətə pənah aparır, – özümlüyünü təbiətdə axtarır. Təbiətlə doğmalaşmaq ürəyə məzmun verir – arzular nəğməyə çevrilir.

Başqa bir yerdə:

*Bildi dünyalıqdır dünyanın varı, -*
*Yarı yolluları, yarı yolları.*
*Gəzdi bu dünyada olmayanları,*
*Olanlar öldürdü Akif Səmədi.*

Bu, ruh əhlinin bildiyi və dediyi sözə bənzəyir. Yaşadığın bəsit dünyada ülviyyət axtarmaq ümid verməz. Ya bu bəsit dünyadan təcrid olmalısan, ya da onun bağrını yarıb mayasına bulaşmış şər felini ali sözlə yumalısan. Poeziya həm də belə bir mübarizədir əslində.





## II. Poeziya Ruhun Harayıdır

Şeirin halı duyğulardan, məzmunu isə idrakdan gəlir. Ona görə də şeiriyyəti sırf duyğu hadisəsi saymaq doğru olmaz. Əlbəttə, şeirin gözəlliyi, eləcə də məna, məzmun yükü duyğuların və idrakın yetkinliyindən asılıdır. Duyğu yetgin, idrak yetkinsiz olarsa, şeirin ritmik deyilişi yaxşı səslənəcək, ancaq söz yalın və kəsərsiz olacaq. Əksinə, idrak yetgin, duyğu qeyri-yetgin olarsa, söz quru və sərt olmaqla poetik cazibəsini azaldacaq. Əsil şeir Duyğu və İdrak Birliyində yaranır. Bu səbəbdən də şairanə duyğular özündə qalmamalı, idrakilik mühitinə daxil olmalıdır. İdrakiliklə yetginləşməli, qətiyyətləşməli – yeni mərhələyə qədəm qoymalıdır. Şeiriyyətin ruhu ümumiləşdirmələr yolu ilə hadisəçiliyi ötməlidir. Daha böyük hədəfləri nişan verən obrazlara üz tutmalıdır.

Ümumən, yaradıcılıq insan ömrü ilə təndir, – həm ömür kimi mənalı, məzmunlu, həm də ömür kimi ahəngdar böyümə xislətlidir. İlk şeiriyyət körpə məsumluğu, saflığı kimi doğulur. Gənclik kimi şövqlü, ehtiraslı, heyrətli, həm də ideala can atan. Nəhayət, şeiriyyət böyüyür, sistemləşir, bədii assosiasiyalar vasitəsilə fəlsəfiləşir – müdrik, sanballı poeziya zənginliyinə çatır. Şeiriyyət nə qədər saf, məsum olursa olsun, əgər o, yetginləşmirsə, kamil obrazlarla bitgin bir sistemə çevrilmirsə, poeziya sayılmır. Poeziya – bədii-fəlsəfi axtarışlarla olmalını, görünənlə görünməyənin əlaqəsini, vəhdətini öyrənib vəsf eləyən şeiriyyət-dir. Şeiriyyət riyazi üsullarla doğulmaz. Daha doğrusu, poeziya – məhsuldar çoxluqla, yaxud hadisələri sadalamaqla yaranmaz. Şeiriyyət – mənanı kəşf edən ali duyğularla idrakiliyin vəhdətində ülviləşir, müqəddəsləşir və ali həyat nəğməsinə çevrilir. İlahi məqamları fəth edir, insanın mahiyyətindəki xəlqi çalarların bilinməsinə, öyrənilməsinə yardımçı olur.

Poeziya – ruhun bədii hekayətidir. O, yaddaş hadisəsi deyil, düşüncə hadisəsidir. Bu səbəbdən də həvəskar şeiriyyət poeziyaya çatmır. Dediyimizə bir az aydınlıq gətirək: İnsan təbiətə doğmalaşanda duyğuları mərhəmləşir. Belə halda o, şeir diliylə danışmaq istəyir. Bəzən də şəxs bədii kitablarla doğmalaşanda şeir diliylə danışmaq istəyir. Kitablardan yaddaşa hopan və bədiiləşən zövqlər fərdin estetik arzularına qarışıb ifadəyə qayıdır. Ancaq bu cür yazarlıq poeziya sayıla

bilməz. Klassik dillə desək, poeziya yaddaşdan deyil, ürəkdən doğmalıdır.

İkinci, poeziya – yaradıcının özünə dediyi sözdür. İnsan özünə deyə bilmədiyi sözü başqalarına da deyə bilməz. Başqa sözlə, özü ilə ülvi ünsiyyəti olmayanın gələcəyə deməyə sözü olmur. Bu cəhətdən yanaşanda poeziyada tarixiliyin önəmi də özünü göstərir. Tarixiliyin önəminə iki aspektdən yanaşmaq olar: Birinci, şeiriyyətdə obrazların, eləcə də fikrin, düşüncənin tarixi önəm daşıması – ədəbi yaradıcılığın ideya yönünə təsir göstərməsidir. Məsələn, "Leyli-Məcnun", "ənəlhəqq" ideyası üstə yaranan şeiriyyət, "Hamlet" və b.k. bütövlükdə Şərq və Qərb ədəbiyyatının ideya qaynağı kimi ədəbi bəhrə vermişdir. Biz "Leyli-Məcnun"da özündənkeçmənin kamil səviyyəsini, insani keyfiyyətlərin ilahi qüvvələrlə yarışını dərk edirik. Habelə "Hamlet"də ümumən faciəviliyin konsepsiyasını oxuyur, "ənəl-həqq" ideyasının izhar olunduğu şeiriyyətdə bəşəriyyətin öz insani mahiyyətiylə üz-üzə qoyulmasını müşahidə edirik. Bu səbəbdən də poeziyada tarixiliyin məna etibarilə ənənəyə çevrilməsi ictimai tərəqqidə həlledici çəkiyə malikdir.

İkinci, poeziyada tarixiliyi biz şəxsiyyət və ənənə əlaqəsində dərk edirik. Məsələn, Azadlıq və İnsanlıq uğrunda özündən keçənlərin yenidən obrazlaşdırılması və örnək göstərilməsi.

Ümumiyyətlə, hesab edirik ki, poeziyanın hədəfləri təbiəti vəsf etmədə, yaxud ictimai pozuntuları ifadə etmədə məhdudlaşmamalıdır. Bəzən deyirlər, filankəs təbiət şairidir. Bizə görə təbiət şairi olmaq ali bir səviyyə deyil. Çünki təbiəti görmək və öymək yaradıcını heç də gərginliyə, iztiraba sövq eləmir. Çünki təbiət paxıl deyil, şöhrətpərəst deyil, qısqanc, xudpəsənd deyil. Bu səbəbdən də gülü-çiçəyi, ceyranı-cüyürü, dağı-ormanı sevmək, öymək yaradıcıdan xüsusi istedad tələb eləmir. Balaca bir təb və poetik təcrübə bəsdir ki, təbiət şeirləri yaransın. Ancaq bəşər övladı – insan çox mürəkkəbdir. Onda heyvan da var, insan da; ali də var, bəsit də; ülviyyət də var, ziyankarlıq da. Bu səbəbdən də mövzu olaraq insana müraciət etmək, ondakı ilahini görmək və göstərmək yaradıcıdan özünü ötmək tələb edir. Mürəkkəb xarakterlərin arxasında mahiyyəti, bəsitliyin arxasında ülviyyəti görmək – ilk növbədə yaradıcını özünü kəşf etməyə, özünü daxili kamilliyə yetirməyə çağırır.





İnsani poeziya yaratmaq üçün gərgin yaşayan, zəngin yaşayan yeni istedadlarımız qabağa durmalı və böyüməlidir. Şairlik belə bir bədii-fəlsəfi poeziya qüdrəti ilə təsdiq olunur.

Nəticə: Klassik Şərq ənənəsi –

Poeziya – Ruhun harayıdır –

aşiqanə təb, vəcdli ilham – şəxsiyyəti müqəddəs tələblərə qovuşduran!

## AŞIQ SƏNƏTİNİN KAMANDAR ECAZI

Belə səs olmayıb, yoxdur. Olacaqmı?! Bilmirəm. Kaş ki, olsun, yetişsin, yetkinləşsin Aşıq dünyası! Kamandarda səsin qeyri-adi məziyyətləri, başqa sözlə, ilahi sehri XX yüzilin ikinci yarısında yeni bir Aşıq Məktəbinin yaranmasına səbəb oldu. Hər şəyird öz ustadını davam edir. Ancaq O tay, Bu Tay Azərbaycanın bir çox bölgələrində Kamandarın təkcə şəyirdləri deyil, şəyirdi olmayanlar da, Aşıq nəğmələrini zümzümə edən sadə adamlar da onun səsi ilə, üslubu ilə havalanmağa can atır.

Kamandarın səsində ruhani qədimlik, lirik həzinlik, ahəngdar möhtəşəmlik vəhdət təşkil edir. Ona görə də oxuyanda gücənmir, səs içində qaynayır, avaz durulur və təbii çıxır. Ən zil zəngulələrdə belə zorlanmır, dodaqları göyərmir, vücudu gərilmir. Çox ulu, uğurlu səsdir. Kamandar nadir ustadlardandır ki, öz səsini sazda çala bilib. Ona görə üslubu dərhal seçilir. Oxuyanda səsi sazın simlərindən biri kimi çıxış edir. Yaxud simlər səsinin davamı kimi dalğalanır.

Kamandarın oxuması həmişə çoşğun və fərəhli olur. Səsində yorğunluq olmur, mızıldamır. Hər bir sözü aydın deyir, söz səsin içində itmir. Söz və səs müstəqilləşir və birləşir. Qeyd edək ki, çox hallarda bir sıra aşıqlar zil səsdə, zəngulələrdə gücə düşür, səsi gərilir, bu məqamda sözü aydın deməyə gücü qalmır…

Kamandarın heç bir zəngulesi əvvəlki zəngulənin ritmini təkrar etmir. Mütləq yeni çalar eşidilir. Göstərgəlik ona yaddır, nəğmənin halına girib yaşayır. Ciddi davranır, çalğısını, oxunuşunu başqalarının diqqətinə hesablamır, oynamır, oynatmır dinləyicini və sazın mənasını. Gərdişi sanballı, duruşu sanballı, söyləmlərində lağlağı etməz, sazı sinəsinə sıxarkən atılıb düşməz. Böyük türk sanbalı, ciddiyyəti var onda. Səsinin ruhu dinləyənləri əyləndirmir, duyğulandırır.

Kamandarda saz muğam hikmətində olduğu kimidir – insan Tanrı ilə görüşür… Onu dinləyəndə adama elə gəlir ki, dağda oxuyur, güneylərdə oxuyur, çayın axarı üzərində oxuyur. Bir aləm təbiət gəlir onun səsindən. Göylər qulaq kəsilir onun səsinə.

Tanrıçılıqdan doğub saz. Təbiətlə sazın vəhdətindən Tanrı səsi yaranıb və o səs Kamandarın ruhuna köçüb. O ruhu dinlədikcə adamın





bütün xatirələri oyanır, – kədər aləminə düşür o səsi dinləyən. Ötən günlərin həsrəti çağlayır adamın duyğularında… Eyni zamanda gələcəkli ümidlərə bağlanır duyğular. Səsin sehrinə düşmək – təmizləyir adamın içini. İlahi məqamdır Kamandarın sinəsində sazı dinləmək. Səs saza çöküb, saz səsə.

Min il köhnəlməyəcək bir səsdir Kamandar səsi. Nəsillər min ildən bu günə baxacaq və Kamandar səsinin sehrinə, üslubuna can atacaqlar. Ulu qədimliyə çevirdi bugünümüzün saz dönəmini bu ecazkar səs.

Türk ruhunun göy xisləti dinləniləcək Kamandar səsində həmişə…

## TÜRKCƏMİZİN POEZİYA RUHU

Dini dünyabaxışda ərəbin, poeziyada farsın etkisinə uğrayıb uduzan türk etnosu orta çağlarda təriqətlər vasitəsilə türklüyün mədəni çöküşünün qismən qarşısını ala bildi. Türk dilini poeziyaya gətirməklə isə yeni mərhələ başladı. Ümumən, şeiriyyəti insan qəlbinin dərinliklərinə nüfuz edən ən uğurlu təsir saymaq olar. Müqəddəsliyin, ruhaniliyin şeir dili ilə vəsf olunması duyğulara tez yol tapır. Təəssüf ki, klassik poeziyamızın ilkin mərhələləri əruzda yazılmaqla fars dilində araya gəlmişdir. Bir çox klassiklərimizin istedadı türk dilinin deyil, fars dilinin inkişafına xidmət elədiyi üçün bu gün də onun mədəni etkisinin ağırlığı altındayıq. Xalq ruhu adlanan folklorun inkişafı da arxa plana keçib, folklorşünaslıq əski ənənələrin tədqiqi ilə məşğuldur. Ancaq ənənə ictimai həyatda qırılırsa, onun tədqiqi əsaslı sayıla bilməz. Xalqın ruhunu ənənənin davamlı olması qoruya bilər. Ənənənin meyarı isə dildir. İnsan dil vasitəsilə özünü həm ifadə edir, həm də dərk edir. Dil xalqın yaşamasının birinci şərtidir. Ancaq bu şərt bizdə çox zədə götürüb. Yuxarıda dediyimiz kimi, dini dünyabaxış bizə ərəb dilinin ifadə üslubunu da gətirdi. Ərəb öz ruhunu (ruhsuzluğunu) ruhumuza elə caladı ki, zaman-zaman etnik keyfiyyətlərimizi itirməyə başladıq. Hətta türk dilini poeziyaya gətirəndən sonra da ərəb ruhunun etkisi məzmunumuzda yaşadı. Poeziyamızın obrazları dinin içindəki imamlara, övliyalara, ağ əmmaməlilərə, qara çuxalılara bağlandı. Habelə məhəbbət və qəhrəmanlıq dastanlarımızda qəhrəmanlarımızın dili türkcə oldu, yönü ərəbcə. Yaradıcılığın bütün yönlərində ərəbçilik türk dili ilə türk ruhu arasına girdi. Milli kimliyimiz öz təməlimizə dayanmadı. Ona görə də mənəvi, siyasi faciələrimiz ard-arda düzüldü.

Bununla belə, poeziyaya türkcənin gəlişi dilimizi məişət dili səviyyəsində qalıb tükənmək təhlükəsindən qurtardı. Poeziyanın əruzdan hecaya keçid dönəmi dilimizin inkişafına yeni uğurlar gətirdi. (Hərçəndi əruz özü uğurlu üslub olmaqla yanaşı türk dilinə doğmadır…) Qoşma, gəraylı, təcnis, müxəmməs kimi aşıq şeirlərinin genişlənməsi, Saz Sözünün önəminin artması xalqın özünə doğmalaşması üçün ciddi zəmin idi. Ustad aşıqlar dilində türkcə söz, sinəsində saz el-el, oba-oba





gəzib məclislər keçirdikcə türk dilinin gözəlliyi xalqın həyatına qaytarılır, mənəvi varlığı işıqlanırdı.

XIX yüzilin birinci yarısında Azərbaycan yenidən işğal olundu. Bu dəfə siyasi işğal fəlakəti ilə üz-üzə qaldı. Milli varlığımıza zərbəni Azərbaycanı ikiyə bölməklə vurdular. Ərəbin ruhani işğalı elə bir zəmin hazırlayıb ki, mədəni və siyasi işğal faktından heç cür qaça bilmirik… Parçalanmağımızla türklüyün yenidən təhdid olunması başlanıldı. Yad dillərin, yad mədəniyyətlərin basqısı altında dilimiz, folklorumuz üzü aşağıya meyilləndi, inkişafdan dala qaldıq.

XX yüzilin ortalarında Avropadan Rusiyaya, Rusiyadan Azərbaycana yeni şeir biçimi gətirildi. Sərbəst vəznli şeirlər Saz Sözünün yaranmasını əngəllədi, – heca vəzni üstələndi. İstedadlı yazarlar asanlığa yuvarlandılar. Aşıq sənəti, Saz Sözü adiləşdi, lağa qoyuldu. Yeni Saz Sözü yazılmadı. Bu sənət tamamilə gerilədi. Folklorumuzun başında saz durur. Dünyanın heç yerində xalq ruhunu saz qədər mükəmməl ifadə eləyən hadisə yoxdur. Təəssüf ki, özgəliyə meyil eləyənlərimiz poeziyanın qibləsini dəyişməklə saza arxa çevirdilər. Halbuki dünənə qədər bizi mənəvi-ruhani aşılanmadan ən çox saz ədəbiyyatı qoruyurdu… Sərbəst vəzndə nə qədər məna çalarları ifadə olunsa da, xalq ruhuna əsaslı şəkildə daxil ola bilmir. Çünki musiqiyə bağlı deyil. Sərbəst vəzni nə muğamda oxumaq olur, nə də sazda. Poeziya musiqi vasitəsilə hər yerdə var. Musiqiyə doğma olmayan şeiriyyət iş görmür, havadan asılı qalır. Bu baxımdan, az da olsa, bu gün hecada yazılanları daha çox milli saymaq olar.

Ədəbiyyatla, daha doğrusu, poeziya ilə sazın vəhdətini bərpa eləmək gərəkdir. Bu, türk ruhunu qorumaq üçün olduqca önəmlidir. İstedadlı adamlar gərək bu məsuliyyətdən qırağa çəkilməsinlər.

## VARLIĞIMIZIN FOLKLOR İŞIĞI

Folklor xalqın milli-mənəvi varlığını ifadə eləyən əsas dəyərlərdən biridir. Bunun da mərkəzində aşıq sənəti durur. Dastanlarımızda qəhrəmanlarımızın hamısının sinəsində saz var. Dastanlarımızın döyüş qəhrəmanları meydana təkcə qılıncla deyil, sazla giriblər. Baxmayaraq ki, döyüşlərdə qan var, ölüm var, məğlubiyyət, qalibiyyət var, ancaq sonucda işığa çıxma var, çünki saz var, söz var. Saz – qalibiyyətin ali ruhu kimi çıxış edib. Saz mərdliyin harayını çəkib, namərdliyin üzərinə yeriməyə haylayıb – Koroğluda olduğu kimi. Ulularımız sazla qalib gəliblər. Mərdlik və saz – igidin birüzlülüyüdür. Sinəsində saz olan – Həmzəliyə aldanar, ancaq Həmzəliyə enməz. Döyüşlərdə qəhrəmanın mərdliyini qılınc ifadə eləyib: – üz-üzə, hiyləsiz, məkrsiz, bicliyə deyil, kişiliyə arxalanmaq; ölümlə öcəşənin öldürməyi sevməməsi. Aman verməyi bacaran, basılanı kəsməyən, yıxılanı döyməyən... bu kimi keyfiyyətlər sazda haraylaşıb.

Bəlkə də bu gün sazımızla qalibiyyətimizin bir-birindən ayrılması kişiliyin, mərdliyin aradan getməsinə görədir. (Koroğlu tüfəngi görəndə qılıncı yerə qoydu, bicliyin yaşadığı yerdə mərdlik məğlub olacaq deyə). Bu gün sazımızı çalsaq da, qalibiyyətimiz görünmür. Çünki dünyamız saz dünyası deyil.

Folklor sadəcə sənət hadisəsi deyil, kişilik, mərdlik, qeyrət hadisəsidir – döyüşkənlik və xilas hadisəsidir. Folklor – xalq ruhunun yaşaması, gələnəkləşməsi, ulusallığın gələcəkləşməsi deməkdir. Xalq ruhu xalqın həyatında əsaslı yaşamayanda sənətləşmə, tarixləşmə, arxivləşmə həddində qalır. Bununla da xalq özgələşməyə uğrayır.

Yüz illərdir yadellilər Azərbaycanda xalq ruhunun işığını söndürməyə girişiblər. Güney Azərbaycanda amansız fars-islam rejimi bu xalqın ruhunu torpağa basdırıb, üzərində asudə gəzməyə çalışır. Ərəb-islam işğalının türk özümlüyündə yaratdığı boşluqlar Borçalının Azərbaycandan təcrid edilib gürcü çarlığına təslim edilməsindən sonra onun aqibətində qabarıq şəkildə özünü göstərdi. Xalqın folkloru müəyyənliyini itirdi. Aşıq sənəti dağınıq, başıpozuq duruma düşdü və demək olar ki, inkişafı dayandı. Təsadüfi deyil ki, Borçalıda aşıq sənətini araşdıranlar 20-ci yüzilin əvvəlindən başlayırlar. Nikolay Rusiyası ərəb-





islam zərbəsinin təsirlərinə daha da əlverişli şərait yaratdı – Borçalı türklərinə təhsildə heç bir qapı açılmadı. Mədrəsəçilik gerilik yaratdı. Aşıq sənəti məktəbləşmədi. İslam ruhuyla (ruhsuzluğuyla) saz ruhu bir-birinə əks hadisələrdir. İslam qapalılıq, itaətkarlıq yaradır. Saz Yerlə-Göylə əlləşir, insanın qəlbinə tanrılarla yarışmaq əhvalı gətirir. Nikolay Rusiyasının siyasətinə görə, Borçalı oğullarının hərb sənətinə yiyələnməməsi üçün onları əsgərliyə çağırmırdılar. İnsanlarımz arasına nifaq salınır, onlar məsuliyyətə cəlb olunmur və bununla da aralarında düşmənçilik əhvalları genişləndirilirdi. Əlbəttə, belə bir şəraitdə xalq ruhunun yaşaması və inkişaf eləməsi mümkün deyildi.

20-ci yüzildə Borçalı aşıq məktəbinin inkişafı Sovet ideolojisinin dini təsirləri zəiflətməsi ilə başladı. Söz yox ki, biz buna görə kommunizm uydurmasına minnətdar deyilik. ***Ruhumuzda islam təsirinin azaldılması deyil, rədd olması gərəkdir. Bunun üçün isə biz başqa bir şərin səxavətinə küsənməməliyik.*** (Dəmirqapı türklərində biz Sovet dönəminin gəlişi ilə xalq ruhunun dirçəlməsini, aşıq məktəbinin yaranmasını müşahidə eləmədik). Borçalı gürcü çarlığına təslim edildikdən sonra gürcü varlığının kölgəsində diqqətdən kənarda qaldı. Ümumazərbaycan, bütövlükdə ümumtürk hadisəsinin üzvi hissəsi kimi dərk olunmaqdan məhrum edildi. Azərbaycan özü bütövlükdə daha da əyalətləşdi və tarixini təhrif eləyənlərin pəncəsində sıxıldı. Bugün də bizi – Quzey Azərbaycanda Avropalaşma meyilləri olmasa, İslam qaranlığında itirirlər. Ancaq nə yazıqlar ki, bizim ayaqda durmağımız xalq ruhunun inkişafına görə deyil, yad ideolojiliklərin (dinçilik və Avropalaşma) həyatımızda yaratdıqları özgələşmə balansına görədir! Acınacaqlı, utancverici bir hal, yoxluq kimi bir "varlıq"...

Sazımızı çalanları yarışdırırlar, muğamımızı oxuyanları yarışdırırlar, ancaq bunların heç biri müstəqil şəkildə xalq ruhunun dirçəlməsinə təkan vermir. Yarışlarla pul qazanırlar, mükafat alırlar, şöhrətə minirlər. Beləliklə, içərimizə qıraqdan gətirilən əyləncələrə qarşılıq bir əyləncə təcrübəsi yaradılır. Belə getsə, müqəddəs dəyərlərimiz vəhşi "musiqilər"lə bəhsə girə-girə adiləşəcək. Bu gün xalq ruhunda müqəddəs dəyərlərin oturuşması əvəzinə, meyxana hərcayiliyi, hədyanlığı, boşboğazlığı, tüfeyliliyi daha çox təsir göstərməkdədir.

Biz, Mütləqə İnam Ocağı, xalqın "qan yaddaşı" ilə varolmanın özülünü qorumaq üçün milli-mənəvi, ruhani ideyalarımız ilə direniş yaratmaqdayıq. Biz, xalq ruhunun yeni səviyyədə yaşaması üçün

ulusumuza milli-bəşəri bir həyat sistemi təqdim edirik. İçərimizdə yaşadılan gerilədici əhvalları ardıcıl rədd edirik. ***Mütləqə İnam sivilizasiyasının oturuşması ilə sazımız yenidən türk ruhunu çalacaq.***

Sazımız ali həyat nəğməkarıdır. Təsadüfi deyil ki, ölünün üstündə saz çalmaq, sazla layla demək gələnəyimiz var (bu gün azalmış olsa da). Bu əməl böyük türk mahiyyətinin varlığı kimi dərk olunmalıdır. Varlığa münasibətin yüksək qiyməti kimi bilinməlidir. Burada ölümdən üstün olan həyata münasibət yeni mərhələyə keçir. Ölməzlik sazın laylasında, harayında təsdiqlənir. Saz ali kədəri çalmaqla, insan xilqətindəki ülvi gözəlliklərə işıq salır. Bu halda saz kədərdə insanı kiçilməyə qoymur, onu gələcəyin üfüqlərinə baxmağa çağırır. Bəli, sazımız ölənin üstündə Ali Həyat nəğməsi oxuyur. Sazımızın çaldığı ümid dünya qədər əzəlidir, yaşam qədər ölməzdir. Türkün sabah yolu sazçılıqdır. Çünki sazda işıq var, döyüşkənlik var, birüzlülük var, mərdlik var...

Sazla aşiqlənib kişiliyimiz.

Türkün üzünün ağlığı sazlanıb.

Bəşər ümmanına türk Qədimliyi axıb, hopub.

Göylər qədər arı, vicdan qədər olğun, qeyrət qədər coşqun nəğmələrimiz, türkülərimiz yaşayır sazımızda.

Onu din qaranlığından, Batı hərcayiliyindən çıxarıb İnam İşığına tutmalıyıq. Onda o, mənliyimizi yenidən çalacaq – qədimliyimizə (folklorumuza) doğma.





## İMKANSIZLIĞIN DOĞURDUĞU TƏSƏLLİ

*(İmam Mustafayev və Sadıq Murtuzayevin*
*"İmam Şamil" kitabı üstə bəzi düşüncələr)*

İnsanda öymək, öyülmək meyli yaşayır. Fəqət bu meyli gerçəkləşdirmək, yaşatmaq imkanı həmişə olmur. Çağdaş dünyanın gedişində elə bir anarxiya mövcuddur ki, ideal yaratmaq, onunla öyünmək az qala qəbahət sayılır, bunun müqabilində cəmiyyəti bütövlükdə antiideala doğmalaşdırma əməlləri həyata keçirilir. Belə burulğanlarda işıq axtaran tək-tük adamlar isə ideal sorağıyla tarixə üz tutmalı olurlar. Bu cür adamlar yaşadıqları tarixi, ictimai şəraitin meyarsızlığını doğru qiymətləndirə bilmədikdə, tarixi faktlardan da düzgün nəticə çıxara bilməyib təhriflərə yol verirlər. Bu təhriflər ictimai anarxiyanı daha da uzunömürlü edir. Başqa bir cəhət ondan ibarətdir ki, çağdaş gedişdə öymək, öyülmək həm siyasi motivlərə söykənir, həm də kütlə psixologiyasının təsirlərinə əsaslanır. Belə ki, kimlərinsə siyasi mənafelərinə uyğun olan hadisəni, yaxud şəxsi ideallaşdırmaqla hansısa siyasi qrup, tayfa üçün "istehkam" yaradırlar. Bizim zamanımızda Heydər Əliyevdən yararlananları misal göstərmək olar. Bəzən isə kütlə psixologiyasına qarşı çıxış edərək əsil böyüklük, qəhrəmanlıq haqqında söz deməkdən qorxanlar nisbi qəhrəmanlığı süni şəkildə ideallaşdırır, gözə kül üfürürlər.

Yurdumuzun böyüklərinin Nəsimiyə, Babəkə münasibəti də bu qəbildəndir. Kütlənin istəyinə uyğun davranmaq, bu istəyə tabe olub yalançı münasibət formalaşdırmaq qeyrətsizlik əməlləridir. Bizim ölkəmizdə çağdaş ziyalı təbəqəsi qeyrətsizlik bayrağının altına toplaşmaqdan ar etmir. Bu isə səbəblərdən biridir ki, xalq kütlə səviyyəsini ötə bilmir. Ziyalı küt və qorxaq olanda xalq mənliyini qura bilmir. Bu dediklərimiz yurdumuzun dəyərlərinə, böyüklərinə münasibətlərin ulusal quruculuq səviyyəsindən çox-çox aşağıda dayanması ilə əlaqədar yaranan qayğılarımız, təəssüflərimizdir. Elə bu qayğılarımız kontekstində bizə örnək kimi təqdim olunan, eləcə də

hünər, qəhrəmanlıq rəmzi sanılan Şeyx Şamilin həyatı və mübarizə yollarını bu kitab əsasında araşdırıb yazmağa çalışacağıq. Əlbəttə, Şamilin ruslara qarşı savaşında təbii bir qanunauyğunluq var idi. Rusların ətraf yurdları assimilyasiya etmək əməlləri yaxın tarixin bütün dönəmlərində mövcud olub. Xalqları alçaltmaq, bir-birinə qarşı qoymaq – imperiyaçılıq əməlidir. Rusiya bu əməli çox kəskin şəkildə və ardıcıl həyata keçirib. İmperiyanı isə müstəqil saymaq doğru olmaz. Xalqları əsarətdə saxlamaq həmişə qanlı əməllərlə müşayiət olunur. Azadlığa dartınan insanlara qarşı qanlı cinayətlər törədən Rusiya öz xalqını heç vaxt bəşəri dəyərlər əsasında inkişafa apara bilməz. Rus xalqının psixologiyası, demək olar ki, korlanıbdır. Həyatı başqa xalqların, kiçik etniklərin əsarəti üzərində düşünüb dərk etmək ənənəsi formalaşıb Rusiyada. Bu da özünü onda göstərir ki, özlərini mədəni sayan, qanunpərəst adlandıran rus cəmiyyəti heç zaman öz imperiyasının qanlı əməllərinə qarşı etiraz etmir, əksinə, imperiyaçılıq siyasətini doğru sayır. Hətta kiçik xalqların özlərini rus imperiyasına qarşı qoymalarına istehza edirlər, onları axmaq sayırlar. Bu səbəbdəndir ki, Rusiya azadlıq anlayışına öz imperiyasının rahatlığı kontekstində yanaşaraq, bəşəriyyətə həmişə meydan oxuyub. Ona görə də Şamilin imperiyaya qarşı savaşı ləyaqət məzmununa doğmadır. Şübhəsiz ki, bu savaşın hansı nəticəni verəcəyi də düşündürücü idi. Burada söhbət təkcə Şamilin savaşından getmir, həm də ondan sonrakı savaşların aqibəti maraq doğurur. Bu gün də çeçenlər ruslarla savaşırlar. Maraq doğuran məsələ odur ki, bu savaşın sonu nə olacaq? Məlumdur ki, Rus imperiyası Qafqazdakı hegemonluğunu itirmək istəmir. Bunun üçün o, hər cür qanlı əməllərə gedir. Çeçenlər özlərini rus imperiyasına qarşı qoymaqla onu dünyada ifşa etmək məqsədi daşıyırlarsa, bu o qədər də əhəmiyyətli məqsəd deyil. Çünki çağdaş dünyanın azadlıq istəyənlərə qarşı münasibəti göz qabağındadır. Çağdaş dünya ləyaqətin yox, azğınlığın tərəfindədir. Çeçenlər fərdi qaydada azad və müstəqil dövlət yaratmaq istəyirlərsə, bu da mümkün deyil. Çünki müstəqil olmaq ətrafın müstəqilliyə icazə verməsi ilə başa çatmır. Bizim baxışımıza görə, müstəqil mədəniyyət, müstəqil iqtisadiyyat, müstəqil siyasət olmadan müstəqil dövlət halında yaşamaq mümkün deyil. Çeçenistan da, Dağıstan da bu imkanlardan məhrumdurlar. Hələ biz





demirik ki, Dağıstan Rusiyanın əsarətində ola-ola, Çeçenistanın müstəqil dövlət qurması, ümumiyyətlə, xülyəvi səslənir.

Bəs necə olsun, azadlıq istəyən bu kiçik qövmlər səhvmi edirlər, onlar əsarətlə barışmalıdırlarmı? Məsələnin yönü, göründüyü kimi, çox mürəkkəbdir. Bu mürəkkəbliyin əsas cəhətlərindən biri odur ki, Qafqaz çoxdilli, çoxmillətli bir bölgədir. Belə rəngarənglik burada yaşayanların taleyinə ciddi təsir göstərir. Əlbəttə, söhbət əsasən Quzey Qafqazdan gedir. Bu bölgədə yaşayan millətlərin ayrı-ayrılıqda sayı, demək olar ki, milyona çatmır. Eləcə də bu xalqların heç birinin böyük dəyəri, özünəməxsus böyük mədəniyyəti olmayıb. Heç bir xalq başqa xalqı birləşməyin əsası kimi qəbul etmir və Rus imperiyası bundan istifadə edə bilir. İmperiya öz təbliğatında sübut etməyə çalışır ki, bu cür xırda etnikləri yalnız Rus mədəniyyəti bir araya gətirə bilər. Lakin vəziyyət ciddi araşdırılsa, məlum olar ki, Qafqaz xalqlarının həyatında, məişətində türk ruhunun, türk mədəniyyətinin təsiri daha güclüdür. Ayrıca Qafqaz mədəniyyəti anlayışı, yönü yoxdur. Rus mədəniyyətini də Qafqaz mədəniyyəti saymaq həqiqətə uyğun deyil. Bu səbəbdən də Qafqazın xilası ayrıca Çeçenistan, Dağıstan məsələsi deyil, bizcə, Türk Birliyinin bərqərar olması amilinə bağlıdır. Qətiyyətlə demək olar ki, Azərbaycanın Güneyli, Quzeyli olmaqla bütövləşməsi məsələsi uzandıqca, Qafqazın xilası məsələsi də həllini tapmayacaq. Qafqaz xalqları türk mədəniyyətinin təsirində assimilyasiyaya uğramayıblar və uğramazlar da. Çünki türk ruhuna "parçala, hökm sür" amansızlığı yaddır. Əgər Türk ruhunun gücü bərqərar olarsa, onları parçalamaq deyil, birləşdirmək ləyaqəti özünü göstərə bilər. Şeyx Şamilin savaş dövrü ciddi araşdırılsa, bu dediklərimizi təsdiq eləmək mümkündür. Diqqət yetirin: Şamil bir aulu özünə tabe edib, başqa aula yürüş edəndə, əvvəlki aul onun nəzarətindən çıxıb, yenidən rusların əsarətinə düşür. Sanki axan gur çayın qabağına Şamil torba ilə torpaq daşıyıb tökür. Ümumiyyətlə, azadlıq üçün Şamilin adı ətrafına yığışaraq birlik yaratmaq cəhdi olduqca yetərsiz bir səviyyədir. Şamil özü heç bir böyük mədəniyyət, böyük dəyər yaratmayan etnik tayfaları İslam dini ətrafında birləşdirməyə cəhd edirdi. Ancaq əsaslı birlik baş vermirdi. Çünki Şamil bu işi özünün fiziki məharəti ilə, döyüş qabiliyyəti ilə həyata keçirirdi. Dərk olunmayan, bəşəri məzmunu nədən ibarət olduğu bilinməyən, dünyanın insan üçün gərəksiz olduğunu təlqin

edən, insanları ölümün arxasında gizlənən axirət səadətinə çağıran bir baxış – din həqiqi birlik yaratmayıb və yarada bilməz. Ona Şamil mövhumatın təbliğatıyla nail ola bilmirdi, qılıncla, qorxu, cəza vasitəsilə tabeliyinə alırdı aulları. Dini təbliğatın güclü olmasına baxmayaraq, xəyanət, satqınlıq, parçalanma onların içərisində adi hal idi.

Quzey Qafqazda çoxmillətliliyin Şamil üçün əngələ çevrilməsi son anda onun təslimçiliyinə gətirib çıxartdı. Çoxbaşlılıqdan monolit güc yaratmaq ən qüdrətli şəxsiyyətə belə nəsib olmur. Şamilin mübarizəsi ətalətə qarşı bir tərpəniş kimi, insanların yaddaşlarında təsirə malik olması və sonrakı dövrlərdə azadlıq istəklərinə gərək olması baxımından önəmlidir. Lakin təbliğ olunduğu kimi, cahanşümul bir hadisə deyil. Bu özünü Şamilin həyatında çox qabarıq şəkildə göstərir. Çox qəribədir ki, Şamil haqqında yazılan bu kitabda ("İmam Şamil" İ.Mustafayev, S.Murtuzayev) münasibət həqiqətçilik kontekstindən bildirilmir, araşdırılası faktların üstündən elə keçilir ki, elə bil məqsədli şəkildə gözə kül üfürmək istəyirlər. Başqa sözlə, Şamilin ömür yolundakı qüsurları sübuta yetirən faktlar kifayət qədər olduğu halda, ondan yan keçilir, bir çox hallarda isə hətta təqdir olunur.

Qəhrəmanlığa zidd olan məsələlərdən biri ailə məsələsinə münasibətdə qırağa çıxmalarla bağlıdır. Kitabın verdiyi məlumata görə, Şamilin səkkiz arvadı olub. Çox əcayib faktdır – azadlıq uğrunda mücadilə edən adamın özünü bir-birinin ardınca bu cür asılılıqlara bağlaması! Axı ailə özü insandan ciddi diqqət, qayğı tələb edir. Ailə ilə xalqın azadlığı uğrunda mübarizəni yanaşı qoymaq ömrü, fəaliyyəti yarımçıqlayır. Ailə qurub mücadiləyə başlamısansa, anlamaq olar, lakin sonradan dalbadal arvadlar almaq böyük qəbahətdir. Kitaba müraciət edək: "Şamilin ailəsini çox çətinliklə Koysu sahilində sıldırım qayadakı mağaraya köçürürlər. Ailə orada üç gün ac-susuz qalır. Yaralanmış arvadı Cavharat, körpə oğlu Səid aclığa, susuzluğa dözə bilməyib mağarada ölürlər. Səid iki gün ölmüş ananın soyuq döşünü hıçqırıqlarla sormuş və ağzı anasının döşündə can vermişdi". ("İmam Şamil" səh. 98)

Sonra da oxuyuruq: "Boyan aulunda oğlu Məhəmməd Şəfi anadan olur. Şamil ailəsini Oydan aulunda qoyub, iqamətgah üçün münasib yer axtarır…" (həmin əsər, səh. 104).





Yuxarıda "faktlardan yan keçilir" deyəndə məhz bu cür məqamları nəzərdə tuturuq. Bir yerdə oxuyuruq ki, Şamilin ailəsi mağarada ölür, heç bir əlavə bilgi verilmədən ardınca yazılır ki, onun Məhəmməd Şəfi adında oğlu dünyaya gəlir. Ailənin faciəsi asanlıqla unudulur və qəflətən yeni ailə meydana çıxır. Deməli, Şamil yenidən ailə qurmaq istəyini Azadlıq mücadiləsinə qurban verə bilməyib. Azadlıq yolunda ailənin faciəvi məhvi təsadüfi bir qəza hadisəsinin faciəsi səviyyəsi ilə eyniləşir təsəvvürümüzdə.

Daha sonra kitab Haqverdi Mohumanın Mozdoku tərk edib səfərə çıxmasını və uğursuzluğa görə Şamilin qəzəbindən xilas olmasını təsvir edir: "Şamil hətta xəncərini siyirərək onun *(Haqverdi Mohumanın – S.A.)* üzərinə atılmaq istərkən qapı açılır, qız bütün gözəlliyilə otağa daxil olur. Şamil ona baxarkən sanki özünü itirir, gözlərini qolu ilə örtmək üçün əlini qaldırarkən xəncər əlindən düşür, – Haqverdi Mohumanın – "əvəzində sizə belə bir hədiyyə gətirmişik" sözlərinə əhəmiyyət vermədən qızı üzü divara oturtmağı əmr edir. Erməni olduğunu bilərkən qazını çağırtdırır və ona tapşırır ki, əgər bu qız islamı qəbul etsə, "Quran"ı öyrənsə və avarca danışa bilsə, mən ona evlənəcəm…" (səh.116).

Gözlərimiz qarşısında necə acınacaqlı səhnələr canlanır. Bu səhnədə biz qəhrəman Şamili deyil, qadın vurğununu görürük. Bu cür arvadbazlıqla qəhrəmanlıq bir araya sığmaz. Qadın gözəlliyi yaxşı şeydir, amma bu gözəllik Vətən üçün döyüşən bir kişinin əlindən xəncəri salırsa, onun başından papağını da sala bilər.

İki müqayisəni burada xatırlatmaq yerinə düşər. Məhəmməd Peyğəmbər qapını açıb içəri girəndə oğulluğu Zeydin arvadını lüt-üryan çimən görür. Üzünü çevirib, üzrxahlıq edərək çıxmaq əvəzinə, gəlini başdan-ayağa süzür və "bəh-bəh, əhsən səni yaradana" söyləyir. Sonra da Allahdan "vəhy" gəlir ki, Zeyd arvadıyla boşanmalı və Məhəmməd bu gəlinə evlənməlidir. Bu "Vəhy" heç Məhəmmədin o biri arvadları Ayişənin, Həfsənin… heysiyyatlarını nəzərə almır da.

Atatürk dövlət adamlarıyla, yavərləriylə mühüm məsələləri – Vətənin aqibəti məsələsini həll edəndə arvadı Lətifə onların toplaşdığı zalın üst qatında səs-küy salır. Atatürk o anda "evlənmək – həyatımda yol verdiyim qüsurlardan biridir" söyləyir. Lətifənin şıltaqlığı aşırı həddə

çatanda ondan ayrılır və bir daha ailə qurmur. Ömrünü axıradək Türkiyənin qurulmasına həsr edir və onu qurur da.

Şamilə Türk və Müsəlman dünyasının qəhrəmanı deyərək öyürlər. Müsəlman dünyasının qəhrəmanı məntiqi anlaşılır. Çünki Şamil Dağıstan və Çeçenistan aullarında şəriəti təbliğ edirdi. Bəs Türk Dünyası üçün hansı hünəri göstərmişdir?! Hissə qapılmadan demək olar ki, bu deyilişdə türk hünərini anlamamaq var. Hətta onu Babəklə müqayisə edirlər. Bu da qəribədir. Babək ərəbin dini imperiyasına qarşı döyüşürdü, özünün dini, fəlsəfəsi vardı. Şamil isə həmyerlilərinə ərəbcə düşünmək təlqin edirdi. Bu müqayisədə də Babəki kiçiltmək əməli görünür. Bizim bildiyimizə, dərk elədiyimizə görə ərəblərin Babək haqqında yazdıqları və yazdırdıqları əxlaqa zidd davranışlar böhtandır, ləkədir. Əgər Babəkin həyatında, doğrudan da, əxlaqa zidd əməllər olsaydı, biz, Asif Atanın Mütləqə İnam Ocağı olaraq, Babəkə qarşı da bu cür barışmaz mövqe tutardıq. Həqiqət həmişə həqiqətdir.

Bəli, Şamilin ailə məsələsinə münasibəti adamda ikrah hissi oyadır. Diqqət yetirin, özündən 38 yaş kiçik olan çeçen qızı Aminatla evlənir, özü 64 yaşında ikən Zaydət adlı arvadından oğlu dünyaya gəlir. Həm də böyük, qəhrəman, müqəddəs…

Şamil aullara gedəndə “sözünü və hərəkətini uyğun et”, “öz nəfsinin qulu olma” söyləyir. Lakin özünün sözü ilə əməli təzad təşkil edir.

Kitab Hacı Murad haqqında yazır: “Hacı Muradın köhnə düşməni Aslan xanın dul arvadı ilə ləyaqətsiz hərəkətləri ruslar üçün göydəndüşmə dəstəvuz idi” (səh. 178).

Maraqlıdır, bəs niyə Şamilin arvadbazlığında ləyaqət görürlər?! Hacı Muradın rusların yanına qaçması ifşa olunur, amma axırda Şamilin rusların “mərhəmətinə” sığınması ayıb sayılmır.

Kitab Şamilin sürgün illərini təsvir edir: *“Şamil bütün görüşlərdən unudulmaz təəssüratla ayrılır. Kursk, Tula görüşləri də bu qaydada keçir. Sentyabrın 22-də Moskvaya gəlir və ertəsi günü general Yermolovun görüşünə gedir. Üçüncü günü Moskva Kremlinə tamaşa edir, axşam baletə baxır”* (səh. 200).

“Oktyabrın 10-da Şamil Kaluqaya gəlir. Onun ailəsinə ayrılmış evin təmiri başa çatdırılmadığından, bir müddət mehmanxanada yaşayır. Bu





vaxt Qazi Məhəmməd Şamilin ailəsini gətirmək üçün Temikan şuraya yola düşür.

Oktyabrın 31-də polkovnik Boquslavskini ştabs-kapitan Rinovski əvəz edir *(bunlar Şamilə nəzarət edən hərbçilər idi – S.A.).* Boquslavskilərdən ayrılması ona ağır təsir bağışlayır. İki aylıq ünsiyyət onları bir-birinə möhkəm bağlamışdı. Çox həssas, alicənab bir insan olan Boquslavski Şamildən ayrılarkən elə kövrəlir ki, göz yaşlarını çətinliklə saxlayır. Şamil də eyni hala düşür” (səh. 202).

Rinovskidən ayrılanda da eyni hisslər təsvir olunur. İnsanların millətindən asılı olmayaraq, bir-birini sevməsi mənəviyyat tələbidir. Lakin yurdunun azadlığı uğrunda savaş apardığı tərəfin hərbçiləri ilə bu sayaq qaynayıb-qarışmaq, onlardan ayrılmağa gözyaşı tökmək adamda şəxsin prinsipiallığına, ciddiliyinə qarşı şübhələr yaradır. Rus çarı dünyaya humanist olduğunu sübut etmək üçün düşməni Şamili firavanlığa, mərhəmətin siyasi cazibədarlığına qərq edir. Şamil də bu qayğıdan məmnun qalır, – imtina etmir, özünü öldürmür. Rusların əsarətinə, istilasına buraxdığı həmyerlilərinin taleyini unudur. Rusların aullarda minlərlə qocaları, qadınları, uşaqları yandırmaları Şamilin bu hərəkətiylə əslində bəraət alır. Dünyanın gözü qarşısında Rus imperiyasının qanlı əməlləri, cinayətləri Şamilə və ailəsinə mərhəmətli, humanist münasibətinin təntənəsi ilə əvəz olunur. İki silahdaşdan heç biri, – nə Hacı Murad, nə də Şamil ölməyi bacarmadı.

Azadlıq axtaran Şamil rusun dəbdəbəli hədiyyələrini necə qəbul edə bilir?! Rus zabitləri üçün necə kövrəlib ağlaya bilir? Hacı Murada qarşı amansız ola bildi, özünə qarşı amansız ola bilmədi. Özünə qarşı amansız ola bilməyənin başqalarına qarşı amansız olmasında tabeçilik intizamı yarana bilər, mənəvi qalibiyyətin qüdrəti isə təsdiq olunmaz.

Döyüşdə amansızlıq, hərbdə tabeçilik intizamı olmalıdır, bunsuz savaşı aparmaq mümkün deyil. Fəqət elə hal yaranmalıdır ki, savaşda məğlubiyyət baş versə belə, ali məqsəd nəsillərin qəlbində məğlub olmasın. Şamilin azadlıq uğrunda savaşı elə sonuclanır ki, deyirsən burada Qafqazın istilasına qarşı direniş yox, xırda tayfalar arasında şəriəti möhkəmləndirmək məqsədi güdülürmüş. Əslində isə buna heç bir ehtiyac yox idi. Çünki burada dinin bütövlükdə olum-ölüm məsələsi həll olunmurdu. Əvvəla, dinin dayağı təkcə Qafqaz deyil, başqa sözlə, dinin

mənbəyi Qafqazdan qıraqdadır. Başqa tərəfdən, rusların məqsədi qafqazlıları dindən döndərmək də deyildi. Bu gün də göründüyü kimi, qafqazlılar elə islam dininin təsirindədirlər. Sadəcə burada Şamilin rusların "səxavətinə" küsənməsi və yaşaması – onun Böyük Azadlıq idealını dərketməsini şübhə altına alır. Hərçənd bu da təbii görünür. Çünki "o dünyanın" cənnətini düşünən, bu dünyanı fani, mənasız, axirəti (əslində xülyanı) əbədiyyət sayan kəs bu dünyanın azadlığına, başqa sözlə, bu dünyada azad yaşamağın səadətinə qovuşa bilməz.

Burada başqa bir məntiq də ondan ibarətdir ki, Şamil təbliğ elədiyi axirət üçün də ölümü seçmədi. Elə bizim araşdırıcılar da nə bu dünyanın həqiqətini təyin edə bilirlər, nə də axirətin "əbədiliyini" təqdim edə bilirlər. Elə bu səbəbdən də hadisə öz məzmununda bilinmir, təhrif olunur. Araşdırıcılıq məsuliyyət tələb edir. Yarım həqiqəti həqiqət kimi göstərəndə heç kim həqiqətə yetmir, elə yarım həqiqətlə yetərlənir. Belədə isə azadlıq uğrunda savaş daim məğlubiyyətə uğrayır.

Həqiqəti sevmək gərəkdir ki, Azadlıq yaşasın!





## F.NİTŞENİN "HAKİMİYYƏT ƏZMİ" ÜSTƏ

***xxx***

Hakimiyyətdə olanlar öz yerlərinə göz dikənlərə, başqa sözlə, hakimiyyətə gəlməyə real imkanları olanlara qarşı cəlladlıq edir, onları əzmək, sıradan çıxarmaq üçün bəhanələr düşünürlər. Yalandan da olsa, əsaslandırıla biləcək faktlar əldə etməyə çalışırlar. Bunun üçün onlar hakimiyyətə gəlmək imkanları olmayanlar üzərində möhkəmlənirlər.

Nitşe belə bir gedişə əxlaqın gücünün çatmadığını elan edir və alqışlayır. Nitşeyə görə əxlaq yalançı təsəlli kimi Nihilizmin qaynağıdır. Yəni əxlaq – zəiflərin üz tutduğu xülyəvi bir yoxluqdur. Əqli və iradi güc yeganə xilas kimi sunulur topluma. Əslində zorluluq, güclülük meyar kimi qəbul olunur. Ona görə də terrorçuluq siyasi həyatın hərəkətverici qüvvəsinə çevrilir. Hətta əqli gücə qarşı fiziki gücün tətbiq olunması normal qarşılanır. (Söz yox, əqli güc hələ mənəvi güc demək deyil). Çünki zorçuluq ölçü kimi oturuşduğundan hər kəs ona artıq təbii baxır. Zorçuluq anarxiyasını dövlət qanunları belə, tənzimləmək imkanında olmur.

***xxx***

Tarix həmişə sübut edib ki, zora pənah aparan hər kəs özü zorlunun amansızlığı ilə üz-üzə qalanda mərhəmət gözləyir, ədalət umur. Özünüqoruma məqamında mənəviyyat yada düşür, əzilməmək üçün zorludan mənəviyyat gözlənilir. Bu ümid ən qəddar adamı belə, heç vaxt tərk etmir.

***xxx***

Hər kəs güclü olmaq istəyir. Ancaq bu gücün bilinməsi və yaşaması üçün başqalarının əzilməsi gərəkdir. Əslində hər bir güclü olmaq istəyən kəs həmin başqalarından biridir. Yaşadığımız kapitalizm mühiti bu prinsipə əsaslanır: yəni nə qədər bacarırsan ayaqla və yüksəl.

***xxx***

Nitşenin "Hakimiyyət Əzmi"ndən belə çıxır ki, qadın ya erkəkləşməli, ya da məhv olmalıdır. Çünki güclülük ölçüsündə analıq mərhəmliyini yaşadan zəmin olmur. Belə halda övlad dana kimi böyüməlidir. Buynuzlamaq imkanı və istəyiylə toplumun içinə buraxılmalıdır. Bu buynuzlamanı kapitalizm qanunları "sivil" formaya salar ki, pərakəndə şəkil almasın. Deməli, dövlət vəhşiliyin aradan qaldırıcısı deyil, tənzimləyici qurğusu kimi fəaliyyət göstərməlidir.

***xxx***

Nitşe bir çox məsələlərdə gerçəkliyi yaxşı analiz edir. Ancaq gerçəkliyin anlamını bir qırağa qoyur sanki. Gerçəkliyi diriltmək əvəzinə onu öldürür. Başqa sözlə, həyatı var etmək üçün onu gözəlləşdirmir, gücləndirir. Güclü həyat özünə qarşı yönəlir.

***xxx***

Nitşe insan xarakterinin gerçək çirkinlikləri arasında dayanıb yol axtarır. Bu xarakterdən "o üzdə" daha möhtəşəm çirkinliklərin aşkarlanmasına çalışır. Yəni güclülüyün doğuracağı xudbin münasibətlərin mövcud olması üçün "fəlsəfi" zəmin hazırlayır.

***xxx***

Soyuq və amansız güc zəiflik adlanan çirkinlikləri (?) öldürmür, qovur. Ancaq hara qovur?! Bu qovma toplumun münasibətlərində çirkinlik dairəsi cızır. Nəzərə alsaq ki, doğuluş əbədi prosesdir və insan daim güclülük prinsipi ilə qovacaq, onda tərəqqidən danışmaq hansı məntiqə sığır, bunu anlamaq asan deyil.

***xxx***

Nitşe xudbinliyi böyüdür, yaşadır və onun "fəlsəfəsini" yaradır. Xudbin olmadan yaşamağın sürülük olduğunu vurğulayır. Hakimiyyətə vurulmaq yalnız xudbin ürəklərin həvəsidir. Hakimiyyətə vurulan milli keyfiyyətləri itirir. Hər şey onun üçün hakimiyyətin kölgəsi kimi dərk olunur.





***xxx***

Nitşe güclü xarakterləri gözəl, məğrur, gümrah sayır. Qalib əhvalla yaşamayan zəifi günahkar bilir. Bəs onda uşaqlar, qadınlar, qocalar, xəstələr necə olsun?! Nitşenin "güclüsü" mərhəmət duyğusunu itirir axı. Nitşedə quldar bacarıqlıdır, güclüdür, məharətlidir, ona görə də gözəldir. Nitşenin güclü insanı özünə deyil, başqalarına qalib gələn insandır.

***xxx***

Nitşe İsa peyğəmbərin azğınlığı islah eləmək çağırışına ikrah edir. Çünki müqəddəslik tanımır.

***xxx***

Nitşe güclü zəka ilə qurulan tordur. Müasirləşmənin zahiri yenilik çağırışında inkişaf axtaranlar bu tora tez düşürlər. Bu cür kosmopolit tələlərə düşmək milliliyi itirməkdir. Hesab edirik ki, milli təfəkkür sahibləri milli şüurumuza tor quran nəzəriyyələri dağıtmalıdır.

# III QOVLUQ





## ULUS VƏ ONUN AZADLIĞI

Bugünkü dünyada aparıcı dövlətlər var və onlar tərəfindən tərtib olunmuş taleni yaşayan dövlətlər var. Aparıcılıq uğrunda mübarizə zəif dövlətlərin fəlakətləri üzərində həyata keçirilir. Zəif dövlətlər özlərinin yönünü təyin edə bilmir. Xalq isə öz dövlətindən rahat və firavan yaşamasını təmin etmək umur. Dövlət bu təminatı ödəyə bilməyəndə xalqla onun arasında ziddiyyətlər meydana çıxır. Aparıcı dövlətlər zəif dövlətləri öz tabeliyində saxlamaq üçün həmin ziddiyyətlərin həllinə hər vasitə ilə mane olurlar. Xalqla öz dövləti arasında düşmənçilik münasibəti yaranır və güclü dövlətlər bu münasibəti "nizamlamaq" üçün vasitəçiyə, bir çox hallarda isə "xilaskar"a çevrilir. Beləliklə, öz dövlətinin yiyəsi olmayan xalq – dövlətiylə bir yerdə yadellilərin əsarətinə düşür. Ölkə daxilində korrupsiya, rüşvət, tayfaçılıq, prinsipial məsələlərdə ideya müxtəlifliyi, fikir ayrılığı – bu əsarəti uzunömürlü eləyən problemlərə çevrilir. Əsarət görünmür, daxili problemlər baş qatır. Bizim yurdumuz indi bu durumdadır. Bu durumdan xilas olmanın yeganə yolu xalq tərəfindən bir sıra gərəkli, zəruri təcrid, imtina ənənəsini başlamaqdan keçir. Fəqət bu əməl yolunu, yönünü itirmiş kütlə tərəfindən həyata keçirilə bilməz. Bu ənənəni yetirmək və xalqı ona yönəltmək üçün "Uluyurdçuluq" (Asif Atanın "Uluyurd Hərəkatı" ideyası) qarşısıalınmaz, danılmaz bir ictimai-siyasi yoldur. Uluyurdçuluq yolu ilə xalq öz dəyərlərinə yiyə dura bilər. Türk ulusu bütün dövrlərdə böyük dəyərlər yaradıb, ancaq dəyərləri ilə bir olmayıb, onu həyat tərzinə çevirməyib. Ona görə də yad mədəniyyətlər bu ulusun içərisinə yeriyə bilib, onun həyatına hakim ola bilib. Bu isə zaman-zaman böyük azadlığın itirilməsi ilə sonuclanıb.

Özü dəyər yaratmayan, yaxud yaratdığı dəyərlərin xiridarı olmayan xalq, ümumiyyətlə, yadlığa qarşı dirəniş gücünü itirir, yetimləşir. Yadlar yetimin yanında özünü böyük kimi aparır. İmperiya quranları, əsarət gətirənləri xilaskar kimi təqdim edirlər. Yetimlik aqibəti – əsarəti azadlıq kimi qəbul eləməkdən ibarət olur. Əsarət tələbində Azadlığa yol gedilmir. Əsarət – Azadlığa yol məhv olanda başlayır. "Uluyurd"un döyüş prinsipləri Azadlıq yoludur. Xalqın azadlığı dövlətin müstəqilliyi deməkdir, dövlətin müstəqilliyi isə xalqın azadlığının qarantıdır.

**Xalqın azadlığı** dindən imtina, İnama yetmə səviyyəsində mümkündür. Din ibtidai təsəvvürlərə əsaslanır, yalanlarla, fantaziyalarla, başqatmalarla mütilik əsarəti yaradır. Dində fərd fantastik uydurmalara xidmət göstərməklə özündən ayrılır. Burada yurd amili, insan amili kölgələnir. Başqa sözlə, insan kölə kimi dərk olunur. Bu səbəbdən də xalq kiçilir. Xalq ayrı-ayrı fərdlərdən ibarətdir. Müti fərdlər müti xalq əmələ gətirir. Dində fatalizm yalanı var, – insanın aqibətini proqramlaşdırmaq, onun ixtiyarını bütünlüklə əlindən almaq eybəcərliyi var. Dinin "iki dünya" oyunu var. İnsanı "o dünya" üçün hazırlamaq, bu dünyanı gözdən salmaq, onu faniləşdirmək əməli var. Cənnət, cəhənnəm nağılı ilə insanın ağlını balaca saxlamaq, idrakını söndürmək qəsdi var. Uluyurdçuluq bu qəsdə qarşı davamlı döyüş əməlidir.

İnam insan yaradır, onun hünərini, yurdsevərliyini, ulussevərliyini aşkarlayır və bu cür fərdlərdən müqəddəs xalq yaradır. İnam insanın aqibətini özünə tapşırır.

İnam dünyanı vahid, bütöv dərk edir və onu əbədi sayır. İnam dünyanın mütləq mənasını kəşf edir və onu meyara çevirir. İnama görə dünyanı dərk eləmək müqəddəsliyə başlamaq əməlidir. İnam tələb edir ki, dünyanı fani saymaq yox, onun halını insani səviyyədə qurmaq gərəkdir. İnamın canı Allahçılıq deyil, İnsançılıqdır. İnama görə yalnız Mütləq olan həqiqidir, yalnız insani olan müqəddəsdir.

***Xalqın azadlığı*** demokratiya yalanından imtina, millətçilik humanizminə yetmə səviyyəsində bərqərar ola bilər. "Xalq hakimiyyəti" sözündə yalan var. Xalqın hakimliyi mücərrəddir, xalqın üzərində hakimlik var. Demokratiyanın bir ideologiya kimi çox az müsbət keyfiyyəti var. Bu az keyfiyyətlə ulus ucalmaz, yurd qurulmaz. Demokratiyadan azadlıq ummaq Azadlığı həşirə salmaqdır. Demokratiyanı azadlıq hadisəsi kimi dərk etdirməyə çalışırlar, Pulçuluğun nəzəri ideologiyası olduğunu unutdururlar. Pulçuluq humanizm tanımır. Pulçuluq azadlığın ölümü üzərində qurulur.

Demokratiya azadlıq yox, özbaşınalıq yaradır. Özbaşınalıqda məsuliyyət hissi unudulur. Məsuliyyət olmayan yerdə Ulusal quruculuq baş tutmaz.

***Xalqın azadlığı*** kürəsəlləşmə meylinə qarşı durmaqdan başlaya bilər. Kürəsəlləşmə – xalqsızlaşdıran gedişatdır. Ağalığın məqsədlərini həyata keçirmək üçün düşünülmüş fəndgirlikdir.





Kürəsəlləşmə xalqın nəyi var, hamısını gerilik, köhnəlik kimi dəyərləndirir, Batıya (Qərbə) bənzəməyi yeganə nemət sayır.

Uluyurdçuluq müqəddəs dəyərlər əsasında özümləşməni Batılaşma əməlinə qarşı qoyur və bunun uğrunda ardıcıl döyüş əməli yetirir.

Xalqın Azadlığı dövlətin müstəqilliyi ilə təndir!

***xxx***

Dövlətin müstəqil olması və yaşaya bilməsi üçün, Asif Atanın təbirincə desək, üç prinsip həllini tapmalıdır:

1) İqtisadi müstəqilliyin bərqərar olması gərəkdir. Bu isə sadə bir proses deyil və asanlıqla həyata keçən məsələ deyil. Çünki müasir dünya siyasəti bütünlüklə iqtisadiyyat üzərində qurub. Dünyanı ağalar və nökərlərə bölənlər də siyasəti – iqtisadiyyatın imkanlarını harda gəldi ələ keçirmək yönündə qururlar. "İqtisadi siyasət" termini də məhz ağalıq-nökərlik münasibətlərinin təzahürüdür.

Dünyada demokratiya oyunu atıblar ortaya. Guya demokratiyanın mərkəzi sayılanlar insan haqlarını qoruyurlar, guya demokratiya da azadlıq deməkdir. Ən böyük humanizm o olardı ki, iqtisadiyyatı, təbiətin maddi nemətlərini bir mərkəzə təslim etməyəsən, qamarlayıb istifadəsiz iqtisadi xəzinələr yaratmayasan. İmkan verəsən bəşəriyyət təbiətdən gərəkli səviyyədə bəhrələnə bilsin. Hər bir xalq öz yurdunda maddi firavanlıq yarada bilsin. Bütün dünyanın maddi sərvətlərini qamarlayıb yığırlar, – guya hər hansı bir ölkədə diktator olarsa, onu devirib, o ölkənin xalqını əsarətdən qurtarmaq üçün xərcləyəcəklər. Bundan da böyük yalan dünyada olmayıb. Pulçuluğun xilaskarlığı ideyası cəfəngiyyatdır. Batıda "mammonizm" ideyası pulun Allahlaşdırılması sərsəmliyidir. Puldan Allah düzəldən ideologiya həyatda insanlığın ləğvi üzərində formalaşır. O, insanı necə xilas edə bilər?!

İqtisadiyyatı insana tapşırmağın, bəşəriyyəti səfalətdən xilas etməyin yeganə yolu iqtisadiyatı siyasətdən ayırmaqdır. İqtisadiyyat xarici şirkətlərə tapşırılanda dövlət təhlükəli şəkildə asılılığa uğrayır. Şirkətlər həm də casuslardır. Onlar təkcə ölkənin sərvətini daşımaqla kifayətlənmirlər, həm də onu içəridən qatıb-qarışdırırlar, antimilli əməllər həyata keçirirlər. Bu səbəbdən də Uluyurdçuluq "Minimal Dövlət" ideyasını həyata keçirmək məqsədi daşıyır. Bu ideya Asif Atanın "Uluyurd Aqibəti – Bütöv Azərbaycan" kitabında öz əksini tapıb.

2) Mədəni müstəqilliyin bərqərar olması gərəkdir!

Əlbəttə, bütün sahələrdə olduğu kimi, mədəniyyət məsələsində də münasibətlər ağalıq-nökərlik səviyyəsində həyata keçirilir. Ölkədə adət-ənənənin, məişətin, geyimin, musiqinin, ədəbiyyatın, incəsənətin yabançı ideyalarla doldurulması xalqın ruhunda özgələşmə yaradır. Xalqın həyatı başqa ideyalarla qurulanda dövlətlə xalqın doğmalığı aradan qalxır. Xalqın rəğbəti qırağa bağlanır, bu səbəbdən də xalq ədaləti də, mərhəməti də, azadlığı da qıraqda axtarır. “Plüralizm”, “hər kəsin öz həqiqəti, öz zövqü var”, “hər kəs seçimində azaddır” və s. bu kimi zahirən humanist səslənən çağırışlar dövlətin müstəqilliyinə qarşı yönəlir. Yurdumuza çoxlu yabançı mədəniyyətlər daxil olub. Ona görə də meyarsızlıq və yolsuzluq hökm sürməkdədir. Uluyurdçuluq – milli, özümlü mədəniyyətin təsdiq olunmasını həyata keçirmək əməlidir. Yurdumuzda əxlaqa zidd olan, mənəviliyi nəzərə almayan hər cür baxış rədd olunur.

3) Siyasi müstəqilliyin bərqərar olması gərəkdir!

Ümumiyyətlə, bir janr kimi siyasət insani əməlləri axıra qədər həyata keçirə bilməməkdən əmələ gəlib. Siyasət – bəşəri mənada xeyir əməli deyil. Fəndgirlik, biclik, aldatma məharəti həyatda bioloji qaydalar yaradır. Bu səviyyə ilə bəşər özünə bərabər yaşaya bilmir. Bəşər insani qaydalarla əsilliyə yüksələ bilər. Bu gün xalqlararası münasibətlər humanizmə deyil, mərkəzçiliyə əsaslanır. Bu niyyətlər fəndgirliklə, aldatmaqla həyata keçirilir. Ona görə də xalqlar özlərini bir-birindən qorumaqla məşğul olur. Ən çox asılılığa, əsarətə məruz qalmış yurdumuzu xilas eləmək və onu qorumaq məqsədilə Uluyurd Hərəkatı siyasi mübarizə aparmağı, – əslində yurdumuza qarşı olan siyasətlə mübarizə aparmağı qarşısına məqsəd qoyur. “Uluyurd” həm də müasir Azərbaycan siyasətçiləri üçün tərtib olunmuş siyasətin həyata keçməsinə qarşı çıxış edir. Çünki hakimiyyət uğrunda mübarizə aparanların yürütdükləri siyasət Azərbaycanın müstəqilliyinə deyil, mərkəzin, ağaların mənafeyinə xidmət göstərir. Odur ki, “Uluyurd” Azərbaycan–Türkelin var olması üçün siyasətin məqsədini, ideyasını, üslubunu dəyişmək, millətçilik ideyasına söykənən, Azərbaycan dəyərləri ilə köklənib dünyanın indiki halını ötən bir siyasət xətti seçir. Dövlətin müstəqil olması üçün onun yürütdüyü siyasət kənardan götürülməməli, öz prinsiplərindən vüsət almalıdır.





## YENİ “MAARİFÇİLİYİN” MİLLİLİK PROBLEMİ

Dünyada gedən qlobal siyasi proseslər yeni-yeni antiinsani əhvallar doğurur. Bu əhvallar bulanıq axınlara çevrilir. Bulanığın altında axanla üstündə axanın nəliyi bəlli olmur. Özü axın yaratmayan, mövcud axınlardan birinə qoşulan cəmiyyətlər bu axınların köpüklü dalğalarında özlərini inkişafa gedən sanırlar. Təbiidir. Sivilizasiya yaratmayan, sivilizasiyalara qoşulan xalqlar həmişə mürgülü vəziyyətdə olurlar. Onlar qoşulurlar və başqasının yükünü daşıyırlar. Boyunduruq altında olan öküz üçün daşıdığı yükün dəyəri, faydası önəmli deyil. Onun işi dartmaqdır.

Boyunduruğa yüyürən bizim önə çıxmışlarımız da qoşulur və dartırlar. Onların ağlı, düşüncəsi, gözünün baxarı Qoşan’ın ixtiyarında və nizamında olur. Ələbaxan, naşı “uşaqlarımız” şirnikirlər, yüyürürlər, əllərindən tutulanda sevinirlər. Gözəl gələcək xəyalı ilə sürünürlər. Gözlənti ümidə çevrilir. Siyasi Mehdi zühur edir Günbatanda. Gündoğana xilas gətirəcəyi elan olunur. Yeni azadlıq xülyası üzərində baş sındırırlar. Önəçıxanlarımız, “oxuyub ağıllananlarımız” “avam, naşı” cəmiyyətimizə siyasi Mehdinin gələcəkli, güləcəkli olmasından bəhs edərək “milli maarifçilik” əməlinə girişirlər. Beləliklə, “yeni dövrün” “yeni maarifçiləri” peyda olur Yurdumuzda. Yabançılıqdan ilham alaraq “Fövqəlmədəniyyət”in gətirdiyi “xilasın” lap burunlarının altında olduğunu təbliğ edirlər. Çağdaş Azərbaycan mətbuatının bəzi qollarını izlədikcə yeni “maarifçilərin” çoxaldığının şahidi olursan. Bundan sonra daha nə dərdimiz... “Maarifçiliyin” əsas anlayışları da çox şirin və cazibəli görünür: açıq cəmiyyət, vətəndaş cəmiyyəti, yeni dünya dəyərləri, homoseksualistlərin insan haqları, Avropa demokratiyasının mədəni quruculuğu və b.k.

Onların milli tutumları yırtıqdır, işləri xəlqi olan hər şeyi salıb itirməkdir. Divin xəlbirdə su daşıması kimi bir şeydir milli anlayışa yanaşmaları, əsas hədəfləri Qərbçilikdir. Milli sözləri bu hədəfin əlavəsidir, kölgəsidir və kölgədəki oyundur. Milli inkişaf adına deyilən hər bir söz özgələşdirmə təbliğatından xoflandırmamaq üçündür. Dilucu deyilir. Ürəkdə bəslənilmir, düşüncədə yetirilmir. Sevgidə təqdim

olunmur. Söz oyunu ilə bəzədilir və guya milli sevginin mövcud olması haqqında yalançı təsəvvürlər quraşdırılır. Onların təbliğatında öz toplumunu ardıcıl suçlama var: – “demokratiya qabağa gedir, biz geridə qalırıq, bütün cəmiyyətlər azadlığa qovuşur, bizdən başqa” və s.

Ruhun özgələşməsi kobud çağırışların bağırtılarını daha da qabardır. Milli varolmaya qarşı yönələn bu bağırtılar Yurdumuz haqqında bayquş ulamalarının xarabalıqları kimi viranə bir obraz yaradır. “Mental dəyərlər ölkəmizdə açıq cəmiyyət qurulmasını, yeni dünya dəyərlərinin oturuşmasını əngəlləyir” deyə həşir qoparanlar, məlum deyil ki, bu söz altında nəyi nəzərdə tuturlar. Əgər onlar dini nəzərdə tuturlarsa, ciddi səhv edirlər. Din mental dəyər deyil, ekspansiyadır. Mental dəyər millətin ruhundan yaranan dəyərdir. Millətin ruhundan yaranan dəyərlərimiz isə bugünkü həyatımızda, mədəniyyətimizdə mövcud deyil. Əslində bugünkü Qərbçilərimiz dünənki mollalarımızın işini görürlər. Necə ki, dünən yalmançılarımız dini müdafiə edərək mental dəyərlərimizə ləkə yaxırdılar, bugün də yeni yalmançılarımız Qərbçiliyi müdafiə edib, dəyərlərimizi gerilik kimi damğalayırlar.

Biz mədəniyyətlərin qarşılıqlı təsiri hadisəsini anlayırıq və qəbul edirik. Ancaq hesab edirik ki, qarşılıqlı təsir sağlam mədəniyyətlərdə baş tuta bilər. Siyasi virus kimi Yurdumuza daşınan mədəniyyət adına olan pozğunluqları rədd edirik. Başqa bir tərəfdən, mədəniyyətlərin qarşılıqlı təsiri o vaxt mümkündür ki, xalqlara məxsus milli mədəniyyətlər ortada olsun. Bizimkilər mədəniyyət yaratmaq əvəzinə mədəniyyət(sizlik) daşıyırlar. Avropalaşmaya ağız suyu axıdanlardan soruşmaq istərdim: hansı Avropa dövlətində insani tərəqqi qələbə çalıb?! Avropa insani deyil, texniki cəmiyyət yaradır. Bu gün dünyada baş verən qanlı olayların başında “geridə qalmış” Azərbaycan durur, yoxsa “Qabaqcıl Avropa”?!

Sözün cazibəsinə aludə olanların sanki qulaqları eşidir, ancaq gözləri görmür. Mücərrəd, eyforik ifadələrə elə vurulublar və elə inanıblar ki, Azərbaycandakı “ruh düşkünlüyünü” texnosivilizasiyanın burdakı kürəsəl genişlənməsi sayəsində çox asan “həll edirlər”. Azərbaycanın “avam, şüursuz” mühitindən çağdaş düşüncəyə malik azad, xoşbəxt insan çıxaran yeni Qərb modeli demokratiyanın qanadlarında bizə tərəf uçurmuş. Sən demə, bizim öz xoşbəxtliyimizdən xəbərimiz yoxmuş. Görəsən,





indiyədək Qərb modelinin yaratdığı demokrat insanlar hansı gözəl, rəvan, müqəddəs dünyanı qurublar?!

Çox təəssüf ki, heç kim özündən ağıl işlətmir, işlətmək istəmir. Bu gün “biz də gözəl bağ salıb bağban ola bilərik” inamı yoxdur soydaş və yurddaşlarımızda. Bizim bağbanlığımız, ən yaxşı halda, başqalarının Yurdumuzda özləri üçün saldıqları bağda alaq yolmaqdan ibarətdir. “Yeni dünya dəyərləri” deyəndə də əslində bunu nəzərdə tuturlar. “Qərbçilik məzmununun olduğu mühitdə başqa dəyərlər yaşamamalıdır, yaranmamalıdır; yaşayanı öldürmək gərəkdir, yarananı əngəlləmək”. Həyatımızın bütün sahələrinə münasibətdə mövqe budur. Təəssüf ki, Azərbaycanda normal milli düşüncə sistemi mövcud deyil. Milli stereotiplərimiz qırılır, bizə yabançı stereotiplər sırınır. “Geriliyimizin” əsas qaynağı kimi dini vuranlar da, bunu dəyərlərimizin yaranması və nəfəs alması üçün eləmirlər, “yeni dünya dəyərlərinin” burada arxayın oturuşması üçün edirlər. Dini rədd edənlər Qərbin müdafiəsinə güvənirlər. Qərb isə öz müdafiəsinin qarşılığı olaraq, heç kimin milli inkişafına qapı açmır. Çağdaş oxumuşlarımız elə hesab eləməsinlər ki, biz millilikdən yeni əhkam düzəldirik. Əslində millilik ən zəngin bəşərilikdir. İnkişaf – hamının dönüb Qərb olması deyil. Eyniləşmədə inkişaf məntiqi aramaq yanılmadır. Zorla dünyalaşma olmur. Dünyalaşma – azad və müstəqil xalqların özünü ifadəsi səviyyəsində alidir, gərəklidir. Bəşərin vahid bir mədəniyyətə gətirilməsi zorakılığın yaratdığı uğursuzluqdur.

## MİLLƏTÇİLİK AZADLIĞA APARAN PROSESDİR

Batı dünyasının bəşəriyyətin xilası kimi irəli sürdüyü Kürəsəlləşmə ideyası cazibəsini itirməkdədir. Dünyanın siyasi qarışıqlığının gündən-günə artması sübut edir ki, Kürəsəlləşmə bu günə qədər dünyanı Batının imperiyasına çevirmək məqsədi daşıyıb. Batının dağıdıcı ağalığı ayrı-ayrı dövlətlərdə ya dinçiliyin inkişafına, ya da millətçilik adı altında xalqlararası münaqişələrin artmasına şərait yaradır. Əlbəttə, ikinci cəhət Batıya boyun əymək istəməyən iri dövlətlərdə özünü daha qabarıq şəkildə büruzə verəcək. Dünyada Batı ağalığının mütləq həddə çatması mümkün deyil. "Demokratik xalturist" olan ABŞ və onun başında duranlar dünyanı bir rəngdə görmək istəyirlər. Anlamırlar ki, bu, dünyanın ölümüdür. Dünya ölmək istəməyəcək. ABŞ-ın başında duranların qanlı müharibələri onun tarixi faciələrinin əsasını qoyur. İmperiyalaşmaq üçün əsarətlər yaratmaq yaradanın özü üçün də təhlükə mənbəyinə çevrilir.

Bu gün Türkiyəni üzük qaşı kimi dövrələyən Avropa hələ də Osmanlı xofundan xilas ola bilməyib. Hərçənd Osmanlının türkə milli gərəyi yox idi, o, İslam imperiyası idi. Atatürk Türkiyə Cümhuriyyəti yaratmaqla türkü həm Avropa qisasçılığından qorudu, həm də dinin xalq üzərində qurduğu cəhalət hökmdarlığının basqısından. Bununla belə, müqayisə üçün deyə bilərik ki, Osmanlı Avropa dövlətlərindən xərac alırdı, amma heç kimin milli özəlliklərini ləğv eləmirdi. ABŞ isə iqtisadi talançılığı xalqların "mentalitet" deyilən özümlüyünü, milli dəyərlərini sıradan çıxarmaqla həyata keçirir. Rusların Sovet İmperiyası ilə ABŞ-ın Demokratik İmperiyası üslubca fərqli görünsələr də, oxşar məqsədlər həyata keçirməklə xalqları milli-mənəvi, iqtisadi, siyasi cəhətdən iflic duruma salıblar. Sovet İmperiyasının ideoloji prinsiplərinə güvənən və arxayınlaşan Rusiya bu gün özünün zaman-zaman yaratdığı siyasi dolaşıqlarının burulğanında çabalamaqdadır. Bizim də bu yazıda məqsədimiz mövzunu bu yöndə inkişaf etdirməkdir. Azərbaycanla bağlı problemləri dərk etmək üçün ona təsir göstərən siyasi amillərin





mənbəyini aydınlaşdırmaq gərəkdir. Ümumilikdə biz Azərbaycana problemlər yaradan qıraq qüvvələrə qarşı mövqeyimizi mətbuatda dönə-dönə vurğulamışıq. Burada sadəcə yeni taktiki təsirlərin ortaya çıxması mövqeyimizi xatırlatmağı vacib edir. Bizim hər zaman gərəkli bildiyimiz və müdafiə etdiyimiz Millətçilik ideyası bəzi mənbələr tərəfindən gündəliyə gətirilir və buna yönəlik mövqelər sərgilənir. Hətta Rusiyada da belə bir prosesin başlandığı elan olunur. Bünövrədən imperiya kimi qurulan Rusiyada həqiqi millətçiliyin bu gün baş tutması inandırıcı deyil. Çünki Rusiya özü olmaq istəmir, imperiya olmaq istəyir. Həqiqi millətçilik isə özümlüyə xidmət edən ideyadır. Xalqı özümləşdirməyin, birləşdirməyin, qıraq təsirlərə direniş göstərməyin yeganə doğru yolu millətçilikdir. İstənilən siyasi doktrina başqa xalqlar üzərində hegemonluğa, ən yaxşı halda rəqabətə xidmət göstərir. Zahirən əməkdaşlıq kimi görünən rəqabətdə üstələmək, diktə eləmək, asılılığa salmaq kimi niyyətlər həyata keçirilir. Bərabərtərəflilik prinsipləri bütün hallarda pozulur. Dinçilik əsasında xalqı birləşdirmək və direniş göstərmək isə bu günə qədər özünü doğrultmayıb. Heç bir din milli yön yaratmayıb, böyük imperiyaların yaranması zəminində siyasi alətə çevrilib. Bu gün isə dinlərin xəlqi birlik yaratması, ümumiyyətlə xülyadır. Çünki heç bir dinin dövlətlərə təsir etmək imkanı yoxdur, eləcə də humanist məqsədləri bərqərar eləmək iqtidarında deyil. Özəllikcə Rusiyada din onu qıraq basqılardan qorumaq üçün birləşdirici gücə malik deyil. Əvvəla, Rusiyanın pravoslav məzhəbi Batının katolisizmi ilə təzad təşkil etmir, hər ikisi xristianlıq deməkdir. Başqa tərəfdən, din insanların mistik duyğularını canlandıra biləcək hər hansı bir yeniliyə malik deyil. Bu səbəbdən də millətçilik kimi qiymətləndirilən "Ruskiy marş"ın meydana çıxması əslində gözlənilən idi. Qafqazda, Orta Asiyada ixtiyarını getdikcə itirən Rusiya, bu bölgələrin ölkəsində yaşayan və işləyən insanlarını sıxışdırmaq kimi siyasi təsir vasitələrini geniş miqyasda işə salmaqdadır. Doğrudur, xarici iş adamlarını sıxışdırmaqla özlərinin ticari planlarını həyata keçirmək istəyənlər, iqtisadi rəqabəti udmağa çalışanlar da millətçilik adı altında fəaliyyətə keçirlər. Əslində bu qüvvələri heç bir milli problem dərindən

qayğılandırmır. Dövlətin özünü də əsil millətçilik qane etmir. Çünki həqiqi millətçilik təkcə qıraq basqılara qarşı deyil, daxildə xalqı müflisləşdirən Pulçu ünsürlərə qarşı da səfərbərlik yarada bilər. Bu səbəbdən də "Ruskiy marş" kimi əməllər dövlət avantürası kimi meydana çıxır. Bugünkü siyasi dünyada ən fəal ideologiya olan demokratiyaya qarşı açıq dirənişi bacarmayan Rusiya qarşıdurmalar yaradır ki, bunun qarşısını almaq adıyla Avropa hegemonluğunun sürətinə mane olsun. Belə bir tendensiya onsuz da mürəkkəb durumda yaşayan Azərbaycanın siyasi həyatına daha artıq gərginlik gətirir. Azərbaycan iqtidarı isə iqtisadi inkişafımızın dünyada bənzəri olmadığından bəhs edir. Rusiya ilə Azərbaycanın həll olunmamış probleminin qalmadığını bəyan edir. Rusiya isə Qarabağı əlimizdən alıb erməniyə verməklə yetərlənməyib, indi Azərbaycana bir-birinin ardınca başqa problemlər hazırlayır. Rusiya Azərbaycan iqtidarını vadar edir ki, Qarabağda erməni müstəqilliyini tanıyan referendumun keçirilməsinə razılıq versin. Bundan başqa, Azərbaycan Batı şirkətlərinin inhisarına keçdikcə Rusiya ölkəsində yaşayan və işləyən bir milyondan artıq azərbaycanlını hədələyir, işgəncələrə, ölümlərə məhkum edir. Eyni aqibəti Borçalı azərbaycanlıları da yaşayır. Bizim dövlətimiz isə Gürcüstanı strateji müttəfiqi kimi tanıyır. Güney Azərbaycanda soydaşlarımız daha acınacaqlı durumdadırlar. Bu durumun nədən ibarət olduğunu mətbuatı izləyən adamların bildiyi üçün təkrarlamağa ehtiyac görmürük.

Bu vəziyyətləri dərk eləyən biz azərbaycanlılar üçün görəsən dövlət müstəqilliyimizin anlamı nədir, ümumiyyətlə, bu cür məhdud müstəqilliyi qoruyub saxlamaq mümkün olacaqmı? Deyirdilər, Quzeydə müstəqilliyimizi quraq, sonra başqa bölgələrimizin aqibəti haqqında düşünərik. İndi də siyasi müxalifət adlanan ayrı-ayrı qüvvələr deyirlər ki, biz hakimiyyətə gələndən sonra gərəkli addımlar atacağıq. Halbuki onlar hakimiyyətə gəlmək üçün beynəlxalq qüvvələrə (əslində imperialist dövlətlərə) daha çox yarınırlar və Azərbaycanın asılılığını daha da artırırlar.





Güney Azərbaycanda gedən kortəbii millətçilik prosesi Quzeydə özünə dayaq, söykənəcək tapa bilmir. Azərbaycan cəmiyyəti Batıçılıq və dinçiliyin girovundadır: Quzeydə Batıçılıqla dinçilik paralel inkişaf edir. Güneydə isə, dediyimiz kimi, millətçilik axtarışları. Millətçilik isə elə bir özümlü ideyadır ki, o nə Batıçılığın, nə də dinçiliyin içində müstəqil var ola bilməz. Əslində milli problemləri yaradan da Batıçılıq və dinçilikdir. Quzey Azərbaycanda elə təbliğat aparırlar ki, guya din gəncləri müqəddəsliyə yönəltməklə onlara vətənpərvərlik ruhu aşılayır. Əslində bir az dərindən müşahidə olunsa, aydın görünər ki, gənclərə mollapərvərlik öyrədirlər. Bakının qulağının dibində Nardaran İranın kəndi kimi çıxış edir. Qafqaz Universitetinin elmi kökləri Fətullah Gülənin "göz yaşları" ilə suvarılır. Osmanlı ümmətçiliyinin yaratdığı fəsadlar müəyyən mənada Türkiyə millətçiliyi ilə aradan qalxmışdı. İndi Teyyub Ərdoğan hakimiyyəti Türkiyədə yeni ümmətçilik oyunları qurmaqdadır. Bu oyunların Azərbaycana göstərdiyi təsirlər də açıq-aydın görünməkdədir. Hər kəsin evinin içində Batıçı, Nurçu, Farsçı boy atır. Yeri gələndə bunlar özlərini həm də millətçi kimi qələmə verirlər. Sabah bunlar əsil millətçiləri, vətənsevərləri ləkələməkdən, söyməkdən, öldürməkdən belə çəkinməyəcəklər. Azərbaycan qarşısıalınmaz fəlakətlər qarşısındadır. Sağlam millətçilik Milli Azadlıq Hərəkatının əsasına çevrilən mübarizə əməli olmalıdır. Dövlət ideologiyası səviyyəsində bərqərar olub, Azadlıq prosesini yetirən millətçilik həm də milli mədəniyyətin əsaslarını yaradar. Qətllərin, qırğınların dövlət ideologiyası səviyyəsinə qalxaraq, millətçilik adı altında fəaliyyətə keçməsi faşizm deməkdir və bu, imperializmə aparır. Bu gün Rusiyada belə bir prosesin əsası qoyulur. Biz Rusiyanın özündə belə sağlam millətçiliyin tərəfdarıyıq. Bütövlükdə dünyada sağlam millətçilik bəşəri humanizmi bərqərar edərdi, dünya yeknəsəqlikdən xilas olardı. Bu ideya milli problemləri həll eləmək üçün gəlib-gedən bir proses olmamalıdır. "Millətçilik əbədi bir ideyadır" (Asif Ata). Bunun əbədiliyinə xələl gələndə milli problemlər yaranır. Millət əbədi hadisədir. Onu ləğv etməyə girişdilər, dünyanın ahəngi pozuldu. Birrəng bəşər ideyası cəfəngiyyatdır. İndiyə qədər üç ideologiya bəşəriliyə qarşı olub, başqa

sözlə, milləti ləğv etməyə girişib və hər üçü uduzub. Bunlardan biri İslam ümmətçiliyi, başqa ikisi siyasi ideologiya olan Kommunizm və Kürəsəlləşmədir. Bu ideologiyaların başında duranlar millətçiliyi imperiyaçılığa aparan yol kimi qələmə veriblər. Əslində millətçilik imperiyaçılığın qabağını kəsən çox gözəl bir humanizmdir. Bu ideya – xəlqi keyfiyyətlərin fərdlərdə yaşaması və özümlü dəyərlər əsasında millətin həyat tərzinin formalaşmasına xidmət edir. Bu gün xalqları "demokratik inqilablara" şirnikdirirlər. Əslində heç bir demokratik inqilab özünü doğrulda bilməyib, başqa sözlə, heç kimin milli varlığını təsdiq etməyib. İnqilabçılıq – hakimiyyət dəyişikliyi və iqtisadi təminat istəyidir. İnqilab istənilən qüvvənin əliylə baş verə bilər. Lakin Millətçilik – millətin içində qurulmalı və yaşanmalı bir prosesdir. Bu prosesi Milli-Mənəvi İntibahın doğduğu və yoğurduğu insanlar gerçəkləşdirə bilərlər!

Saydığımız problemlərin qarşılığında Azərbaycan bu prosesə çox yaxındır. Yurdumuzda Milli-Mənəvi İntibah artıq mövcuddur. Millətçilik prosesini gerçəkləşdirmək və milli məqsədləri həyata keçirmək üçün bəs qədər geniş imkanlar yaranıb.

*30- il*





## MİLLİ AZADLIQ – MİLLƏTÇİLİYİ HƏRƏKATA ÇEVİRMƏKDƏN KEÇİR

Dövlətlərarası münasibətlər antiinsani səviyyədə formalaşanda xalqların mənəvi tənəzzülü qaçılmaz olur. Bir çox hallarda çıxış yolları hərbi savaşa gedib dayanır. Deyirlər, hərbi savaşa başlamaq üçün gərək güclü ordu və silahın olsun. Lakin hesab edirik ki, hərbi savaşı udmaq üçün bu göstərici yetərli deyil. Gərək xalqın mənəvi qüdrəti olsun ki, niyə savaşdığının fərqinə vara bilsin. Atatürkün silahı və ordusu Türkiyəyə hücum edənlərinkindən heç də güclü deyildi. Türkiyənin xilas olmasını milli-mənəvi güc başa gətirdi. Bizim Qarabağı uduzmağımızın köklü səbəblərindən çox vaxt yan keçirik. Deyirik, biz erməniyə yox, rusa yenildik. Bəli, Qarabağda erməninin tərəfində rus döyüşürdü. Bununla belə, biz yenilməyimizə bəraət verə bilmərik. Axı cəbhə boyu Rusiyanın bütöv ordusu deyil, bir-iki batalyonu döyüşürdü. Odur ki, əsas səbəbi bizim milli-mənəvi vəhdətimizin olmamasında axtarmalıyıq. O dövrdə millətçilik ən çox şüarlar səviyyəsində mövcud idi, hadisəyə çevrilməmişdi. Bu gün isə millətçiliyə, ümumiyyətlə, qara ləkə kimi baxırlar və onu biryolluq "silməyə" çalışırlar. Əgər tarixə ciddi nəzər yetirsək, görərik ki, xalqlar təhlükə anında millətçiliyə meyil ediblər və məhv olmaqdan məhz bu ideya ilə xilas olublar. Təəssüf ki, millətçilik ideyasını ziddiyyətli qəbul edirlər və onu imperiyaçılığın, ağalığın atributu olan şovinizm ilə qarışdırırlar. Nə qədər ki, xalqda millətçilik əlamətləri var, qıcıq yaratmamaq üçün ağalıq iddiasında olan qüvvələr "millətçilik pis şeydir" demirlər, "aşırı millətçilik gərək deyil", deyirlər. Millətçilik ideyasını yarımçıqlamaqla, nisbiləşdirməklə gücdən salırlar. Hitlerin müharibə qan-qadasını da millətçiliyin nəticəsi sayaraq, bu ideyanın fəlakətli olduğunu sübutlamağa çalışırlar. Əslində Hitler millətçi yox, imperiyaçı idi. Almanları ali irq elan eləmək – başqa xalqları əsarətə salmaq üçün atılan addımlar idi. Ağalıq nə bu xalqın özünü xilas edə bilməz, nə də başqalarına azadlıq verə bilməz. Biz də türkün böyüklüyündən danışırıq. Lakin demirik ki, türk hər şeydir, başqa xalqlar heç şey. Biz deyirik, türkün xilas olması bəşəriyyətin azadlığı üçün çox önəmlidir. Biz demirik ki, Osmanlı imperiyasında türk xilas olmuşdur, deyirik,

Osmanlıda türk ərəb-islam imperiyasının xidmətçisinə çevrilmişdir. Biz deyirik, türkün birliyinin yaranması və xilası üçün o, millətçilik yolu keçməlidir. Bu millətçiliyi gücləndirici (aşırı, qatı) sözlər əlavə eləməklə damğalamaq olmaz. Millətçilik tam, bütöv səviyyədə olanda qurucu, xilasedici olur. Nisbi, yarımçıq millətçilik xalqın aqibətinə daxil olmur, əksinə, dağınıqlığa (pərakəndəliyə) gətirib çıxarır. ***Millətçilik – xəlqi, insani dəyərlər yaradıb milləti ucaltmaq anlamı daşıyır.*** İmperialist məqsədlər daşıyan qüvvələr milli-mənəvi gücü sındırmaq və öz ağalığını həyata keçirmək üçün millətçilik ideyasına antibəşəri damğa vurub gözdən salmağa çalışırlar. Bizə "millətçilik pis şeydir" deyənlər özləri ardıcıl millətçidirlər. Məsələn, ingilislər Azərbaycanda bizim millətçiliyimizi öz millətçilikləri ilə əvəz edirlər, bizə isə deyirlər, millətçilik pis şeydir, Kürəsəlləşmə yaxşıdır. Əslində Kürəsəlləşmə elə ingilisçilikdir, fransızçılıqdır, almançılıqdır… Dünyəvi demokratiya onların millətinin, dövlətinin qorunmasına və ağalığının yaşamasına xidmət göstərir. Azərbaycanda bir vaxtlar millətçi kimi tanınanlar sürətlə "demokratlaşdılar". Bunların demokratlaşması – özünəyadlaşma, özgələrə yarama hadisəsi kimi təsdiqini tapdı. Türk millətçiliyindən əl çəkdilər, ingilis millətçisinə çevrildilər. İngilis dili öyrənirlər, ingilis mədəniyyəti ilə davranırlar, ingilisvarı yaşayırlar, – ingilisin kölgəsinə çevrilirlər. İngilis tapşırır ki, türk millətçiliyini rədd edin, edirlər, balacalaşın, balacalaşırlar, əvəzində pul alırlar və hakimiyyətə doğru sürünürlər. İndi Azərbaycandakı Amerika-ingilis şpionlarından (səfirlərindən) soruşmaq gərəkdir: – Əgər millətçilik pis şeydirsə, niyə siz hər yerdə öz millətçiliyinizi həyata keçirirsiniz? Hərçəndi sizin millətçiliyiniz qəti ağalıqdır, imperiyaçılıqdır. Üzümüzü ingilisçiliyə xidmət göstərən Azərbaycan türklərinə tutub deyirik: – Siz millətçiliyə başlamamış onu gərəksiz saydınız, bununla da millətdən təcrid oldunuz. İndi durub millətdən dəstək, seçmək tələb edirsiniz. Siz millətə fədakarcasına öndərlik etməyi atdınız, yadlara nökərlik etməyi üstün tutdunuz. Bununla da millətin əzmini, ümidini puç etdiniz. İndi gərəkdir ki, sizin sıralarınızda olan, aldanan sağlam əhvallı adamlar ayılsınlar, ayrılsınlar. Azərbaycanın xilası üçün, bütövlüyü, azadlığı üçün bu xalq Millətçiliyə başlamalıdır.

Millətçilik Hərəkata çevrilməlidir!





## ÖZÜNDƏ QURULMA

Dünyanın heç yerində türk heç bir prinsipial məsələni yoluna qoymur. Onun özünü "yoluna" qoyurlar – həm millətə bağlı məsələlərdə, həm də dünyaya bağlı məsələlərdə.

Türk öz içinə ciddi olaraq əl gəzdirməlidir ki, siyasi dünya onun içinə əl gəzdirməsin.

***xxx***

Azərbaycan hakimiyyəti bütün danışıqlarda öz torpaqları üzərində ermənilərlə alver edir. Başqa sözlə, alver eləməyə zorlanır. Bu hal Azərbaycana da, Türkiyəyə də utanc gətirməlidir.

Siyasi gücsüzlük utanc duyğusunu aradan qaldırıb. Təslimçilik üzqaralığı hökm sürür. Xalqın ictimai-sosial-siyasi həyatında tənəzzülə köklənmiş "hakim addımlar" xalqla dövlətin birliyini qırır. Ona görə xarici siyasət təslimçilik havası udur. Təslimçilik havasında milli qeyrət də boğulur, milli ləyaqət də...

***xxx***

Dünyanın siyasi oyunları başsız-ayaqsız fırlanır. Bir tərəfdən BMT "bütöv dövlətlər", yəni "hər bir mövcud dövlətin ərazi bütövlüyü toxunulmazdır" müddəası ilə çıxış edir, başqa bir tərəfdən, Azlıqlara özünü təyinetmə hüququ tanıyır. "Dovşana qaç, tazıya tut" prinsipi ilə siyasət yürüdən azmanlar istədiklərini bölüb parçalayır, istədiklərinə sərhəd quraşdırırlar. Hər şey "dünyəvi demokratiya" deyilən qanunsuzluqlar və özbaşınalıqlar əsasında həyata keçirilir.

***xxx***

Hamını Batılaşdırma – plüralizm sayılır.

Plüralizm – "Pulçuluqdan başqa idarəçilik, Batıçılıqdan başqa tərəqqi yoxdur" əhvalı sərgiləyir.

Plüralizm – standartçılıq qayəsi ilə ehkamlaşır. Fikir müxtəlifliyi yalnız Pulçuluğun daxilində Batıçılığı həqiqət saymaq səviyyəsində qəbul olunur.

Plüralizm – siyasi ağalığın sözünün ötkəmliyi və alternativsizliyi anlamındadır.

***xxx***

Bizi parçalayıblar. Parçalarımıza yiyə dura biləcək nə gücümüz var, nə də dostumuz. Nə də bu gücü yaratmağa siyasi, ruhani meylimiz. Güney Azərbaycanda soydaşlarımızın haqları məhv edilir və biz deyirik (dövlət səviyyəsində) o, İranın iç işidir. Ancaq Rusiya onun soydaşı olmayan abxazların, acarların tərəfindən Gürcüstana hücum edir, heç kim demir ki, abxazlara, acarlara münasibət Gürcüstanın iç işidir.

Siyasi pozucular üçün 35 adamın haqqı 35 milyonun haqqından önəmli sayılır.

Siyasi alət kimi, vasitə kimi seçilmişlərə yönəlik canfəşanlıq beynəlxalq humanizm miqyasına çevrilir. Dünyada belə hal yaradanlardan dostluq gözləmək və azadlıq ummaq ən böyük əsarətdir. "Dünya humanizmi"nin başında duranlar əsarət yaradır, azadlıq vermir. Azadlığa – içəridən başlanan yol ilə getmək mümkündür.

***xxx***

Bölücülüyü (separatizmi) böyük siyasi güclər yaradırlar. Ancaq bu əməli balaca xalqların, balaca dövlətlərin adına bağlayırlar.

Terrorçuluğu böyük siyasi güclər yaradırlar. Ancaq bu əməli qrupların, təşkilatların adına bağlayırlar. Balaca xalqlar, qruplar, təşkilatlar olmasa, böyük siyasi güclər yaşamaz. Onların gücü və böyüklüyü balacalığın varlığından doğur. Pişik siçanla oynayan kimi böyük güclər balacaların üzərində beynəlxalq oyunlar nümayiş etdirirlər. Çağdaş Dünya Düzəni əslində siçan-pişik oyunudur...

***xxx***

Dünya o qədər mənasından ayrılıb ki, ona sevgi ilə yanaşmaq mümkünsüz olub. Siyasət inamı məhv edir, gücə pərəstiş yaradır. Gücə inam – pula inamdır, maddiyyata, silaha inamdır, əslində inamsızlıqdır. Bu dairədən çıxmadan xalq olmaq və vətən yaratmaq mümkün deyil.

Vətən – Ruhani Gələcəyimiz deməkdir. Onu İçimizdə qurmalı və taleyimizə çevirməliyik.

İnamsız dünyada İnam yaratmışıq. Vətənimizin bütövlüyü bu İnam üzərində zəmin tapa bilər.





## DEMOKRATİK ANARXİYANIN ŞƏRQİ VƏ MİLLİ HÜDUDLARI

Dünyanın dincliyi Doğu (Şərq) dövlətlərinin məhv olması ilə tam pozulur. Orta Doğuda (Yaxın Şərqdə), İranda, İraqda, Əfqanıstanda, Azərbaycanda, Türkiyədə… proseslər elə bir xaotik durumdadır ki, sorunlardan birini həll eləmək istəsən, Batı on yerdən qarmaq atar və əl-qolunu tutar. Buxovlanıb Doğu. Doğu dövlətlərini bir-birinə qarşı elə kökləyiblər ki, birlik, yaxınlıq üçün heç bir ayaq yeri görünmür. Bu dövlətlərin bir-birindən sorulası hesabları hər cür tarixi bağları qırıb atmaqdadır. Batı da öz növbəsində onların arasına elə düşmənçilik toxumları səpib ki, bir-biriylə dil tapmaq imkanları, demək olar, yoxa çıxıb.

İndi Avropa "Yeni qonşuluq müqavilələri" bağlayır. Bu müqaviləni bağlamaq üçün tərəfdaşının (əslində əlaltısının) qarşısında şərtlər qoyur. Maraqlı müqavilədir, deyilmi?! Belə qayda ilə müqavilə qalib və məğlub tərəflərin aralarında bağlanır. Avropa özünü qalib, inkişaf etmiş mərkəz kimi aparır. Əslində isə normal qonşuluq müqaviləsi bərabərhüquqlu tərəflər arasında bağlana bilər. Belə olanda hər kəsin şərti, istəyi gözdən keçirilməlidir. Odur ki, bu müqavilələr qonşuluq xarakterli deyil, mərkəz və əyalət münasibətlərinə əsaslanan müqavilələr halına gəlir. Yəni işdə bunlar qarşı tərəfin hər cür tabeçiliyə razılıq verməsini təmin etməlidir. Məsələn, Azərbaycanın Avropa ilə qonşuluq müqaviləsini başqa cür necə anlamaq olar? Azərbaycanın həqiqi (konkret coğrafi sərhədlərlə ayrıldığı) qonşularıyla münasibətləri düşmənçilik səviyyəsindədirsə o, Avropa ilə necə qonşuluq edə bilər? Məgər Ermənistanı Azərbaycana qarşı qoyan və onu qoruyan Avropa dövlətləri deyilmi? İranla Azərbaycan arasında münasibətlərin gərgin qalması Avropa dövlətlərinin ürəyindən deyilmi? Güney Azərbaycanda baş qaldıran azadlıq istəkləri zaman-zaman Avropa dövlətlərinin İrana yardımları ilə susdurulmadımı?

Eyni ittihamlarla Türkiyənin mövqeyindən də çıxış etmək mümkündür. Təkcə PKK amili bəsdir ki, Avropanın Türkiyəyə qarşı "qonşuluq münasibəti" dərk olunsun. Minlərlə türk insanlarını qətlə yetirən PKK öndərini Türkiyədən qoruyub bir-birinə ötürən Avropa

dövlətləri deyildimi? Başqa faktları da misal göstərmək olar, ancaq burada mətbuatın hər zaman vurğuladığı faktları təkrarlamağa ehtiyac görmürük.

Avropanın Azərbaycana qonşuluq təklifinin məntiqi ondan ibarətdir ki, Azərbaycan öz qonşularıyla düşmən qalsın, amma onunla "qonşu" olsun. Əslində Azərbaycanın Avropa ilə coğrafi baxımdan qonşuluq sərhədi yoxdur. Həqiqi qonşular bir-birinə yağı kəsilir və bu yağılığın uzunömürlü olması üçün Avropa tərəfindən yaradılan beynəlxalq qurumlar hər cür planlar işləyib hazırlayırlar. Avropa pulçuluğu inkişaf etdirir, qonşuluğu yox. Uzaq və yaxın "qonşularını" isə onun pulçuluğuna mane olmamağa çağırır. Bu səbəbdən pulçuluğun inkişafı yağılığın inkişafı ilə həmahəngdir.

Bir halda ki, Qərb tərəfindən Şərqə daim problemlər qurulur, quraşdırılır, demokratiyanın inkişafı, dünyanın qloballaşması eyforiyaları gərək ifşa olunsun. Dünyanın inkişafı "Minilliyin çağırışı" çərçivəsində başa düşülürsə, bəs Şərqin məhv edilməsi hansı anlama gəlir? Əcayib inkişafdır, – Qərb Şərq adlı "maneə"ni aradan qaldırmaqla inkişaf edir. İşin ən pis cəhəti odur ki, Qərb Şərqi Şərq dövlətlərinin əliylə də məhv edir. Şərqi dəyər və keyfiyyətlərin məhv olunmasına hesablanan Qloballaşma bəşəriyyətə ölüm vəd edir. Hadisələrin gedişi də göstərir ki, burada heç bir şişirtmə yoxdur.

Bəli, Şərq dövlətləri bir-biriylə dil tapa bilmir, birlik alınmır; Avropa öz demokratiyasının inkişafını Şərqi məhv etməkdə görür. Bəs necə olsun, bəlkə Şərqdən köçmək, yaxud keçmək lazımdır?

Avropanın yaratdığı demokratik anarxiyanı müsəlman-xristian qarşıdurması kimi təqdim edirlər. Bir sıra problemli Şərq dövlətlərinin başında duranlar "müsəlman birliyi" uydurmaqla Avropa demokratiyasına direniş göstərmək istəyirlər. Əslində isə tarixin heç bir dönəmində İslam "Şərqi birlik" yarada bilməyib və bundan sonra da yarada bilməyəcək. Bunun köklü səbəbləri var. Biz bunu ayrı-ayrı vaxtlarda mətbuatda vurğulamışıq. Avropa üçün də münasibətlərin burada dini zəmində qəbul edilməsi ciddi maraq kəsb edir. Bununla o, "Avropamərkəzçilik" ideyasının dünyaya gətirdiyi fəsadları dini münasibətlərin suçu kimi qəbul etdirməyə çalışır.

Əslində dünyanın heç bir ölkəsində mütləq dini dövlət mövcud deyil. Heç bir dövlət dini qanunlarla idarə olunmur, hamı dünyəvi qanunlarla idarə olunur. İran, Pakistan kimi "müsəlman dövlətlərdə"





əmmaməli, çuxalı prezidentlər var, seçkili orqanlar, parlament üsul-idarəsi və s. fəaliyyət göstərir. Dini zəmində qarşıdurma o vaxt baş verər ki, qarşı duranlardan biri, yaxud bir qismi dini, başqa qismi isə dünyəvi, yaxud ayrı-ayrı dinləri əsas tutsun. Habelə, "sən müsəlmansan, yaxud xristiansan deyə ölməlisən" məntiqi uydurmaq da ən pis məhəlli səviyyə deməkdir. Dinçilər bundan dini urvatlandırmaq vasitəsi kimi istifadə edirlər, başqa sözlə, kütləyə sübut etməyə çalışırlar – "görün bizim dinimiz nə qədər güclüdür ki, qarşı tərəfin gözü götürmür". Maraqlıdır, nə üçün dinlər arasında siyasi rəqabət getməlidir? Əslində bu cür münasibətə rəqabət demək doğru deyil.

Rəqabət – tərəflərin daxili ziddiyyətlərindən başlayır, başqa sözlə, məzmundakı boşluqdan, yarımçıqlıqdan, nisbilikdən qısqanclıq baş qaldırır, döyüş səviyyəsinə qədər artır. Bizim müşahidə elədiyimiz qarşıdurmalara isə müsəlman-xristian qarşıdurması adı verilsə də, dediyimiz kimi, gərginlik siyasi məqsədlərin tələbi ilə meydana çıxır. Yəni burada əsasən qərbləşdirmə məqsədini həyata keçirən qloballaşma ideyasının, qarşı tərəfdə isə ideoloji boşluğun olması düşmənçilik münasibətləri formalaşdırır. Görünür, Şərqin xilas olması üçün demokratiya bayrağını başı üzərinə qaldırmaq yox, onu rədd eləmək gərək olacaq. Qərb başının üzərinə demokratiya+Ağalıq bayrağını qaldırır, Şərqdən isə demokratiya+Nökərlik bayrağını başının üzərinə qaldırmaq tələb olunur. Demokratiya despotizmin o biri üzüdür. Başqa sözlə, despotizm hakim kultçuluğunu möhkəmlədirsə, demokratiya özbaşınalıq, anarxiya, vətəndaş qarşıdurması yaratmaqla dövlətin və xalqın milli-mənəvi varlığının süqut etməsinə gətirib çıxarır. Demokratiya – antidespotizm kimi görünsə də, özbaşınalığı, pərakəndəliyi qorumaqla daxildə despotizmə bir ehtiyac yaradır. Demokratiya ölkəiçi despotizmi beynəlxalq despotizmlə əvəz etmək funksiyası daşıyır. Bugün ABŞ-İngiltərə cütlüyü dünyanın despotları kimi fəaliyyət göstərirlər və ölçüyəgəlməz dağıntılar həyata keçirirlər.

Milli-mənəvi təsdiqə əsaslanmayan ideologiya humanist ideologiya ola bilməz – demokratiya kimi. Qərbin demokratiya idealına toxunmamaq üçün milli təsdiq baxımından çox şeylər qurban vermişik və verməkdəyik. İraqda türklərin (türkmanların) aqibəti demokratiya oyunlarının qurbanı deyilmi? 4 milyon insanın taleyi ilə alver etməyi hansı məntiqə uyğunlaşdırmaq mümkündür? Azərbaycan və Türkiyə üçün hətta Qarabağın həllinin, AB-yə daxil olmağın gərəkliyi də əsas

vermir ki, İraqda türkləri yiyəsiz qoyasan, taleyinə göz yumasan. Türklər (istər Azərbaycanda, istər Türkiyədə, eləcə də Kərkükdə) ABŞ-ın İraqa basqın etməsindən məmnunluq hissi keçirirdilər. Halbuki ABŞ-ın yaratdığı Tələbani hökuməti Kərkük, Mosul bölgəsinə daha amansız faciələr gətirdi. ABŞ Səddam Hüseyni devirmək üçün onun İraqda törətdiyi qətlləri saydırırdı, amma özü beş dəfə artıq qətllər, dağıntılar həyata keçirdi. Tələbaninin dağıntılarını isə demokratiyanın təntənəsi kimi qələmə verir.

Bu aqibət Güney Azərbaycanı da gözləyir. ABŞ-ın İranı dağıtmasını arzulayanlar bilməlidirlər: – O, prosesi elə kökləyəcək ki, türklər "yağışdan çıxıb yağmura düşsünlər".

Bir haşiyə çıxaq: – Vaxt vardı bizdən başqa mətbuatda Qərbə qarşı etirazlı, ifşaedici çıxışlar edilmirdi. Bu gün ara-sıra eşidilən etirazlar isə milli quruculuq istəyindən irəli gəlmir, hakimiyyət bölgüsündə iştirak etmələri üçün Qərbin dəstək verməməsinə qarşı "demokratik acıq" püskürürlər. Bütövlükdə isə Azərbaycanda Qərbi, Qərbçiliyi müdafiə edən, Azərbaycan dəyərlərinin arxaik adlandırılaraq gözdən salınmasına rəvac verən, ictimai-siyasi qurumlarda cəmləşənlər ordusu fəaliyyət göstərir. Elə bu səbəbdəndir ki, Yurdumuzda heç bir köklü problem həllini tapmır. Din gəncləri məscidlərə toplayıb buxovlayır, Avropa da özünün tərtib elədiyi ictimai-siyasi təşkilatlara. İndi də əlavə olaraq gənclər parlamentinə! Gənclər parlamenti o deməkdir ki, hər kəsin elə gənclikdən başı qoltuqlara düşsün, ülvi duyğuları tam siyasiləşsin və zəbt olunsun. Onların Vətən qurmaq haqqında düşünməyə vaxtları qalmasın, demokratiya oyunları ilə "Avropamərkəzçiliyə" xidmət eləsinlər.

Belə bir vəziyyətdə müxalifətin "Azadlıq bloku" deyilən qanadı vahid namizədini ortaya çıxarmaq istəyir. Düşünürlər ki, onların vahid namizədi bütövlükdə bölgənin öndəri olmalıdır. Çox yaxşı. Bəs görəsən, bu öndər hansı fərqli ideyanı və mübarizə üsulunu ortaya qoyur? Axı bu istək Azadlıq hərəkatı anlamına gəlib çıxır. Azadlıq isə hər cür özgəçiliyə qarşı direniş məsələsidir. Əks təqdirdə bölgənin nəyinə gərək yolsuz, ideyasız hakimiyyət düşkünləri?! Müxalifət hakimiyyətə gəlmək üçün özünü demokratiya inqilabçısı kimi göstərərək xalqın, dövlətin mənafeyini uzun illərdir Qərbə qurban verir.

Hakimiyyətə gəlmək arzuları gerçəkləşmədikcə, Qərbin onları aldatmasından "xəcalət çəkənlər"in bir qismi İqtidarın "mərhəmət"inə





sığınmağa başladı. Öz silahdaşları ilə yola getməyənlər müəyyən kürsülər tutmağa nail oldular. Bu kimi hərisliklərə qapılmağın təsirindəndir ki, müxalifət zaman-zaman xalqı itirdi; əli istəyinə tam çata bilmədikcə öz acığının qurbanı olub Qərbi də itirəcək və iqtidarın ən pis quluna çevriləcək. Çünki xalqa üz tutmağa üzü yoxdur. Bir vaxtlar Qərbi göylərə qaldıranlar zaman gələcək onun (Qərbin) nəzarətində qalan silahdaşlarını "satqın" deyə ittiham edəcəklər.

***xxx***

Mübarizə meydanında yolsuzluq var. Əslində mübarizə meydanı yoxdur, rəqabət meydanı var. Bu meydanda insanların mübarizə ruhu həşirə düşüb. Ona görə də rəqabət meydanında kim üstün görünürsə, göstərilirsə, kütlə onu seçir. Kütlənin seçimi çox tez-tez yerdəyişmələr edir, ora-bura qaçır. Bu qaçaqaçda, əlbəttə, ümidverici nəticə gözləmək mənasızdır. Özləri üçün karyera qurmaq istəyənlər kütləni başqa vədlərlə haylayırlar.

Azərbaycanın bölünmüşlüyünə, xalqın mənəvi səfalətə düçar olmasına adamlarda dözüm yaranıb. Biveclik səviyyəsi nəsildən-nəsilə ötürülür. Ruhsuzluq dərinləşir, "cilov gəmirən oğullar" yoxa çıxır. 90-cı illərin "qəhrəmanları" dünyanın ən iyrənc müstəbidinin – demokratiya ağasının şəklini başları üzərinə qaldırır. Cırtdan qəhrəmanlar fəaliyyət meydanını doldurublar. Bu meydanda Azərbaycanın köklü problemləri dilə gətirilmir, unutdurulur. Çünki köklü problemlərə toxunsalar, "demokratik dünya"nın qarşısında "siyasi nüfuzlarını" itirərlər. İndiki fəallar məhz bu cür tərbiyə olunurlar. Qıraqdan ciddi təlqinlər var ki, guya Azərbaycanın əsas problemi demokratiya məsələlərində dünyayla ayaqlaşa bilməməsidir. Ona görə yalnız bu problemin həllinə girişənlər müxalifət sayılırlar. Əgər onlar millətçilik fəaliyyəti həyata keçirsələr, antidemokrat olacaqlar və heç bir beynəlxalq güc onların hakimiyyətə gəlişlərinə yardım etməyəcək.

Bu və buna bənzər əyintilər, bu əyintilərin ictimai həyatın bütün sahələrinə təsir göstərən təzahürləri yetərincədir. Biz, Mütləqə İnam Ocağının Evladları, ardıcıl ruhani mübarizə aparırıq. Milli varlığın təsdiqi yönündə öz yolumuz, öz qaydalarımız var. Bu yolun tələblərindən irəli gələn əməlləri ciddi bir məsuliyyətlə gerçəkləşdirməkdəyik. Siyasi mübarizənin aparılması baxımından isə

Uluyurdçuluq hadisəsinin başlamasının tərəfdarıyıq. Biz bunun ideoloji əsaslarını işləyib hazırlamışıq.

Uluyurd – Ümumazərbaycan Hərəkatıdır. Bu Hərəkat mahiyyəti etibarilə partiyaçılıqdan, ictimai-siyasi təşkilatçılıqdan üstün bir hadisədir***. Uluyurd üçüncü qüvvə deyil, zəruri qüvvədir.*** Dünyanın siyasi gedişatını izləyən, siyasi motivləri ciddi öyrənən, Azərbaycan üçün düzgün nəticə çıxaran və bu yöndə mübarizə aparan bir güc mərkəzidir. Meyarı isə Ruhaniyyatçılıqdır. Bunun özülündə Mütləqə İnam baxışı dayanır. Ruhaniyyatçılığa söykənmədən, ondan bəhrələnmədən Hərəkatın mübarizə xəttini qurmaq və qorumaq mümkün deyil. ***Hərəkatın məqsədi demokratiya uğrunda deyil, Azadlıq uğrunda mübarizədir. Bütövlükdə Uluyurd Hərəkatı Azərbaycan uğrunda mübarizədir.*** Bu səbəbdən də Güney Azərbaycandakı gedişləri Uluyurdçuluq prinsiplərinə yönəltmək zərurəti var. Əks təqdirdə Güneydəki mübarizə Quzey Azərbaycandakı mübarizə kimi qəlibə salınacaq və insanlarımızın enerjiləri havaya sovrulacaq, kürəsəlləşmə dalğasında əriyərək milli əhəmiyyətini tamam itirəcəkdir.

Uluyurd Hərəkatı soydaşlarımızın Azadlıq sevgisini səfərbər etməli, onu şərə qarşı yönəltməklə yurdumuza qarşı ədalətin bərpasına nail olmalıdır. Bunun üçün mübarizənin mahiyyəti, hədəfi ciddi öyrədilməlidir.

Özüylə döyüşən, böyük məsuliyyəti dərk eləyən və ömrə gətirən, imtina ləyaqətinə yetən, biclikdən, bəhanələrdən təmizlənən, silahdaşlarına möhkəm bağlanan, şöhrətsevərliyi içindən silən, cərgə haqqında – "birincilik" uğrunda düşünməyən, bütün imkanlarını aşkarlayan və hərəkata həsr eləyən möhtəşəm şəxsiyyətlər yetişməlidir. ***Mübarizəyə başlamağın əsas şərti fədakarlıq və təmənnasızlıqdır.*** Şəxsdə İnam işi, İdrak işi, Mənəviyyat işi, İradə işi getməlidir. Münasibətlərin saflığı silahdaşların əsas silahıdır. Bu şəxsiyyətlərin içərisində ictimai, siyasi xadimlər böyüməlidir – dönməz, sarsılmaz, satılmaz şəxsiyyətlər. Bu cür şəxsiyyətlər xalqı Hərəkatın sağlam məramına inandıra biləcəklər. Birinci mərhələdə azlar olacaq. Ola bilsin ki, 3–5 nəfər. Amma bu, sağlam özül olacaq. Şəxsiyyətləri tanımaq, qəbul eləmək içəridən başlamalıdır. Demokratiya hamıçılığında, sürüçülüyündə şəxsiyyət yaranmır. Demokratik gedişatda mübarizəni kütlə aparır, Uluyurdçuluqda şəxsiyyətlər.

Xalqı Hərəkatın məramı ilə tanış etməklə onu maarifləndirmək gərəkdir.





Növbəti mərhələdə xalqı Hərəkata qoşmaq – çağırış. Bura qədər Hərəkatın qurucuları hakimiyyətə gəlmək, seçkilərdə iştirak etmək haqqında düşünmürlər, – enerjilərini lüzumsuz yönlərə xərcləmirlər. Bilmək gərəkdir ki, gedib kapitalist deputatların, vəzifəsevərlərin, mafiozların içərisində oturmaqla mübarizə aparmaq mümkün deyil. Bu mərhələdə dünya xalqlarının qabaqcıl düşüncəli insanları ilə paralel iş aparmaq gərəkdir. Habelə, ayrıca Türk xalqları ilə iş aparmaq – iki yöndə: həm sadə insanlarla, aydınlarla, onları məlumatlandırmaq, maarifləndirmək; həm də diplomatik yön qurmaq – dövlətlərin rəsmi nümayəndələriylə, səfirliklərlə və s.

Başqa Türk dövlətləri ilə ortaq dil, ortaq mədəniyyət, ortaq ədəbiyyat, ortaq əlifba, ortaq tarix, ortaq dərsliklər, ortaq sənəd (şəxsiyyət sənədi) yaratmağa nail olmaq. İndiyə qədər mövcud olan dəyərli əlaqələri inkişaf etdirmək. Türk dövlətləri qıraq təsirlərə uğradıqları üçün dövlət səviyyəsində bu əməlləri həyata keçirə bilmirlər. Ortaqlığı ləğv eləyən, gecikdirən səbəbləri Hərəkat ciddi araşdırıb aradan qaldırmağa çalışmalıdır.

Sonrakı mərhələdə xalqı ayağa qaldırmaq, məqsədi biryolluq həll eləmək. Bu mərhələdə Uluyurd Hərəkatında yetişmiş xadimləri hakimiyyətə gətirmək gərəkdir. Sağlam, Milli dövlətçiliyin qurulması gerçəkləşdirilməlidir…

## QANLI MUXTARİYYAT
## yaxud
## TERRORİZM AZADLIĞI

Kürdlər muxtariyyat elan etdilər. Təbiidir ki, bu olayı kürdlər özlərinin haqqı kimi, türklər bölücülük kimi dəyərləndirəcəklər. Siyasi dünya isə hər ikisinin mövqeyini demokratiyanın təzahürü hesab edəcək. Burada demokratiyanı bir qırağa qoyub ədalətli qərar vermək lazım gəlir. Əvvəla, məsələyə bəşəri humanizm baxımından yanaşanda kürdlərə mədəni muxtariyyat vermək ədalətli görünərdi. Ancaq ədalət üçün mühit yoxdursa, ədalətli addım nə dərəcədə özünü doğruldar?! Gedişat açıq göstərir ki, hər hansı muxtariyyat kürdlərin azadlığına deyil, siyasi mənafelərin bölgədə əsaslı şəkildə möhkəmlənməsinə xidmət edir. Bu səbəbdən də bu gün kürdlərə muxtariyyat tanımaq ədalətin deyil, ədalətsizliyin təsdiqidir. Orta Doğu Projesini həyata keçirən Güclərin məqsədləri bəs qədər üzdədir – Türkiyənin parçalanması planı mərhələ-mərhələ həyata keçirilir. Bölücülük addım-addım Türkiyəni təhdid edir. Hesab edirik ki, bu da Ərdoğan hakimiyyətinin "demokratik qələbəsi"nin bir cəhətidir. Son illərdə yürüdülən iç və dış siyasət Türkiyəni təhlükələrə yuvarlayır. Hakimiyyət iqtisadi gəlişmələrlə siyasi çöküşləri ört-basdır etməyə çalışır. Hərçəndi iqtisadi gəlişmə də nisbi xarakter daşıyır. Bu layihədəki uğurlar məqsədyönlü təşkil olunan prosesə bənzəyir. Ərdoğan hakimiyyətinin xarici havadarlarının yardımı da yox deyil.

Bu gün Türkiyə toplumunu Ərdoğan hakimiyyətinin 3 cəhəti aldada bilir: Birinci, vurğuladığımız kimi müəyyən iqtisadi gəlişmələr, ikinci Ərdoğanın fikrən siyasi manevrlər edə bilən oratorluğu, üçüncü ən həssas məsələlərdən birini – toplumun dini hisslərini ələ alması. Təəssüf ki, bu cür ziyankar məharəti dəf edə biləcək güclü müxalifət yoxdur. Ona görə də Türkiyənin zərərinə olan proseslər felən baş verir, Ərdoğanın reaksiyası nəzəri şüarçılıq xarakteri daşıyır. ABŞ özünün hazırladığı terrorçuların törətdiyi terror hadisəsinə görə (məlum 11 sentyabr olayı) bütünlüklə Yaxın Şərqi bir-birinə qatdı, NATO qüvvələrini də bu dağıdıcılığına cəlb elədi. Ancaq Türkiyə kürd





terrorçuluğundan illərdir ki, əziyyət çəkir, ordu hər addımda şəhid verir, NATO-nun tükü də tərpənmir. Terrorbaşılarının bir hissəsi bu yanda qan tökür, bəşəri cinayət işlədir, başqa bir kəsimi siyasi müxalifətçilik adıyla muxtariyyat elan edir. Dünyanın hər yerində müxalifət siyasi hakimiyyət uğrunda mübarizə aparır. Ancaq Türkiyədə siyasi müxalifət ölkəni bölmək üçün yaranır. Çox təzadlı bir vəziyyətdir. Ölkədə siyasi müxalifət adıyla müəyyən qüvvələr terrorizmə azadlıq tələb edirlər – "Demokratik Toplum Konqresi". Ölkəni parçalayan "Demokratik toplum".

Əminliklə demək olar ki, Türk Birliyinin bərqərar olduğu bir zamanda hər hansı muxtariyyat məsələsinə baxılması xeyli asan olar. Çünki bu halda qıraq qüvvələrin hər cür şərtlərini və müdaxilələrini dışlamaqla təhlükəni dəf eləmək mümkün olar. Qıraq qüvvələr Türkiyənin içində "azad, demokratik" düşmən hazırlayır. Perspektivdə isə bunları "Düşmən Qonşu"ya çevirəcək. İç-içə yaşayan düşmənin gücü birdirsə, "Düşmən Qonşu"nun gücü beş olacaq – ordulu, dövlətli, arxalı və əbədi bir təhlükə. Sabah bütün kürd toplumunun yağının əlində vasitə olaraq Türkiyənin düşməninə çevrilməsinin qarşısını almaq gərəkdir. Bunun üçün ayrıca kürd siyasi örgütlərinin varlığına son qoymaq vacibdir. Yalnız ümumi ölkə vətəndaşlarının təmsil olunduqları örgütlərdə siyasi mübarizəyə icazə verilməlidir. Kürdlərin tutduqları dağıdıcı mövqe bu tələbi zəruri edir. Türkiyədə çoxsaylı etniklər var. Bunların hər biri siyasi örgütlər yaradıb muxtariyyat istəsələr, Türkiyənin siyasi taleyi nə demək olar?..

*Od Ayı, 33- il.*
*(iyul, 2011).*

## DEMOKRATİYA DÜNYANI YEYƏCƏK

***ABŞ*** ağalığını təmsil eləyən demokratiyanın çağdaş dünyanın üzərinə yürüşü Totalitarizmin dirilməsi üçün zəmin hazırlayır. Bu gün bu, üzdə görünmür. Çünki demokratiya vədləri ABŞ-ı çox humanist göstərir. Yeni başlamış XXI yüzili "inqilablar yüzili"nə çevirən ABŞ dünyaya hansı fəlakətləri gətirdiyinin fərqində deyil:

**1)** ABŞ avantürasının yaratdığı dünyada ***Millilik*** bir dəyər kimi zədə götürüb. Getdikcə milliliyin önəmi azalır. Demokratiyaya çağırışların sırasında Milliliyin inkişafı dilə gətirilmir. İnsan haqları, hüquq azadlıqları, vətəndaş cəmiyyəti və b.k. anlayışlar əslində insandan sürü yaratmaq əməllərinin məzmunudur. Burada insan sırf fiziki, bioloji mövcudluq kimi götürülür. Biz heç vaxt bu gedişatda ***Mənəvi Dirçəliş*** uğrunda çağırışların, mübarizənin şahidi olmamışıq. Hər yerdə hakimiyyət uğrunda mübarizə qızışdırılır. Hətta ABŞ-ın demokrat kimi hazırlayıb hakimiyyətə gətirdiyi qüvvələrin təmsil elədikləri dövlətlərdə belə, bu tendensiya davam edir. Bu onu devirir, o bunu devirir, nəticədə ictimai həyat bütünlüklə anarxiyadan ibarət olur. Çünki insan dəyişmir, mühit üzdən dəyişir. Yalnız hakimiyyətdə yerdəyişmələr olur. Xalq bütövlükdə həşirə düşür. Xalqı birləşdirə biləcək Milli Dəyər qorunmur, inkişaf etdirilmir. Həşirlə idarə olunan sürü yaranır – ziyalı bilinmir, böyük-kiçik münasibəti hərcayiləşir.

**2)** ***Ruhaniyyatın ölümü:*** Həyat uğrunda mübarizə ***maddiyyatçılığı*** ölçüyə çevirir. Dünyanı ruhaniyyatsızlaşdırmaq onu ölümə məhkum etməkdir. Din ruhaniyyatı yaşada bilmədi. Ruhaniyyat – insanın öz mənasına bərabər yaşaması deməkdir. Dində isə insan nəinki öz mənasına bərabər yaşadı, o, öz mənasından aşağı qəbul edildi. Qərb də ruhaniyyatı dinə bərabər götürüb onu rədd elədi. İndi diktaturaya son qoymaq elanı ilə ölkələrə yürüş edib viran qoyur. Bu yürüşlər ruhaniyyatın bərqərar olmasının yollarını bağlayır. "Xalqlar azadlıq istəyir" çağırışının arxasında "xalqlar Qərbləşməlidir" niyyəti gizlənir.





Diktaturadan əziyyət çəkən xalqlar özlərinin bugünkü fəlakətlərini görürlər (içində yaşadıqları üçün), ancaq Qərbçiliyin onlara gətirəcəyi sabahkı təhlükələri hesablamırlar. Burada Əfqanıstanın və İraqın taleyini misal göstərmək olar. Minillik tarixi olan nə qədər abidələr məhv edildi. Səddamı dara çəkən Qərb Təlabani kimi antiərəb mahiyyətli birisini hakimiyyətə gətirdi. Təlabani ilə Bərzani bir bezin qırağı kimidir. İraq dövləti faktiki olaraq nisbi müstəqillik yaşayır. O, öz "Quzeyinə" nəzarət eləmir. Bu gün İraq xalqı öz içində qarşıdurma səviyyəsində yaşayır. Müharibə dönəmində koalisiya qüvvələrinin əsgərləri İraqlılar üzərində hər cür zorakılıq əməlləri həyata keçirirdi. Uzun müddət bu əməllər xəbər agentliklərinin gündəmində idi və b.k. Təəssüf ki, öz ölkələrində məzlum duruma salınmış xalqlar dərs götürmürlər, daha doğrusu, başqa çıxış yolu tapa bilmirlər...

**3)** ***Dövlətçiliyin ölümü:*** Bu gün dünyada sürətlə Milli Dövlətçiliyin ləğvi prosesi gedir. Milli Dövlətlər əvəzinə süni şəkildə Demokratik Dövlətlər quraşdırılır. Guya diktatura quruluşu aradan qaldırılır və əvəzində yaxşı quruluş yaranır. Əslində isə fərdi diktatorlar vahid diktatorla – ABŞ diktaturası ilə əvəz olunur.

Bu vaxta qədər dövlət çox məhdud səviyyədə öz funksiyalarını yerinə yetirib. Dövlət ona aid olmayan funksiyalarla yüklənib, müqəddəs vəzifələrindən məhrum edilib. Bugünkü demokratiya yürüşləri ilə bu məhrumiyyətlər daha da dərinləşir. Bəs dövlətin müqəddəs funksiyası deyəndə biz nəyi nəzərdə tuturuq?! Asif Atanın "Ruhani Dövlət" əsəri var. Orada deyilir ki, dövlətin çox az funksiyaları olmalıdır. Dövlət hər şeyə müdaxilə edəndə onun gücü azalır. Dövlətin başlıca işi azad, müstəqil fərdlərdən xalq yaratmaqdır. Azad, müstəqil fərdlər milli şüurun, milli düşüncənin daşıyıcılarıdır. Deməli, dövlət milli şüurun formalaşmasını ardıcıl şəkildə həyata keçirməlidir. Xalqın milli varlığını, milli mədəniyyətini dünyada təmsil etməlidir. Dövlət xalqı təhdid edən, milli şüuru pozuntuya uğradan hər cür yadlaşmanın qarşısını almalıdır. Demokratik dövlət bu deyilənlərin heç birini eləmək xassəsinə malik deyil...

**4)** ***Müstəqilliyin ölümü:*** Pulçuluğun hökmran olduğu dünyada heç bir dövlət idarəçiliyi insani qanunlara əsaslanmır. Bəllidir ki, hər yerdə pulçular, pullular hakimiyyətə gəlir. Hakimiyyətə gəlmək üçün pullular rəqabət aparır. Hakimiyyətə gəlmə mexanizmi antiinsani oyunlardan ibarətdir. Pulu olmayan isə bu oyuna girə bilmir. Pullular kütləyə özlərini seçdirirlər. Seçilmək üçün meydana çıxanlar pullulardır. Kütlə isə bu pulluların içərisindən birini seçməli olur. Elə görüntü yaradırlar ki, guya seçilən xalqın sevimlisidir. Xalq ona daha çox səs verib. Seçki oyunları demokratik azadlıq hesab olunur. Xalqlar bu oyuna qatılır, başqa sözlə, sürüklənir. Seçkidə xalq öz içindəkini seçmir, xalqın imkanlarını, haqqını mənimsəməklə ondan ayrılan, ona üstdən aşağı baxan pullunu, güclünü seçir. Sonra da durub həmin pulçudan, zorludan ədalət umur, səxavət gözləyir. Pulçu heç vaxt xalqın istədiyini ona verməyəcək. Xalqın istədiyini ona vermək üçün dövlətin başına milli şüura yetmiş, milli dəyərlərlə zənginləşmiş adam gəlməlidir. Bəzən hansısa milli dəyərlərin arxasında gizlənmək hələ milli şüuru təmsil eləmək deyil. Xalqı inandırmaq üçün onun milli dəyərləri ilə alver eləmək qəbahətdir.

Dövlət və millət bir-birinə bağlı məsələlərdir. ***Dövlətsiz millətin dünyada yeri olmadığı kimi, özünəməxsusluğunu itirmiş millətin dövləti də dünyada təsirsiz və gücsüz olur.*** Bu isə mənəvi və siyasi müstəqilliyin itirilməsi deməkdir. Xalqın öz dövlətinə güvənməməsi münasibətlərdə uçurum yaradır. Dövlətin xarici qüvvələrdən asılılığı sürətlənir və dövlət başında duran öz hakimiyyətini qorumaq üçün xalqın və dövlətin mənafeyinə qarşı böyük qurbanlar verməli olur. Qərb demokratiyası bütün xalqlara qarşı əslində belə bir aqibət hazırlayır. Ona görə də hər bir xalqsevər, bəşərsevər fərd düşünüb cavab tapmalıdır – demokratiya qurur, yoxsa dağıdır?! Biz öz əsaslandırmalarımıza istinad edib deyirik ki, Demokratiya dünyanı yeyəcək. Əslində yeyir də!

Qərbin demokratiya tələbləri daha çox qurbanlar əldə eləmək üçündür. Demokratiya başı-ayağı bilinməyən bir ideolojidir. Ona görə də demokratiya hər yerdə anarxiya yaradır. Demokratiya kütlənin etiraz haqqını tanıyır, ancaq bu etirazı doğru yönəltmir. Tutalım ki, kütlə





hakimiyyətə qarşı tələblər irəli sürür. Hakimiyyət elə əzazil mərhələyə gəlib çatıb ki, kütlənin tələblərini ödəmək iqtidarında olmur. Qərb də öz maraqlarından çıxış edərək həmin ölkədə narazı kütlənin arxasına keçir. Ən çox da narazı kütləni özü həşirə çəkir. Bəs kütlə nəyə nail olur?! – Bir pulçunu devirib başqa bir pulçunu – özü də Qərbin kadrı sayılan pulçunu hakimiyyətə gətirir. İki seçki dönəmində kütlə yeni pulçunun xarici qüvvələrə verdiyi qurbanların ağrısı ilə yaşayır və i.a. Ukraynada demokrat Yuşşenkonun hakimiyyətə gəlişini və gedişini misal göstərmək olar. Bəli, bu cür gedişlərdə – kənar qüvvələrin təsiri ilə həyata keçirilən seçki oyunlarının nəticəsində dövlət gücünü itirir və həmin qüvvələrin oyuncağına çevrilir. Bu gün ərəb ölkələrində gedən oyunlar da bu qəbildəndir. Xalqların narazılığına, etirazlarına kölgə salmadan vurğulamaq istəyirik ki, Qərbin fitvası və müdaxiləsi ilə vətəndaş müharibəsinə qədər gedən ərəbləri çox fəlakətli gələcək gözləyir. Bəllidir ki, ötən yüzilin 49-cu ilində ərəbləri parçalamaq və idarə eləmək üçün İsrail dövlətini Qərb yaratdı. Bu gün də İsrail dövlətinin yoxolma təhlükəsini Qərb (özəllikcə ABŞ) önləyir. Çünki Qərb, dediyimiz kimi, İsrail vasitəsilə Yaxın Şərqə nüfuz edir, enerji asılılıqlarını aradan qaldıra bilir və s.

Diktatura nə qədər xalqa qarşı olsa da, müəyyən bir siyasi sabitlik yaradır. Qərb isə guya xalqı diktatordan qorumaq üçün hərəkətə keçir və həmin xalqı demokratik inqilaba (əslində Qərbçilik inqilabına) sövq edir. Nəticədə özbaşınalıq edən diktatorları buyruqçu diktatorla əvəz edir. Xalqını talayıb milyardlarla pulu Qərb dövlətlərinin banklarına yığan diktatorlara qarşı ilk əməl, onların xarici banklardakı pullarının dondurulması (yəni bank yiyələri olan Batı dövlətlərinin mənimsəməsi) ilə başlayır. Deməli, Qərb həm on illərlə xalqların boğazından kəsilib toplanmış pulları oğurlayır, həm də özlərinin mənafeyinə xidmət göstərənləri xalqların başına çıxardır. Bununla da həmin xalqlara qarşı “humanistlik, yaxşılıq” eləmiş olur... Belə eybəcər oyunları görməyən xalqlar, əlbəttə, öz gələcəyini qura bilməz. Məgər azadlıq təkcə etiraz eləməkdənmi ibarətdir?! Əgər bu etirazlar vasitəsilə xalqlar oyuncağa çevrilirsə, onun nəyi azadlıq olur ki?!

Ona görə də hesab edirik ki, xalqlar öz haqlarını diktatorlara vermək istəmədikləri kimi, xaricilərə də verməməlidirlər. Çünki xaricilərin, dediyimiz kimi, vicdanı, humanizmi yoxdur, ağalıq və talançılıq əməli var. Biz anlayırıq, kütlənin təşkilatlanması və öz başında duran azğınlığa qarşı döyüşməsi olduqca çətin bir məsələdir. Ancaq nə qədər çətin olsa da, xaricilərin təhriki ilə siyasi inqilablar eləmək deyil, Milli Azadlıq Hərəkatları başlamalıdır. Sağlam, müstəqil milli dövlət qurulmalıdır.

Liviyada Qəddafi kimi müstəbidin devrilməsi Milli Azadlıq Hərəkatı nəticəsində baş tutsaydı, xalqın xeyrinə olardı. Ancaq Qərbin onu devirməsi xalqın xeyrinə olmayacaq. Bu, Liviya xalqına çox baha başa gələcək. Qəddafinin öz xalqına qarşı azğınlaşmasında Qərbin xüsusi rolu var. Qəddafi yaxşı bilirdi ki, onun geriyə yolu yoxdur, Qərb onu edam elətdirəcək...

Qərbin əliylə öz içinə başı qarışan ərəblər bu xaosdan uzun illər çıxa bilməyəcək. Bir-birinin ardınca bütün ərəb dövlətlərində bu proses gedəcək. Qərbin dünyaya qarşı başladığı siyasi terrora qapı açan, onu müdafiə edən qüvvələr müxalifət adı daşımaqda səhv edirlər. Papağı qarşıya qoyub düşünmək vaxtıdır.

*24 Çiçək Ayı, 33- il.*
*(aprel, 2011).*





## QLOBALLAŞMANIN QLOBAL DAĞIDICILIĞI

Acınacaqlıdır. Siyasi dünya vəhşi cəngəlliyi xatırladır. İnsan öz növündən olanlar arasında xoşbəxtlik haqqında düşünə bilmir. Güvəniləsi heç nə qalmayıb. Harda yaxşı bir münasibət, proses baş qaldırır, dərhal onun üstünə yeriyirlər və heçə çevirirlər. Sanki öhdəlik götürülüb, – ümidverici heç nə olmamalıdır. Elmi-texniki inkişafın həyata gətirdiyi ab-hava budur. Bu inkişaf maddi üstünlük uğrunda yarışmanın meyarıdır.

Belə gedişatın təzahürləri bizim ölkəmizdə daha qabarıq şəkildə özünü göstərir. Ailələrin dağılması, ailəni dolandıra bilməmək üzündən intihar hallarının çoxalması, insanların bir-birinə inamlarının itməsi, hətta öz gözlərindən düşməsi bu yarışların oluşdurduğu mühitdir. Həyat uğrunda mübarizə həyatı gözdən salır. İnsan həyatının mənasını təşkil edən nəsnələrin hamısı xurafatlaşır. Məsələn, idman, musiqi, ədəbiyyat, hətta toy-vay ənənələri və b.k. Sağlamlığın fiziki üsulu sayılan idman indi qladiator dövründə olduğu kimidir – hakim qüvvələrin əyləncə vasitəsinə çevrilib. Hələ biz bu məsələnin yetərincə siyasiləşməsini bir qırağa qoyuruq. Əgər idman təkcə sağlamlıq kimi düşünülsəydi belə, bu sənətə qoşulanların pulçuluq mühitində sağlam olacaqlarını demək çətin olardı. Çünki milli və sosial problemlərin əhatəsində sınağa çəkilən insanların ruhi və psixoloji durumları fiziki sağlamlığın əksinə yönəlir. Ruhu sağlam olmayanların fiziki sağlamlığı axıra qədər baş tutmaz. Yaxud ruhsuzun fiziki sağlamlığının milli-insani önəmi olmaz. Ancaq nəzərə alaq ki, idman inhisardadır. Bu sahədə üstünlük əldə edənlər kimlərinsə qazanc mənbəyi olduqlarından özləri də maddi imkanlar əldə edirlər. Ona görə də hakim qüvvələrin idman siyasətinə xidmət edənlərdən xüsusi vətənsevərlik gözləmək mümkün deyil. İdman elə bir təlimdir ki, onun nəzəri-ideoloji yönü hakimiyyətçiliyə bağlıdır. Hakimiyyətçiliyə xidmət isə vətənə xidmət deyil. İdmanda tək-tək adamlar tapılar ki, bu qəlibə girməsinlər.

Siyasət musiqini də xurafata çevirib. Üzümüzü Avropaya tutandan bəri ictimai həyatda ən böyük təsirə çevrilən də musiqi xurafatıdır. Hər

şey qazanc vasitəsinə çevrildiyindən məsələnin milli-insani, əxlaqi tərəfi nəzərə alınmır. Tamaşa effektli musiqilərdə ifaçının yarımçılpaq, yaxud çılpaq səhnəsi, hərcayi davranışları biznes tələbləri ilə idarə olunur. Təbii ki, belə bir geyim və davranışlarla mənalı söz də ifa eləmək mümkün deyil. Mənalı söz ifaçının hərcayi sərbəstliyinə mane olardı. Bu gedişat televiziya ekranlarında, eləcə də konsert zallarında gəncliyin tərbiyəsini məhv edir. Çağdaşlıq, yeni sivilizasiya, inkişaf etmiş mədəniyyət adı altında milli-mənəvi keyfiyyətlər sıradan çıxarılır. Özləri və himayədarları üçün pul qazanan hərcayi musiqinin aparıcıları gənclikdə qibtə hissi yaradır. Belə bir mühitin aparıcılarına rəğbət bəsləyən gənclikdə vətənsevərlik və millətsevərlik hissi ömürləri tərk edir.

Hər yerdə hərcayi musiqi münasibətlərə hökm edir. İctimai nəqliyyatlarda, dayanacaqlarda, küçələrdə… həmin musiqinin səsi qulaqları doldurur. Həşirə düşən, kütləşən beyinlərdə sağlam düşüncə yaranmır. Hərcayi musiqi gəncliyin qulağını tıxayır. İctimai həyatın pozuntularını yaradan səbəblər dərk olunmur. Əslində musiqi bolluğu siyasi idarəetmənin bir üsuludur. Ona görə də vətən ancaq zorakı üsullarla qorunur. Çünki vətən məzmunsuzlaşdırılır. Vətəni ordu sınırlardan, qıraqdan qoruyur. Orduya gedənin əksəriyyəti qürur hissindən uzaqdır. Gənclik orduya gedənə qədər milli-insani dəyərləri görmür, tanımır. Vətən bu dəyərlərlə sevilə bilər. Onu yalnız coğrafiya kimi dərk eləmək mümkün deyil.

Təəssüf ki, ədəbiyyat da ölçü tapa bilmir. Ölçüsüz ədəbiyyat xurafatlaşan ədəbiyyatdır. Belə ədəbiyyat ictimai həyatın pozuntularının səbəbləri ilə döyüşmür, onun (ictimai həyatın) yönünü izah edir. Hətta bəzən müasir gedişatdan dala qalmaqda ictimaiyyəti qınayır. Məsələn, Avropaçılığa meyilli ədəbiyyat ictimai pozuntuların səbəbini Avropa dəyərlərinə biganə qalmağımızda axtarır. Milli yönə üz tutanların böyük əksəriyyəti isə bizi ərəb-islam mədəniyyətinə biganəlikdə qınayır. Əslində bizə görə hər iki baxış millilik, hətta bəşərilik baxımından konservatik xarakter daşıyır. Başqasını yamsılamaqla milli mədəniyyət yaratmaq olmaz.

Biz "döyüşkən ədəbiyyat" ideyasının yoxluğundan bəhs edirik. Bəzi düşüncə sahibləri hesab edirlər ki, "ictimai, ideoloji mübarizə ədəbiyyatın işi deyil. Ədəbiyyat bəşəri məzmun daşımalıdır". Bu fikir və istək o vaxt özünü doğruldar ki, ictimai həyat anarxiyadan ibarət olmasın…





Xurafatlaşan ənənələr sırasında toy-vay qurallarının da adını çəkdik. Toy millətin təməl prinsipi olan ailəçiliyin başlamasının rəmzidir. Ona görə burada milli keyfiyyətlər ifadə olunmalı və təsir yaratmalıdır. Hadisə – səbəbkarları və izləyənləri tərəfindən dərk olunmalıdır. Ailə millətin var olmasının fiziki və mənəvi nizamıdır. Təəssüf ki, bu gün ailəçiliyin başlama rəmzi olan toy milli keyfiyyətlərlə deyil, restorançılıq tələbləri ilə idarə olunur. Milli dəyər sayılan toy pulçuluq tələsinə salınıb. Ona görə də həm biçim gözəlliyini itirib, həm də məzmun. Hər şey standart, bayağı. Tamada əzbərçiliyi, musiqi həşiri, rəqs sürülüyü müqəddəs bir hadisəni heçə döndərir. Həyatı bütünlüklə pulçuluq idarə edir.

Yas törənlərimiz toydan betər standartlaşıb. Mollanın vaizliyi və törənin süfrə mənasızlığı kədəri həşirə salır. Kədər yaşanılmır, yola verilir. Burada da insan tanınmır, həyat dərk olunmur. "Nə baş verir, ölüm nə deməkdir, insan kimdir, kədərin mənası nədir?!" kimi suallara əslində yas törənlərində cavab tapılmalıdır. Ancaq dediyimiz kimi, mollanın xudbinliyi, qaydaları ərəb dilində icra eləməsi, ərəblərin mifləşmiş hadisələrini və şəxsiyyətlərini mövzuya çevirməsi milli hadisəni və kədəri kölgədə buraxır.

Göründüyü kimi, XXI yüzil ötən yüzillərlə müqayisədə heç də az xurafatlaşmayıb. Biz hesab edirik ki, xurafatlaşmanın üzərinə Mənəvi-Ruhani İntibahla getmək gərəkdir. Qloballaşmanın qlobal oyunları həyatımıza ancaq dağıdıcılıq gətirir. Biz, Mütləqə İnam Ocağı, öz yolumuzun – Mütləqə İnam Ruhaniyyatının zəruriliyini getdikcə daha aydın dərk edirik. Yeni sivilizasiya müjdəsi verməyimiz həvəskarlıqdan gəlmir, insani-bəşəri ehtiyacdan doğur.

## KÜRƏSƏLLƏŞMƏDƏN ÜSTÜN

Dünyanı necə var, o cür qəbul eləmək əlacsızlıqdır. Dünyada pis mənada yeganələşən, əslində yeknəsəqləşən vahid mədəniyyət formalaşdırırlar – kürəsəlləşmə adı altında. Dünyanın bu halı ilə barışmaq beynəlmiləlçilikdir – yalançı dünya sevgisidir. Burada özünü itirmə var, yolsuzlaşma, sabahsızlaşma var. Müxtəlifliyin, özünəməxsusluğun yaratdığı insani ahəngi itirmək var. Yaxud millətini başqa xalqlara qarşı qoymaq, onun süni üstünlüyünə can atmaq, eləcə də dağıdıcı qüvvələrin cərgəsində millətinə mövqe arzulamaq antibəşərilikdir. Əslində bu, milləti özündən aşağı görmək istəyidir. Bu istəklə özlərini millətçi sayanlar millətin gələcəyini dərk eləmirlər.

Millətin daxili, ruhani imkanlarına söykənib dünyaya məna, məzmun vermək istəyi başqa bir səviyyədir. Bu, milləti özündən yüksəyə qaldırmaqdır, bəşərsevərlikdir. Bəşərin Əzəlilik daşımaq həqiqətini dərk eləyən insan millətinin ümumbəşər mahiyyətinə qovuşmasını arzulayar.

Asif Ata varlığın mahiyyəti haqqında Təlim yaradıb ortaya qoydu. Bu Təlim bizim üçün ümumbəşər mahiyyətinə qovuşmağın yollarını, ölçüsünü müəyyən edir. Bu Təlim həm ruhani bilik sistemidir, həm də milli şüurun inkişafına təsir göstərən Ruhani Dirçəliş Hərəkatının meyarıdır. Xəlqilikdən Bəşəriliyə doğru başlayan təkamül Yoludur.

Bu gün dünyada Xəlqiliyi balaca hisslərlə məhdudlaşdırmaq və xalqlarda bir-birinə qarşı nifrət halı yaratmaq gedişləri çox güclüdür. Bu gediş siyasi dünyanın rəqabət üsuludur. Xalqların mənəvi dəyərlərini aşağılamaqla ruhani ölçülərə köhnəlik damğası vurulur. Vaxtaşırı hər cür zorakılığa bəraət hazırlanır. Dağıdıcı meyillər xilaskarlıq kimi sunulur. Tərəqqini nəzarətə götürüb qəliblərə salırlar. Ağalıq istəklərinin coşdurduğu bu hal xalqların əsil, həqiqi tərəqqi yoluna düşmək istəklərinin yolunu kəsir. Xalqların öz varlığına inamı, sayğısı aradan gedir. Dünyasevərlik əvəzinə bizə "kürəsəlləşmə qəlibçilərinə" tabeçilik öyrədirlər. Bu tabeçilikdə Milli Azadlıq tələbi təsirini azaldır, Dövlət gücdən düşür.





Bəşəri sürüləşdirmək şər əməlidir. Şər niyyətlər dünyanı bürüyüb. Böyük mənada şərin niyyətləri cavabsız qalır. Bu gün şərə qarşı durmaq – özünü dünyaya qarşı qoymaq kimi görünür. Çünki kürəsəlləşdirən qüvvələr dünya hesab olunur. Onların şər əməlləri isə xilaskarlıq kimi görünür. Kürəsəlləşmə çağdaş dünyanın halına hakim kəsildiyi üçün əslində dünyasevərlik özünü dünyaya qarşı qoymaq tələb edir. Heç kim özünü dünyaya qarşı qoymaq istəmir, yəni əslində şərə qarşı qoymaq istəmir. Bunun üçün özündə güc tapmır. Yuxarıda vurğuladığımız kimi, Asif Ata özündə bu gücü tapdı. Bu güc həm Qədimliyin müqəddəs ənənələrinə söykənir, bəşəriyyətin ruhani qəhrəmanlıq tarixinin faktlarına istinad edir, həm də Böyük Gələcəyin – Əbədiliyin dərk olunması yönündə başa gətirdiyi öz Dünyabaxışına dayanır.

İnsanlığın əbədi tələbləri var. Bəşər heç vaxt bu tələblərdən axıra qədər yan keçə bilməz. Çünki bu tələblər onun varlığını qoruyan, sürüləşib məhv olmaqdan saxlayan daxili Qüdrətə bağlıdır.

## QLOBALÇILIQ OYUNU

*("Bəşərilik" Bayramındakı nitqindən)*

Bizim bayramımızın adı "Bəşərilik" olsa da, burada milli varlığımızı təsdiq eləməyə yönələn çağırışlarımız daha çoxdur. Çünki bu gün bizim üçün ən böyük bəşərilik milli varlığın qorunmasıdır. İndi yeni sivilizasiyadan dəm vuranlar Qlobalçılığa şirniklənən əhvalları körükləməklə milli əhvalların dirçəlməsinə qarşı ideoloji təsirlər hazırlayırlar və bu təsirlərin işləməsi üçün qətiyyətlə onun arxasında dururlar. Əslində bu gün ən güclü antibəşərilik Qlobalçılıqdır. Avropamərkəzçilik mühitində hazırlanan siyasi idarəetmə mexanizmi xalqların şüuruna yeridilir. "İnsan haqqı" adı altında fərdin mənəvi imkanları texniki proseslərin inkişafına tabe etdirilir. Ən yüksək texnokratik idarəetmə dünyaya ölüm gətirir. İndiki gedişlə XXI yüzili "ölüm sivilizasiyası" kimi qiymətləndirmək daha doğru olar. İnsan ağlının bütün imkanları qazanccıl, faydaçıl robot yaratmağa xərclənir. Sənayeləşən cəmiyyətdə hər kəs kompüter öyrənməyə yüyürür. Ata atalığa vaxt ayırmır; ana analığa sevinmir, övlad qayğısına vaxtı qalmır; ailənin gözəlləşməsinə, qorunmasına vaxt ayırmırlar. Pulçuluğun sənayeləşdirmək gedişləri sosializmin kolxozçuluq prinsiplərinə bəraət qazandırır. Avtomatlaşma, kompüterləşmə yarışı ardıcıl mənəviyyatsızlıq mühiti yaratmaqdadır. Dünyada gedən qlobal böhran milyonlarla insanı səfalət içinə atır. Acından ölmələr, talamalar, terrorlarda, partlayışlarda öldürülmələr, şikəst olunmalar "İnsan haqları" haqqındakı boşboğazlıqları dinləyənlərin gözləri qarşısında baş verir.

Qlobalçılıq – İnsana inamın öldüyü, gələcəyə ümidlərin qırıldığı nöqtədən başlayır.

Qlobalçılıq – ali, ruhani dəyərlərin sıradan çıxarıldığı, vəhşi ehtirasların qızışdığı, dünyagirliyin ağıllara hakim kəsildiyi nöqtədən başlayır.

Xeyirlə Şərin, həqiqətlə yalanın, namusla hərcayiliyin, vicdanla ağalığın, ədalətlə fəndgirliyin, iradə ilə özbaşınalığın, fədakarlıqla faydaçılığın, zəka ilə qanmazlığın yerini dəyişik salıb dünyanı var göstərmək istəyir Qlobalçılıq. Dünyanın məzmunu Qlobalçılıq gedişlərində fəlakətli dərəcədə təhrif olunur. Qlobalçılıq zorən





dünyalaşdırmaqdır, əslində xalqları süquta uğratmaqdır. Dünyalaşmaq – içəridən qurulmaqdır, xalqların milli, mənəvi dəyərləri ilə tanınması, bilinməsi, sevilməsi deməkdir. Bundan kənarda dünyalaşdırmaq adına atılan addımlar öldürməkdir. Qərb özünün Qlobalçılığı ilə dünyanı öldürməklə məşğuldur.

Biz, Mütləqə İnam Ocağı, işimizlə, ideyamızla, bəşəriliyə olan sevgimizlə ardıcıl Qlobalçılığa qarşıyıq.

## QƏRBÇİLİYƏ QARŞI DİRƏNİŞ HƏRƏKATI YARANMALIDIR

Əvvəllər dünyanın siyasi düzəni iki Qütb – SSRİ və Qərb arasında biçimini tapırdı. Dünyanın kapitalist və kommunist təbəqələri bir-birindən qorunmaq üçün biri o birini nəzarətdə saxlayırdı. Hər bir təbəqəni təmsil eləyən dövlətlər öz aralarında birləşirdilər. SSRİ dağılandan sonra dünyanın siyasi düzəni bir qütbdən ibarət oldu. Hər bir dövlət "yeni dünya"da öz yerini tanımağa, mövqeyini müəyyənləşdirməyə girişdi. Xalqları etnik cəhətdən qohum olan dövlətlər təbii şəkildə bir-birinə doğru dartınmağa başladı. Məsələn, slavyanlar – Rusiya, Ukrayna, Belorusiya vahid mövqe sərgiləmək istədilər. Ancaq Rusiya yenidən əhatəli gücə çevrilməsin deyə Qərb onların içərisindən demokratiya gopçusu tapdı. Yuşşenko adında "narıncı demokrat"ın həşirləri, yarana biləcək birlik ehtimalını zəiflətdi. Lap elə Belorusiyanın "dəli Kaliqulası" olan Lukaşenkonun Rusiyaya qarşı gedişlərində Qərb "cığırlarını" tapmaq mümkündür.

Qərbin demokratiya oyunları ərəblərin bir mövqedən düşünmək imkanlarını da həşirə saldı. Bəllidir ki, ərəb birliyini əbədi parçalamaq üçün "Orta Doğu layihəsi" işləyir. Nüvə bəhanəsiylə İraqı darmadağın eləmək – idarə olunan "Kürdüstan dövləti"nə yol açmaq üçün idi. Bu gün İranın təhdid olunması da, "Kürdüstan dövləti"nə yol açmaq üçündür. Nüvə bəhanəsiylə bütün dünyanı İraqa qarşı hazırladığı kimi indi də İrana qarşı hazırlayır Qərb. Güney Azərbaycan amilini də "zərərsizləşdirmək" üçün Ümumiran hərəkatı quraşdıracaq yəqin ki. Demokratik anarxiya içərisinə itələnmiş İran da "Kürdüstan dövləti"nin yaranmasına direniş göstərə bilməyəcək. İran rejimi öz avantürası ilə buna imkan da yaradır. Yəqin ki, İrandan sonra başqa bir bəhanə ilə Türkiyənin parçalanması gündəmə gələcək. Bu gün Türkiyə bundan heç nə ilə sığortalanmayıb. Addımbaşı "erməni soyqırımı" oyunlarını ortaya atmaq Türkiyənin imkanlarını məhdudlaşdırmaq və özünü müdafiə siyasətinə məcbur etməkdir. Uzun illərdir Türkiyənin "qılıq siyasəti", "güzəşt siyasəti" gözlərimizin qabağındadır.





Bu gün Ərdoğanın yürütdüyü siyasət də (xilafətə bənzər bir şey yaratmaq cəhdi) Türkiyənin Qərbin sabahkı bəhanələrinə duruş gətirə bilməməsini sürətləndirir. Blokadada olan ermənidən gərəyincə istifadə eləyə bilməyən Qərb "Kürdüstan dövləti"ni yaratmaqda israrlı görünür. Bəli, etnik cəhətdən qohum olan türk dövlətlərinin gələcək böyük Birliyinin pozulması bəri başdan tərtiblənir. Ona görə də demokratiya azarına tutulanlar ayılmalıdır. Demokratiya – Qərbin parçalayan, dağıdan, gücsüzləşdirən, hər cür normal mühiti belə, anarxiyaya çevirən bir oyunu, bir üsuludur. Öz dövlətinin gələcəyini düşünən, Türk birliyini arzulayan hər bir kəs "Qərbçiliyə direniş hərəkatı" haqqında düşünməlidir. Unutmaq olmaz ki, Qərbin "demokratik azadlıq" oyunlarına qapı açmaq – milli fəlakətlərin gəlişinə körpü olmaq deməkdir.

Hər yerdə etnik qohumluqları olan dövlətlərin birləşmə zərurətini Qərb öz demokratiya quramaları ilə əvəz edir.

...Hər addımda demokratiya həşiri, anarxiya; cəmiyyətin öz içində qütblərə parçalanması; "çoxlu müxalifət" ideyası; bir yerdə, bir arada ola bilməyənlərin maliyyələşdirilməsi və idarə olunması – budur Qərbin gücü, oyunlarının canı.

***xxx***

Misir yuxuya verilir. "Demokratik Misir" "Diktatura Misiri"ndən daha fəlakətli aqibət yaşayacaq. Çünki Misirdə milli quruluş deyil, Qərbçi quruluş yaranır. Misirin indiki durumunu 90-cı illər Azərbaycanı ilə müqayisə eləmək olar. Azərbaycanda öz həşirindən feyziyab olan toplum elə bilirdi ki, hay-həşirin içində gedib azadlıq əldə edəcək. Qısa zaman kəsiyində siyasi başbilənlər millətçilikdən əl çəkib Qərbçiliyin xidmətçisinə çevrildilər. "Hakimiyyətdə olmalıyam" deyə-deyə Qərbə ləliməkdən, boyun əyməkdən boyunları dəvənin belinə bənzədi. Cəmiyyət şirin azadlıq vədlərini dinləyə-dinləyə "yağışdan çıxıb yağmura düşdü".

İndi Misir toplumu da fərqində deyil ki, öz diktatorunun caynağından çıxıb Qərb anarxiyasının tələsinə düşür. Bağdadın taleyindən dərs götürməyən ərəbin sabahı nə olacaq?!

Sakit görünən hər yerdə, bir-birinin dalınca Qərb fırtınası qopur, qopacaq... Demokratiyanı öyənlər onu söyəcəklər. Gec olacaq, əllərinə bir şey keçməyəcək. Qızışanlar, qızışdıranlar, qarışdırılanlar

anlamalıdırlar ki, sabah onlara qarşı da qızışdırılanlar tapılacaq. Qızışdırılanların millət sevgisinə, vətən sevgisinə inanmıram. Özgələrə əbədi alət olanların fəlakətləri cəmiyyətə də, dövlətə də çox zərərlər verir, verəcək.

Sağlam mübarizə – təmənnasız millətçilikdir. Hakimiyyət hərisliyindən (hərisliklə hakimiyyəti saflaşdırmaq olmaz) dala durmayınca sabitlik yaranmaz, azadlıq baş tutmaz...

*20 Köçəri Ayı, 32-il.*
*(fevral, 2011).*





## SİYASİ MÜSTƏQİLLİK QAYĞILARI

Azərbaycan NATO-ya daxil olmaqla nə udar?! Ermənistan da NATO-ya daxil olar və Azərbaycanla "qardaşlaşar". Azərbaycan işğala uğrayan torpaqlarından əl çəkər. Necə ki, SSRİ-nin bir respublikası Azərbaycan idi, biri də Ermənistan. "Qardaşlıq" bayrağı altında Ermənistan torpaqlarımız hesabına xeyli genişləndi.

***xxx***

Azərbaycan üçün dünyəvilikdə zərərli məqamlar öyrənilməli və rədd edilməlidir. Dünyəvilik müstəqilliyin gücünü azaltmamalıdır. Milli məqamlar üstünlük təşkil etməlidir, dini gedişlər aparıcı təsirlərə çevrilməməlidir.

***xxx***

Qarabağ məsələsinə görə Azərbaycan diplomatiyası nə ciddi şəkildə ağıl işlədir, nə də güc. Beynəlxalq güclərin Azərbaycan hakimiyyəti üzərindəki təsirlərini xalqa keçilməz sədd kimi sırıyırlar. Qarabağın itirilmək təhlükəsi günbəgün böyüyür.

***xxx***

Türkiyə "Avropa Birliyi"nə can atmaqla içindəki xərçəng mərkəzlərini böyütməməlidir. Türkiyə NATO kimi birliklərdə olduğu müddətdə "dostları" onun içində kürd bölücülüyü (separatizmi) yaratdılar. Ona görə Türk dövlətlərinin birliyinə can atmaq gərəkdir. Bu Birlik baş tutmadıqca, heç bir türk dövlətinin dünyaya təsir imkanı olmayacaq.

***xxx***

Çağdaş dünyada hər şeyi vasitəyə çevirirlər. Ən gözəl dəyər də adi vasitəyə çevrilir, əgər yiyəsi yoxdursa. Sosializmi millətçilik vasitəsilə yıxdılar. Əvəzində kapitalizmi (pulçuluğu) qurdular. Əslində xeyiri şərə xidmət etdirdilər. Uca bir dəyəri həşirə saldılar. Demokratiya yalanını

qulaqlara doldurdular. Sonra Millətçiliyi gözdən salmağa girişdilər. İndi bir vaxt millətçiliyi ilə öyünənlər, onu vaxtı keçmiş sayırlar.

Ancaq onlara gərək olanda millətçiliyi bir vasitə kimi yenə gündəliyə gətirəcəklər. Bu, millətçilik dəyəri ilə oynamaqdır. Millətçilik ağalığın, yaxud ağalıq istəyənlərin arzularında deyil, millətsevərlərin könüllərində var olmalıdır.

***xxx***

Batı demokratiyasında hamıyla məşğul olurlar, heç kəsə özüylə məşğul olmaq ixtiyarı vermirlər. Dövlətlərə münasibətdə bu, özünü açıq göstərir.

Batı demokratiyası mənim qaşınmayan yerimi qaşıyır, qaşınan yerimi bilmir, özümün qaşımağıma imkan vermir.

***xxx***

Millətçiliyi damğaladılar, uçurdular. Ancaq Qlobalçılıq, beynəlmiləlçilik yürüşü heç kimə xoşbəxtlik gətirmədi. Hər bir xalq öz dövlətini qorumağa çalışır. Bu dövlətdə millət özünü ifadə eləməyəcəksə, milli varlığını qorumayacaqsa, onda dövlət nə deməkdir?! Dövlət yalnız fiziki qoruyuculuğu yerinə yetirəcəksə, onda milli dövlət anlayışı nə deməkdir?!

***xxx***

Bəşəriyyəti Avropaçılıqla gələcəyə aparmaq mümkün deyil. İndi çoxları dünyanı yeni müharibə alovlarının bürüyəcəyindən həyəcanla danışırlar. Bu, ona görədir ki, Avropa dünyanı çöküşə gətirib çıxardı. Ancaq Avropa özü səbəbi başqa yerə yozur. Guya fəlakətlərin səbəbi Şərq xalqlarının Avropalaşmaqdan geri qalmasıdır. Səbəbi yanlış göstərməklə Avropa yaratdığı fəlakətlərin ömrünü uzadır. İnsani tənəzzülü texniki tərəqqi ilə ört-basdır eləməyə çalışır.

Avropanın qapısını məğlubiyyətlər döyməkdədir. Bu gün aramla döyür, sabah aramsız döyəcək. Məğlubiyyətlər qarışqa kimi daraşacaq Batı tərəqqisinə. Batı məğlubiyyətlərlə üzləşdikcə bəşəriyyətə daha çox ziyan verməyə başlayacaq. İndi Batı ərəb-fars-türk yurdlarında PKK Kürdüstanı formalaşdırmaq istəyiylə məğlubiyyətlərdən sığortalanmağa çalışır. Batı bu addımını gerçəkləşdirsə belə, məğlubiyyətlərdən qaça





bilməyəcək. Pulçuluq demokratiyası bütün eybəcərlikləri ilə özünü göstərdi.

***xxx***

"Kim olursan ol, mənim dediyimi de, ona əməl elə. Onda səni demokrat elan edəcəyik", budur Batının məntiqi. Bizim siyasi müxalifət də Batıdan ümid gözləyə-gözləyə puç oldu. İndi yalnız qəzet müxalifəti var, o da köhnəlmiş, paslanmış, kəsərsiz.

***xxx***

Dünya ilə bu qədər əlaqələr qurulur. Ancaq Azərbaycan yenə tək qalır. Təklik onu çaşdırır. Özünü itirir və içərisinə yeni nüfuz edənlərə yenidən qapı açır. Bütün bunlar Azərbaycanın özgələşməsini sürətləndirir. Bu özgələşmə ümumtürk fəlakətinin tərkib hissəsidir.

***xxx***

Türkiyə beynəlxalq qurumların badalağından qurtula bilmir. ABŞ Türkiyəni getdikcə zəiflədir. Türkiyə elə durumdadır ki, nə ABŞ-dan qopa bilir, nə də onunla bir yerdə olub dayanıqlığını qoruya bilir. Türkiyə güclü dövlətlər arasında yeganə dövlətdir ki, birtərəfli qaydada oynadılır. Türkiyəni güclülər cərgəsində müstəqil olmağa qoymurlar. Çünki müstəqil şəkildə dünya siyasətinə həlledici təsir edə bilən Türkiyə başqa türk dövlətlərini bir araya gətirə və regiona nəzarəti ələ keçirə bilər. Söz yox, Türkiyənin təsir eləmək imkanı da var. Ancaq birinci dərəcəli təsir yox, ikinci, üçüncü dərəcəli təsir imkanı var. Böyük güclərdən hər kəsin Türkiyəyə zərbə vurmaq planı və məqamı var. Türkiyə bu zərbələrdən sarsıla bilər. Türkiyə sarsılsa, böyük güclər bir-biri ilə dil tapacaqlar. Çünki bir-birini sıxışdıran bu güclərin ən çox qorxduqları şey bölgədə meydanı Türkiyəyə verməkdir. Ona görə də Türkiyədə hakimiyyətə gətirmək üçün hər gücün öz nümayəndələri var. Ancaq Türkiyənin onların heç birində alternativ hakimiyyət qurmaq üçün nümayəndələri yoxdur.

Türkiyə sarsılsa, böyük güclər yuxarıda deyildiyi kimi, payları bölüşə biləcəklər. Məsələn, Qafqazda, Orta Doğuda, Orta Asiyada istəklər balanslaşa biləcək. Bəs böyük güclər sarsılsa necə? Türkiyənin bunu düşünməsi o vaxt inandırıcı görünər ki, beynəlxalq birliklərin bağlarını qırıb atmağa səy göstərsin...

## VAR OLMAĞIN AYILMAQ TƏLƏBİ

Bu gün Azərbaycanın siyasi məğlubiyyətlərinin əsas səbəblərindən biri odur ki, milli dirçəliş mərhələsini keçmədən irimiqyaslı siyasi proseslərə qatıldı. Millilik mənəvi-psixoloji və ideoloji cəhətdən işlənməmişdi. SSRİ-nin dağılmağa başladığı bir dönəmdə çox tələsik addımlar atılmağa başladı və burada şüarlar həlledici rol oynadı. Emosiyalar gücləndi, nəzəri-idraki hazırlıq unuduldu. Yad məqsədli qüvvələrə vəziyyətdən istifadə eləmək şansı verildi. Ermənilərin illərlə hazırladığı və məqam gözlədiyi planlarına bizdə çığırtılarla cavab verildi.

Kütlənin emosiyaları uzunömürlü təsirə malik olmur. Həm də kütlə emosional vəziyyətdə enerjisini verib geri çəkilir. Sonra hər şeyi onu idarə edənlərdən gözləyir. İdarə edənlərin isə ideoloji hazırlığı və strateji proqramı olmadığından qıraq qüvvələrin təsirinə boyun əyməli olurlar. Çox təəssüf ki, hərəkat adıyla meydana çıxanların gücləri kütlənin həşirindən başqa bir şeyə yaramadı. Kütlə ilə birgə sel kimi göründülər və tükəndilər. Özlərinin varlığı bilinmədi. AXC ən çox kütlə demək idi. Təsadüfi deyil ki, kütlə geri çəkilən kimi AXC dönüb AXCP və başqa qruplar oldu. Ümumxalq hərəkatı iddiası qrup səviyyəsinə endi. Ən çox qıraqdan təşkil olunmuş bir fəaliyyət – hegemon çəkişmələrə gərək olan işini başa çatdırdı. Məntiqlə hərəkat əvvəl fərddən, qrupdan başlayaraq böyüməli, ümumxalq səviyyəsinə yüksəlməlidir. Bunlarda tərsinə oldu. Böyük kütlə ilə başlayıb, qrup səviyyəsinə enib dayandılar. Ona görə də bunların yerişi ilə Azadlıq baş tutmadı.

Sonrakı mərhələdə özlərinə "gün ağlamaq" haqqında düşünməyə başladılar. Xalqın inamına xəyanət olundu. Bir-birini hədəfə alanlar ayrı-ayrı tullantı paylara qane oldular. Siyasi fəndgirlikdə təcrübəsi yetərli olan H.Əliyev onların dağınıq durumlarından yararlanaraq (daha doğrusu onları dağıdaraq), hakimiyyəti ələ keçirdi və sələflərinin xalqın inamına qarşı olan əməllərini yeni səviyyədə davam elətdirdi. Bu gün Azərbaycan dövləti "siyasi balanslaşdırma" oyunlarının fəlakətlərini yaşayır. Hamıya qapı açan iqtidar nəzərə almadı ki, içəri girən addım-addım qabağa gələcək, onları geri oturtmaq sonra mümkünsüz olacaq. Hər tərəfdən içəri doluşanların isə istəkləri gec-tez toqquşacaq. Azərbaycan hakimiyyətindən öz içində itələşmək – bir qrupun o birisini





yenməsi tələb olunacaq. Bu da mümkün olmayanda ziyan verməyə başlayacaqlar, necə ki, ziyan verirlər də.

Hakimiyyətin intensiv xarakter alan tələskənliyi plansızlıqdan, proqramsızlıqdan irəli gəlir. Bəli, AXC balacalaşdı, kiçildi, tükəndi. Sonucda indiki hakimiyyət uzunömürlü monarxiya yaratdı. Hakimiyyətə qarşı acıqlı olanlar iri addımlarla xaricilərə tapınmağa yönəldilər və alətə çevrildilər. İndi fəallarda ideyasızlıq, idealsızlıq hökm sürür. Bu təhlükə Güney Azərbaycanı da gözləyir. Səttarxanın faciəsi təkrar oluna bilər. Böyük qırğınlar, qurbanlar olandan sonra müstəqilliyin sükanını farsdan alıb farsa vermək ənənəsi yaranıb. Daha doğrusu, yaradıblar bizim üçün. Azərbaycanlılar isə fəlakətdən, qarışıqlıqdan dərs götürmək əvəzinə daha da çaşırlar. Çaşqınlıq vəziyyəti bir az da nizamsızlaşdırır. Quzey Azərbaycanda əsasən hakimiyyət çəkişməsi var, Güney Azərbaycanda (müəyyən say kütləsinin istəyində) istiqlal harayı. Təəssüf ki, əməllər çox dağınıqdır. Quzeydə Güneylə bağlı atılan addımlar da əsasən konyuktura xarakteri daşıyır. Səmimi olanlar barmaq saydadır. Özünü aparıcı sayan siyasi müxalifət çox pis oyunlar oynayır. Bu da ümumi fikrə yekdil qənaətin formalaşmasına zərbə vurur. Keçmiş Səhiyyə Nazirinə (Əli İnsanova) yönəlik gündəmə gətirilən əhvallar da bu qəbildən olan oyunlardır. Bunlar sübut elədilər ki, xalqa münasibətdə iqtidardan fərqləri yoxdur. Əslində onların cərgəsində olan hər bir müxalifətçi xalqa müxalif olan potensial hakimiyyətçidir (iqtidarçıdır). Eləcə də hər bir iqtidar nümayəndəsi xalqa müxalif olan potensial müxalifətçidir.

Dünən xalqı talayanlarla da birləşirlər ki, hakimiyyətdən pay qopartsınlar. Əxlaqa zidd davranışlar, çağırışlar edilir. Xalqı düşünən onun yağıları ilə qol-boyun ola bilməz. Həbsxanaya düşən nazirin düşünüb həqiqət yoluna gəlməsi iddia olunur. Həbsxanada həqiqət tapanlar özlərini həqiqət fədailəri kimi uydururlar. Gizli niyyətlərini həyata keçirmək üçün keçmiş hakimiyyətçini müdafiə etmələrinə beləcə don geydirirlər. Əgər həqiqəti həbsxanada tapmaq mümkündürsə, gərək onda siyasi müxalifətin aparıcılarının hamısı həbs olunsun. Hakimiyyətə gəlmək xatirinə illərdir ki, bunlar söz oynatmaqla məşğuldurlar. Bu qədər dəyişkənlikdən, ikiüzlülükdən niyə usanmırlar görəsən?!

Əslində içəridə gedən bu cür yaramaz oyunlar Azərbaycanın ümummilli, qlobal problemlərini həllolunmazlığa gətirib çıxarır. BMT-nin, Cenevrə konvensiyasının, ATƏT-in tələbləri ermənilər üçün işləmir

və heç bir ölçü də götürülmür, əksinə, onlara yardımlar edilir. Azərbaycan isə o qurumların qaydalarını gözləyir və onlara bel bağlayır. Çünki içindəki oyunlar milli səfərbərliyə, yekdilliyə qarşıdır.

Azərbaycan bəs qədər təhlükələrlə əhatə olunub. Türkiyə də bir ayrı səviyyədə təhlükələrlə üz-üzədir. Milli varlığımızı, siyasi müstəqilliyimizi qorumaq üçün zənnimcə, Azərbaycan və Türkiyə birgə xarici siyasət yürütmək üçün proqram hazırlamalı və hərbi ittifaq yaratmalıdırlar. Türkiyənin vurulması Azərbaycanın daha da ayaqlar altında qalması deməkdir. Azərbaycanın çökdürülməsi də Türkiyənin arxasının boş qalmasıdır. Oyunsuz Birlik bu iki qardaşı ayaqda saxlaya bilər. Əminliklə demək olar ki, bu işdə gecikmək yeni qaçılmaz problemlər ortaya çıxaracaq. Hər halda düşünmək, geniş, hərtərəfli müzakirələr aparmaq gərəkir. Bu səbəbdən də öz antibəşər əməlləri ilə daxilən çökməyə doğru gedən Batı dünyanı daha çox çalxalayır, daha çox ziyan verməyə çalışır. Yarana biləcək Türk Birliyinin qarşısını almaq üçün daha çox səy göstərir. Təhdidedici, hədələyici, həmçinin aldadıcı, şirnikdirici fəndlər düşünür. Belə məqamda Türk Dünyası üçün ayıqlığı əldən vermək, yaranan fürsəti düzgün dəyərləndirməmək növbəti tarixi fəlakət ola bilər.





## AZƏRBAYCAN TƏHLÜKƏLƏRLƏ QONŞUDUR

Qonşuluğu bacaranda onun anlamı müqəddəs bir səviyyədə dərk olunur. Bacarmayanda isə çox təhlükəli bir qənimə çevrilir. Qorxulu bir kabus kimi diqqətlərə hakim kəsilir.

Bu gün Ermənistan iblisin fitnəsi kimi rahatlığımızın yolunu kəsib. Onunla açıq meydanda döyüşmürük, qəzetlərdə, televiziyalarda söyməklə, hədələməklə özümüzə təsəlli veririk. Beləcə özümüzü elə bir gülünc duruma salırıq ki, heç kim bizi ciddi dövlət, ciddi millət hesab eləmir.

Bu sırada İran bizə, ümumiyyətlə, özünün hissəsi kimi baxır. Xalqımıza göstəriş verir, xəbərdarlıq edir. Bu həddi aşılmış münasibət bir çox mətləblərdən soraq verir. Azərbaycanın rəsmi öndərliyi, ziyalısı, alimi ciddi düşünməlidir. Azərbaycanın İranın əlavəsi olmaq təhlükəsi gündən-günə artır. Qarabağ dartışmasının müxtəlif dönəmlərində Güney Azərbaycanın başının üstündən Ermənistana hər cür yardım göstərən İran həmişə islam-müsəlman ortaqlığını Azərbaycanın gözünə soxub. "Dünya Azərbaycanlıları Konqresi"nin tədbirində Azərbaycanın dövlət başçısının "Biz 50 milyonluq Azərbaycanıq" kəlməsinə görə İran səfirliyinin hansı oyunlardan çıxması uzaq keçmişin hadisəsi deyil. Hər addımda İran öz telekanalları vasitəsilə Azərbaycan xalqının dini duyğuları ilə oynayır, onu dövlətimizin qanunlarına qarşı itaətsizliyə çağırır.

Əminliklə demək olar ki, bu cür qızışdırıcı addımları ilə İran heç də İslam peyğəmbərinə sayğı sərgiləmir. Onun başqa məqsədləri var. Avropada İslam peyğəmbərinin karikaturasını yayımlama olayları ilə bu ölkə (İran) dünyanın diqqətini özünə çəkməyə çalışdı. ABŞ-ın dünyaya ağalıq iddiasıyla başladığı yürüşdən sığortalanmaq üçün münasibətləri dini müstəviyə keçirməyə cəhd etdi. ABŞ-la münasibətinin dini qarşıdurma olduğu qənaəti formalaşdırmaqla, Güney Azərbaycanda başlayan azadlıq proseslərinin də gözardı edilməsinə çalışdı.

Burada bir haşiyə çıxmaq olar: İslam-molla rejiminin amansızlığına baxmayaraq, fars xalqının ABŞ-ın ağalıq ehtirasları ilə əzilməsini humanizmə zidd sayırıq. Yalan söhbətdir ki, ABŞ İranda sivil həyat qurmaq istəyir. ABŞ-ın dünyada qurduqları, əslində qırdıqları göz

qabağındadır. Bizə görə fars xalqının özünün də içində azadlıq mübarizəsi başlamalı və başında dayanan antiinsani rejimi rədd etməlidir. Bizim düşüncəmizə görə, bunun Güney Azərbaycanın azadlıq məsələsinə dəxli yoxdur. Güney Azərbaycanın azadlıq məsələsi ayrıca bir prosesdir və həm də ümumtürk problemidir. Bunu İran yaxşı bildiyi üçün Quzey Azərbaycan dövlətinə rahatlıq vermir, addımbaşı onun iç işlərinə qarışır. Dini qorumaq adıyla sadə insanları dövlətimizə qarşı qaldırmağa ardıcıl səylər edir.

Heç kim bu olayları telekanalın mövqeyi saymamalıdır. İran kimi əzazil bir dövlətdə ayrıca telekanalın, yaxud da mətbuatın mövqeyindən danışmaq gülüncdür. Azərbaycanda dinin indiki vəziyyət alması açıq təhlükədir. Bu, Azərbaycan xalqının imana gəlməsi demək deyil, İranın dini çevriliş etməsi üçün içimizdə güclənməsinin təzahürüdür.

İndi necə olacaq, – Azərbaycan dövləti dünyəviliyindən imtina edib İran ideologiyasınamı qulluq göstərəcək, yoxsa Azərbaycan xalqınamı? Din ictimai həyatda ruhani hadisə deyil, siyasətdir. Azərbaycanın Arazboyu bölgələri mənəvi-psixoloji cəhətdən, demək olar ki, tam İranın təsirindədir. Belə getsə, Quzey Azərbaycanın aqibətini də Güneyin aqibəti gözləyir. Azərbaycanın siyasi öndərliyi, eləcə də aydınları işin bu tərəfi ilə bağlı səslərini çıxarmır. Elə bilirlər ki, İran özbaşınalıqlarına dirəniş göstərsələr, kafir olacaqlar.

…Artıq elə bir an yetişib ki, Azərbaycan dövləti açıq şəkildə öz mövqeyini ortaya qoymalıdır. Dinə baxışını da dəqiqləşdirməlidir. Azərbaycan xalqı şiəliyin, nurçuluğun, vəhhabiçiliyin tozanağında çaşbaş duruma düşüb. Şiəliyin arxasında İran dayanıb (ən güclü təsir onun təsiridir), Nurçuluq Türkiyədən gəlir, Vəhhabiçilik Səudiyyə ərəbindən, daha doğrusu, ingilis məkrindən. Bunlar öz nüfuzları üçün Azərbaycanı dini poliqona çevirirlər. Diqqət yetirin, bu məzhəblər bir-biri ilə mübarizə aparmırlar. Əgər mübarizə aparsalar, onda məcbur olub bir-birinin gizli, siyasi niyyətlərini faş etmiş olarlar. Odur ki, rəqabəti özlərini Azərbaycan xalqına daha çox sırımaqla aparırlar. Öndə İran gedir və yuxarıda vurğuladığımız kimi, ən böyük təhlükə də məhz ondan gəlir.

Burada biz Türkiyənin adını çəkdik. Bildirmək istəyirik ki, Nurçuluq Türk xalqının mövqeyi deyil. Bunu bizə indiki Türkiyə hakimiyyəti (AKP) yeridir. Türkiyə bizim potensial gücümüzün dayağıdır. Siyasi sabahımız Türkiyə ilə bağlıdır. Lakin Türkiyə indiki





hakimiyyətinin aydın olmayan mövqeyi ucbatından bu gərəklikdən hələ xeyli uzaqdadır. Bu gedişatla biz Türk birliyinə nail ola bilmərik. O, bizə gah Batıçılıq (Qərbçilik) öyrədir, gah dinçilik. Bizimlə Türkçülük xəttində bağlaşmır. Ona görə də münasibətin qeyri-müəyyənliyindən qıraq qüvvələr istifadə edir. Azərbaycanın çətin duruma düşməsi Türkiyə üçün də təhlükələr vəd edir. Bu səbəbdən də bütün xətlərdə Türkçülüyün inkişafına meydan vermək gərəkdir. İstər dinçilik, istərsə də Batıçılıq bizi birləşdirən amil ola bilməz.

*33-il.*
*(2011).*

## AZƏRBAYCANDA DİNİ GEDİŞLƏRİ İRAN SİYASƏTİ NİZAMLAYIR

Azərbaycanın ictimai həyatında anlaşılmazlıq, müəyyənsizlik artmaqdadır. Bu, onunla bağlıdır ki, cəmiyyətdə özgəçiliyə meyil hədsiz dərəcədə güclüdür. Azərbaycan Avropa ilə elə qaynayıb-qarışır ki, özündən heç nə qalmır. Bu səviyyədə qaynayıb-qarışma məişətimizdə, ictimai həyatımızda yad mədəniyyətlərin törətdiyi fəsadlarla iz buraxır. Ailə, əxlaq, mənəvi quruculuq, xəlqi vəhdət sarsılır; başıpozuqluq, ictimai anarxiya, insana qarşı hərcayi münasibət təbiiləşir. Gəncliyin ruhu məhv olur. Belə bir mühit cəmiyyəti total dinçiliyə sürükləyir. Avropanın verdiyi vədlər-demokratiya, söz azadlığı, xoşbəxt gələcək və s. Avropamərkəzçilik siyasətinin tozanağı kimi boğucu mühitə çevrilməkdədir.

İranın mollaçılıq siyasəti bu vəziyyətdən çox bəhrələnir. Azərbaycan əhalisi arasında geniş təbliğat qurmaq imkanları əldə edir. Azərbaycan xalqının həyatındakı Din-Ateizm dairəsi Din-Demokratiya dairəsinə çevrilir. Dairələrin sərhədi gözbağlayıcılıq səviyyəsində açılıb-qapanır. Bu vəziyyətdən kapitalist dindarlar daha yaxşı istifadə edir, pulçuluğu daha da qoruyub genişləndirirlər. Əhali elə hesab edir ki, dinçiliyə meyil eləməklə onun həyatında yenilik baş verəcək. Əslində isə kor-koranəlik, kütləvilik onu kapitalist dindarların, pulçuların əlində oyuncağa, vasitəyə çevirir. Gənclik fərdiləşmir, kütləviləşir – sürüləşir, mollalaşır. Televiziyada, mətbuatda çıxış edən aydınların əksəriyyəti dinaltı mövqelərdə dayanır. Adama elə gəlir ki, Azərbaycanda ziyalılıq tükənməkdədir. Alim elmin imkanlarını dini avamlığın kölgəsinə itələyir. Ziyalı sayılan zümrənin sözündən qaranlıq yayılır.

Həqiqəti söyləməkdən qorxurlar. İstənilən təhsilli adamı ziyalı adıyla xalqa sırıyırlar. Əslində ziyalılıq risk tələb edən bir səviyyədir. Ziyalı xalqın həyatında həqiqəti, həqiqətsizliyi deməkdən çəkinməməlidir, kütləviliyə, sürüləşməyə bac verməməlidir.





Azərbaycanın ictimai həyatı VII əsrə pərçimləndikcə, dövlətçiliyimiz təhlükə ilə qarşılaşır. Vay o günə ki, dövlətimizin siyasi yönünü də İran mollaları formalaşdırsın! Azərbaycanın bölünmüşlük faktını qabartmalı olduğumuz, Güney Azərbaycanla bağlı dövlət strategiyasını müəyyən etməli olduğumuz bir vaxtda Quzey Azərbaycanı da İranın dini, siyasi harınlığına təslim etmək gedişlərinin əsası qoyulur. Bəli, Avropadan yayılan əxlaqsızlıq sindromları imkan verir ki, İran mollası özünü bizə əxlaqın yiyəsi kimi sırısın. Nəsimiyə, C.Məmmədquluzadəyə, M.Ə.Sabirə və s. molla əbası geyindirməkdən belə çəkinmirlər. Ziyalılar, alimlər susurlar. Elə bilirlər ki, demokratiya, plüralizm sözünü çox işlətməklə ictimai tərəqqi yaranacaq. Əslində isə həqiqəti demək üçün cəsarət, ziyalı ləyaqəti və milli məsuliyyət lazımdır. Yurdumuzda özgəçiliyin at oynatması bu deyilən keyfiyyətlərin olmamasından baş verir. Yüzlərlə təriqət quraşdırıb göndərirlər içimizə. Xalqı əvvəl təriqətlərlə bölüb parçalayırlar, sonra ictimai anarxiyanın qarşısını almaq adıyla dinin ətrafında, ümumən yad mənafelərə xidmət edən ideologiyaların ətrafında birliyə çağırırlar. Bu cür çağırışlar öz milli dəyərlərimizi əhaliyə çox gücsüz və gərəksiz göstərir. Bax, burada ziyalı qeyrəti, hünəri lazımdır. Ziyalısı qorxaq, hünərsiz olan xalqı zəlil durumdan heç bir qüvvə çıxara bilməz.

İnsanların sevgisini, ümidini başqa məmləkətlərə yönəltmək əməllərinə son qoyulmalıdır. Biz, Asif Atanın Mütləqə İnam Ocağı olaraq, xalqda milli, insani dəyərlər yaradırıq. Yadların ayaqları altına atılmış tarixi-milli dəyərlərimizi qaldırmaq və yaşatmaq əməllərini həyata keçiririk. Gəncliyin müəyyən hissəsi, ziyalı təbəqəsi ərəbçilik, dinçilik qaranlığını bizdən qoruyur, bizə qarşı qoyurlar. Əslində xalqımızın, yurdumuzun bölünmüşlük, parçalanmışlıq aqibəti beləcə özünə yadlaşmanın təzahürüdür. Yüzillərdir azərbaycanlılara özünü söyməyi, özgəni sevməyi öyrədirlər.

IX yüzildə "Avesta"nın qalan nüsxələrini ərəblər oda tutub yandırdılar. Eradan öncə bu əməlləri Makedoniyalı İsgəndər də eləmişdi. Çünki bu xalqı "Avesta"dan təcrid etməklə ona "Ellin" mədəniyyətini sırıyırdılar. Ərəblər də İslamı yeritmək üçün bu xalqı öz dünyabaxışın-

dan təcridetmə yolu tutdular. Hətta İblisin atəş, od rəngində verilməsi də təsadüfi deyil. Zərdüştçülüyü – atəşpərəstliyi İblislik kimi təlqin elədilər bu xalqa. Halbuki Zərdüştün odu mənəvi işıq rəmzi idi. Dünyaya işıqçılıq öyrədirdilər Ulularımız.

Bu gün də biz ərəbçilik-farsçılıq məkri ilə üz-üzə qalmışıq. Təəssüf ki, cəmiyyətin bugünkü ruhu özgəçiliyə havadarlıq səviyyəsindədir – o dərəcədə ki, ərəblərin dini imperializminə qarşı apardığı mübarizəyə görə Babəki yamanlamaqdan çəkinmirlər.

Yurdumuzun insanlarının ayılması və düşünməsi üçün bəs qədər tədqiq olunası məsələlər var. Bunun üçün ilk növbədə ziyalı qeyrəti və hünəri ayılmalıdır.





## İRANÇILIQ QƏRBDƏN BAŞLAYIB

Bu gün İranın Amerikanı, İngiltərəni yamanlaması nəyə dayanır? Məgər İranı İran eləyən, orada türk hakimiyyətinə son qoyan Amerika-İngilis birliyinin yürütdüyü siyasət deyildimi?! Bəllidir ki, İran İslam İnqilabı başlayana qədər Xomeyni Avropada idi. O, orada hazırlaşdırılıb göndərildi. Əslində son iki yüz ilin hadisələri ciddi təhlil edilsə, bəlli olar ki, Şərqdə baş verən bütün hadisələrin hazırlığı Avropada həyata keçirilmişdir. Qərbi Avropanın İranda İslamı hakimiyyətə gətirməsinin özəl səbəbləri var idi. Belə ki, SSRİ qurulduğu gündən təsir dairəsini Qərbə doğru genişləndirməkdə davam edirdi. O dövrdə iqtisadi gəlişməsinin müəyyən bir xəttini İran nefti üzərində formalaşdıran ingilislər üçün İranda şah rejimi etimadı azaldırdı. SSRİ-nin ateizm ideologiyasına qarşı yeganə direniş göstərəcək ideologiya islamçılıq ola bilərdi. Qərb İranda SSRİ-yə uduzmamaq üçün İran İslam İnqilabını həyata keçirdi. Əslində Əfqanıstanda gedən proseslər də eyni xarakterdə idi. Yəni proseslər Qərblə SSRİ-nin mövqelərinin toqquşmasından yaranan qığılcımla alovlanırdı. Ərəb ölkələrində İslam təmayüllü diktatorların oturuşmasının arxasında da Qərb dayanırdı. Nə qədər ki, SSRİ kimi nəhəng rəqib vardı, Qərb islami diktaturaların yaranıb inkişaf eləməsini təmin edirdi. Çünki SSRİ ərəb ölkələrinə də sosialist inqilabları ixrac edə bilərdi. Elə ki, Qərbin ideoloji dağıdıcılığı SSRİ-nin öz içinə də yeridi, bundan sonra Qərb ideoloji rəqibsiz qaldı. Ona görə də artıq Qərbə, daha çox özünə yarayan islami diktatorlar lazım olmadı. İndi Qərbə idarə olunan, ələbaxan "demokratik" ərəb dövlət-ləri lazımdır. "Demokratik" inqilabları öz diktaturası üçün həyata keçirir Qərb. Bu inqilabların məqsədi bölgələrdə Rusiyanın, Türkiyənin, Çinin təsirlərini heçə endirməkdir. Demokratiya – pulçuluğun yaşamasını təmin edən Qərbin ideolojisidir. "Demokratik" inqilab dünyanı tam Qərbləşdirmək (əslində eyniləşdirmək, öldürmək) üçün meydana gətirilib. Bu gün artıq "İslam İranı" da Qərbə gərək deyil. Çünki Molla Hakimiyyəti özünü güclü və müstəqil hesab elədiyinə görə gəlirini, faydasını Qərblə paylaşmaq istəmir. Qərbin onu təhdid eləməsini (daxildə özünü gizləmək üçün) ədalətsizlik və özbaşınalıq

kimi qiymətləndirir. Ancaq İranın öz içinə yönəlik davranışı daha böyük ədalətsizlik olduğuna görə Qərbin dağıdıcı mövqeyi İranın içində əzab çəkənlər üçün ədalətsizlik kimi deyil, ədalət kimi görünür. İranın vahimələnməsini öz amansızlığı yaradıb. O bilir ki, içində əzdiyi toplum ilə çölündəki "iştahlılar" birləşə bilərlər. İran öz içini şəriət qanunları ilə idarə edir, beynəlxalq aləmlə isə siyasi qanunlarla münasibət qurur. Şəriət qanunları daxildə toplumun azadlıqlarını elə səviyyədə məhdudlaşdırır ki, bu toplum Qərbin dağıdıcı gəlişinə xilas kimi baxır. "Hər nə olsa yenilik olacaq və indikindən yaxşı olacaq" məntiqi ilə düşünür İranda əzilən toplum.

Ümumiyyətlə, İran dövlətinin təməli xaricilərin istəklərinə uyğun qurulub. Ona görə də onun struktur dəyişikliklərini daim xaricilər təzələyəcəklər. İranda Qərb İranın deyil, özünün qurduğunu uçurmağa hazırlaşır…

Atamız var olsun!

*30 Yağış Ayı, 33- il*
*(noyabr, 2011)*





## BABƏKİN EDAMININ İLDÖNÜMÜ QARŞISINDA

***xxx***

Bizimkilər Avropa tərəqqisindən geridə qalmamaq üçün əsarətə pərəstiş edirlər, əslində bununla xalqın özəlliklərini məhv edirlər.

***xxx***

Bizə texniki tərəqqi verirlər – mənəvi həyatımızı şumlayıb, mənəviyyatsızlıq səpirlər.

***xxx***

Əsarətimiz genişlənməkdə, xalqımız gözünü xaricə dikib xilaskar gözləməkdə. Xilaskarlıq donunda yeni Şeyx Nəsrullahlar gəlir Yurdumuza.

***xxx***

Mirzə Cəlil 9 yaşlı Ayişələrin prototipini yaratdı Nazlıların simasında. Ağladırdı Nazlıları öz talelərinə. Bugünkü həyatımızda Nazlılar göz yaşı axıtmaq əvəzinə sevinc duyurlar. Çünki İsgəndərlər daha keflənmirlər, gülmürlər, ağlayırlar. Gülmək – qeyrəti utandırmaq üçün idi, ağlamaq – qeyrəti yatırtmaq üçün. Cəmiyyət yeni Cəlillər doğa bilmir. Çünki utandırmaq üçün qeyrət örnəyi qalmayıb.

***xxx***

Özgələrə, özgəçiliyə sədaqətimiz – özümüzə, özümlüyümüzə yağılığımız boydadır. Ona görə xaricilər bizdən razılıq edirlər. Özümüzün varlığımızı düşünən kimi "İnsan haqlarının qoruyucuları" Yurdumuza axışıb gəlirlər. Xalqımızı danlayırlar – "verdiyimiz tərəqqiyə arxa çevirməyin, nankorluq etməyin" deyirlər…

***xxx***

Bizim xəlqi keyfiyyətlərimizi öyrətmirlər, təbliğ eləmirlər. Xalq özünü tanımadan, öyrənmədən qurula bilməz. Uca keyfiyyətlərimizi tarixin arxivinə atırlar, mifləşdirirlər. Məsələn, Babəki tarixi fakt kimi anırlar, amma onun xalqımızın yenilməzlik, döyüşkənlik, yadlığa qarşı

əyilməzlik keyfiyyətinin olduğunu dilə gətirmirlər, o cür araşdırmır, öyrətmirlər.

Qədimliyə güvənəndə yeni dəyərlər də yaradıb inkişaf eləmək olur. Xəlqi özünütəsdiqin bundan doğru yolu yoxdur. İndi isə xalqa yadlar dərs keçir, yadlıq öyrədirlər. Ona görə də xalqda Azadlıq anlamına qarşı inam baş qaldırmır…

***xxx***

Şah İsmayılın qəhrəmanlığını öyrənmək, dərk eləmək də formallıqdan əziyyət çəkən müstəqilliyimizə işıq salardı…

***xxx***

Həyatla döyüşdə məğlub olanlar ən çox əsarəti seçirlər. Cəsarəti seçənlər azdır, ona görə mənəvi dünyanın qurulması çətin yeriyir. Dünyada ölməzlik qazananlar da çətin prosesə qurşananlardır. Ölməzlər mənəviyyatı təslim etməmək gələnəyi yaradırlar. Bu səbəbdən də Ali həyat eşqi, Ədalət axtarışı insan qəlbini tərk eləmir.

***xxx***

Mübarizlərə kənardan yol verəndə fəalsızlaşırlar, aldanırlar, alınırlar, ictimai mövqedən uzaqlaşırlar, "qazanırlar". Bu səbəbdən də mübarizlərin öz yolu olmalıdır, onlar öz yolları ilə getməlidirlər.

Xəlqi mənafeyə xidmət eləyəndə böyük ləyaqət təsdiq olunur.

***xxx***

Balacalar böyüklərlə ittifaqa girirlər ki, sürünsünlər.

Böyüklər balacalarla ittifaqa girirlər ki, varlansınlar.

Siyasi dünyada balacalar böyüklərin əlindən sürünürlər, böyüklər balacaların hesabına varlanıb-zorlanırlar. Böyüklərlə ittifaqda özünü yaxşı hiss edən müstəqil ola bilməz. Böyüklə balacanın ittifaqı balacanı böyüməyə qoymamaq anlamı daşıyır. Azərbaycanın siyasi əlaqələri, əməkdaşlıqları onun balaca qalmasını tənzimləyir. Ona görə bizə Milli Azadlıq mübarizəsi gərəkdir!





***xxx***

İslam inqilabı İslamı siyasətə çevirdi, onun zərərini daha da artırdı. İslam inqilabının zərərini ictimai həyatdan silmək üçün İranla döyüşmək çıxış yolu deyil, İslamla döyüşmək gərəkdir. Çünki bu gün İslamı İran siyasətindən ayırmağa cəhd – Vəhhabiçiliyi inkişaf etdirəcək.

## SİYASİ DƏRSİMİZ – ULUYURD HƏRƏKATI

Güney Azərbaycanda gedən proseslər əhvalımıza yalnız narahatlıqlar gətirir. Rahatsızlıq bir tərəfdən təbiidir. Çünki azğın bir rejimlə ideoloji cəhətdən yetişməyən və hələ nizamlı, mütəşəkkil qüvvəyə çevrilməyən bir fəaliyyətdən burada rahat olmağın adı yoxdur. Özəllikcə də buradan Güney Azərbaycan çabalarına fəal qatılmırıq, qatıla bilmirik. Başqa bir tərəfdən qüvvələrimiz hər addımda parçalanır, parçalandırılır. Vahid bir ideyanın olmaması qabağa duran fəal adamlarda fikir ayrılığının yaranmasına səbəb olur. Fikir ayrılığı isə qüvvələri bölür. (Hələ ki, bölünmələr bu millətin taleyindən yan keçmir). Bu cür bölünmələr təsirə düşmələrlə nəticələnir. Zəif düşən qüvvələri xarici qüvvələr inhisarlarına alırlar.

***xxx***

Batı-İran münasibətləri elə bir biçim alır ki, Güney Azərbaycan hərəkatının istəkləri on illər dala atıla bilər. Belə ki, Batı İranda əməliyyat keçirərsə, bu əməliyyat beynəlxalq məqsədlərə xidmət kimi formalaşdırılacaq və elə onların özləri tərəfindən haqsızlaşdırılan (dalana dirənilən) milli məsələlər tamamilə arxa plana keçiriləcək. Başqa sözlə, İran-İslam rejiminin türk millətinə (Güney Azərbaycana) qarşı həyata keçirdiyi assimilyasiya prosesi Batının mənafeyinin kölgəsində görünməz olacaq. Güney Azərbaycanın tələbləri beynəlxalq güclər üçün bir növ köhnəlib. Ona görə İrana azərbaycanlıları assimilyasiya elədiyinə görə yox, nüvə bəhanəsiylə sillə vurmaq maraqlıdır ki, Azərbaycan bu zərbədən öz payını götürə bilməsin. Güney Azərbaycanlılara yalançı, sakitləşdirici vədlər veriləcək, zahiri addımlar atılacaq, qlobal problemlərimiz həllini tapmamış qalacaq. Ona görə də Azərbaycan türklərinə verilən vədlərə uymaq doğru deyil. İran daxilində verilən vədlər heç vaxt əsaslı olaraq gerçəkləşməyəcək. O vədləri nə İran hakimiyyəti gerçəkləşdirəcək, nə də xarici qüvvələr imkan verəcək. Hər bir hegemon güc beynəlxalq nizam dediyi bir gedişatı öz mənafeyinin doğrulmasında görür. Bu isə artıq açıq siyasətdir – hər kəsə bəllidir. Hər kəsə bəlli olanı Güneyimiz nəzərə almağı bacarmalıdır.





***xxx***

Düşünürük ki, Güney Hərəkatı xarici qüvvələrin İranla bağlı niyyətlərinə qatılmamalı, onların bizə aid olmayan, hətta bizə qarşı olan niyyətlərinə vasitə olmamalıdır.

Küçə həşirləri ilə fəal, səbatlı, savadlı insanlarımızı həbslərə atdırmağa şərait yaratmamalı, qıraqdan təhrik olunan həşirlərə qoşularaq mənasız qurbanlar verməməli.

***xxx***

Ev-ev ciddi maarifçilik işi qurulmalı, ümumazərbaycan səviyyəsində Uluyurd Hərəkatı yetirilməlidir. (Bu Hərəkatın ideyaları var və konsepsiyası yazılıb. Ümumi halda mətbuatda basılmışdır). Gah bu, gah başqa görüntülərlə baş qatan, yalançı demokratiya uğrunda həşir qoparan beynəlxalq siyasətlərə söykənməklə Azərbaycanın Azadlıq mübarizəsini formalaşdıra bilmərik. O taylı, bu taylı Azərbaycanın siyasi aqibətini əvvəl düşüncələrdə, ideyalarda, sonra vahid hərəkatda birləşdirmək tələbi inkişaf etməlidir. Partiya çəkişmələri qovğası, fərdi münasibətlər qovğası ideya axtarışlarını ləğv edir, birliyin yollarını bağlayır. Tarixi fəlakətlərdən dərs götürmək ənənəsi pozuntulara uğradılır.

***xxx***

Bu gün Quzey Azərbaycan üçün (ayrı-ayrı mətbuat yazıları istisna olmaqla) Güney Azərbaycan sanki yoxdur. Bu isə onun siyasi taleyini gündən-günə mürəkkəb duruma salır. Xarici qüvvələr hər tərəfdən dərdlərimizlə oynayır. Öz dərdlərimizə xarici qüvvələrin istəyiylə, icazəsiylə yanaşırıq. Dərdlərimizi müayinə, müalicə eləmək haqqımızı xarici qüvvələrə tapşırırıq. Ona görə də qəddar siyasi tarixin möhürünü pozmaqdan qorxuruq. Bu qorxu dərdlərimizin qarşısında bizi aciz edir. Ona görədir ki, Qarabağ bizim dərdimizdir, ancaq Güney Azərbaycan sanki dərdimiz deyil. Çünki birinciyə dərdimiz kimi baxmağa BMT kimi başında azğın, zorlu güclər duran bir qurum icazə verir, ikinciyə dərdimiz deməyə icazə vermir. Tarixin istehzası başımızı aşağı edir, gözümüzü kölgəli.

***xxx***

ATƏT-in "Minsk Qrupu"nun həmsədrləri olan ABŞ və Rusiya arasında Ermənistan uğrunda mübarizə gedir. Bu mübarizə Qarabağ

probleminin həllini dayandırır. Bundan sonra da dayandıracaq. Türkiyəmiz də Ərdoğan siyasətinin nəticəsində bu mübarizəyə qoşulmaqla Batının dəyirmanına su tökdü.

Bizə görə bu məqamda Azərbaycan Rusiyanın yanına yüyürməli deyildi, müstəqil addımlar ataraq siyasi çaşqınlıq yaratmalı idi. Yəni Qarabağı alver predmetinə çevirən oyunbazları fakt qarşısında qoymalı idi. Ən azı ATƏT-in "Minsk Qrupu"ndan imtina etməyi bəyan eləməli idi.

Bu cürət tarixi şəxsiyyət istəyir.

***xxx***

Deyirlər, Qarabağ problemində hər kəsi qane edəcək biçim tapılmalıdır. Bunun üçün çeşid-çeşid paketlər bükürlər. Heç kim demir ki, siyasi mənada hamını qane edəcək mexanizm yoxdur və olmayacaq. Əgər olacaqdısa, onda siyasətin adı siyasət yox, başqa şey olmalıdır. Deyək ki, Ruhaniyyat olmalıdır, ən zəif halda humanizm. Çünki siyasət – özünü qaldırmaq, başqasını yıxmaqdır. Ruhaniyyat – hər kəsin haqqını tanımaqdır.

***xxx***

Ədalət ABŞ-ın, yaxud deyək ki, Rusiyanın güclü olmamasını tələb edir. Çünki bu güclülük başqalarını ayaqlamaqla əmələ gəlib. Öz içinə söykənməklə deyil, başqasının içinə əl qatmaqla əmələ gətirilən güc o vaxt sına bilər ki, qarşısındakı onun, yaxud o biri gücün siyasi səxavətinə deyil, öz içinə dayansın. Özəllikcə dağılmış, döyülmüş, parçalanmış bir toplum öz içini qurmağa nail olmasa, əli ətəklərdə qalacaq. Bu hal isə topluma daim fəlakətli aqibət vəd edir. Güney Azərbaycanımızın da aqibəti onun öz içində qurulmalıdır. O taylı, bu taylı içlərimizin Bir olmasına qədər Yol gedilməlidir...





## TÜRKÇÜLÜK VƏ GÜNEY AZƏRBAYCAN

***xxx***

Türkiyə Qarabağa görə erməni ilə sərhədləri bağlamışdı. Bu, doğru mövqe idi. Çünki Qarabağda "ayağına yer eləyən" qüvvələr ermənini Qarabağın yiyəsi kimi təsdiq eləməyə çalışırlar. "Erməni haqqı" uydurmasının arxasında Qafqazı tam nəzarətə götürmək məqsədilə həmin Qüvvələr vaxtaşırı Türkiyəyə təpki göstərib erməniyə nəfəslik istəyirlər. Türkiyənin indiki hökuməti isə əvvəlki mövqenin üstündə möhkəm dayanmır. Lüzumsuz oyunlar oynayır. Guya Qafqazda strateji mövqeyini itirməmək üçün şərtləri balanslaşdırmağa çalışır. Həmin qüvvələr isə Türkiyənin geri çəkilməsi üçün "erməni soyqırımı" oyununu kəskin şəkildə ortaya gətirirlər. Deməli, əslində soyqırım söhbəti Qarabağın erməniləşməsi üçündür. Başqa sözlə, Qafqazda türk təsirinin "təmizlənməsinə" yönəlik bir addımdır.

***xxx***

Ərdoğan hərdənbir Batıya, Avropaya məğrur ismarıclar verir. Təəssüf ki, bu məğrurluğun arxasında Türk Dünyasının Birliyi, dünyaya təsir eləyəcək gücü dayanmır, Müsəlmançılıq münasibətləri üzərində qurulan oyunlar, süni şəkildə müsəlman ərəblərlə yaxınlaşmalar dayanır. Deyəsən, Ərdoğan özünü Şərqin xəlifəsi kimi görür. Türk Dünyasının birliyinin formalaşması arxa plana keçir, – mahiyyətcə gücdən düşür.

***xxx***

Bizə biri din verir, biri ateizm. Çünki biz özümüz özümüzə heç nə vermirik. Bu səbəbdən də biz bir-biri ilə mübarizə aparanların meydanına çevrilirik. Dünya bizim üçün yaxşı mənada özünüifadə meydanı olmalıydı, biz oyun meydanlarına çevrilməməliydik.

***xxx***

Bir var türkçülük mənası, bir də var türkçülük dəbi.

Dəbləşən nə varsa, təsirsizdir. Dəb aqibət deyil, ancaq Məna aqibətdir. Yəni Türkçülük aqibətimizdir.

*xxx*

Bu gün ən böyük Türkçülük Güney Azərbaycanın aqibətinə bağlıdır. Ruhani Türkçülüyn Vətəni (Zərdüşt ölkəsi, Babək ölkəsi, Nəimi ölkəsi) assimilyasiya edilir, ayaqlanır.

Türkçülük siyasi hadisə deyil, ruhani hadisədir. Ona görə də Güney Azərbaycanın aqibətini siyasiləşdirib pərdə arxasına atmaq olmaz. Orada Türkçülüyü bərqərar eləmək lazımdır.

Türkçülük ideyası Güney Azərbaycanda prinsipial xarakter daşıyıb azadlıq əldə eləməsə, "Türk Dünyası" sözündə məna və həqiqət axtarmaq anlamsızdır. Türkün öz dünyası – siyasi və ruhani dünyası yaranmalıdır ki, "Türk Dünyası" sözü özünü doğrultsun. Bu gün "Dünya türkləri" sözü daha doğru görünür.

Türkü İslam dünyasına aid eləmək – "Türk Dünyası" anlamını rədd eləməkdir. Başqa bir dünyanın içində dünya olmaq mənasızlıqdır.

Türk Dünyası – Türk Birliyi bir şeydir. O, yoxdur, qurulmalıdır. Türk Dünyası – türkün öz varlığından və mahiyyətindən gələn İnamla qurula bilər – Mütləqə İnamla. Yadlıq əsasında birlik olmur.

Bu cəhətdən Güney Azərbaycan – Türk Dünyası məzmununu izah edən bir məsələdir. Həm də Güney Azərbaycan Şərq məsələsinin açarıdır. Çünki Azərbaycanın bütövləşməsi, böyüməsi bütövlükdə dünyanın layihəsini (düzənini deyək) dəyişə bilər.

Türkçülüyün İdeya səviyyəsində doğru məna daşıması və gerçəkliyə yeriməsi Ruhani Dirçəliş tələbində baş tuta bilər.

Türkçülük ideyasının fərqli məna daşımasına çalışan qüvvələr Türkçülüyün İnam səviyyəsi ilə üz-üzə qoyulmalıdır. Türkçülük niyyətləri oyuna çevrilməməlidir...

*xxx*

Gənclik taleyini milli ruhdan başlamalıdır. Yəni Mütləqə İnamdan başlamalıdır – dindən və Avropaçılıqdan başlamamalıdır.





## İDEOLOGİYAYA ÇEVRİLƏN CƏHALƏT

Cəmiyyətdə Adamın İnsanlaşmasına inam yoxdur. Çünki cəhalət mühitində insanı dərk eləmək mümkün deyil. Cəhalət bulanıq sel kimidir. Bir yandan axıdılır ictimai həyata və bulanıq mühit yaradılır. Bu mühitdə toplum yuxulu kimi yaşayır. Mənəvi fəlakətlərin səbəbi dərk olunmur, çünki cəhalətə xilas kimi baxılır. İnsan taleyində dini və ideoloji cəhalət birləşib yeni fəlakətlər doğurur. Bunun da səbəbi odur ki, toplum alışdığı anlayışlardan qırağa çıxa bilmir. Müəyyən kəsimi dinin cənnətinə, müəyyən kəsimi də siyasətin demokratiyasına küsənir. XXI yüzildə hələ də inanırlar ki, adam yaxşı ibadət eləsə, öləndən sonra cənnətdə yaşayacaq. Siyasətin demokratiyası da dinin cənnətinə oxşayır. Hələ də inanırlar ki, demokratiya adlanan cənnət var və bu, əla bir həyatdır. Hər kəs ona əməl etsə, qurdla quzu bir yerdə otlayar. Əslində demokratiya aldadıcı ideoloji icraçılıqdır. Bir ideoloji ki, iki min ildir özünü doğrultmur, onun səadət qapısı nə vaxt açılacaqdır?! Kapitalizmin ideoloji nəzəriyyəsi olan demokratiya pulçuluğu qoruyursa, ictimai həyata necə nizam gətirə bilər?! Demokratiya üçün qan tökülür, qırğınlar olur, ölkələr parçalanır, dövlətlər sarsıdılır, tarixi dəyərlər sıradan çıxarılır. Demokratiya – görüntülər bolluğudur, vədlər yalanıdır, şüarlar elanıdır. Demokratiya azadlıq yaratmır, özbaşınalıq yaradır. Demokratiya hərcayilərin, pozucuların hüququnun təminatçısıdır. Demokratiya ilə dünyanı, ölkələri idarə edənlər hərcayiliyə mühit yaradırlar ki, insanların dili gödək olsun, pulçuluqla, pulçularla döyüşməsinlər. Demokratiyada şəxsiyyətlə pozğunun hüququ bərabərləşir. Şəxsiyyətin sözünün kəsəri olmur, yerimir. Demokratiya idarə olunan sürü yaradır.

*xxx*

Bu gün Azərbaycanda siyasi müxalifət Gürcüstana örnək kimi baxır. Bir vaxtlar Saakaşvilinin demokratik inqilabla hakimiyyətə gəlməsi qibtə hissi doğururdu, belə bir üsulla hakimiyyətə gəlməyin

növbəsini gözləyirdilər. Həsrət vardı belə bir siyasi mühitin oluşmasına. Ancaq təəssüf ki, məsələyə tam olaraq hakimiyyət istəklərindən baxılır. Yalnız üzdə olan görünür, əsasən məsələnin mahiyyətinə varılmır. Saakaşvilinin siyasi davranışlarına tamahlanmaq ciddi təhlillərin olmamasını göstərir. Əgər Saakaşvili demokratiya mədəniyyətinin örnəyidirsə, nə üçün Borçalı toponimlərinin kökünü qazıyıb məhv edən şovinistlərin əməllərini aradan qaldırmadı?! Hesab edə bilərlər ki, biz Saakaşvili demokratiyasına milli istəklərimizdən yanaşırıq. Belə düşünənlər düz edərlər. Bir millətin tarixi saxtalaşdırılıb bəşəri haqqı ayaqlanırsa, bu mühitin demokratiyası necə bəşəri humanizmə uyğun ola bilər?! Tarixi haqların məhvi üzərində dayanan ideolojidə ədalətin varlığı kimi inandıra bilər ki?! Lap götürək gürcü toplumunun öz münasibətini, ona demokratiya "rahatlığı" gətirən Saakaşviliyə niyə yox dedi?! Tutalım ki, prezident iki dəfə seçilməlidir deyə Saakaşviliyə səs verilmir. Bəs onun "demokrat komandası" niyə dışlanır?! Əslində bunu da demokratiyanın təzahürü sayırlar. Olsun! Zatən biz ona görə deyirik ki, demokratiya özbaşınalıq və anarxiyadır. Bu ideolojinin tələblərinə görə hər bir dəyər qısa ömürlüdür. Həşirə alışdırılmış kütlənin səviyyəsinə uyğundur. İnsanları mənəvi cəhətdən sarsıdır, sosial problemlərlə üz-üzə gətirir, sağlam düşüncədən məhrum edirlər. Sonra da deyirlər, hər kəsin azad seçim haqqı var. Bundan əvvəlki yazılarda da vurğu eləmişik ki, toplum gərgin problemlər içərisində yaşadığı üçün o daim yeni qüvvə axtarır. Onun sosial problemlərini həll eləyən başçı arzusu ilə seçkiyə gedir. Ancaq seçilmək üçün ortaya kimlər çıxır – milyonları olanlar. Milyonları olanlar da milyonlarını qorumaq və artırmaq üçün seçdirilirlər. Yəni toplum ya bu, ya da başqa bir milyonçuya "azad" şəkildə səs verir. Bu da olur onun seçim azadlığı. Biz yazmışdıq ki, demokratiyanın müstəqil etkisi yoxdur, bu ideoloji baxış hər zaman Quruluşa bağlı olur: – deyək ki, Quldarlıq Demokratiyası, Feodalizm Demokratiyası, Kapitalizm Demokratiyası.

Quldarlıq Demokratiyasında Quldarın hüququ olurdu, qulun hüququ olmurdu; Feodalizm Demokratiyasında feodalın hüququ olurdu, təhkimçinin hüququ olmurdu; Kapitalizm Demokratiyasında pullunun hüququ olur, pulsuzun hüququ olmur. Bu cəhətdən demokratiya gözə çəkilən pərdədir. Bu gün Gürcüstanda milyonçu İvanaşvili seçkini "udub", – bunu demokratiyanın qələbəsi sayırlar. Əgər bu məsələnin köklü mahiyyətinə üz tutsaq, ayrı-ayrı fərqli məqamlar ortaya çıxar.





Əvvəla Güney Qafqazın bu ölkəsində demokratiya kimi yaşanan bəlli dönəm gürcü toplumun istəyi və səyi ilə baş vermədi, Qərb tərəfindən quraşdırıldı. Qərbin humanist, azadlıqsevər görüntüsü yaradılmalı idi ki, bölgədə etkisini və nüfuzunu artırsın. İstəyəndə başqa postsovet respublikalarda da inqilab eləyə bilsin. Bunun üçün təbii ki, Gürcüstanı seçməli idi. Ermənistanda bunu eləyə bilməzdi, çünki Ermənistan birmənalı şəkildə Rusiyanın kuratorluğundadır. Azərbaycanda eləyə bilməzdi, çünki Azərbaycanın indiki sınırından o tərəf də Azərbaycandır – Güney Azərbaycan. Qərb sonradan özünün başağrısına çevrilən mühit yaratmaq istəməz.

Bəllidir ki, Saakaşvili Qərbdə hazırlanmış adamdır. O, hakimiyyətə gətirilməli və onun əliylə Rusiyaya dirəniş göstərilməli idi ki, Rusiya Güney Qafqazda mütləq hakimiyyətə yiyələnməsin. İndi isə Qərb İranı zərərsizləşdirməyə (əslində dünya ağalığını genişləndirməyə) hazırlaşır. Bunu Azərbaycan Respublikasına dayanıb eləyə bilməz. Çünki Güney Azərbaycanla Quzey Azərbaycanın bütövləşməsinə zəmin yarana bilər. Rusiya amilinə görə Ermənistana da dayanıb edə bilməz. Həm də İranla Ermənistanın müəyyən ilişkiləri var. Deməli, yenə Gürcüstana dayanmaq lazım gəlir. Ancaq İranı zərərsizləşdirmək üçün hardasa Rusiyanı da neytrallaşdırmaq tələb olunur. Görünən odur ki, Rusiyanın Güney Qafqazda təsirlərinə nisbətən loyal baxmaq gərəkir. Bunu isə antirusiya kimi tərtibləndirilən Saakaşvili hakimiyyəti ilə eləmək olmazdı. Çünki oyunlar tam çılpaqlana bilərdi. Ona görə də Rusiyaya loyal münasibət sərgiləyən yeni komanda gərək idi. Bu da İvanaşvilinin komandasıdır. İvanaşvili də Qərbçidir.

Beləliklə, Rusiya ilə başqa anlaşılmazlıq olmasa, Qərb bu variantın üzərində işləyəcək. Biz Gürcüstan demokratiyasının təzahürünü belə görürük. Azərbaycan siyasətində isə hər kəs Qərb tərəfindən tərtib olunan ümumi oyunların balaca oyunçularına çevrilməyə yüyürür. Milli varolmanın təminatı olan Türk Birliyi yönündə isə təəssüf ki, heç bir ciddi əməl gözə dəymir. Durum ağır, mübarizə çətindir. Geri durmaq isə ölümə bərabərdir…

*7 Yağış Ayı, 34-il*
*(noyabr, 2012)*

## MƏNA GÜCÜMÜZ MİLLİ DİRƏNİŞ ÜÇÜN ÖZÜLDÜR

Yurdumuza təzə aqibət hazırlayırlar. Bu aqibət şirin, cazibəli olmaqla modern səviyyədə bilinir. İnsanlarımız tələsirlər, yenilik havasına uçurlar. Heç kim özündə qalmaq – "geriçi" olmaq istəmir. Özgələşmə qazanı gur qaynayır, hər kəs bu qaynarda ərimək həvəsi ilə yarışır. Ayrı-ayrı vətənsevərlikdən danışanlarımız da müstəqillik elanımızın, Azərbaycan Cümhuriyyətinin yarandığı günün və b.k. yubileylərində böyük işlər görüldüyündən bəhs edirdilər. 80-ci illərin sonlarında Milli Azadlıq Hərəkatının başlamasından danışır, bugünkü həyatımıza görə məhz o tarixə borclu olduğumuzu vurğulayırlar. Sanki yurdumuzda Milli Azadlıq Hərəkatı baş tutubmuş və bu Hərəkatın məqsədi bugünkü duruma qədərmiş. Bu durum da xalqımızı bolşevik ruslaşdırmasından ayırıb liberalcasına ingilisləşdirməyə təslim etmək imiş.

Bugün xalqımız ingilisləşmə ənənəsinə uymuş, meydanlarda fəaliyyət göstərənlərimiz də zatən bu gedişi seyr etməklə, hətta əksəriyyəti təqdir eləməklə məşğuldur. İngilislər hərfən evlərimizə girirlər. Ailələrimizin bir üzvü kimi yaşamaq qərarı verirlər (kirayəçi qalırlar yox). Yalnız yataq otağı ayrı olur. Məişəti, qab-qaşığı, ünsiyyəti, tamam qaynayıb-qarışır. Zahirən humanistlik göstərib dilimizi öyrənirlər. Şirin davranırlar, yüksək mədəniyyət göstərirlər. Soydaşlarımız üçün bu gedişatın hansı məna daşıdığı önəmli deyil. Əsas odur ki, ingilislər onların pullarını verirlər, öz dillərini öyrədirlər (hesab edirlər ki, onsuz da yurdumuzda ingilisləşmə gedir), darıxmağa qoymurlar. Evdəki bəsit, yorucu güzəran gileyindən ibarət olan ab-hava şən, şux, ingilis "səmimiyyətinin" doğurduğu "qayğısız, nikbin" əhvallarla əvəz olunur. Qızlarımız qazanccıl, nikbin, faydacıl ingilis kişilərinə vurulurlar, onlarla ailə qururlar, yurdumuza yiyəlik eləmək üçün ingilis balaları doğurlar. Bütün bunları bizim modern sivilizasiyaya inteqrasiya eləməyimiz, "gerilikdən" çıxmağımız kimi alqışlayanlar var. Çağdaş mətbuatımızın yalın səhifələrini indi bu cür alqışlar doldurur. Belə getsə, anamızı ağlar qoyanlar, deyəsən, bizi yetimlikdən "çıxaracaqlar".

Dövlətimiz (yəni hakimiyyətimiz. Dövlətimiz hakimiyyətdəkilərdən başqa hansısa prinsipial təməldən ibarət deyil) isə öz "görəvini"





yerinə yetirir. Yəni körpülər tikir; şəhəriçi marşrutları gah böyüdür, gah kiçildir, gah artırır, gah azaldır; yaraşıqsız həyətləri dağıdıb yerində göydələnlər tikir. Yəni neftimizdən gələn gəlirlərmiz boşda qalmır, hamısı "işə" keçir. Beş ildə üç dəfə (prezident, parlament, bələdiyyə) seçki keçirir. Demokratiya görüntüləri düzəldir. Avropa onlara qatılmağımızı öydükcə yurdumuzu inkişaf zirvəsinə qaldırdıqlarını təbliğ edən başçılarımız fəxr edirlər. Qarabağda həyat quran, iqtisadiyyat yaradan, hərbi rejim oturuşduran erməniyə sülhçülüyümüzü qəbul etməyi tövsiyə edirlər. Təslimçilik ovqatını dərinləşdirirlər xalqın əhvalında. Miskin sülhçülük təbliğatı ilə özlərini qlobalizmin doğması kimi aparırlar. Toleyrantlıq adı altında ölkənin içəridən parçalanmasına, mollalaşmasına göz yumulur. Bu gedişin sabahını düşünmürlər.

Bu yandan Türkiyə də Azərbaycana heç bir köməklik edə bilmir. Əslində heç özünə kömək edə bilmir. Çünki məqsəd türklüyün xilası deyil, Avropanın xoşuna gəlməkdir, onun başısığallı yavrusuna çevrilməkdir. Üzdə, təbliğatda türkçülüklə bağlı nə göstərirlərsə göstərsinlər, Ərdoğan hakimiyyətinin əməllərinin məğzi budur. Türkiyə addımbaaddım fəlakətə gedir. Avropa onu sıxdıqca türklüyün təməlindən uzaqlaşır. Arvadların başına çadra salmaqla böyük iş gördüyünü düşünür Ərdoğan. Atatürkün yaratdığı sistemləri çökdürməyə girişən Avropaya gərəkli yardımçılıq edir. Bu yardımçılığın üzündəndir ki, Azərbaycanla Türkiyə arasında xəlqi yöndən, mədəni cəhətdən formalaşmaqda olan əlaqələrə, bağlılıqlara hər cür ziyan vermək istəyən qüvvələr fəallaşırlar. Azərbaycanlılar da buna həvəslə boy verirlər. Azərbaycanda fəal, dayanıqlı, ideyalı milli qüvvə yoxdur. Özgələşən, hakimiyyət dəlisinə çevrilən, dağınıq demokratik sayılan qüvvələr var. Cırtdan partiyalar yaranır, hər birinin başçısı prezident olmaq istəyir. Xalqın başını belə şeylərlə qatırlar. Milli Azadlıq Hərəkatı kimi qiymətləndirdikləri fəaliyyətin sonucu islamçılığa və Avropaçılığa gətirib çıxartdı. Türkçülük çox üzdən təsdiqini tapdı. Cəmiyyətin müəyyən zümrəsi özünə türk dedi və bununla da türkçülük həvəsi sona çatdı. Türkçülüyün əsil təməlinin nə olduğunu bilməyənlər, öyrənməyənlər, yaratmayanlar bu addan tez əl çəkdilər və "demokratlaşdılar". İndi Avropadan səxavət umurlar. Hələ ki, türkçülük ayrı-ayrı yazarların qəzet yazılarının təqdimatında var, təəssüf ki. Milliliyə arxa çevirib demokratlaşanlar Fransanın millətçiliyini, Almaniyanın millətçiliyini, İngiltərənin millətçiliyini görmürlər. Elə bilirlər Avropanın bu aparıcı

dövlətləri yalnız qlobalçılardır. Bu dövlətlər o tələbləri ki türk olaraq dövlətlərimizin qarşısında qoyurlar, özləri o tələblərlə dövlət olaraq, millət olaraq duruş gətirə bilməzdilər, yıxılardılar. Bizi millət olmağa qoymurlar, ancaq özlərinin milli təməlini qoruyurlar. İngilislərin evlərimizin içində məskunlaşmaları da bizim ailə olmağımıza, hətta millət olmağımıza qarşıdır. Onların hər biri Deyl Karnegi artistliyi ilə təlimatlanıb: – xoş üz göstərmək, şirin dillilik eləmək, tərifləmək, həvəsləndirmək və pozmaq. Bunları seyr edən və səsini çıxarmayan "Milli Azadlıq Hərəkatçıları"ndan soruşmaq istəyirəm: sizin üçün azadlıq anlayışı nə deməkdir – maddiyyatçı Avropanın tələsinə düşməkmi?! Avropalaşmaq – müqəddəslikdən əl çəkməkdir, milliliyi itirməkdir. Avropa gödəniyyətçidir, müqəddəsçi deyil, insançı deyil. İnsanı heyvana qaytarmaqla sürüləşdirəndir. Bizi məhv eləməyin bir üsulu da budur.

Biz, Mütləqə İnam Ocağı olaraq, bu gedişlərə milli-mənəvi düşüncələrimizlə, ideyalarımızla, sevgimiz və qətiyyətimizlə direniş hazırlayırıq. Gerçək gücümüzün aparıcı təsiri az olsa da, məna gücümüz tükənməzdir. Soydaşlarımız məna gücümüzə bağlanmaqla milli direniş və azadlıq hərəkatına başlaya bilərlər. Zatən biz bunun harayını çəkirik, insanlarımızı buna çağırırıq.





## MÜTLƏQ HAKİMİYYƏTÇİLİK EYBƏCƏRLİYİ

Demokratiya – hakimiyyət uğrunda mübarizə ideologiyasına çevrilib. Hamı demokratiyanı hakimiyyətə gəlmək üçün sevir. Buna görədir ki, hamı partiyalarda qruplaşır. Millətləşmə uğrunda, vətən uğrunda mübarizə aparan şəxsiyyət partiyaçılığa küsənməz, ümummilli Hərəkata başlayar. Partiyaçılıq qrup mənafeyidir, bu səbəbdən də milli istəklər üçün məhduddur. Partiyaçılıqda hədəf hakimiyyət dəyişikliyidir, milli şüur dəyişikliyi deyil. Ümummilli Hərəkatda hədəf milli şüurun inkişafı ilə dövlət yönətim qurallarının milli zəmin üzərinə keçməsini oluşdurmaqdır. Hakimiyyət dəyişikliyi yalan vədlər üzərində həyata keçirilir. Vədlər toplumu aldadaraq onun fiziki imkanlarından yararlanmaq üçündür. Hakimiyyətə gələn maddi imtiyazlar əldə etmək üçün gəlir. Maddi üstünlüyə can atan millətləşmə, vətənləşmə prosesinə əngəl olan nəsnələri aradan qaldıra bilməz. Əksinə, özünün hakimiyyətini sürdürməsi böyük məqsədə əngəl olar. Məsələn, mafioz, talançı komanda ilə Qarabağ problemini həll eləmək heç vaxt baş verməz. Hakimiyyətdə olan ətrafdakıların talançılığına göz yumar ki, onun hakimiyyətini qorusunlar. Talançılar – onlara göz yuman, imkan yaradan başçılarının hakimiyyətçiliyinin ömrünü uzatmağa çalışarlar ki, talançılıqlarının ömrü uzansın. Belə komanda özünü adətən qıraq basqılardan qorumağı daha çox düşünür. Ona görə də ölkənin siyasi mənafeyini qurban verməli olurlar. Qıraqdan basqı olmasa içərini (toplumu) susdurmaq asandır. Çünki qırağa qarşı zor işlətmək çətin olur, qırağın silahı var. İçdə toplum isə əli yalındır. Zorun qarşısında toplum geri çəkilə bilir. Çünki toplumda mübarizə dağınıqlığı və parçalanma gedişləri var. Qıraq qüvvələr də bu durumdan istifadə edib hakimiyyətə öz istədiklərini diktə edə bilirlər. Ona görə demokratiyanı yeganə dünyəvi ideologiyaya çevirirlər. Demokratiya hər kəsin qruplaşmaq "haqqını" təmin elədiyinə görə böyük milli məqsədlər ətrafında birlik baş tutmur. Qəribədir, necə olur ki, bir ölkənin vətəndaşlarını hər şeydə fərqli düşünməyə sövq edirlər, bunun adını azadlıq qoyurlar. Ancaq dövlətlərin fərqli yönətim qurallarının olmasını azadlıq kimi deyil, özbaşınalıq kimi qiymətləndirirlər. Gərək bütün dünya bir rəngdə olsun,

bütün dövlətlərin ideologiyası demokratiyadan ibarət olsun?! Demokratiyanın ağaların ideologiyası – ağalıq ideologiyası olduğu açıq görünür. Ona görə hesab edirik ki, Afina demokratiyasının dünyaya yayılması ilə Türk İnsansevərliyinin kölgələnməsi doğru deyil. Başqa sözlə, Türk İnsansevərliyinin demokratiya adlandırılması yanlışdır. Necə ki, Türk Tanrıçılığı ərəb Allahçılığı ilə əvəz olunduqdan sonra türkün həyata münasibəti, baxışı təhrif oldu. Ad dəyişib yerinə başqa ad gələndə, başqa adın məzmunu da gəlir. Özünə yadlaşma başlayır. Türkün mahiyyətindən gələn böyüklük başqalarından gələn cılızlıqla əvəz olunur. Məsələn, 30-cu illərdə Stalin rejiminin doğurduğu repressiya ulusumuzun türk adını ləğv elədikdən sonra düşdüyümüz durum bu qəbildəndir. Hələ də bu millətə öz adını tanıtmaq olmur. Sovet rejiminin dağılmasından 20 il keçsə də, toplumumuzda türk sözünə qarşı ögey münasibət davam edir. Təbii ki, indiki və bundan öncəki Azərbaycan iqtidarının türk sözünə qarşı repressiv mövqe seçməsi də bu məsələdə başlıca rol oynadı. Biz bu hakimiyyəti xalqın maddi sərvətlərini taladığına görə suçlamaqdan daha çox, milli kimliyimizə qarşı yürütdüyü siyasətdə suçlayırıq. Xalqı milli kimlikdən məhrum eləmək maddi sərvətlərdən məhrum eləməkdən daha təhlükəlidir.

Çoxları hesab edirlər ki, İqtidarın Azərbaycançılıq ideologiyası ölkəmizdə yaşayan etnik toplumları qıcıqlandırmamaq baxımından uğurludur. Ancaq biz milli fəlakətlərimizə uğur adı qoyanları heç cür anlaya bilmirik. Necə olur ki, biz özümlüyümüzdən imtina edəndə başqalarının xoşuna gəlir? Başqalarının xoşuna ədalətli, humanist münasibət demək olarmı?! Bir xalqın milli kimliyindən imtina eləməsi sülhə xidmət edirsə, onda Rusiya da özünə rus deməkdən imtina eləsin, Çin də, qeyriləri də. Əslində iqtidar bizim milli kimliyimizi inkar eləməklə hakimiyyətinin toxunulmazlığına zəmanət alır. İkincisi, biz öz adımıza qovuşub millətləşmə prosesi keçərdiksə, bizi indiki kimi əsarətdə saxlayıb idarə etmək, yurdumuzu talan eləmək mümkün olmayacaqdı. Buna görədir ki, bizi öz mahiyyətimizə yadlaşdırırlar. Ötən yüzilin 18-ci ilində erməni Azərbaycanı qan gölünə çevirmişdi (rusların və ingilislərin dəstəyi ilə). Sonra bizi Bolşevik rejimi erməni ilə barışdırdı, “qardaşlaşdırdı”. Fəlakətlərimizi unutduq, ermənin eybəcərliyini də unutduq. Nəticə nə oldu, nə aradan qalxdı?! 80-ci illərin axırlarında erməni vəhşəti daha amansız biçimdə həyatımıza qayıtmadımı?! İndi Azərbaycançılıq oyunu ilə bizim milli kimliyimizi





inkar edib ölkəmizə yiyəlik duyğumuzu ortaqlaşdıranda nə baş verir?! Guya özünü danmaqla etnikləri sakitləşdirirsən? Bizim, bir dövlət olaraq, tutduğumuz mövqedən asılı olmayaraq, burada böyük güclərin marağı var. Özünü dansan da, təsdiq eləsən də, böyük güclərin marağı təmin olunmadığı mərhələdə etnikləri sənə qarşı qaldıracaqlar. Sən öz yurduna yiyəlik eləməyəndə balaca toplumlar yiyə çıxacaq. Günlərin bir günü görəcəksən ki, idarəetmə xırda etniklərin ixtiyarına verilib, biz isə öz yurdumuzda imkansız etnik toplum durumundayıq. Məgər ötən yüzilin 18-ci ilində Azərbaycan dövlətinin yerində Ermənistan dövləti yaratmaq hədəf deyildimi? Nuru paşanın gəlişi ilə plan pozuldu. Bütün Azərbaycan ərazisində deyil, onun müəyyən bir hissəsində (Azərbaycanın batı hissəsində İrəvan, Zəngəzur, Zəngibasar, Göyçə, Qaraqoyunlu, Mehri mahallarında) Ermənistan dövləti yaratdılar.

Təbii ki, biz burada etnik toplumlara qarşı mübarizə cəbhəsinin açılması fikrindən uzağıq. Heç kimin inkarı üzərində deyil, özümüzü milli varlığımızın üzərində təsdiq eləmək fikrini irəli sürürük. Bu çağa qədər türkün kimisə zorakı assimilyasiyaya uğratdığı tarixə bəlli deyil. Hər şeyə ədalət ölçüsü ilə yanaşmaq gərəkdir…

Beləliklə, ortaya çıxan odur ki, Azərbaycanın ulusal problemlərinin həlli ümummilli Hərəkata (Uluyurd Hərəkatına) başlamaqdan keçir. Bütün sorunlarımızın həlli yolunda əngələ çevrilən talançı hakimiyyətin rədd olunmasını da məhz Milli Hərəkat həyata keçirə bilər. “Mütləq hakimiyyətçilik” bəlasının təsirləri artıq xeyli dərinə işləyib. Onunla qruplar halında savaş aparmaq heç bir nəticə verməyəcək. Vətən naminə, millət naminə fədakarlıq eləmək zamanıdır. Milli Qüvvə yaratmaq, böyük Hərəkata başlamaq gərəkdir. Vaxtı balaca iddialara qurban vermək zamanı deyil.

## ÖZÜNƏYADLAŞMANIN TARİXİ SƏBƏBİ

Azərbaycanda qeyri-milli, eləcə də antimilli təbliğatlar sürətlə işə keçir, ancaq milli təbliğatların etkisi ya yoxdur, ya da çox az hiss olunur. Bu gün toplumu özgələşməyə şirnikdirən təbliğatlar arasında yeni bir fikir də yayılmaqdadır. Son dövrlər ictimai fərdlərdən, eləcə də sadə insanlardan belə bir fikri tez-tez eşitmək olur: "İkinci dünya savaşında Bolşevik Rusiyası deyil, almanlar qalib olsaydı, Azərbaycan indi ən inkişaf etmiş ölkəyə çevrilmişdi, sosial problemlər də aradan qalxmışdı". Çox qəribə faktdır, hər kəs də buna ciddiyyətlə inanır. Ən qəribəsi də odur ki, hər kəs eşitdiyi bu fikri özünün qənaəti kimi deyir. Sanki bu fikir deyildiyi anda onun ağlına gəlib. Əlbəttə, bu hal ölkədə yaradılan ümumi halın və oturuşmaqda olan təbliğatın göstəricisidir. Şirin əsarət axtarmaq insanların qeyrətinin kəsərsizliyini göstərir. Ümumiyyətlə, əsarətdə xilas axtarmaq, inkişaf görmək, firavanlığın olacağına inanmaq iki cəhətdən düşündürücüdür: Birinci cəhət odur ki, ölkənin milli idarəetməsi tam olaraq sıradan çıxıb və insanlar ədalətin, qanunun təminatına ümid bəsləmirlər. Eyni halda ölkənin gücünə, gələcəyinə inanmırlar. İkinci cəhət də ondan ibarətdir ki, vətən və dövlət insanların gözündən düşüb. Ona görə də onlar maddi və sosial həyatın narahatlığını qıraqdan gələn təsirlərdə axtarırlar. Belə bir istəyin arxasında qlobal əsarətin oturuşa bilməsinin təhlükəsini düşünmək belə istəmirlər. Əslində bu iki cəhətin hər biri iç-içə məsələlərdir, bir-biri ilə mərhələ təşkil etmir.

Bəs səbəb nədir?! Əslində bir çox düşünərlər səbəbi birbaşa indiki hakimiyyətin yarıtmazlığında axtarırlar. Bu axtarış səhv deyil, ancaq bu axtarışla məhdudlaşmaq səhvdir. Baxın, bu hakimiyyət parçalanmış, dağılmış, cılızlaşmış bir toplumun üzərində özünəyarar idarətmə qurub və talançılıqla məşğuldur. Ancaq bizə görə toplumun özgələşməyə meylini şərtləndirən səbəblər daha dərindədir. Həm də bu səbəblər təkcə bizim toplumumuzla bağlı deyil, ümumilikdə türk toplumunun etnik mahiyyətiylə bağlıdır. Bu səbəbdən millətlə bağlı ortaya gələn fikirlərin məsuliyyəti çox böyükdür. Bunu, milləti öz gözündən salmağa çalışanların təbliğatına uyanlar da hesablamalıdır, milləti özü üçün tərifləyib mənasız arxayınçılıqlar yaradanlar da. Ancaq bu





tendensiyaların hər ikisi zərərli olsa da, bunlardan öyrəniləsi ciddi məqamlar var. Millətsevər insanlar bu cəhətlərin hər ikisini doğru təhlil edib öyrənməklə çaşqınlıqların təsirini azaltmağa qulluq göstərmiş olarlar. Gəlin, bu cəhətləri izah edən ayrı-ayrı faktları misal göstərək. Birinci cəhətin təmsilçiləri ən çox nəyə diqqət çəkirlər?! – " Bu millət içində toparlanıb birlik yarada bilmir. Bir-birini aldadır, satır, sıradan çıxarır; mənəmlik ehtirası güclüdür; öz mənafeyindən başqa heç nə görmür; başqasının hesabına varlanmaq, yüksəlmək xarakterindədir; qanunsuzluğa meyil edəndir və b.k.". İkinci cəhətin təmsilçiləri isə deyirlər ki: "Bu millət humanist, tolerant keyfiyyətlərə malikdir; qonaqsevərdir, öz evində qonağı başda oturdandır, başqa etnik toplumlara üstdən aşağı münasibət bəsləmir, əksinə, özündən üstün münasibət bəsləyir; Çox dözümlüdür, genişqəlblidir və b.k.". Əslində bu təyinatların heç biri səhv deyil. Ancaq bu deyilişlərin hər biri ayrı-ayrılıqda nədəni açılmadan sərgilənəndə, əvvəldə vurğuladığımız kimi, zərərli olur. Bu deyilişlərin arxasında duranlar ayrı-ayrılıqda özlərini haqlı sayırlar. Bununla belə, bu haqlılığın zərərləri onu deyənləri haqsızlaşdırır. Birinci fikirdəki toplumsal qüsurlar beyinlərə milləti gözdən salmaq faktı kimi yeriyir. Hətta toplumun milli mahiyyətində deyil, xarakterində oturuşmuş qüsurları qabağa verib "dəyərlərin yenidən qiymətləndirilməsi" kampaniyaları həyata keçirirlər. Bununla da milli dəyərləri gözdən salıb "əsarətin dəyərləri"ni gözə mindirirlər. İkinci münasibətdə səslənən fikirlər isə, əsasən birinci münasibətə qarşı yönəlir (ondan az iş görsə də). Təbii ki, dəyərlərin qorunması gərəkdir. Ancaq gerçəklikdə zəmini olmayan, əsaslandırılmamış fikirlər dərin iş görmür, daha çox arxayınçılığa xidmət edir. Toplumda mənasız arxayınçılıq isə milli var olmağa əngəl yaradır. Bu səbəbdən də topluma mahiyyəti və xarakteri etibarilə bütöv yanaşmaq gərəkdir.

Yəni, milli kimliyimizi doğru qiymətləndirmək üçün etnos mahiyyətimizi prinsipial cəhətdən öyrənmək tələbi çıxır qarşıya. Bu gün artıq elmi araşdırmalar da sübut edir ki, qədim Şumer mədəniyyəti türk etnosuna bağlıdır. Deməli, bəlli sivilizasiya türkün mahiyyətinin bütövlüyünü, genişliyini nişan verir. Bir sıra tarixi xalqların mədəniyyətinin formalaşmasında, inkişafında türkün özəl etkiləri olmuşdur. Çünki ilk sivilzasiya – ilk mədəniyyət, ilk dövlətçilik, ictimai quralların birgəyaşayışı təmin edən nizamları Şumerdən başlayır. Deməli, türkün bəşəri nizam yaratmaq görəvi mahiyyətindən irəli gəlir.

Özünə sığmamaq, dünyalaşmaq, dünyada insani nizam yaratmaq – türkə xas olan böyük bir şərəf yüküdür. Özlərini ari sayan, ali bilən xalqların üstün cəhətlərini kölgələmək, aşağılamaq niyyətimiz yoxdur. Əslində üstün saymalar pis deyil, toplumu öz gözündə ucaltmaq, özünə inandırmaq məqsədi güdüb. Ancaq nə yazıqlar ki, sonralar toplumu öz gözündə ucaltmaq meyilləri dünyaya ağalıq etmək istəkləri ilə əvəz olunub. Türkdə isə ən çox dünyagirlik deyil, dünyasevərlik özünü göstərir. Bu, onun inanclarında açıqca təsdiqini tapıbdır. Göytanrıçılıq, Panteizm, İşıqçılıq, Xürrəmdinlik, Hürufilik inancları ciddi tarixi faktlardır.

Bəs bu deyilənlərin səbəblə nə əlaqəsi var?! Əvvəldə dedik ki, toplumun özgəliyə meyil etməsinin səbəbi bütövlükdə türkün etnos mahiyyətiylə bağlıdır. Onu da vurğuladıq ki, türk dünyaya xilas gətirmək görəvi daşıyır. Ancaq bugünkü gerçəklik türkün özünün əsarətdə olmasına şahidlik edir. Bunun da əsas nədəni odur ki, türk böyük sivilizasiya yaratdı, böyük mədəniyyət yaratdı, böyük tarix yaratdı, ancaq yazılı tarixini, yazılı mədəniyyətini yaratmadı. Nəticədə ondan bəhrələnənlər onun özünü danmağa, kiçiltməyə girişdilər. Türkü özünə bağlayan, bir araya gətirən sistem olmadı. İdarəetmə strukturu pozuldu, özümləşmə strukturu pozuldu. Qollara bölündü, bütövlüyü dağıldı, içinə əsarət yeridi. Bu gün də özgələşməyə meyil, əslində Dünyalaşmaq qüdrətinin təhrif olunmuş təzahürüdür. Türkün dünyasevərliyi, dünyalaşması – dünyaya inteqrasiyası deyildi. Dünyaya inteqrasiya Dünyalaşmaq deyil, dünyanın içində ərimək, özgələşməkdir.

Şumer əsilliyi, yəni dünyaya mədəniyyət vermək, xilas gətirmək əməli aradan getdiyi üçün türkün özünəyadlaşma meyli güclənibdir. Türkün yaratdığı nizam bir zamanlar başqalarını özünə bənzədirdi, indi türkün bəşəri əməlsizliyi özünü özgələrə bənzədir.

Bu səbəbdən də öz içində dəyərləri tanımaq, özümləşmək, dünyaya münasibətini dəyişmək, hesab edirik ki, türkün yeni görəvi olmalıdır.





## DƏRD BÖLÜNƏNDƏ SAĞALMIR

Azərbaycan mətbuatını, eləcə də beynəlxalq informasiya şəbəkəsini izlədikdə bəzən qəribə müzakirələrin şahidi oluruq. Onlardan bəzilərinə münasibət bildirməyi önəmli hesab edirik. Məsələn, “Qarabağ problemi Güney Azərbaycanın problemidirmi, deyilmi” kimi sual qoyulur və mülahizələr irəli sürülür. Bir qisim hesab edir ki, deyil. Bunlar əsasən Güney Azərbaycanı İranın bir hissəsi kimi qəbul edib mövcud durumdan çıxış edirlər və hesab edirlər ki, İran başqa dövlət olduğuna görə Güney Azərbaycanın məsələyə müdaxilə eləmək haqqı yoxdur. Başqa bir qisim isə məhz Qarabağı deyil, ermənini Güney Azərbaycanın problemi hesab edir. Ermənilərin İranda on illər boyu yaratdıqları qarışıqlıqları, güneylilərin önəmli mərhələlərdə atmaq istədikləri addımlara göstərdikləri maneələri əsas götürürlər. Ola bilər ki, bu qisim adamlar diplomatik dildə danışaraq, dolayısıyla ermənінin hər yerdə və hər zaman “ermənilik” (ziyankarlıq) eləmələrinə diqqət çəkməyə çalışırlar. Hər nə olursa olsun, biz bu mövqelərin heç biri ilə axıra qədər razılaşmırıq. O səbəbdən ki, bu gün “Qarabağ”ın Güney Azərbaycanın problemi olduğunu nəinki çəkinə-çəkinə demək, əksinə, Güney Azərbaycanın özünü Azərbaycan Respublikasının problemi olduğunu mütləq bir qətiyyətlə ağıllara yeritmək lazımdır. Maarifçi insanlar ciddi düşünməlidirlər. Bu məsələdə diplomatik dildə danışmaq olmaz. Biz parçalanmış xalqıq, vətənimiz bölünüb. Bəs biz bunu nə vaxt deyəcəyik?! Güney Azərbaycan öz azadlığı uğrunda mücadilə edir, ayrı-ayrı yazarlar da Güney Azərbaycanı məntiqsiz məntiqlərlə İranın buxovuna pərçimləyirlər.

Erməni azğınlığına Güney Azərbaycanın da problemi “statusunu” vermək üçün tarixi təcrübələrə sığınmağa, yaxud beynəlxalq oyunların qaydalarına boyun əyməyə ehtiyac yoxdur. Güney Azərbaycanla Quzey Azərbaycanın ayrılığı heç olmasa düşüncələrdən silinməlidir. Bir millətin milli ağrısı hissələrə bölünmür, həllini tələb edir. Kim necə düşünür düşünsün, siyasət açıq danışmağı yasaq edir etsin, dəxli yoxdur. Bizim milli ayrılığımıza heç nə bəraət deyil. Güney Azərbaycanla Quzey Azərbaycan bir bədəndir. Bu bədənin bir yerini kəsərsən, hər yeri

ağrıyacaq. Heç bir siyasət, heç bir oyun bədənin bir əzasının ağrılarını ümumi bədəndən təcrid eləyə bilməz.

Ümumiyyətlə, "Qarabağ" təkcə Quzey Azərbaycanın, Güney Azərbaycanın deyil, bütövlükdə Türk Dünyasının problemidir – kimin bunu anlayıb-anlamamasından asılı olmayaraq. Çox qəribədir, Azərbaycanın Qarabağ problemini millətin bölünmüş hissəsinə – Güney Azərbaycana aid etmirlər, ancaq "Beynəlxalq Birliklər"ə aid edirlər. Nəzərə almaq lazımdır ki, ***milli problemi millət özü həll etməlidir.*** Milləti bu yöndə zaman-zaman maarifləndirib bir araya gətirmək və böyük məsələlərdə vahid gücə çevirmək lazımdır. Milli sorunu (problemi) Beynəlxalq soruna çevirəndə o, həllolunmazlığa düşür. İndiyə qədər hansı beynəlxalq sorun, yaxud beynəlxalqlaşdırılan sorun həllini tapıb ki?! Əksinə, beynəlxalq güclər millətə sorun yaradıb içərisinə girirlər ki, onun həll olunmasının qarşısını alsınlar. Çünki çağdaş dünyanı humanizm deyil, siyasi mənafelər idarə edir. Bu gün bizim, bir millət olaraq, siyasi mənafeyimiz çox zəif gücə dayanır. Güclülərlə siyasi mənafe çəkişməsinə gedə bilmirik. Böyük güclər bölgəni idarə eləmək üçün bizim kimilərini parçalanmış, bölünmüş və zəif durumda saxlayırlar.

O başqa məsələdir ki, biz öz sorunlarımızı beynəlxalq aləmə tanıtmalıyıq və dünyanı fakt qarşısında qoymalıyıq. Ancaq sorunumuzu necə olsa belə, özümüz həll etməliyik. Özümüz həll edə bilmərik deyə, onu başqa güclərə tapşırmaq lüzumsuz bir arxayınçılıqdır. Başqa sözlə, içəridən güclənməyimizi arxa plana atmaqdır. Güclər özlərinə ayaq yeri eləmək və ayaqlamaq istəyirlər, biz də deyirik ki, onlar bizim sorunumuzu çözsünlər.

Bəzən belə fikirlər də səslənir ki, eyni vaxtda özümüzü hamıya qarşı qoymayaq – deyək ki, erməniyə, farsa, rusa qarşı. Nəzərə almaq lazımdır ki, biz özümüzü heç kimə qarşı qoymuruq. Sadəcə bunların hamısı eyni vaxtda bizim üstümüzə gəlir. Biz istəsək də, istəməsək də, bunların hamısını dəf etməyi düşünməliyik. Eyni vaxtda üstümüzə gələnlərin birinə dost, birinə düşmən deməklə onları deyil, özümüzü aldadırıq. Əslində bu yarımçıq oyunla heç bir maneəni dəf edə bilmirik də. Şəri vaxtında tanımaq və vaxtında tanıtmaq lazımdır. Şər qılıqlaya-qılıqlaya gəlsə də, buynuzlaya-buynuzlaya gəlsə də, məqsədi birdir. Bizim asta tərpənməyimiz şərin vaxt qazanmasına xidmət edir. Özümüzü yormayaq, biz bu məkrliləri aldada bilməyəcəyik.





***Başqaları haqları olmayandan yapışır, biz isə haqqımızı da deməyə qorxuruqsa, daha niyə millətik?!***

Bəzən bu məsələlərdən çıxış edənləri qınayanlarımız da tapılır. Millətin adından danışmağa haqqımızın olmadığını vurğulayırlar. Çox qəribədir deyilmi?! Millətin adından danışmaq onun şəxsiyyətlərinin yox, başqalarının haqqı imiş. Millətimizin aldığı kötəklərdən ağrımaq üçün də icazə almaq gərəkmiş... Belə adamlar nə qədər zavallı, miskin durumda olduqlarının fərqinə varmırlar. Bu millətə nəyi anlatmaq istədiklərini də anlamırlar. Başqa dəyirmanların çax-çaxı kimi işləmək, yaxud "məhlulu" funksiyasını yerinə yetirmək köhnə "məsləkdir" – bizi aldatmağa lüzum yoxdur. Biz öz dərdimizi tanıyırıq. Dərdə yenilməmək üçün Xəlqi Birliyi yaradan ideyaları da tanımalıyıq...

## RUHANİ DİRÇƏLİŞ ZƏRURƏTİ

**"20** Yanvar" fəlakətinin 21-ci ildönümünü qarşıladıq. Ancaq təəssüf ki, fəlakətin ağrısı canımızdan çıxıb. Dərs götürmədik, dərs götürmürük. Sadəcə bəzənirik – "Xiyaban"ımızdan tutmuş sözlərimizə, tədbirlərimizə, ziyarətimizə qədər hamısını bəzəyirik. Hər yan bəzək, hər yer bəzək. Metromuzu bəzəyirik, bəzədilmiş musiqilər səsləndiririk.

İçəridən və dışarıdan gözə görünməyən əllər Ruhumuza, Yurdumuza fəlakətlər yağdırır. Sonra fəlakətlərimizi bəzəmək öyrədirlər bizə. Şəhid edirlər Ruhumuzu, Yurdumuzu. Şəhidlik "yazıblar" alnımıza. Şəhidliyimizin nəticəsi doğrulmur sanki. Şəhidliyimiz xalqımıza azadlıq, firavanlıq verməliydi. Ancaq nəsillərimizdə ümidsizlik yarandı, gözüqıpıqlıq, qorxaqlıq qaldı.

21 ildir tədbirlər seriyası düzənlənir, gurultulu çıxışlar sərgilənir, müsabiqəyə qoşulmaq üçün yazılar düşünülür, xatirələr danışılır, boynumuzu bükük göstərən fotolar nümayiş etdirilir. "Xalqımız qəhrəman xalqdır, ölməyi bacarır" (yaşamağı da bacaraydı kaş), "Şəhidlərin qanı yerdə qalmayacaq" kimi şüarlar da təsəllimizi əks etdirir. Azərbaycan başdan-başa "Şəhidlər Xiyabanları"ndan ibarətdir. Bəzədilmiş məzarıstana çevrilib Yurdumuz. Görəsən "Şəhidlərimizin qanı yerdə qalmayacaq" nə deməkdir, bizimkilər ruslarımı qıracaq, Qorbaçovumu öldürəcəklər?! Axı bizim "İqtidar"ımız elan edir ki, Azərbaycanın Rusiya ilə heç bir problemi yoxdur. Normal əlaqələr, normal münasibətlər qurulub. Bəlkə Rusiya bizi qandırır ki, Azərbaycanda qətl törədən SSRİ idi. Azərbaycanlılar – qırılanlar, qıranlar da SSRİ-nin içində idilər. Daha biz Şəhidlərimizə görə kimi hədələməliyik?!

Yaxşı başqatmalardır. Siyasət çox qəribə biçimdə cahilləşdirir cəmiyyəti. Siyasətin cəhaləti dinin cəhalətindən daha betər olub. Dinin yalanlarına heç kim yalan demir. Dini uydurmaları hamı doğru sayır. Ancaq siyasətin yalanlarını əksəriyyət doğru saymır, ancaq barışır, susur, dözür. Çünki cəhalət ürəkləri təpərsizləşdirib, qeyrətləri kəsərsizləşdirib.





***xxx***

Din demişkən, cəmiyyət illərin və illərdə ayların əhvalına "Məhərrəmlik" adında "qara günlər" bağlayır. İmam Hüseynə yas günü keçirir. Kütlə bəlli yerlərə toparlanır, emosiyalar qızışır, lənətlər oxunur, hədələr yağdırılır. Bütün davranışlar, bağırtılar hamısı hədə jestləridir. Bəs bu hədələr kimə qarşı yönəlir?! İmam Hüseynin 50 arxadönənindən bir kimsəsi Azərbaycanda yox. Eləcə də Yəzid ibn Müaviyənin 51 arxadönənindən bir kimsəsi hədəçilərə bəlli deyil. Sadəcə Azərbaycanda özlərini İmam Hüseynin tərəfdarları sayanlar var və özlərini Yəzidin tərəfdarı saymasalar da, sünni tərəfdarı sayanlar var. Deməli, əslində İmam Hüseynin tərəfindən hiddət və nifrət yağdıranlar öz soydaşlarını, qan qardaşlarını hədəf götürürlər. Yenə gizli əllərin gizli niyyətləri görünməyə başlayır. Xalqı bir-birinə qarşı qoymaq, parçalamaq şansı qüvvədə saxlanılır. Emosiyalar soyumamalı, ehtiraslar yatmamalıdır. Burada həm də Azərbaycanla Türkiyənin arasına uzanır "Məhərrəmlik sərhədləri". "Azərbaycan şiəsi" və "Türkiyə sünnisi" – doğmaca qardaşlar arasında qorunan gizli düşmənçilik. Guya xalqımızın vahid inancı var. Ancaq bu "vahid inanc"ın bölücü siyasəti fəlakətli bir cəhalətlə təhdid edir xalqımızı. Dediyimiz kimi, Yəzidə qarşı sərgilənən nifrət əslində bu gün millətin sünni sayılan kəsiminə qarşı yönəlir, yönəldilir.

***xxx***

Müasir dünyanın yağılıqdan böyük ləyaqəti yoxdur. Hər yerdə qan-qada, hər gün nifrət. Dünya nifrət üstə təzələnir, nifrət üstə inkişaf edir. Nifrətin inkişafı, nifrətin təzələnməsi, genişlənməsi. Xalqların bir-birinə nifrəti – yadlığı, yağılığı. Bir də görürsən kütlə yığıldı, filan dövlətin bayrağını yandırdı. Bu nədir, kütlə xarici siyasətmi yürüdür?! Bəs dövlətlər nə üçündür?! Axı xarici siyasəti dövlət həll edir. Dövlətlər bir-birinə xəbərdarlıq etmək üçün kütləni etiraz etməyə çəkir, oyuna qoşur. Yəni "bizdə də demokratiyadır, xalq filan məsələyə öz etirazını bildirir". Əslində bu oyunların mahiyyəti görünəndən daha dərindədir. Xalqlararası münasibətləri gərgin saxlamaq ağalığa, pulçuluğa xidmət edir. Xalqlararası münasibət normallaşıb humanizmə əsaslanarsa, həmrəylik yaranar, ümumbəşər səviyyəsində ədalətsizliyə, ağalığa qarşı etirazlar dalğası genişlənə bilər. Xalqlar bir-birindən dərs alar, güc alar. Ancaq xalqlararası münasibətlər gərgin saxlandıqca, hər bir xalq özünü başqalarından qorumaq üçün başında duran ağalara, ağalığa dözməli

olur. Elə buna görədir ki, heç kim hesab sormur ki, bu Demokratiya bəşəriyyətə nə vəd edir, hara qədər nifrət, hara qədər anarxiya, qan-qada?!

Xalqlararası münasibətlərdə yağılıq nə vaxt aradan qalxacaq, bəşəriyyət nə vaxt nifrəti ötüb sevgi mərhələsinə başlayacaq?! Hesab edirik ki, bu sualların cavabını Asif Atanın Mütləqə İnam Dünyabaxışından almaq mümkündür...

*21 Qar Ayı, 32- il*
*(yanvar, 2011)*





## QARANLIQLAR YARILSIN!

Hakim dairələrin elan elədiyi, mətbuatın da tələm-tələsik ictimai diqqətə sunduqları siyasi və sosial-iqtisadi ümidlər özünü doğrultmadı. Belə ki, guya Qarabağı xilas etməyin yolunu "Əsrin müqaviləsi" işıqlandıracaq. Bununla bağlı hay-küy yaradan bazar açıldı. Ancaq bu bazarda zaman-zaman milli və dövləti maraqlar xırdalanıb ticari əlaqələrlə əvəz olundu. Xalqı yaşadan imkanlar asan yollarla mənimsənilməyə başlanıldı. Neftin hesabına gözqamaşdırıcı iqtisadi gəlişmələr sosial həyatda təməli qoyulan dağıntıların üzərinə pərdə kimi çəkildi. Dünyanın əsas strateji məhsulu sayılan neftin ölkəmizdən qırağa sel kimi axıdılması siyasi hünər kimi sırındı xalqımıza. Əllər pulla oynadıqca, beyinlər küt və sərxoş sevinclərlə lovğalana-lovğalana cəmiyyəti mexaniki idarə olunan mexanizm durumuna gətirdilər. Hər şey bir Tayfanın əlində cəmləndi. ***İndi tayfaçılıq milli konsepsiya kimi təbliğ olunur.*** Xalqın ictimai həyatı əvəzinə zor inkişaf etdirilir. ***Pulun və zorun demokratiyası*** ictimai həyatda siyasi anarxiyanı son həddə çatdırıb. Cəmiyyətin qulağı səsdədir, – hər an "yenilik" gözlənilir. Hakimiyyətinin müstəbidləşdiyi Azərbaycan kimi dövlətdə sabit və müqəddəs heç nə yoxdur. "Demokratik gedişatda hər şey dəyişir, dəyişməlidir" prinsipi ilə qanunların başına min cür oyunlar açılır. Hətta xalqın müdaxiləsi olmadan uzun illər sabit və toxunulmaz kimi qəbul edilən Anayasanın "qırmızı xətti"nin üstündən cızıqlamaq belə, bu məmləkətdə ən asan bir işə çevrilib. Zatən burada qəribəlik axtarmamaq da olar. Qanunçuluq sarayımız hansı milli sütunlar üzərində qurulur ki, onu uçurmaq hissi idarəçilərimizə qəbahətli və fəlakətli görünsün? Qanunlarımız çox cüzi istisnalarla əsasən ekspansiyadır (köçürmə). Milli-mənəvi dəyərlərimizdən doğulan prinsiplər deyilsə, bu qanunları kim sevəcək, qoruyacaq və nə üçün qoruyacaq?! Hansı mədəni-əxlaqi quruculuq yolu keçdik, hansı milli həmrəylik mərhələsi yaşadıq, hansı siyasi kurs üzərində oturuşduq?!

İndi hər kəs süni yaradılan "iqtisadi böhrandan" necə qurtulmağın yolları üzərində baş sındırır. Dünya çapında yekələrin bir-birinə qarşı atdığı çökdürücü siyasi addımlar kəskinləşdikcə balacaların taleyi sual

altına düşür. Siyasi şərhçilərin, təhlilçilərin lovğa-lovğa özlərini bilikli göstərib siyasi poza nümayiş etdirmələri də "böyük-balaca" münasibətlərini düzgün dəyərləndirə bilməməkdən irəli gəlir. Çünki onların əksər kəsimi vəziyyətə hakimiyyət qovğalarının yaratdığı toqquşma nöqtəsində dayanıb baxırlar. Heç kim balaca olmağımızın səbəbini ciddi araşdırmır, qlobal problemlərimizi toxunulmaz, – onsuz da həllolunmaz hesab edir və hər şeyin səbəbini hakimiyyətin, cəmiyyətin demokratiyaya düzgün əməl eləməməsində axtarır. Əslində isə bütün problemlərimizə stimul verən demokratiyaya əməl etməyimizdəndir. Çünki demokratiya bir siyasi oyundur (illərdir biz bunu yazırıq, deyirik). Balacaların yekələr tərəfindən idarə olunması oyunudur. Bu oyunun içərisində (yəni demokratiyada) doğru məntiqlər o qədər azdır ki, ona bel bağlamaqla, bir millət olaraq, yalnız sıradan çıxmaq olar. "Bizdə demokratiya gecikir, yaxud ona əməl olunmur" deyirlər. Məgər Türkiyədə cəmiyyəti dinçilik pərdəsinə bürüyərək toplumda parçalanma təhlükəsi yaradan, ordunun dövləti gücünü sarsıtmağa cəhdlər edən, az qala Türkiyənin özünü parçalanma halına gətirən Ərdoğanı hakimiyyətə demokratiya gətirmədimi?!

Demokratiya milli inkişafımızın qarşısını kəsən (dinçiliyin total genişlənməsi ilə birlikdə) çox təhlükəli oyundur. Nə qədər ki, Ulusumuz bu oyundan nicat gözləyir, Güclü dövlət, Böyük millət olmağımız müşkülə çevriləcək. "Demokratik dəyərlər" uğrunda mübarizə aparmaq əvəzinə Güney Azərbaycanın azadlığı uğrunda mübarizə aparsaydıq, balacalığımızın sonuna doğru xeyli irəliləmiş olardıq. Böyük siyasi dünyada balacaların şıltaqlıqdan başqa əllərindən heç nə gəlmir. Şıltaqlığı da böyüklərin kölgəsində edirlər (biz bunu uşaqların davranışlarında çox müşahidə etmişik). Balacalar böyük siyasətin böyük gözlənilməzlikləri olduğunu kəsdirə bilmirlər, çünki iştirakçısı deyillər. Ona görə də qəfil sevindikləri kimi, qəfil də təşvişə düşürlər (yuxarıda bir misal çəkdik: – "Əsrin müqaviləsi"ndən doğan sevinclər və bu gün başımızın üstünü kəsdirən "böhran" təhlükəsinin doğurduğu təşviş). Balacalar uzağa baxmırlar. Uzağa baxmaq – Xalqın taleyində dayanıqlı siyasi sistem yaratmaqdır ki, bu da dövlətin içəridən hər hansı gücə malik olmasının göstəricisidir. Xalqla dövlət bir tam olaraq vahidləşmirsə, dövlət hər əsən küləyə yelkən açmalı olur. Dövlətin dayanıqlığı xalqa bağlıdır. Hakimiyyətin güclənməsi naminə xalqda mənəvi bağları qırmaq dövləti çökdürmək deməkdir. Hər şey





hakimiyyətin mənafeyi üçün yönəldiləndə dövlət qoruyucu siyasi sistemdən məhrum olur, obrazlı deyilsə, dövlət siyasi dalğalar üzərində yaşamalı olur. Bununla da onun taleyi təhlükə qarşısında qalır. Bu səbəbdəndir ki, ayrı-ayrı türk dövlətlərinin siyasi kursları bir-birinə yaxın gəlmir. Halbuki türklüyün xilası üçün (lap elə əyilmiş bəşər halının da düzəlməsi üçün) türk toplumları ideoloji, mənəvi-ruhani cəhətdən iç-içə yaşamağa məhkumdurlar. "Azərbaycan və Türkiyə bir millət, iki dövlət" deyən keçmiş dövlət başçısı H.Əliyev Azərbaycanın milli müəyyənliyindən və dilindən türk sözünü rəsmi şəkildə rədd elədi. Elə güman olundu ki, Azərbaycanda yaşayan etniklərin qıcıqlanmaması üçün bu, düzgün atılmış addımdır. Əslində Türkiyə və Azərbaycan arasına psixoloji pərdə çəkilmiş oldu. Gün kimi aydındır ki, bir ölkənin əsas xalqı özünə yaramırsa, öz müəyyənliyini qoruyub saxlaya bilmirsə, bu ölkədə yaşayan başqa etnikləri də bir araya gətirə və birləşdirə bilməz. Türk adından imtinanın üstündən illər keçdi, ancaq bu gün də etnik bölücülük (separatizm) gündəlikdədir. Nə qədər ki, bu millət öz dəyərlərinə, adına, varlığına yiyə durmayacaq, heç bir ***taktiki oyunlar*** onu fəlakətlərdən sığortalamayacaq.

Bu gün Azərbaycanın siyasi hakimiyyəti televiziyalarımızda Türkiyə ləhcəsiylə verilişlərin yayınlanmasına yasaq qoyur. Yəqin bəhanəsi odur ki, bu ölkədə dövlət dili Azərbaycan dilidir (türk dili yox, türk dili olsaydı, yəqin bəhanəyə yer qalmazdı), verilişlər də bu dildə olmalıdır. Halbuki Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlər gerçəklikdə ingilis dili ilə işləyir və bu dili bilməyən Azərbaycan vətəndaşı oraya yaxın buraxılmır. Dövlət müəssisələrində işləyən rus millətinin nümayəndələri Azərbaycan vətəndaşları ilə rus dilində danışırlar və səlahiyyətli, səlahiyyətsiz bir kimsə etiraz eləmir ki, bu ölkənin dövlət dili "Azərbaycan dili"dir.

Başqa bir tərəfdən, axı Türkiyə ilə Azərbaycan dili eynidir, yalnız ləhcə fərqləri var. Əgər bizim siyasi öndərliyimiz türk toplumlarının qaynayıb-qarışmasını, dövlətlərimizin bir-biri ilə bağlaşmasını istəyirlərsə, Türkiyə ləhcəsinə yasaq qoymağın məntiqi olmur axı.

Biz hesab edirik ki, Türk Birliyi üçün Türkiyə ləhcəsi hələlik ümumtürk danışıq vasitəsi ola bilər. Burada qısqanclıq eləmək böyük Birliyin yolunu bağlamaqdır. İstənilən türk dövlətinin hakimiyyətində təmsil olunanlar gəldi-gedərdir, Türk Birliyi isə bəşəri zərurətdir. Ona görə də Türkiyəyə qarşı saygısızlıq yaradanların ipini çəkmək vaxtıdır.

Bu cür qarışdırıcı əhvalların arxasında duranlar bəlli olduğu halda, onların gözəgörünməz əməllərinə uymaq və bac vermək böyük qəbahət olar.

İndi qayıdaq yenə Anayasada dəyişiklik məsələsinə. Öncəliklə demək lazımdır ki, bu gün toplumumuz hansısa milli, dövləti təhlükələrə qarşı reaksiya vermək qabiliyyətini itirib. Ona görə də ayrı-ayrı vətənsevərlərin münasibəti qəribəlik doğurur. Çünki insanlarımız tədrici gedən milli-mənəvi aşınma proseslərinə qarşı direniş göstərməyin yollarını ya bilmirlər, ya da belə mübarizəyə ümidsiz yanaşırlar. Ona görə də qəfil ortaya çıxan təhlükəli proseslərə etiraz eləmək də ciddi bir iş görmür.

Millətin, dövlətin, qanunun yaşamasına qarşı atılan hər bir addım milli özümlüyümüzün (mentalitetimizin) pozularaq simasızlığa çevrilməsinin təzahürüdür. Ulusal birliyin qırıldığı, milli-mənəvi dəyərlərin sarsıldığı yerdə Anayasanın dəyişilməsinin qabağını nə ilə kəsmək olar?!

Bura qədər hər kəsin gözü qabağında diktatura formalaşıb, monarxiya yaranıb. Ancaq bizim ayrı-ayrı yazarlarımız indi həyəcan təbili çalırlar ki, diktatura yaranacaq. Təəssüf ki, əsaslı milli qurulma yönündə ciddi iş getmədiyinə, yaxud mübarizə olmadığına görə gözlə görünən fəlakət qısa müddət həyəcan doğurur və sonra toplumun içərisində oturuşur, adiləşir. Ərk edib səslənmək istərdim ki, sizi rahatsız edən quruluşlar (monarxiya, diktatura) zatən yaranıb. Yaranışın doğuracağı sorunların müəyyən bəndlərini burada vurğulamağımız yerinə düşər.

Bizə görə, Azərbaycanda siyasi büt yaratma oyununa qarşı ciddi müqavimət hərəkatı başlamalıdır. Bu gün Azərbaycanda ümidsizliyin, başıpozuqluğun əsas mənbəyi H.Əliyevin adı ətrafında formalaşan xilaskarlıq, quruculuq təbliğatı və bundan sui-istifadə edən yaramaz məmurlar ordusunun oyunlarıdır. Olan, olmayan siyasi uğurları H.Əliyevin adına bağlayıb, ən yüksək xadimlik keyfiyyətlərinin yalnız ona xas olduğunu təbliğ eləməklə xalqın şüurunda durğunluq yaradılır. Ölkə korrupsiya yuvasına çevrilib. Xalqın sıxışdırılması ilə nifrətin içəri toplanması vətəndaş qarşıdurmasına aparıb çıxara bilər. Hərə H.Əliyevə bir bağ salır, heykəl qoyur, sonra başlayır ölkəni talamağa. H.Əliyevdən siyasi büt yaratmağın yeganə səbəbi də ölkəni talamaq ehtiraslarıyla bağlıdır. Elə fon yaradılır ki, guya H.Əliyev olmasaydı, müstəqilliyimiz pozulardı, neftimiz də satılmazdı. SSRİ dağılandan sonra hansı ölkənin





müstəqilliyi pozulub ki?! Məgər Niyazov olmasaydı, Türkmənistan Ərəbistan yarımadasına köçəcəkdi?! Təqlidçilik siyasətinin icraçılarından dahilər yaratmaq əsilliyə xidmət etmir axı. Qurbanlar vermək bahasına hakimiyyəti qorumaq və vərəsəlik statusu yaratmaq milli dühaçılığı əks etdirə bilərmi?! Fəal qüvvələri işə cəlb eləmək, onları zərərli meyillərdən arındırmaq əvəzinə, hər cür yollarla Birliyə can atanların əlaqəsini qırmaq, bununla da yadelli təsirlərə qapı açmaq doğrudanmı uğurdur?!

Bütün qüvvələri sıradan çıxararaq bir şəxsə bütün Azərbaycanı borclu saymaq yanlış kursdur. Bunun gələcəyi yoxdur.

Konstitusiyalı demokratiya elan edənlər konstitusiyalı Monarxiya yaratsalar da, heç nələrini qoruya bilməyəcəklər. Bunun sabahı yoxdur.

Ey durumlarından xəbərsizlər! Gələcəyi olmayan əməllərdən zövq almayın; xalqı zor gücünə susdurub hakimiyyəti müvəqqəti olaraq qorumağı hünər saymayın; ölkəni satmaq, qurbanlar vermək bahasına tarix yaratmağı uğur saymayın; dünyagirliyi, varidatsevərliyi, pulçuluq ehtiraslarınızı ali şöhrət bilməyin; zahiri qələbələrdən sərxoş olub ayağınızın altındakı zəmini uçurmayın; Beynəlxalq İrtica ilə birləşib millətimizin taleyində zəlalət yaratmayın; bu xalqı ölümə məhkum etməyin.

Amandı, etməyin, yıxmayın, dayanın!

*2 Qar Ayı, 30- il*
*(yanvar, 2009)*

## YATIRICILIQ MƏNGƏNƏSİ

Bu gün Azərbaycan siyasiləri, fəalları Dəmirqapının, Təbrizin, Göyçənin, Borçalının haqqında düşünməyi mənasız sayırlar. Bu, qeyrətsizlik və hünərsizliklə barışmağın təzahürüdür. Erməni torpaq zəbt eləmək üçün, kürd dövlət qurmaq üçün, İsrail genişlənmək üçün, gürcü qəsb eləmək üçün… hay-həşir qoparırlar. Biz halal, tarixi yurdlarımızın adını tutmağa cəsarət etmirik. Dəyərimizin, mədəniyyətimizin sərhədlərinin darala-darala yox olması bizi qayğılandırmır. İşin pis cəhəti ondadır ki, biz Dəmirqapıya Rusiyanın bizdə yaratdığı təsəvvürlərlə yanaşırıq. Eləcə də Təbrizə İranın, antitürk qüvvələrin yaratdıqları təsəvvürlərlə yanaşırıq. Borçalıya da onun kimi və s. Ona görə də tarixi yurdlarımızın biryolluq itirilmiş olduğunu qəbul edirik. Bu aqibət Qarabağı da gözləyir. Bir vaxtlar yuxarıda adlarını çəkdiyimiz bölgələrimizin başından necə keçmişiksə, Qarabağın başından da elə keçəcəyik. İllərlə uzanma ona aparır. Bizə elə gəlir ki, itirilmişləri nəinki qaytarmaq, hətta onları dilə gətirmək belə mümkünsüzdür. Anlamaq lazımdır ki, mümkünsüz görünənlər düşüncəmizin tükənməsindən, qeyrətimizin sarsılmasından irəli gəlir. Ziyalı zəhməti gərəkdir ki, xalqda sarsılmış qeyrəti, pozulmuş yaddaşı bərpa eləsin. Dəyərlərimizdən, qeyrətimizdən, yurdumuzdan uzaqlaşmağı, əl çəkməyi dayandırmaq gərəkdir. **Haqqını dərk etməyən haqsız olur.** Bizim xalqımızı haqsızlaşdırmaq üçün onun düşüncəsini kütləşdirir, özünə inamını məhv edirlər. Ruhun ölümü əsrləri faciələrlə yükləyir, ulusu fəlakətlər axınının içinə itələyir. Ruhsuzluğa vərdiş eləmək xalqı tarix səhnəsindən silinməyə sürükləyir. Demokratiya bir tərəfdən, dinçilik başqa tərəfdən bizi yuxuya verir. Özgələrin çaldığı havaya çox oynayırıq. Bizi elə səviyyədə oynadırlar ki, elə bilirik ayılmışıq. Kommunizmin yalançı “cənnət” vədlərindən müvəqqəti ayrılaraq pulçuluğun demokratiya şirnisinə havalanmağı oyanış dövrü kimi qarşılayıb bayram edirik. Qəbahətlərimizin yaratdığı fəlakət dalğaları bizi, millət olaraq, yurdumuzun, mənliyimizin sahillərinə vurub çıxarır. Özümüz üçün qürbətə, özgələr üçün faydalı ünvana çeviririk yurdumuzu. İngilisçiliyə bac veririk, rusçuluğa bac veririk, farsçılığa bac





veririk, ərəbçiliyə bac veririk, türkçülüyü yad bilirik, Ruhçuluğu, **İnamçılığı** yağı bilirik millətimizə.

Demokratiya özgəçiliyi ilə millətçilik ləyaqəti, dinçilik yadlığı ilə İnamçılıq doğmalığı, pulçuluqla ruhçuluq, kosmopolitçiliklə yurdçuluq, beynəlmiləlçiliklə xalqçılıq üz-üzə gəlir, gətirilir. Millət seçim qarşısındadır. Seçməlidir – var olmağı və ya yox olmağı. Sabahımız bu seçimin şərtində.

Dayanmalı və düşünməli!

## SİYASİ DÜNYANIN ERMƏNİSİ

Tanrıçılıq – Türkün Təbiətlə doğmalığından, birliyindən yaranan inancdır. Türk Tanrıçılığı dünya üçün müqəddəs bir nizam idi. Təbiət sevilirdi, bəslənirdi, qorunurdu. "Tanrı türkün həm balası idi, həm babası"(Asif Ata). Balasını əzizləyirdi, babasına arxalanırdı türk. Türk təbiət sevgisindən, Tanrı səsindən saz yaratmışdı. Sazı sinəsinə sıxanda Tanrının səsini eşidirdi – duyğuları təmizlənirdi, ürəyi saflaşırdı. Təbiəti saflıq ahəngi qoruyurdu. Türkün Tanrısını əlindən aldılar. Qəddar, qorxunc, dəyişkən, adamlaşan, hökmdarlaşan Allaha tabe etdilər türkü. Dünya Tanrısızlaşdı, təbiətə qarşı münasibət vəhşiləşdi, qan-qada dünyanı bürüdü. Göylər yerin tüstüsünə bələndi, Yerin Göyü qaraldı.

Türk də təklənib, təbiət kimi. Tənhalıq aqibəti seçilib ona. Tanrısını itirən türk tənhalığını dərk eləmir sanki. Dünyayla bir olmağa çalışır, dünya onun arzusunu gözündə qoyur. Dünya azğındır, pozğundur, dağınıq, pərakəndə olan türkü udmağa çalışır. Türk öz dünyasını yaratmasa, Dünyayla birliyi baş tutmaz. Öz dünyasını yaradan türk, dünyaya yeni ahəng, nizam gətirər. Dünyayla birliyi Türk Dünyasının nizamı əsasında qurular. Bu gün Dünya türkü sevmir, onun gücünün böyüməsindən, qüdrətinin özümləşməsindən qorxur. Ona görə türkün öz qüdrətini bərpa eləməsini əngəlləyir. Təbiəti azğıncasına qamarlayan dünyaya türk gərək deyil, erməni gərəkdir. Erməni dünyanın ermənisidir, türkün ləyaqətinə qarşı yaşayır, onun rahatlığına qənim kəsilir.

Türk dünyanın ona qarşı birləşməsindən usanır, birləşə bilmir, döyüşə bilmir, erməniyə bac verir. Ermənинin könlünü almağa çalışır. Anlamır ki, ermənin könülü yoxdur. Divin canı şüşədə olan kimi, ermənin könülü də azğın dünyanın ovucundadır. Azğın dünyanın əməllərini dərk eləmədikcə türkün içinə xəyanət axıb dolacaq, xəyanətkarlar böyüyəcək və dünyanın qarşısında türkün qəddini əyməyə çalışacaq. Zatən bu baş verir.

Dünya içimizdə xəyanətkarlar bəsləyir, onların əliylə bizi erməniylə barışdırmağa sövq edir. Əslində erməni qoruyur. Türkü erməninin qarşısında zəif saxlayır, bununla da içimizdə parçalama əməllərini davam etdirir.





Azərbaycandan millət vəkilləri "Ermənistan"a yollanır, jurnalistlər göndərilir. Guya xalqlararası düşmənçiliyi yumşaltmaq istəyirlər, Qərbin diktəsiylə demokratiya oyunu quraşdırırlar. İndi də Azərbaycandan "Ermənistan"a getmək üçün həvəsli elm adamları, jurnalistlər var. Başa düşmürlər ki, bu gün Azərbaycan müharibədə uduzmuş durumdadır. Erməni səni məğlub (etdiyi) ölkənin nümayəndəsi kimi qəbul edir. Dünya erməni üçün "qalib psixologiya" halı yaradır. Bizə uduzmağımızla barışmağın "gərəkliyini" aşılayır. Bütün bunlar – Qarabağdan əl çək, deməkdir. Rusiya ermənin arxasında durub Azərbaycanı təslimçilik durumunda saxlayır. Ə. Əylisli kimi adamlarla isə Azərbaycanı söymək, ermənini öymək təxribatı həyata keçirir.

Qardaş Türkiyənin başqanı da qanlı erməni prezidentini təbrik edir. Guya diplomatiya işlədir, gözdən pərdə asır. Anlamaq olmur ki, erməniyə bac vermək adlı diplomatiya nəyə xidmət edir?!

Nə qədər ki, soyqırım hoqqası ortadan qalxmayıb, Qarabağ problemi həllini tapmayıb, erməni ilə ünsiyyət qurmaq gərəksizdir. Onsuz da ermənini nəyəsə razı salmaq mümkün deyil, onun ixtiyarı başqalarının əlindədir. Bu səbəbdən də, erməni ilə deyil, onun arxasında duran həmin "başqalar"la masa arxasına oturmaq gərəkdir. Səni ermənin ayağına aparanlarla məsələni həll etmək gərəkdir…

*28 Köçəri Ayı, 34-il. Atakənd.*
*(fevral, 2013. Bakı.)*

## BORÇALI VƏTƏNDİR,
## VƏTƏNLƏ OYNAMAQ OLMAZ!

Sovetlərin dağılması bizim bir millət olaraq, iç durumumuzu üzə çıxartdı. Nə qədər ki, imperiya “ailəsi”nə daxil idik, nizamımızı o müəyyən edirdi, idarəçiliyimizi onun diktəsi ilə həyata keçirirdik. Guya bu buxovdan açıldıq və öz işimizi bilməyə başladıq. Bu vaxta qədər işimiz də içimizin göstəricisi kimi ortada. İşimiz də göstərir ki, içimiz mənəvi, siyasi buxovlardan tam açılmayıb. Köhnə ənənələrlə “yeni quruluş” tələblərinə doğru yüyürürük. Köhnə ənənələrin əsas cəhətlərindən biri Tayfaçılıqdır. Dövlətimizdə, millətimizin həyatında atılan addımlar, görülən işlər Tayfaçılıq əməllərinin təsir və tələblərindən qırağa çıxmır. ***Tayfaçılıq – ağalığın işlənmə mexanizmidir.*** Kürəsəl Batı demokratizmi – böyük ağalığın yaşama mühitidir. ***Bizim yurdumuzda Tayfaçılıq Batı demokratizminin təbliği ilə gizlənir, ərəbçilik, farsçılıq məzhəkələri ilə bəzənir, rusçuluq ədası ilə qorunur.*** Yəni Tayfa xalqın içində mühit yaradan hər bir gücün tələbini icra edir, hər bir təsirin qabağına yüyürür, hər bir ideolojinin rənginə boyanır. Milli yönün bütövlüyünü dağıdan və anarxiya yaradan müxtəlifliyin, başqa sözlə, özbaşınalığın yanında durmaqla hakimiyyəti əldə saxlayıb qorumağa çalışır Tayfa.

Sovetlər dağılan ərəfədə Azərbaycanda ən güclü Tayfa Qərbi Azərbaycanlıların adından irəli çıxanlar hesab olunurdu. Bunlarla Naxçıvanlıların adından irəli çıxanların Tayfası rəqabət aparırdı. O dövrdə mərhum H.Əliyev özünü həm o, həm bu Tayfadan hesab eləyərək, rəqabət aparan bu iki Tayfanı bir araya gətirdi. Hakimiyyəti birgə mənimsədilər və oturuşdular. Ancaq sadə naxçıvanlılar və sadə Qərbi Azərbaycanlılar bu gün də öz çətin durumlarını yaşayır, ümumazərbaycan problemlərinin ağrılarını öz həyatlarında hər an hiss edirlər. Ancaq təəssüf ki, insanların ruhuna yeriyən, yeridilən yerliçilik psixologiyası onları həmişə hakim qüvvələrin alətinə çevirir. Özləri üçün karyera qurmaq istəyən “Tayfa Əhli” məhz bu psixologiyadan yararlanırlar. İdraksız kütləni daim aldada bilirlər. Cazibəli sözlər, şirin vədlər guya milli və sosial problemlərin həlli üçün göstərilən çabalardır. Kütlə “it olsun, qurd olsun, özümüzünkü olsun” ölçüsü ilə yanaşaraq,





bütöv bir millətin fəlakətini sabaha daşıyır. Məhz kütlənin bu durumundan istifadə edərək, ayrı-ayrı qüvvələr yeni Tayfalar formalaşdırıb hakimiyyət uğrunda mübarizə aparırlar. Hakim Tayfa isə yaranmaqda olan yeni Tayfaları sıradan çıxartmaq haqqında düşünür və hər cür oyunlara gedir. Hakim mövqeni əldən verməmək üçün elə oyunlar quraşdırırlar ki, ara yerdə zərbə yenə xalqa – onun mənliyinə, gələcəyinə dəyir.

Bu yazıda oyuna sürünən Tayfalardan birinin adını hallandırmaqla bəzi məqamlara aydınlıq gətirmək istəyərdik. Dediyimiz kimi, Azərbaycanda Tayfaçılığın inkişafı yeni Tayfaların yaranmasına aparıb çıxarır – Milli Birliyin inkişafı əvəzinə Tayfaçılığın inkişafı. Fəlakət ondadır ki, bir vaxtlar Azərbaycandan qopardılmış ərazilərimizdə yaşayanlar zaman-zaman deportasiya olunub indiki sınırlarımızın içərisinə axışır. Yəni Ermənistan sayılan, Gürcüstan ərazisi sayılan qədim Azərbaycan torpaqlarından soydaşlarımız qovulduqca, Azərbaycana, onun baş şəhərinə toplaşırlar və tarixi yurdlarımızın taleyini düşünmək əvəzinə, hakimiyyət, karyera haqqında düşünürlər. Beləliklə də, hakimiyyət uğrunda mübarizə aparan Tayfalara çevrilirlər. Bu Tayfalar coğrafi cəhətdən Azərbaycanın özündə olan Tayfalardan daha aktiv və mütəşəkkil olurlar. Çünki bölünmüş vətəndən qıraqda yaşayanlarda vətən hissi güclü olur. Ancaq bu hisslər vətən üçün böyük mübarizə tələbi yaratmayanda “yerliçilik, regionçuluq” səviyyəsinə enir və məhdudlaşır. Belə bir hal borçalılarda da özünü göstərdi. Ayrı-ayrı vaxtlarda sıxışdırılmış, qovulmuş (deportasiya olunmuş) borçalıları təşkilatlandırmağa başladılar. Dediyimiz kimi, Borçalı adına olan həsrət yerliçilik üzərində oturuşdu. Hakimiyyət də borçalıların aktiv Tayfaya çevrilməsindən qorxub onların birliyini ələ almağa girişdi. Bu vaxta qədər heç bir təsiri, işi olmayan “Eyvaz Borçalı Cəmiyyəti” yenidən qurulmağa, təşkil olunmağa götürüldü. Onu da deyək ki, aktivləşən Borçalı Tayfasının zərərsizləşdirilməsinə xeyli əvvəl başlanmışdı. H.Həsənovun hakimiyyətdən uzaqlaşdırılması başqa səbəblərlə izah olunsa da, düşünürük ki, kökündə məhz bu məsələ də dayanırdı. Bir sözlə, Borçalının dərdi heç kimi düşündürmür, maraqlı qüvvələri borçalıların idarə olunması düşündürür. Biz deyirik, Borçalı dərdi heç kimi düşündürmür. Bununla bizim ayrı-ayrı saf, Borçalıdan olan aydınların sevgilərinə kölgə salmaq fikrimiz yoxdur. Hesab edirik ki, Borçalını ayrıca subyekt kimi götürmək kökündən səhvdir. Borçalı

ümumazərbaycan hadisəsi kimi dərk olunmasa, onun heç bir sorunu (problemi) həllini tapmayacaq. Hər dövrdə Gürcüstanda hakimiyyət dəyişiklikləri olanda borçalıların taleyində də dəyişikliklər başlayır. Bu gün zahirən borçalıların sorunu ümumgürcüstan sorununun tərkib hissəsi kimi görünür. Çünki sosial sorunlar hər yerdə eynidir. Ancaq Azərbaycan üçün Borçalının sorunu sosial deyil, millidir. İstər Azərbaycanda, istər Borçalıda qabağa çıxan borçalılar sosial sorunları sadalamaqla yetərləndikləri halda, Gürcüstan hökuməti toponimlərimizi və ərazilərimizi gürcüləşdirməklə məşğuldur. Gələcək tarix üçün borçalıların "gəlmə" olduqlarını sübut eləyən süni dəlillər hazırlanır. Bizimkilər isə deyirlər ki, biz Gürcüstanla qardaşıq, münasibətlərimizə ziyan gətirən siyasi səhvlər eləmək olmaz. Beləcə, biz itirə-itirə "gələcəyə" gedirik. Orada Gürcüstan hakimiyyəti qabağa duranlarımızı öz qəlibinə alır, burada da Azərbaycan hakimiyyəti Bakıda aktiv görünən borçalıları. Guya Azərbaycanda idarə olunan Borçalı təşkilatları nəsə həll edəcəklər. Qərbi Azərbaycanlıların Tayfası daha güclü, mütəşəkkil idi. Özləri də Azərbaycan hakimiyyətini ələ keçirdilər. Qərbi Azərbaycan üçün nə eləyə bildilər ki?! Ümumiyyətlə, müəyyən problemlərin adı ətrafında ayrı-ayrı qüvvələri təşkilatlandırırlar ki, özlərinə mane olmasın, idarə etsinlər, istifadə etsinlər. Hətta təşkilat zaman-zaman nəzarətdən çıxmasın deyə, onu da öz içində yenidən qruplara bölüb rəqabət mühiti yaradırlar. Bir təşkilatın içində, yaxud ətrafında insanlar bir-biriylə rəqabət aparmaqla məşğul olurlar. Bizə görə bu yaxınlarda Bakıda keçirilən "Borçalı forumu" da bu qəbildən olan hadisədir. Məqsəd odur ki, qüvvələr bir araya gəlməsin, güclənməsin və dediyimiz kimi, maraqlı qüvvələrə təhlükə yaratmasın.

Biz Borçalını ümumazərbaycan hadisəsi hesab edirik, onun bütün sorunlarını da Azərbaycanın iç sorunlarından biri kimi, yəni ümummilli problem kimi dərk edirik. Borçalı Vətəndir, Vətənlə oynamaq olmaz. Canın ağrısını əzalara bölmək olmaz.

Ey milli yöndən ağrı çəkən insanlarımız! Qəlblərimizin ağrısını ovundurmaq yox, milli şüurun inkişafına çalışmaq lazımdır.

*18 İşıq Ayı, 33-il.*
*(may, 2011)*





**UNUTQANLIQ FƏLAKƏTİ**

Azərbaycanda ermənilər zaman-zaman vəhşi qırğınlar törədiblər. SSRİ qurulandan öncəki qırğınlar kulminasiya nöqtəsi sayılmışdı. Lakin SSRİ-nin sonunda Xocalıda, ümumən Qarabağda baş verən faciələr əvvəlki erməni vəhşiliklərini kölgədə qoydu. Türkə qarşı erməni dəyənəyi hazırlayan xarici qüvvələr içərisində öndə gedənlərdən biri olan Rusiya SSRİ-ni qurandan sonra erməni qəbahətlərini bizə keçmişdəkilərin yanlışı saydıraraq, yalançı xalqlar dostluğu uydurdu və ermənilərlə azərbaycanlıları qaynayıb-qarışdırdı. Növbəti erməni vəhşiliyi hazırlamaq üçün onları barışdırdı. Erməniləri yenidən içərimizə doldurdu, torpaqlarımızı hissə-hissə "qardaşlarımıza" bağışlatdı. Erməni "könüllü" verdiklərimizlə yetərlənmədi, yeni layihələr üzərində işlədi, yeni planlar həyata keçirdi. Güclü dayağı olan Rusiyaya ümid bəsləyərək yeni qırğınlara başladı. Yeni talanlar, yeni qırğınlar Azərbaycanı dizi üstə çökdürdü.

Unutqanlığımız nəticəsində SSRİ dönəminə qədərki soyqırımların ağrısı canımızdan çıxmışdı, – "qardaşlaşmışdıq" erməniylə. Ayaqlandıq, qırıldıq, əsas düşmənlərimizə göz yumduq, ermənini yenidən düşmən elan elədik. Amma bu elanımızın arxasında durmaq gücümüz tükənib sanki. Çünki düşmənlərin kölgəsinə nifrət elan edirik, özünə yox.

İndi də Batının antitürk ovqatı böyüyür, niyyəti işə düşür. Qarabağ sorununu illərlə uzadırlar ki, yaddaşlarımızı yenə korşaltsınlar, fəlakətlərin ağrısı canımızdan çıxsın, "ürəyiyumşaqlığımız" genişlənsin. Nəticədə torpaqlarımızın bir hissəsini yenidən erməniyə verək. Addım-addım get-gəllərimiz başlasın, beynəlmiləlçilik bayrağını başımızın üzərinə qaldıraq, dünyaya böyük ürəkli olduğumuzu "sübut edək", – qaynayıb-qarışaq ermənilərlə. Beləliklə, həm torpaqlarımızı itirək, həm də gələcəkdə yenidən qırılmaq, yenidən bölünmək, parçalanmaq üçün ermənini içərimizə qaytarsınlar, onları içimizdə qorusunlar. Yenə də faciələrimizi keçmişdəkilərin yanlışı kimi yozan tarix uydursunlar, gənc nəsillərə sırısınlar. Bunun üçün ciddi ideoloji, siyasi işlər gedir. Jurnalistlər səviyyəsində, idmançılar, qeyri-hökumət təşkilatları, hüquq müdafiəçiləri səviyyəsində gediş-gəlişlərin tələb olunması və təşkil olunması da bunun üçün həyata keçirilir. Sabah siyasətçilər gəlib-gedəcək, ayrı-ayrı əlaqələr qurulacaq və s. İçimizdən satın alınanlar,

ələbaxanlar bu işdə canfəşanlıq edirlər. SSRİ-nin qurulması dönəmində aldanan Nərimanovlar səmimi idilər, doğrudan da bolşeviklərin humanizm təbliğatına, təlqininə inanmışdılar. İndikilərin yalnız böyük iştahları var, başlarından yekə qarınları var, inamları qarınlarının içi boydadır. İndikilərin fəaliyyəti cəmiyyətin ölüm kabuslarıdır – Azərbaycanın başının üzərində dolanır.

Nə qədər ki, yağılığa qarşı nifrətimiz tam deyil, torpaqlarımız bütövləşməyəcək. Əslində heç ruhumuz da bütövləşməyəcək. Faciəvi aqibət yarımçıqlıqdan törəyir – özümlüyə qarşı yarımçıq sevgidən, yağılığa qarşı yarımçıq nifrətdən.





## SİYASƏTİN BÖYÜK DAĞIDICILIQ ADDIMLARI

Dünyada cərəyan edən siyasi proseslər özünü əsasən antiinsani, antibəşəri xarakterdə göstərir. Bu gedişlərin arxasında duran dövlətlər getdikcə özlərində məsuliyyət hissini itirirlər. Buna görə də dağıdıcı əməllərin miqyası genişlənməkdə davam edir. Onların heç biri bundan utanmır, əksinə, özlərini böyük elan edirlər və bununla öyünürlər. Bu günlərdə "böyük səkkizlər" adlanan dövlətlər Rusiyada toplaşaraq bir sıra sorunlara münasibət bildirdilər. Halbuki bu sorunlar məhz həmin dövlətlərin məsuliyyətsizliklərinin təzahürləridir. Bizim üçün maraqlıdır ki, "böyük səkkizlər"in sammiti dünya üçün nə deməkdir, onlar nəyi həll edirlər? Şübhəsiz ki, toplantıda qoyulan məsələlərə münasibət bu dövlətlərin xarakterindən irəli gəlir. Yəni bu kimi tədbirlərin mahiyyətini dərk etmək üçün öncə iştirakçıların xarakterinə diqqət yetirmək və onların dünyaya münasibətlərini araşdırmaq çox vacibdir. Əlbəttə, sirr deyil ki, "böyük səkkizlər" adlandırılan dövlətlərin hər biri imperialist dövlətlərdir. Aydındır ki, bu dövlətlərin bir araya gəlməsində hansısa humanizm axtarmaq, bəşəriyyətin xeyrinə addım atmalarını düşünmək sadəlövhlük olardı. Bu dövlətlər bir-birindən, eləcə də əsarətdə saxladıqları xalqlardan qorunmağın yollarını birgə arayırlar. Həmçinin dünyanın maddi, iqtisadi gəlirlərini gücləri nisbətində bölmək, həm də bu imkanı əllərində saxlamağın yollarını müəyyən etmək məqsədi güdürlər. Bu kimi məqsədlərə nail olmaq üçün ayrı-ayrı dövlətlərdə özləri üçün faydalı bildikləri bölgələrdə cürbəcür problemlər yaratmaq və bu problemlərin həll olunmasının qarşısını birlikdə almaq bu dövlətlər üçün sammit keçirmək zərurəti yaradır. Hərçəndi bu dövlətlər bir-biriləri üçün də sorunlar yaradırlar, hansınınsa çox qabağa getməsini əngəlləməyə çalışırlar. Siyasətin iki və çoxbaşlılığı onun hiyləyə, məkrə əsaslanmasındadır. Siyasət hər cür dağıdıcılığı quruculuq, şərin fəaliyyətini xeyrə xidmət kimi təqdim edir. Zahirən "böyük səkkizlər"in sammiti dünyanın sorunlarını həll edən kimi qələmə verilir. Əslində isə onlar dünyaya sorun yaratmaq, köhnə sorunları qoruyub saxlamaq əməllərini həyata keçirirlər. Yuxarıda vurğuladıq ki, bu tip əməllərdən imperialist dövlətlərin qazancları gücləri nisbəti ilə müəyyən olunur.

Bütün bunlar öz yerində. Bu gün dünyanın qlobal sorunlarının başında əsasən Rusiya-Amerika münasibətləri dayanır. Elə buna görə də mövzunu bu yöndə davam eləmək məqsədəuyğundur. Sosializm quruluşu dağılandan sonra dünyanı Pulçuluq rənginə boyamaq gedişləri böyük fəsadlarla sonuclanır. Məlumdur ki, Pulçuluğun "rəhbəri" Amerikadır. Amerikanın dünyanı bir nöqtədən idarə etmək niyyəti ancaq dağıntılarla gerçəkləşə bilir. Bir sıra Avropa, Asiya dövlətlərini əhatə etmiş sosializm – inqilab, qırğınlar, soyqırımlar nəticəsində qurulmuşdu. Bu səbəbdən də bu quruluşun yenisi ilə, əslində köhnəsi ilə əvəz olunmasını qırğınsız, dağıntısız təsəvvür etmək mümkün deyil. Lakin ümid etmək də olmaz ki, əvəzetmə prosesi nə vaxtsa başa çatacaq və dağıntı prosesi dayanacaq. İmperialist ağalığın yaşaması daim yeni dağıntılarla müşayiət olunacaq. Pulçuluğu özünə qoşub gətirən demokratik inqilab nəticəsində bir sıra müstəqil dövlətlər yaransa da, bu dövlətlərin müstəqilliyi daha amansız əsarətlərə bərabər oldu. Necə deyərlər, müstəqillik – "yağışdan çıxıb yağmura düşənləri" sevindirmədi. Məsələn, keçmiş Yuqoslaviyanın əsas hissəsi olan Serbiya oyuncaq bir dövlətə çevrildi. Kosova problemi bu dövləti ABŞ və Rusiya arasında daim gərgin saxlayır. Eləcə də ABŞ və Rusiyanın bir-birinə təsir vasitəsinə çevrilən Gürcüstanın Abxaziya, Osetiya problemləri. Əslində Rusiya ABŞ-ın qabağını Abxaziyada, Osetiyada kəsir. Çeçenistanda soyqırım törədən, Moldovanın içində "Dnestryanı Respublika" yaratmaqla bölgənin sabitliyini pozan Rusiya bəşəriyyətin müşahidə elədiyi ən qanlı əməllərdən birini – ABŞ-ın İraqa qarşı törətdiyi vəhşilikləri gözardına vurdu. Bu gün də İraqda soyqırım həyata keçirilir. Dünyanın heç bir ölkəsi buna qarşı açıq direniş göstərmir. İndi də bu soyqırım Yaxın Şərqdə İsrail tərəfindən həyata keçirilir. Bu vəhşiliklər insan haqlarının, demokratiyanın qorunması adı ilə törədilir. Bu qanlı əməllərə qarşı "böyük səkkizlər"dən heç biri yüngülcə bir etiraz da eləmirlər və s. Nəhayət, "böyük səkkizlər" Qarabağ probleminin həlli ilə bağlı Azərbaycana və Ermənistana xəbərdarlıq etməyi də unutmayıblar. Bizim də yazımızın əsas mövzusu bu nöqtədən başlayır. Uzun illərdir ATƏT-in Minsk Qrupu deyilən bir bataqlıq Azərbaycanın boğazına qədər dərinləşib. Bizim dövlətimizin siyasəti də bu bataqlığın içərisində özünü çox qəmzəli aparır. Keçmiş və indiki iqtidar özlərini Azərbaycan xalqına cəsarətli göstərmək üçün gurultulu bəyanatlar verməkdən usanmır. İqtidaraltı qüvvələr keçmiş iqtidar başçısının Minsk





Qrupunun həmsədrlərini aktiv olmamaqda suçlamasını az qala əsrin ən böyük cəsarəti, hünəri kimi təbliğ edirdilər. Bu gün də Azərbaycanın müdafiə naziri Minsk Qrupunun fəaliyyətinə münasibət bildirərək, onların işini qənaətbəxş saymır. Aydın bir həqiqətdir ki, Minsk Qrupu Qarabağ probleminin həllini əngəlləmək üçün, yaxud da bu həlli Qrupu təşkil edən dövlətlərin mənafeyinə uyğunlaşdırmaq üçün yaradılıb. Bəs Azərbaycan dövlətinin başında duranlar Minsk Qrupundan nə istəyirlər?! Məgər qənaətbəxş fəaliyyəti Azərbaycan rəhbərliyi göstərməli deyilmi? Nə vaxta qədər dövlət rəhbərləri dünyaya Azərbaycanın karikaturasını göstərəcəklər?!

ABŞ İraqı darmadağın elədi. Bu cür dağıntılarla o, özünün ağalıq sərhədlərini genişləndirməkdədir. Azərbaycan da İraqa ABŞ-ın istəyiylə əsgəri qüvvə göndərir. ABŞ-ı İraqda mühafizə edən Azərbaycanın Qarabağ probleminin həll olunmasına isə ABŞ imkan vermir. Azərbaycandan dolayısı ilə tələb edir ki, öz torpağını azad eləmə, gəl işğalçılıq xəttində mənim yerişimə kömək elə. Ümumiyyətlə, Azərbaycanın qarşısında qoyulan tələblərə diqqət yetirək: Helsinki sazişinə görə zor tətbiq eləmək, müharibə aparmaq olmaz; BMT-nin qanunvericiliyinə görə heç kimin ərazi bütövlüyünü pozmaq olmaz. Həm də hər kəsin (ermənінin) öz müqəddəratını təyin etmək hüququ var. İndi gəl bu oyundan baş çıxart, görüm necə çıxarırsan? ATƏT-in Minsk Qrupu isə açıq tələb edir ki, dil tapın, hər iki dövlətin (Azərbaycan və Ermənistan) mənafeyinə ziyan vermədən məsələni həll edək. Çox əcayib məntiqdir, deyilmi? Anlamaq olmur ki, burada erməninin mənafeyi nə deməkdir? Azərbaycan işğal olunubsa, deməli, onun mənafeyindən söhbət getməlidir. Əgər erməninin də mənafeyi deyilən bir şey varsa, bu o deməkdir ki, Azərbaycanın erməni-rus birləşməsi tərəfindən işğal olunmuş torpaqları Azərbaycan və Ermənistan arasında bölüşdürülməlidir. Gün kimi aydındır ki, Minsk Qrupu Azərbaycanın ərazi bütövlüyünü məntiqi olaraq qəbul eləmir. Azərbaycan da anlamalıdır ki, müharibə baş verib. Bu vəziyyətdə sülh istəyirsənsə, qurban verməlisən. Tarix elə bir müharibə tanımır ki, hansısa uduş baş verəndən sonra tərəflər başlanğıca qayıdıb heç-heçə razılaşsınlar. Deməli, Azərbaycan nə ümid etməlidir ki, ATƏT bu problemi onun xeyrinə həll edəcək, nə də insanlarda ikrah hissi doğuran mənasız bəyanatlarla çıxışını davam etməlidir. Neçə il demək olar ki, "ATƏT-in Minsk Qrupu zəif işləyir, lazım gəlsə müharibə yolunu seçərik"?.. Bu problemlərin dərinləşmə-

sinin əsas səbəbi odur ki, Azərbaycan iqtidarı əvvəldən vətəni qorumaq siyasəti deyil, hakimiyyəti qorumaq siyasəti həyata keçirir. Dövlətin bütün imkanları əsasən hakimiyyəti qorumağa yönəldilib. Vətəni qorumaq isə antiazərbaycan, antitürk olan beynəlxalq təşkilatların ixtiyarına buraxılıb.

Hakimiyyət naminə MDB-nin yaşamasına, başqa sözlə, Rusiyanın mənafelərinə də qulluq göstərilir, NATO-nun genişlənməsinə də. Azərbaycanın müdafiə naziri ağızdolusu bildirir ki, Azərbaycan Şimali Atlantika Alyansı ilə ikitərəfli əməkdaşlığını uğurla davam etdirir. Çox qəribə uğurdur. Bu əməkdaşlıqda ABŞ irəliləyir, Azərbaycanın problemi isə həllolunmazlığa düşür. Bəli, Azərbaycan əsgərləri Kosovada, Əfqanıstanda, İraqda ABŞ vəhşiliyinin xarabalıqlarını qoruyur. Valideyn öz övladını vətəni müdafiə etmək üçün verər, başqasının ağalığına nökərlik üçün yox. Deyə bilərlər, Azərbaycanın mənafeyi belə tələb edir. Deyirik ki, Azərbaycanın belə mənafeyi yoxdur. Bizim üçün insanlıq qarşısında başaşağılıq gətirən səviyyələrə nazir uğur adı qoyur. Ümumiyyətlə, bizim dövlətimizin siyasi kursu bu səviyyədən irəli gedə bilmir. Baxın, Qars-Axalkalaki-Bakı dəmiryolunun çəkilişi ABŞ üçün önəm daşımır. Bu səbəbdən də bu xəttin çəkilişini o, qanunauyğun saymır. Lakin bu məsələdə ABŞ bölgəsal siyasi və iqtisadi üstünlüyü ələ ala bilsə, dərhal yardım göstərər və işi sürətləndirər. Azərbaycan dövlətinin məsul nümayəndələri də bəyan edirlər ki, ABŞ konqresinə erməni lobbisi təsir göstərib. Çox qəribədir, necə olur ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkilir, buna erməni lobbisi təsir edə bilmir, amma dəmiryolunun çəkilişinə mane ola bilir? Əslində isə Azərbaycanın hakim siyasətçiləri ABŞ özbaşınalığını pərdələməklə yenə də hədəfi açıq göstərməkdən yayınırlar. Çünki milli təəssübkeşlik ləyaqəti onları tərk edib. Qorxaqların Azərbaycanın əsaslı problemlərini həll etməsi düşünürük ki, heç bir dövrdə baş verməyəcək. Lakin bu o demək deyil ki, hakimiyyətdəkilərin dəyişməsi ilə bütün problemlər yoluna qoyulacaq. Dönə-dönə vurğulamışıq ki, problemlərin həllinə içəridən başlamaq gərəkdir. Siyasi mühitdə tayfaçılığın hökm sürməsi, qruplaşmaların davam eləməsi, əqidəsizlik, mənəviyyatsızlıq, ziyalının satqınlığı, xariciliyə nökərlik etməsi, vəzifəyə, varidata əyilməsi Azərbaycana qlobal problemlər yaratmaqdadır. Azərbaycan gəncliyi milli ruhdan günbəgün uzaqlaşdırılır. Dinçiliyin total şəkildə təbliğatı, Qərbçiliyin total şəkildə mənəviyyatsızlığa, özbaşınalığa çağırışlarıyla həmahəng





ziyan yetirməkdədir. Məscidlərdə Azərbaycan gəncinə milli ləyaqət öyrədilmir, farsçılığın, ərəbçiliyin xeyrinə təlimlər öyrədilir. Bu təlimlərdə hakimiyyəti ələ keçirmək şirnikdirmələri də yox deyildir və s. Bizdən çıxış yolunu soruşsalar qəti bildiririk ki, Mütləqə İnam baxışını milli müqavimət hadisəsinə çevirməklə Uluyurd quruculuğuna girişmək vaxtıdır. Bu işlərin nədən ibarət olduğunu isə biz Azərbaycan cəmiyyətinə dönə-dönə təqdim etmişik.

## AYILTMALAR

***xxx***

Gizlinlik dövründə gizlənmək çətin idi, Aşkarlıq dövründə gizlənmək xeyli asanlaşıb.

***xxx***

Etiraf: Özünü tənqid edənlər özgəliyi müdafiə edirlər.

***xxx***

İndi dəbdə olan söz: Din yaxşıdır, dinçi pisdir;
Demokratiya yaxşıdır, demokrat pisdir.

***xxx***

Adam özünü qura bilmir, cəmiyyət onu uydurur. Cəmiyyət ən çox uydurulanı sevir. Allaha sevgi də uydurulmuş sevgidir. Uydurulmuş sevginin ömrü naşılığın ölümünə qədərdir.

***xxx***

Çağdaş ədəbiyyat cəmiyyətin həyatını yazır, həyatın mənasını yazmır.

***xxx***

Hərdənbir şəri də döyürlər ki, xalqı öldürmələri şübhə doğurmasın.

***xxx***

Güney Azərbaycan da Quzey Azərbaycanın yoluyla getmək istəyir – demokratiya uğrunda mübarizə və Avropanın qoltuğu. Bəs azadlığa nə vaxt çıxacağıq?

***xxx***

Bizim həmişə iki dilimiz olub: ərəb – türk, fars – türk, rus – türk, ingilis – türk. Türk dili ana dilimiz sayılıb, bəs o birilər?!





***xxx***

İndi millətçilik millətə qarşı yönəlir, yönəldilir.

***xxx***

Siyasətdə həqiqət yoxdur, həqiqət siyasət üçün onun Qırmızı Kitabında ola bilər yalnız.

***xxx***

Dövlətlər siyasi dostluqdan danışırlar. Dostluq – həqiqət əsasında doğmalıq deməkdir. Siyasət aldatmaq məharətidir, bəs siyasi dostluq nədir?!

***xxx***

Aqibətimiz: Asılı olanda təhlükəsizliyimizi “təmin” edirlər, müstəqil olanda “təhlükəmizdən” qorxurlar.

***xxx***

İran daxili işlərimizə qarışmayanda vahimələnir.
Rusiya daxili işlərimizə qarışmayanda boğulur.
Batı daxili işlərimizə qarışmayanda uzaqlaşır.

***xxx***

Qarabağ məsələsi: Qarşıdurmadan qaçmamaq üçün qarşımızı kəsiblər.

***xxx***

ATƏT: Qarşıdurmanı qarışdıran.
Bizə zor göstərir ki, ermənİyə zor göstərməyək.

***xxx***

“Qarabağ”ın həlli Türk Birliyi üçün açar deyil, Türk Birliyi “Qarabağ”ın həlli üçün açardır.

***xxx***

Hamı antixəlqi əməllərə yüyürür. Dövlət də bu əməlləri tənzimləyir.

*xxx*

Parlament hər gün qanun qəbul edir. Bu, özü qanunsuzluqdur. Xalq bir qanuna alışmamış onu başqalaşdırırlar, əvəz edirlər. Parlamentin həqiqəti gündə dəyişir. Bu, çox pis həqiqətsizlikdir. Bu ona görə baş verir ki, qanunlarda insani meyar yox, qazanc meyarı hökm sürür.

*xxx*

Dünya üçün Güney Azərbaycan problemi yoxdur. Çünki Dünya Azərbaycanı müstəqil, vahid görmək istəmir.

*xxx*

Siyasi dünyanın dəstəklədiyi beynəlmiləlçilik – əsarətə salmaq üçün düşünülmüş humanizm oyunudur. Əsil humanizm Millətçilikdir. Milləti sevən onu qurur. Bu, əslində bəşəri sevmək deməkdir.

*xxx*

Azərbaycanın siyasiləri ölkəni Batıya satırlar ki, xalqı soysunlar. Batı qazanc əldə elədikcə, öz xalqını talayanlara demokrat adı qoyur. Batı istədiyini hakimiyyətdən ala bilməyəndə özünü bizim xalqın mənafeyini qoruyan kimi qələmə verir. Bu, əslində hakimiyyətə "səni xalqının həşiri ilə devirərəm" xəbərdarlığıdır. İstədiyini alanda isə hakimiyyətdəkiləri xalqdan qoruyur.

*xxx*

Ölkələrin bir-birindən asılılığı artdıqca düşmənçilik böyüyür.

Müstəqillik dostluq yaradar, asılılıq düşmənçilik. Bu səbəbdən siyasi müstəqillik yaranmalıdır ki, maddi asılılıqlar düşmənçilik əsarətinə çevrilməsin.

*xxx*

Siyasi himayədarlıq: Elə xilas edirlər ki, əsarətə düşürük.

*xxx*

Elə bilirlər dini ateizm xəstələndirib. Sosializm çökəndən sonra dini diriltmək istəyirlər. Əslində din xəstələnməyib, özü xəstəlik kimi gəlib.





*xxx*

Pulçu vətəninin başından keçir, pulunun başından keçmir.

*xxx*

Azərbaycan rəhbərləri xalqına qıyır, əsarət gətirənə (Rusiyaya, İrana, Batıya) qıymır.

Qoltuqdan qıraqda korluq çəkirlər başı bəlalılar.

*xxx*

Ayılmaq: dünənki faciələrimizi görə bilmələri ilə fəxr edirlər, mübarizə aparmaqla fəxr eləmirlər.

Dünənki faciəni görürlər, bugünkü faciəni görmürlər. Əslində iş-işdən keçəndən sonra ayılırlar. Gerçəkliyi görmürlər, tarixi görürlər. Bəxtimiz yatanda bunlar ayılır.

*xxx*

Demokratiya Pulçuluq siyasətini qorumaq intizamıdır. Bu intizamda mədəniyyət, mərifət dəyirmanın çaxçaxı rolunu oynayır.

*xxx*

Bundan öncə Türkiyə bizə Batıçılıq öyrədirdi, indi dinçilik öyrədir. Türkiyəyə Türkçülük öyrətmək gərək! Azərbaycanın nicatı da buradan başlayacaq.

*xxx*

Demokratiya dinin ifrata varmasının hardasa qarşısını alır, amma həm də avamlığa ehtiyac yaradır.

*xxx*

Güney Azərbaycana etnik azlıq deyirlər ki, İranı öz məqsədləri üçün suçlaya bilsinlər. Əslində Güney Azərbaycan böyük bir millətin – Türk Dünyasının tərkib hissəsi olduğuna görə İranı vura bilmirlər. Güney Azərbaycan Türk Dünyasının gücünə çevrilməsəydi, İranı da Əfqanıstana döndərərdilər.

***xxx***

Amerika – tarixi xalqların məhv olmasına çalışır.

Qədim kökləri olmayan Amerika gündən-günə vəhşiləşir. Qədimliyə ağalıq eləmək bəşəri cinayətdir. Dünya qədimliyin süqutuna göz yumduğu üçün məhvə doğru gedir.

Yaponiyada (Naqasaki, Xirosima), Vyetnamda, Fələstində, Əfqanıstanda, İraqda törədilən qanlı qırğınları Avropa müdafiə edib, bunlarda iştirak edib. Türkiyənin özünü müdafiəsini isə – "erməni soyqırımı" adlandırırlar. Avropa demokratiyasına ağız suyu axıdanlar əslində qanlılığa şərik çıxırlar. Xalqların ləyaqəti ilə oynayan, onların qədimliyinə rişxənd edən demokratiya humanizmin ləğvidir.

***xxx***

Tələb: Xalqı qurmadan onu mübarizəyə qaldırmaq olmaz.





## İNSANSIZLIQ DƏRDİ

Pulçunun Vətənsizliyini ona qandırmaq çətin olur. Pulçunun Vətəni puldur. Pulu çoxdur deyə özünü vətənli sayır.

Pulçuya xalqsız olduğunu qandırmaq çətin olur. O, xalqa pulunun mərtəbəsindən baxır. Xalqı aşağıda gördüyü dərəcədə özününkü sayır.

Pulçuluq Amalsızlıqdır. Amalsızlıqla Vətənsizliyə qalib gəlmək olmaz. Pulçunun kapitalı artdıqca ürəyi azalır. Ürəksiz yol getməzlər. Yol getmədən Vətənə yetmək olmaz.

***xxx***

Vətəni gödənə xərclədilər – xalqı Vətənsiz qoydular.

Xalqı gödənə satdılar – Vətəni xalqsız qoydular.

Vətənsizlik, xalqsızlıq dərdi yağdı üstümüzə.

Xalqı öldürüb "mənim xalqım" deyə qışqırırlar.

Ölü xalqla öyünürlər, əslində gödən azadlığına sevinirlər.

Vətəni parçalatdılar, Vətənin parçasına "Vətənim" deyə bağırırlar parçanı sümürənlər. Sümürməyi bacardılar, sülənməyi bacardılar, xalq ola bilmədilər – gödən sümürənlər.

Xalqa kələk gəldilər, adını qoydular "keçid siyasəti".

Onların özlərinə (xaricilər) kələk gəldilər, adını qoydular "sülhsevərlik" siyasəti.

"Sülh"ü çox sevirlər – xalqı istibdada düçar edənlər.

***xxx***

Güclü dövlətlər zəifləri "sülh yolu ilə" əzirlər, yox edirlər.

Zəif dövlətin güclünün "sülh" təklifini qəbul etməkdən başqa əlacı yoxdur. Başqa sözlə, zəifin yox olmaqdan başqa yolu yoxdur. Ona görə də zəif qalmaq olmaz. Ölümlə barışmazlar! Varlığa qovuşmaq gərək!

***xxx***

Ölkə başçılarının elanı xalqa sevgidən ibarət olur, əməli onu əzməkdən, əsarətdə saxlamaqdan. Demokratiya da ən çox elana üstünlük verir. Çünki demokratiya hökmdarların xalqı aldatmaq zorudur.

***xxx***

Hakimiyyət xalqı sürüyə çevirir və ölümə məhkum edir. Xalqı ölümdən qurtarmaq üçün hakimiyyətin zor imkanlarını öldürmək gərək.

***xxx***

Demokratiya müstəbidliyi aradan qaldırmadı, müəyyən hədd daxilinə saldı. Demokratik şəraitdə mənəviyyat hüdudsuz azadlığa qovuşa bilməz, əks təqdirdə Pulçuluq ölə bilər. Deməli, hər şey qəlibdə, hər şey çərçivə daxilində, icazə verilən həddə olmalıdır. Demokratik azadlıq Pulçunun səxavəti ilə ölçülür. Pulçu nə qədər səxavətlidirsə, cəmiyyət bir o qədər azaddır. Demokratik Pulçuluq həyatı cəmiyyətə kirayə kimi verir. Bu kirayənin şəraiti çox pis, kirayənişinliyin şərtləri çox ağırdır. Cəmiyyət ləyaqət uğrunda mübarizə apara bilmir. Həyat uğrunda mübarizəni səhvən ləyaqətin xilası kimi düşünür. Demokratik Pulçuluq bu mübarizəni tənzimləyir.

***xxx***

İndi mənəvi problemlərdən ən çox sənayeçilər, texnikaçılar danışırlar. Əslində problemdən problemi yaradanlar danışırlar. Demokratik Pulçuluq problemi inhisara götürür ki, ondan əziyyət çəkənlər onun həlli ilə məşğul ola bilməsinlər.

***xxx***

Ədalətli olmurlar, ədalət qərarı çıxarırlar. Cəmiyyət ədaləti yazılacaq qərar kimi müstəbidin qovluğunda zənn edir. Ədaləti insani əməl kimi deyil, rəsmiyyət qərarı kimi gözləyirlər. Müstəbid ədalət qərarı çıxarır, ancaq onun ədalət geyimli qərarı yerə düşür. Çünki əlaltılarının ürəklərini ədalət işığından məhrum edib. Qərarı əməl işığına tutan tapılmır.

***xxx***

Beləliklə, müstəbiddən əməl umurlar, müstəbidliyin ömrü uzanır.





***xxx***

Başlarını qoruyanlar ayağa düşdülər. İndi ayaqda Vətən deyə bağırırlar, heç kim eşitmir. Ayağa düşənin Vətənçiliyinə heç kim inanmaz.

***xxx***

Ziyalıdan sözü aldılar, xalq lal oldu.

***xxx***

Məktəblərdə din dərsi keçmək tələb edirlər. Heç kim Babəki, Nəsimini… öyrətmək tələbi ilə çıxış etmir. Babəki döyüş qəhrəmanı, Nəsimini şair kimi tanıyırlar. Babəkin Şirvinlik xislətini, Nəsiminin kamillik xilqətini gözardı edirlər. Adi baxırlar, "adini" öyrətməyin qayğısına qalmırlar.

***xxx***

Azərbaycanda din və Qlobalizm döyüşəcək. Din üstələsə, Azərbaycandan Əfqanıstan düzəldəcəklər. Hələlik bu iki şər bir-birini saxlayır.

İran Azərbaycandan Əfqanıstan düzəltməyə çalışır Amerika üçün. İstəyir ki, Amerika İranı İraqa çevirməsin.

***xxx***

Elmi-texniki tərəqqinin ən böyük uğuru qırğınlardır. Xalqların milli özəllikləri, tarixi abidələri "tərəqqi"yə qurban verilir.

Qırğın metodları, vasitələri icad edir texniki tərəqqi.

***xxx***

Özündə özgənin böyüklüyünə ümid bəsləyəndə Vətən təməlini itirir, xalq ələbaxan olur.

***xxx***

Cəsarət rəsmiləşəndə məzlumluq yaradır. Cəsarət yalanlaşır. Yalana qalib gəlmək üçün həqiqəti rəsmiyyətdən qorumaq gərəkdir. Rəsmiyyət həqiqəti susdurur, libasını siyasətə geydirir. Din də elmin libasını xurafata geyindirir.

***xxx***

Siyasi xadimimiz yoxdur, ona görə cəmiyyətimiz dolaşıqlıqdan çıxa bilmir.

Biz ziddiyyətli danışan görünə bilərik: gah siyasət rədd olmalıdır deyirik, gah siyasi xadim axtarırıq. Biz siyasəti rədd edirik ki, insanlığı yeməsin. Ancaq onun rədd olması üçün onu nəzarətə götürənimiz olmalıdır. Olmasa, o bizi asan yenəcək. Siyasəti bacarmasaq (yəni xadimimiz olmasa), onun üzərində İnsanilik bayrağı ucalda bilməyəcəyik. Siyasəti döymək üçün onu idarə etmək gərəkdir. Siyasətlə qaynayıb qarışmadan, onun çirkablarına bulaşmadan ondan istifadə etmək.

***xxx***

Demokratik nikbinlik: – Hamı hakim olacaq.

Bəşər bu yalana inanır, İnsanlaşmaya inanmır. Bu gün bəşərin inamı qeyri-ruhanidir.

İnam ruhani məzmun daşıdığı andan İnsanlaşma başlayır.

***xxx***

Qlobalizm mühitinin içində qloballaşma oyunu ilə döyüşürük.

Dinçi mühitin içində din qaranlığı ilə döyüşürük.

Zamanın içində dolanırıq, zamandan artıq düşünürük.

Zamandan artıq əməllər yiyəsiyik.





## AZADLIĞIMIZ – HAQQIMIZDIR

Minillik sivilizasiyanın son iki Quruluşu (sosializm və kapitalizm) bir-biri ilə mübarizədə qalib-məğlub mərhələsini yekunlaşdırmaqdadır. Demək olar ki, Kapitalizm tam qələbəyə nail oldu. “Kommunizm Sosializmin ən yüksək mərhələsidir” deyənlərin arzuları isə puç oldu. Çin dövlətini belə, bu mərhələdə istisna eləmək mümkün deyil. Çünki Kommunist rejimi idarəçiliyin müəyyən bir səviyyəsində qalsa da, Çində də əsasən kapitalizmin yönətim qaydaları işləyir, iqtisadiyyatda özəllikcə. Sosializm bir çox cəhətlərinə görə, əlbəttə, Kapitalizmdən üstün Quruluşdur. Bununla belə, Sosializmin məğlubiyyətini insanlığın məğlubiyyəti kimi dəyərləndirmək olmaz. Sosializm öz məğlubiyyətini yarandığı gündən bətnində gəzdirirdi. Sosial həyatın bir çox sahələrində – təhsil sistemində, səhiyyədə, əmək bölgüsündə yaratdığı üstünlüklərə baxmayaraq, məğlubiyyəti sürətlə aşkarlandı. Bunun başlıca səbəbi milli məsələlərin düzgün qoyulmaması və həllini tapmamasında idi. Kommunizm ideyasının daşıyıcılarına görə millət kapitalizmin məhsuludur, kapitalizm ləğv olunanda o da aradan gedəcəkdir. Əslində bu fikir böyük bir tarixi qəbahət idi və bu qəbahət də Sosializmi devirdi. Millət kimi əbədi, müqəddəs bir hadisəni Kapitalizmin təzahürü saymaq avantüradan başqa bir şey deyil. Halbuki Kapitalizm özü millətin qlobal təsdiqinə qarşıdır, – baxmayaraq ki, Kapitalizm “millətlərin müqəddəratının təyini” postulatını irəli sürür. Bu və buna bənzər təşəbbüslər sadəcə kapitalizmin yaşaması üçün edilən manevrlərdir. Hər şeyin nizamının puldan asılı olduğu bir gedişatda, təbəqələşmənin zəif qanadını təmsil edən millətlərin müqəddəratından danışmaq yersizdir. Millətlərin haqqı, özlərini azad şəkildə ifadə eləməsi bəşəri tələbdir. Ancaq bu tələbin ödənib-ödənməməsi bugünkü “Güclü Təbəqə”nin istəyindən asılıdır. Baxın, “Milli Dövlətlərin yaranması” təşəbbüsü ilə çıxış edən güclü təbəqələr balaca toplumları oturuşmuş qədim xalqlara qarşı qoyurlar. Məqsəd dünyanın iqtisadi imkanlarını mənimsəyərək ona ağalıq eləməkdir. Milli haqları inhisara götürmək eybəcərlikdir.

Kapitalizm özünə kapitalizm demir, demokratik quruluş deyir. Çünki “xalq hakimiyyəti” ideyası yaxşı səslənir. Əslində isə “demokra-

tik quruluş" anlayışı planet əhalisinin gözünə çəkilən pərdədir. Dünyanın heç yerində və tarixin heç bir dönəmində xalqın hakimiyyəti deyilən bir proses olmayıb. Xalqdan ayrılmış (çıxmış yox) bir zümrənin xalq üzərində hakimiyyəti olur və xalqa qarşı talançı mövqe tutur. Dünyanın hər yerində xalqın böyük hissəsi yoxsuldur, az bir hissəsi varlıdır. Təbəqələşmə heç yerdə aradan qalxmayıb. Hakimiyyətdə bircə nəfər yoxsul adam olmur, amma xalqın içində nə qədər desən ac-yalavac tapmaq olur. Bunun nəyi xalq hakimiyyəti oldu?! Dünyanın hər yerində zorlu haqlıdır, zoru olmayan haqsız. Zor və haqq sözləri arasında bərabərlik işarəsi yazan fəlakətli əməllər həyata keçirilir.

Bizimkilər də hesab edirlər ki, Avropada qanunlar yaxşı işləyir. Bəs niyə Avropada bu qədər aksiyalar keçirilir, qarşıdurmalar səngimir?! Qanun humanizm deməkdir. Bəs o necə humanizmdir ki, sınırlardan qırağa çıxan kimi zəbtçiliyə çevrilir?! ABŞ dünyaya ağalıq edir, ancaq elə görüntü yaradır ki, ölkə əhalisini xarici düşmənlərdən qoruyur. Ərəbləri darmadağın edir, adını qoyur ki, ölkəsi üçün potensial düşməndir… Beləcə, haqdan, humanizmdən danışan Güclü Təbəqə dünyanın başı üzərində elə bir qorxu kabusu yaradıb ki, gələcəyə ümidlər azalmaqdadır. Bu qədər insan haqlarından danışılır, guya insan haqları qorunur. Ancaq haqsızlıq gündən-günə çoxalır. Çünki haqq insanın, millətin daxili məzmununu təşkil edir. Onu inhisara götürmək, yaxud qıraqdan pay kimi vermək mümkün deyil.

Bu gün yurdumuz Azərbaycanda da haqqı Amerikadan, Avropadan gözləyirlər. Çünki istər öz dövlətimizə münasibətdə, istərsə də xarici qüvvələrə münasibətdə konsepsiyasız və ideolojisizik. Bu gün bu xalq haqqını dövlətçilik məsələsində itirib. O, dövləti oğurlanmış xalqdır. Onun dövlətinin oğurlanmasında Amerika da, Avropa da yardımçıdır. Amerika, Avropa özümləşən fərdin, millətin deyil, onlara qulluq göstərənlərin "haqqını" qoruyur. Dövlət sağlam Milli Qüvvələrin əlində olmayanda "haqq qorumaq" oyunları daha geniş biçim alır. Xarici asılılıq dövlət müstəqilliyinin inkişaf etməsinə əngəllər yaradır. Dövlətimiz müstəqillik əldə edəndən bəri onun inkişaf etməsi və qorunması üçün ciddi əməllər həyata keçirilmədi. Ona görə də strateji zəmin yaranmadı. Bütün cəhdlər hakimiyyəti əldən verməmək üçündür. Ona görə də xalqımız ikiqat basqı altında yaşayır: – dövlətçiliyimizi təhdid edən xarici maraqların basqısı, bir də özünün hakimiyyət idarəçiləri tərəfindən talançılığa uğraması. Təəssüf ki, xalqımızın





etirazları yaxşı təşkilatlanmır. Yalnız seçkidən seçkiyə ümidlənir və seçkilərdə dəyişikliyin baş verməsini gözləyir.

Artıq yeni seçki ilinə qədəm qoyuruq. Seçki baş verənə qədər müzakirələr gedəcək, gümanlar deyiləcək, mənafelər toqquşacaq, qüvvələr bölünəcək və b.k. Yenə gözlər Avropaya dikiləcək, yenə "Avropanın ikili standartları" tənqid olunacaq, yenə səslər oğurlanacaq, özbaşınalıqlar başlayacaq.

Hər kəs hesab edir ki, dəyişiklik qaçılmazdır. Ancaq bu dəyişikliyi kim edəcək – xarici qüvvələrmi, xalqmı?! Görünən odur ki, dəyişiklik imkanı xarici qüvvələrin əlindədir. Avropanın bizə münasibətinin iki tərəfi var. O, strateji münasibətində dəyişməzdir, yəni ona hakimiyyətdə kimin olmasından asılı olmayaraq, idarə olunan Azərbaycan gərəkdir. Ona görə də milli qüvvələrdən təşkil olunmuş hakimiyyətin yaranmasını istəməz. Taktiki münasibətinə gəlincə, Batı özünə rəqib olan Rusiyanın Azərbaycana təsir imkanlarından asılı olaraq mövqeyini dəyişə bilir. İndiki məqamda Azərbaycan iqtidarı hansı tərəfə meyil edəcək – bu, Batı və Rusiya üçün bölgəsəl nüfuz məsələsidir. Nə qədər ki, Batı ilə SSRİ-nin varisi olan Rusiyanın maraqları başqa bölgələrdə daha çox toqquşurdu, Azərbaycan iqtidarına "balanslaşdırma" imkanı verirdilər. Artıq bu gün bu iki gücün maraqları bizim bölgədə həllini tələb edir. Odur ki, Azərbaycan iqtidarının balanslaşdırma oyunu keçərli deyil. "Ya o, ya da bu" seçimi gündəliyə gəlib. Hələ ki, Rusiya başqa bölgələrdə Batıya uduzur. İranda və Güney Qafqazda uduzmaması üçün Azərbaycana ziyan verməklə onu özünə meyil etdirməyə çalışacaq. Əlində etnik bölücülük imkanı var, bəlli "milyarderlər" oyunu da bu niyyətdən qaynaqlanır…

Bütün bunları nəzərə alaraq bir daha vurğu edirik: çıxış yolu birdir – Milli Azadlıq Hərəkatı (Uluyurd Hərəkatı) başlamalıdır. Müstəqilliyimizin həqiqi və uzunömürlü olması bu Hərəkata bağlıdır. Bu Hərəkatla Milli Şüurun inkişafına nail ola bilərik. Eləcə də, Güney Azərbaycanın Azadlığını yetirməklə dövlətçiliyimizin qurulması mərhələsini başa çatdıra bilərik. Güney Azərbaycanın azadlığı həm milli problemimizin həllidir, həm də dövlətçiliyimizə ziyan verən siyasi problemlərimizin…

*25 Sərt Ayı, 34- il*
*(dekabr, 2012)*

## MÜBARİZƏ İDRAK İŞİDİR

Azərbaycan iqtidarı və müxalifəti bir-birini dövlətin mənafeyinə zidd addımlar atmaqda suçlayırlar. Belə qarşılıqlı ittihamlarda dövlətin mənafeyinin nədən ibarət olduğu isə açılmır, bilinmir. Tərəflər ittihamlarını əhalinin sadə, başı məişətinə qarışmış hissəsinə bildirməklə onlara özlərinin haqlı olmasını təlqin eləmək məqsədi daşıyırlar. Sanki əhali öz dərdi az imiş kimi hər addımda bunların ittihamlarını da bölüşdürməlidir. Şirkətlərə paylamağa "Əsrin müqaviləsi adını" da bu iqtidar qoydu. İndi bununla öyünürlər. Çünki hakimiyyətlərinə toxunulmazlıq qarantı aldılar. Müxalifət də öz növbəsində buna qarşı çıxmadı, çünki Qərbin "sığalı"ndan məhrum olmaqdan qorxdu. Bunların gözlərinin qarşısında azərbaycanlılar öz ölkələrində xaricilərin muzdluları kimi dolanırlar. Azərbaycanı maddi və mənəvi paylamaqla keçmiş iqtidar başçısı "dünya şöhrəti" qazandı. Azərbaycanın bir hissəsini onun adına bağladılar. Xalqın boynuna minnət qoydular. Sanki bütün xalq bunlara borcludur. Hakimiyyətin "indiki davamı" Qərb dövlətlərindən inciyir, onları müxalifətin "ayağına verməkdə" Qərbi qınayır. Azərbaycanı Rusiyaya təslim edəcəyi ilə Qərbi hədələyir. Bu, onların əslində "məşhur" "balanslaşdırma siyasət"ləridir. Bunlar üçün balanslaşdırma – hakimiyyəti qorumaq anlamı daşıyır. Təbiidir ki, hakimiyyətçi heç vaxt xalqçı, yurdçu olmur, Qərbçi və rusçu olur. Öz Qərbçiliyini və rusçuluğunu, hakimiyyətini qorumaq üçün balanslaşdırma siyasəti adıyla həyata keçirir. Bu gün siyasi rəqabətdə Qərb və Rusiya həlledici təsirə malik olduqları üçün (əlbəttə, söhbət əsasən Azərbaycana münasibətdən gedir) iqtidar Qərbçi və rusçudur. Mahiyyətcə o, həm də farsçıdır, ərəbçidir. Bir sözlə, xalqçı olmayanın başqaçı olması (özgələşməsi) qaçılmaz olur. Müxalifət isə əsasən Qərbçi görünür. Hətta Qərbçilikləri ilə fəxr edirlər. Qərbçi olmadan xalqa xeyir verməyi mümkün saymırlar. Onlar xalqçı olmağın yolunu Qərbçi olmaqdan salıblar. Nə qədər ki, hakimiyyətdə deyillər, Qərbçidirlər, hakimiyyətə gələndən sonra rusçuluqları da aşkarlanacaq, – "balanslaşdırma siyasəti" həyata keçirəcəklər.





İqtidar və müxalifət bir-birini xalqdan uzaqlaşdıran əməllər həyata keçirirlər. Xalq bu şəbəkənin girovuna çevrilib fırladılır, azadlığına doğru yol başlaya bilmir.

İqtidar Rusiyaya meyil edir, Qərb basqılarını azaldır. İqtidar sevincək bəyan edir ki, Qərb müxalifəti istəmədi. Əslində Qərb müxalifətə görə deyil, özünün talançı demokratiyasına nüfuz yaratmaq üçün basqı göstərir, ya da göstərmir. Onun basqı siyasəti öz ağalığını qorumaq məqsədi daşıyır. Rusiyanın Azərbaycana qarşı iştahlı olmasından istifadə edən iqtidar hakimiyyətini möhkəmlətməyə çalışır, seçkiləri də öz xeyrinə həll edə bilir.

Bütün bunlar Azərbaycanın siyasi həyatının gerçəkliyidir. Onu da əlavə eləmək olar ki, Azərbaycanda farsçı məşədilər də fəaliyyət göstərirlər. Adını çəkdiyimiz bütün bu qüvvələr yurdumuzda ulusal dəyərləri sıxışdıran özgəçiliyə himayədarlıq edirlər. Bu gün Azərbaycanda milli heç nə qalmayıb. İqtidarın və müxalifətin xalqa psixoloji təsirləri uçurucudur, dağıdıcıdır. Azərbaycan xalqının bugünkü səviyyəsi də onların uçurmasına uyğundur, qurulmağa uyğun deyil. Hakimiyyətdə qalmaq, yaxud hakimiyyətə gəlmək istəyənlər xalqı çığır-bağır salmağa, həşir göstərməyə çağırırlar. Hakimiyyət uğrunda rəqabət aparanlar xalqın həşiri ilə bir-birini geri çəkilməyə məcbur eləmək istəyirlər.

Mübarizə idrak işidir, iradə onun dalınca gəlir. Xalqı idraki səviyyədən məhrum edib haylamaq – bir-birinin ardınca məğlubiyyətlər yaradır. Məğlubiyyətin səbəbini dərk eləmədən fəlakətlərdən çıxmaq mümkün deyil. Xalqın önünə keçənlər əslində xalqı balaca sayırlar, xalq onlar üçün məqsəd deyil, hakimiyyətə gəlmələri üçün vasitədir. Xalqı həşirə salırlar ki, Azərbaycana ağalıq eləmək istəyən beynəlxalq qüvvələrə əhali ilə bir yerdə olduqlarını sübut etsinlər. Beynəlxalq qüvvələrin öndə gedənlərimizə yardımı əhalinin çox həşirə salınması müqabilində artır. Oynadılan xalq tez nökərləşir. Onsuz da bizim xalqımızı nökərləşməkdən qoruya bilən yiyə dövlətimiz yoxdur. Bizim dövlətimizi xalqımız öz dəyərləri ilə qurmayıb. Dövlət bütün atributlarıyla özgəçilikdən qurulub. Dövlətin qəbul elədiyi qanunlar ulusal tələbləri yox, beynəlxalq tələbləri həyata keçirmək üçündür. Xalqçılığın çökdürüldüyü yerdə isə beynəlxalqçıların humanizmindən danışmaq mümkün deyil.

Biz istəyirik xalqın başını sosial problemlərin həlli yönündə verilən boş vədlərlə qatmasınlar. Xalqsızlıq, Vətənsizlik problemlərinin köklü səbəblərindən xalqı uzaqlaşdırmaq qəbahətdir.

Xalq hakimiyyət və "müxalifət" özgəçiliyinin, nökərçiliyinin təsirindən, beynəlxalq təşkilatların yalançı himayədarlığından xilas olmaq üçün Milli Azadlıq Hərəkatına başlamalıdır.





## TÜRKÜN AZADLIQ YOLU

*("İnama Çağırış" silsiləsindən)*

Çağdaş cəmiyyətdə hər kəs gerçəkliyi ifşa edir, üzdəki eybəcərlikləri dilə gətirir, yaşamaq imkanlarının məhdudluğundan gileylənir, bu vəziyyətdən çıxmağın gərəkliyini vurğulayır. Kimlərsə hakimiyyətin filankəsə keçməsiylə cəmiyyətin xilas olacağını vəd edirlər, kimlərsə beynəlxalq siyasi aləmdə nüfuzu olan qabaqcıl dövlətlərin yolunu getməyi xilas sayırlar. Başqa bir kəsim güclü dövlətlərin siyasi mərhəmətinə küsənməyi tövsiyə edir, bir ayrısı dinə qayıtmağı doğru yol sayır və b.k.

Hər kəs öz axtarışlarını uğurlu, tapıntısını haqlı bilir. Ancaq heç kəs heç kəsin axtarışlarını bəyənmir, tapıntısını qəbul eləmir. Biz isə deyirik ki, insanlar nə axtardıqlarını bilmirlər, əksinə, heç axtarmırlar da. Onların Yurduna gətirilənləri qəbul edirlər. Beynəlxalq siyasət böyük yalanlar mühiti formalaşdırıb. Bu yalanların düyünlərini açmağa çalışdıqca yeni yalanlar düyünü əmələ gəlir. Həqiqətdən baş çıxarmayanlar yalanlardan baş çıxarmağa çalışırlar. Cəmiyyəti idarə edən ***yalanbaşlar*** əmələ gəlir. Onların işi həqiqət adıyla qulaqlarına doldurulan yalanları möhkəm səslə bağırmaqdan ibarət olur.

Demokratiya sözünü sürmə kimi gözlərinə çəkirlər, – gözəl göstərmək istəyirlər demokratiyanı. Halbuki heç bilmirlər demokratiyanın başı haradır, ayağı hara. Yalanbaşlar Yalan mühitinin cırtdan qəhrəmanlarıdır.

Biz deyirik, türk ulusu siyasət yarada bilmir. O, siyasətdə həmişə uduzur. Biclik güclü işləyən yerdə Türklük işləmir. Bu, tarixlərdə də belə olub, indi də belədir. Tarixlərdə türkün məharətli siyasəti yox, möhtəşəm gücü olub. O, bicliklə, fəndgirliklə deyil, gücü ilə, güclü ruhu ilə qalib olub. Türk heç vaxt ingilis bicliyinə, rus gicliyinə, yəhudi sərmayəçiliyinə çata bilməyəcək. Burada bizim məqsədimiz xalqları üz-üzə qoymaq, başqalarını təhqir eləmək deyil. Təəssüf ki, həmin xalqların dövlətləri öz xalqlarında adını çəkdiyimiz keyfiyyətləri oturuşdurublar. Bir zamanlar qol vardı, qılınc vardı, – meydanlarda üz-üzə döyüş vardı. Belə döyüşlərdə (tarixdən bəlli olduğu kimi) türk əksər vaxtlarda qalib olurdu.

Mərdanə güc fəndgirliyə məğlub oldu. Türk İdrak işi ilə məşğul olmadı. Siyasət dünyasında isə türk ucala bilmədi. Yaxşı ki, həm də türkə biclik-giclik öyrədə bilmədilər. Bu millətin aydın, sağlam, mərd fitrəti üzərində əyrilik, fəndgirlik oturuşa bilmədi. Azadlığını itirdi, kölgələşdi, qoltuqlara düşdü – erməni sifətinə düşməyi bacarmadı.

Bu səbəbdən də deyirik ki, türk ruhaniyyat yaratmalıdır. O, azadlığa siyasi yarışlarda deyil, ruhaniyyat tələblərində qovuşa bilər. Bununla biz demək istəmirik ki, türk siyasət yarada bilmədiyi üçün bacarıqsızdır və o, ruhaniyyatı əlacsızlıqdan yaratmalıdır. Türk üçün ruhaniyyat yaratmaq siyasətə alternativ yol deyil, doğru və yeganə Yoldur. Çünki türk fitrətən İnsançıdır, İnamçıdır, yaşamsevərdir. Onun mayasında bəşəri keyfiyyətlərə xəyanət imkanı yoxdur. Biz “ruhaniyyat” deyəndə dini gedişlərə qoşulmağı deyil, Türkün İnamçılıq, İnsançılıq xislətindən doğan Mütləqə İnam Ruhaniyyatçılığını nəzərdə tuturuq. Din Ruhaniyyatla məşğul olmur, siyasətlə məşğul olur. Dinə üz tutmaq əslində siyasi yarışlara üz tutmaqdır. Türk dindən yarımayıb, başqalarını yarıdıb. Türk dinlə var olmayıb, var olana qulluq edib.

Din Avropa siyasətiylə münaqişə edir, mübahisə edir, əslində siyasətə gərək olur, siyasətin gördüyü işi görür. Din siyasətə bənzədiyi üçün siyasətə uduzur. Bu səbəbdən də ***Türkün dinçiliyi erməninin rusçuluğu kimi bir şey olur.*** Ayrı-ayrı türk çayları ayrı-ayrı dənizlərə axıb itməməlidir, hamısı bir yerə axıb özləri dəniz əmələ gətirməlidir. Bunun isə yeganə doğru yolu türkün öz Ruhaniyyatını yaratmasıdır, başqa sözlə, bu gün artıq yaranmış olan Ruhaniyyatına – Mütləqə İnam Dünyabaxışına yiyə durmasıdır. Bu, bizim düşündüyümüz doğru və qaçılmaz yoldur. Başqa cür doğru yol düşünən varsa, qabağa dursun – biz onun boyunu görməyə hazırıq.





## BOSNA – HERSEK TÜRK BİZİM OCAK TÖRƏNİNƏ UĞURLAMA

Ürəyinizdə Günəş olsun, sayğılı dostlar!

Aramızda olan məsafə uzun olsa da, qəlbimizlə, sevgimizlə yaxınıq sizlərə. Həm də yalnız sevgimizlə deyil, işimizlə, mübarizəmizlə sizlərə doğmayıq, gərəyik – çiyin-çiyinə, ürək-ürəyə söykəyik. Dünyanın harasında olursa olsun, sağlam düşüncəli türk insanlarımızın ancaq bir istəyi olur – barış, özgürlük. Bu istəklərə bir az dərin məna verib düşüncələrimizi dəqiqləşdirə bilərik. Türk fitri azadlıqsevərdir. Ona görə də bugün ən çox onun qəlbi Azadlıq sevgisiylə döyünməli və Amacı da Azadlıq uğrunda savaş olmalıdır. Demokratiya, söz azadlığı Türkün Azadlıq istəyinin yanında çox sönükdür. Bugün demokratiya və söz azadlığı hakimiyyət uğrunda mübarizədə işlədilən terminlərdir, yaxud metodlardır. Azadlıq məsələsini bu sözlərə söz kimi də, məzmun kimi də yerləşdirmək mümkün deyil. Azadlıq – milli-insani varolma deməkdir – Ali dəyərlərlə yaşamaq, dünyaya öz sözünü demək, özünəxaslığı bəşər məzmununda tapmaq deməkdir. Bəs kimdən, nədən azad olmaq gərəkdir?! – Bizə görə bu vaxtacan türkün göstərdiyi hünərlər, çəkdiyi əməklər türk adı, türk kimliyi üzərində zəmin tapmayıb, əsasən Özgəliyi yarıdıb, Özgələrə gərək olub. Türk eşqi, türk enerjisi, türk qüvvəti türkün cahanşümul hikmətini, fəlsəfəsini, dünyabaxışını ortaya qoymalı idi. Qoymadı. Bu səbəbdən də gücümüz parçalandı, girdilər içimizə, yadlaşdıq Özümüzə. Yadlardan barış umduq, səxavət umduq, aqibət istədik. Bizə nəinki istədiklərimizi verdilər, əksinə, vəhşi damğası vurub böhtanlara məruz qoydular (bu böhtanlar sizlərə bəllidir). Qədim totemimiz olan Bozqurdu bizim xislətimizdə olan vəhşilik simvolu kimi qiymətləndirib təbliğ elədilər. Bu təbliğat ona görə yeriyə bildi ki, biz böyük dəyərlər yaradıb ona yiyə durmadıq. Hər kəs öz yaratdığını bizə göndərdi, arxasınca da gəlib içimizdə oturuşdu. Deməli, Türk olaraq, biz bu fəlakətlərdən dərs götürməliyik. Bizim böyük Azadlığımız bu nöqtədən başlayır.

Asif Atanın baxışına görə türk böyük azadlığına qovuşmaq üçün böyük imtinalara yetməlidir – Dairələrdən çıxmalıdır: – Batılaşma dairəsindən, ərəb xurafatçılığı dairəsindən, beynəlxalq birliklər dairəsindən...

Böyük Türk Birliyi yaranmalıdır. Bunun üçün türkün öz dünyabaxışı olmalıdır, öz fəlsəfəsi olmalıdır – Biz, Mütləqə İnam Ocağı, onu veririk; Ulusumuzun özümləşən mədəniyyəti olmalıdır – biz onun əsasını yaratmışıq; öz qaydaları olmalıdır – biz onu ortaya qoymuşuq; yazı (əlifba) birliyi olmalıdır – Orxon-Yenisey yazısı əsasında biz onu təkmilləşdirib işlədirik. İnanc Birliyi olmalıdır, bu, çox prinsipial məsələdir. Biz, böyük Türk Etnosu olaraq, nə qədər ki, ayrı-ayrı toplumlarımızla fərqli mədəniyyətlər daşıyıcılarıyıq, yabançı qüvvələr aralarımızdakı uzaqlığın qalmasına çalışacaqlar – bir-birimizə yad yaşamağımızı təmin edəcəklər.

Biz başqa xalqların mədəniyyətlərinin əleyhinə deyilik, nə də mədəniyyətlərin qarşılıqlı etkilərinin (təsirlərinin) əleyhinə deyilik (bu, bizim istəyimizdən asılı olmayaraq olur). Ancaq başqa mədəniyyətlərin bizi özümüzdən almasına, ayırmasına qarşı dirənməyin tərəfdarıyıq.

Biz Türk Birliyi deyəndə öz milli-insani dəyərlərimizi yaradıb onun yörəsində olmağı, yaşamağı nəzərdə tuturuq. Biz Türk birliyini imperiya kimi təsəvvür etmirik. İmperializm – bəşəriyyətə qarşı duran dağıdıcılıqdır, həm də imperializmə mənsub olan millətin mənəvi ölümüdür. Türk fitri insançıdır, birsifətlidir, mərddir, həqiqətsevərdir, təbiətsevərdir, bütövlükdə bəşərsevərdir. Türkün uca ruhunu bərpa eləmək və yaşatmaq düşüncəmizin əsas qayəsi, savaşımızın əsas hədəfidir. Düşünürük ki, türkün pərakəndəlikdən qurtarması üçün Asif Atanın yaratdığı Mütləqə İnam Dünyabaxışı öyrənilməli və yaşadılmalıdır. Bu yöndə hər yerdə ciddi maarifçilik işi qurulmalıdır.

Sayğılı dostlar, mənim təkliflərimi, çağırışlarımı bir türk övladının doğma ərki kimi qəbul etməyinizi xahiş edirəm. Bizim insanlarımızın enerjiləri, eşqləri, həvəsləri qısa ömürlü təşkilatlar yaratmağa deyil, uzun ömürlü quruculuq işlərinə həsr olunmalıdır. Özgələrdən aldığımız, öyrəndiyimiz ideyalar bizləri həmişə yarıyolda buraxıbdır, davam edə bilməmişik. Çünki ruhumuza qovuşa bilməmişik. İdeyaları özümüzdən almaq, özümüzdən öyrənmək vaxtıdır.

İnanırıq ki, Bosniyada toplaşan dəyərli insanlarımız bugünkü təşkilatlanmaları ilə prinsipial addımlar atmağa hazırlaşırlar. Yəni Bosna Hersek Türk Bizim Ocağı böyük Türk Birliyi yönündə ciddi axtarışlar edəcək, möhtəşəm bir hərəkata çevriləcəkdir.

Hər birinizi tək-tək təbrik edirəm, uğurlar diləyirəm.

*22 Qar, 31- il*
*(yanvar, 2000)*





## QİBLƏMİZ – TÜRK BİRLİYİ

Sovetlərin təsirində olan türk toplumlarının taleyini diqqətdə saxlamalı və ilk fürsət düşəndə onların bağımsızlıqlarına yardımçı olmalı! Yaratdığı Türkiyə dövlətinə belə buyurmuşdu Atatürk. Əlbəttə, bunun üçün Türkiyə öz bağımsızlığını qorumalı və hərtərəfli inkişaf yolu keçməli idi. Siyasi dünyanın əhatəsində və basqısı altında tək qalan Türkiyə üçün bağımsız qalmaq və inkişaf etmək suyun üzündə gəzmək qədər çətin bir iş idi. Türkiyənin bu günə qədər bütöv qalması bəlkə də bir möcüzədir. Atatürk idrakının möhtəşəmliyi, dövlət quruculuğu yönündə bənzərsiz siyasi xadimliyi və dünyaya bəlli olan misilsiz hünərləri ölümündən sonra da Türkiyənin varlığını qorudu. Özəllikcə onun hərbi quruculuq proqramı heç kimin aşa bilmədiyi bir barı kimi Türkiyənin sınırlarını əhatə elədi. Bu haqda çox deyilib, çox yazılıb. Biz də öz sevgimizi bildirmək üçün bu məsələyə qayıdır və bunu insanlarımıza dönə-dönə xatırlatmaq istəyirik. Çünki bu gün əksəriyyətimizin arzuladığı, can atdığı böyük Türk Birliyinin baş tutması üçün hər birimiz damcı olub daşı dəlməliyik, hamımız bir nöqtəyə düşməklə. Əfsuslar olsun ki, hələ bir nöqtəyə düşə bilmirik, hərəmiz bir daşa çırpılırıq...

Sovetlər birliyi dağıldı. Bağımsız Türk dövlətləri yarandı. Ancaq bu bağımsız dövlətlərimizin bir-birini anlamasında ortaya çıxan problemlərin çözülməsi müşkülə dönüb. Belə görünürdü ki, Sovetlər dağılan kimi Türkiyə irəli duracaq və əsarətdən qurtulmuş doğmalarını bir araya gətirəcək. Təəssüf ki, bu yalnız belə görünürdü. Bunun belə olmaması üçün isə dünya ağalığını əldən buraxmaq istəməyənlər yolları çoxdan bağlamış və hazırladıqları maneələri hərəkətə gətirmişlər. Sovetlər imperiyasını dağıtmaq çalışmalarında bulunan Qərb, dünya düzəninə nəzarət edəcək böyük Türk Birliyinin yaranmaması üçün uzun illərdir Türkiyənin başında əməliyyatlar həyata keçirir. Onun əl-qolunu iqtisadi çitəmələrlə elə sarıyıb ki, böyük meydanda bir balaca müstəqil addım atmaq istəyən kimi Türkiyəni ictimai anarxiya ilə üz-üzə gətirir. NATO-nun tərkibində olan Türkiyə böyük hərbi manevr imkanlarına müstəqil şəkildə sahib deyil (mütləq ABŞ-ın mövqeyini nəzərə almalı,

məsləhətləşmələr etməlidir). Dövləti (Türkiyəni) siyasi idarəetmə üsulu, ideoloji nizamı, demək olar ki, Qərbin təsirindədir. Hələlik Ordunun siyasi hakimiyyətə müdaxilə imkanı istisnadır. Hərçəndi Türkiyəni tam nəzarətə götürmək üçün bu strukturu da çoxdan pozmağa çalışırlar. Bu strukturun pozulmasının çətin olduğunu duyduqlarında siyasi hakimiyyətə dinçi Ərdoğanın gəlməsini təmin etdilər. Bununla da iki mərhələni birləşdirmək əməlinə başlamış oldular. Belə ki, Türkiyə kimi güclü dövlətin guya xristian Qərbinin deyil, müsəlman Şərqinin yanında olduğu görüntüsü yaratmaq, ikincisi və əsası, Türkiyə ordusunun dövlət üçün təhlükə yarandığında siyasi hakimiyyətə təsirini müsəlman qaragüruhun demokratik səs çoxluğu ilə aradan qaldırmaq. Söz yox ki, müsəlman, xristian məsələsi kosmetik bir məsələdir. Böyük siyasətin stratejisində xristian, müsəlman məsələlərindən qaynaqlanan təsir mövcud deyil. Bunlar kütlədən taktik təsir vasitəsi kimi yararlanmaq üçündür. Ümumən dini təsir imkanları bütünlükdə böyük siyasətin əlindədir. Heç bir dövlətdə dinçilik hakim deyil, dünyəvilik hakimdir. Hətta Pakistan və İran kimi dövlətlərdə də dinlik dünyəvilikdən aşağıdakı pillədə durur. Biz bunu dönə-dönə yazmışıq və demişik.

Dedik ki, Sovetlər dağılandan sonra gözləntilərimiz baş vermədi. Az qala 20 ilə yaxın bir müddətdə türk toplumları arasında o qədər də dərin kök salmayan mədəni əlaqələrdən başqa ciddi təsdiqlərin şahidi deyilik. Əsaslı ideoloji proqram olmasa, Türk Birliyi indiki kimi kövrək bir durumda qalacaq və irəli getməyəcək. Əsaslı birliyə isə mane olan səbəblərdən biri mənəvi-psixoloji cəhətdən türklüyə az bağlı olan və yaxud bağlı olmayan adamların dövlətlərimizin rəhbərliyində təmsil olunmalarıdır. İndiyə qədər onlar əsasən birlik görüntüsü yaradıblar. Atılan addımları da bizim gözardı eləmək fikrimiz yoxdur. Məsələn "Türk dövlət və topluluqlarının dostluq və qardaşlıq qurultayı"nda ortaq türk danışıq dili haqqında qənaətlər, ortaq türk tarixi və mədəniyyətinin yenidən işlənməsi, bu yöndən kitab nəşrlərinin meydana gəlməsi, gömrük rüsumlarının azaldılması və b.k. işlər, sözsüz ki, gərəklidir. Eləcə də "Türk Dünyası gənclik günləri və qurultayı"; burada müxtəlif məsələlər üzrə komissiyaların işləməsi; "Avrasiya Yazarlar Birliyi"nin fəaliyyəti; Türksoy – Türk dövlətlərinin ortaq kültür yönətimi; türkdilli dövlətlərin parlament assambleyasının yaranması və s. də uğur saymaq olar. Ancaq bunların heç biri, obrazlı desək, böyük okeanlarda üzə biləcək gəmilər deyil. Böyük əngəllərin qarşısında tab gətirmək üçün ayrı bir güc tələb





olunur. Bu güc isə Türk dövlətlərinin siyasi və hərbi ittifaqının olmasına bağlıdır. Bu yöndə təəssüf ki, işlər gözə dəymir.

Türkmənistan özünü neytral dövlət adlandırır və yaxın gəlmir. Bu neytrallığı sabah hansı güc qoruyacaq, o da bəlli deyil. Özbəkistanla Türkiyənin münasibəti İslam Kərimovun şıltaqlığından asılı duruma düşüb. Nazarbayev Rusiya ilə birgə addımlar atır (kollektiv Təhlükəsizlik Şurasına imza...). Bundan sonra türkdilli dövlətlərin parlament assambleyası nə iş görəcək və necə işləyəcək? Bu assambleyanın yaşaması və təsirə malik olması üçün, yuxarıda vurğuladığımız kimi, ortaya ideoloji konsepsiya qoyulmalıdır. Bu konsepsiyanın dəqiq hədəfləri və bu hədəflərə doğru gediləcək yol bilinməlidir. Biz hesab edirik ki, Birlik konsepsiyasının işə düşməsi üçün Türk dövlət və toplumları beynəlxalq birliklərin təsirlərindən azad olmalıdırlar. Beynəlxalq birliklər türk dövlətlərinə problemlər yaradırlar, onlar isə bu problemlərin həlli üçün həmin birliklərə müraciət edirlər. PKK, Kipr, Qarabağ, Kərkük beynəlxalqlaşmış və bizi əsarətdə saxlayan problemlərdir. On illərdir siyasi dünya Türkiyəni "erməni soyqırımı" hoqqası ilə təhdid edir. Abdulla Gül də Sərkisyanla cici-bacılıq edərək erməniləri qılıqlayır. Bunun dalınca Türkiyədə maraqlı qüvvələr "ermənilərdən üzristəmə" kampaniyası başladırlar. Eyni zamanda İğdır-da inzibati təsirlərə malik olmaq üçün demoqrafik dəyişikliklər həyata keçirirlər. Məlum Qars özbaşınalığı indi də bələdiyyə seçkilərindən sonra İğdırda təkrar olunacaq. Problem bir deyil, beş deyil... Heç biri də çözülmür.

Böyük Türk Birliyinin əsas qayğılarından biri də Güney Azərbaycan probleminin həllidir. Bu problemi türklərin birliyi aradan qaldırmasa, Qərb problemi öz inhisarına götürəcək və həll olmağa qoymayacaq. Bunun cizgiləri də artıq görünməkdədir.

Çoxları hesab edirlər ki, təkcə Türk dövlətlərinin deyil, hətta ən güclü dövlətlərin də problemləri var, biz isə sanki bunları görmürük və türklərin problemlərini qabardıb həyəcanlı təqdim edirik. Söz yox ki, dünya pulçuluq girdabında yaşadığı halda dövlətlər problemlərdən yan keçə bilməzlər. Ancaq nəzərə almaq lazımdır ki, supergüclərin fərdi problemləri olsa da, onların (əsasən Qərbin, Avropanın) bir araya gəlməkdə və birgə təsir göstərməkdə problemləri yoxdur, yaxud maneçilik etməyəcək dərəcədədir. Bizi bu məsələlər deyil, əsasən türkün birləşə bilməmək problemi rahatsız edir. Biz qəti əminik ki, Türk Birliyi

dünya düzənində barış, əmin-amanlıq baxımından yeni ab-hava yaradar...

İsrar edirik: Türk dövlətləri Beynəlxalq birliklərdən çıxmalıdır. Əlbəttə, bu fikrə ortaq çıxmaq havadan asılı qalmaq kimi görünür. Düşünərlər ki, beynəlxalq birliklərdən çıxmaq mümkün deyil. Bunu da müxtəlif siyasi, iqtisadi ilişkilərin qaçılmaz təsirləri ilə əlaqələndirə bilərlər. İndiki Dünya düzəni deyilən sistemdə böyük Türk Birliyinin yaranması möcüzəvi əməllər tələb edir. Bu əməlləri həyata keçirən qüdrətli insanlar irəli durmalıdır. Qorxu siyasəti ilə, avantürist güzəştlərlə qüdrətli olmaq olmaz. Oğlunu, qızını düşünən, varidatını, milyonlarını düşünən qüdrətli ola bilməz. Xalqlarımızı imtinalara, məhrumiyyətlərə hazırlamaq lazımdır. Demokratik təsisatları cilovlamaq, milli təsisatlar yaratmaq lazımdır. Demokratik təsisatlar bizləri Dünya ilə doğmalaşdırmır, Dünyanın ayağına zəncirləyir. Bölür bizi, anarxiya yaradır içərimizdə.

Eyni zamanda, biz türklərin Beynəlxalq birliklərdən imtinasını istəyəndə din ətrafında bir araya gəlməli olduqlarını nəzərdə tutmuruq. Bu mümkün deyil və xeyirli də deyil. Əvvəla, türk toplumlarının dini baxışları kifayət qədər mürəkkəbdir və çoxçeşidlidir. Müxtəlif dinlər və dinlərin təriqətləri türk etnosunu hissələrə bölüb. Başqa bir tərəfdən, hər hansı bir türk toplumunu çoxluğun baxışına yönəltmək olduqca çətindir və uzun vaxt tələb edir. Bütün türklərin vahid dünyabaxışa tabe olması isə qaçılmazdır. Çünki dünyabaxış həyatın bütün sahələrini əhatə elədiyi üçün fərqli həyat sistemi ilə yaşayan toplumların böyük birliyi alınmaz. Ən yaxşı halda bu birlik mədəni əlaqələr səviyyəsindən o yana getməz.

Biz Türk Dünyasına Asif Atanın yaratdığı Mütləqə İnam dünyabaxışını təqdim edirik. Türk etnosunu birləşdirən siyasi ideologiya da Mütləqə İnam Baxışı əsasında yarana bilər. Bu gün bu fikir çoxlarına nağıl kimi görünə bilər. Biz bunu başa düşürük. Ancaq başqa bir yol yoxdur axı. Olsaydı, ortaya qoyulardı və işə düşərdi. Türklüyü istəyən, onun birliyinə çalışan çox ləyaqətli, mübariz insanlarımız var, demək olar ki, bütün türk toplumlarında. Ancaq onların dünyabaxış sistemi yoxdur. Bunsuz isə birlik yaranmır. Yuxarıda dediyimiz kimi, onsuz da ayrı-ayrı toplumları çoxluğun baxışına gətirmək gərəkir. Bunun üçün on illər vaxt lazım gəlir. Yaxşı olmazmı ki, həmin on illəri öz ruhumuzdan yaranan dünyabaxışın oturuşmasına həsr edək?! Biz, böyük bir millət olaraq, təkcə bu günün havası ilə yaşamalı deyilik, həm də gələcəyə





baxmalıyıq. Gələcəyimizi özümüz üçün indidən müəyyən eləməliyik. Gələcəyimizi məhsuldar eləmək üçün torpağımıza ruhani, idraki kök atmalıyıq. Onda hər hansı yad bir doktrina taleyimizi dalğalarında o yana-bu yana atmaz. Yadlıqlardan özümüzə dam düzəldirik, təməlimiz isə olmur. Biz gələcəyin böyük özülünü qoymaq şansı qazanmışıq. Ciddi ağıl işlətməli və bu şansı əldən verməməliyik.

*12 Qar Ayı, 30- il*
*(yanvar, 2009)*

## TÜRKÇÜLÜK ƏQİDƏYƏ ÇEVRİLMƏLİDİR

Türkçülük elə bir hadisə, elə bir məzmundur ki, bütün zamanlarda diqqətimizi məşğul edir, mövzumuza çevrilir. Ayrı-ayrı araşdırıcılar, yazarlar ictimai-siyasi problemlərimizin səbəblərini zəmanəyə uyğunlaşa bilməməyimizdə, hakim ideologiyalarla dil tapmamağımızda axtaranda, millətin yurdsevər aydınları əsas səbəbləri türkçülüyün aradan getməsində axtarıblar və onun ictimai həyatda bərpa olunmasına çalışıblar. O sıradan Ə.Hüseynzadə, Z.Göyalp və s.

90-cı illərin əvvəllərindən başlayaraq türkçülüyü dilə gətirənlər, onun gərəkliyindən yazanlar əslində ümumi devizlər söyləməkdən qabağa gedə bilmədilər. Ə.Hüseynzadə, Z.Göyalp türkçülüyündən fərqli bir düşüncə sistemi ortaya çıxmadı. Əlbəttə, adı çəkilən ziyalıların işini, əməyini azaltmaq fikrimiz yoxdur. Ancaq onların təqdim elədikləri türkçülük bəzi tərkiblərinə görə bugün üçün yetərsizdir. Onlar tərəfindən dilə gətirilən bəzi ideyaların ömrünü başa vurmuş saymaq gərək idi. Bunlardan biri də "Türkçülük, Avropaçılıq, İslamçılıq" ideyasıdır. Bu ideya Azərbaycanın Bayrağında rənglərlə ifadə olunub. Bu gün çoxları bu rəngləri öz istədikləri kimi yozmağa çalışırlar. Lakin kimin nəyi hara yozmağından asılı olmayaraq, ideya öz adıyla bilinir və bilindiyi tərkiblə də ictimai-siyasi təsirə malikdir.

Bizim Azərbaycan dövlətçiliyinə münasibətimiz çox həssasdır və həssaslığı qədər də doğmadır. "Dövləti olmayan xalq yetimdir" (Asif Ata). Lakin düşünürük ki, görəsən dövlətimiz doğrudanmı bir xalq olaraq bizi yetimlikdən çıxarır?! Bu səbəbdən də dövlətimizin hansı ideya ilə, ideologiya ilə qurulduğu, qorunduğu (qurula və qoruna bilirsə) bizi düşündürür və qayğılandırır. Biz hesab edirik ki, bayrağımızdakı türkçülük rəngi tamamilə formal xarakter daşıyır və hər hansı bir təsirə malik deyil. O biri iki ideya (Avropaçılıq və İslamçılıq) isə ictimai-siyasi həyatımızda hegemon təsirə malikdir.

Azərbaycanda türkçülük sözü var, türkçülük prinsipləri uğrunda mübarizə isə yoxdur. Bu məsələ nə hakimiyyətin diqqətini məşğul edir, nə də başqa siyasi seçkinlərin.





Sovet kəndirindən açılandan sonra sanki hamı millətçi, vətənsevər görünmək yarışına girişdi. İctimai mühitdə saxta orijinallığa meyil var. Türkçülükdən danışmaq, yazmaq üçün açıq maneə olmadığından bu mövzuya müraciət edənlərin sayı birdən-birə çoxaldı. Hətta qəribə bir eyforiya da yaranmışdı. Artıq çoxları elə təsəvvür edirdilər ki, deyəsən, Azərbaycan tam türkləşib. Sonradan Qərbçilik əksəriyyətin ağzını elə sulandırdı ki, türkçülüyü qoydular bir qırağa və başladılar demokratiya ilə məşğul olmağa. Bunların sırasında hətta türkçülüyə qarşı çıxanlar da tapıldı.

Maneə olmadığından türkçülükdən danışanlar bezdilər. İndi az qala türkçülükdən danışmağı çoxları əhəmiyyətsiz bir şey hesab edirlər. Əslində hələ türkçülüklə ciddi məşğul olunmayıb. Hamı türkçülüyün təbliğatçılıq mərhələsini keçib. Heç kim ***İmtinaçılıq və Təsdiq*** dövrünə qədəm qoymayıb. Əslində hələ Türkçülüyün təbliğatçılıq mərhələsi də heç bitməyib. Çünki indiyə qədər təbliğat ən çox zahiri məqamlarla bağlı olub. Digər tərəfdən, bu elə məsələdir ki, təbliğatı birtərəfli qaydada aparmaq mumkun deyil. Başqa sözlə, Türkçülüyün gərəkliyini öyrətmək, ona qarşı yönələn zərərli ideyaları, gedişləri də göstərmək və ifşa etmək tələb edir. Türkçülüyün təsdiqi yadlıqlardan imtina ilə başa çata bilər. İmtina isə cəsarət, hünər və ərdəmlik kimi keyfiyyətlər istəyir şəxslərdən. Yalnız məhrumiyyətlərə gedə bilən insanlar özümlüyü təsdiq edə bilərlər. Qərb təşkilatlarından pay almaq üçün növbəyə dayananlar milli ruhun ölümünü ağrısız seyr edirlər. İngilis dili öyrənirlər, qrant alırlar, pul qazanırlar. Qərb deyir demokratiyanın inkişafı üçün pul ayırıram. Əslində isə bu o deməkdir ki, özünüzü inkar eləməyiniz üçün pul ayırıram.

Biz demək istəyirik ki, Türkçülüklə Qərbçilik daban-dabana zidd baxışlardır. Bunlardan birinin inkişafı o birini rədd edir. Azərbaycanın üzdə olan zümrəsi bugün Qərbçiliyi seçib. Türkçülükdən yazanlar, danışanlar bu zümrənin seçiminə qarşı çıxmadılar, onun dalınca getdilər. Ona görə Türkçülük məsələsində əllaməçilik yaranır. Mətbuatda köhnə fikirləri səsləndirənlər təkrarçılığa gedirlər. Mənəvi boşluq və idraksızlıq Türkçülüyü gözdən salmağa xidmət edir. Əlacsızlıqdan vurnuxanlar bəzən əcayib güzəştlər haqqında düşünürlər. Məsələn, coğrafi Turançılıq, dinin türkləşdirilməsi, dinin demokratikləşdirilməsi, demokratiyanın milliləşdirilməsi və s. kimi cəfəng fikirlər səsləndirirlər. Belə mayası xarab sintezlər nəyə xidmət edir axı?!

Avropa Türkiyəni sındırmaq və türkü zəlil günə qoymaq məqsədi güdür. Bizə problemlər yaradır, həyatımıza, siyasi varlığımıza müdaxilələr edir. Özünü bizim qəyyumumuz kimi aparır. Onu da deyək ki, böyük bir xalq üçün qəyyumun olması çox təhlükəli problemdir. Avropa bütün problemlərimizə nəzarət edir və qoymur ki, hansısa problemimizi axıra qədər özümüz həll edək. Beynəlxalq sayılan siyasi birliklərini də maneə olmaq üçün yaradır. Asılı saxlamaq və müdaxilə imkanlarını qorumaq üçün bizi bu birliklərə cəlb edir, şirnikdirir. İqtisadi əlaqələr bu birliklərin qorunması yönündə həyata keçirilir. İqtisadi əlaqələr elə bir yöndə inkişaf etdirilir ki, xarici siyasətimizi Avropa müəyyənləşdirir. Torpaqlarımızı ermənidən necə istəməyimizi də Avropa bizə diktə edir. Avropa plüralizmi bizi təşkilatlar yaratmaq azarına salıb. Hər gün təşkilatlar yaradırıq, amma təşkilatlana bilmirik. Səfərbər olunmaq, gücü bir yerə yığmaq bizə nəsib olmur. Dərdlərimizin, problemlərimizin adına çoxsaylı təşkilatlar yaranır. Ümumazərbaycan dərdi bölgələrə bölünüb. Bölürük, kiçildirik dərdimizi. Bu, Dərdi anlamamaqdan irəli gələn ziyankarlıqdır. Əslində Vətən vahiddir, onun dərdi birdir. Bunu qulaqardına vuranlar qruplara bölünürlər. Biri deyir, mən Borçalı dərdi ilə məşğulam, o biri deyir Qarabağ dərdi ilə, bir başqası Göyçə, Dərbənd, Güney dərdi ilə məşğul olduğunu bəyan edir. Ayrıca Kürdəmirlə, Qazaxla, Lənkəranla “məşğul” olanlar meydana çıxır. Siyasi dünya ayrı-ayrı məhəlli problemlərimizlə məşğul olduğunu elan edənlərə diqqət ayırır, onları nəzarətə götürür. Guya qayğı göstərirlər bizə, dərdimizə şərik çıxırlar. Əslində isə mane olurlar. Vəziyyəti elə qatıb-qarışdırırlar ki, bütövləşməyək, dərdimizə bütöv yanaşmayaq, sözün həqiqi mənasında problemlərimizi həll eləməyək. Ancaq başımız elə başımızı qaşımağa qarışsın. Qarabağ oyunu, Borçalıların qalıb-köçmə problemi ətrafında, güneylilərin fəryadı ilə bağlı həşirlər yaratmaq, içimizdə demokratiya, hüquqi azadlıqlar uğrunda mübarizə oyunları və s. xalqımızı sarsıtmaq, inamsızlaşdırmaq üçün düşünülüb. Bəli, ***xalq öz dərdi ilə ciddi məşğul olmayanda başqaları onun dərdini oyuna çevirirlər.***

Eləcə də digər ümumtürk məsələləri. Guya Kıprıs təkcə Türkiyənin, Qarabağ təkcə Azərbaycanın, xalqı sürüləşdirmə əməli təkcə Türkmənistanın… problemidir. Bütün bu problemlər ona görə dağınıqdır ki, xarici siyasətimizin yönü, formalaşdırılması əlimizdən alınıb. Lap elə Türkiyəninki də. Canımızı yara bürüyüb. İstəyirik barmaqlarımızın birini





ayağımızın, birini belimizin, boynumuzun yanına göndərək ki, qaşımaqla məşğul olsun.

Azərbaycanlıları Avropadan yürüyən əxlaqsızlıq, ailəsizlik, hərcayilik fəsadları təqib elədikcə bir qismi bu axara düşüb məhv olur. Müəyyən bir qismi İslama qısılır, sığınır, sıxışdırılır. Türkçülüyə – özümləşməyə meyil etmirlər, əski yadlığı özümlüyün bərpası kimi anlayırlar. Türkçülüyü indi İranın da yardımı ilə Avropaçılıq kimi qələmə verirlər, təbliğ edirlər dinçilər.

Bəs nə olsun, necə olsun?! Biz, Mütləqə İnam Ocağı olaraq, üzümüzü nə Qərbə, nə İslama, nə indiki siyasi Türkiyəyə tuturuq. Üzümüzü özümüzə tuturuq, özümüzdə varlığımızın meyarını qururuq. İçimizə söykənməyin yolunu yaradırıq.

Ayrı-ayrı təşkilat yaradıcılarından soruşuruq: filankəs, əgər xalq sənin arxanca getsə, nəyə nail olar, hara aparıb çıxararsan onu – heç bu barədə düşünmüsənmi?! Bu sualı biz özümüzə vermişik və cavabını da demişik. Biz Türkçülüyün yeni səviyyəsini təqdim edirik – İnam Türkçülüyü. Bu həm də İdrak Türkçülüyü, Mənəviyyat Türkçülüyü, İradə Türkçülüyü deməkdir. Bizim dünyabaxışımızda Türk İnamı, fəlsəfəsi bir sistem halında ortaya qoyulur və bu, Türk Ruhaniyyatının dünyaya təqdimi məqsədini daşıyır. Başqa cür Türkün dünyada rolunun artması mümkün deyil. Hegemon siyasi mərkəzlərin yaratdıqları birliklərə üzv olmaq üçün siyasət yürütməkdə, İslamı özününkü saymaqla yurdumuzda yadlığa imkanlar açmaqda hünər yoxdur, ərdəmlik yoxdur. Son vaxtlar xristianlığa yiyə durmaqdan dəm vuranlar da baş qaldırmağa başlayıblar. Bütün bunlar assimilyasiyanın bir növüdür. Belə gedişlərlə türkçülük dirçəlməz, türk birliyi yaranmaz. Təqlidçiliklə, qoltuqlara sürünməklə xəlqi yaradıcılıq bir araya sığmır. Güclü idrak əməli yetişməli, İnam işi getməlidir!

## BALACALIĞIN GÜCƏ QARŞI "İRONİYASI"

Humanizm oyunu fırıldaqçını aldatmaz. Türkiyə hakimiyyəti oyun oynamaqla balaca bir fırıldaqçını – Ermənistanı ələ almaq istədi. Ermənistan isə oyunçuya aldanmayacağını nümayiş etdirmək üçün diş qıcadı.

Ərdoğan hakimiyyəti humanizm oyunu ilə Türkiyəni gülünc duruma salır. Onun "kürd açılımı" və "Erməni açılımı" layihələrinin cəfəng olduğu sübut olundu. Bu layihələri irəli sürmək ya dünya Güclərinin Türkə qarşı niyyətlərini dərk eləməməkdir, ya da həmin Güclərin Türkə qarşı niyyətlərinə dolayısı ilə xidmət etməkdir. Çoxdan sübut olunubdur ki, Qərb və Rusiya Ermənini Türkdən qoruyur. "Erməni açılımı" nə qədər uğurlu həll olunsa da, Türkün xeyrinə həll olunmaz. Ən yaxşı halda Rusiya ilə rəqabət aparan Qərbin xeyrinə həll olunar.

Bəli, Qərb və Rusiya Ermənini qoruyur. Çünki Erməni hansının əlində olsa, bölgədəki üstünlüyü artar. Bu baxımdan yanaşanda Türkiyənin "erməni açılımı" Qərbin üstünlüyünü təmin etmiş olar. Çünki Türkiyə Qərbin tabeliyində hərəkət edir. Türkiyə özü isə cəfəng erməni soyqırımı məsələsində sadəcə vaxt uda bilər. Türkə qarşı olan həmin Güclər türkün zərərinə olan planları heç vaxt axıra qədər ləğv eləmirlər – qısa müddətdə gündəlikdən çıxartsalar da. Yüz ildir bu fakt özünü göstərir. Türkə qarşı iddianın birini ləğv eləməmiş yeni iddialar ortaya gəlir. Sonra da yeni iddiaları kompensasiya eləmək tələbi irəli sürülür. Ona görə də fırıldaqçı ilə oyun oynamaq yox, ona qarşı güc nümayiş etdirmək gərəkdir. Ermənının dişini sındırmasan, hər addımda o sənə diş qıcayacaq. Bunun üçün isə Türkiyə dövlətinin başına oyunçu deyil, güclü siyasi xadim gəlməlidir.

Türkiyə hakimiyyətinin yürütdüyü "erməni açılımı" siyasəti Türkiyənin özünə qarşı yönəlir. Bunu zamanında görməyən hakimiyyət Türkiyəni hara aparıb çıxaracaq?! Sarkisyanla çiyin-çiyinə oturub futbol matçını seyr edən Abdulla Gül başqa nə gözləyirdi ki?! O, Sarkisyana qapı açmaq vəd edir, Sarkisyan isə ərazi iddiası irəli sürür. Qarabağda törətdiyi faciələrlə qürur duyan, zəbtçiliyi ilə öyünən Sarkisyandan adam kimi siyasət yürütmək umurlar. Bəs böyük bir dövlətin başına gələnlərin uzaqgörənliyi harda özünü göstərəcək?!





Erməni ilə humanizm dilində danışmaq iki cəhətdən mümkün deyil: Birinci, Erməni güc görməyincə quyruğunu qısan deyil. Onun başı əzilməlidir. Bunun başqa yolu yoxdur. İkinci, siyasi mənada ermənının öz varlığı yoxdur. Onu nə qədər qılıqlasan da heç nə alınmaz. Ermənini qabağa itələyənlər var. O, qabağa itələndikcə daha çox şey istəyir. Ona görə də onu qabağa itələyənlərin özünə dərs vermək lazımdır. Sübut etməlisən ki, sənin dövlətin Türkün varlığını, ləyaqətini qorumağa qadirdir. Bugünkü Türkiyə hakimiyyəti sərt və qəti addım atmaqdan ona görə çəkinir ki, Qərb tərəfindən hakimiyyətin dəyişdirilə bilməsindən qorxur. Türk göründüyü kimi aciz və yalın deyil axı!

*29 Od Ayı, 33- il*
*(iyul, 2011)*

## TÜRKLÜK TƏRƏQQİNİN ÖLÇÜSÜDÜR

Ötən yüzilin 90-illərində geniş yayılmış bir şüar var idi: – XXI yüzil türk yüzili olacaq. Bu söz ictimai həyatda yeriməkdən daha çox dəbləşməyə uğradı (dəbləşən nə varsa köhnəlib aradan gedir). Bunun da səbəbi bəllidir. Mixail Qorbaçovun Sovetlər Birliyində hakimiyyətə gəlişindən sonra Batı siyasətinin bu Birliyi dağıtmaq planları öz işini görməyə başlamışdı. Hər kəs hesab edirdi ki, Sovetlər Birliyi dağılandan sonra onun əsarətində olan türk respublikaları bağımsızlıq əldə edəcək, bununla da Türk Birliyi labüd şəkildə inkişaf edəcək. Ancaq bu gün bu fikri əsaslandırmaq heç də mümkün deyil. Artıq XXI yüzilin türk yüzili olduğunu, yaxud olacağını dilə gətirənlər də yoxdur. Çünki Sovetlər Birliyi türk toplumlarının bağımsızlıq uğrunda apardıqları mübarizə nəticəsində dağılmadı. İmperialist güclərin iqtisadi və siyasi anlamda genişlənmək istəklərinin gerçəkləşməsi nəticəsində dağıldı. Dünya üzərində ağalığını genişləndirən qüvvələr də özlərinə mane olan bir “Birliyi” dağıdıb, yerində başqa “Birliyin” yaranmasına göz yuma bilməzlər axı. Ona görə də bağımsızlıq əldə edən türk ölkələrinin içərisində başqa meyillərə təkan verildi. Baxın, millətçilik kimi konseptual bir dəyəri necə gözdən salıb sıradan çıxartdılar. İndi millətçilikdən danışan az sayda insanlara gerilikçi, konservativ baxışların daşıyıcısı kimi baxırlar. Türklüyü dilə gətirəndə deyirlər bunun vaxtı keçib, indi demokratikləşmə – kürəselləşmə zamanıdır. Ancaq islamlaşmaya meyil edənlərə də mane olmurlar. Məntiq isə odur ki, bu millət islamlaşa da bilər, kürəselləşə də, ancaq türkləşə bilməz. Dərhal əsaslandırırlar da, – “kürəselləşmə başqa şeydir. Burada yeni texnologiyaların işləməsi var. Bundan qıraqda qalmaq olmaz. İslam isə inancdır, onu da danmaq olmaz” və s. Məsələ burasındadır ki, bu məntiqi öz soydaşlarımıza dedizdirirlər. Deməli, nə olursan ol, özün olma.

Dinin etkisiylə içimizə yeriyən qüvvələr (əsasən İran) həmişə “din əldən getdi” deyə həşir saldırır. Sadəlövh soydaşlarımız da buna inanırlar. Əslində isə din əldən getmir, etnik kimliyimiz əldən gedir. Biz etnik keyfiyyətlərimizi itiririk. Din min ildir necə var elə də davam edir: namaz qılan namazını qılır, oruc tutan orucunu tutur, molla ölünü od bahasına kəfənə bükür, “qara toyuğunu” alıb duasını yazır və b.k. Ancaq





biz həmişə milli kimliyimizə üz tutmaq istəyəndə, “din əldən getdi” həşiri salırlar. Bununla da çabalarımızın yönü dəyişir, biz yenə də simasız müsəlman oluruq, millət ola bilmirik. “Din əldən getdi” çağırışı isə heç də mənəviyyat, vicdan, ədalət əldən getdi anlamına gəlmir. “Mövhumatçılıq qaydaları icra olunmadı” anlamına gəlir. Müsəlmanlaşdırmanın heç bir dönəmində din vicdana, ədalətə, həqiqətə bərabər yaşam hadisəsi olmayıb. Olsaydı, bütün zamanlarda türklüyü sıxışdırıb üstündən xətt çəkməzdilər. Olsaydı, Babəki amansızcasına doğrayanda qışqırmalıydılar ki, din əldən getdi; olsaydı, Nəsiminin dərisini soyanda qışqırmalıydılar ki, din əldən getdi; olsaydı, bu gün milyonlarla türkün haqqı İranda ayaqlandıqca qışqırmalıdırlar ki, din əldən getdi…

Ölkəmiz avropalaşır, bu yandan İran həşir saldırır ki, din əldən getdi. Həşir salanlara da ən böyük örnək Nardaran kəndinin özbaşınalığı. Avropalaşmaqla özünəməxsus mədəniyyətimiz, milli gələnək və görənəklərimiz sıxışdırılır, buna görə millət əldən getdi demirlər, din əldən getdi deyirlər. Məsələ aydındır, – İranın üzərimizdə etkisini Avropaçılıq sıxışdırır. Biz milliliyimizin zədə götürməsindən ağrımırıq, “klassik yağı”mızın yeni yağıyla əvəzlənməsindən ağrıyırıq. Çox əcayib oyuna düşmüşük.

Avropaçılığın qarşısında müsəlmanlığı qoruma var, türklüyün qeydinə qalan yoxdur. Halbuki etnik anlamını itirən xalqın ruhani varlığı bilinməz. İşin düşündürücü cəhəti odur ki, toplumda dini hiss milli hissdən dərindədir. Toplum varlığının dərinliyində – özülündə yanılıb, yəni özgələşib. Ona görə də dirçələ bilmir. Bizə görə Türklük özündə dərin bəşəri dəyərlər daşıyır. Bu millətdə olan keyfiyyətlər İnsanlığın əbədi örnəyidir. Başqa cür desək, ***Türklük Tərəqqinin ölçüsüdür***. Asif Ata bu millətin özüldə sarsıldığını anladır və böyük dəyişikliyi məhz özüldən başlayır. İnam həqiqətləşməlidir, saflaşmalıdır. İnamda millilik bərpa olunmalı və ***Millətləşmə Hərəkata çevrilməlidir***. Millət öz qüdrətinə dayanmaqla üzərindəki basqıları aradan qaldırmalıdır. Var olmanın meyarı İçdən Yaranmadır!

Təəssüf ki, bu cür sorunlarımız doğru araşdırılmır. Milli varlığımızın anlamı dini, yaxud kürəsəl etkilərlə kölgələnir. Ona görə sağlam düşüncəli aydınlar Türklüyün üzərində vurğu etməli, onun bütün incəliklərini aydınlaşdırmalı və Türk Ulusunun yaşamına qaytarmalıdır.

## TƏRƏQQİ DƏYİŞMƏZLİKDƏN YARANIR

İnsan təcriddə yaşaya bilmədi, toplum yaratdı. Birgə yaşayışı tənzimləmək üçün axtarışlar elədi. Dövlət də bu axtarışlar nəticəsində yarandı. Dövlətin özünün yaranması başqa tələblər də ortaya çıxartdı. İctimai həyatı nizamda saxlamaq üçün qaydalara, qanunlara ehtiyac özünü göstərdi. Bu məsələdə dinin (inancın) xeyli rolu oldu. Din öz qaydalarını sundu. Ancaq bu qaydaları bütünlüklə ehkama (doqmaya) çevirdi. Müəyyən toxunulmaz qurallar ola bilər, olmalıdır. Hər bir qaydanın ehkamlaşması isə ziddiyyətlər ortaya çıxardı. Bu da özünü nədə göstərir?! Təbii ki, həyat durmadan inkişaf edir. Dinin qaydaları isə yerində qalır. Ona görə bu qurallar toplumun inkişafı qarşısında ibtidai çəkiyə malik olur. Ümumən, ali inkişafa yaramayan qurallar ictimai həyatda müsbət təsir göstərmir, əngələ çevrilir. Buna görə elm dövlətin idarəetməsində, tənzimləməsində getdikcə özəl etkiyə çevrilir. Ancaq elm insanlararası münasibəti, eləcə də ictimai inkişafı tənzimləmək iqtidarında deyil. Əslində bu, elmin işi də deyil. Elm inkişafın texniki, iqtisadi tərəflərini təmin edir. Münasibətlər məsələsində isə inanc və fəlsəfə daha çox rol oynayır. Vurğuladıq ki, inanc işi dinin inkişafa əngəl olan ehkamları ilə sıradan çıxarılıb. Ənənəvi fəlsəfənin də meyarı dəyişkəndir. Onun yaratdığı qurallar müəyyən bir dövrü əhatə edir. Tərəqqi isə dövrü aşan meyarların ortaya çıxmasını tələb edir. Məsələn, marksist fəlsəfənin sosial yönü sonrakıların sosial yönü tərəfindən sıxışdırılıb rədd edildi (baxmayaraq, onların heç birinin nəzəri işi tam aradan getmir. Sadəcə həlledici təsirləri aradan qalxır).

Bəs necə olsun, sabit qurallar yoxdurmu, olmalı deyilmi?! Bir fəlsəfə, bir Dünyabaxış da Asif Ata ortaya qoyub. Bizə də israrla öyrədib ki, Onun meyarı bənzərsizdir və həmişəlikdir. Biz də bunun üzərində vurğu edirik. Bəs Asif Atanın baxışına toxunulmazlıq statusu veriləndə dinin ehkamları kimi tərəqqiyə əngəl törətməzmi? Biz hesab edirik ki, Tərəqqini təkanlaşdıran məsələlər keyfiyyət baxımından əsaslı öyrənilməlidir. Konservatizm inkişaf demək olmadığı kimi, dəyişkənlik də inkişaf demək deyil. Dəyişkənlik ziddiyyət doğuran əlamətdir. Ziddiyyət də əsasən tənəzzülə səbəb olur. Dəyişiklik isə tərəqqidən





doğan xassədir. Əlbəttə, burada müsbət dəyişiklik ifadə olunur. Bir sözlə, dəyişikliklə dəyişkənlik eyni məna daşımır.

Ancaq dəyişikliyi də doğuran səbəb var. Dəyişkənliyi konservatizm doğurduğu kimi, dəyişikliyi də dəyişməzlik doğurur... Bu haqda bir az sonra. Bir var anayasa, bir də var qanunvericilik. Adətən anayasa bir dəfə qəbul olunur. Çox nadir hallarda onun maddələrinə müdaxilə edilir, əsasən toxunulmazdır. Qanunvericilikdə isə sosial durumun tələblərinə uyğun dəyişikliklər edilir. Yəni ictimai, siyasi məsələlər tənzimlənir. Ruhani qurallarla ictimai qaydaları da anayasa və qanunvericilik fərqi kimi izah etmək olar. Ruhani qurallar təməl prinsiplər olmaq etibarilə dəyişmir, toxunulmazdır (vurğuladığımız ruhani sözü dini anlam daşımır). Çünki insani münasibətlər ruhani qurallar üzərində qurulur. Burada Azadlıq, Ədalət, Həqiqət bütöv mənasıyla dərk olunur. Azadlıq, Ədalət, Həqiqət ictimai tərəqqinin meyarıdır. Bu, bütöv olmalıdır, dəyişiklik olmamalıdır. Bu, Allahlıq məsələsidir. Buraya müdaxilə kökündən səhvdir.

Ruhani qurallar ictimai qaydaları insaniləşdirir. İnsanlaşma olmadan ictimai, siyasi nizam mümkün deyil. İnsanın şüurlu həyata başlamasından etibarən öz mahiyyətinə can atması əsaslı məsələdir. Ona görə tərəqqinin ölçüsü İnam əsasında yaşamaq olmalıdır. Bu olmayanda tərəqqinin sükanı bütünlüklə siyasətin əlində olur. Siyasət isə təbəqələr və mənafelər doğuran gedişatdır...

Bu deyilənlərdən belə görünə bilər ki, həyatda müəyyən ehkamların olması qaçılmazdır. Yuxarıda isə vurğuladıq ki, dinin ehkamları tərəqqiyə cavab vermir və ibtidai etkiyə malik olur. Biz öz dediklərimizi inkar etmirik. Ruhani qaydaların dəyişməzliyi dinin ehkamı anlamına gəlmir. Həm də din təkcə "anayasa"nın deyil, "qanunvericiliyin" toxunulmazlığını elan edir. Başqa sözlə, ictimai quruluşun növünə aid ortaya qoyduğu qaydaları toxunulmaz sayır. Məsələn, Feodalizm quruluşu üçün səciyyəvi olan qaydalarını bu gün də ölçü olaraq saxlayır. Bununla da ictimai şüurun inkişafına əngəl yaradır. Hələ demirik ki, dinin təməl prinsipləri (anayasası) də feodalizm şüurunun səviyyəsindən qabağa getmir. Mələklərə inanan cəmiyyətdə Azadlığın mənası dərk olunmaz. Huri-pəri məclisinə küsənənin həqiqəti ictimai ölçü ola bilməz və b. k.

Bəs qaçılmaz ehkam varmı, o, nədir? Deyirlər hər şey dəyişilir, dəyişilməyən heç nə yoxdur. Əslində isə, bizə görə, Dəyişməzlik adlı

həqiqət var. Təəssüf ki, Dəyişməzlik ehkam kimi dərk olunur və toxunulmaz olan qaydaları aradan qaldırıb yalançı inkişaf xatirinə dəyişkənlik prosesini təmin edirlər. Bununla da yerə-göyə sığmayan bir anarxiya, özbaşınalıq yaranır. Çünki azadlığın mənası da dəyişilir. Cəmiyyət azadlığı hüquqi norma kimi dərk edir. Əslində isə azadlıq hüquqi deyil, ruhani anlayışdır.

Anarxiya yaradan "azad cəmiyyət" sürüləşməyə gedən cəmiyyətdir. Dövlət də sürü psixologiyasına uyğun davranır və hüquq normaları tərtibləyir. Bununla cəmiyyəti idarə edir. Beləliklə "ehkam" (əslində Dəyişməzlik) tanımayan hüquqi cəmiyyət idarəolunma ehkamı ilə üz-üzə qalır – sürüləşmə və idarəolunma. Azadlıq daxili keyfiyyət kimi deyil, hüquqi norma kimi qəbul olunanda cəmiyyətin mənəvi həyatı alt-üst olur. Beləliklə, xalqın özünü mənəvi, əxlaqi cəhətdən idarəetməsi "sürünün idarəolunması" ilə əvəz olunanda dövlət anlayışı da iflic olur. Dövlət xilaskarlıq məzmununu itirir, zor aparatına çevrilir. Zor isə mənəvi keyfiyyətləri daha da aşılayıb sıradan çıxarır. Bu səbəbdən də, dəyişilən və dəyişilməyən məsələləri doğru qiymətləndirmək və dərk etmək gərəkdir. Deməli, "qaçılmaz ehkam" kimi görünən məsələ də əslində Dəyişməz olandır. Bizim əbədi can atdığımız, ancaq əldə edə bilmədiyimiz Azadlıq, Ədalət, Həqiqət dəyişilməyən idealdır. Gerçəkliyin azadlığı, ədaləti, həqiqəti ilə heç vaxt barışmırıq, çünki dəyişiləndir, nisbidir. Bütövə, Dəyişməzə can atırıq. Tərəqqinin də ölçüsü Bütövlükdür, Dəyişilməzlikdir.





## GƏNCLİYİN GƏLƏCƏYİ

Millət necə oluşur, ictimai inkişaf necə baş verir, ədalət necə özünü göstərir? Bu suallara fərqli yönlərdən cavablar vermək olar. Biz deyirik, xalqın ruhaniyyatı olmalıdır, İnsani mühit yaranmalı, İnsani qanunlar işləməlidir. Əlbəttə, bu yarananları həyata keçirmək üçün Milli Dövlətin varlığı gərəkdir. Dövləti bu məsuliyyətə yönəldən isə, yenə də təbii ki, xalqın İnsani səviyyəsidir. Deməli, xalq öz insani mahiyyətinə bərabər yaşamayanda dövləti də ona xidmət eləmir, yaxud dövlət milli xassələrini itirir. Dövlətin milli xassələrini itirməsi o deməkdir ki, o, milləti qorumur, ədalət bərqərar olunmur və ictimai inkişaf əvəzinə ictimai anarxiya baş verir. Bu məsələlərə doğru yanaşmayanda yaşanan çətinliklərin nədəni də doğru bilinmir. Bu səbəbdən də Millətçilik ideyasına bu açıdan yanaşmaq gərəkdir. Belə olarsa, onun önəmi gərəyincə dərk oluna bilər. Bəzən elə hesab edirlər ki, Millətçilik ideyası hansısa bir mərhələdə gərəkdir, ondan sonra isə başqa mərhələlər başlamalıdır. Əslində isə Millətçilik – millətin daim içdən qurulması və inkişaf eləməsi üçün mərhələ ideyası deyil, gələcəkli ideyadır. Bəlkə də millətin formalaşmasını mərhələlərə bağlamaq olar, ancaq millətin inkişafı hansısa mərhələlərlə məhdudlaşa bilməz. Nə qədər ki, İnsani Tələblərlə Millətçilik ideyası yaşadılmayacaq, heç Bəşərilik ideyası da baş tutmayacaq. Millətçilik əslində Bəşərilik deməkdir. Bəşərilik – inkişaf etmiş Millətçilikdir. Bəşəriyyət – milli-mənəvi dəyərlərlə inkişaf etmiş millətlərin vəhdəti deməkdir. Ancaq mövcud siyasi, dini doktrinalar Millətçiliyə qarşıdır, yəni Bəşəriliyə qarşıdır. Millətçiliyini itirən xalq dövlətçiliyini də itirir, gələcəyini də. Bizim xalqımız bu qəbildəndir. Dövlətimiz həm var, həm yoxdur. Formal idarəçiliyə görə var, ancaq daxili-mənəvi keyfiyyətlərinə görə yoxdur. Dövlətin milliliyi iki cəhətdə özünü aşkarlayır: – birinci, dövlətin aparıcı simalarının etnik tərkibinin milliliyə bağlı olmasıyla, ikincisi, dövlətin xarakterik olaraq milli inkişafın yetirilməsində və qabağa aparılmasında başlıca rol oynamasıyla. Bəs milli inkişaf nə deməkdir?! Millətin Gələcəyə Yolunun öz içindən başlaması; öz içində qurulması, etnik keyfiyyətlərini, insani mahiyyətini qatqısız olaraq aşkarlayıb üzə

çıxartması və ifadə etməsi; yaşamaq ölçüsünü öz etnik xüsusiyyətləri əsasında tapması. Bunun üçün yeni nəsillərə yaradıcılıq imkanları yaratmaq və özünü doğrultmaq üçün zəmin hazırlamaq gərəkdir. Ancaq təəssüf ki, bu yöndə gənclik üçün demək olar ki, heç bir imkan yaradılmır. Gəncliyin bir qismi qul psixologiyası əsasında hakimiyyətin dayaqları kimi tərtiblənir və idarə olunur. Başqa bir qismi isə bütün arzularında boğulub qıraqda saxlanılır. Qıraqda saxlananlar da öz azadlığı və haqqı uğrunda mübarizəyə qalxır. Mübariz gənclik təcrübəli, peşəkar və yetgin olmadığına görə ya qıraq qüvvələr tərəfindən ələ alınıb zərərli yöndə idarə olunurlar, ya da ədalətsizliyə qarşı nifrət onları qisasçılığa, dağıdıcılığa yönəldir. İstənilən halda, dövlət öz gəncliyinə qarşı məsuliyyət daşıyır. Yəni Gəncliyin zərərli əməllərinin baiskarı dövlətdir. Dövlət öz gəncliyinə sahib durmayanda başqaları sahib durur və dağıdıcı qüvvəyə çevirir. Vəhhabiliyə, eləcə də başqa sektalara, siyasi cərəyanlara aldanan gəncliyi misal göstərmək olar… Təbii ki, söhbət aktiv gəncliyin əməllərinə münasibətdən gedir. Təsadüfi fərdlərin oğurluğu, cinayəti, ictimai nizama ziyan vurması ayrı bir məsələdir. Ancaq nə yazıqlar ki, dövlət, daha doğrusu hakimiyyət aktiv gəncliyin enerjisini milli inkişafa yönəltmək əvəzinə, onları vurub sıradan çıxarır. Özünün qanunsuz varlığına və antimilli əməllərinə aydınlıq gəlməsinin qarşısını hər vasitə ilə alır. Fərdi azadlığın baş tutmaması üçün bu istəkdə bulunanları ləkələmək, böhtanlamaq, həbs eləmək adi normaya çevrilib. Gəncliyə qarşı belə bir cinayəti işləmək təkcə millətin təməlini uçurmaq deyil, bütövlükdə bəşəriyyətə qarşı durmaqdır. Cinayətlərin ünvanını dəyişirlər, günahsız insanlara qarşı yönəldirlər və buna qanunla haqq qazandırırlar. Bu cinayətlər hakimiyyəti qorumaq üçün işlədilir. Cinayət millətə qarşı yönəlir, millət qəhr olunur. Hakimiyyət xalqın içində hər cür kriminal əməllərə gedə bilir, terror törədir. Ancaq bu cinayəti təkcə işləmir, toplumun müəyyən bir kəsimi ilə birlikdə həyata keçirir. Aşağı-yuxarı vəzifə tutmuş zümrələr vəzifəyə, şöhrətə, varidata, yaxud bir tikə çörəyə görə hakimiyyətin xalqa qarşı törətdiyi qanlı əməllərə ortaq olurlar. Ən yaxşı halda göz yumurlar…

Buna görə biz dönə-dönə vurğu edirik: – Demokratiya şüarları ilə tükənmək əvəzinə Millətçilik Ləyaqətini bərpa eləmək və toparlanıb ayağa qalxmaq gərəkdir.





## SON SÖZ

İstəkli oxucu!

Bu kitabın üçüncü qovluğunda biz bir sıra mətləbləri təkrar-təkrar vurğu etmişik. Məqsəd, diqqəti milli varlığımızı təhdid edən məqamlara yönəltməkdir. Çox hallarda taktik sayılan məsələləri dilə gətirməmişik. Çünki Milli məsələnin sorunu taktik səbəblərə deyil, köklü səbəblərə dayanır. Korrupsiya, rüşvətxorluq üzdəki məsələlərdir, səbəb isə daha dərindədir. Yəni etnik mahiyyətimizdən ayrılmağımız, dərin dəyərlərimizə sahib çıxmamağımız, yeni milli dəyərlər yaratmamağımız, konservativ baxışlara pərçimlənməyimiz üzdəki sorunlarımızı doğuran səbəblərdir.

Yazılardan görünür ki, biz siyasi məsələlərə politoloji, siyasi deyil, ruhani qiymət veririk. Politoloji və siyasi münasibət taktiki münasibətdir, ruhani münasibət strateji... Başqa bir cəhət ondadır ki, Batıçılığa, Avropaçılığa qarşı davamlı mövqe sərgilənir. Biz Batı, Avropa xalqlarının əleyhinə deyilik, bəşəriyyəti də hissələrə bölmürük. Biz həmin bölgələrin siyasi anarxizminə və dağıdıcılığına qarşıyıq.

Yükümüzdən Böyük Fərəhimiz Yoxdur!
Atamız var olsun!

## İÇƏRİSİ

Ön söz yerinə ................ 4
**Asif Ata Amalı yaxud İnsanlığın İnamı** ................ 5
*Atalığın başlaması və yeni gərginliklər* ................ 9
*Asif Ata Amalı* ................ 10
*Ruhani İntibah (Dirçəliş)* ................ 15
*Mütləqə İnam Ocağının iç Kuralları (Qaydaları) və Yaşam tərzi* ................ 20
**Təməl Prinsiplərdə Yalan olmamalıdır** ................ 24
*I. Yazının yazılma səbəbi – giriş sözü* ................ 24
*II.İnsanı qorxutmaq yox, inandırmaq gərəkdir* ................ 27
*III.Daxilində xurafat bəsləyib, həqiqətə inandırmaq olmaz* ................ 34
*IV.Xurafatdan xurafata yox, xurafatdan Həqiqətə* ................ 36
*V.Mütləqə inam yalansızdır* ................ 38
**İnamın bilinmə mərhələləri** ................ 42
*İnamın yaranma zərurəti* ................ 42
*Xalq biganəlikdən çıxıb düşünə bilirsə, özünütəsdiq imkanları aşkarlanır* ................ 46
*Ağıllar böyüyüb ürəklər durulduqca İnamın gərəkliyi dərk olunacaq* ................ 51
*Xalq Yeni İnamla Ruhani Dirçəlişə qərq ola bilər* ................ 55
**Mütləqə İnam Ruhaniyyatı** ................ 58
**Evladlıq Atalığın davamıdır** ................ 70
**Mərasimimiz – Mütləqlə Görüş çağımız** ................ 77
**Xalqlaşma səfərlərimiz** ................ 79
**Üç oğluma məktub** ................ 81
**İnsana Doğru** ................ 92
*Fərd və Kütlə* ................ 92
*Din və Azadlıq* ................ 94
*Din və Mədəniyyət* ................ 97





*Din və Gerçəklik* ................ 102
*Mədəniyyət və Azadlıq* ................ 105
*Din və Dövlət* ................ 108
*İnamçılıq Tələbi* ................ 110
**Din – İnam** ................ 113
**Din İnamsızlığı** ................ 118
**Həqiqətlər** ................ 120
**İnsan Yönü** ................ 123
**Gerçəklikdən üstün** ................ 125
**Fəaliyyət Müqəddəsliyi** ................ 127

**II Qovluq**
**Fəlakət Düyünü** ................ 130
**Həyat üfüqləri** ................ 154
**İnamsızlıq Şəri** ................ 189
**İnam əsasında yaşamaq özünü yaratmaq deməkdir** ................ 198
**Narahat taleyin ümid axtarışı** ................ 205
**Yurdçuluğa qayıdış** ................ 210
**Duyğuların Sarvanı** ................ 214
*Poeziya ruhun harayıdır* ................ 216
**Aşıq sənətinin Kamandar ecazı** ................ 219
**Türkcəmizin poeziya ruhu** ................ 221
**Varlığımızın Folklor İşığı** ................ 223
**İmkansızlığın doğurduğu təsəlli** ................ 226
**Nitşenin "Hakimiyyət əzmi" üstə** ................ 234

**III Qovluq**
**Ulus və onun Azadlığı** ................ 238
**Yeni "Maarifçiliyin" Millilik problemi** ................ 242
**Millətçilik Azadlığa aparan prosesdir** ................ 245
**Milli Azadlıq Millətçiliyi Hərəkata çevirməkdən keçir** ................ 250
**Özündə qurulma** ................ 252
**Demokratik anarxiyanın Şərqi və Milli hüdudları** ................ 254
**Qanlı muxtariyyat, yaxud terrorizm azadlığı** ................ 261

**Demokratiya dünyanı yeyəcək ............ 263**
**Qloballaşmanın qlobal dağıdıcılığı ............ 268**
**Kürəsəlləşmədən üstün ............ 271**
**Qlobalçılıq oyunu ............ 273**
**Qərbçiliyə qarşı Dirəniş Hərəkatı yaranmalıdır ............ 275**
**Siyasi müstəqillik qayğıları ............ 278**
**Var olmağın ayılmaq tələbi ............ 281**
**Azərbaycan Təhlükələrlə qonşudur ............ 284**
**Azərbaycanda dini gedişləri İran siyasəti nizamlayır ............ 287**
**İrançılıq Qərbdən başlayıb ............ 290**
**Babəkin edamının ildönümü qarşısında ............ 292**
**Siyasi dərdimiz – Uluyurd Hərəkatı ............ 295**
**Türkçülük və Güney Azərbaycan ............ 298**
**İdeologiyaya çevrilən cəhalət ............ 300**
**Məna Gücümüz Milli Dirəniş üçün Özüldür ............ 303**
**Mütləq hakimiyyətçilik eybəcərliyi ............ 306**
**Özünəyadlaşmanın tarixi səbəbi ............ 309**
**Dərd bölünəndə sağalmır ............ 312**
**Ruhani Dirçəliş Zərurəti ............ 315**
**Qaranlıqlar Yarılsın ............ 318**
**Yatırıcılıq məngənəsi ............ 323**
**Siyasi Dünyanın erməlisi ............ 325**
**Borçalı Vətəndir, Vətənlə oynamaq olmaz ............ 327**
**Unutqanlıq fəlakəti ............ 330**
**Siyasətin böyük dağıdıcılıq addımları ............ 332**
**Ayıltmalar ............ 337**
**İnsansızlıq dərdi ............ 342**
**Azadlığımız Haqqımızdır ............ 346**
**Mübarizə İdrak işidir ............ 349**
**Türkün Azadlıq yolu ............ 352**
**Bosna-Hersek Bizim Ocaq Törəninə uğurlama ............ 354**
**Qibləmiz – Türk Birliyi ............ 356**
**Türkçülük Əqidəyə çevrilməlidir ............ 361**
**Balacalığın Gücə qarşı "İroniyası" ............ 365**





**Türklük Tərəqqinin Ölçüsüdür ............ 367**
**Tərəqqi Dəyişməzlikdən yaranır ............ 369**
**Gəncliyin gələcəyi ............ 372**
**Son Söz ............ 374**

Soylu Atalı
(Talıblı Zülfüqar Qara oğlu)

**İnsanlığın İnam Yolu**
(Mütləqə İnam Yönündən Araşdırmalar, İzharlar, Haraylar)

(Türk dilində)

Əlaqə üçün telefon: (055) 565 36 97
(051) 585 56 97
E-mail: www.asifataocagi.com





«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: ***Zahid Məmmədov***
Texniki redaktor: ***Rövşanə Nizamiqızı***

Yığılmağa verilmiş **14.10.2013**
Çapa imzalanmış **16.11.2013**
Şərti çap vərəqi **23,7.** Sifariş **№ 578**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

**Kitab** «Elm və təhsil» **nəşriyyat-poliqrafiya**
**müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.**
E-mail: *nurlan1959@gmail.com*
**Tel: 497-16-32; 050-311-41-89**
**Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.**